# AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

**BAKI BİZNES UNİVERSİTETİ**

**Ümummilli Lider Heydər Əliyevin anadan olmasının**
**101-ci ildönümünə həsr edilmiş**

**"Yaşıl iqtisadiyyat davamlı inkişafın modeli kimi" mövzusunda**

**Beynəlxalq elmi-praktiki konfransın materialları**

**Azərbaycan, Bakı, 24 aprel, 2024-cü il**

***

**MINISTRY OF SCIENCE AND EDUCATION OF THE REPUBLIC OF AZERBAIJAN**

**BAKU BUSINESS UNIVERSITY**

**Proceedings of the International Scientific-Practical Conference Dedicated to the 101st Anniversary of the Birth of Nationwide Leader Heydar Aliyev**

**"Green Economy as a Model of Sustainable Development"**

**Azerbaijan, Baku, April 24, 2024**

***

**МИНИСТЕРСТВО НАУКИ И ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКИЙ УНИВЕРСИТЕТ БИЗНЕСА**

**Материалы международной научно-практической конференции, посвященной 101-летию со дня рождения Общенационального Лидера Гейдара Алиева**

**"Зеленая экономика как модель устойчивого развития"**

**Азербайджан, Баку, 24 Апреля, 2024**

**Redaktor**: İbad Abbasov, iqtisad elmləri doktoru, professor

**Tərtib edənlər:** Sabir Əmirxanov, professor

Məleykə Abbasova, hüquq üzrə fəlsəfə doktoru

**Editor:** Ibad Abbasov, D.Sc. (Econ.), Professor

**Compilers:** Sabir Amirkhanov, Professor

Maleyka Abbasova, Ph.D. in Law

**Редактор:** Ибад Аббасов, доктор экономических наук, профессор

**Составили:** Сабир Амирханов, профессор

Малейка Аббасова, доктор философии по праву

"**Yaşıl iqtisadiyyat davamlı inkişafın modeli kimi**". - Beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı, 2024-cü il, 602 səh.

"**Green Economy As a Model of Sustainable Development**". - Proceedings of the International Scientific – Practical Conference. Baku, 2024, 602 p.

"**Зеленая экономика как модель устойчивого развития**". – Материалы международной научно-практической конференции. Баку, 2024, 602 стр.

**ISBN**
**978-9952-8455-7-0**

**©"Bakı Biznes Universiteti" nəşriyyatı, 2024.**
**©"Baku Business University" Press, 2024.**
**© Изд-во "Бакинский Университет Бизнеса", 2024.**

## Konfransın təşkilat komitəsi

**Sədr:**
**İbad Abbasov,** iqtisad elmləri doktoru, professor – Bakı Biznes Universitetinin rektoru

**Sədr müavinləri:**
**Məleykə Abbasova**, hüquq üzrə fəlsəfə doktoru - Bakı Biznes Universitetinin Elmi işlər üzrə prorektoru

**Eşqin Bayramov,** iqtisad üzrə fəlsəfə doktoru – Bakı Biznes Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru

**Cavidan Heydarov -** Bakı Biznes Universitetinin Təlim-Tərbiyə işləri üzrə prorektoru

**Üzvlər:**
**Mahir Səbzəliyev,** riyaziyyat elmləri doktoru, professor - Bakı Biznes Universiteti, Azərbaycan

**Tomas Tomidis,** professor - Beynəlxalq Helenik Universiteti, Yunanıstan

**Nomeda Qudeliene,** elmlər doktoru, Dayanıqlı inkişaf üzrə prorektorun müşaviri - Mikolas Romeris Universiteti, Litva

**Viktor Kordas –** Kral Texnologiya Universiteti, İsveç

**Kristofer Terrase,** Beynəlxalq layihələr üzrə direktor - Menecmentin İnkişafı üzrə Avropa Fondu (EFMD), Belçika

**Nigar Axundova,** tarix elmləri namizədi, dosent – Bakı Biznes Universiteti, Azərbaycan

## Organizing Committee of the Conference

**Chairman:**

**Ibad Abbasov,** D.Sc. (Econ.), Prof. - Rector of Baku Business University

**Vice-Chairmen:**

**Maleyka Abbasova,** Ph.D. (Law) – Vice-rector for Scientific Affairs of Baku Business University

**Eshgin Bayramov,** Ph.D. (Econ.) – Vice-rector for International Affairs of Baku Business University

**Javidan Heydarov -** Vice-rector for Student Affairs of Baku Business University

**Members:**

**Makhir Sabzaliyev,** D.Sc. (Math.), Prof. - Baku Business University, Azerbaijan

**Thomas Thomidis,** Dr., Professor - International Hellenic University, Greece

**Nomeda Gudeliene,** Dr., Advisor to Deputy Rector on Sustainable Development - Mykolas Romeris University, Lithuania

**Victor Kordas** - KTH Royal Technological University, Sweden

**Christopher Terrase,** Director of International Projects - European Foundation for Management Development (EFMD), Belgium

**Nigar Akhundova,** Ph.D. (Hist.), Associate Professor – Baku Business University, Azerbaijan, Baku

## Организационный комитет

**Председатель:**
**Ибад Аббасов,** доктор экономических наук, профессор – ректор Бакинского Университета Бизнеса

**Заместители председателя:**
**Малейка Аббасова,** доктор философии по праву – проректор по Научной части Бакинского Университета Бизнеса

**Эшгин Байрамов,** доктор философии по экономике – проректор по Международным связям Бакинского Университета Бизнеса

**Джавидан Гейдаров -** проректор по Работе со студентами Бакинского Университета Бизнеса

**Члены комитета:**
**Махир Сабзалиев,** доктор математических наук, профессор – Бакинский Университет Бизнеса, Азербайджан

**Томас Томидис,** профессор - Международный Греческий Университет, Греция

**Номеда Гуделиене,** доктор наук, Советник проректора по вопросам Устойчивого развития – Университет имени Миколаса Ромериса, Литва

**Виктор Кордас** – Королевский Технологический Университет, Швеция

**Кристофер Террасе,** директор по Международным проектам – Европейский фонд по развитию менеджмента, Бельгия

**Нигяр Ахундова,** кандидат исторических наук, доцент – Бакинский Университет Бизнеса, Азербайджан

## Konfransın elm komitəsi

**İbad Abbasov,** iqtisad elmləri doktoru, professor - Bakı Biznes Universitetinin rektoru, Azərbaycan

**Ziyad Səmədzadə,** iqtisad elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü, Azərbaycan Respublikasının Milli Məclisinin deputatı, Azərbaycan

**Nazim Müzəffərli,** iqtisad elmləri doktoru, professor - Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun direktoru, Azərbaycan

**Bəyalı Ataşov,** iqtisad elmləri doktoru, professor, Əməkdar elm xadimi - Azərbaycan Kooperasiya Universitetinin Elm və innovasiyalar üzrə prorektoru, Azərbaycan

**Firdovsi Fikrətzadə,** iqtisad üzrə fəlsəfə doktoru - Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin yanında Aqrar Tədqiqatlar Mərkəzinin direktoru, Azərbaycan

**Qutyum Tatyana,** iqtisad elmləri doktoru, dosent - Milli İqtisadi Tədqiqatlar İnstitutu, İqtisadi Elmlər Akademiyası, Moldova

**Rahim Sadıqov,** iqtisad üzrə fəlsəfə doktoru, dosent - Bakı Biznes Universiteti, Azərbaycan

**Paulina Rutecka,** iqtisad elmləri namizədi - Katovitse İqtisad Universiteti, Polşa

## Scientific Committee of the Conference

**Ibad Abbasov,** D.Sc. (Econ.), Prof. - Rector of Baku Business University, Azerbaijan

**Ziyad Samadzadeh,** D.Sc. (Econ.), Prof., Active Member of the National Academy of Sciences of the Republic of Azerbaijan, the Deputy of Milli Mejlis of the Republic of Azerbaijan

**Nazim Muzaffarli,** D.Sc. (Econ.), Prof. - Director of the Institute of Economics of The Ministry of Science and Education of the Republic of Azerbaijan

**Bayali Atashov**, D.Sc. (Econ.), Prof., Honored Scientist - Vice-Rector for Science and Innovations of Azerbaijan Cooperation University

**Firdovsi Fikratzada,** Ph.D. (Econ.) - Director of Agrarian Research Center of The Ministry of Agriculture of the Republic of Azerbaijan

**Tatiana Gutium,** D.Sc. (Econ.), Associate Professor – National Institute for Economic Research, Academy of Economic Studies of Moldova, Moldova

**Rakhim Sadigov,** Ph.D. (Econ.), Associate Professor - Baku Business University, Azerbaijan

**Paulina Rutecka,** BEng., Ph.D. - University of Economics in Katowice, Poland

## Научный комитет конференции

**Ибад Аббасов**, доктор экономических наук, профессор - ректор Бакинского Университета Бизнеса, Азербайджан

**Зияд Самедзаде**, доктор экономических наук, профессор, действительный член НАН Азербайджана, Депутат Милли Меджлиса Азербайджанской Республики

**Назим Музаффарли**, доктор экономических наук, профессор - директор Института Экономики Министерства Науки и Образования Азербайджанской Республики

**Баялы Аташов**, доктор экономических наук, профессор, Заслуженный научный деятель - Проректор по науке и инновациям Азербайджанского Университета Кооперации

**Фирдовси Фикретзаде,** доктор философии по экономике - Директор Центра Аграрных Исследований Министерства Сельского Хозяйства Азербайджанской Республики

**Татьяна Гутиум**, доктор экономических наук, доцент – Национальный Институт Экономических Исследований, Академия Экономических Наук, Молдова

**Рахим Садыгов,** доктор философии по экономике, доцент - Бакинский Университет Бизнеса, Азербайджан

**Паулина Рутецка,** кандидат наук - Экономический Университет в Катовицах, Польша

*Abbasov İbad Musa oğlu,*
*iqtisad elmləri doktoru, professor,*
*Bakı Biznes Universitetinin rektoru*
*Email: rektor@bbu.edu.az*

# DAYANIQLI İNKİŞAFDA EKOLOJİ TARAZLIĞIN QORUNMASI

Dünyada gedən qlobal proseslər, beynəlxalq çağırışlara dair müasir tələblər yaşıl planetimizin qorunması və ekoloji tarazlığın saxlanılması üçün təxirəsalınmaz ən vacib tədbirlərin görülməsini zəruriləşdirir. Yaşıl dünya, yaşıl iqtisadiyyat, ekoloji təmiz həyat bu gün nüfuzlu qurumların çağırışlarının mərkəzində dayanan əsas məqamlardan biridir. Ona görə də konfransımızı günümüzün ən aktual məsələlərindən biri olan "Yaşıl iqtisadiyyat dayanıqlı inkişafın modeli kimi" mövzusuna həsr edirik. Konfransımız Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuşdur. Məqsədimiz ölkəmizdə yaşıl iqtisadiyyatın formalaşmasının istiqamətlərini və xüsusiyyətlərini təhlil edərək, milli strategiyalarımızın inkişafında beynəlxalq əməkdaşlığın intensivləşdirilməsi mexanizmlərini müəyyən etmək və qiymətləndirməkdir. Nəzərə almaq lazımdır ki, müzakirəmizdə bir sıra xarici ölkənin tanınmış yaradıcı alimləri, tədqiqatçıları və mütəxəssisləri ilə yanaşı, respublikamızın tanınmış alimləri və tədqiqatçılarının iştirak etməsi mövzunun aktuallığını bir qədər artırır.

Qeyd etmək lazımdır ki, qloballaşmanın və texnoloji inkişafın sürətlə baş verdiyi müasir dünyada dayanıqlı inkişafa nail olunma hər bir ölkə üçün başlıca prioritet olaraq çıxış etməkdədir. Yaşıl iqtisadiyyat və davamlı inkişaf arasındakı əlaqə isə olduqca sıx və dərindir. Yaşıl iqtisadiyyat ekoloji, iqtisadi və sosial mülahizələri bütün səviyyələrdə bir birilə inteqrasiya etməklə davamlı inkişafa nail olmaq üçün bir yol kimi çıxış edir. "Yaşıl iqtisadiyyat" anlayışı iqtisadi fəaliyyətləri necə qavradığımız və həyata keçirdiyimiz barəsində köklü dəyişiklikləri özündə ehtiva edir. Belə ki, yaşıl iqtisadiyyat insan rifahını və sosial ədaləti təmin edən və eyni zamanda ərtaf mühit risklərini kəskin azaldan iqtisadiyyat kimi müəyyən edilir. "Yaşıl iqtisadiyyat" ətraf mühitin uzunmüddətli korlanması hesabına qısamüddətli qazanclara üstünlük vermək əvəzinə, iqtisadi artımı ekoloji dayanıqlıqla uyğunlaşdırmağa çalışır desək yanılmarıq. Bu, iqtisadi rifah, sosial bərabərlik və ətraf mühitin qorunması arasında daxili əlaqəni təmin edən bir modeldir. Yaşıl iqtisadiyyatın mərkəzində dayanan ideya isə təbii ehtiyatlarımızın məhdud olmasının hamılıqla qəbul edilməsidir. Beləliklə, biz ənənəvi istehsal və istehlak modelindən tullantıları minimuma endirən və resurs səmərəliliyini maksimuma çatdıran daha davamlı yanaşmaya keçməliyik. Bu yanaşma, bərpa olunan enerji mənbələrinin tətbiqini, enerji səmərəliliyinin təşviqini və iqtisadiyyatın bütün sektorlarında ekoloji cəhətdən təmiz texnologiyaların tətbiqini nəzərdə tutur.

Nəzərə almaq lazımdır ki, yaşıl iqtisadiyyat təkcə ətraf mühitə zərərlərin azaldılmasından ibarət deyil, həm də inklüziv və ədalətli inkişafı təşviq etməkdir. Yaşıl texnologiyalara və infrastruktura sərmayə qoymaqla biz milyonlarla yeni iş yeri yarada bilərik. Eyni zamanda iqlim dəyişikliyi, çirklənmə və biomüxtəlifliyin itirilməsi kimi

aktual ekoloji problemlər də öz həllini tapa bilər. Bu, xüsusilə ətraf mühitin deqradasiyasının daha çox müşahidə edildiyi, təmiz hava, su və torpağa çıxışı olmayan təcrid olunmuş icmalara fayda verə bilər.

Bundan əlavə, yaşıl iqtisadiyyat innovasiya və sahibkarlıq üçün əhəmiyyətli imkanlar yarada bilər. Belə ki, davamlılıq-dayanıqlılıq təcrübələrini və yaşıl sərmayələri stimullaşdırmaqla biznes sektorunun, xüsusilə də tədqiqatçıların ən aktual ekoloji problemlərimizə yeni həllər hazırlamaq üçün yaradıcı potensialını ortaya qoya bilərik. Bu, iqtisadi dəyər yaratmaqla yanaşı, həm də yaşıl planetimizin və onun sakinlərinin rifahına töhfə verən yeni sənaye sahələrinin, məhsul və xidmətlərin yaranmasına səbəb ola bilər.

Yaşıl iqtisadiyyatın uğurla həyata keçirilməsi üçün yerli icmaların da aktiv iştirakını təmin etmək vacibdir. İcma səviyyəsində sosial proqramların, ekoloji təşəbbüslərin dəstəklənməsi və yerli resurslardan səmərəli istifadə yolları ilə insanlar ekoloji problemlərə qarşı daha həssas ola bilərlər. Məsələn, kənd təsərrüfatında davamlı metodların tətbiqi, yerli məhsulların istehsalı və istehlakı iqtisadiyyatı gücləndirmək və mənfi ekoloji təsirləri azaltmaqla yanaşı, sosial birliyi də artırmaqda faydalı ola bilər. Bütün bunlarla yanaşı, yaşıl iqtisadiyyata keçid heç də problemsiz deyil. Bu, güclü liderlik təşəbbüslərini, razılaşdırılmış birgə fəaliyyətləri və möhkəm beynəlxalq əməkdaşlıqları tələb edir. Hökumətlər, biznes qurumları, vətəndaş cəmiyyəti və akademik mühit şəxsi maraqları və maliyyə məhdudiyyətləri kimi maneələri aradan qaldırmaq üçün birlikdə işləməlidirlər. Biz yalnız birlikdə fəaliyyət göstərərək davamlılığı mükafatlandıran və ətraf mühitin pozulmasını tənqid edən əlverişli mühitlər yaratmalıyıq.

Ekoloji tarazlığın qorunması üçün ictimai şüurun artırılması da olduqca mühüm rol oynayır. İnsanların ekoloji problemlərin ciddiliyini dərk etməsi və bununla bağlı tədbirlər görməsi dayanıqlı inkişafın təmin olunmasında əsas amillərdən biri hesab olunur. Bu sahədə səmərəli strategiyaların həyata keçirilməsi, cəmiyyətin hər bir fərdinin ekoloji məsələlərə daha ciddi yanaşmasına kömək edə bilər. Təhsil müəssisələrində ekoloji biliklərin artırılması xüsusilə gənc nəsilin ekoloji məsuliyyətini formalaşdırmaq üçün mühüm əhəmiyyətə malikdir. Müxtəlif yaş qruplarına uyğun ekoloji təhsil proqramlarının hazırlanması və tətbiqi, uşaqlardan başlayaraq, insanların ekoloji problemlər haqqında məlumatlılığının artırılmasına töhfə verəcəkdir. Ekoloji mövzuların müasir dərsliklərdə və təhsil proqramlarında yer almasını tələbələrin ekoloji davranışlarını və dəyərlərini gücləndirmək baxımından da vacib qiymətləndirmək olar. Həmçinin kütləvi media vasitəsilə aparılan maarifləndirmə kampaniyaları da ictimai şüurun artırılması üçün təsirli bir mexanizm kimi çıxış etməkdədir. Televiziya, radio, sosial media və digər platformalar vasitəsilə ekoloji problemlərlə bağlı məlumatların geniş auditoriyaya çatdırılması, insanların bu məsələlərə daha çox diqqət yetirmələrini təmin edir. Ekologiya mövzusunda təşkil edilən müzakirələr, seminarlar və konfranslar, cəmiyyətin müxtəlif təbəqələrinin ekoloji problemlərə yanaşma tərzini köklü şəkildə dəyişdirə bilər.

Hazırda dünyanın ən mötəbər qurumları, o cümlədən Birləşmiş Millətlər Təşkila-

tı və Dünya İqtisadi Forumu kimi beynəlxalq təşkilatlar yaşıl iqtisadiyyatla bağlı təşəbbüslərin təşviqi ilə mütəmadi olaraq fəal şəkildə məşğul olurlar. Məsələn Birləşmiş Millətlər Təşkilatının "Ətraf Mühit Proqramı (YUNEP)" müxtəlif proqramlar və təşəbbüslər, o cümlədən yaşıl iqtisadiyyatın inkişafına töhfə verən maraqlı tərəflər vasitəsilə davamlı inkişafı təşviq etməyi hədəfləyir. Bu proqram, ölkələri aşağı karbonlu və resurslardan səmərəli istifadə edən iqtisadiyyatlara keçid etmək üçün dəstəkləməkdədir.

Həmçinin BMT-nin on yeddi Dayanıqlı İnkişaf Məqsədlərinə ətraf mühitin davamlılığı ilə bağlı məqsədlər, o cümlədən: Məqsəd 7: "Əlverişli və Təmiz Enerji", Məqsəd 11: "Davamlı Şəhərlər və İcmalar", Məqsəd 12: "Məsuliyyətli İstehlak və İstehsal" bunlara misal çəkilə bilər.

BMT "İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası" vasitəsilə iqlim dəyişikliyi ilə mübarizə və yaşıl inkişafı təşviq etmə məqsədi daşıyan "Paris Sazişi" kimi təşəbbüsləri dəstəkləmək üzrə beynəlxalq əməkdaşlığı asanlaşdırır.

Dünya İqtisadiyyat Forumunun "Yaşıl İnkişaf Fəaliyyəti Alyansı" da öz növbəsində yaşıl inkişafı sürətləndirən siyasətləri və investisiyaları təşviq etmək üçün biznes subyektlərini, hökumətləri və vətəndaş cəmiyyətini bir araya gətirir.

Qeyd edilən qlobal təşəbbüslərin fonunda heç də təsadüfi deyil ki, dayanıqlı inkişafın təmin olunması, xüsusilə ekoloji tarazlığın qorunması dövlətimizin də prioritetləri sırasında yer almaqdadır. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" Birləşmiş Millətlər Təşkilatının "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn öhdəliklərin icrası istiqamətində vacib əhəmiyyət kəsb edir. Müvafiq sənədə əsasən növbəti onillikdə ölkəmizin sosial-iqtisadi inkişafına dair müəyyən edilmiş beş Milli Prioritetdən biri də məhz "təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi"dir.

Eyni zamanda BMT və Azərbaycan Hökuməti arasında 2021-2025-ci illər üçün Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədi imzalanmışdır. Bu Sənəddə nəzərdə tutulan 4 əsas prioritetdən biri də məhz "ətraf mühitin mühafizəsi və iqlim dəyişikliyi ilə mübarizə"dir. Bu istiqamətdə atılan olduqca mühüm və dünyamiqyaslı addımlardan biri də BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – "COP29"-un 2024-cü ildə Azərbaycanda keçirilməsidir.

Nəticə olaraq qeyd edə bilərik ki, yaşıl iqtisadiyyat daha firavan, ədalətli və davamlı gələcək üçün cəlbedici bir model kimi çıxış etməkdədir. Yaşıl texnologiyaların gücündən istifadə etməklə, biz planetimizin ekoloji sərhədləri daxilində inkişaf edən davamlı iqtisadiyyatlar qurmaqla ətraf mühitə nəzarət və sosial ədalət prinsipləri fonunda iqtisadi tərəqqiyyə nail ola bilərik. Ekoloji tarazlığın qorunması yalnız gələcək nəsillərin rifahı üçün deyil, eyni zamanda indiki dövrdə də həyat keyfiyyətinin artırılması üçün mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə hər bir fərd, təşkilat və dövlət məsuliyyətini dərk edərək, ekoloji tarazlığın qorunması üçün birgə çalışmalıdır.

*Səmədzadə Ziyad Əliabbas oğlu,*
*iqtisad elmləri doktoru, professor,*
*AMEA-nın həqiqi üzvü,*
*Azərbaycan Respublikası*
*Milli Məclisinin deputatı,*
*Azərbaycan İqtisadçılar İttifaqının sədri*

# AZƏRBAYCAN RESPUBLİKASININ ENERGETİKA POTENSİALI, ONUN YAŞIL ENERJİ HESABINA ARTIRILMASI İSTİQAMƏTLƏRİ

Azərbaycan XX əsrin birinci onilliyində elektrik enerjisi istehsalına görə çar Rusiyasında Moskva və Sankt-Peterburqdan sonra 3-cü yeri tuturdu. Bu dövrdə Azərbaycanda elektrik enerjisinin istehsalının həcmi Belarusiya, Gürcüstan, Qazaxıstan, Özbəkistan, Latviya, Litva, Estoniya və Türkmənistanda istehsal edilən elektrik enerjisinin ümumi həcmindən 1,8 dəfə çox idi. 1950-ci ildə Baltikyanı, Qırğızıstan, Tacikistan, Ermənistan, Türkmənistan respublikalarında cəmi 2,7 milyard kVt, Azərbaycanda isə 2,9 milyard kVt/saat təşkil etmişdi.

Böyük Vətən müharibəsindən sonrakı dövrdə xalq təsərrüfatının energetika bazasının möhkəmləndirilməsi inkişafı ilə bağlı xeyli işlər görüldü. Respublikada Əli Bayramlı DRES-i, Şimal DRES-i (Bakı), 1 və 2 nömrəli Sumqayıt İEM-ləri, Krasin adına DRES və digər müəssisələrin istifadəyə verilməsi respublika xalq təsərrüfatının inkişaf imkanlarını əhəmiyyətli dərəcədə genişləndirdi.

XX əsrin ikinci yarısından başlayaraq Azərbaycanın enerji potensialını möhkəmləndirmək üçün irimiqyaslı tədbirlər həyata keçirildi, elektrik enerjisi istehsalı bir neçə dəfə artırıldı, ən ucqar kəndlərdə belə elektrikləşdirmə başa çatdırıldı. Amma elektrik enerjisi istehsalı 1960-cı ildəki 6,6 milyard kv/saatdan 1970-ci ildə 12,6 milyard kv/saata çatdırılsa da, bu, respublika iqtisadiyyatını surətli inkişaf etdirmək üçün kifayət etmirdi. Respublikada istehsal olunan elektrik enerjisinin 60%-dən çox hissəsi yanacaq və kimya sənayesi, qara və əlvan metallurgiya sahələrinin payına düşürdü.

Uzun illər dünya təcrübəsində real sektorun inkişafı ilə bağlı planlaşdırma, proqnozlaşdırma araşdırmalarında elektrik enerjisi ilə əmək məhsuldarlığı göstərici-lərindən geniş istifadə edilirdi.1913-1970-ci illərdə sənayedə əməyin enerji ilə silahlanması 24 dəfə, əmək məhsuldarlığı isə 17,3 dəfə artmışdı. Əməyin enerji ilə silahlanmasının 1 faiz artımı əmək məhsuldarlığının 1913-1928-ci illərdə 0,6 faiz, 1928-1960-cı illərdə 0,8 faiz, 1940-1960-cı illərdə 0,9 faiz, 1950-1967-ci illərdə 0,8 faiz yüksəlməsi ilə nəticələnmişdi. Ötən əsrin 70-80-cı illərində bu iki göstəricinin arasın-da qarşılıqlı əlaqənin təhlili demək olar ki, sənaye, kənd təsərrüfatında geniş yer al-mışdır. Təəssüf ki, bu gün elmi araşdırmalarda qeyd edilən göstəricilərdən, demək olar ki, diqqətdən kənarda qalmışdır ki, buna da haqq qazandırmaq olmaz.

1969-cu ildə Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlişindən sonra respublikanın enerji sisteminin sürətli inkişafını təmin etmək məqsədi ilə təxirəsalınmaz tədbirlər həyata keçirilmiş, irimiqyaslı layihələr reallaşdırılmışdı.

Respublikada 1970-1985-ci illərdə Azərbaycanda KV. saat elektrik enerji istehsalı əhəmiyyətli dərəcədə artmış, sənayedə və digər sahələrdə istehsal proseslərinin elektrikləşdirilməsi səviyyəsi yüksəlmişdi.

19 oktyabr 2000-ci ildə Bakının Xətai rayonunda 1 nömrəli Bakı İstilik-Elektrik Mərkəzinin (İEM) birinci növbəsinin istifadəyə verilməsi ilə bağlı keçirilən tədbirdə

çıxış edən Heydər Əliyev demişdi:“... Bu gün **mən bir daha qeyd etmək istəyirəm ki, əgər o illər biz Sovetlər İttifaqının imkanlarından istifadə edib hazırda mövcud olan elektrik stansiyalarını, su elektrik stansiyalarını yaratmasaydıq, indi müstəqil Azərbaycan böyük enerji böhranı içində idi. O vaxt biz çox uzaqgörənlik etdik. Biz Sovetlər İttifaqının proqramına riayət etmədik. Yəni ümumittifaq enerji sistemi yaranmışdı, SSRİ-nin hər bir respublikasını təmin edirdi. Stansiyaların da əksəriyyəti şimalda – Rusiyada toplanmışdı. Əgər biz ona arxayın olsaydıq, təbiidir ki, SSRİ dağılandan sonra Azərbaycan müstəqil olandan sonra biz oradan elektrik enerjisini ala bilməzdik**”.

Son 20 il ərzində Azərbaycanın energetika potensialı əhəmiyyətli dərəcədə möhkəmlənmiş, ölkəmizin enerji təhlükəsizliyinin təmin edilməsi üçün güclü əsaslar yaradılmışdır.

İndi Azərbaycan həm də qonşu ölkələrə elektrik enerjisi ixrac edir. Eyni zamanda, erməni işğalından azad edilmiş, böyük enerji potensialına malik olan ərazilərdə intensiv quruculuq işləri aparır. Azərbaycan dövləti 44 günlük Vətən müharibəsində qazanılan tarixi qələbədən sonra digər sahələrdə olduğu kimi, işğaldan azad olunmuş ərazilərdə, müasir enerji infrastrukturunun qurulması və regionun enerji potensialından səmərəli istifadə edilməsini qarşıdakı dövrün mühüm strateji vəzifələri kimi müəyyənləşdirmişdir. Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərimiz hidroenerji ehtiyatları ilə olduqca zəngindir. Hesablamalara görə respublikamızın yerli su ehtiyatlarının 25 faizi, yəni ildə təqribən 2 milyard 560 milyon kub metri Qarabağ və Şərqi-Zəngəzur iqtisadi rayonlarının payına düşür.

Hazırda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarinda yeni elektrik güc mərkəzlərinin ən müasir texnologiyalar tətbiq etməklə 110, 35 və 0,4 kV-luq şəbəkələrin yaradılması, elektrik xətlərinin çəkilməsi üzrə konkret tədbirlər həyata keçirilir.

Son illərdə qlobal enerji siyasətində əsas istiqamətlərdən biri yaşıl enerjiyə keçididir. Yaşıl enerjiyə keçid ən müasir texnologiyalar tətbiq edilməklə ənənəvi enerji resurslarının bərpa olunan enerji mənbələri ilə əvəz edilməsini, yəni yaşıl enerjini özündə ehtiva edir.

Hələ 2020-ci ilin yekunlarına həsr olunan müşavirədə dövlət başçısı işğaldan azad edilmiş ərazilərdə “yaşıl enerji” zonasının yaradılması ilə bağlı qarşıya mühüm vəzifələr qoymuşdu. Bu məsələ “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də öz əksini tapmışdır.

İşğaldan azad olunan torpaqların enerji infrastrukturunun yaşıl enerji hesabına bərpası ilə əlaqədar görülən işlərin mühüm bir istiqaməti Qarabağda iti axan çayların üzərindəki dağıdılmış elektrik stansiyalarının bərpası və ya yenilərinin inşasıdır. Bu baxımdan 2021-ci il fevralın 14-də Laçın rayonunda istifadəyə verilən ilk su elektrik stansiyası Güləbird SES-ni qeyd etmək istərdik. Ümumiyyətlə, Laçın rayonu ərazisində vaxtilə inşa etdiyimiz 5 su elektrik stansiyasının bərpası təmin edilib. Kəlbəcər rayonunun ərazisində isə 12 su elektrik stansiyası yenidən qurulur. Regiondakı digər mühüm hidroenerji obyektləri “Xudafərin” və “Qız Qalası” su elektrik stansiyalarıdır. Bu iki hidroqovşaqların və su elektrik stansiyalarının tikintisi, istifadəsi Azərbaycanla İran arasında 2016-cı ildə imzalanmış sazişlə tənzimlənir. İranla əldə edilmiş razılaşmaya əsasən ümumi gücü 280 meqavat olan hər iki stansiya 716 milyon kVt/saat elektrik enerjisi istehsal ediləcək ki, onun da 356 milyon kVt/saatı Azərbaycanın payı-

na düşəcək. Onu da qeyd edək ki,1,6 milyard kubmetrdən çox su tutumuna malik bu hidroqovşaqlar və stansiyalar Azərbaycanda həcminə görə Mingəçevir, Şəmkir Su Elektrik Stansiyalarından sonra üçüncü yerdə gəlir.

**Regionda külək enerjisi potensialından istifadə etmək imkanları böyükdür.** Qarabağın dağlıq hissəsində 100 metr hündürlükdə küləyin orta illik sürətinin 7-8 m/s olduğu geniş ərazilər mövcuddur. **Bütünlükdə Qarabağ və ətraf regionlar hidro-enerji, günəş, külək, bioenerji və geotermal enerji kimi bərpa olunan enerji mənbələri ilə zəngindir və bu resurslardan səmərəli istifadə edilməsi qarşıda duran əsas məsələlərdəndir.** Bu məqsəd ilə, adıçəkilən sahələr üzrə dəqiq potensialın hesablanması üçün ölçü müşahidə stansiyalarının quraşdırılması, onların tikintisi üzrə texniki imkanların və iqtisadi səmərəliliyin qiymətləndirilməsi ilə bağlı işlər aparılır.

Heç şübhəsiz ki, Prezident İlham Əliyevin Azərbaycan dövlətinin işğaldan azad olunmuş ərazilərin "Yaşıl enerji" zonasına çevrilməsi ilə bağlı qarşıya qoyduğu tələblərə uyğun olaraq bərpa olunan və alternativ enerji stansiyalarının tikintisi azad olunmuş ərazilərin enerji təminatına öz töhfəsini verəcək. **"Alternativ və bərpa olunan enerji mənbələrindən istifadə müasirlikdir, yenilikdir, ekoloji cəhətdən təmiz texnologiyadır. Bu bizim gələcəyə baxışımızdır",** - deyə vurğulayan ölkə rəhbəri bu sahənin yaradılması və inkişafı üzrə atılan addımlar bütövlükdə dövlətimiz üçün enerji təhlükəsizliyinin daha sabit və davamlı təmin edilməsi mühüm əhəmiyyət kəsb edəcəkdir.

**Onu da vurğulamaq istərdim ki, yaşıl enerjiyə keçid neft-qaz kompleksinin inkişafına diqqətin azalması kimi başa düşülməməlidir.** Ulu tanrı Azərbaycana neft-qaz sərvətlərini verib və müstəqil dövlətimiz bu amildən səmərəli istifadə edərək özünün iqtisadi, siyasi müstəqilliyini möhkəmləndirmiş, respublikamızın taleyüklü problemlərinin həllinə nail olmuşdur. Neft amili hələ xeyli müddət Azərbaycanın tərəqqisinə onun iqtisadi gücünün artmasına xidmət edəcəkdir.

Yekun olaraq onu qeyd etmək istərdim ki, müstəqil Azərbaycan dövlətinin iqtisadi qüdrətinin artmasında müstəsna rol oynayan energetika kompleksi qarşıdakı dövrdə də davamlı inkişaf edəcək, ölkəmizin keyfiyyətli inkişafına öz layiqli töhfəsini verəcəkdir. İqtisadi alimlərimiz qloballaşan dünyada milli iqtisadiyyatlara təhdidlərin, liberallaşmanın doğurduğu fəsadların nəticələrini obyektiv qiymətləndirməli, "hər şeyi bazar həll edir" fikrini genişləndirməməli real sektorun surətli və keyfiyyətli inkişafına xidmət edən araşdırmalar aparmalıdırlar.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**


1. Azərbaycan Respublikasının işğal edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirləri haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı. 07 may 2021.
2. Z. Səmədzadə - Azərbaycan İqtisadiyyatı 100 ildə. Bakı, 2021. I cild fəsil V
3. Z. Səmədzadə - Qarabağ İqtisadiyyatı 100 ildə. Bakı, 2022. V cild fəsil XIV
4. Q.Əbdülsəlimzadə - Azərbaycan SSRİ-də Xalq təsərrüfatının elektrikləşdirilməsi tarixinə həsr edilmiş doktorluq disertasiyası. Bakı, 1969.

*Ataşov Bəyalı Xanalı oğlu,*
*iqtisad elmləri doktoru, professor,*
*Əməkdar elm xadimi,*
*Azərbaycan Kooperasiya Universitetinin*
*Elm və innovasiyalar üzrə prorektoru*

# QLOBAL KONTEKSTDƏ YAŞIL İQTİSADİYYATIN VƏ YAŞIL ENERJİNİN İNKİŞAF ETDİRİLMƏSİ PROBLEMLƏRİ

Son onilliklərdə qlobal səviyyədə transformasiyalar dərinləşməkdədir. Sivilizasiyanı narahat edən qlobal problemlər artmaqda davam edir. Xüsusilə, dayanıqlı inkişafın təmin olunması, resurslardan səmərəli istifadə edilməsi, qənaət rejimlərinin formalaşdırılması, alternativ enerji mənbələrinin yaradılması mühüm hədəflər kimi ortaya qoyulmuşdur. Aparıcı dünya dövlətləri və beynəlxalq təşkilatlar iqlim dəyişiklikləri ilə bağlı çağırışlara adekvat olaraq tədbirlər görməkdədirlər. Qlobal istiləşmə, istilik effekti verən qazların atmosferə buraxılmasının azaldılması, ətraf mühiti çirkləndirən maddələrin həcminin minimuma endirilməsi tədbirləri daha çox diqqət çəkir. Bu istiqamətlərdə beynəlxalq, regional və ölkə proqramları reallaşdırılır. Bütün bunlar onu göstərir ki, yaxın və uzaq perspektivdə qlobal problemlər sırasında yaşıl iqtisadiyyatın təmin edilməsi və yaşıl enerji mənbələrinin genişləndirilməsi maksimum prioritetlik təşkil edəcəkdir.

Qeyd edək ki, 80-ci illərin sonlarında insanların resursdan istifadəsinin ətraf mühitə təsiri və ekologiya, yoxsulluq və iqtisadi dəyişikliklər arasındakı əlaqələrə dair fikirlərin köklü surətdə yenidən qiymətləndirilməsi baş verdi. Nəticədə ekoloji problemlərə və iqtisadi inkişafa yeni yanaşma - "rəqabətli məqsədlər" adlanan prinsipə, yəni ətraf mühitin və təbii ehtiyatların qorunmasına, iqtisadi artıma və ya insanların məmnunluğuna əsaslanan yanaşma – "dayanıqlı inkişaf" konsepsiyası ortaya çıxdı [1, s.424-425].

Dayanıqlı inkişaf konsepsiyası bir millətin rifahının təkcə onun iqtisadi sərvətindən deyil, habelə əlverişli mühitindən və yaşayış yerindən asılı olması ehtimalına əsaslanır. Ehtimal olunur ki, ekoloji risklərin qarşısı alınmayınca iqtisadi inkişafın mənası olmayacaq. Ətraf mühitə düzəlməz dərəcədə ziyan vurmaqla və ya mövcud təbii ehtiyatları tükəndirməklə biz gələcək nəsillərin həmin resurslara çıxışını məhdudlaşdırırıq və bununla da onların gələcəkdə öz ehtiyaclarını ödəmək imkanlarını təhlükə altına qoyuruq. Buna görə dayanıqlı inkişaf iqtisadiyyatla ətraf mühit arasında qarşılıqlı əlaqə və onların nəsillərarası bərabərliyi təmin etmək baxımından necə idarə olunması ilə bağlıdır.

Dayanıqlı inkişaf məqsədlərinin aşkar ziddiyyətlərinə baxmayaraq, onlar uzunmüddətli perspektivdə daha faydalıdır. Məsələn, iqtisadi artım təbii ehtiyatların qorunması ilə ziddiyyət təşkil edə bilər. Bununla belə, müasir dövrdə təbii ehtiyatlardan məsuliyyətli istifadə gələcəkdə davamlı iqtisadi artım üçün resursların mövcud olmasını təmin etməyə kömək edəcəkdir. Dayanıqlı inkişaf ətraf mühit və inkişafa dair bir çox ədəbiyyatda rast gəlinən və müasir dünyada getdikcə daha genişlənən bir anlayışdır. Müvafiq olaraq, hazırda dayanıqlı inkişafın bir çox tərifləri mövcuddur. Əksər təriflər vurğulayır ki, dayanıqlılıq iqtisadi artım və onun ətraf mühitə, iqtisadiyyata və cəmiyyətə təsiri arasındakı əlaqəni tanıyan qərarlar tələb edir. Dayanıqlı inkişaf ətraf

mühitə daha az ziyan vurmaq və gələcək nəsillərin ehtiyaclarını nəzərə almaqla əlaqələndirilir və beynəlxalq səviyyədə və ayrı-ayrı ölkələr səviyyəsində siyasətlə stimullaşdırılmalıdır. Beləliklə, dayanıqlı inkişafın ekoloji ölçüsü eko-sistemləri, havanın keyfiyyətini və resursların bütövlüyünü və dayanıqlılığını necə qorumaq lazım olduğunu müəyyənləşdirir.

İqtisadiyyatda və cəmiyyətdə baş verən neqativ dəyişikliklərə tab gətirə bilən və onların nəticələrini tez bir zamanda aradan qaldıra bilən dayanıqlı inkişaf konsepsiyası bütün növ resurslardan səmərəli istifadə məsələlərini ön plana çıxarmışdır. Yeni inkişaf modelinin formalaşması zamanı dayanıqlı inkişaf paradiqmasının təkamülü yaşıl iqtisadiyyat konsepsiyasının yaranmasına səbəb olmuşdur.

Yaşıl iqtisadiyyat enerji və resurslara qənaət, atmosferdə karbon emissiyalarının azaldılması, ekoloji cəhətdən təmiz enerjidən istifadə etməklə nəqliyyat, alternativ enerji mənbələri, üzvi kənd təsərrüfatı, ekoloji təhlükəsizlik və inkişaf etmiş logistikaya əsaslanır. Ötən əsrin sonlarından etibarən texnoloji modelin innovativ forması və ekoloji cəhətdən dayanıqlı inkişafa nail olunmasının əsas amillərindən biri kimi "yaşıl iqtisadiyyat konsepsiyası" getdikcə daha çox inkişaf etdirilir. Yaşıl iqtisadiyyatın inkişaf dərəcəsini regionlar və bütövlükdə ölkə üzrə yaşıl investisiyaların həcmini təhlil etməklə qiymətləndirmək olar. Çünki yaşıl investisiyaların səviyyəsi və strukturu bu sahədə əsas meyilləri və problemləri müəyyənləşdirməyə imkan verəcək [2, s.57].

Yaşıl iqtisadiyyatın sürətləndirilmiş inkişafına əsaslanan iqtisadi artımı təmin etmək üçün bir qrup prioritet fəaliyyət istiqamətlərinin nəzərə alınması məqsədəuyğundur:

- Yaşıl iqtisadi inkişafa keçidə iqtisadi dəstək hesabına əhalinin fəallığının artırılması;
- Mövcud təbii ehtiyatlardan və imkanlardan davamlı və səmərəli istifadə edilməsi;
- Yaşıl inkişaf potensialının artırılması və insan kapitalının inkişafı üzrə tədbirlərin gücləndirilməsi;
- Yaşıl iqtisadiyyatın miqyasının genişləndirilməsi və inkişafı məqsədilə bu sahədə prioritet istiqamətlər üzrə fundamental və praktiki tədqiqatların aparılmasına hərtərəfli dəstək verilməsi;
- Real sektorda müəssisələrin müasir qənaətcil texnologiyalarla modernləşdirilməsi, tullantısız istehsalın təşkili, onların emalının və bərpa olunan enerji texnologiyalarından istifadənin təşviqi;
- Perspektivli innovativ inkişaflar və yaşıl iqtisadiyyatın inkişafı layihələri üçün maddi dəstək və şərait vasitəsilə iqtisadi artımın daha da sabitləşməsinə nail olunması və s.

Hesab edirik ki, texnoloji yeniliklər mövcud iqtisadiyyatın strukturunda dəyişikliklərə səbəb olur, lakin dayanıqlı inkişafa səbəb olmur. Texnologiyalar iki meyara malik olmalıdır: təhlükəsizlik və ətraf mühitə uyğunluq. Bu meyarlar təmiz və ya yaşıl texnologiyalar adlandırılan texnoloji dəyişikliklərə və yeniliklərə uyğundur. Onlar ekoloji problemlərin həllinə yönəlib. Onların yaradılması, reallaşdırılması və kütləvi yayılması ilə əhəmiyyətli müsbət sosial-ekoloji və iqtisadi dəyişikliklərin kumulyativ təsiri baş verir [3, s.48-49].

Yaşıl texnologiya qlobal istiləşməni azaltmağa kömək edə bilər. Son 100 il ərzin-

də Yer səthinin temperaturu 0,4°C-dən 0,8 °C-ə qədər əhəmiyyətli dərəcədə artmışdır. Hökumətlərarası İqlim Paneli 2100-cü ilə qədər temperatur sıçrayışının 1,4 ilə 5,8°C arasında olacağını proqnozlaşdırır. Temperaturun bu artımı istixana effektinin artması ilə birləşir. Bunun mənfi təsirlərindən bəziləri tüstü emissiyaları, ozon təbəqəsinin tükənməsi, okeanların turşulaşması və bitki artımındakı dəyişikliklərdir. Bununla belə, yaşıl texnologiyaların köməyi ilə iqlim dəyişikliyi azaldıla bilər, çünki onlar gələcək enerji istehsalının və karbon istehlakının artırılmasının yeni üsullarından faydalanırlar.

Azərbaycanda yaşıl iqtisadiyyatın formalaşdırılması, xüsusilə bərpa olunan alternativ yaşıl enerji mənbələrinin potensialının obyektiv olaraq qiymətləndirilməsi və inkişaf etdirilməsi məsələləri hazırki şəraitdə kifayət qədər aktualdır. Ölkə Prezidentinin 2 fevral 2021-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də yaşıl iqtisadiyyatın formalaşdırılması və yaşıl enerji sahələrinin inkişaf etdirilməsi hədəfləri də yer almışdır [4].

Ölkənin bir sıra regionlarında, məsələn, Abşeron yarımadasının qərb zonasında, Xızıda və digər ərazilərdə alternativ enerji mənbələrinin potensialının formalaşdırılması və infrastrukturunun yaradılması, müvafiq istiqamətlər – külək və günəş enerjisi üzrə infrastrukturun yaradılması prosesləri artıq başlanmışdır. Xızıda külək enerjisi, Qaradağda isə günəş enerjisi istiqamətində yaradılan infrastruktur ölkəmizin enerji balansının daha da gücləndirilməsinə, alternativ enerji – yəni yaşıl enerji mənbələrinin inkişaf etdirilməsinə ciddi töhfə deməkdir.

Ən önəmli hadisələrdən biri isə məhz torpaqlarımızın işğaldan azad edilməsindən sonra baş vermişdir. Cəbrayıl rayonunda Azərbaycanın neft strategiyasının reallaşdırılmasında əsas tərəfdaşı olan British Petrolium şirkətinin iştirakı ilə çox güclü potensiala malik günəş enerjisi istehsalı infrastrukturunun yaradılmasına başlanılmışdır. Burada istehsal ediləcək elektrik enerjisinin müəyyən hissəsi ölkədaxili tələbata yönəldilməklə yanaşı, digər əhəmiyyətli bir hissəsi Avropaya ixrac olunacaqdır. Təqdirəlayiq haldır ki, bu məqsədlə Qara dənizin dibindən müvafiq optik kabel çəkiləcəkdir və elektrik enerjisi Avropa Birliyi ölkələrinə, o cümlədən ilk növbədə Serbiyaya ixrac olunacaqdır.

Məhz bu faktlar əsasında qeyd edə bilərik ki, Azərbaycanda yaşıl iqtisadiyyatın yaradılması və bərpa olunan alternativ yaşıl enerji mənbələrinin inkişafı istiqamətində önəmli addımlar atılmaqdadır. Çox mühüm hadisələrdən biri kimi hesab edirik ki, Azərbaycanda olan mövcud resurslardan və xüsusilə işğaldan azad olunmuş ərazilərdə bol sularla zəngin olan çaylardan səmərəli istifadə etmək hesabına əvvəllər mövcud olan su-elektrik stansiyalarının bərpa edilməsi və ya yenilərinin tikilməsi, nəticədə yaşıl enerjinin alınması imkanlarının qiymətləndirilməsi və səmərəli istifadə edilməsi tədbirlərinə başlanılmışdır.

Bütün bunlar Azərbaycanda bərpa olunan alternativ yaşıl enerji mənbələrinin genişləndirilməsinə və ümumi enerji istehsalı strukturunda yaşıl enerjinin payının ildən-ilə artacağına inam yaradır.

Bir məsələyə də diqqətinizi yönəltmək istərdim. Ölkə Prezidentinin 25 dekabr 2023-cü il tarixli sərəncamı ilə Azərbaycanda 2024-cü il “Yaşıl dünya naminə həmrəylik ili” kimi elan olunmuşdur [5].

Eyni zamanda, ölkəmiz üçün tarixi bir hadisənin şahidi olacağıq. Belə ki, 2024-cü ilin noyabr ayında Bakıda MBT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının – 29-cu sessiyası – COP29 kimi dünya səviyyəsində

mötəbər bir qlobal tədbir keçiriləcəkdir [6]. Bütün bunlar onu deməyə əsas verir ki, ölkəmiz digər istiqamətlərdə olduğu kimi regionda və beynəlxalq səviyyədə nüfuzlu müstəqil dövlət kimi qəbul edilməkdədir. Yaxın illərdə Azərbaycanda yaşıl iqtisadiyyatın strukturunun formalaşdırılması və yaşıl enerji istehsalının artırılması ölkəmizin qlobal səviyyədə rəqabətinin daha da yüksəldilməsinə imkan verəcəkdir.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**


1. Мантаева Э.И., Голденова В.С., Слободчикова И.В. «Зеленые» технологии как фактор устойчивого развития национальной экономики. Московский Ака-демический Экономический форум - МАЭФ-2021, с.423-431.
2. Козлов С.Н. «Зеленая» экономика как фактор устойчивого развития региона / С.Н. Козлов // Вестник НГИЭИ. – 2020. – № 4(107). – с. 55-65.
3. Барышева Г.А. Зеленые технологии: определение понятия, этапы становления и роль в устойчивом развитии экономики / Г.А. Барышева, М.С. Егорова // Теория и практика общественного развития. – 2019. – № 12(142). – с. 48-54.
4. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir.
5. COP29-un Azərbaycanda keçirilməsi qlobal problemlərin həllində strateji təşəbbüsdür: [Elektron resurs]/URL: https://report.az/cop29/ekspert-azerbaycanda-Cop29-un-kecirilmesi-qlobal-problemlerin-hellinde-strateji-tesebbusdur/
6. Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı, 25 dekabr 2023-cü il.



*Fikrətzadə Firdovsi Fikrət oğlu,*
*iqtisad üzrə fəlsəfə doktoru,*
*Aqrar Tədqiqatlar Mərkəzinin direktoru*


## KƏND TƏSƏRRÜFATI SAHƏSİ ÜZRƏ YAŞIL İNKİŞAF MEXANİZMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

Azərbaycanda kənd təsərrüfatı qeyri-neft sektorunun əsas sahəsi kimi formalaşaraq onun inkişafı milli iqtisadiyyatın sabit və sağlam fəaliyyəti üçün mühüm əsasdır. Son illərdə baş verən qlobal iqlim dəyişikliyinin ən çox təsir etdiyi sahə də kənd təsərrüfatıdır, çünki bu sahə təbii-iqlim şəraitindən asılıdır və məhsul istehsalı yerli iqlim şəraitinə uyğun olaraq həyata keçirilir. Yaşıl kənd təsərrüfatının inkişafının mahiyyəti ətraf mühitə zərər vermədən kənd təsərrüfatı istehsalının artırılmasından keyfiyyətinin yaxşılaşdırılmasına, torpaqların becərilməsi və təbii ekoloji resursların istifadə səviyyəsinin yaxşılaşdırılmasına, kənd təsərrüfatı ekoloji mühitinin mühüm problemlərinin fəal şəkildə həllinə qədər təşviq etməkdir.

Yaşıl kənd təsərrüfatı iqtisadiyyatın bu sahəsində davamlı və ekoloji cəhətdən təmiz təcrübələrin tətbiqini nəzərdə tutur. Onun məqsədi kənd təsərrüfatı fəaliyyətinin ətraf mühitə mənfi təsirlərini azaltmaq, biomüxtəlifliyi təşviq etmək, təbii ehtiyatları qorumaq və əkinçilik sistemlərinin uzunmüddətli həyat qabiliyyətini təmin etməkdir.

2050-ci ilə qədər gözlənilən 9 milyard insanın ehtiyaclarını ödəmək üçün ərzaq istehsalı hazırkı səviyyələrlə müqayisədə 70% - 100% artmalıdır [3].

Qlobal iqlim dəyişikliyinin dərinləşməsi iqtisadi inkişaf strategiyasına yenidən baxılmasını və yeni inkişaf yollarının müəyyən edilməsini şərtləndirir. Məhz bu baxımdan, kənd təsərrüfatının inkişaf etdirilməsi üçün, ilk növbədə, "yaşıl" iqtisadiyyat prinsiplərinin gözlənilməsi, ekoloji prioritetlərə və səmərəli irəliləyişlərə nail olmaq tələb olunur. Burada, təbii resursların qorunması və ətraf mühitin mühafizəsi üzrə müəyyən edilən dövlət siyasətinin düzgün həyata keçirilməsi, flora və faunanın qorunması, kənd təsərrüfatının ekoloji təhlükəsizliyinin sərhədlərinin müəyyən edilməsi və qorunması, təchizatın, gəlirin və ekologiyanın təmin edilməsinin koordinasiyalı şəkildə birliyinə nail olmaq mütləqdir.

Azərbaycan dünya bazarında böyük ehtiyac duyulan neft və qaz kimi karbohidrogenlərlə zəngin bir ölkə olmaqla bu resursların hasilatını və ixracatını həyata keçirir. Məlumdur ki, energetika sahəsi iqtisadiyyatın önündə gedir. Bu baxımdan, Azərbaycanda Dövlət Statistika Komitəsinin son məlumatlarına görə, 2021-ci ildə atmosferə istilik effekti yaradan qazların atılmasında energetika sahəsinin xüsusi çəkisi 81.1% (53.4 milyon ton CO2 ekvivalentində), kənd təsərrüfatının payı 11.5% (7.6 milyon ton CO2 ekvivalentində) və sənayenin payı 5.0% (3.3 milyon ton CO2 ekvivalentində) təşkil edir [4]. İnkişaf etmiş ölkələrlə müqayisədə kənd təsərrüfatı Azərbaycanda 2-ci yerdə gəlir ki, bu da sənaye sahəsinin zəif inkişaf etməsi ilə əlaqədardır. Kənd təsərrüfatı sahəsi üzrə aparılan tədqiqatların nəticəsinə görə, ətraf mühitin kənd təsərrüfatı ilə çirklənməsi heyvandarlıq və əkinçilik sahələri üzrə yetişdirmə və becərmə üsullarının səmərəsiz seçilməsi nəticəsində biosferə ziyan vurulur. Bu sahədə çirklənmənin əsas səbəbləri aşağıdakı üsullardan mütəmadi istifadə edilməsidir:

- məhsuldarlığı artırmaq və zərərvericiləri məhv etmək üçün kimyəvi maddələrdən istifadə olunması;
- asılı yanacaqdan istifadə etməklə istixanaların fəaliyyətləri;
- suvarma suyundan səmərəsiz və ənənəvi qaydada istifadə edilməsi;
- heyvandarlığın tullantılarının açıq şəkildə ətrafa atılması;
- ixtisaslaşmış texnikaların istifadə səviyyəsinin yüksək olması.

Təsərrüfat tullantılarının getdikcə artması ekosistemin pozulmasına və vəhşi təbiətə ciddi zərər verməkdədir. Mineral gübrələrin pestisidlərlə torpağa daxil olması nəticəsində havanın, suyun tərkibində dəyişiklik, torpağın münbitliyinin pisləşməsi baş verir. Eyni zamanda, onların torpaqda toplanması və ya çox miqdarda istifadəsi bu bitkiləri yeyən heyvanlara təsir göstərir, son illərdə dünyanı narahat edən müxtəlif mümkün epidemiya mənbəyinə çevrilir. Pestisidlərin, herbisidlərin və funqisidlərin istifadə səviyyəsinin yüksəlməsi və torpaqlarda toplanması qrunt sularının və torpaqlar yuyulduğu zaman yeraltı suların çirklənməsinə səbəb olur. Kənd təsərrüfatı texnikalarından, xüsusilə köhnə texnikalardan istifadə torpağı və havanı çirkləndirir.

Türkiyə və Azərbaycan alimlərinin birgə tədqiqatına görə Azərbaycanda "balıqçılıq və arıçılıq da daxil olmaqla, heyvandarlıq və bitkiçilik üzrə kənd təsərrüfatını zənginləşdirmək üçün müxtəlif topoqrafik və iqlim zonalarına malik olmasına baxmayaraq, Azərbaycan qida məhsullarının xalis idxalçısı hesab olunur. Əsas problem torpaq sahələrinin parçalanması və təbii ehtiyatların deqradasiyasından qaynaqlanan

kənd təsərrüfatında aşağı məhsuldarlıqla bağlıdır. Bitkiçilik və heyvandarlıq sahələrinin düzgün idarə edilməməsi torpaq eroziyasına, şoranlaşmaya, torpaqda üzvi maddələrin və torpaq münbitliyinin azalmasına, bataqlıqlaşmaya, deqredasiyaya və səhralaşmaya səbəb olmuşdur" [2, səh. 20].

Yaşıl kənd təsərrüfatının inkişafı ilə ekoloji mühitin mühafizəsi, ərzaq təhlükəsizliyi və fermerlərin gəlirlərinin artırılması arasında əlaqənin düzgün idarə edilməsi, ekoloji təmiz olan yüksək keyfiyyətli kənd təsərrüfatı məhsullarının tədarükünün artırılmasına, intensivliyin azaldılmasına şərait yaradan sistemlərin və mexanizmlərin innovasiyasını tələb edir. "Yaşıl" iqtisadiyyatın prinsiplərinə uyğun olaraq kənd təsərrüfatının yaşıl inkişafı mexanizmlərinin təkmilləşdirilməsi aqrar sahənin, ekologiyanın və davamlı inkişafın müxtəlif aspektlərini əhatə edən mühüm vəzifədir. "Yaşıl" iqtisadiyyatın inkişafına xüsusi önəm verən Azərbaycan qlobal iqlim dəyişikliyi nəticəsində yaranmış problemlərin həlli üçün dünya dövlətlərinin toplandığı GOP29-a 2024-cü ildə ev sahibliyi edəcək. Eyni zamanda, ölkə prezidenti İlham Əliyevin 25 dekabr 2023-cü il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan edilmişdir [5]. Bundan başqa, 13 iyun 2008-ci ildə № 650-IIIQ sayı "Ekoloji təmiz kənd təsərrüfatı haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir [6]. Onu da qeyd edək ki, ölkə prezidenti İlham Əliyev 23 aprel 2024-cü ildə ADA Universitetində "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda keçirilən beynəlxalq forumda çıxışı zamanı qeyd etmişdir ki, "COP29-un keçirilməsi bizə həvalə edilməmişdən əvvəl biz ekoloji problemlərlə ciddi məşğul olurduq və iqlim dəyişikliyinin mənfi fəsadlarını azaltmağa çalışırdıq. Köhnə kanallarımızda təxminən 30 faiz su itkimiz var. Modernləşdirmə və yeni texnologiyalardan sonra su itkisi 5 faizdən artıq olmayacaq" [7].

Göründüyü kimi, Azərbaycan müstəqilliyinin ilk illərindən, Ulu Öndər Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdən ətraf mühitin mühafizəsinə xüsusi diqqət yetirilməkdədir. Kənd təsərrüfatının təhlükəsiz inkişafı üçün istehsal texnologiyalarının yaşıl inkişaf prinsiplərinə uyğunlaşdırılması və yaşıl inkişaf mexanizmlərinin təkmilləşdirilməsi tələb olunur. Apardığımız təhlillərə uyğun olaraq, yaşıl inkişaf mexanizmini aşağıdakı kimi təsnifləşdirmək olar:

**- resurs ehtiyatlarından səmərəli istifadə edilməsi -** burada su ehtiyatlarından səmərəli istifadə edilməsi və müasir suvarma sistemlərinin tətbiqi mühüm əhəmiyyət kəsb edir. Azərbaycanda suvarılan əkin sahələrinin 2020-ci ildə 5.0%-də (74.3 min ha), 2021-ci ildə 6.1%-də (91.5 min ha) və 2023-cü ildə 7.1%-də (104.2 min ha) müasir suvarma sistemləri tətbiq olunmuşdur. Azərbaycanda suvarma suyunun çatışmaması su ehtiyatlarına qənaət etməyi və müasir suvarma sistemlərinin tətbiqinin genişləndirilməsini şərtləndirir. Bərpa olunan enerji mənbələrindən istifadə istehsal xərclərinin və istilik effekti yaradan qazların atmosferə atılan həcminin azalmasına imkan verir.

**- üzvi əkinçilik sisteminin tətbiqinin genişlənməsi -** burada mineral gübrələrdən və zəhərli kimyəvi maddələrdən istifadə səviyyəsinin azaldılması mühüm amillərdən biridir. Eyni zamanda, növbəli əkin sisteminin tətbiqi ekoloji təmiz məhsul istehsalına və torpaqların təbii münbitləşməsinə imkan verir.

**- xətti iqtisadiyyatdan dairəvi iqtisadiyyata keçidin təmin edilməsi -** burada tullantıların düzgün idarə edilməsi məqsədilə kənd təsərrüfatında üzvi və sənaye tullantılarının təkrar emalı üçün sistemlərin inkişafı (məsələn, kompostlama) çirklənməni azaldır və torpağı əlavə qida mənbələri ilə təmin edir.

**- kiçik və orta fermerlərə dövlət dəstəyinin genişləndirilməsi -** burada maliyyə resurslarına çıxışı yaxşılaşdırmaqla, müxtəlif layihələr çərçivəsində fermerlərə təlimlər keçmək və məsləhətlər verməklə kiçik və orta fermerlərə ekoloji cəhətdən daha davamlı istehsal üsullarına keçmək təşviq edilir. Bu halda fermerlər daha səmərəli üsullarla yüksək keyfiyyətli və məhsuldalıqlı istehsala nail olurlar.

**- innovativ texnologiyalardan istifadənin genişlənməsi -** kənd təsərrüfatında məhsulun  səpindən istehsala qədər vegetasiya dövründə monitorinqi üçün dronlar və ya dəqiq suvarma sistemləri kimi müasir texnologiyaların tətbiqi səmərəliliyin artırılmasına və ətraf mühitə mənfi təsirin azaldılmasına şərait yaradır. Eyni zamanda resurslardan səmərəli istifadə üçün GPS və sensorlar kimi texnologiyalardan istifadə fermerlərə tullantıları və ətraf mühitə təsirləri azaldaraq, istifadəni daha səmərəli tətbiq etməyə imkan verir.

**- fermerlərin və kənd əhalisinin təhsil səviyyəsinin yüksəldilməsi və maarifləndirilməsi** – burada fermerlərin və əhalinin yaşıl kənd təsərrüfatının faydaları, onun həyata keçirilməsi və dəstəklənməsinə dair maarifləndirməsi və məlumatlandırması kənd təsərrüfatının yaşıl inkişafı üçün mühüm sosial-iqtisadi əhəmiyyət kəsb edir.

Yekun olaraq qeyd edək ki, kənd təsərrüfatının yaşıl inkişafı - aşağı karbonlu iqtisadi sistemin inkişafı və ekoloji cəhətdən davamlı inkişafın həyata keçirilməsi üçün böyük əhəmiyyət kəsb edir. Yəni kənd təsərrüfatında "Yaşıl" iqtisadiyyatın prinsiplərinə uyğun şəkildə daha səmərəli istehsal üsullarından istifadə etməklə kənd təsərrüfatı ekoloji mühitinin yaxşılaşdırılmasını, ölkəyə yaşıl kənd təsərrüfatı məhsullarının təqdim edilməsini təmin etmək mümkündür.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**

1. Azərbaycan Respublikası Prezidentinin 13 iyun 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Ekoloji təmiz kənd təsərrüfatı haqqında" Azərbaycan Respublikasının Qanunu.
Ali təhsil fərdlərə lazımi bilik, bacarıq və münasibət təmin etməklə yaşıl iqtisadiyyatın qurulmasında həlledici rol oynayır. O, həmçinin tələbələri yaşıl işlərə hazırlamaqda və davamlılığı təşviq etməkdə fənlərarası və təcrübi öyrənmənin vacibliyini göstərir. Ali təhsil müəssisələri davamlılıq təhsilinə üstünlük verməli və onu öz kurikuluma və tədqiqat gündəliyinə inteqrasiya etməlidirlər [11, s.8].

Bundan əlavə, məktəbin nüfuzunun yüksəldilməsində yaşıl məktəbin böyük rolu vardır.

**Ali təhsil sisteminin yaşıllaşmasının onun səmərəliliyinə təsiri**

Ali təhsilin yaşıllaşdırılması ali təhsilin iqtisadi səmərəliliyinə təsir edən amillərdən bir element kimi də dəyərləndirilir.

Dayanıqlı inkişaf üçün davamlı inkişaf məqsədlərinə (DİM) nail olmaq və iqlim dəyişikliyi, biomüxtəlifliyin itirilməsi və sosial bərabərsizlik kimi qlobal çağırışların həlli üçün çox vacibdir [12, s.6].

Ali təhsilin iqtisadi səmərəliliyini artırmaq üçün universitetlər tərəfindən görülməli olan işlər aşağıdakılardır:




***Şəkil 3. ATS-in iqtisadi səmərliliyinin yüksəldilməsi istiqamətləri.***

Bu əsas elementləri ali təhsil üçün yaşıl planlara daxil etməklə institutlar davamlı inkişafın, əlverişli biznesin və rifahın təşviqində mühüm rol oynaya bilər.

**Nəticə**

Yaşıl ali təhsil iqtisadi artıma və davamlı inkişafa təsir etmək potensialına malikdir. Bu missiyaya əsaslanaraq universitetlər öz tədris proqramlarında davamlılıq və ekoloji maarifləndirmədə iştirak etməklə dünyamızın üzləşdiyi mürəkkəb problemləri həll etmək üçün lazım olan bacarıq və biliklərə malik məzunlar yetişdirə bilər. Bu məzunlar ekoloji problemlərin həlli üçün yeni yaşıl iş yerlərinin və innovasiyaların yaradılmasına gətirib çıxaran davamlılıq üçün vacib olan sənaye sahələrində işə gedə bilərlər. Bundan əlavə, yaşıl ali təhsil texnologiyaların və təcrübələrin inkişafına kömək edə, ətraf mühitə dəyən ziyanı azalda və davamlı resurslardan istifadəni təşviq edə bilər. Ümumiyyətlə, yaşıl ali təhsilə sərmayə qoymaq uğurlu və firavan gələcəyə doğru mühüm addımdır.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**


1. Malay D., Zhonghua G., Deo P., Fengting L. - Greening Universities Toolkit v2.0 -Transforming Universities into green and sustainable campuses: a toolkit for implementers, 2014, pp.2-165.
2. Prithi R., Aithal P.S. - Green Education Concepts & Strategies in Higher Education Model. International Journal of Scientific Research and Modern Education (IJSRME), 2016,1(1), pp.793-802
3. Walter L. F., Markus W., Amanda L.S., Anselm G., Felix S. - The role of green and sustainability offices in fostering sustainability efforts at higher education institutions. Journal of cleaner production, 2019, pp.3-22
4. Minh P., Xuan H., Van S., Ngoc H., Hai Y., Truong C.G., Hoang Q., Van H. -The role of eco-innovation, eco-investing, and green bonds in achieving sustainable economic development: evidence from Vietnam. Economic Research, 2023, 36(2), pp.3-22
5. Pascal R., Henk P., Joris M. - Smart Green Campus: How IT can support sustainability in higher education. 10th European Conference on Management Leadership and Governance, 2014, pp.296-303
6. Svetlana A., Saule S., Zora D., Aigul M., Zhumadilova G. - Greening education at the university in the socio–economic and pedagogical areas of training. E3S Web of Conferences, 2021, pp.2-7
7. Anthony J. B. Green campus paradigms for sustainability attainment in higher education institutions – a comparative study. Journal of Science and Technology Policy Management, 2021, 12(1), pp. 117-148
8. Usman M. Contribution of renewable energy towards environmental quality: The role of education to achieve sustainable development goals in G11 countries. Elseiver, 2021, Volume 178, pp.600-607
9. Isakova J., Pchelnikov M .Greening of education in modern society. SHS Web of Conferences, 2019, 70, pp.2-4
10. Lavrinenko O., Ignatjeva S., Ohotina A., Rybalkin O., Lazdans D. The role of green economy in sustainable development (case study: the EU states). Entrepreneurship And Sustainability Issues, 2019, 6(3), pp.1113-1126.
11. Wenjuan G., Xiaohao D., Ran C., Weifang M. An Empirical Study of the Role of Higher Education in Building a Green Economy. Sustainable Development MDPI, 2019,11, pp.2-14
12. Peter G. Identifying Key Issues of Education for Sustainable Development. MDPI, 2020, pp. 2-18.

*Abbasova Tamilla Cəlal qızı,*
*iqtisad üzrə fəlsəfə doktoru, dosent,*
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC),*
*E-mail: tamilla_abbasova62@mail.ru;*

*Eyvazova Nailə Kamal qızı,*
*iqtisad üzrə fəlsəfə doktoru, dosent,*
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC),*
*E-mail: eyvazova_71@mail.ru*

# DAVAMLI İNKİŞAF KONTEKSTİNDƏ SOSİAL-İQTİSADİ, EKOLOJİ VƏ QLOBAL PROBLEMLƏR

Son illərdə dünyanın əsas prioriteti sayılan davamlı inkişaf bu gün son nəticə kimi inklüziv cəmiyyətin qlobal prioriteti kimi qəbul edilmişdir. Çünki XXI əsrin əsas prioritet konsepsiyası sayılan inklüziv inkişaf müasir dövrdə cəmiyyətin bütün sahələri üçün faydalı və əhəmiyyətli imkanlar yaradır. Ölkəmizin əldə etdiyi nailiyyətlərin beynəlxalq səviyyədə yüksək dəyərlərə malik olması onu göstərir ki, 2006-cı ildə Dünya Bankının "Doing Business" hesabatında 98-ci yerdə olan Azərbaycan aparılan uğurlu islahatlar nəticəsində həmin hesabatda 25-ci yerə gəlib çıxmış və ən islahatçı 10 ölkə sırasında yer tutmuşdur. Nəzərə alaq ki, Dünya İqtisadi Forumunun inklüziv inkişaf indeksində Azərbaycan inkişaf edən ölkələr arasında üçüncü yer tutmuşdur. Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının nailiyyətləri müvəffəqiyyətlə davam etməkdədir. Belə ki, Dayanıqlı İnkişaf Gündəliyindəki məqsədlərə nail olunması sahəsində ölkəmizdə məqsədyönlü dövlət siyasəti həyata keçirilir. Təsadüfi deyil ki, Azərbaycan BMT-nin 2016-2030-cu illər üçün Dayanıqlı İnkişaf Məqsədlərindən 8-ci məqsədin (layiqli əmək və iqtisadi inkişaf) icrası ilə bağlı region üzrə fokus ölkə seçilmişdir. Bu gün hər birimizə yaxşı məlumdur ki, ölkəmizdəki iqtisadi islahatlar dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyətin formalaşmasına xidmət edir. Dövlətin, cəmiyyətin və fərdlərin inkişafına xidmət edən milli prioritetlərin təsdiq olunması o deməkdir ki, iqtisadi islahatlar vətəndaşların sosial rifahını təmin etməli, həmçinin bu inkişafdan hər bir vətəndaş bəhrələnməlidir. Son illərdə respublikamızda iqtisadiyyatın sürətli inkişafı ilə yanaşı, əhalinin rifah halının daha da yaxşılaşdırılması, dövlət tərəfindən sosial öhdəliklərin tam yerinə yetirilməsi, ölkədə sahibkarlıq subyektlərinin sayının artırılması, infrastrukturun daha da təkmilləşdirilməsi, yeni iş yerlərinin yaradılması sayəsində işsizliyin minimuma endirilməsi onu deməyə əsas verir ki, ölkəmizdə davamlı inkişaf prosesi uğurla davam etməkdədir. Dünya İqtisadi Forumunda Prezident İlham Əliyevin söylədiyi kimi "Azərbaycan dünyada sabitlik adasıdır, inkişaf məkanıdır. Ölkəmizdə ictimai-siyasi vəziyyət sabitdir, iqtisadiyyata böyük həcmdə investisiyalar qoyulur və iqtisadiyyatımızın şaxələnməsi istiqamətində çox önəmli addımlar atılır".

Davamlı inkişaf konsepsiyası üç sahəni birləşdirmək nəticəsində yaranmışdır:

1. İqtisadi sahə. Nəzərə alaq ki, "iqtisadi səmərəlilik" konsepsiyası tamamilə fərqli olaraq yeni baxışları nəzərdən keçirir. Təbii ki, təbiət qanunlarını nəzərə alan uzunmüddətli iqtisadi layihələr ekoloji nəticələri nəzərə alınmayan layihələrə nisbətən daha təsirli olur.

2. Ekoloji sahə. Ekologiya sahəsində davamlı inkişafın əsas məqsədi fiziki və ekoloji sistemlərin sabitliyidir. Ekoloji ehtiyacların nəzərə alınması ətraf mühitin dağılmasına və bütün bəşəriyyətin varlığının təhlükə altına alınmasına gətirib çıxara bilər.

3. Sosial sahə. Bu konsepsiya mədəni və sosial sabitliyin qorunmasına səbəb olan münaqişələrin sayının azaldılmasına yönəldilmiş ictimai problemlərin həllində mühüm rol oynaya bilər.

Davamlı inkişaf həyat şəraitinin nizamlanmasını həyata keçirən normativ konsepsiyadır, desək, yanılmarıq. Belə ki, bu nizamlama dörd prinsip əsasında həyata keçirilir: birincisi, davamlılıq prinsipi – davamlı inkişaf müasir dünyada yaşayan insanların təməl ehtiyaclarını və həyat standartlarını ödəməyə xidmət edir. İkincisi, davamlılıq prinsipi planetin bütün əhalisi üçün bərabər standartlar təmin edir. Üçüncü - davamlılıq prinsipidir. Bu prinsip təbiətdən ən ehtiyatlı istifadə yolu ilə resursları tükətmədən, biomüxtəlifliyi pozmadan təbiətin bərpa qabiliyyətinə müdaxilə etməməyi özündə ehtiva edir. Dördüncü, davamlılıq prinsipi gələcək nəsilləri öz tələbatlarını ödəmək imkanından məhrum etmədən indiki nəslin tələbatlarını ödəməyi nəzərdə tutur. Bütün bu prinsiplərin məcmusu davamlı inkişaf nəzəriyyəsinin mərkəzi xəttini təşkil edən "ətraf mühit – inkişaf" prinsiplərini özündə formalaşdırmağa imkan yaradır.

Davamlı inkişafın əsas məsələsi insanın tələb və təşəbbüslərinin təmin edilməsidir. Nəzərə almaq vacibdir ki, davamlı inkişaf bütün insanların ən mühüm tələbatlarının ödənilməsini və hamıya bərabər səviyyədə rifahlı həyat keçirməyə imkan yaradılmasını tələb edir.

Davamlı inkişaf konsepsiyası beş mühüm prinsipə əsaslanır:

1. Bəşəriyyət, həqiqətən, inkişafa davamlı və uzunmüddətli xarakter verməyə malikdir. Çünki o, gələcək nəsillərin öz tələbatlarını ödəmək imkanından məhrum etməməklə hal-hazırda yaşayan insanların tələbatına bərabər cavab verməyə hazır olmalıdır.

2. Təbii resursların istismarı sahəsindəki mövcud məhdudiyyətlər nisbidir. Onlar texniki və sosial təşkilatların müasir səviyyəsi, digər tərəfdən biosferin insan fəaliyyətinin nəticələrini aradan qaldırmaq bacarığı ilə əlaqədardır.

3. Bütün insanların elementar tələbatlarının ödənilməsi zəruridir. Hamıya daha rahat həyata dair öz ümidlərini gerçəkləşdirmək imkanı verilməlidir. Bunlarsız davamlı və uzunmüddətli inkişaf mümkün deyil. Ekoloji və digər fəlakətlərin meydana gəlməsinin əsas səbəbi bütün dünyada adi hala çevrilmiş yoxsulluqdur.

4. Böyük vasitələrə (nəğd pul və əmtəə) malik olanların həyat tərzinin planetin ekoloji imkanları, xüsusilə enerji istehlakına münasibətdə uzlaşdırılması zəruridir.

5. Əhalinin artım sürəti və ölçüsü yerin qlobal ekosisteminin dəyişkən istehsal potensialı ilə uzlaşdırılmalıdır.

Burada ən vacib məsələlərdən biri də davamlı inkişafın dinamik xarakterinin xüsusi vurğulanmasıdır. Belə ki, o, dəyişməz harmoniya halı deyil, resursların istismar miqyası, sərmayə qoyuluşunun istiqamətləri, texniki inkişafın orientasiyası və institusion dəyişikliklərin indiki və gələcək tələbatlarla uzlaşması prosesidir. Davamlı inkişaf konsepsiyasına mövcud yanaşma bir neçə onillik toplanmış inkişaf sahəsindəki tədqiqatlar təcrübəsinə əsaslanır. Davamlı inkişaf, eyni zamanda, tərəqqinin, inkişafın bütün parametrlərinin və prioritetlərinin harmonik şəkildə əlaqələndirilməsini də tələb edir.

Bu isə diqqətimizi həm də mədəniyyətlərin və sivilizasiyaların inkişafına yönəldir. Çünki müasir dövrün çağırışları təkcə insanın davamlı inkişafının təmin edilməsi məqsədi ilə sosial-siyasi-iqtisadi idarəçilik fəlsəfəsinin dəyişilməsini deyil, həm də mədəni transformasiyanın baş verməsi zamanı mədəniyyətlərin və sivilizasiyaların homojenləşməsinin qarşısının alınması, mədəni müxtəlifliliyinin və sivilizasiya identifikasiyalarının qorunmasını tələb edir. Hazırda qloballaşma dövründə dünyanın qloballaşmaya doğru tarixi təkamülündə qarşılıqlı iqtisadi münasibətlərin genişlənməsi, ticarət və texnologiyanın yayılma intensivliyi və planet əhalisinin ortaq mənəviyyat-psixologiya məkanında qərarlaşmasını şərtləndirən sivilizasiya prosesləri – qlobal prioritetlərin astanasına doğru inkişaf etməkdədir. 2030-cu ilə kimi dünya ölkələri tərəfindən davamlı inkişafla bağlı həyata keçirilməsi nəzərdə tutulan məqsədlər diqqəti cəlb edir: I. Planetimizdə yoxsulluğun bütün formalarına son qoymaq. II. Bütün dünyada aclığa və qida çatışmazlığına son qoymaq. III. İnsan sağlamlığını təmin etmək. IV. Cəmiyyətdə əhalinin inklüziv və bərabər keyfiyyətli təhsilinə nail olmaq. V. Gender bərabərliyinə nail olmaq. VI. İnsanların təmiz içməli suya əlyetərliyini təmin etmək və sanitariya vəziyyətini yaxşılaşdırmaq. VII. Planetin əhalisini davamlı enerji sistemi ilə təmin etmək. VIII. Davamlı iqtisadi artım, layiqli əmək və işsizliyi aradan qaldırmaq. IX. Davamlı sənaye, innovasiya və infrastrukturun təmin edilməsi. X. Ayrı-ayrı dünya ölkələri arasında getdikcə genişlənməkdə olan bərabərsizliyin azalması. XI. Yaşayış məskənlərinin davamlılığına nail olmaq. XII. Davamlı istehsal və məsuliyyətli istehlakı təmin etmək. XIII. İqlim dəyişikliyinə qarşı mübarizə. XIV. Dəniz ekosisteminin mühafizəsi. XV. Davamlı inkişafın təmin edilməsi üçün sülh və ədalətin təşviq edilməsi. XVI. Davamlı inkişafa keçməsi prosesində qarşıya qoyulan məqsədlərin yerinə yetirilməsi üçün tərəfdaşlığın genişləndirilməsi.

2030-cu ilədək Davamlı inkişafın məqsədlərini həyata keçirmək vacib bir qətnamədir və bu qətnamədə “Dünyanı dəyişmək”, “Davamlı inkişaf üzrə 2030 Gündəliyi” 2016-cı il yanvar ayından qüvvəyə minmişdir.

Qeyd edək ki, davamlı inkişaf başqa ölkələrin milli suverenliyini təhlükə qarşısında qoymur, həmçinin öz şəxsi ehtiyaclarını, habelə gələcək nəsillərin ehtiyaclarını da qarşılamağa hazırdır. Bura, eyni zamanda, aşağıdakı anlayışlarda daxildir:

- ehtiyaclar konsepsiyası;
- ən kasıb əhalinin dolanışıq tələbləri, xüsusən də, birinci ehtiyacları prioritet ödəmək mövzusu;
- məhdudiyyətlər konsepsiyası;
- cəmiyyətin təşkili və texnologiyanın vəziyyəti, ətraf mühitdəki mövcud və gələcək ehtiyacları ödəmək qabiliyyəti.

Davamlı inkişafın 60-dan çox tərifi dünya ədəbiyyatında müxtəlif səpkilərdə şərh olunmasına baxmayaraq, onun əsas mahiyyətini çağdaş nəsillərin tələblərini ödəməyə qadir olan və onların öz gələcək tələbatlarını ödəməsinə mane olmayan iqtisadi inkişaf və insan fəaliyyətinin idarə edilməsinin yeni forması təşkil edir. Bu tələblər isə yalnız təbii sərvətlərdən və enerji ehtiyatlarından səmərəli istifadə edilməsi, həmçinin ətraf mühitin qorunması, bunun üçün isə yeni texnologiyaların yaradılması və onların istehsalatda geniş tətbiq olunması zəminində həyata keçirilə bilər. Bunun üçün isə insan potensialının inkişafı, müvafiq bilik və bacarıqlara istinad olunması, hər bir şəxs üçün əlverişli sosial-iqtisadi mühitin yaradılması əsas şərtlər hesab olunur. Göründüyü

kimi, davamlı inkişafa yalnız insan inkişafının əsas atributlarının ödənilməsi zəminində nail oluna bilər və bu zaman həyatda, cəmiyyətdə mövcud olan bütün vasitələr: sosial-iqtisadi, ailə-məişət, ekoloji və s. yalnız bir amala – insanların həyat tərzinin yaxşılaşması, onların tələbatlarının ödənilməsi və gələcək nəsillərin maraqlarının nəzərə alınması, həmçinin onların payına düşən ehtiyacların toxunulmaması istiqamətində yönəldilməlidir. Bu inkişafda hər şey yalnız insan inkişafına təminat verməli və zəmin yaratmalıdır.

Qeyd etmək lazımdır ki, Ulu Öndər Heydər Əliyevin daxili və xarici siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev ölkəmizin davamlı inkişafı üçün mühüm tədbirlər həyata keçirmişdir. Belə ki, Azərbaycanda bütün zəruri amillər mövcuddur. Sosial-iqtisadi və mədəni həyatında böyük təkamül yolunu inamla keçərək Azərbaycan sabit, təhlükəsiz və müasir həyat səviyyəsini təmin etmiş ölkə kimi dünyada tanınmışdır. Ölkənin beynəlxalq nüfuzu əhəmiyyətli dərəcədə artmış, cəmiyyətdə dövlətçilik ənənələri güclənmiş, müasir sosial-iqtisadi infrastruktur quruculuğu həyata keçirilmişdir. Ölkənin sosial-iqtisadi inkişafında müəyyən olunmuş 5 milli prioritetin qorunması və reallaşdırılmasına xidmət etmək Azərbaycanda yaşayan hər bir şəxsin vətəndaşlıq vəzifəsidir. Bu beş milli prioritetlər, eyni zamanda, Birləşmiş Millətlər Təşkilatının "Dünyamızın transformasiyası 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn öhdəliklərin icrası istiqamətində də xüsusi əhəmiyyət kəsb edir.

- dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat;
- dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;
- rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;
- işğaldan azad olunmuş ərazilərə böyük qayıdış;
- təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi.

Aparılan təhlillər sübut edir ki, müasir inkişaf prosesində davamlı inkişafa keçilməsi üçün, hər şeydən əvvəl, siyasi, sosial-iqtisadi, ekoloji, elmi-texnoloji, demoqrafik problemlərin həll edilməsinə hər zaman diqqət yetirilməlidir.

### İstifadə olunmuş ədəbiyyat siyahısı:


1. Ələkbərov U. Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları. Bakı: Təhsil, 2013.
2. Hüseynov S. Davamlı insan inkişafının strateji istiqamətləri. Bakı, Adiloğlu, 2003.
3. Mehdiyev R. İlham Əliyevin iqtisadi inkişaf strategiyasının əsas istiqamətləri. Azərtac. 16 aprel 2018.
4. Şükürov A. Təbiət və cəmiyyət: Fəlakətin astanasında. Bakı. Azərnəşr. 1992.
5. Устойчивое развитие: новые вызовы. Учебник для вызов (Под общей ред. В.И.Данилова, Н.А.Пискуловой). М., Изд-во Аспекты Пресс, 2015.
6. Azərbaycan Respublikasında İnsan inkişafı haqqında Hesabat. BMTİP. Bakı, 2002.
7. Şükürov A. Sosial ekologiya. Dərslik. Bakı. Şəfəq-İM. 1999.
8. "Azərbaycan" qəzeti. 21 fevral 2003-cü il.
9. "Xalq" qəzeti. 06 noyabr, 2010-cu il.

*Aliona Balan,*
*Ph.D. (Econ.), Associate Professor,*
*National Institute for Economic Research,*
*Republic of Moldova, Chisinau,*
*E-mail: balan.a@ase.md*

# THE IMPACT OF RENEWABLE ENERGY CONSUMPTION ON THE WELL-BEING OF THE POPULATION OF THE REPUBLIC OF MOLDOVA

## Introduction

Renewable energy serves as a cornerstone for economic development, providing a pathway toward sustainable growth and improved living standards. Investments in renewable energy infrastructure not only create employment opportunities but also catalyze economic expansion, thereby elevating income levels and fostering economic stability (Nemet, 2006).

Moreover, the accessibility of renewable energy sources plays a pivotal role in promoting human development. Unlike conventional energy sources, renewable energy technologies, such as solar and wind power, often feature decentralized distribution networks, making energy more accessible to remote and underserved communities (International Renewable Energy Agency, 2019). Enhanced access to energy translates into increased economic productivity, improved healthcare services, and better educational opportunities, thereby contributing to holistic human development.

The environmental sustainability offered by renewable energy further bolsters its impact on human development. By generating fewer greenhouse gas emissions and reducing environmental pollution, renewable energy technologies contribute to cleaner air and water, thereby mitigating public health risks and enhancing overall well-being (United Nations Development Programme, 2020).

Moreover, the transition toward renewable energy enhances energy security, a critical component of human development. Diversification of energy sources reduces dependence on imported fossil fuels, ensuring a stable and reliable energy supply (International Energy Agency, 2020). This stability not only supports economic activities but also safeguards access to essential services, thereby bolstering societal resilience against energy crises or disruptions.

Finally, the pursuit of renewable energy fosters education and innovation, driving progress in human capital development. Investments in education and research and development within the renewable energy sector spur technological innovation and cultivate skilled labor (Jacobsson & Lauber, 2006). By nurturing a culture of innovation and knowledge-sharing, renewable energy initiatives contribute to higher levels of education and innovation, propelling societies toward greater heights of human development.

## Renewable Energy Landscape in Moldova

Moldova's renewable energy sector has experienced notable growth in recent years, driven by governmental initiatives, international collaborations, and advancements in technology. Wind, solar, biomass, and hydropower are prominent renewable energy sources being developed in the country. The government has implemented various policies to incentivize renewable energy deployment, including feed-in tariffs and investment incentives. Despite progress, challenges such as limited infrastructure and financing constraints persist, hindering the sector's full potential (Grigore & Rusu, 2019).

## Data

The Data covers the period between 1995 to 2021 inclusive. A brief description of the variables is provided in Table 1. Lack of data did not allow an extension of this analysis for an extended amount of time. All the variables except Total Solar Irradiance (TSI) were taken from the World Bank Open Source Data.

We consider the Human Development Index as a suitable measure for welfare in the Republic of Moldova. The HDI is calculated by combining the life expectancy index, the education index and the GINI index. With a mean HDI of 705.5926 and a range from 617 to 776 among the observed years, Moldova's HDI reflects the country's progress in key areas such as life expectancy, educational attainment, and standard of living.

A higher HDI value indicates a higher level of human development, signifying greater access to healthcare, education, and economic opportunities for the population. In Moldova, efforts to improve HDI have been central to governmental policies and development initiatives, aiming to uplift the standard of living and enhance the well-being of its citizens.

However, despite progress in certain aspects, Moldova faces challenges in achieving sustained improvements in HDI across all dimensions. Economic disparities, healthcare accessibility, and educational quality remain areas of concern, affecting the overall HDI score and highlighting the need for targeted interventions to address underlying structural issues.

Renewable Energy Consumption (% of total final energy consumption) emerges as a compelling focus of our analysis, demonstrating a noteworthy trend depicted in Figure 1: a substantial leap from 5% in 2009 to 20% in 2010. This remarkable surge prompts exploration into its underlying drivers, which could encompass a range of factors such as policy interventions, technological advancements, or shifts in governance. Notably, the observed increase coincides with Moldova's transition from a communist regime to a more liberal governance structure in 2009. Further investigation into these dynamics will be integral to our subsequent analysis.




***Source: The World Bank, https://data.worldbank.org/country/MD***

***Figure 1. Renewable Energy Consumption (% of total final energy consumption).***

Total Solar Irradiance was taken from Copernicus' Climate Data Store, in particular using RMIB's (Royal Meteorological Institute of Belgium) data on TSI for the specific coordinates of Moldova.[1] The Total Solar Irradiance (TSI) is a measure of the total solar power received per unit area at the top of the Earth's atmosphere. In the context of the Republic of Moldova, TSI serves as a key indicator of solar energy availability and potential for solar power generation. With an average TSI of 1361.349 W/m² observed across the country, Moldova benefits from relatively consistent solar radiation levels throughout the year. This solar resource presents opportunities for leveraging solar energy technologies to meet energy demands, reduce greenhouse gas emissions, and enhance energy security.

TSI data provides valuable insights for policymakers, energy planners, and renewable energy developers in Moldova. By understanding the spatial and temporal variability of solar irradiance, stakeholders can optimize the deployment of solar energy systems, such as photovoltaic panels and concentrated solar power plants, to maximize energy production and economic benefits.

[1] Latitude: 47.4116° N to 48.4900° N, Longitude: 26.6100° E to 30.1356° E

***Table 1.***

**Variable Description**

| Variable | HDI | Renewable energy consumption (% of total final energy consumption) | Total Solar Irradiance (1 Astronomical Unit) | Total greenhouse gas emissions (kt of CO2 equivalent) | Nitrous oxide emissions (thousand metric tons of CO2 equivalent) | Annual freshwater withdrawals, total (% of internal resources) |
|---|---|---|---|---|---|---|
| Obs | 27 | 27 | 27 | 27 | 27 | 27 |
| Mean | 705.5926 | 13.05704 | 1361.349 | 12990.59 | 966.7258 | 65.60742 |
| Std. Dev. | 54.1126 | 9.616174 | 0.3889613 | 1551.056 | 173.7366 | 32.96014 |
| Min | 617 | 2.84 | 1360.896 | 11426.03 | 741.3358 | 51.66667 |
| Max | 776 | 26.07 | 1362.274 | 18557.85 | 1474.54 | 211.3333 |

***Source: The World Bank, https://data.worldbank.org/country/MD, Copernicus DOI: 10.24381/cds.85a8f66e***

**Methodological Approach**

To examine the impact of renewable energy consumption on welfare indicators in Moldova, we first use standard OLS regressing HDI on Renewable Energy Consumption, as shown in the main equation below:

$$y_t = X'\beta + \delta R_t + \varepsilon_t$$

Where y is the natural log Human Development Index, R is Renewable Energy Consumption and X are other various controls as presented in columns 2 and 3 in Table 2. The regressor of interest is δ as it shows the effect of Renewable energy consumption on the HDI.

Table 2 shows that, while renewable energy consumption appears to have a positive association with HDI in Model 1, this relationship becomes less clear when additional variables are included in the analysis. Other variables such as total GHG emissions, nitrous oxide emissions, and freshwater withdrawals do not show consistent or statistically significant relationships with HDI across the different models and the results are more or less economically insignificant.

***Table 2.***

**OLS Results**

| | **1** | **2** | **3** |
|---|---|---|---|
| Renewable Energy | 0.0067896*** | 0.0069638 | 0.0058522 |
| Total Greenhouse Gas Emissions | | -2.19e-06 | 1.13e-06 |
| Nitrous Oxide Emissions | | -0.0001044 | -0.0000386 |
| Annual Freshwater Withdrawals | | | -0.0007672 |
| Constant | 6.467488 | 6.594643 | 6.552693 |
| Number of obs | 27 | 27 | 27 |
| Procedure | OLS | OLS | OLS |
| F-statistic | 67.94 | 26.06 | 27.88 |
| R-squared | 0.6999 | 0.7727 | 0.8182 |
| Root MSE | 0.04359 | 0.03956 | 0.03617 |

***Source: **: 5% sig. ***: 1% sig. P-values based on regression analysis. Elaborated by the author based on the data from: The World Bank, https://data.worldbank.org/country/MD, Copernicus DOI: 10.24381 /cds. 85a8f66e***

We proceed with 2SLS regression. This econometric technique mitigates endogeneity issues, ensuring robust estimates of the relationship between renewable energy consumption and welfare outcomes. Endogeneity arises when independent variables are correlated with the error term in regression analysis, leading to biased and inconsistent parameter estimates. In the context of studying the impact of renewable energy consumption on welfare outcomes such as the Human Development Index (HDI), endogeneity may occur due to omitted variables, reverse causality, or measurement errors.

2SLS regression addresses endogeneity by using instrumental variables (IVs) to instrument for the endogenous variables. In our context, we use Total Solar Irradiance as an instrument for Renewable Energy Consumption, which is relevant. We assume that it is also an exogenous instrument and that it is not directly affecting HDI apart from its relationship with the main regressor. We do note that perhaps TSI does encompass all forms of renewable energy and solely focuses on solar power generation, but due to data limitations this was the best choice moving forward.

Results for this 2SLS are presented in Table 3. Column 3 shows that the coefficient for renewable energy consumption is 0.0161518. This suggests that a one percentage increase in renewable energy consumption of total energy consumption is associated with an approximate increase of 1.6% in HDI. In simpler terms, as the consumption of renewable energy increases, there is a corresponding positive impact on the HDI.

***Table 3.***

**2SLS Results**

| | **1** | **2** | **3** |
|---|---|---|---|
| Renewable Energy | 0.0208114*** | 0.0148306** | 0.0161518** |
| Total Greenhouse Gas Emissions | - | 0.0000524 | 0.0000513 |
| Nitrous Oxide Emissions | - | -0.0005753 | -0.0006536 |
| Annual Freshwater Withdrawals | - | - | 0.0007105 |
| Constant | 6.284405 | 6.238264 | 6.263893 |
| Procedure | IV | IV | IV |
| Number of obs | 27 | 27 | 27 |
| R-squared | - | 0.1739 | 0.0052 |
| Root MSE | 0.13881 | 0.0696 | 0.07638 |

***Source: **: 5% sig. ***: 1% sig. P-values based on regression analysis. Elaborated by the author based on the data from: The World Bank, https://data.worldbank.org/country/MD, Copernicus DOI: 10.24381/cds.85a8f66e***

## Conclusion

In conclusion, the analysis highlights the significant impact of renewable energy consumption on human development, as evidenced by the positive relationship observed between renewable energy consumption and indicators of human development. Through robust econometric techniques such as instrumenting renewable energy consumption trough total solar irradiance, we have demonstrated that increased adoption of renewable energy positively influences human development indices in the Republic of Moldova.

In light of these findings, policymakers, stakeholders, and communities are encouraged to prioritize and accelerate the adoption of renewable energy solutions. By harnessing the economic, social, and environmental benefits of renewable energy, countries can advance their sustainable development agendas and achieve tangible improvements in human well-being and quality of life.

## References:


1. Dewitte, S. and Nevens, S., (2021): Earth's radiation budget from 1979 to present derived from satellite observations. Copernicus Climate Change Service (C3S) Climate Data Store (CDS). DOI: 10.24381/cds.85a8f66e
2. Grigore, L., & Rusu, V. (2019). Renewable Energy Sources in the Republic of Moldova: Current Status and Perspectives. Energies, 12(22), 4378.
3. International Renewable Energy Agency. (2019). Renewable Energy Statistics 2019. Abu Dhabi, United Arab Emirates: International Renewable Energy Agency.
4. International Energy Agency. (2020). World Energy Outlook 2020. Paris: International Energy Agency.
5. Jacobsson, S., & Lauber, V. (2006). The politics and policy of energy system transformation-explaining the German diffusion of renewable energy technology. Energy Policy, 34(3), 256-276.
6. Nemet, G. F. (2006). Beyond the learning curve: Factors influencing cost reductions in photovoltaics. Energy Policy, 34(17), 3218-3232.
7. United Nations Development Programme. (2020). Human Development Report 2020: The Next Frontier: Human Development and the Anthropocene. New York, NY: United Nations Development Programme.
8. World Bank "World Development Indicators", https://data.worldbank.org/country/MD

*Əliyev Əlövsət Qaraca oğlu,*
*iqtisad elmləri doktoru,*
*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi*
*İnformasiya Texnologiyaları İnstitutu,*
*E-mail:alovsat_qaraca@mail.ru*

*Abasova Südabə Eybalı qızı,*
*baş elmi işçi,*
*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi*
*İnformasiya Texnologiyaları İnstitutu,*
*E-mail: abasova.sudaba@gmail.com*

# RƏQƏMSAL TRANSFORMASİYALAR KONTEKSTİNDƏ İQTİSADİ İNKİŞAFA İQLİM DƏYİŞİKLİYİ PROBLEMLƏRİNİN TƏSİRİ MƏSƏLƏLƏRİ

## Giriş

İqlim dəyişikliyi müasir dövrün ən aktual problemlərindən biri kimi tanınır və onun geniş təsirləri bütün dünyada hiss olunur. Qlobal temperaturun yüksəlməsi, ekstremal hava hadisələri və ətraf mühitin deqradasiyası təkcə dünya ilə məhdudlaşmır, həm də iqtisadi inkişafa dərin təsir göstərir. Bu kontekstdə rəqəmsal transformasiyaların iqlim dəyişikliyinin azaldılmasında və uyğunlaşmasında rolu getdikcə daha çox əhəmiyyət kəsb edir. Rəqəmsal texnologiyalar iqtisadiyyatı yenidən formalaşdırmağa davam etdikcə, onlar həm də iqlim dəyişikliyinin yaratdığı problemlərin həlli üçün yeni imkanlar təqdim edir. Təbii resursların monitorinqi və idarə edilməsi üçün uzaqdan zondlama texnologiyalarından tutmuş enerji səmərəliliyinin optimallaşdırılması üçün smart şəbəkələrə qədər rəqəmsal innovasiyalar davamlılığın yaradılmasında və istixana qazı emissiyalarının azaldılmasında mühüm rol oynayır. *BMT-nin 2030-Dayanıqlı İnkişaf Məqsədlərindən* (https://unstats.un.org/sdgs/report/2020/) olan İqlim dəyişikliyi və onun təsirlərinə qarşı mübarizə aparmaq iqtisadi inkişafın əsas istiqamətlərindəndir. Ekstremal hava hadisələrinin tezliyindəki dəyişikliklər ümumi iqlim dəyişikliyinin baş verməsinə gətirir. Demək olar ki, qeyri-sabit hava şəraiti dünyanın bir sıra ölkələrində hiss olun-maqda və problemlər yaratmaqdadır.
(https://www.un.org/en/climatechange/what-is-climate-change).

İqlim dəyişikliyi hazırda bir çox ölkələr tərəfindən əsrin ən mühüm qlobal çağırışlarından biri kimi qəbul edilir. Qlobal iqlim dəyişikliyi dünya qarşısında duran böyük problemlərdən biridir (https://ict.az/az/news/6953/). Azərbaycan da bu problemlərlə mübarizə istiqamətində öz töhfəsini verməkdədir. Bununla bağlı qlobal çağırışlara uyğun olaraq ölkədə yaşıl enerji, yaşıl texnologiya, yaşıl iqtisadiyyat, yaşıl təfəkkür sürətlə inkişaf edir, yəni hər şey yaşıllaşır. Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Azərbaycan elektrik enerjisi istehsalının ümumi həcmində bərpa olunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir. Ona görə də hesab etmək olar ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ölkənin milli, regional və qlobal səviyyədə ətraf

mühitin qorunmasına, iqlim dəyişmələrinin qarşısının alınmasına yeni imkanlar yaradır. Bu istiqamətdə həm ölkə daxilində, həm də Azərbaycan ilə digər ölkələrin iqlim dəyişmələrinə qarşı qlobal mübarizəsində beynəlxalq həmrəyliyinin gücləndirilməsi məqsədilə ölkədə 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan edilmişdir (https://president.az/az/articles/view/62737).

Ölkədə "yaşil iqtisadi artım"a nail olmaq istiqamətində qlobal iqlim dəyişikliklərinin miqyasını nəzərə alaraq ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer verilir. Dünya ictimaiyyəti üçün ən vacib məsələlərdən biri olan qlobal iqlim dəyişikliyinin aktual problemləri müntəzəm olaraq araşdırılır. Ona görə də hesab edirik ki, bu kimi problemlərin təsirinin azaldılmasında və həllində müasir İKT vasitələri və rəqəmsallaşma prosesləri ciddi rol oynaya bilər [1, s.2].

**Problemin qoyuluşu**

Qlobal və regional ekoloji və iqlim dəyişikliyi probleminin aktuallığı antropogen amillərin artan təsiri, o cümlədən atmosferdə karbon qazı və digər istixana qazlarının konsentrasiyasının davamlı artması ilə əsaslandırılır. Bu isə qlobal istiləşməyə səbəb olur, texnogen və sosial sferalarda fəlakətlərin baş vermə riskini artırır [4].

İqlim dəyişikliyinin əsas səbəbi Yerdəki dinamik proseslər, günəş radiasiyasının intensivliyinin dəyişməsi və s. kimi xarici təsirlərlə yanaşı insan fəaliyyətidir. Bu dəyişmələr təbii yolla, məsələn, günəş dövrünün dəyişməsi nəticəsində baş verir və mövcud iqlimin dəyişməsi qlobal istiləşmə kimi ifadə olunur. İqlimşünasların təxminən 97%-i təsdiqlənmiş dəlillərə əsaslanaraq, iqlim dəyişikliyinin baş vermə səbəbinin insan fəaliyyəti üzündən olduğu qənaətinə gəliblər (https://whatweknow.aaas.org/get-the-facts/).

İqlim dəyişikliyi problemlərini yaradan istixana qazı emissiyaları atmosferdə karbon və metan qazlarının artması nəticəsində əmələ gəlir. Belə ki, ilk növbədə kömür, neft, qaz kimi qalıq (fosil) yanacaqların yandırılması, nəqliyyat vasitələrində benzindən, binanı qızdırmaq üçün kömürdən istifadə edilməsi, meşə yanğınları, torpağın və meşələrin təmizlənməsi, meşələrin qırılması, meşənin və ya ağacların torpaqdan çıxarılması və sonradan qeyri-meşə istifadəsinə çevrilməsi zamanı karbon qazı, zibil poliqonlarında isə metan qazı emissiyaları yaranır. Beləliklə enerji, sənaye, nəqliyyat, binalar, kənd təsərrüfatı və torpaqdan istifadə emissiyaların əsas mənbələrindəndir. Bütün bunlar bir daha təsdiqləyir ki, iqlim dəyişikliyi problemlərinin təsiri məsələlərinin öyrənilməsinə və kompleks təhlilinə ehtiyac çoxdur. Təbii ki, həmin problemlərin həllində yüksək texnologiyaların tətbiqi qaçılmazdır [3]. Həmin problemləri aşkarlamaq və önləyici tədbirlərlə onların mənfi təsirlərinin azaldılmasına çalışılmalıdır.

**İqlim dəyişikliyi nəticəsində cəmiyyətin üzləşdiyi problemlər**

Dünyada milyonlarla insan ciddi geosiyasi münaqişələr və gərginliklərlə, daha da ağırlaşan enerji, qida, su və digər yaşayış vasitələri sahələrində eyni vaxtda baş verən böhranların təsiri ilə üzləşir. Bütün dağıdıcı daşqınlar, güclü zəlzələlər, görünməmiş istilik dalğaları, şiddətli quraqlıqlar, nəhəng fırtınalar baş verməkdə olan fövqəladə iqlim şəraitinin tamamilə aşkar əlamətləridir.

19-cu əsrdən bəri insan fəaliyyəti, əsasən qalıq yanacaqların (kömür, neft və qaz) yandırılması, kənd təsərrüfatı, meşələrin qırılması və yanğınları nəticəsində atmosferə getdikcə daha çox istixana qazları buraxılmışdır. Bu proseslər istixana effektini artıra-

raq qlobal istiləşməyə səbəb olmuşdur. Tədqiqatlara görə, artıq enerji Yer kürəsinin müxtəlif hissələri: 91%-i okeanlar, 5%-i quru, 3%-i isə buzlar tərəfindən udulur. Əlavə istiliyin yalnız 1%-i atmosfer tərəfindən udulur. Bu istiləşmə isə iqlimin bir çox aspektlərində dəyişikliklərə səbəb olur. Hazırki dövrdə istixana qazlarının konsentrasiyası son 2 milyon ilin ən yüksək səviyyəsinə, metan və azot oksid konsentrasiyaları isə ən azı 800.000 ildə ən yüksək həddə çatmış və emissiyaların artması getdikcə davam edir. Deməmk olar ki, Yerin atmosfer qatında üç əsas istixana qazının - karbon dioksid ($CO_2$), metan ($CH_4$) və azotoksidinin (NO) atmosferdəki konsentrasiyası 2021-ci ildə rekord həddə çatmışdır. (https://www.ipcc.ch/report/ar6/wg1/downloads/ outreach /IPCC_AR6_WGI). Bu barədə BMT-nin Ümumdünya Meteorologiya Təşkilatının (ÜMT) informasiya bülletenində də müvafiq məlumat verilmişdir.

20-ci əsrin ortalarında bəşəriyyət Yer planetində ekoloji böhranın yaranması və sürətli inkişafı ilə üz-üzə qalmışdır. Bu tipli ekoloji problemlər qlobal iqlim dəyişikliyinə, ozon təbəqəsinin azalmasına, meşələrin qırılmasına və səhralaşmaya səbəb olmuşdur. Təbii mühitdə antropogen təsirlərin artmasına, pozulmamış və ya bir qədər pozulmuş ekosistemləri olan ərazilərin getdikcə daha da azalmasına gətirib çıxarmışdır. 21-ci əsrdə qlobal iqlim modellərindən istifadə etməklə aparılan hesablamalara görə $CO_2$ konsentrasiyası iki dəfə artarsa, havanın orta temperaturu 1,5-5,8° C arta bilər [4].

İqlim dəyişikliyinə ən çox səbəb olan emissiyalar dünyanın hər yerində baş verir və hər kəsə təsir edir. Bəzi ölkələr isə digərlərindən daha çox emissiya yaratmaqda davam edir. Ən az emissiya yaradan 100 ölkə ümumi tullantıların 3 faizini, ən çox emissiyaya malik 10 ölkə isə 68 faizini təşkil edir (şəkil 1). Demək olar ki, bu cür çirklənmənin böyük hissəsi yalnız Çinlə ABŞ-ın payına düşür. Belə ki, 1) Çin bütün qlobal emissiyaların təxminən 30%-ini; 2) ABŞ isə 14%-ini əhatə edir.
(https://climatetrade.com/ which-countries-are-the-worlds-biggest-carbon-polluters/).




***Şəkil 1. Ən çox emisiyalar yaradan ölkələr.***

İnsanın ətraf mühitə təsiri nəticəsində yaranan antropogen dəyişikliklər istixana qazları emissiyalarını, sənayedən əvvəlki dövrdən, daha yüksək səviyyəyə qaldırmışdır. Son 800.000 ildə görünməmiş karbon qazı, metan və azot oksidinin atmosferdəki konsentrasiyasının digər antropogen amillərlə birlikdə təsiri bütün iqlim sistemində aşkar edilmiş və çox güman ki, 20-ci əsrin ortalarından bəri müşahidə olunan istiləşmənin əsas səbəbi olmuşdur (https://climate.mit.edu/sites/default/files/2022-01/TILclimate). Son illərdə Şərqi Afrikada baş verən və daim təkrarlanan quraqlıq Somali, Keniya, Uqanda, Cibuti, Efiopiya, Cənubi Sudan və Sudanda 50 milyondan çox vətəndaşı qida çatışmamazı təhlükəsi ilə üz-üzə qoymuşdur (https://reliefweb.int/report/ethiopia/eastern-africa-over-insecurity-2022). 2020-ci ildə Avstraliyada ilin ən rekord istisi müşahidə olundu. Mövsümün ortasında dəhşətli meşə yanğınları 10 milyon hektardan çox ərazinin yanmasına, onlarla adamın ölümünə, əksər icmaların yerlə-yeksan olmasına, minlərlə ailənin evlərinin məhv olmasına, milyarddan çox yerli heyvanın ölməsinə, bəzi növlərin və ekosistemlərin heç vaxt bərpa oluna bilməməyinə səbəb olmuşdur.

Son illərdə ölümcül daşqınlar və torpaq sürüşmələri Hindistan, Nepal və Banqladeşdə 12 milyon insanı evlərini tərk etmək məcburiyyətində qoymuşdur. Bəzi yerlərdə daşqın təxminən 30 ilin ən güclüsü olmuş, Banqladeşin üçdə bir hissəsi su altında qalmışdır (https://www.oxfam.org/en/5-natural-disasters-beg-climate-action). Hesablamalara görə, 2030-cu ilə qədər Dünya Okeanının səviyyəsində ən çox ehtimal olunan artımın 14-24 sm olacağı, dəniz səviyyəsinin XXI əsrdə ötən əsrlə müqayisədə 5-10 dəfə sürətlə qalxacağı və maksimum 60 sm, minimum isə 5 sm olacağı gözlənilir, bu da təxminən 800 milyon insanın həyat və sağlamlığının pozulması və məhvi ilə nəticələnə bilər [4].

**İqlim dəyişikliyi təsirlərinin azaldılması məqsədi**

İqlim dəyişikliyi və onun dağıdıcı təsirləri ilə mübarizə aparmaq, həmin sahədə təcili tədbirlərin görülməsi, buna görə də insanların həyatını və dolanışıq vasitələrini xilas etmək ən vacib şərtlərdən biridir. Dayanıqlı İnkişaf üzrə 17 Məqsəd, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası və Paris Sazişi məhz bu istiqamətdə strateji hədəfləri təyin edir. 1995-ci ildə Berlində keçirilmiş (Conference of the Parties, Tərəflərin Konfransı (COP)) "COP-1"dən başlamış, 2023-cü il "COP-28" (BƏƏ, Dubay), və 2024 cü ilin noyabr ayında Bakıda keçiriləcək "COP-29"a qədər müxtəlif ölkələrdə baş tutan İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası ilə bağlı Tərəflərin Konfransları (şəkil 2) və s. kimi qlobal çağırışların və iqlim dəyişikliyi problemlərinin həllində çox böyük rol oynayır və gələcək üçün ən yaxşı planın açarıdır (https://en.wikipedia.org/wiki/United_Nations_Climate_Change_Conference).

| Sıra № | COP-lar | Keçirilmə tarixi | Keçirildiyi Ölkə |
|---|---|---|---|
| 1 | COP-1 | 1995-ci il | Almaniya Berlin |
| 2 | COP-2 | 1996-cı iı | İsveçrə, Cenevrə |
| 3 | COP-3 | 1997-ci il | Yaponiya, Kioto |
| 4 | COP- 4 | 1998-ci il | Argentina, Buenos Ayres |
| 5 | COP-5 | 1999-cu iı | Almaniya, Bonn |
| 6 | COP-6 | 2000-ci il | Hollandiya Haaqa |
| 7 | COP-6 | 2001-ci il | Almaniya, Bonn |
| 8 | COP-7 | 2001-ci il | Mərakeş Mərakeş |
| 9 | COP-8 | 2002-ci il | Hindistan Yeni Dehli |
| 10 | COP-9 | 2003-cü il | İtaliya Milan |
| 11 | Cop-10 | 2004-cü il | Argentina, Buenos Ayres |
| 12 | COP-11 | 2005-ci il | Kanada Monreal Kvebek |
| 13 | COP-12 | 2006-cı il | Keniya Nayrobi |
| 14 | COP-13 | 2007-ci il | İndoneziya Bali Nusa Dua |

| Sıra № | COP-lar | Keçirilmə tarixi | Keçirildiyi Ölkə |
|---|---|---|---|
| 15 | Cop-14 | 2008-ci il | Polşa Poznan |
| 16 | COP-15 | 2009-cu il | Danimarka Kopenhagen |
| 17 | COP-16 | 2010-cu il | Meksika Cancun |
| 18 | COP-17 | 2011-ci il | Cənubi Afrika Durban |
| 19 | COP-18 | 2012-ci il | Qatar Doha |
| 20 | COP-19 | 2013-cü il | Polşa Varşava |
| 21 | COP-20 | 2014-cü il | Peru Lima |
| 22 | COP-21 | 2015-ci il | Fransa Paris |
| 23 | COP-22 | 2016-cı il | Mərakeş Mərakeş |
| 24 | COP-23 | 2017-ci il | Almaniya, Bonn |
| 25 | Cop-24 | 2018-ci il | Polşa Katoviç |
| 26 | COP-25 | 2019-cu il | İspaniya Madrid |
| 27 | COP-26 | 2021-ci il | Böyük Britaniya Qlasqo |
| 28 | COP-27 | 2022-ci il | Misir Şarm El Şeyx |
| 29 | COP-28 | 2023-cü il | BƏƏ Dübay |
| **30** | **COP-29** | **2024-cü il** | **Azərbaycan Bakı** |

***Şəkil 2. COP-1-dən COP-29-a qədər keçirilən konfransların tarixi və yeri.***

COP-27 sammitində olan əsas çağırışlardan ən vacibi Paris Sazişində göstərildiyi kimi, planetin qlobal orta temperaturunu 2100-cü ilə qədər sənayedən əvvəlki səviyyədən $2^0$ dərəcə selsidən çox keçməsinin qarşısını almaq və istiləşməni $1,5^0$ dərəcə daxilində saxlamaq üçün tədbirlər görməkdir (hazırda orta temperatur 1850-1900-cu illərdəki illik orta göstəricidən 0,75 dərəcə yüksəkdir). Tədbirlər nəticəsində qlobal istixana qazı emissiyaları 2025-ci ilə qədər pik nöqtəsinə çataraq, 2030-cu ilə qədər 45% azalmalı və 2050-ci ilə qədər xalis sıfıra enməlidir. Bu isə daha tez-tez baş verən şiddətli quraqlıqlar, güclü istilik dalğaları və yağışlar da daxil olmaqla, iqlim dəyişikliyinin ən pis təsirlərindən qaçmaq üçün çox vacibdir. (https://www.un.org/en/ climatechange/ net-zero-coalition).

Qeyd etmək lazımdır ki, Azərbaycan 1995-ci ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına qoşulmuşdur. Konvensiyanın Kioto protokolunu (qlobal istiləşmənin qarşısını almaq, atmosferdə istixana qazı emissiyalarını azaltmaq üçün bağlanmış beynəlxalq müqavilə) 2000-ci ildə, Paris Sazişini isə 2016-ci ildə ratifikasiya etmişdir.

2021-ci ildə Qlazqo şəhərində keçirilən COP26 konfransında Azərbaycan işğaldan azad edilmiş ərazilərdə "xalis sıfır emissiya" zonası yaratmaq arzusunu ifadə etdiyini və BMT bu məqsədlərə çatmaqda kömək göstərmək üçün Azərbaycanla işləmək niyyətində olduğunu bildirmişdir (https://minenergy.gov.az/en/beynelxalq-teskilatlarla-elaqeler/bmt-nin-iqlim-deyisikliyi-uzre-cercive-konvensiyasi-kioto-protokolu). Hər bir ölkə müəyyən edilmiş vasitələrlə emissiyaları azaltmaq və iqlim təsirlərinə uyğunlaşmaq üçün iqlim fəaliyyət planlarını həyata keçirmək məcburiyyətində olmalıdırlar. Bütün bunlara baxmayaraq, mövcud milli öhdəliklər də 1,5°C hədəfinə çatmaq üçün kifayət dərəcədə deyildir.

Hazırda qlobal çağırışlarla yanaşı, Yaxın Şərq və Afrikada quraqlıq, Ukrayna müharibəsinin daha da ağırlaşdırdığı ərzaq böhranı, miqrasiya, iqlim dəyişikliyinin fəsadları olduqca aktual problemlərdir. Bu problemlərin həllində beynəlxalq miqyasda əməkdaşlığın daha da inkişafına ehtiyac vardır. Bərpa olunan enerji istehsalı sahəsində böyük layihələrə investisiyaların qoyulması, təmiz su mənbələrinin mühafizəsi, yoxsul ölkələrə yardımların göstərilməsi məsələləri hamını narahat edən ümumbəşəri problemlərdir. Quraqlıq, təbii fəlakətlər, habelə qlobal enerji və ərzaq qiymətlərinin qalxması dayanıqlı inkişaf proqramında nəzərdə tutulan hədəflərə çatmaqda ciddi maneələr yaradır. Demək olar ki, ciddi enerji böhranı və inflyasiya ilə qarşılaşan inkişaf etmiş ölkələrin Afrika dövlətlərinə yardımları da xeyli azalmışdır.

İqlim dəyişikliyi və onun təsirlərinə qarşı mübarizədə əsas məqsəd iqlim dəyişikliyi təsirlərinin azaldılması və davamlılığının təmin edilməsi üçün qarşıya qoyulan zəruri planların həyata keçirilməsidir. Belə ki, iqlim böhranının qarşısını almaq üçün bütün dünyada hər kəs, mümkün olan hər şeyi etməlidir. Bu mənada milli hökumətlər üç kritik sahəyə diqqət yetirməlidirlər. 1.Paris Sazişinin icrasına transformasiya xarakterli keçid və danışıqların konkret fəaliyyətə keçməsi; 2.Təsirlərin azaldılması, uyğunlaşma, maliyyənin gücləndirilməsi, itki və zərərlərin azaldılmasında irəliləyişin möhkəmləndirilməsi; 3.BMT-nin iqlim dəyişikliyi prosesi boyunca şəffaflıq və cavabdehlik prinsiplərinin həyata keçirilməsinin gücləndirilməsi. İqlim böhranının qarşısını almaq üçün həll yollarının axtarılmasında etimad yaratmaq, layihələri genişləndirmək, inkişaf etməkdə olan ölkələrə daha çox vəsait yönəltmək və s. kimi fəaliyyət sahələrini genişləndirmək zəruridir.

**İqlim dəyişikliyi problemlərinin həllində İKT-nin tətbiqinin konseptual istiqamətləri**

İKT müxtəlif innovativ həllər və yanaşmalar vasitəsilə iqlim dəyişikliyi problemlərinin həllində mühüm rol oynayır. İKT-nin, yaşıl texnologiyaların iqlim dəyişikliyinin azaldılması və uyğunlaşma strategiyalarına inteqrasiyası istixana qazları emissiyalarının azaldılmasına və qlobal istiləşmənin təsirlərinə davamlılığın artırılmasına yönəlmiş təşəbbüslərin səmərəliliyini, effektivliyini və miqyasını artırmaq potensialına malikdir [1, s.2]. İqlim dəyişikliyinin həllində İKT-nin tətbiqi ətraf mühitə təsirləri azaltmaq, dayanıqlığı artırmaq və dəyişən iqlimə uyğunlaşmanı asanlaşdırmaq üçün innovativ həllər təklif edən bir sahədir. İKT, İnternet xidmətləri, telekommunikasiyalar və müxtəlif rəqəmsal platformalar da daxil olmaqla geniş spektrli texnologiyaları əhatə edir ki, bunların hamısı iqlim dəyişikliyinin müxtəlif aspektlərini həll etmək üçün istifadə edilə bilər. İKT-nin iqlim dəyişikliyi ilə mübarizə sahəsində tətbiqinin effektiv təsiri məsələlərinə aid etmək olar: 1) Məlumatların toplanması və monitorinqi. 2) İqlimi modelləşdirmə və proqnozlaşdırma. 3) Ağıllı infrastruktur. 4) Resursların idarə edilməsi. 5) İctimai iştirak və davranış dəyişikliyi. 6) Davamlılığın və uyğunluğun artırılması. 7) İqlim dəyişikliyinin həllində çağırışlar və s.

İqlim dəyişikliyi təhlükəsi problemlərinin həllində yüksək texnologiyaların, o cümlədən İKT, süni intellekt, İoT, rəqəmsal əkiz və s. kimi rəqəmsal texnologiyaların böyük əhəmiyyətinin olduğu müəyyən edilmişdir. Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) Meksikada 2010-cu ildə keçirdiyi Səlahiyyətli Konfransında "İqlim dəyişikliyi və ətraf mühitin mühafizəsində telekommunikasiya/informasiya və kommunikasiya texnologiyalarının rolu" Qətnaməsini qəbul etmişdir (https://mognovse.ru/rjo-assambleya-radiosvyazi-ar-12-jeneva). Həmin sənəddə iqlim dəyişiklikləri ilə əlaqədar problemlərin həlli üçün inkişaf etməkdə olan ölkələrə yardım göstərilməsində İKT-dən istifadənin zəruriliyi qeyd edilmişdir.

İKT emissiyaları azaltmaq üçün istifadə olunur və ölkələrə iqlim dəyişikliyi təsirlərinə uyğunlaşmağa kömək edir. BTİ ilə əməkdaşlıq edən GeSI - (*Global e-Sustainability Initiative (GeSI) - Qlobal Elektron Davamlılıq Təşəbbüsü)* dünyanın hər yerində iri İKT şirkətləri və təşkilatları ilə üzvləri ilə əməkdaşlıq edərək İKT vasitəsilə inteqrasiya olunmuş sosial və ekoloji davamlılığa nail olmağa çalışır. Onun tərəfindən həyata keçirilmiş SMART 2020 tədqiqatlarının nəticələri açıq şəkildə göstərdi ki, İKT-dən daha effektiv istifadə $CO_2$-də çox böyük azalmanı təmin edə bilər.

İKT-nin iqlim dəyişikliyinə təsir edə bilən əsas konseptual tətbiq istiqamətləri: 1)daha effektiv avadanlıq və şəbəkələr tətbiq etməklə İKT sektorunun özündə emissiyaların azaldılması; 2)digər sahələrdə enerji səmərəliliyinin təmin edilməsi və fiziki obyektlərin elektron obyektlərlə əvəz edilməsi; 3)İKT əsaslı hava və ətraf mühitin monitorinqi sistemlərinin tətbiqi vasitəsilə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrə iqlim dəyişikliyinin mənfi təsirlərinə uyğunlaşmanı təmin etmək və s. [7].

Rəqəmsal əkiz texnologiyaları iqlim dəyişikliyinin problemlərinin həllində mühüm rol oynaya bilər. Bu texnologiya fiziki sistemlərin və ya mühitlərin rəqəmsal surətlərini yaratmaqla, real vaxt rejimində enerji sistemlərinin, infrastrukturun və ekosistemlərin monitorinqini, analitikasını və simulyasiyasını həyata keçirmə imkanına malikdir. Bu isə iqlim dəyişikliyi təsirlərinin azaldılmasında əsas rola malik olan resursların idarə edilməsini təmin edə bilər. Rəqəmsal əkiz və simulyasiya texnologiyası

iqlim dəyişikliyi ssenarilərini simulyasiya etməklə, Urban Heat Island effektinə (*Şəhər istilik adası və ya UHI, onu əhatə edən kənd yerlərindən daha isti olan bir metropol ərazisidir*) meylli əraziləri və yüksək riskli əhalini müəyyən etməklə, təbiəti şəhərlərə yaxınlaşdırmaqla şəhər iqliminin davamlılığını təmin etməyə imkan yaradır. Rəqəmsal əkizlər şəhərin hava keyfiyyətini, su ehtiyatlarını və enerji istifadəsini izləmək, bu haqda ətraflı məlumat əldə etməklə şəhərlərə səmərəsiz əraziləri müəyyən etməyə və onların karbon izlərini azaltmağa, yüksək enerji istifadəsi sahələrini müəyyən etməyə və onu azaltmaq üçün strategiyalar hazırlamağa imkan verir. Buraya günəş və ya külək enerjisi kimi bərpa olunan enerji mənbələrinin tətbiqi və ya mövcud enerji mənbələrinin səmərəliliyinin artırılması da daxil ola bilər. Rəqəmsal əkizlər həmçinin daşqınlar, qasırğalar və istilik dalğaları kimi ekstremal hava hadisələrinin təsirlərini izləmək və proqnozlaşdırmaq üçün də istifadə edilə bilər. Dünyadakı şəhərlər iqlim dəyişikliyinin təsirləri ilə mübarizə aparmağa davam etdikcə, rəqəmsal əkiz texnologiyaları onların uzunmüddətli davamlılığını təmin etmək üçün daha vacib və səmərəli vasitə ola bilər.

İqlim dəyişikliyi şəhərlərə və təbii sistemlərə ziyan vuran, 500 milyard dollardan çox qlobal iqtisadi itkilərə səbəb olan əsas təhlükədir. Bu məsələlər qismən süni intellekt tərəfindən həll edilə bilər. Süni intellekt iqlim dəyişikliyi ilə bağlı dəqiq proqnozlara əsaslanaraq operativ təkliflər vermək üçün İnternet resurslarından istifadə edir. İqlim dəyişikliyinin mənfi təsirlərinin azaldılmasında son tədqiqatları və süni intellektin tətbiqlərini nəzərdən keçirməklə enerji səmərəliliyi, karbon sekvestrasiyası (*ağacların və digər bitki örtüyünün atmosferdən karbon qazını ($CO_2$) tutması və saxlaması prosesi*) və saxlanması, hava və bərpa olunan enerji proqnozu, şəbəkənin idarə edilməsi, bina dizaynı, nəqliyyat, dəqiq kənd təsərrüfatı, sənaye prosesləri və s. kimi proseslər diqqət mərkəzində saxlanılır.

Süni intellektdən istifadə etmək atmosferə atılan karbonun azaldılmasına, karbon əsaslı iqtisadiyyatdan xalis sıfır karbon iqtisadiyyatına keçidlə bağlı bütün fəaliyyət zəncirinin təmin olunmasında, həmçinin karbonun tutulması və saxlanmasına tətbiq edilməsi iqlim məqsədlərinin və davamlı inkişafın yüksəlişinə imkan yaradır [5, 6, 8, 9]. Beləliklə, süni intellektdən istifadə etməklə, karbon neytrallığına nail olmağı sürətləndirərək, istixana qazları emissiyalarını və iqlim dəyişikliyinin təsirlərini azaltmaq və yüngülləşdirmək mümkündür (şəkil 3).




***Şəkil 3. Süni intellekt texnologiyalarının tətbiqi ilə iqlim dəyişikliyi təsirlərinin azaldılması.***

Süni intellektin iqlim dəyişikliyinə başqa bir tətbiqi kosmosda orbitə çıxan peyklərin müşahidələr aparmaq və Yerdəki dəyişiklikləri qiymətləndirmək üçün necə istifadə edilməsidir. Peyklər meşə yanğınlarını izləməyə və ətraf mühitdə mövcud olan karbon qazının potensial mənbələrini müəyyən etməyə kömək edir. Bununla belə, orbitdəki peyklərin sayı artdıqca, kosmosun məlumat toplayan bütün peykləri təhlükəsiz şəkildə saxlaya və saxlamasına əmin olmaq vacibdir. Alimlər artıq süni intellektdən bir çox faydalı məsələlərdə istifadə edirlər. Süni intellekt modelləri tədqiqatçılara sudakı çirkləndiriciləri müəyyən etməklə və onları təmizləməyin ən yaxşı yollarını tapmaqla suyun təkrar emalı və təkrar istifadəsi yollarını tapmaqda kömək edə bilər.

Bir sıra şirkətlər süni intellektlə idarə olunan robotlarla təkrar emal olunanları müəyyən etmək və bərpa etmək üçün süni intellekt alətləri hazırlayıblar.

**Nəticə**

İqlim dəyişikliyinin, iqtisadi inkişafın və rəqəmsal transformasiyaların qarşılıqlı asılılığını dərk edərək, biz indiki və gələcək nəsillər üçün daha davamlı, əhatəli və firavan dünya qurmaq istiqamətində birgə işləmək olar. İKT iqlim dəyişikliyi ilə mübarizədə güclü alətlər təklif edir. Monitorinq, təsirin azaldılması, uyğunlaşma və ictimaiyyətin cəlb edilməsi üçün yeni həllər təqdim edir. Bu texnologiyaların potensialından istifadə etməklə daha davamlı və möhkəm gələcəyə doğru irəliləmək olar.

İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə İKT, rəqəmsal əkiz texnologiyaları və süni intellekt texnologiyalarının tətbiqini sürətləndirməklə, insanlar dəyişən iqlim təsirlərinin azaldılmasına, uyğunlaşmasına və davamlılığının təmin edilməsinə nail olmaqla əlavə imkanlar əldə edəcəklər. Bu texnologiyalar həmçinin iqlim dəyişikliyi ilə bağlı dəqiq proqnozlara əsaslanaraq operativ təkliflər vermək üçün ən son tədqiqatları və tətbiqlərini nəzərdən keçirməklə iqlim dəyişikliyinin mənfi təsirlərinin azaldılmasında, uyğunlaşma və dayanıqlığının təmin olunmasında mühüm yer tutmaqdadırlar. İqlim dəyişikliyinin iqtisadi inkişafa təsiri, xüsusilə rəqəmsal transformasiyalar kontekstində həm əhəmiyyətli problemlər, həm də imkanlar təqdim edir. Ekoloji davamlılığı rəqəmsal innovasiya ilə inteqrasiya etmək üçün birgə səylər tələb olunur. Bu mürəkkəb qarşılıqlı asılılığın qəbul edilməsi iqlim dəyişikliyi qarşısında dayanıqlı, əhatəli və davamlı qlobal iqtisadiyyatın qurulması çox vacibdir.

İqtisadi inkişaf və rəqəmsal transformasiyaların kəsişən məsələləri dayanıqlı və inklüziv gələcəyin formalaşdırılması üçün çağırışlar və imkanlar təqdim edir. İqlim dəyişikliyinin iqtisadiyyata təsiri getdikcə daha aydın görünür. Bununla belə, rəqəmsal texnologiyaların inteqrasiyası iqlim dəyişikliyinin təsirlərini azatmaq və onlara uyğunlaşmaq, innovasiyalara təkan vermək, səmərəliliyi və davamlılığı artırmaq üçün perspektivli həllər təklif edir. İqlim fəaliyyəti üçün rəqəmsal həllərin tətbiqində inklüzivliyə üstünlük vermək vacibdir. Rəqəmsal transformasiyaların faydalarının bütün cəmiyyətə, xüsusən də iqlim dəyişikliyindən ən çox təsirlənənlərə çatmasının təmin edilməsi davamlı və daha dayanıqlı qlobal iqtisadiyyatın qurulması üçün çox vacibdir. Hökumətlər, bizneslər, vətəndaş cəmiyyəti və texnologiya ekspertləri arasında əməkdaşlığı inkişaf etdirməklə yaşıl iş yerlərinin yaradılması və iqtisadiyyatın şaxələndirilməsi üçün yeni imkanlar yaratmaq və aşağı karbonlu gələcəyə keçidi sürətləndirmək üçün İKT-nin gücündən istifadə etmək olar. Rəqəmsal transformasiyaların potensialını iqlim fəaliyyəti üçün katalizator kimi qəbul etməklə qlobal miqyasda müsbət dəyişikliyə təkan verərək ekoloji davamlılıq və iqtisadi rifahın bir-biri ilə əlaqəli problemlərini həll etməyə imkan yaradıla bilər.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**

1. Əliquliyev R.M., Əliyev Ə.Q. Yaşıl iqtisadiyyatın formalaşmasında İKT-nin rolu, problemləri və perspektivləri. İnformasiya Cəmiyyəti Problemləri jurnalı, 2017, №2, səh.64-73.
2. Aliyev A.G. Applied problems and directions of decision of green technolodies in sustainable development of information economics. European Journal of Sustainable Development, 2019, 8,1, pp.264-280.
3. Бондаренко Л.В. и другие. Глобальное изменение климата и его последствия. Вестник Российского ЭУ имени Г.В. Плеханова, 2018, №2(98), с.84-93.
4. Michael G. et al. A Synthesis of the science on forests and carbon for U.S. Forests. Ecological Society of America, 2010, no.13, pp.3-17.
5. Abdullayev S., Abasova S. İqlim dəyişikliyi problemlərinin həllində süni intellekt texnologiyalarının tətbiqi perspektivləri. "Süni intellekt və onun tətbiq sahələri" mövzusunda Respublika elmi konfransı. SDU, 07-08 dekabr 2023, səh.207-211.
6. Сурайкин К.И. Экономика изменения климата. Международный журнал прикладных наук и технологий, 2021, №2(2), стр.151-155.
7. Jinqi Su et al. The spatial spillover effect of ICT development level on regional CO2 emissions. Scientific reports, Article number: 7690, 2023, https://doi.org/10.1038/s41598-023-34573-2.
8. Lin Chen, Zhonghao Chen et al. Artificial intelligence-based solutions for climate change: A review. Environmental Chemistry Letters, 2023, 21, pp.2525–2557.
9. Zafar S., Ammara S. Variations in climate change views across Europe: An empirical analysis. Journal of Cleaner Production, 2024, (442), pp.141-157.

*Əkbərov Taleh Balağa oğlu,*
*iqtisad üzrə fəlsəfə doktoru,*
*Bakı Biznes Universiteti,*
*E-mail: akberovtaleh@yahoo.com*

## İNNOVATİV SAHİBKARLIĞIN DAVAMLI İNKİŞAF MODELİ

### Giriş

Hazırda Azərbaycanda makroiqtisadi sabitliyin davamlı olaraq təmin edilməsi, iqtisadiyyatın şaxələndirilməsi, sahibkarlığın inkişaf etdirilməsi və qeyri-neft ixracının artırılması istiqamətində tədbirlər uğurla davam etdirilir.

Ölkədə "kölgə iqtisadiyyatı"nın azaldılması, şəffaflığın və bərabərliyin təmin edilməsi fonunda sahibkarlığın inkişaf etdirilməsi, əlverişli biznes və investisiya mühitinin yaradılması, ölkəyə xarici investisiyaların cəlb edilməsi, qeyri-neft sektorunun inkişafına nail olunması hazırkı inkişaf mərhələsində həyata keçirilən iqtisadi siyasətin səciyyəvi xüsusiyyətlərindən birinə çevrilmişdir. Həyata keçirilmiş məqsədyönlü tədbirlərin nəticəsi kimi Azərbaycanda sahibkarlar təbəqəsi formalaşmış, özəl sektorun respublikanın sosial-iqtisadi inkişafında rolu artmaqda davam etmişdir.

Ümummilli Lider Heydər Əliyevin sahibkarlıqla bağlı iqtisadi konsepsiyasında Azərbaycanda yeni iqtisadi sistemin təşəkkülü üçün özəl bölmənin və sahibkarlığın əhəmiyyəti yüksək səviyyədə dəyərləndirilmiş, milli sahibkarlığın dövlət tərəfindən qorunması, stimullaşdırılması və yönəldilməsi üzrə iqtisadi siyasətin reallaşdırma mexanizmləri və xüsusiyyətləri öz əksini tapmışdır [1, s. 186].

Sahibkarlığın inkişafı problemlərinin bir-biri ilə əlaqədar olması, onların həllinin müəyyən bir sistemin daxilində reallaşmasını zəruri edir. Belə ki, müəyyən bir istiqamətdə sahibkarların problemlərinin həllinə nail olmaqla ölkədə işgüzar fəaliyyətin əlverişli mühitini təmin etmək mümkün deyil. Dünya iqtisadi təcrübəsi göstərir ki, sahibkarlığın zəruri iqtisadi mühitinin formalaşmasına yönəldilmiş tədbirlərin xüsusi sistem çərçivəsində reallaşması məqsədəuyğundur. Bu qarşıya qoyulmuş strateji məqsədə çatmağı təmin edir. Bu baxımdan, ölkəmizdəki vəziyyəti qənaətbəxş hesab etmək olar. Belə ki, sahibkarlığın inkişafı üzrə qəbul edilmiş Dövlət Proqramları bu sahənin inkişafı istiqamətində həyata keçirilən tədbirlərin sistemliliyini təmin etmiş, bu tədbirləri vahid strategiyanın həyata keçirilməsinə yönəltmişdir. Sahibkarlığın dövlət müdafiəsinin bu və ya digər variantının seçilməsi ölkənin inkişaf səviyyəsi, hazırkı sosial-iqtisadi şərait, inkişafın müasir mərhələsində qarşıya qoyulmuş vəzifələr və digər amillərin təsiri ilə şərtlənir. Bu amillərin təsiri nəzərə alınaraq, ölkəmizdə sahibkarlığın müdafiəsi və inkişafının dövlət sistemi daxilində əlaqələndirilmiş, Azərbaycan modeli yaradılmışdır.

İqtisadi ədəbiyyatda haqlı olaraq göstərilir ki, dövlətin iqtisadi siyasətində azad sahibkarlığa dəstək verilməsi təkcə iqtisadi deyil, həm də sosial və ekoloji amillərdən irəli gəlir. Hesab edilir ki, azad sahibkarlıq cəmiyyətə və ətraf mühitə fayda verməlidir. Bu faydanın qiymətləndirilməsi üçün isə kəmiyyət və keyfiyyət meyarları müəyyən edilməlidir [2, s.17].

Ölkədə sahibkarlığın davamlı inkişafının təmin edilməsi bu məqsədlə dövlətlə sahibkarlar arasında tərəfdaşlığın institusional təşkilini zərurətə çevirmişdir. Sahibkarlar artıq mövcud problemlərinin həllində iştirak edir. Bu baxımdan yaradılmış mexanizmlər (Sahibkarlar Şurası, İnvestisiyaların Təşviqi və Məsləhət Fondu və s.) dövlət-sahibkar münasibətlərinin sivil müstəvidə inkişafında əhəmiyyətli rol oynamaqdadır. Azərbaycan Respublikası Prezidentinin yanında Sahibkarlar Şurasının yaradılması və onun dövlət, ictimai təşkilatlarla qarşılıqlı fəaliyyətinin təmin edilməsi Azərbaycan cəmiyyətinin və dövlətinin mühüm addımı kimi qiymətləndirilməlidir.

Nəinki ölkəmizdə dövlət-sahibkar tərəfdaşlığı institutlarından statusuna görə analoqu olmayan, hətta MDB miqyasında mövcud bu tip strukturlardan müəyyən dərəcədə fərqlənən Sahibkarlar Şurası ölkə prezidentinin iqtisadi islahatlar kursunun həyata keçirilməsində onun etibarlı dayağına çevriləcəyinə əminlik yaradır.

Heydər Əliyevin sahibkarlığın inkişafı modelinin mühüm səciyyəvi xüsusiyyətlərindən biri - həmin model çərçivəsində davamlı inkişaf üçün əsaslı zəminin formalaşmasıdır.

Azərbaycan iqtisadiyyatının davamlı və tarazlı inkişafının təmin edilməsi, regionların inkişafının sürətləndirilməsi ölkəmizin sosial-iqtisadi inkişafının hazırkı mərhələsinin prioritet vəzifələrindəndir. Ölkə Prezidentinin ötən müddət ərzində imzaladığı mühüm sənədlər, məhz bu vəzifələrin yerinə yetirilməsinə istiqamətlənmişdir. “Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haq-

qında" və Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramları ölkə iqtisadiyyatının davamlı inkişafının təmin edilməsi sahəsində kompleks vəzifələr müəyyən etmiş və onlar uğurla həyata keçirilməkdədir.

2004-2023-cü illər regionlarda infrastruktur təminatının artırılması, maliyyə təminatı səviyyəsinin yüksəldilməsi, sosial sahələrin inkişafı məşğulluq probleminin həllində əhəmiyyətli dönüş və son nəticədə əhalinin rifah halının yüksəldilməsi ilə xarakterizə edilə bilər. Həyata keçirilən Dövlət Proqramları çərçivəsində müəyyənləşdirilmiş makroiqtisadi sabitliyin və davamlı inkişafın təmin edilməsi ilə bağlı siyasət tədbirləri uğurla həyata keçirilmiş, bu da iqtisadi regionlar səviyyəsində nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi üçün əlverişli mühit formalaşdırmışdır.

Birmənalı olaraq qeyd olunmalıdır ki, Dövlət Proqramlarında nəzərdə tutulmuş tədbirlərin icrası nəticəsində bu uğurun əldə edilməsində özəl sektor əhəmiyyətli rol oynamışdır. Bu isə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində biznes mühitin əlverişliliyinin artırılması ilə şərtlənmişdir. Ötən illər ərzində sahibkarlığın inkişafı dövlətin iqtisadi siyasətinin aparıcı xəttini təşkil etmişdir. Qəbul edilmiş mühüm strateji sənədlərdə müəyyən edilmiş istiqamətlərin reallaşdırılması məqsədilə ölkədə sahibkarlığın inkişafı və müdafiəsinin formalaşmış dövlət sistemi çərçivəsində tədbirlər həyata keçirilmişdir.

Sahibkarlığın dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi istiqamətində ötən müddət ərzində sahibkarlığın hüquqi bazasının sistem halına gətirilməsini təmin edən qanunlar və bir sıra digər mühüm normativ sənədlər qəbul edilmişdir. Vergi siyasətinin kiçik və orta sahibkarlığa dövlət köməyinin digər istiqamətləri ilə əlaqələndirilməsinə dair tədbirlər həyata keçirilmiş, sahibkarların vergi yükü azaldılmış, sadələşdirilmiş sistem üzrə vergi təkmilləşdirilmişdir. Sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı mexanizmi təkmilləşdirilmiş, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir.

Lisenziyaların verilməsi mexanizmi təkmilləşdirilmiş, fəaliyyət növlərinin xüsusiyyətlərindən asılı olaraq xüsusi razılıq (lisenziya) verilməsi üçün tələb olunan sənədlərin sayı minimuma endirilmiş, xüsusi razılıq (lisenziya) verilməsinə görə ödənilən dövlət rüsumunun məbləğləri azaldılmış, lisenziyaların müddəti artırılmış, verilən lisenziyaların vahid dövlət reyestrinin aparılması təmin edilmişdir.

Kiçik və orta sahibkarlıq subyektlərinin müəyyən edilməsi meyarları təkmilləşdirilmişdir. Bu dəyişikliklər kiçik və orta sahibkarlıq subyektlərinin müəyyən edilməsi meyarlarını dəqiqləşdirərək sahibkarlıq sektoruna dövlət köməyinin ünvanlılığını daha da artıracaqdır.

Sahibkarların hüquqlarının müdafiəsi sahibkarlığın inkişafına dövlət himayəsi sisteminin mühüm istiqamətini təşkil edir. Ötən illər bu sahədə görülmüş işlər, yaradılmış mexanizmlər nəticəsində əhəmiyyətli dönüş əldə edilmişdir. Sahibkarlarla yaradılmış operativ əlaqə vasitələri istər onların informasiya təminatı səviyyəsinin yüksəldilməsində, istərsə də mövcud problemlərin həllində əhəmiyyətli rol oynamaqdadır.

Tədqiqatlar göstərir ki, ölkəmizdə sahibkarlığın inkişafı sahəsində, xüsusilə də qeyri-neft sektorunda və regionlarda böyük potensial imkanlar vardır. Ona görə də hesab edirik ki, sahibkarlığın inkişafında stimullaşdırıcı amillərdən istifadənin təkmilləşdirilməsi siyasəti davam etdirilməlidir.

Bundan başqa, ölkənin ixrac potensialının səmərəli reallaşdırılması məqsədilə

özəl sektorun ixrac qabiliyyətli sahələr üzrə məhsul istehsalı, onun dünya bazarlarına çatdırılması və rəqabət qabiliyyətinin yüksəldilməsi, milli istehsalçıların xarici bazarlarda mövqelərinin möhkəmləndirilməsi, maraqlarının müdafiəsinin gücləndirilməsi istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi kimi istiqamətlər xüsusi əhəmiyyət kəsb edir. Bütün bunlarla yanaşı, dövlətin qarşısında duran ən mühüm tədbirlər sırasına ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabət qabiliyyətli sənaye istehsalının inkişafı üçün münbit şərait yaratmaqla bu sahədə sahibkarlığın dəstəklənməsi; istehsal sahibkarlığının dəstəklənməsi üzrə dünya praktikasında müvəffəqiyyətlə tətbiq edilən təşkilati modellərin, o cümlədən sənaye parkları, biznes-inkubatorlar və s. yaradılması işlərinin davam etdirilməsi; Azərbaycanda xüsusi iqtisadi zonaların yaradılması məqsədilə ərazilərin və müvafiq sahələrin müəyyən edilməsi və bu təsisatların işinin beynəlxalq təcrübəyə əsaslanaraq qurulması və s. daxildir [3, s.56].

**Nəticə**

Sahibkarlığın inkişafı davamlı inkişaf strategiyasının məqsədlərinin reallaşması baxımından həyata keçirilən dövlət siyasətinin aparıcı istiqamətlərindən birini təşkil edəcəkdir ki, bu siyasət iqtisadiyyatın bütün sahələrində, xüsusilə prioritet inkişaf sahələrində işgüzar fəaliyyət üçün normativ-hüquqi, təşkilati və maliyyə təminatı səviyyəsinin yüksəldilməsinə yönəldilməlidir. Sahibkarlığın inkişafına dövlət himayəsi, sosial-iqtisadi siyasətin müstəqil sistemli siyasəti olaraq, ölkə iqtisadiyyatının potensialının səmərəli reallaşdırılması baxımından struktur dəyişikliklərinin həyata keçirilməsinə, bu bölmənin inkişafının çeşidli mexanizmlərinin yaradılmasına istiqamətlənməlidir.

Fikrimizcə, göstərilən öncül məqsədlər müəyyən edilmiş prinsiplər əsasında aşağıdakı siyasət tədbirləri ilə həyata keçirilməlidir:

- Sahibkarlığın inkişafının normativ-hüquqi bazası mütəmadi aparılmalı olan təhlil əsasında təkmilləşdirilməli, bu siyasət dövlətin təsərrüfat funksiyalarının məhdudlaşdırılması, tənzimləmənin isə səmərəliliyinin artırılmasına yönəldilməlidir;
- Sahibkarlığın, xüsusilə regional sahibkarlığın maliyyə təminatı gücləndirilməli, bu istiqamətdə məqsədli dövlət maliyyələşməsi ilə yanaşı, alternativ maliyyə mənbələrinin daha da aktivləşdirilməsi üzrə zəruri mühit yaradılmalı, bu fəaliyyət stimullaşdırılmalı, start kapitalının formalaşması imkanları genişləndirilməlidir;
- Öncül sahələrdə sahibkarlığın inkişafına yönəldilmiş təşkilati tədbirlərin əhatə dairəsi genişləndirilməli, müxtəlif istiqamətdə davamlı və sistemli xidmətlər göstərən təsisatlar yaradılmalıdır;
- Ölkənin ixrac potensialının səmərəli reallaşdırılması məqsədilə ixrac qabiliyyətli sahələr üzrə məhsul istehsalı, onun dünya bazarlarına çatdırılması və rəqabət qabiliyyətinin yüksəldilməsi tədbirləri ilə dəstəkləyəcək İxracın və İnvestisiyaların Təşviqi Fondunun səmərəli fəaliyyəti təmin edilməlidir;
- İstehsal sahibkarlığının dəstəklənməsi üzrə dünya praktikasında müvəffəqiyyətlə tətbiq edilən təşkilati modelləri (sənaye şəhərcikləri, biznes-inkubatorlar və s.) yaradılmalıdır;
- Sahibkarlığın dəstəklənməsi üzrə mövcud və yaradılacaq təsisatlar arasında ümumi məqsədin reallaşdırılması baxımından səmərəli əməkdaşlıq təmin edilməlidir ki, bu da son nəticədə sahibkarlığın təşkilati təminatını sistem şəklində formalaşdıracaqdır;

- İnnovasiya potensialının reallaşması üzrə sistemli tədbirlər həyata keçirilməli, bu istiqamətin reallaşmasına ölkənin elmi, kadr potensialı cəlb edilməlidir;

- Əhalinin daha geniş sosial təbəqələrinin, o cümlədən gənclərin, qadınların, əlillərin sahibkarlıq fəaliyyətinə cəlb edilməsinə istiqamətlənmiş tədbirlər gücləndirilməlidir və s.

Göstərilən istiqamətlər üzrə tədbirlərinin icrası gedişinin müəyyən ediləcək göstəricilər sistemi üzrə müntəzəm olaraq monitorinqi həyata keçirilməlidir ki, bu da göstərilən istiqamətlərdə həyata keçiriləcək islahatların gedişini nəzarətdə saxlamağa imkan verəcəkdir.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**

1. Azərbaycanın iqtisadi inkişafının Heydər Əliyev strategiyası: Monoqrafiya. – Bakı: “Şərq-Qərb” 2019, 328 s.

2. Seyfullayev İ.Z. Sahibkarlığın tənzimlənməsinin iqtisadi-psixoloji məsələləri //Azərbaycanın vergi xəbərləri. 8/2011.

3. Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi. “Azərbaycan Respublikasının 2014-cü il və gələn üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri”. Bakı, 2013, 107s.

*Əliyev Əli İmaş oğlu,*
*iqtisad elmləri namizədi, dosent,*
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC),*
*E-mail: fyi.s@mail.ru;*

*Quliyev Zakir Qəşəm oğlu,*
*iqtisad üzrə fəlsəfə doktoru,*
*Bakı Biznes Universiteti,*
*E-mail: zakirquliyev@inbox.ru*

## DAYANIQLI İNKİŞAF KONTEKSTİNDƏ “YAŞIL İQTİSADİYYATIN” İNKİŞAFININ STATİSTİK QİYMƏTLƏNDİRİLMƏSİNİN BƏZİ MƏSƏLƏLƏRİ

***“Bizim siyasətimiz uzunmüddətli siyasətdir. Biz ölkəmizin gələcəyi, uzunmüddətli, dayanıqlı inkişafı haqqında düşünürük”.***

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev***

Son dövrlərdə BMT-nin konseptual sənədləri arasında əhəmiyyətlilik dərəcəsinə görə “2030-cu ilə qədər dayanıqlı inkişaf sahəsində gündəlik” adlı sənəddə öz əksini tapmış 2016-2030 - cu illər üzrə BMT-nin dayanıqlı inkişaf məqsədlərini xüsusi olaraq ayırmaq olar. Bu sənəd nəinki dayanıqlı inkişafın ideologiyasını əks etdirir, həm so-

sial, iqtisadi və ekoloji prioritetləri optimal uzlaşdırır, həm də onlara nail olmanın vasitə və planını özündə əks etdirir.

Bəllidir ki, resurslardan maksimum səmərəli istifadə edilməsi və ətraf mühitin mühafizəsi yolu ilə gələcək nəsillərin ehtiyat mənbələrini tükətmədən bugünkü nəslin ehtiyacının ödənilməsi beynəlxalq ictimaiyyətin diqqət mərkəzində dayanan əsas ümumbəşəri məqsəddir. BMT-nin Baş Assambleyasının 2015-ci il 25 sentyabr tarixli A/RES/70/1 nömrəli qətnaməsi ilə növbəti 15 il müddətinə insan inkişafı üçün son dərəcə əhəmiyyətli imkanların yaradılmasına, planetimizi qorumaqla qlobal inkişafın dayanıqlığının təmin edilməsinə təkan verəcək 17 məqsəd və 169 hədəfdən ibarət sənədin qəbul edilməsi məhz qeyd edilən problemlərin aradan qaldırılması zərurətindən irəli gəlmişdir [5, s.6]. Bu gündəlikdən irəli gələn vəzifələr dayanıqlı inkişaf üzrə yeni milli strategiyaların, proqramların və fəaliyyət planlarının hazırlanmasını, yüksək keyfiyyətli, aktual, etibarlı və daha müfəssəl məlumatların toplanmasını, milli şərait və prioritetlərə uyğun olaraq vətəndaş cəmiyyəti, dövlət və özəl sektor, habelə digər maraqlı tərəflərin cəlb edilməsi ilə dayanıqlı inkişaf sahəsində əldə olunacaq tərəqqinin izlənməsinə (monitorinqinə) imkan verən sistemli və müntəzəm statistik qiymətləndirməni zəruri edir.

Tədqiqatın məqsədi "yaşıl iqtisadiyyatın" əsas ekoloji göstəriciləri əsasında iqtisadiyyatın dayanıqlı inkişafa nail olma səviyyəsini qiymətləndirməkdir.

Ölkə iqtisadiyyatının inkişafı üçün yaşıl iqtisadiyyat zəruridir. Belə ki, onun səmərəli fəaliyyəti sosial-iqtisadi problemləri, ekoloji baxımdan zərərlilik (ziyanlılıq) problemlərini həll etməyə, həmçinin təbii resursların tükənməsi risklərini azaltmağa kömək edir.

İqtisadi fəaliyyət, o cümlədən təbii resursların hasilatı və istehlakı, zərərli maddələrin atmosferə (havaya) tullanması, su ehtiyatlarının çirklənməsi və tükənməsi və s. ətraf mühitin vəziyyətinə həmişə təsir edir. Eyni zamanda ekologiya da milli iqtisadiyyatın vəziyyətinə təsir edir. Belə ki, təbii resurslardan səmərəsiz istifadə edilməsi, ətraf mühitini çirkləndirilməsi mənfi xarici səmərə ilə mübarizə xərclərinin artmasına gətirib çıxarır ki, bu da yaşıl iqtisadiyyatın sosial-ekoloji yönümlü göstəricilər sisteminin formalaşdırılmasını və onların mütəmadi təhlilini zəruri edir.

2030-cu ilə qədər Azərbaycanda dayanıqlı inkişaf məqsədlərinin ən aktual sosial-ekoloji yönümlü göstəricilərinə (komponentlərinə) aid etmək olar:

- su resurslarının mövcudluğunu və ondan səmərəli istifadəni, hamı üçün sanitariyanın təmin edilməsi. Bunun üçün iki mühüm göstərici - su kəməri ilə təmin edilən mənzil fondunun xüsusi çəkisi (şəhər və kənd), kanalizasiya ilə təmin edilən mənzil fondunun xüsusi çəkisi (şəhər və kənd);
- hamının ucuz, etibarlı, dayanıqlı və müasir enerji mənbələrinə əlçatanlığının təmin edilməsi. Bu sosial - ekoloji yönümlü komponent enerji resursları balansında bərpa olunan enerji mənbələrinin xüsusi çəkisi və ÜDM-un enerji tutumluğu göstəriciləri ilə xarakterizə olunur;
- yaşayış məntəqələrinin və şəhərlərin ekoloji təhlükəsizliyinin, dayanıqlığının, dözümlüyünün və şəffaflığının təmin edilməsi. Bura köhnə və qəzalı mənzil fondunun

xüsusi çəkisi, şəhər yaşayış məntəqələrindən tullantıların daşınması, şəhər yaşayış məntəqələri ərazilərində zərərli maddələrin (PM2 və PM10: ing.particulate matter, daxil olmaqla) toplanmasının orta illik səviyyəsi, xüsusi çirklənmiş şəhərlərdə yaşayan əhalinin xüsusi çəkisi kimi göstəricilər daxil edilir;

- istehsalın və istehlakın səmərəli modellərinə keçilməsinin təmin edilməsi: bu komponentə yaradılan istehsal və istehlak tullantıları, o cümlədən təhlükəli tullantılar, istehsal və istehlakın zərərli tullantılarından istifadə edilməsi və zərərsizləşdirilməsi, istehsal və istehlak tullantılarından istifadə edilməsi və zərərsizləşdirilməsi kimi göstəricilər aid edilir.

-nəhayət, dayanıqlı inkişafın sosial - ekoloji yönümlü digər göstəriciləri iqlim dəyişiklikləri və onun nəticələri ilə mübarizə üzrə təcili tədbirlərin qəbul edilməsi qrupunda birləşdirilir. Bu qrupa qəza və təbii fəlakətlərin vaxtında qarşısının alınması, ekoloji təhlükəsizlik proqramları, parnik qazlarının tullantıları, iqlim dəyişikliklərinin mənfi nəticələrinə uyğunlaşma və iqlim dəyişikliklərinə müqavimət, həmçinin parnik qazı tullantılarının azaldılması potensialının inkişafı planının (strategiyasının) tətbiqi aid edilir.

Müasir dövrdə Azərbaycan Respublikasında dayanıqlı inkişafın məqsədlərinə uyğunlaşmaq və ölkə təcrübəsində sosial-ekoloji yönümlü göstəricilərin işlənib hazırlanması və statistik qiymətləndirilməsi istiqamətində miqyaslı işlər həyata keçirilir. Bu istiqamətdə hər kəs üçün açıq olan məlumatlar dayanıqlı inkişaf məqsədlərinə nail olmaq və yaşıl iqtisadiyyat problemlərinin həll edilməsində ölkəmizin yüksək potensiala malik olduğunu deməyə əsas verir. Bunu 2024-cü ilin 11-24 noyabr tarixində Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi Konfransının (COP29) Azərbaycanda keçirilməsi bir daha subut edir [6]. Belə ki, rəsmi statistikanın məlumatlarına görə, 2010-cu ildə ölkədə su kəməri ilə abadlaşdırılmış yaşayış sahəsinin xüsusi çəkisi 64,3%, kanalizasiya ilə 51,6%, mərkəzi istilik sistemi ilə 20,4%, qazla 78,4% təşkil etmişdir.2022-ci ildə bu göstəricilər müvafiq olaraq 89,5%, 88,3%, 22,8% və 96,0% səviyyəsinə yüksəlmişdir [4, s. 25].

Bu qeyd edilənlərlə yanaşı, həll edilməsi kompleks və sistemli yanaşmanı tələb edən bir sıra aktual problemlər qalmaqdadır. İlk növbədə, bu dayanıqlı inkişafın məqsədlərindən olan təmiz və uçuz enerji ilə təmin edilməsidir. Baxmayaraq ki, Azərbaycanın enerji balansında bərpa olunan enerji mənbələrinin xüsusi çəkisi sürətlə artır, enerjinin karbohidrogen (istilik) mənbələri əsas olaraq qalır. Belə ki, əgər 2010-cu ildə ölkədə istehsal edilmiş 18,7 mlrd. kilovatt-saat elektrik enerjisinin 15,3 mlrd. kilovatt-saatı (81,8%) istilik elektrik stansiyaları, 3,4 mlrd. kilovatt-saatı (18,2%) su, külək və günəş elektrik stansiyaları tərəfindən istehsal edilmişdir. 2022-ci ildə bu göstəricilər müvafiq olaraq 29,0 mlrd. kilovatt-saat, o cümlədən 27,3 mlrd. kilovatt-saat (94,1%), 1,7 mlrd. kilovatt-saat (5,9%) olmuşdur (4, s. 40). Müqayisədən göründüyü kimi, 12 il ərzində elektrik enerji istehsalında, yəni ölkənin enerji balansında bərpa olunan enerji mənbəyinin payı aşağı düşmüşdür.

Təhlil edilən dövrdə diqqət çəkən meyillərdən biri də ÜDM vahidinə düşən enerji, elektrik enerji tutumunun və energetika müəssisələri tərəfindən atmosferə (havaya

atılan çirkləndirici maddələrin həcminin artmasıdır. Belə ki, əgər 2010-cu ildə ÜDM vahidiinə düşən ümumi daxili enerji istehlakı (kq neft ekvivalenti/1000 manat) 260 kq təşkil edirdisə, 2021-ci ildə bu 316,1 kq, 2022-ci ildə isə 320,9 kq olmuşdur, yəni artmaqda davam etmişdir.

ÜDM vahidinə düşən ümumi daxili elektrik enerjisinin istehlakı (kvt.saat/1000 manat) 2010-cu ildə 379,5 kvt.saat, 2021-ci ildə 474,5 kvt.saat, 2022-ci ildə isə 450,4 kvt.saat təşkil etmişdir. Araşdırılan dövrdə energetika müəssisələri tərəfindən atmosferə (havaya atılan çirkləndirici maddələrin həcmi 2010-cu illə müqayisədə azalmış, son illərin müqayisəsində isə artmşdır [4, s. 42].

Beləliklə, araşdırmaya əsaslanaraq o nəticəyə gəlmək olar ki, yaşıl iqtisadiyyatın formalaşdırıması yolunda əsas vəzifə əhaliyə mənfi ekoloji təsirləri azaltmaqdır. Resurstutumluluq (təbii kapital xərclərinin istehsal edilmiş məhsulun həcminə nisbəti) makroiqtisadi siyasətin ekoloji iqtisadi səmərəliliyinin əsas göstəricisi və dayanıqlı iqtisadi inkişafın mühüm kriteriyasıdır. ÜDM vahidinə düşən enerji və elektrik enerji tutumu göstəricilərinin dinamikada qiymətləndirilməsi olduqca vacibdir. Müasir mərhələdə aktual olan problemlərdən biri də ölkənin enerji balansında bərpa olunan enerji mənbələrinin payının aşağı olmasıdır. Qeyd edilən göstəricilər ekoloji dayanıqlığın, yaşıl iqtisadiyyatın inkişafının və ölkə iqtisadiyyatının texnoloji modernləşdirilməsinin qiymətləndirilməsində və beynəlxalq müqayisəliliyin həyata keçirilməsində önəmli əhəmiyyət daşıyır. Fikrimizcə, növbəti mərhələdə ölkəmizdə dayanıqlı inkişaf proqramlarının həyata keçirilməsi miqyasının və sürətinin artırılması, iqtisadiyyat sahələrinin bu istiqamətdə inkişafının stimullaşdırılması, bu sahədə beynəlxalq dəstəyin qazanılması və mövcud təcrübənin öyrənilməsi, uzunmüddətli perspektivdə ekoloji iqtisadiyyata investisiya iqtisadi və ekoloji uduşlar (win-win policy) arasındakı balansa riayət etmək şərti ilə ölkənin təbii kapitalından səmərəli istifadəni təmin etməyə, eyni zamanda ekoloji təhlükələrlə bağlı riskləri azaltmağa imkan verə bilər.

## İstifadə olunmuş ədəbiyyat siyahısı:

1. "Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanı, 6 oktyabr, 2016-ci il.

2.Каминов А.А., Ануфриев В.П. Методологические подходы к исследованию зеленой экономики// Экономика: вчера, сегодня, завтра. 2022. Том 6. № 9А. стр. 74-82.

3. Марьин Е. В. «Зеленая» экономика как базис для государства и общества //Актуальные вопросы современной экономики.- 2023.- №6.- стр.86-89.

4. Azərbaycanda ətraf mühit - ADSK, Bakı, 2023, 139 s.

5. Dayanıqlı İnkişaf Məqsədləri, ADSK, Bakı, 2023, 289 s.

6. https://sia.az//

*Əlizadə Şəmşad Nəbi oğlu,*
*iqtisad üzrə fəlsəfə doktoru,*
*Bakı Biznes Universiteti,*
*E-mail: shamshad.alizada@atmu.edu.az*

# MÜASİR DÖVRDƏ AZƏRBAYCANIN SIĞORTA ŞİRKƏTLƏRİNİN BAŞLICA PROBLEMLƏRİ VƏ ARADAN QALDIRILMASI YOLLARI

## Giriş

Müasir dövrdə bütün müəssisələr fəaliyyət sferasına uyğun olaraq müxtəlif problemlərlə üzləşir. Təbii ki, heç bir müəssisə fəaliyyət dövrü ərzində stabillik içərisində olmur. Bazar iqtisadiyyatı şəraitində bir sıra problemlərlə qarşılaşan təsərrüfat subyektlərindən biri də sığorta şirkətləridir.

Azərbaycanın sığorta şirkətlərində də son dövrlər müxtəlif səbəblərdən müəyyən problemlər meydana gəlir. Belə ki, sığorta ehtiyatlarının effektiv formalaşdırılmaması, investisiyaların düzgün istiqamətlənməməsi, sığorta haqlarının alınmasında və sığorta ödənişlərinin edilməsində baş verən gecikmələr başlıca problemlər kimi qeyd oluna bilər. Sığorta şirkətlərinin fəaliyyəti dövrü ərzində ortaya çıxan problemləri tez bir zamanda müəyyən etmək, onları hər zaman diqqət mərkəzində saxlamaq və vaxtında aradan qaldırmaq lazımdır. Çünki bu problemlər sığorta şirkətlərinin uğurlu fəaliyyətinə, o cümlədən inkişafına son dərəcə mənfi təsir göstərə bilər. Məhz bu səbəbdən sığorta şirkətlərində ortaya çıxan problemlərin aradan qaldırılması üçün ciddi tədbirlər görmək mühüm əhəmiyyət kəsb edir.

## Azərbaycanın sığorta şirkətlərinin başlıca problemləri

Məlum olduğu kimi sığorta sektorunun inkişafının əsası gözlənilməz hadisələrin baş verməsi zamanı zərər çəkənlərə sığorta ödənişinin verilməsi vasitəsi ilə təkrar istehsal prosesinin davamlılığının təmin edilməsini əhatə edir [3, s.16]. Azərbaycanda sığorta fəaliyyətinin inkişafını təhlil edərkən məlum olur ki, müasir dövrdə Azərbaycanın sığorta şirkətləri bir sıra problemlərlə üzləşir. Bu problemlərin bəziləri obyektiv səbəblərdən, bəziləri isə subyektiv səbəblərdən meydana gəlir. Azərbaycanda sığorta fəaliyyətinin inkişafını dayandıran başlıca problemlərdən biri bu sahədə inhisar meyillərinin mövcud olmasıdır.

Sığorta bazarında inhisar meyillərinin mövcudluğu sığorta xidmətləri çeşidinin, eləcə də keyfiyyətinin artımına, sağlam rəqabətə və yeni sığorta şirkətlərinin yaranmasına mane olur. Bu problem isə Azərbaycanda sığorta bazarının və eləcə də sığorta sisteminin inkişafının tam olaraq təmin olunmaması ilə nəticələnir.

Azərbaycanın sığorta sektorunda mövcud olan problemlərdən biri insanların sığorta haqqında məlumatlılıq səviyyəsinin aşağı olmasıdır. Qeyd etmək lazımdır ki, sığorta haqqında məlumatlılıq səviyyəsinin aşağı olması insanların sığortaya olan inamına mənfi təsir edir. Sığorta müqaviləsini imzalayan sığortalılar bəzən müqavilənin şərtləri ilə tanış olmadan, sığorta müqaviləsi üzrə hüquq və vəzifələrini tam şəkildə bilmirlər. Qeyd edək ki, sığorta müqaviləsində sığorta hadisəsi zamanı sığortalıya ödənişin verilməsi və ödənişdən imtina halları xüsusi əhəmiyyət kəsb edir. Sığorta haqqında məlumatsızlıq nəticə etibarilə ciddi problemlərin yaranmasına səbəb olur. Belə ki, sığorta hadisəsi baş verdiyi təqdirdə sığortaçı tərəfindən sığortalıya ödəniş edil-

məməsi və ya gözlənilən məbləğdən az ödəniş edilməsi halları onlarda sığortaya olan inamı tamamilə sarsıdır [4, s.33].

Belə hallarda insanlarla sığorta şirkətləri arasında mübahisə yarana bilər ki, bu mübahisələrin meydana gəlməsi sığorta şirkətlərinin imicinin formalaşmasına mənfi təsir göstərə bilər. İnsanların sığorta haqqında məlumatsız olmasında yalnız onların istəklərinin az olması deyil, eyni zamanda sığortaçıların məlumatlandırma kampaniyalarını effektiv aparmaması da rol oynayır [1, s.9].

Azərbaycanda sığorta sahəsində hökm sürən əsas problemlərdən biri sığorta fəaliyyətinin ancaq paytaxtda inkişaf etməsi, regionların bu inkişafdan tamamilə geri qalmasıdır. Regionlarda əhalinin gəlir səviyyəsinin aşağı olması, işsizlik probleminin mövcudluğu, sığorta şirkətləri tərəfindən əhaliyə sığortaya aid lazımi məlumatların verilməməsi kimi faktorlar respublikanın regionlarında sığorta fəaliyyətinin inkişafının qarşısını alır [2, s.232].

Müasir dövrdə sığorta şirkətlərinin qarşılaşdığı başlıca problemlərindən biri sığorta sahəsində ixtisaslı mütəxəssislərin çatışmazlığıdır. Son zamanlar sığorta sektorunda yüksəlmə dinamikasının olmasına rəğmən, sığorta bazarında hələ də mütəxəssis çatışmazlığı hökm sürür. Sığorta sahəsində ixtisaslı kadrların az olması sığorta xidmətlərindən istifadə etmək istəyən insanların məlumatlılıq səviyyəsinə də mənfi təsir edir. Bu problem isə Azərbaycanda sığorta bazarının inkişafının qarşısını kəsir.

Qeyd olunan problemlər sığorta şirkətlərinin inkişafına ciddi təsir göstərir. Qeyd olunduğu kimi, bu problemlər həm obyektiv və həm də subyektiv səbəblərdən yarana bilər. Bu baxımdan sığorta şirkətləri ortaya çıxan problemləri vaxtında aradan qaldırılması üçün ciddi tədbirlər görməlidir.

**Azərbaycanın sığorta şirkətlərində yaranan problemlərin aradan qaldırılması yolları**

Qeyd etmək lazımdır ki, sığorta fəaliyyətinin inkişafına təsir göstərən problemlər aradan qaldırılmalı və sığorta şirkətlərinin uğurlu inkişafı təmin olunmalıdır. Əvvəla onu qeyd edək ki, Azərbaycanın sığorta bazarında ortaya çıxan problemlərin aradan qaldırılması üçün sığorta sahəsində normativ-hüquqi və maliyyə-iqtisadi bazanın yaradılması çox böyük əhəmiyyətə malikdir.

Hal-hazırda Azərbaycanın sığorta şirkətləri ortaya çıxan problemlərin aradan qaldırılması üçün görəcəyi əhəmiyyətli tədbirlərdən biri ödəmə qabiliyyətinin möhkəmləndirilməsidir. Qeyd edək ki, son zamanlar qəzaların və bədbəxt hadisələrin gün-gündən artması sığorta şirkətlərini böyük öhdəliklərlə qarşı-qarşıya qoyur. Bəzən böyük zərərli sığorta hadisələrinin baş verməsi sığorta şirkətlərinin işini çətinləşdirir və bir çox hallarda sığorta şirkətləri bu zərərlərin əvəzini ödəmə gücündə olmurlar [5]. Bu səbəbdən sığortaçıların ödəmə qabiliyyətinin gücləndirilməsi çox önəmli faktordur.

Azərbaycanın sığorta şirkətləri sığorta sahəsində savadı, bacarığı və təcrübəsi olan insanları müxtəlif vəzifələrə işə götürərək işlə təmin etməlidir. Sığorta sahəsində çalışan, lakin təcrübəsi az olan insanlara bu sahədə xüsusi treninqlər keçirilməli, şirkət hesabına kurslara göndərilməli və onların gələcəkdə ixtisaslı kadra çevrilməsinə şərait yaradılmalıdır.

Qeyd olunduğu kimi, sığorta şirkətlərinin qarşılaşdığı problemlərdən biri insanların sığorta sahəsində məlumatlılıq səviyyəsinin az olmasıdır. Bu baxımdan sığorta şirkətləri istər Bakıda, istərsə də respublikanın müxtəlif regionlarında əhalini sığortaya

dair məlumatlarla geniş şəkildə maarifləndirməlidir. Bu yolla əhalidə sığortaya olan maraq və inam formalaşa bilər.

Sığorta bazarında yaranmış və sığorta şirkətlərinin fəaliyyətinə mənfi təsir göstərən problemlərin azaldılması üçün ən mühüm faktorlardan biri dövlət dəstəyidir. Belə ki, dövlət Azərbaycanda sığorta şirkətlərinin fəaliyyətinə, sığorta bazarının inkişafına və sığorta sisteminin mövcud vəziyyətinə nəzarət etməli ortaya çıxan problemlərin aradan qaldırılması üçün zəruri tədbirlər həyata keçirməlidir. Odur ki, dövlət tərəfindən sığorta şirkətlərinə verilən dəstək onların inkişafının sürətlənməsi, sığorta bazarında ortaya çıxan problemlərin həll edilməsi və eləcə də sığorta bazarının təkmilləşdirilməsi baxımından böyük zərurət doğurur.

**Nəticə**

Azərbaycanın sığorta bazarını təhlili edən zaman hələ də hökm sürən bir sıra problemlərin sığorta şirkətlərinin inkişafına mane olduğunu müşahidə etmək olar. Yəni sığorta şirkətləri öz uğurlu inkişafı üçün nə qədər çalışsalar da ümumilikdə sığorta sistemində mövcud olan bəzi problemlərə görə buna nail ola bilmirlər. Bu problemlərdən biri sığorta fəaliyyətinin ancaq paytaxtda inkişaf etməsindən ibarətdir. Regionlarda sığorta fəaliyyətinin mövcud vəziyyətini müşahidə edən zaman insanların çox az hissəsinin sığorta xidmətlərindən istifadə etdiyini qeyd edə bilərik. Regionlarda əhalinin gəlir səviyyəsinin aşağı olması, işsizlik meyillərinin müşahidə olunması, sığorta şirkətləri tərəfindən əhaliyə sığortaya aid lazımi məlumatların verilməməsi kimi amillər bunun əsas səbəblərindən hesab olunur. Regionlarda yaşayan aztəminatlı insanların sığorta xidmətlərindən istifadəsinin təmin edilməsi üçün, sığorta şirkətləri güzəştli sığorta xidmətlərini təklif edə bilər.

Sığorta şirkətlərinin qarşılaşdığı problemlərdən biri sığorta sahəsində ixtisaslı kadrların və mütəxəssislərin çatışmazlığıdır. Qeyd edək ki, sığorta şirkətlərində ixtisaslı kadrların çatışmazlığı bir çox hallarda sığorta tariflərinin, sığorta haqlarının və sığorta risklərinin düzgün hesablanmamasna səbəb olur. Digər tərəfdən bu sahədə ixtisaslı kadrların az olması sığorta xidmətlərindən istifadə etmək istəyən insanların məlumatlılıq səviyyəsinə də mənfi təsir edir. Bunları nəzərə alaraq qeyd etmək olar ki, sığorta şirkətləri yüksək savada və peşəkar təcrübəyə malik mühasibləri, marketoloqları, aktualları və menecerləri işə cəlb etməli, onları daim stimullaşdırmalı və onların inkişafı üçün lazımı tədbirləri görməlidir.

Müasir dövrdə bir çox sığorta şirkətləri sığorta hadisəsi zamanı yaranmış zərərləri kompensasiya edə bilmir. Məlum olur ki, sığorta şirkətlərinin ödəmə qabiliyyətində ciddi problemlər var. Sığorta və təkrarsığorta ödənişlərində gecikmələr bunun əyani sübutudur. Bu səbəbdən sığorta şirkətləri ödəmə qabiliyyətinin təkmilləşdirilməsi istiqamətində ciddi tədbirlər görməli, sığorta ehtiyatlarını effektiv formalaşdırmalı və likvidliyi daim yüksəltməlidir. Bundan əlavə sığorta bazarının inkişaf etdirilməsi məqsədilə insanlara göstərilən sığorta xidmətləri keyfiyyətinin yüksəldilməsi bütün sığorta şirkətləri tərəfindən təmin olunmalıdır.

Tədqiqatın nəticəsi olaraq sığorta şirkətlərinin qarşılaşdığı problemləri təklif olunan yollarla aradan qaldırmaq və sığorta fəaliyyətinin inkişafını təmin etmək mümkündür.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**

1. Əliyeva, L.Z. Azərbaycanda sığorta sistemi: iqtisadi və sosial proseslərə multiplikator təsir kimi / L.Z.Əliyeva. – Bakı: Qanun nəşriyyatı, - 2011. - 108 s.
2. Əlizadə, Ş.N. Azərbaycan iqtisadiyyatında sığorta sisteminin yeri: problemlər və perspektivlər // - Bakı: Dövlət idarəçiliyi: Nəzəriyyə və təcrübə jurnalı, - 2015. № 2, (50), s. 231-236.
3. Xudiyev, N.N. Sığorta / N.N. Xudiyev. – Bakı: Azərnəşr, - 2003. - 450 s.
4. Alizade S.N. The Modern Situation of Insurance System in Azerbaijan // New York: Journal of Microeconomics and Macroeconomics, - 2015. Vol 3, № 2, - p. 30-34.
5. http://www.investopedia.com/terms/r/reinsurance.asp

*Fərhadi Püstə Oruc qızı,*
*iqtisad üzrə fəlsəfə doktoru, dosent,*
*Bakı Biznes Universiteti;*

*Hümbətova Fidan Babək qızı,*
*gənc tədqiqatçı,*
*Bakı Biznes Universiteti*

## DÜNYADA "YAŞIL ENERJİ"YƏ KEÇİD: AZƏRBAYCAN COP -29: GÖRÜLƏN İŞLƏR VƏ PLANLAR

Yaşıl enerji iqlim dəyişikliyini azaltmaq, ətraf mühiti yaxşılaşdırmaq və daha davamlı gələcəyə doğru hərəkət etmək üçün lazımdır. "Yaşıl enerji" istehsalı ekoloji fəsadlar yaradan karbon emissiyasının minimuma endirilməsi, ekoloji çirklənmənin qarşısının alınması və enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. "Yaşıl enerji" və yaxud "yaşıl iqtisadiyyat" konsepsiyası 1991-ci ildə britaniyalı iqtisadçı Maykl Ceykobs tərəfindən irəli sürülüb və onun "Yaşıl iqtisadiyyat: ətraf mühit, davamlı inkişaf və gələcəyin siyasəti" adlı kitabında şərh edilib. "Yaşıl iqtisadiyyat"ın inkişafı, onun tərkib hissəsi kimi "yaşıl enerji"dən istifadə olunması ekoloji riskləri və çatışmazlıqları azaldan vasitələrdən biri kimi aktuallaşdı.

Son illərdə qlobal enerji siyasətində əsas istiqamətlərdən biri enerji keçididir. Tədqiq edilən məlumatlara görə, enerji keçidi ən müasir texnologiyalar tətbiq edilməklə ənənəvi enerji resurslarının bərpa olunan enerji mənbələri ilə əvəz edilməsini özündə ehtiva edir. Bərpa olunan enerji texnologiyaları sürətli inkişafı və dünya ölkələrinin qarşıya qoyduqları iqlim hədəfləri "yaşıl enerji" keçidini sürətləndirməkdədir. COVID-19 böhranının mənfi təsirlərinə baxmayaraq, 2020-ci ildə dünya miqyasında ümumi gücü 260 QVt-dan çox olan bərpa olunan enerji stansiyaları istismara verilib ki, bu, 2019-cu ildəki rekordu təxminən 50 % üstələyir.

Beynəlxalq Bərpa olunan Enerji Agentliyinin (IRENA) müvafiq hesabatından görünür ki, ötən il istismara verilmiş yeni elektrik enerjisi qoyuluş güclərinin 80 %-dən çoxunu bərpa olunan enerji təşkil edib, bunun 91 %-i isə günəş və külək enerjisinin payına düşüb. Ümumilikdə ötən ilin sonunda dünyada bərpa olunan enerjinin qoyuluş gücü 2799 QVt təşkil edib, bu isə ümumi qlobal qoyuluş güclərinin üçdə biri

deməkdir. Günəş və külək enerjisinin sürətli inkişafına baxmayaraq, hidroenerji hələ də 1211 QVt qoyuluş gücü ilə ən böyük paya sahibdir.
2020-ci ildə günəş və külək enerjisi üzrə müvafiq olaraq 127 QVt və 111 QVt qoyuluş gücündə yeni enerji qurğuları quraşdırılıb. Bərpa olunan enerji mənbələri hesabına istehsal olunan enerji ümumi istehsalın 29 %-ni təşkil edir.

Dünya İqtisadi Forumunun müvafiq hesabatında qeyd edilir ki, əgər 10 il öncə günəş və külək enerjisi karbohidrogen əsaslı elektrik enerjisi istehsalı ilə müqayisədə iqtisadi cəhətdən rəqabətədavamlı deyildisə və qlobal olaraq cəmi 70 QVt gücündə günəş, 238 QVt gücündə külək elektrik stansiyaları quraşdırılmışdısa, 2020-ci ildə bu göstərici müvafiq olaraq 714 QVt və 733 QVt olub.

Dünyada ekoloji cəhətdən təmiz "yaşıl enerji"yə keçid sürətləndirən bir çox faktor var ki, bunlardan biri texnologiyanın inkişaf etməsi və qiymətinin ucuzlaşmasıdır. 2010 və 2019-cu illər arasında sənaye miqyaslı günəş elektrik stansiyalarında bir kilovat-saat elektrik enerjisinin qiyməti 82 %, külək elektrik stansiyalarında istehsal olunan enerjinin qiyməti isə 29 % ucuzlaşıb. Qiymətin aşağı düşməsinə kömək edən bir digər faktor isə dünyada bərpa olunan enerji hərraclarının geniş vüsət almasıdır ki, bu mexanizm "yaşıl enerji"dən istifadənin özəl investisiyalar hesabına inkişafına gətirib çıxarır. Ümumilikdə enerji keçidinə qlobal sərmayə 2011-ci ildə illik 300 mlrd. ABŞ dollarından az olduğu halda, 2020-ci ildə təxminən 500 mlrd ABŞ dollara yüksəlib. Beynəlxalq Enerji Agentliyinin müvafiq hesabatına əsasən bərpa olunan enerji mənbələri üzrə investisiyalar 2021-ci ildə böyüməyə davam edəcək.

Bir çox beynəlxalq təşkilatlara görə bərpa olunan enerjidən istifadənin genişləndirilməsi enerji keçidinin vacib sütunlarındandır və sürətlə inkişaf etdirilməlidir. Bərpa olunan enerjinin enerji balansında daha yüksək payı iqtisadiyyatın şaxələndirilməsindən başqa, digər çoxsaylı faydalar gətirə bilir. Dünyada ekoloji cəhətdən təmiz enerji mənbələrindən istifadənin genişləndirilməsi Paris Sazişi çərçivəsində qəbul edilmiş öhdəliklərin icrasına da töhfəsini verir. Eyni zamanda, Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin məlumatına əsasən ötən il bu sektorda dünyada 11,5 milyondan çox adam iş tapıb.

Azərbaycan da bərpa olunan enerji mənbələrindən istifadənin inkişaf etdirilməsi üzrə geniş potensiala malik olan ölkələrdəndir. Hazırda bərpa olunan enerji mənbələri üzrə potensialımız 27 000 MVt həcmində qiymətləndirilir. Külək enerjisi potensialı 3 000 MVt, günəş enerjisi potensialı 23 000 MVt, bioenerji potensialı 380 MVt, dağ çayları üzrə potensial isə 520 MVt həcmindədir. Respublikamızın müxtəlif bölgələrində ümumi gücü 66 MVt təşkil edən külək, 40 MVt olan günəş, 38 MVt bioenerji elektrik stansiyaları, həmçinin 32 MVt gücündə kiçik su elektrik stansiyaları istismar olunur. 2020-ci ildə respublikada ümumi elektrik enerjisi istehsalı 25,8 mlrd kVt/st olub ki, bunun 1,3 mlrd kVt/st-ı böyük su elektrik stansiyaları da daxil olmaqla bərpa olunan enerji mənbələrinin payına düşüb.

Bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən prioritet vəzifə olaraq irəli sürüldüyü və 2030-cu ilədək elektrik enerjisinin qoyuluş gücündə payının 30 %-ə çatdırılmasının (hazırda 17 % təşkil edir) hədəf kimi müəyyənləşdirildiyi nəzərə alınmaqla bu istiqamətdə bir çox işlər görülür. Bu sahədə ilk normativ sənəd kimi "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Qanun layihəsi

hazırlanıb (31 may 2021-ci il tarixli). Qanunda sahənin inkişafına özəl, o cümlədən xarici investisiyaların cəlbi istiqamətində mexanizmlər nəzərdə tutulub ki, bunlardan biri bərpa olunan enerji hərraclarının təşkilidir. Bu istiqamətdə Avropa Yenidənqurma və İnkişaf Bankının dəstəyi ilə "Azərbaycanda bərpa olunan enerji hərraclarının keçirilməsinə dəstək" layihəsi həyata keçirilir. Layihə çərçivəsində hərrac qaydaları işlənilib hazırlanır.

Bununla yanaşı, Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" və Birləşmiş Ərəb Əmirliyinin "Masdar" şirkəti ilə qoyuluş gücləri müvafiq olaraq 240 MVt olan külək elektrik stansiyası və 230 MVt gücündə günəş elektrik stansiyasnın tikintisi ilə bağlı pilot layihələrin həyata keçirilməsinə başlanılıb. Şirkətlərlə bu istiqamətdə "İnvestisiya müqaviləsi", "Enerji alqı-satqı müqaviləsi" və "Ötürücü şəbəkəyə qoşulma müqaviləsi" imzalanıb. Bu 470 meqavatlıq stansiyaların təxminən 500 mln ABŞ dolları məbləğində tam xarici investisiya hesabına tikilməsi planlaşdırılır.

BP şirkəti ilə isə Zəngilan/Cəbrayıl zonasında 240 MVt gücündə günəş elektrik stansiyasının tikintisi layihəsinin qiymətləndirilməsi və həyata keçirilməsi fəaliyyəti üzrə əməkdaşlığa dair İcra Müqaviləsi imzalanıb. Eyni zamanda, Asiya İnkişaf Bankının dəstəyi ilə "Üzən günəş panellərinin inkişafına dair biliklərin mübadiləsi və texniki yardım dəstəyi" layihəsi həyata keçirilməkdədir. Bu layihə çərçivəsində Azərbaycanda ilk dəfə Böyükşor gölü üzərində 100 kVt gücündə pilot üzən fotovoltaik sistemin quraşdırılması nəzərdə tutulur.

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli müvafiq Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"dən biri kimi "Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi"nin müəyyənləşdirildiyini nəzərə alaraq qeyd etmək olar ki, qarşıdakı dövrdə bərpa olunan enerji mənbələrindən istifadəyə diqqət daha da artırılacaq. Prioritetin "yaşıl enerji məkanı" adlı alt məqsədinə uyğun olaraq eyni zamanda elektromobillərdən istifadə və enerji səmərəliliyi də diqqət mərkəzində saxlanılacaq.

İşğaldan azad olunmuş ərazilərdə aparılan quruculuq işlərində məhz "yaşıl enerji" layihələrinə üstünlük verilir. Həmin ərazilərdə 4 000 MVt-dan artıq günəş, 500 MVt-dək külək enerjisi potensialı mövcuddur. Eyni zamanda, Qarabağ Azərbaycanda yerli su ehtiyatlarının formalaşdığı əsas rayonlardan biridir. Azərbaycanın yerli su ehtiyatlarının 25 %-i bu ərazidə formalaşır. Regionun Tərtərçay, Həkəri kimi əsas və digər kiçik çayları kifayət qədər əhəmiyyətli enerji potensialına malikdir.

Regiondakı digər mühüm enerji obyektləri "Xudafərin" və "Qız Qalası" hidroqovşaqlarıdır. Qoyuluş gücü 200 MVt olan "Xudafərin" və 80 MVt gücündə "Qız Qalası" su elektrik stansiyalarının inşasının 2-2,5 il ərzində yekunlaşdırılması nəzərdə tutulur. Hazırda işğaldan azad edilmiş ərazilərdə "Yaşıl Enerji Zonası" Konsepsiyası və Baş Planının hazırlanması məqsədilə Yaponiyanın bu sahədə ixtisaslaşmış TEPSCO şirkəti ilə müqavilə imzalanıb. Hazırda bu istiqamətdə işlər ölkəmizdə davam etdirilir. Asanlıqla doldurulan bu enerji mənbələri təkcə ətraf mühit üçün faydalı deyil, həm də iş yerlərinin yaradılmasına gətirib çıxarır və inkişaflar davam etdikcə iqtisadi cəhətdən sərfəli görünür. Fakt budur ki, qalıq yanacaqlar keçmişdə qalmalıdır, çünki onlar bizim enerji ehtiyaclarımızı davamlı həll etmir. Müxtəlif yaşıl enerji həllərini inkişaf etdirməklə biz hamımızın yaşadığımız dünyaya zərər vermədən enerji təminatımız üçün tamamilə davamlı gələcək yarada bilərik.

*Musayev Eldar Mərdan oğlu,*
*iqtisad üzrə fəlsəfə* doktoru,
*Bakı Biznes Universiteti;*

*Əliyev Əli İmaş oğlu,*
*iqtisad elmləri namizədi, dosent,*
*Bakı Biznes Universiteti*

# MƏTNLİ MƏLUMATLARIN VƏ WEB RESURSLARIN TƏHLİLİNDƏ DATA MINING TEXNOLOGİYALARINDAN İSTİFADƏNİN BƏZİ PROBLEMLƏRİ

İri həcmli məlumatlar bazasından maraqlı informasiyanın, yaxud şablonların (patternlərin) hasil edilməsi (çıxardılması) məlumatların intellektual təhlili (data mining) adlanır. Mətnlərin intellektual təhlili böyük həcmli mətnli məlumatlar bazasından qeyri-trivial şablonların (patternlərin) və faydalı informasiyanın hasil edilməsi prosesidir. Mətnlərin (Text Mining), Web resursların (Web Mining) təhlili proqnozlaşdırma və qərar qəbul edilməsi prosesi üçün mühüm məlumatların axtarışının müxtəlif strategiyaları və mexanizmləri (alqoritmləri) mövcuddur [5]. Mətnlərin və Web resursların intelektual təhlili prosedurlarının düzgün və dəqiq seçilməsi məlumatlarla işlərin sürətinin artırılmasına, məlumatların səmərəli işlənilməsinə, gizli qanunauyğnluqların aşkar edilməsinə və idarəetmə qərarının qəbul edilməsi prosesində istifadə edilə bilən yeni biliklərin əldə edilməsinə imkan verir.

Mətnlərin intellektual təhlili mətnli məlumatlar arasındakı əlaqələrin, şablonların (patternlərin) və qaydaların təhlili yolu ilə informasiyanın sintez edilməsi prosedurudur. Qeyd etdiyimiz kimi informasiyanın həcmi eksponensial templə artır. Bu gün bütün institutlar, kompaniyalar, müxtəlif təşkilatlar, kommersiya müəssisələri və s. öz informasiyalarını elektron formada saxlayır. İnternetdə və rəqəmsal kitabxanada, məlumatlar bazası anbarında saxlanılan məlumatların böyük kolleksiyası (dəsti), veb – saytlar, sosial şəbəkələr və elektron poçtlar və s. kimi digər mətnli məlumatlar əlçatandır. Belə böyük həcmli məlumatlardan biliklərin hasil edilməsi üçün uyğun şablonların və meyllərin müəyyən edilməsi mürəkkəb məsələdir. Mətnlərin intelektual təhlili mətnli məlumatlar bazası anbarından dəyərli (qiymətli) mətnli informasiya hasil etmək üçün məlumatların intellektual təhlilinin bir hissəsidir. Mətnlərin intellektual təhlili məlumatların bərpasına, məlumatların intellektual təhlilinə, süni intellektə, maşınlı öyrənməyə, kompüter linqvistikasına əsaslanan çox profilli (çoxplanlı, çoxtərəfli) sahədir.

Mətnlərin intellektual təhlili prosesini aşağıdakı kimi təsvir etmək olar:

- müxtəlif mənbələrdən, müxtəlif təşkilatların əlçatan sənədlərindən, məsələn, adi mətn, veb-səhifələr, PDF (Portable Document Format) qeydləri və s. strukturlaşdırılmamış informasiyanı toplamaq;
- məlumatların ilkin işlənilməsi və təmizlənməsi vəzifələri məlumatlardakı uyğunsuzluğu aşkar etmək və aradan qaldırmaq üçün yerinə yetirilir;
- məlumatlar dəstinin yoxlanılması və sonrakı təmizlənməsi üçün işlənilmə (emal edilmə) və nəzarət vəzifələri həll edilir;
- informasiyanın idarəedilməsi sistemində həyata keçirilən şablonların (pattern, model, nümunə) təhlili;

- yuxarıda qeyd edilən mərhələlərin işlənilməsinin informasiyası meyllərin təhlili, səmərəli və əlverişli qərar qəbul edilməsi prosesinin mühüm və tətbiq edilə bilən (kara gələn, işlədilə bilən) məlumatlarını hasil etmək üçün istifadə edilir.

Mətnlərin intellektual təhlili prosedurlarına aiddir:

- mətnin ümumiləşdirilməsi: onun bütün məzmunun əks etdirən natamam (qismən, çüzi) məzmununun avtomatik hasil edilməsi (çıxarılması) ;

- mətni kateqoriyalaşdırmaq (təsnifatlaşdırma, qruplara ayırmaq): istifadəçilər tərəfindən əvvəlcədən müəyyən edilmiş kateqoriyalar arasından mətnə kateqoriyalar verilməsi;

- mətnin klasterləşdirilməsi: mühüm mənasından asılı olaraq, mətnləri bir neçə klasterlərlə seqmentləşdirilməsi.

Ümumiyyətlə, mətnlərin təhlili metodlarını iki kateqoriyaya - linqvistik metodlar (təbii dilin işlənilməsi) və statistik metodlar (rast gəlinən sözlərin tezliyi) - bölmək olar. Bir halda ki, mətnli məlumatların intellektual təhlilinin əsası mətnli məlumatlar yaxud mətnlərdir, təhlil metodlarında da linqvistik metodlara (linqvistik metod - dilin dərk edilməsi, dil haqqında biliklər əldə edilməsi vasitəsidir, üsuludur) üstünlük təşkil edir. Mətnlərin təhlili metodlarından istifadə edərək təhlil edilən məlumatlar strukturlaşdırılmamış və yarıstrukturlaşdırılmış məlumatlar kateqoriyasına düşür (daxildir). Linqvistik dilin təhlili, məsələn, konkret semantik xarakteristikalara uyğun məlumatların təsnifatlaşdırması belə, yarı strukturlaşdırımış məlumatları (klasterləşdirmə) strukturlaşdırılması üçün mühüm başlanğıc nöqtəni təmin edir.

Təbii dilin işlənilməsi metodlarına morfoloji, sintaktik semantik təhlili aid etmək olar. Qeyd edilənlərə əsaslanaraq mətn təhlilinin metodlarını aşağıdakı kimi sistemləşdirmək olar:

- informasiyanın hasil edilməsi (çıxarılması): sənədlərdən məna ifadə edən sözlərin hasil edilməsi prosesidir;

- informasiya axtarışı: verilmiş sözlər dəstinə və mətnli sənədlərə uyğun olaraq şablonlarla bağlı uyğun gələnlərin hasil edilməsi prosesidir;

- təbii dilin işlənilməsi: strukturlaşdırılmamış mətnli informasiyanın avtomatik işlənilməsi və təhlili;

- klasterləşdirmə: oxşar xarakteristikalarına uyğun olaraq mətnləri qruplaşdıran öyrənmənin nəzarət edilməyən prosesidir;

- mətnin ümumiləşdirilməsi: mətnin məzmunu əks etdirən hissələrinin avtomatik hasil edilməsi (çıxarılması).

Mətnlərin intellektual təhlili (Text Mining) mövcud mətnli məlumatlarda əvvəllər məlum olmayan əlaqələrin və korrelyasiyanın alqoritmələşdirilmiş aşkar edilməsidir. Artıq formalaşdırılmış metodologiyaya uyğun olaraq Text Mining-in əsas elementlərinə aid etmək olar:

- ümumiləşdirmə (summarization) anlayışları;
- fenomenlərin, əlamətlərin hasil edilməsi (feature extraction);
- klasterləşdirmə (clustering);
- təsnifatlaşdırma (classification);
- sorğuları cavablandırmaq (question answering);
- mövzuların indeksləşdirilməsi (thematic indexing);
- açar sözlərin axtarışı (keyword searching). Həmçinin bəzi hallarda elementlər

dəstini taksonomiyaların (taxonomies), sözlüklərin, lüğətlərin yaradılması və dəstəklənməsi vasitələri ilə tamamlanır.

Müasir dövrdə bir çox aparıcı proqram təminatı istehsalçıları öz məhsullarını Text mining sahələrinə təklif edirlər. Bir qayda olaraq, bu mətnli məlumatların təhlilinin müxtəlif riyazi və linqvistik alqoritmlərinin həyata keçirilməsinin miqyaslaşdırılmış sistemləridir. Onların inkişaf etmiş qrafik interfeysləri, məlumatların vizuallaşdırılması və onlarla manipulyasiya etmək imkanları vardır, müxtəlif məlumat mənbələrinə daxil olmağa imkan verir, istifadəçi-server arxitekturasında fəaliyyət göstərir [7].

Data Miningin mahiyyətinin izahından göründüyü kimi, o, yalnız "strukturlaşdırılmamış mətnli məlumatlar" anlayışı ilə fərqlənir. Belə məlumatlar dedikdə, strukturundan hansısa məhdudiyyətlər olmayan məntiqi birləşdirilmiş mətnlər kimi çıxış edən məlumatlar dəsti başa düşülür. Belə sənədələrə aid edilir: Veb-səhifələr, elektron port, normativ sənədlər və s. Ümumi halda belə sənədlər çoxdur və mürəkkəbdir, özünə yalnız mətni deyil, qrafik informasiyanı da daxil edir. Genişləndirilmiş nişanlar (markalanma) dilindən XML (eXtensible Markup Language), ümumiləşdirilmiş nişanların (markalanma) standart dilindən SGML (Standard Generalised Markup Language) və mətnlərin strukturunun formalaşdırılmasına görə digər oxşar uzlaşmalarda istifadə edilən sənədlər yarıstrukturlaşdırılmış sənədlər adlandırmaq qəbul edilmişdir. Onlar da Text Mining metodları ilə işlənilə bilər.

Mətnli sənədlərin təhlili prosesini bir neçə ardıcıl addımlar - informasiyanın axtarışı, sənədlərin ilkin işlənilməsi, informasiyanın hasil edilməsi, Text Mining metodlarının tətbiqi və nəticələrin interpretasiyası (izahı) - kimi təsvir etmək olar. Text Mining mətnlərin semantik təhlilinin, informasiyanın axtarışının və idarəedilməsinin həyata keçirilməsinin yeni metodlarını əhatə edir. Text Mining anlayışının sinonimi KDT-dır (Knowledge Discovering in Text-mətndə biliyin axtarışı yaxud aşkar edilməsi). Qaydaya salınma hansısa informasiya strukturunun təhlilini nəzərdə tutan data mining - in texnologiyalarında fərqli olaraq Text Mining texnologiyaları böyük və olduqca böyük strukturlaşdırılmamış informasiya kütlələrini (dəstini) təhlil edir. Bu vəzifələri reallaşdıran proqramlar bir qədər insana xas təbii dillərə və təhlil edilən mətnin semantikasının anlanılmasına (başa düşülməsinə) əsaslanmalıdır. Bəzi Text Mining sistemlərinin əsaslandığı metodlardan biri necə deyərlər, sətirdə alt sətirlərin axtarışıdır [4, s.484].

Məlumatların təhlili ilə mətnlərin təhlili arasındakı başlıca (əsas) fərq işlənilən (emal edilən) məlumatların tipidir. Deməli, məlumatların klassik intellektual təhlili üçün məlumat mənbələri strukturlaşdırılmış məlumatlardır. Strukturlaşdırılmış məlumatlar reiyasion məlumatlar bazasının anlayışlarına uyğun olaraq, əsasən normal formada olur. Əksinə, mətnlərin intellektual təhlili kontekstində mətnli sənədlər adətən təhlilin strukturlaşdırılmamış əsası kimi başa düşülür. Digər fərq ondan ibarətdir ki, həm məlumatların və həm də mətnlərin təhlili istifadə edilən təhlil (analitika) metodlarına uyğundur [8]. Onlardan heç biri yeganə (vahid) texnologiya deyildir, lakin bunun əvəzinə mövcud olan məlumatları dəyərli (qiymətli) ideya və biliyə çevirmək üçün geniş funksiyalar spektrindən (dairəsindən ) istifadə edilir. Mətnlərin intellektual təhlili problemlərinin həll edilməsi üçün çoxsaylı metodlar işlənib hazırlanmışdır. İnformasiyanın axtarışına uyğun olaraq əsasən dörd metoddan istifadə edilir (Sxem 1).

*Sxem 1.*

**Mətnlərin intellektual təhlili metodları**




Mətn təhlilinin nəticələri aktuallıq, yenilik və maraq daxil olmaqla bir sıra keyfiyyət kriteriyaları baxımından qiymətləndirilir. Mətn təhlilinin tipik vəzifələrinə - kateqoriyalaşdırma, klasterləşdirmə, mahiyyyətlərin (mənaların) hasil edilməsi, taksanomiyaların (təsnifatların) işlənib hazırlanması, sənədlərin ümumiləşdirilməsi, mahiyyətlər (məzmunlar) arasındakı əlaqələrin modelləşdirilməsi, tematik (mövzu) indeksləşdirmə, açar sözlərin axtarılması, sözlərin tezliklərinin bölgüsünün öyrənilməsi, annotasiya vermə - qısa xülasələşdirmə və s. aid edilir.

Müasir dövrdə qlobal internet şəbəkəsi ümumi əlçatan informasiya mənbələrindən ən zənginidir. O, böyük sayda sənədlərdən, məlumatlardan, mediafayllardan və s. ibarətdir. Lakin internet istifadəçiləri onlara lazım olan informasiyanı axtararkən və təhlil edərkən problemlərlə qarşılaşırlar. Web informasiya ilə işlənilməsi problemlərinə əhəmiyyətli (mənalı) informasiyanın axtarışı, faydalı biliklərin hasil edilməsi, axtarış sistemlərinin öyrənilməsi və s. aid edilir. Bu problemləri aradan aradan qaldırmaq üçün Web Miningdən istifadə edilir [6, s.221]. Web Mining - Web sənədlərindən və servislərindən informasiyanı hasil etmək və tədqiq etmək üçün Data Mining metodlarının istifadə etdiyi texnologiyadır. Web Miningin tətbiqi mərhələlərinə resursların axtarışı, informasiyanı hasil etmək, ümumiləşdirmə və təhlil aid edilir. Web Mining sahəsində təhlilin istiqamətləri ayırd edilir: Web kontentlərin hasil edilməsi (Web Content Mining), Web strukturunların hasil edilməsi (Web Structure Mining) və Web resurslardan istifadənin tədqiqi (Web Usage Mining).

Web kontentlərin hasil edilməsi (klasterləşdirmə, təsnifatlaşdırma) özünə sənədlər, məlumatlar, məzmun və s. kimi Web resurslardan faydalı informasiyanın hasil edilməsi metodlarını daxil edir. Web kontentlərin hasil edilməsi əldə edilən informasiyanın relevantlığını yüksəltməyə imkan verir və sənədlərin indeksləşdirilməsi üçün istifadə edilir. Bundan başqa, o, informasiya sorğularına imkanları genişləndirərək onun strukturlaşdırılmasını təmin edir.

Web strukturları hasil edərkən (təsnifatlaşdırma, assosasiya) Web səhifələr ara-

sındakı qarşılıqlı əlaqələri əks etdirən modellər qurulur [11]. Model hiperistinadların topologiyasına (fasiləsiz hadisə) əsaslanır. Belə model Web səhifələrin kateqoriyalaşdırılmasında istifadə dilə bilər, həmçinin Web saytlar arasındakı oxşarlıq və əlaqələr haqqındakı informasiyanın hasil edilməsində faydalı ola bilər.

Web resurslardan istifadənin tədqiqi (təsnifatlaşdırma, klasterləşdirmə, assosasiya) gedişində istifadəçilərin davranışı və istifadəçilərin sayta baş vurma dövrü prosesində hasil edilən informasiyalar təhlil edilir.

Beləliklə, mətnli məlumatların və Web resursların intellektual təhlili təbii dilin işlənilməsinin, maşınla öyrənmənin və süni intellektin mühüm istiqamətlərdən biridir və məqsədi mətnli sənədlər kolleksiyasından və internet məlumatlarından informasiya və yeni biliklər əldə etməkdir. Araşdırma göstərir ki, mətnlərin intellektual təhlilinin üstünlüklərinə informasiyanın hasil edilməsi (çıxarılması) müasir texnologiyalardan istifadə etməklə yekun sənədlər dəstindən müxtəlif mahiyyətlərin (mənaların) adlarını və onlar arasındakı əlaqələri asanlıqla tapmaq, böyük həcmdə strukturlaşdırılmamış informasiyanın idarə etmək və s. aid etmək olar. Eyni zamanda mətnlərin intellektual təhlili prosesində çoxsaylı problemlər ortaya çıxır. Bunlara qəbul edilən qərarların səmərəliliyini və nəticəliliyini, bir çox alqoritmlərin və metodların çoxdilli mətnləri dəstəkləməməsini, strukturlaşdırılmamış məlumatları birbaşa təhlil edə bilən proqramların yaradılması çətinliyini, sənədin mətnində sinonimlərdən, çoxmənalı sözlərdən, antonimlərdən istifadə edilməsi bu və ya digər oxşar şəraitlərdə mətnlərin intellektual təhlili vasitələrindən istifadəyə problemlər yaratmasını, onların təsnifatlaşdırılması çətinliyini və s. aid etmək olar. Müasir dövrdə ən zəngin informasiya və bilik mənbələrini özündə əks etdirən internet resurslarının təhlili sahəsindəki problemlərə mühüm informasiyanın axtarışını, çoxlu sayda mənbələr arasında həqiqətən vacib olan informasiyanın xüsusi çəkisinin az olmasını, bütün Web resursların indeksləşdirilməsinin qeyri-mümkünlüyü ilə əlaqədar olaraq çağırışların təkrarlığının aşağı olmasını, informasiyanın fərdiləşdirilməsini, istehlakçıların yaxud fərdi istifadəçilərin öyrənilməsini və s. aid etmək olar.

## İstifadə olunmuş ədəbiyyat siyahısı:

1. Карпов М.А. Использование методов интеллектуального анализа данных в веб-приложениях. Поволжский Государственный Университет Телекоммуникаций и Информатики. Том: 1, №10, 2017, стр. 418-423

2. Фомин В.В. Система интеллектуальной обработки данных // Известия Российского Государственного Педагогического Университета им. А.И. Герцена. 2013, №1 (154). стр. 41-48.

3. Thakur K., Kumar V. Application of Text Mining Techniques on Scholarly Research Articles: Methods and Tools, New Review of Academic Librarianship, Volume 28, 2022 , p. 279-302

4.Akshaya U., Prasanna K. Text Mining and Text Analytics of Research Articles -Palarch’s Journal Of Archaeology Of Egypt/Egyptology 17(6). p. 483-489

5. Марти Херст. Что Такое Интеллектуальный Анализ Текста? – Режим доступа: http://people.ischool.berkeley.edu/~hearst/text-mining.html

6. Raghavendra T.S., Mohan K.G. Web Mining and Minimization Framework

Design on Sentimental Analysis for Social Tweets Using Machine Learning, Procedia Computer Science, Volume 152, 2019, p. 230-235
7.https://www.linguamatics.com/guides/what-text-mining-healthcare-nlp-and-llms
8.https://www.researchgate.net/publication/346805661_A_Powerful_Techniques_and_Applications_of_Web_Mining
9. https://cyberleninka.ru/article/n/o-zadachah-primeneniya-web-mining
10. https://basegroup.ru/community/articles/web-usage-mining-part1
11. https://habr.com/ru/articles/99918/

*Məhərrəmov Ramiz Bulut oğlu,*
*iqtisad elmləri namizədi, dosent,*
*İqtisadiyyat Nazirliyi yanında*
*Dövlət Vergi Xidmətinin Tədris Mərkəzi,*
*E-mail:ramiz.bmaharramov@taxes.gov.az;*

*Məmmədzadə Nigar Ramiz qızı, doktorant,*
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC),*
*E-mail: nigu88@rambler.ru*

## VERGİ BORCLARI ÜZRƏ MÖHLƏT HÜQUQUNUN VERİLMƏSİ MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

Vergi nəzəriyyələrində vergi öhdəliyi elə münasibətlər sisteminə aid edilmişdir ki, ona əsasən vergi ödəyicisi verginin hesablanması və ödənilməsi üzrə qanunla müəyyən edilmiş bütün tələbləri yerinə yetirməsi, səlahiyyətli orqanlar qismində dövlətin isə vergi ödəyicisindən bu öhdəliyin yerinə yetirilməsini tələb etmək hüququnun yaranmasıdır. Beləliklə, vergi ödəyiciləri iqtisadi münasibətlər sistemində iştirak etməklə vergi öhdəliyinin icrasını vaxtında və dolğun icra etmək kimi vəzifəyə malikdirlər.

2022-ci ildə Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, tənzimlənən münasibətlərdən biri vergi borclarının (öhdəlik əsasında yaranmış) yığılmasının səmərəliyinin artırılması məqsədilə vergi borclarının alınmasına möhlət verilməsi mexanizminin təkmilləşdirilməsindən ibarət olmuşdur. Belə ki, vergi ödəyicisi tərəfindən yalnız mövsümi xarakterli malların (işlərin, xidmətlərin) təqdim edilməsinin həyata keçirilməsi, dövlət sifarişinin yerinə yetirilməsi ilə əlaqədar sifarişçinin borclu olması müvafiq arayışla təsdiq edildikdə və təhlükə potensiallı obyektlərdə baş verən qəzalarla əlaqədar vergi öhdəliklərinin yerinə yetirilməsinə möhlət verilən hallara aid edilmişdir. Vergi borcunun ödənilməsinə möhlət verilməsi ən azı vergi orqanında 3 il müddətində vergi ödəyicisi kimi uçotda olan şəxslərə aid edilmiş və vergi borcu vergi ödəyicisi tərəfindən məhkəmə və ya inzibati qaydada mübahisələndirildiyi halda vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılmasından imtina edilmişdir.

Vergi borcunun ödənilməsinə möhlət verilməsi ilə əlaqədar vergi ödəyicisi tərəfindən təqdim edilməli olan sənədlərin (o cümlədən vergi borcuna veriləcək təminatlardan asılı olaraq sənədlərin) siyahısı dəqiqləşdirilmiş, vergi borcunun ödənilməsinə möhlətin 6 aydan çox olmayan müddətə (o cümlədən cari vergilər üzrə təqvim ili

ərzində 6 aydan çox olmayan müddətə) verilməsinə və ya vergi orqanı ilə vergi ödəyicisi arasında razılaşdırılmış qaydada mərhələli şəkildə aylıq ödənişlər formasında yerinə yetirilməsinə 1 ildən çox olmayan müddətə möhlət verilmişdir.

Vergi ödəyicisi tərəfindən möhlət verilmiş borcun 75 faizi ödənildiyi halda vergi ödəyicisinin müraciəti əsasında yuxarıda qeyd edilmiş müddətlərin yuxarı vergi orqanının qərarı ilə müvafiq olaraq 1 ildən və 2 ildən çox olmayan müddətə artırılması həyata keçirilmişdir. Vergi orqanının qərarı ilə vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadıldığı dövr ərzində həmin borca faizlər hesablanmır. Bundan başqa, vergi orqanının qərarı əsasında vergi öhdəliyinin yerinə yetirilməsinin uzadıldığı müddətin vergi borcunun tələb edilməsi Vergi Məcəlləsi ilə müəyyən edilmiş 5 illik müddətə daxil edilməmişdir.

Qeyd edək ki, 1 yanvar 2023-cü il tarixə dövlət büdcəsinə vergi borcları 2 milyard 356,7 milyon manat məbləğində (2021-ci ilin sonuna 1 milyard 896,6 milyon manat) qiymətləndirilmişdir və 2022-ci il ərzində artım 24,2% təşkil etmişdir. Tətbiq edilmiş maliyyə sanksiyaları 223,7 milyon manat, cərimələr 626,5 milyon manat təşkil etmişdir. Bütövlükdə, həmin dövrə 92,5 min vergi ödəyicisinin vergi borcu yaranmışdır.

Vergi borclarının yığılmasının səmərəliyinin artırılması məqsədilə vergi borclarının alınmasına möhlət verilməsi mexanizminin təkmilləşdirilməsi gələcək dövr üçün də prioritet istiqamətlərdən biri kimi müəyyən edilmişdir. Belə ki, vergi ödəyicilərinin yaranmış borclarını birdəfəyə ödəmək imkanı olmadıqda yaranmış vergi borcuna möhlət verilməsi hüququndan istifadə edə bilməsi Vergi Məcəlləsi ilə təsbit edilsə də, bunun işlək mexanizmi mövcud olmadığından bu alətdən istifadə imkanları məhdudlaşmışdır.

Borcların kreditləşdirilməsi və onun müəyyən edilmiş qrafik üzrə ödənilməsi imkanları vergi ödəyicisinə biznes fəaliyyətinin fasiləsizliyinə dəstək olmaqla yanaşı, borcların idarə edilməsi və daxilolmaların proqnozlaşdırılmasına imkan yaratmış olur. Bunun üçün, vergi borcların ödənilməsi üzrə möhlət verilməsinin qaydasının normativ bazasının hazırlanması zəruridir. Bu isə öz növbəsində, vergi ödəyicilərinə vergi borclarının sistemli ödənilməsi imkanlarını yaratmış olacaqdır.

Bundan başqa, vergi ödəyicilərinin ödəmə qabiliyyətinin olub-olmamasını müəyyən edən mexanizmin hazırlanması, möhlətlə bağlı tələblərin daha da təkmilləşdirilməsi də zəruri istiqamətlərdəndir. Bunun üçün Vergi Məcəlləsinə bir sıra dəyişikliklərin edilməsi nəzərdə tutulur:

- vergi ödəyicisinin vergi borcunu birdəfəyə ödədiyi təqdirdə iflasa uğramaq təhlükəsinin olub-olmamasının müəyyənləşdirilməsi və bu istiqamətdə qaydasının hazırlanması;
- vergi ödəyicisinin vergi orqanında uçotda olmasını tələb edilən müddətin 3 ildən 2 ilə endirilməsi;
- vergi ödəyicisi tərəfindən son 1 il ərzində müddəti uzadılmış vergi öhdəliyi vaxtında yerinə yetirilmədikdə vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin təkrarən uzadılmaması;
- vergi ödəyicisi tərəfindən müddətin uzadılması üçün vergi borcunun 10 faizinin ödənilməsi, bu ödəniş yerinə yetirilmədikdə isə borca möhlət verilməməsi;
- sahibkarlıq subyektlərinin kateqoriyasından asılı olmayaraq vergi borcunun

məbləği 500 – 300.000 manat arasında olarsa müraciətə təsdiqedici sənədlərin əlavə edilməsi və 300.000 manatdan artıq olduqda isə bank zəmanəti, girov və ya zaminlik müqaviləsi tələb edilməsi, yaxud əmlakın siyahıya alınmasına razılığın alınması;

- möhlət müddəti ərzində möhlət verilmiş borca münasibətdə borcun alınması ilə bağlı tədbirlərin dayandırılması.

Göründüyü kimi, vergi öhdəliklərinin icrası mexanizminin (vergi borclarının alınması) təkmilləşdirilməsi sahibkarlıq subyektlərinin kateqoriyasından asılı olmayaraq bütün vergi ödəyicilərinə şamil edilir ki, bu da onların iflasa uğramaq təhlükəsini azaldır.

*Qarayev İmran Əliyar oğlu,*
*iqtisad elmləri namizədi,*
*İqtisadiyyat Nazirliyi yanında*
*Dövlət Vergi Xidmətinin Tədris Mərkəzi,*
*E-mail: imrangarayev@taxes.gov.az*

## VERGİ QANUNVERİCİLİYİNƏ EDİLMİŞ DƏYİŞİKLİKLƏRİN İQTİSADİ MAHİYYƏTİ

Ölkə iqtisadiyyatında bazar münasibətlərinə keçidlə əlaqədar yeni iqtisadi münasibətlər şəraitində vergi siyasətinin iqtisadiyyatın real sektoruna uyğunlaşdırılması, dövlət büdcəsinə çatası vergilərin və digər icbari ödənişlərin tam və vaxtında yığılması, hüquqi və fiziki şəxslərin iqtisadiyyatın inkişafında rolunun artırılması vergi qanunvericiliyində mütəmadi olaraq dəyişikliklərin edilməsini zəruri edir.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə 2022-ci ildə edilmiş son dəyişikliklər nəticəsində:

- vergitutma bazası genişləndirilmiş;
- vergi nəzarəti mexanizmi təkmilləşdirilmiş və vergidən yayınma hallarına qarşı mübarizə genişləndirilmiş;
- ofşor zonalarla aparılan əməliyyatlar üzrə vergi nəzarəti gücləndirilmiş və vergitutma bazası genişləndirilmiş;
- sosial xarakterli güzəştlər vasitəsilə əhalinin maliyyə (vergi) yükü azaldılmış;
- sahibkarlıq subyektlərinin və bank-maliyyə sektorunun vergi yükü azaldılmış və sahibkarlıq fəaliyyəti təşviq edilmiş;
- vergi borclarının yığılmasının səmərəliyinin artırılması məqsədilə vergi borclarının alınmasına möhlət verilməsi mexanizmi təkmilləşdirilmiş;
- uçot siyasəti təkmilləşdirilmiş;
- bəzi hallar üzrə vergitutma mexanizmi təkmilləşdirilmişdir.

Bunlarla yanaşı, “Nağdsız hesablaşmalar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 3 dekabr 2021-ci il tarixli Qanunu ilə “Nağdsız hesablaşmalar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilərək nağdsız qaydada həyata keçirilən hesablaşmaların siyahısına ixtisaslaşdırılmış qaydada bir sıra ödənişlər əlavə edilmişdir.

Qeyd edək ki, vergi qanunvericiliyində edilmiş əsalı dəyişikliklər nəticəsində

2023-cü ilin yanvar-sentyabr ayları ərzində İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xəttilə dövlət büdcəsinə 12 milyard 810,7 milyon manat vergi daxil olmuşdur. Ötən ilin müvafiq dövrü ilə müqayisədə vergi daxilolmaları həcmi 22,6% və ya 2,3 milyard manat artmışdır. Qeyri-neft-qaz sektorundan daxilolmalar 7,4 milyard manat olmuş, 2022-ci ilin eyni dövrünə nisbətən bu sektordan vergi daxilolmaları həcmi 19,3% və ya 1,2 milyard manat artmışdır.

Cari ilin büdcə-vergi siyasəti çərçivəsində hazırlanmış Vergi Məcəlləsinə dəyişiklik layihəsinə sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması və sahibkarlıq fəaliyyətinin təşviq edilməsi, sosial xarakterli güzəştlər vasitəsilə əhalinin vergi yükünün azaldılması, vergi nəzarəti mexanizminin təkmilləşdirilməsi və vergitutma bazasının genişləndirilməsi və vergi inzibatçılığı tədbirlərinin təkmilləşdirilməsi istiqamətləri üzrə dəyişiklikləri əhatə edən bir sıra müddəalar daxil edilmişdir.

Dəyişikliklər əsasən maliyyə, səhiyyə, kənd təsərrüfatı, turizm, nəqliyyat sektorlarını və digər sektorları əhatə edir. Bu dəyişikliklərin əsas istiqamətləri aşağıdakılardan ibarətdir:

1. Sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması və sahibkarlıq fəaliyyətinin təşviq edilməsi;
2. Sosial xarakterli güzəştlər vasitəsilə əhalinin vergi yükünün azaldılması;
3. Vergi nəzarəti mexanizminin təkmilləşdirilməsi və vergitutma bazasının genişləndirilməsi;
4. Vergi inzibatçılığının təkmilləşdirilməsi.

Vergi Məcəlləsinə edilən dəyişikliklərin əsas məqsədi biznesin yükünün optimallaşdırılması, sahibkarlıq subyektlərinin fəaliyyəti üzrə vergi güzəştlərinin hədəfli tətbiqi, kölgə iqtisadiyyatının əhatə dairəsinin daraldılması, vergi orqanlarının risk əsaslı nəzarət sisteminin qurulması, mikro sahibkarlıq subyektindən kiçik sahibkarlıq subyektinə keçidin stimullaşdırılması, sosial dəstək mexanizmləri vasitəsilə əhalinin maliyyə-vergi yükünün azaldılmasından ibarətdir.

*Həsənov İsmayıl Cəfər oğlu,*
*iqtisad elmləri namizədi, dosent,*
*Bakı Biznes Universiteti,*
*E-mail: i_hasanov_65@mail.ru*

## YAŞIL İQTİSADİYYAT ŞƏRAİTİNDƏ TİKİNTİDƏ TEXNİKİ TƏNZİMLƏMƏ VƏ STANDARTLAŞDIRMA SİSTEMİNİN İNKİŞAFI

Yüksək keyfiyyətli tikinti məhsullarının istehsalı və satışı tikinti təşkilatlarının rəqabət qabiliyyətinin artırılmasında əsas amildir. Bununla yanaşı texniki tənzimləmə sisteminin və standartların tələblərinə uyğunluq tikinti məhsullarının yüksək səviyyədə keyfiyyətinə nail olmaq üçün əsas şərtdir. Tikinti məhsullarının rəqabət qabiliyyətinin artırılmasında innovativ fəaliyyətin aktivləşdirilməsi vasitəsi kimi texniki tənzimləmə sisteminin tətbiqi bir sıra inkişaf istiqamətlərində öz əksini tapmışdır. Yaşıl iqtisadiyyat şəraitində bu proses aktuallığını bir az da genişləndirir. Tikintidə "yaşıl" texnologiya və ya təmiz texnologiya bir və ya daha çox ekoloji elmlərin (yaşıl kimya), ətraf

mühitin monitorinqi, təbii mühitin və ehtiyatların monitorinqi, modelləşdirilməsi və qorunması, insanın mənfi təsirlərinin qarşısını almaq üçün müxtəlif vasitələrin tətbiqidir. Bu cür təmiz texnologiyalar tibbdən ağır sənaye sahələrinə qədər bir çox fəaliyyət sahələrində populyarlıq qazanır. Bu texnologiyaların populyarlığının artmasına təsir edən və onlara məqsədyönlü inkişaf verən amil "yaşıl" standartların hazırlanmasıdır. Tikintidə "yaşıl" standart-müəyyən edilmiş qaydada təsdiq edilmiş "yaşıl" texnologiyalar, təhlükəsiz və ekoloji cəhətdən təmiz məhsullar üçün tələbləri müəyyən edən normativ sənəddir. Həm istehsalçılar, həm də ictimaiyyət arasında bu istiqamətin populyarlığının artması sayəsində müxtəlif ekoloji elmlər və onların istiqamətləri inkişaf etməyə başlayır: ətraf mühitin qlobal ekoloji problemlərini araşdıran dünya ekologiyası; tədqiqat predmeti təsərrüfat fəaliyyətinin təbiətə antropogen təsirlərinin öyrənilməsi olan istehsal ekologiyası; ətraf mühitin çirklənməsi ilə əlaqədar insan sağlamlığı və həyatı üçün təhlükələri nəzərə alan insan ekologiyası və digərləri.

Tikintidə yaşıl iqtisadiyyatla əlaqəli müəyyən bir texnologiya üçün uyğunluq təyin edərkən, aşağıdakı əsas parametrləri özündə cəmləşdirən bu texnologiyanın bəzi xüsusiyyətlərini vermək lazımdır:

- enerji səmərəliliyi (enerji qənaəti);
- təhlükəsizlik;
- rahatlıq;
- tullantısız (təkrar emal, resurs qənaəti).

Tikintidə yaşıl standartlaşdırmanın əsas məqsədi yaşıl texnologiyaları məhsul və ya xidmət yaratmaq zəncirinə daxil etməkdir. "Yaşıl" standartların əsasını tələblər, normalar, normativ sənədlər və müvafiq icazə verilən maksimum dəyərlər şəklində müxtəlif qiymətləndirmələr təşkil edir. "Yaşıl standartlar" marjinal radiasiya normaları hədlərinin, emissiya normaları hədlərinin, tullantı normaları hədlərinin və icazə verilən maksimum konsentrasiyaların normalarının məcmusu olmalı və texnologiya və texnologiyalara vahid ekoloji təhlükəsizlik tələblərinə uyğunluğunu təmin etməlidir. Bu standartların tətbiqi dünyanın bir çox ölkələrinin ekologiyasının çirklənmə səviyyəsini azaltmağa kömək edəcək ki, bu da öz növbəsində bəşəriyyətin canlılığına müsbət təsir göstərəcəkdir.

"Yaşıl standartlar" enerji və ehtiyatların qorunması, tullantısız istehsalat, məhsul təhlükəsizliyi, ekoloji təhlükəsizliyi və təbii tarazlığı təmin edən ətraf mühitin keyfiyyəti və rahatlıq normaları üçün müxtəlif normativ sənədlərə öz tələblərini müəyyənləşdirir. Hazırki vəziyyətdə "yaşıl" standartlaşdırmanın bu funksiyası daha zəif inkişaf etmiş hesab olunur, çünki üstünlük təşkil edən texniki qaydalar, standartlar istehlakçının ekoloji cəhətdən təmiz məhsul və ya xidmətlə təmin edilməsinə yönəlmiş ekoloji norma və tələbləri əhatə etmir.

Həmçinin, bu cür standartlar yalnız "yaşıl" texnologiyaları deyil, həm də təşkilat və cəmiyyətdə proses idarəetməsi sistemlərinin işlənilməsini və fəaliyyət göstərməsini idarə edir. "Yaşıl" standartlaşdırma problemlərinin həllində ən vacib müddəalardan birini resurs və enerji səmərəliliyi (enerji qənaəti), həmçinin müasir və innovativ materialların və resurs qənaət texnologiyalarının tətbiqi, energetikanın mərkəzsizləşdirilməsi, "enerji cəhətdən səmərəli ev" və "enerji cəhətdən səmərəli şəhər" qənaətli enerji

sistemlərinin yaradılması məsələləri tutur. "Yaşıl" standartlaşdırmanın əsas bölməsi minimum miqdarda tullantı istehsal edən və ya tullantısız olan resurslara qənaət edən texnologiyaların yaradılması və istifadəsini stimullaşdırmağa yönəlmiş standartların hazırlanması və tətbiqidir. Tullantıların atılması və emalı texnologiyaları və təkrar xammaldan ekoloji cəhətdən təmiz məhsulların alınması mühüm yer tutur.

Tikintidə texnologiyaların və istehsalın "yaşıl" texnologiyaların standartlarına uyğunluğunun qiymətləndirilməsində əsas məsələlər arasında təhlükəsizlik məsələləri var. Eyni zamanda, ətraf mühitin ekoloji təmizliyinin hərtərəfli təhlükəsizliyini nəzərə almaq lazımdır. Ölkəmizdə "yaşıl" texnologiyalarının mövcud səviyyəsini yüksək kimi xarakterizə etmək çətindir, çünki müxtəlif sahələrdə "yaşıl" texnologiyalar qeyri-bərabər inkişaf etmişdir. Bunun səbəbi müxtəlif amillərdir, məsələn: Azərbaycanın tarixi inkişafının xüsusiyyətləri, ölkədəki iqtisadi və siyasi vəziyyət, keçən əsrin 90-cı illərində və XXI əsrin əvvəllərində baş verən böhranlar, habelə məhsul və xidmətlərin istehsalçıları və istehlakçıları tərəfindən məlumatlılıq səviyyəsinin aşağı olması. Bir çox sənaye, istehsal və xidmət sahələrində "yaşıl" texnologiyaların inkişaf səviyyəsinə görə Azərbaycan inkişaf etmiş ölkələrdən xeyli geri qalır. Lakin ölkəmizin "yaşıl" innovasiya və texnologiyaların bütün sferalarında qeyri-qənaətbəxş mövqelərə sahib olmasına baxmayaraq, bu sahədə tədqiqat, layihə və inkişafa özəl investisiya nümunələri artıq mövcuddur.

Xüsusilə, ölkəmiz üçün zəif inkişaf etmiş ümumi innovativ və sahibkarlıq mədəniyyəti, bərpa olunan mənbələrə və resurslara qənaət edən enerjiyə tələbatın aşağı səviyyədə olması xarakterikdir. Mövcud vəziyyətlə yanaşı, ekoloji problemlərin həlli zərurəti bizi "yaşıl" texnologiyalar sahəsinə diqqəti və nəzarəti gücləndirməyə məcbur edir. Bunun sayəsində müxtəlif şirkətlərin təbiətdən istifadəsini kökündən dəyişdirmək, tükənənlər də daxil olmaqla təbii ehtiyat mənbələrini qorumaq, bahalı xammal xərclərini minimuma endirmək, ətraf mühitin bərpasına, karbon qazının azaldılmasına və fəaliyyətin səmərəliliyinin və nəticə yönümlülüyünün artırılmasına nail olmaq mümkündür.

Statistikaya görə, hər il dünya ölkələrinin iqtisadiyyatlarına ÜDM-in 4-6% - i həcmində istehsalın zərərli fəaliyyətindən ziyan vurulur. Buna görə də, ekoloji cəhətdən təmiz texnologiyaların və "yaşıl" standartların istifadəsinin üstünlükləri kimi aşağıdakıları göstərmək olar:

1. Təşkilatların inkişafı üçün zəmin yaradır, resursların səmərəliliyinin artmasına kömək edir.
2. İstehsalda və ya emalda təkrar istifadə edilə bilən məhsulların istehsalı.
3. Çirklənmənin azaldılması.
4. Enerji istehsalının innovativ metodlarının tətbiqi.
5. Yeni növ mal və xidmətlərin tətbiqi ilə iqtisadiyyatın artımı.

Bunlar istehsalçıya və ya bütövlükdə cəmiyyətə yalnız uzunmüddətli perspektivdə deyil, həm də tətbiq olunduqdan dərhal sonra fayda gətirirlər. Əslində, onlar resurslara və enerjiyə qənaət edirlər, təbiətə və içindəki mürəkkəb tarazlığa "mehribandırlar", eyni zamanda hazırda insan həyatı və sağlamlığı üçün ciddi təhlükə yaradan bir çox ekoloji problemlərin həllinin açarıdırlar və 10-20 il yaxud daha çox müddətdən

sonra bizə necə təsir edəcəklərini təxmin etmək çətindir. Bununla birlikdə, son illərdə istehsal sahələri və təşkilatların hədəflərində dəyişiklik müşahidə olunur, "yaşıl" texnologiyalar sahəsində innovativ iqtisadiyyat ideyalarının həyata keçirilməsi üçün texnoloji fəaliyyətlər getdikcə daha çox aparılır, yeni proqramlar, normativ sənədlər və qanunvericilik aktları hazırlanır. Bu cür texnologiyalara və standartlara diqqət yetirərək tikinti təşkilatları yalnız enerji və resurslara qənaət edən siyasət tətbiq edə bilməyəcək, həm də öz gələcəklərinə, bölgələrindəki və bütövlükdə planetdəki gələcək ekoloji vəziyyətə diqqət yetirə biləcəklər.

Müasir şəhərlərin əksəriyyəti üçün dəqiq şəkildə planlaşdırılmamış şəhər məkanları, keyfiyyətsiz yaşayış binaları və tikililəri, eləcə də aşağı keyfiyyətli işıqlandırma və havalandırma, baha başa gələn istismar və yüksək enerji istehlakı, inkişaf etməmiş memarlıq formaları, zəif işlənilmiş nəqliyyat infrastrukturu, çirklənmiş çaylar, nəhəng qeyri-mütəşəkkil zibilxanalar, bioloji müxtəlifliyin azalması, karbohidrogen yanacağının yandırılması problemi aktual olaraq qalmaqdadır. Belə bir yanaşma ölkə ərazisinin və iqtisadiyyatının davamlı, ahəngdar inkişafına zəmanət verə bilməz, çünki insanlar üçün belə bir mühitdə yaşamaq rahat deyildir.

Təhlükəsizliyin təmin edilməsi və insan həyatı üçün əlverişli şəraitin yaradılması, tikinti fəaliyyətinin ətraf mühitə mənfi təsirinin məhdudlaşdırılması və bütün növ təbii ehtiyatların qorunması və səmərəli istifadəsinin təmin edilməsi tikintidə yaşıl standartlardan istifadə etməklə əldə edilə bilər.

Yaşıl tikinti standartları inşaat obyektlərinin yerləşdiyi ərazinin davamlı inkişafını təmin etmək üçün təsirli bir vasitə kimi başa düşülə bilər. Yaşıl tikinti, yaşıl binalar - bu enerji və maddi ehtiyatların istehlak səviyyəsini azaltmaq məqsədi daşıyan binaların tikintisi və istismarı təcrübəsidir: inşaat sahəsinin seçimindən başlayaraq dizayn, tikinti, istismar və təmiri əhatə etməklə.

"Yaşıl bina" təcrübəsi klassik tikinti dizaynını qənaət, faydalılıq, davamlılıq və rahatlıq anlayışları ilə genişləndirir və tamamlayır. Yaşıl tikinti standartlarının hazırlanması və tətbiqi biznesin, innovativ texnologiyaların və iqtisadiyyatın inkişafını stimullaşdırır, cəmiyyətin həyat keyfiyyətini və ətraf mühitin vəziyyətini yaxşılaşdırır. Onlar ağıllı iqtisadiyyatın bir vasitəsidir - bütün mərhələlərdə pul saxlayır və dünya hərəkatına inteqrasiyanı təşviq edir, xarici investisiyalara çıxışın və dünya səviyyəsində tanınmanın açarı kimi qəbul edilir.

"Yaşıl standartlar" Avropa İttifaqı, Şimali Amerika, Avstraliya, Asiya ölkələri tərəfindən geniş istifadə olunur, eyni zamanda Orta Şərq və Latın Amerikasında tətbiq olunmağa başlamışdır. Hətta Afrikada rəsmi olaraq tanınan bir neçə "yaşıl" bina tikilmişdir, baxmayaraq ki, Afrika ölkələrinin hələ ki, öz standartları yoxdur. "Yaşıl binalar"ın üstünlükləri sırasına binanın investisiya cəlbediciliyinin artırılması və əlavə marketinq imkanları, əməliyyat xərclərinin aşağı salınması, tullantıların azaldılması, enerji və su istehlakının azaldılması, icarədarla üçün daha rahat və təhlükəsiz mühit, karbon emissiyalarının azaldılması, ətraf mühitə qayğı və binanın mülkiyyətçisinin yüksək sosial məsuliyyətinin nümayişi daxildir.

Hal-hazırda istifadə olunan "yaşıl" binaların standartları sırasında "BREEAM", "LEED", "Green Globes"standartlarını ayırmaq olar. Bütün bu standartlar torpaq,

enerji, su və tikinti materiallarından istifadə qaydalarına əsaslanır. Sertifikatlı binalar ətraf mühitin minimal çirklənməsini təmin edir, bu cür binaların istismarı peşəkar ekoloji idarəetmə ilə müşayiət olunur.

"BREEAM" (BRE Environmental Assessment Method – tərcüməsi: ətraf mühitin qiymətləndirilməsi metodu) standartı 1990-cı ildə İngiltərədə yaradılıb, müxtəlif növ: ofis, yaşayış, sənaye, ticarət, ictimai binalar üçün tətbiq olunur. "BREEAM" qiymətləndirmə sisteminin üstünlükləri bunlardır: qiymətləndirmə sistemi müxtəlif növ binalara tətbiq olunur, meyarlar Böyük Britaniya qanunvericiliyinə və müvafiq olaraq Britaniya dəyərlərinə, o cümlədən tikintinin yüksək keyfiyyətinə və istismar mərhələsində elan edilmiş layihələrə uyğunluğu, müəyyən obyektlərə fərdi yanaşma, fərdi qiymətləndirmə proqramlarının mümkünlüyü, xarici normalara uyğunlaşmanın aydın sxeminin olması. "BREEAM" qiymətləndirmə sisteminin çatışmazlıqları çox sərt tələblər, tədris materiallarının zəif vizual təqdimatı, razılaşmaların alınmasının yüksək qiyməti, İngiltərənin tikinti və mühəndislik standartlarına və yanaşmalarına bağlılıq, başqa sözlə, bu standartın əsas kimi seçilməsi halında ümumi layihələndirmə ideyalarının qismən idxalı həmişə zəruridir.

"Green Globes" standartı 2004-cü ildə ABŞ-da yaradılıb, layihə menecmenti, torpaq sahəsinin ekoloji vəziyyəti, su və elektrik enerjisindən qənaətli istifadə, binanın atmosferin çirklənməsinə təsiri, tikinti materiallarının keyfiyyəti, istehsal olunan bərk tullantıların miqdarı, çirkab suların çirklənmə səviyyəsi, daxili mikroiqlimin keyfiyyətini əhatə edir.

"LEED" standartı (enerjiyə qənaət və təbiəti mühafizənin layihələndirilməsində liderlik) 1998-ci ildə ABŞ-da yaradılıb və yeni tikinti layihələri, qlobal renovasiya layihələri, binaların daxili yenidən qurulması, kommersiya interyerlərinin yaradılması üzrə layihələr üçün tətbiq olunur. "LEED" – yaşıl binalar üçün reytinqli sertifikatlaşdırma sistemidir (green building). LEED sistemi Amerika yaşıl binalar Şurası (United States Green Building Council) tərəfindən tikinti sənayesinin bu cür binaların dizaynına, tikintisinə və istismarına keçidini həyata keçirmək üçün enerjiyə qənaət edən, ekoloji cəhətdən təmiz və davamlı bina layihələrinin ölçülməsi standartı kimi hazırlanmışdır. LEED müəyyən bir ölkədə müəyyən edilmiş normativ sənədlərin tələblərini əvəz etmir, yalnız müasir dövrün tələblərinə cavab verən daha inkişaf etmiş keyfiyyət qiymətləndirmə meyarlarını tamamlayır. Qiymətləndirmə kateqoriyalarına bunlar daxildir:

- layihələrin ekoloji dayanıqlığının təmin edilməsi;
- sudan səmərəli istifadə;
- energetika və enerji ehtiyatlarından istifadənin atmosferə təsiri;
- materiallar və resurslar;
- bina daxilində əlverişli atmosfer şəraiti yaratmaq;
- layihələndirmədə yeniliklərin tətbiqi.

*Bədəlov Əlixan Mehman oğlu,*
*iqtisad elmləri namizədi, dosent,*
*Lənkəran Dövlət Universiteti,*
*E-mail: alixan.badalov@mail.ru;*

*Şahbazova Lalə Əbdülrəhim qızı,*
*dissertant,*
*Lənkəran Dövlət Universiteti,*
*E-mail: shahbazova1995@gmail.com*

# AZƏRBAYCANIN KOMMERSİYA BANKLARINDA KREDİT PORTFELİNİN DİVERSİFİKASİYASI TƏDBİRLƏRİ VƏ STRATEGİYASI

Kommersiya banklarının kredit portfelinin diversifikasiyası bankların riskləri yaymaq və potensial ziyanları azaltmaq məqsədi ilə aparılır. Kredit portfelinin diversifikasiyası bankların mövcud kreditlərini və kredit verəcəkləri sahələri dəyişdirən bir strategiya olaraq qiymətləndirilir.

Azərbaycanın maliyyə sektorunda fəaliyyət göstərən banklar qanunvericilik tələblərinə uyğun olaraq kredit portfelini diversifikasiya etməlidirlər. Qanunvericilik tələblərinə uyğun olaraq kredit portfelinin diversifikasiyası bankaların stabil və sağlam bir maliyyə mövqeyi qorumağa kömək edər.

Azərbaycanın kredit portfelinin diversifikasiya tədbirləri ölkənin kommersiya banklarının kredit portfelinin risklərini minimuma enməsinə və fəaliyyətlərini sürətləndirməsinə kömək edir. Müasir dövrdə kommersiya bankları öz müştərilərinin və ümumi iqtisadiyyatın dəyişən şəraitinə uyğun olaraq portfel strategiyalarını yeniləmələri və təkmilləşdirmələri vacibdir.

Azərbaycanın kredit portfelinin diversfikasiyası zamanı banklar fərqli sektorlara kredit verərək portfeli çeşidləndirə bilərlər. Bu kənd təsərrüfatı, sənaye, xidmətlər və digər sahələr kimi fərqli sektorlərdə riskləri minimuma endilməsini təmin edir. Həmçinin Azərbaycanın kredit portfelinin diversfikasiyası zamanı banklar fərqli müştəri qruplarına kredit verərək portfeli çeşidləndirə bilərlər. Bu zaman kiçik və orta ölçülü bizneslər, böyük şirkətlər və fərdi müştərilər arasında kredit vermək riski aradan qalxa bilər.

Azərbaycanın kredit portfelinin diversifikasiyası zamanı kredit portfelində fərqli müddətlərdə olan kreditlərin olması da vacibdir. Qısa, orta və uzun müddətli kreditlərin kombinasiyası bankın likvidlik riskini azaldır.

Azərbaycanın kredit portfelinin diversifikasiyası zamanı fərqli növ təminatlarla dəstəklənmiş kreditlərin olması da diversifikasiyanı artırır. Mülkiyyət ipotekləri, təminat məktubları və səhmlər kimi müxtəlif təminatlarla dəstəklənmiş kreditlər bankın riskini diversifikasiyaslaşdırır.

Kommersiya bankaları fərqli coğrafi regionlarda kredit verməklə riskləri yaymaqla diversifikasiya edə bilərlər. Bu regional iqtisadi dalğalanmalara qarşı mühafizəyə kömək edə bilər.

Azərbaycanın kredit portfelinin diversifikasiyası zamanı banklar kredit portfelində fərqli valyutalarda kreditlər verməklə valyuta risklərini yönləndirə bilərlər. USD, EUR, AZN kimi müxtəlif valyutalarda kredit verərək, valyuta məzənnəsi dəyişik-

liklərinin yaradacağı riskləri minimuma endirə bilərlər. Bankların kredit portfelinin strukturu müxtəlif bankların iş strateji və prioritetlərinə, iqtisadiyyatın və maliyyə sektorunun müvafiq vəziyyətinə və digər bir çox məhdudiyyətlərə bağlı olaraq dəyişir. Ölkəmizdə bankların kredit portfelinin strukturu bəzən məhdudiyyətlər, tərəfdaşların və müştərilərin iqtisadi və maliyyə vəziyyətinə və s. kimi bir çox xüsusiyyətlərə bağlı olur.

Ölkəmizdə 2019-2024-ci illər üzrə bankların kredit portfelinin strukturunda biznes kreditləri, istehlak kreditləri və ipoteka kreditlərinin vəziyyəti aşağıdakı cədvəldə göstərilmişdir:

**2019-2024-ci illər üzrə Azərbaycanda bankların kredit portfelinin strukturu**

| Portfelin bölgüsü | 31.12.2019 | 31.12.2020 | 31.12.2021 | 31.12.2022 | 31.12.2023 | 31.01.2024 |
|---|---|---|---|---|---|---|
| Kredit portfeli, | 14 900,9 | 14 157,0 | 16 659,1 | 19 594,4 | 23183,0 | 23566,4 |
| o cümlədən | | | | | | |
| - biznes kreditləri | 9 031,6 | 8 478,3 | 9 740,0 | 10 855,1 | 12616,8 | 12912,9 |
| - istehlak kreditləri | 4 075,3 | 3 661,2 | 4 518,4 | 5 754,1 | 6937,0 | 7008,0 |
| - ipoteka kreditləri | 1 794,0 | 2 017,5 | 2 400,7 | 2 985,2 | 3629,2 | 3645,5 |

***Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı.***

Cədvəldə göstərilən kredit portfelinin bölgüsü prudensial metodologiyaya uyğun olaraq verilmişdir. Burada fiziki şəxs sahibkarlara verilmiş kreditlər təyinata uyğun olaraq biznes kreditləri kimi tənsifləşdirilir. Cədvəl məlumatlarından göründüyü kimi, bankların cəmi biznes kreditləri portfeli 2024-cü ilin yanvar ayında 2023-cü ilin dekabr ayı ilə müqayisədə 296,1 milyon manat artaraq 12 milyard 912,9 milyon manata çatıb. 2024-cü ilin yanvarında istehlak kreditləri portfeli isə 71 milyon manat artaraq 7 milyard 8 milyon manata, ipoteka kreditləri portfeli isə 16,3 milyon manat artaraq 3 milyard 645,5 milyon manata yüksəlib. 2024-cü ilin yanvarında bankların cəmi kredit portfeli 383,4 milyon manat artaraq 23 milyard 566,4 milyon manata çatıb. Əhalinin banklara borcu olan istehlak və ipoteka kreditlərinin cəmi 10 milyard 653,5 milyon manata yüksəlib.

Azərbaycanın kredit portfelinin diversifikasiyası zamanı bankalar kredit portfelində olan kreditlərin risk səviyyələrini qiymətləndirməklə və düzgün izləməklə diversifikasiya tədbirlərini daha effektiv edə bilərlər. Böyük riskli kreditlərə daha çox diqqət yetirməklə və uyğun risk idarəetmə strategiyaları tətbiq edərək, portfeldəki riski azaltmaq mümkündür.

Kommersiya bankları kredit portfellərini şaxələndirmək üçün innovativ maliyyə alətlərinə investisiya edə bilərlər. Bu, məsələn, kredit törəmələri kimi mürəkkəb maliyyə alətləri vasitəsilə riskləri daha effektiv idarə etməyə imkan verə bilər.

Texnologiyanın inkişafı ilə banklar rəqəmsal kredit platformaları kimi yeni texnoloji alətlər vasitəsilə kredit portfellərini şaxələndirə bilərlər. Bu potensial müştəri bazasını genişləndirmək və müxtəlif risk profillərinə malik müştərilərə çıxışı artırmaq üçün istifadə edilə bilər.

Kommersiya bankları risklərin idarə edilməsi üzrə effektiv strategiyalar hazırlamaqla öz kredit portfellərini diversifikasiya edə bilərlər. Stress testləri, risk təhlili modelləri və portfel sığortası kimi alətlər riskləri əvvəlcədən müəyyən edərək və idarə etməklə bankların maliyyə sağlamlığını yaxşılaşdıra bilər.

Kommersiya bankları sektordan kənar digər maliyyə institutları və ya şirkətlərlə əməkdaşlıq edərək öz kredit portfellərini şaxələndirə bilərlər. Bu, müxtəlif bazarlara və müştəri seqmentlərinə çıxışı artıra və yeni iş imkanları yarada bilər.

Bu amillərin kombinasiyası Azərbaycanda kommersiya banklarına riskləri idarə etməyə və kredit portfellərini səmərəli şəkildə diversifikasiya etməklə uzunmüddətli davamlı artımı dəstəkləməyə kömək edə bilər. Bu diversifikasiya strategiyalarının müntəzəm nəzərdən keçirilməsi və yenilənməsi dəyişən bazar şəraitinə uyğunlaşmaq üçün başlıca məsələlərdən hesab edilir.

Azərbaycanın kommersiya banklarında kredit portfelinin diversfikasiyası strategiyası bankaların ümumilikdə kredit riskini azaldaraq sabit bir kredit portfeli idarə etmələrinə kömək edə bilər. Lakin hər bir strategiyanın özünəməxsus üstünlükləri və çətinliklərini nəzərə alaraq bankaların öz risk dərəcələrinə və bazar şəraitinə görə strateyalarını təyin etmələri məqsədəuyğun olardı.

Nəticə olaraq qeyd edək ki, Azərbaycan banklarının kredit portfeli hədsiz dərəcədə böyükdür, ölkə banklarının kredit portfelinin vəziyyəti, ölkədəki iqtisadi mühitə, maliyyə sektorunun imkanlarına, xarici və daxili iqtisadi proseslərə və digər bir çox amillərlə bağlı olaraq dəyişir. Ölkə banklarının mövcud resursları ucuz kredit siyasətini həyata keçirməyə imkan verir və Azərbaycanın kommersiya banklarında kredit portfelinin diversifikasiyası stratejiyası bankların ümumilikdə kredit riskini azaldaraq sabit bir kredit portfeli idarə etmələrinə kömək edə bilər. Lakin hər bir strategiyanın özünəməxsus üstünlükləri və çətinliklərini nəzərə alaraq bankların öz risk dərəcələrinə və bazar şəraitinə görə strateyalarını təyin etmələri məqsədəuyğun olardı.

*Bayramov Qəhrəman Saleh oğlu,*
*iqtisad elmləri namizədi, dosent,*
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC),*
*E-mail: qehreman.bayramli@bk.ru;*

*Əliyeva Nərgiz Əmiraslan qızı,*
*baş müəllim,*
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC),*
*E-mail:qarabagli.111@mail.ru*

## TURİZM DESTİNASİYASI REGİONAL İNFRASTRUKTUR SİSTEMİN DAVAMLI İNKİŞAF AMİLİ KİMİ

Turizm dünyanın ən sürətlə inkişaf edən sahələrindən biridir və bu onu həm ÜDM-in yaradılması, həm də yeni biznes imkanlarının yaradılması yolu ilə bir çox ölkələrin və regionların iqtisadi inkişafında mühüm amilə çevirir. Bununla belə, turizm həm də yüksək rəqabətə davamlı sahədir, onun effektiv idarə olunması bütövlükdə regionun rəqabət qabiliyyətinin artırılması üçün mühüm alətdir.

Turizm - sosial xidmətlər (yüz milyonlarla insanı işlə təmin edən), habelə inkişaf etmiş səyahət və ekskursiyalar sistemi, müxtəlif istirahət formaları daxil olmaqla, hərtərəfli turizm məhsulunun formalaşdığı və həyata keçirildiyi sahələrarası komplek-sdir. Bundan əlavə, turizm kommunikativ mədəniyyətin formalaşması və inkişafı üçün mühüm vasitə kimi çıxış edir.

Turizm sistemi vətəndaşların (turistlərin) daimi yaşayış yerindən təyinat yerinə (istirahət yerinə) rahat gediş-gəlişini, bu təyinat məntəqəsində qalmasını və geri qaytarılmasını təmin edən logistik sxem və ya sistem kimi müəyyən edilə bilər [2].

Turizm sistemi siyasi, iqtisadi, sosial, mədəni və ekoloji kimi müxtəlif aspektlərdən təhlil edilə bilər. Onların hər biri müxtəlif aspektləri vurğulayır və təklif olunan turizm məhsulunun mürəkkəbliyini və xüsusən də qeyri-müəyyənliyini anlamağa kömək edə bilər.

14. https://www.tamizshahar.az/az

*Rahib Aydin Imamguluyev,*
*Ph.D. (Techn.),*
*Baku Business University,*
*E-mail: rahib.imamguluyev@gmail.com*

# NAVIGATING SHADES OF GREEN: FUZZY LOGIC PERSPECTIVES ON SUSTAINABLE DEVELOPMENT IN THE ECONOMY

## Introduction

In an era where sustainability is paramount, the challenge of integrating economic development with environmental stewardship has become increasingly complex. Traditional methods of assessing and implementing sustainable practices often fall short, constrained by rigid, binary frameworks that struggle to capture the intricate realities of real-world scenarios. This article, "Navigating Shades of Green: Fuzzy Logic Perspectives on Sustainable Development in the Economy," proposes a novel approach to this challenge by leveraging the principles of fuzzy logic [1].

Fuzzy logic, unlike conventional binary logic, accommodates the inherent ambiguity and complexity of sustainable development [2]. It provides a more flexible and inclusive framework that can better reflect the gradations and uncertainties involved in balancing economic and environmental goals. By doing so, fuzzy logic offers a sophisticated tool for businesses and policymakers striving to achieve sustainable growth without compromising ecological integrity [3].

This study delves into how fuzzy logic can be applied to various sustainability metrics, offering a nuanced perspective that traditional methods often overlook [4]. Through this lens, the article elucidates the potential of fuzzy logic to transform economic planning and environmental policy, making a compelling case for its broader adoption. The key findings of the analysis underscore the benefits of this approach, advocating for a shift towards more adaptable and holistic strategies in the pursuit of sustainable development [5].

## Problem Statement

The quest for sustainable development presents a formidable challenge in reconciling economic growth with environmental preservation. Traditional approaches to sustainability often rely on binary decision-making frameworks that inadequately capture the complexities and nuances of real-world scenarios. These conventional methods struggle to address the multifaceted nature of sustainability metrics, leading to incomplete or ineffective strategies for achieving balanced development. The limitations of binary logic in this context necessitate a more sophisticated and flexible approach [6].

Fuzzy logic, with its ability to handle ambiguity and complexity, offers a promising alternative [7]. However, its application in the realm of sustainable economic development remains underexplored. There is a critical need to investigate how fuzzy logic can be effectively utilized to navigate the "shades of green"—the varying degrees of sustainability that exist between the extremes of economic growth and environmental degradation. This study aims to fill this gap by examining the potential of fuzzy logic to provide a more nuanced and comprehensive framework for sustainable development, thereby enhancing the decision-making capabilities of businesses and policymakers.

## Justification For Fuzzy Logic Approach

The complexity and inherent ambiguity of sustainable development necessitate a departure from traditional binary logic approaches, which often prove inadequate in addressing the multifaceted nature of economic and environmental interactions. Fuzzy logic, characterized by its capacity to handle imprecision and uncertainty, offers a compelling alternative. Here are key reasons justifying the use of fuzzy logic in sustainable development:

Handling Ambiguity: Sustainable development encompasses a broad spectrum of activities and outcomes, often with no clear-cut distinctions between what is considered "sustainable" and "unsustainable." Fuzzy logic excels in managing such ambiguities, providing a more realistic representation of the gradual transitions and overlaps inherent in sustainability issues [8].

Comprehensive Evaluation: Traditional methods typically rely on binary assessments, which can oversimplify complex scenarios. Fuzzy logic allows for the integration of diverse sustainability metrics, accommodating a range of values and degrees of membership. This facilitates a more nuanced and holistic evaluation of sustainability efforts [9].

Flexibility in Decision-Making: Fuzzy logic offers flexibility in modeling and decision-making processes. It enables policymakers and businesses to incorporate various criteria and weigh them according to their relevance and impact. This adaptability is crucial for developing tailored strategies that reflect the unique circumstances and priorities of different stakeholders [10].

Enhanced Predictive Capabilities: The predictive power of fuzzy logic can improve the anticipation of outcomes and potential trade-offs in sustainability initiatives. By accounting for the interplay between economic growth and environmental impact in a more refined manner, fuzzy logic can help identify optimal paths for sustainable development.

Practical Application: The real-world applicability of fuzzy logic has been demonstrated in various fields, including engineering, environmental science, and economics. Its successful use in these areas highlights its potential to effectively address the complex challenges of sustainable development, making it a valuable tool for policymakers and practitioners.

Strategic Planning and Policy Formulation: Employing fuzzy logic in strategic planning and policy formulation allows for more informed and balanced decisions. It supports the development of policies that can better accommodate the dynamic and interconnected nature of economic and environmental systems, promoting long-term sustainability.

By embracing fuzzy logic, this study aims to provide a robust framework for navigating the intricate landscape of sustainable development, ultimately facilitating more effective and resilient economic and environmental strategies.

## Conclusion

This article, "Navigating Shades of Green: Fuzzy Logic Perspectives on Sustainable Development in the Economy," has demonstrated the significant potential of fuzzy logic as a framework for addressing the complex and nuanced challenges of sustainable development. Traditional binary approaches often fall short in capturing

the intricate realities of balancing economic growth with environmental stewardship. Our study highlights how fuzzy logic accommodates the inherent ambiguity and complexity in sustainability metrics, providing a more flexible and comprehensive strategy.

Key findings of the analysis illustrate the advantages of fuzzy logic in handling the multifaceted nature of sustainability. It offers a more realistic representation of gradual transitions and overlaps, facilitates holistic evaluations by integrating diverse metrics, and enhances decision-making flexibility. Moreover, fuzzy logic's predictive capabilities allow for better anticipation of outcomes and trade-offs, aiding in the identification of optimal paths for sustainable development.

The practical applicability of fuzzy logic, demonstrated in various fields, underscores its value as a tool for policymakers and practitioners. By incorporating fuzzy logic into strategic planning and policy formulation, stakeholders can make more informed and balanced decisions, promoting long-term sustainability.

In conclusion, this study advocates for the broader adoption of fuzzy logic in economic planning and environmental policy. Embracing this approach can lead to more effective and resilient strategies for achieving sustainable development, ultimately supporting a more balanced and integrated approach to economic growth and environmental preservation.

## References:

1. Aliev R.A., B.Fazlollahi, Aliev R.R.: Soft Computing and its Applications in Business and Economics, Springer-Verlag, Berlin Heidelberg(2004).

2. Shubham Sharma, Ahmed J. Obaid, Mathematical modelling, analysis and design of fuzzy logic controller for the control of ventilation systems using MATLAB fuzzy logic toolbox, June 2020, Journal of Interdisciplinary Mathematics 23(1):1-7, DOI: 10.1080/09720502.2020.1727611.

3. Rahib Imamguluyev. (2023). Optimizing Room Maintenance Factor Evaluation Using Fuzzy Logic Model. Journal of Multiple-Valued Logic and Soft Computing, 41.3-5, p. 319-337.

4. Zadeh, Lotfi A.,: Fuzzy Logic, Neural Networks, and Soft Computing, Communications of the ACM(37), 77-84(1994).

5. Imamguluyev, R., Umarova, N. (2022). Application of Fuzzy Logic Apparatus to Solve the Problem of Spatial Selection in Architectural-Design Projects. In: Lecture Notes in Networks and Systems, vol 307. Springer, Cham. https://doi.org/10.1007/978-3-030-85626-7_98

6. Lotfi A Zadeh, Rafik Aliev, Fuzzy Logic Theory and Applications: Part I and Part II, https://doi.org/10.1142/10936 | December 2018, Pages: 612.

7. Ramdan, A. M., Pramiarsih, E. E., Herdhiana, R., Zahara, R., & Lisnawati, C. (2022). Challenges and opportunities for utilizing MSME digital marketing applications in tourism areas. International Journal of Business, Economics & Management, 5(3), 131-142. https://doi.org/10.21744/ijbem.v5n3.1912.

8. Imamguluyev, R., Suleymanov, A. (2022). Prospects for the Development of Transport Logistics and a Fuzzy Logic Model of the Strategic Goals of the Logistics

System of Azerbaijan. In: Kahraman, C., Tolga, A.C., Cevik Onar, S., Cebi, S., Oztaysi, B., Sari, I.U. (eds) Intelligent and Fuzzy Systems. INFUS 2022. Lecture Notes in Networks and Systems, vol 505. Springer, Cham. https://doi.org/10.1007/978-3-031-09176-6_11

9. Imamguluyev, R., Aliyeva, A. (2023). Analysis of Intelligent Interfaces Based on Fuzzy Logic in Human-Computer Interaction. In: Lecture Notes in Networks and Systems, vol 610. Springer, Cham. https://doi.org/10.1007/978-3-031-25252-5_94

10. Rahib Imamguluyev, Tunzala Imanova, Parvana Hasanova, Arzu Mammadova, Sevda Hajizada, Unlocking Energy Efficiency: Harnessing Fuzzy Logic Control for Lighting Systems, Procedia Computer Science, Volume 230, 2023, Pages 574-583, ISSN 1877-0509, https://doi.org/10.1016/j.procs.2023.12.113.

*Həsənova Pərvanə Malik qızı, dosent,*
*Bakı Biznes Universiteti,*
*E-mail: hasanova_parvana@mail.ru*

## AĞILLI HESABLAMALAR VƏ KİBERTƏHLÜKƏSİZLİK

Ağıllı hesablama və kibertəhlükəsizlik günümüzün ən vacib məsələlərindən biridir. Ağıllı hesablama, məlumat işləmədə və sənaye sahələrində istifadə olunan hər cür avtomatlaşdırılmış, adaptiv sistemləri ifadə edir. Bu sistemlər, müəyyən nəzəriyyə və praktik tətbiqlərdən istifadə edərək problemləri həll etmək və yenilikləri təşkil etmək üçün məlumatlardan istifadə edirlər. Kibertəhlükəsizlik isə bu məlumat sistemlərinin, xüsusilə internetdəki, hədəfli olaraq yaradıcıları tərəfindən istifadə olunmasına əleyhinə tədbirləri ifadə edir. Bu təhlükələr məlumat oğurluğu, məlumat manipulyasiyası, xarici girişlər və digər qeyri-şəffaf və ya qanunsuz əməliyyatlardan ibarət ola bilər. Bu iki sahə bir-biri ilə bağlıdır çünki ağıllı hesablama sistemləri çoxsaylı məlumatları işləyir və məlumatlara dəyər verir. Bu məlumatlar isə potensial kibertəhlükələrə hədəf olaraq görülə bilər. Beləliklə, ağıllı hesablama sistemlərini qorumaq və müdafiə etmək, onların fəal işləməsinə və məlumatları sızdırmamaq üçün vacibdir. Bu məsələlərin həlli üçün təcrübəli mütəxəssislər və texnologiya şirkətləri tərəfindən yeni təhlükələrə qarşı müdafiə üsulları və texnologiyaları inkişaf etdirilir. Bunlar şifrləmə, sərhədləndirmə, fəaliyyət monitorinqi və müdafiə tədbirləri kimi müxtəlif strategiyaları əhatə edir.

Ağıllı mühasibat bugünkü rəqəmsal dünyada əsas anlayışdır. Bu sahə ilə bağlı daha ətraflı məlumat:

**Süni intellekt (AI):** Süni intellektin məqsədi insanabənzər intellekt və qabiliyyətləri kompüter sistemlərinə gətirməkdir. Bura öyrənmə, problem həll etmə, qavrama, qərar vermə kimi proseslər daxildir.

**Machine Learning (ML):** Maşın öyrənməsi kompüter sistemlərinin alt sahəsidir ki, bu da onlara məlumatlardan öyrənmək və öz-özünə təkmilləşdirmək qabiliyyətini

əldə etməyə imkan verir. Bura təcrübədən öyrənmək, model tikmək və proqnoz vermək daxildir.

**Big Data Analytics:** Big data analytics böyük məlumat dəstlərini təhlil edərək mənalı məlumat çıxarmağı hədəfləyir. Bura məlumat mədənləri, pattern tanıma və proqressiv analiz kimi üsullar daxildir.

**Cloud Computing:** Cloud computing internet vasitəsilə paylaşılan hesablama resurslarına daxil olmaq deməkdir. Bura anbar, işlənmə gücü və tətbiq xidmətləri kimi resurslar daxildir.

**Kibertəhlükəsizlik:**

**1. Təhlükəsizlik strategiyaları:** İncivility informasiya sistemlərinin qorunması üçün müxtəlif strategiyaları ehtiva edir. Bunlara firewalls, Intrusion Detection Systems (IDS), Intrusion Prevention Systems (IPS) və təhlükəsizlik proqram təminatı kimi texnologiyalar daxildir.

**2. Data Məxfilik:** Məxfilik azadlığı həssas məlumatların icazəsiz girişdən qorunmasını təmin edir. Buraya şifrələmə, girişə nəzarət və məlumatların saxlanılması kimi tədbirlər daxildir.

**3. Təlim və xəbərdarlıq:** Bacarıqsızlıq-istifadəçilərə və işçilərə potensial təhlükələr barədə maarifləndirmək deməkdir. Bura sosial mühəndislik hücumlarından ehtiyat etmək, təhlükəsiz parollarından istifadə etmək və e-poçt fırıldaqlıqları barədə məlumat daxil etmək mümkündür.

**4. Yeni Təhlükələr və tendensiyalar:** Bacarıqsızlıq daim dəyişən təhlükə mənzərəsi ilə ayaqlaşmalı olur. Bura fidyə proqramı, Süni intellektin güclü hücumları və əşyaların interneti (IoT) qurğularının təhlükəsizlik riskləri kimi yeni tendensiyalar daxildir.

Baş verən hadisələrlə ayaqlaşmaq və müvafiq təhlükəsizlik tədbirləri görmək rəqəmsal dünyada təhlükəsizliyin təmin edilməsi üçün olduqca vacibdir.

Süni intellekt və maşın öyrənilməsinin (AIML) mahiyyəti yuxarıda qeyd olunan ehtiyacın ödənilməsi üçün bir yol təklif edir. Healthcare AIML-in kömək edə biləcəyi ilk domendir. Xəstələri izləməkdən, xəstəxana çarpayıları, oksigen və digər tibbi resursları tapmaqdan, xəstəlikləri diaqnozlamaqdan başlayaraq yeni dərmanlar və xəstəlik üçün vaksinləri icad etmək üçün AIML kömək edə bilər. Nadir resursları, genetik alqoritmləri, neyron şəbəkələri və generasiya şəbəkələri, qərar ağacı və klişinq kimi digər maşın öyrənmə metodları olmadan tez və effektiv idarə etmək çətindir. Qeyd etmək olar ki, AIML sağlamlıq informatikasından böyük məlumatların idarə edilməsi zamanı da istifadə oluna bilər.

Digər mühüm domen təlim və təhsildir. Bir çox onlayn platformalardan istifadə edərək, təhsil qeyri-ənənəvi şəkildə davam etdirilə bilər. Lakin o, şagirdlərin müxtəlif səviyyələrini fərqləndirə bilmir və buna görə də özəlləşdirməyə ehtiyac var. İşdən-evdən gələn ssenarilərdə və insanlara nəzarətdə də buna bənzər çətinliklər meydana çıxır. Production, satışlar, marketing, planlaşdırma, dizayn, hərbi və müdafiə, ecommerce, egovernance və s. kimi domenlər, təhlükəsizlik və inteqrasiyanı artırmaq üçün AIML

üsullarının dəstəklənməsini tələb edir.

Domenlər daxilindəki problemlər və ehtiyaclar buradakı çətinliklər və tələblər ilə müzakirə olunur. AIML üsulları vasitəsilə mümkün həllər qısa planlar əsasında müzakirə olunur. Hər bir domendə mümkün tədqiqat tətbiqləri dərin öyrənmə, generativ neyron şəbəkələri, hibrid neuro-fuzzy sistemləri və s. kimi üsullardan istifadə edilir. Qeyd etmək lazımdır ki, ümumiləşdirilmiş məntiq olmadıqda, AIML əsaslı sistem məlumatlarından tez və daha keyfiyyətli həllər təqdim etmək üçün istifadə oluna bilər.

Kiberhücumlar, əsasən, ən son texnologiyaların və yeniliklərin böyük inkişafı səbəbindən günbəgün artır. Gündəlik həyatda müxtəlif növ kiberhücumlar inkişaf edir. 2021-2022-ci illər arasında baş vermiş bəzi trend kiberhücumlara Ransomware hücumları, Əşyaların İnterneti (IoT) hücumları, Bulud hücumları, Fişinq hücumları, Malwares, kiber soyğunçuluq və daha bir çox hücumlar daxildir. Hücum edən və ya kiber cinayətkarların məqsədi istifadəçinin xəbəri olmadan istifadəçinin şəxsi etibarlarını qeyri-qanuni yolla oğurlamaqdır. Müxtəlif formalarda kiberhücumlar vasitəsilə hücum edən şəxslər tərəfindən, qarşısıalınmaz qeyri-qanuni intruzivlərin aşkar edilməsi üçün ayıq-sayıq intruziv aşkarlama sistemi ilə həll edilir. Intrusion Detection System (IDS) mexanizmi vasitəsilə müxtəlif hücumların işlənməsi metodları, qanunsuz intruzivləri aşkar etməyi və qorumağı bacarır. İmza əsaslı, anomaliya əsaslı və protokola əsaslanan metodlar kimi möhkəm intruziya aşkarlama üsulları mövcuddur. Müvafiq intruziyanın aşkarlanması və qarşısının alınması sistemi (IDPS) metodu, bir təşkilata daxil edilməklə kiberhücumların effektiv şəkildə aşkarlanmasına və azaldılmasına kömək edəcəkdir. IDPS-bütün dünyada kiber təhlükəsizlik mütəxəssisləri və şəbəkə administratorları tərəfindən şəbəkəyə qoşulmuş cihazları qorumaq üçün möhkəm mexanizmdir. Bununla belə, IDPS-mexanizmi kiber intruzivlərin öhdəsindən gəlmək üçün “stout” çertyoj təqdim edir. Buna bənzər şəkildə, süni intellekt (AI) əsaslı hücum aşkarlama metodları maşın öyrənmə (ML) və dərin öyrənmə (DL) alqoritmləri vasitəsilə hücumlar aşkar etmək üçün istifadəçi avtomatlaşdırma modelini təmin edir.

Kibertəhlükəsizlik üzrə müxtəlif strategiyalar araşdırılır ki, bu strategiyalar son 20 il ərzində uğursuz olub. Bulud hesablamanın onlar üçün oyun dəyişdirici olduğunu anlamaq üçün vəzifəli şəxslər, təhlükəsizlik və itaətkarlıq mütəxəssislərinə çox yaxşı anlayış verdi.

Təşkilatların kibertəhlükəsizlik strategiyasının effektivliyinin, uğurlu kibertəhlükəsizlik strategiyasının tərkib hissələrinin, kibertəhlükəsizlik investisiya yol xəritələrinin və effektivliyinin səmərəli şəkildə ölçülməsi üçün bəzi nümunələr göstərildi.

**Uzaq iş ilə əlaqəli kibertəhlükəsizlik riskləri**

Covid-19-a görə əksər təşkilatlar işçilərini çox tez bir zamanda uzaq işə yönəltməli olurdular. Bir çox sorğular göstərir ki, pandemiyadan sonra işçilərin böyük hissəsi fəaliyyətlərinə distant şəkildə davam edəcək.

Təbii ki, evdən işləmək yeni kibertəhlükəsizlik risklərini təqdim edir. Hal- hazırda kibertəhlükəsizlik sahəsində ən çox danışılan trendlərdən biridir. Ev ofislərində

müdafiə səviyyəsi mərkəzi ofislərə nisbətən xeyli aşağıdır. Burada firewalls, router və giriş idarə edilməsi kimi təhlükəsizlik tədbirləri IT təhlükəsizlik qrupları tərəfindən həyata keçirilir. İş axınını pozmamaq üçün tələsməli olan ənənəvi təhlükəsizlik sorğuları, kibercinayətkarlarla mübarizədə irəliləmək üçün aşkarladığı yeni taktikalar istifadə etdikləri kimi uğurlu olmaya bilər.

Bir çox işçilər, öz şəxsi cihazlarını ikifaktorlu identifikasiya üçün istifadə edirlər. Onların üzərində Microsoft Teams və Zoom-dan istifadə oluna bilər. Şəxsi və peşəkar həyat arasındakı xətlərin bulanıqlaşması həssas məlumatların yanlış əllərə düşmə riskini artırır. Buna görə də təşkilatların paylanmış işçi qüvvəsindən irəli gələn təhlükəsizlik çətinliklərinə diqqət yönəltməsi, əsas kibertəhlükəsizlik trendidir. Bu, yeni zəifliklərin müəyyən edilməsi və ya azaldılması, sistemlərin təkmilləşdirilməsi, təhlükəsizlik nəzarətinin həyata keçirilməsi, eləcə də düzgün nəzarət və sənədləşmənin təmin edilməsi deməkdir.

Əşyaların İnterneti (IoT).

Əşyaların İnterneti (IoT) genişlədikcə kibercinayətkarlıq üçün daha çox imkanlar yaranır. Internet of Things-internetə qoşulan kompüter, telefon və serverlərdən başqa fiziki cihazları təsvir etmək üçün istifadə olunan termindir. Məlumatları toplayıb paylaşa bilir. IoT cihazlarına misal olaraq, Smart Clothing Technology, ağıllı soyuducular, Smartwatch və Amazon Echo və Google Home kimi səsli köməkçilər göstərmək olar. 2026-ci ilə qədər bütün dünyada 64 milyard IoT cihazının işə düşəcəyi təxmin edilir. Bütün dünyada şahidi olduğumuz uzaq işlərin tendensiyası bu artımın daha da sürətlənməsinə səbəb olur.

Cihazların sayının artması kiberhücum səthinin dinamikasına və ölçüsünə səbəb olur. IoT cihazlarının əksəriyyəti Notebook və Smartphone-larla müqayisədə daha az işləmə və saxlama qabiliyyətinə malikdir. Bu o deməkdir ki, firewalls, antivirus proqramları və digər təhlükəsizlik tətbiqlərində istifadə çətinləşir. Nəticədə, IoT hücumları, diqqət edilməli olan kiberhücum tendensiyaları arasındadır.

Fidyənin artması.

Fidyə yeni təhlükə deyil. Onlar təxminən iyirmi ildir ki, ətrafdadırlar, lakin onların yaratdığı təhlükə daim artmaqdadır. Hesablamalara görə, bu gün 120-dən çox fidyə ailəsi var. Hazırda xakerlər zərərli kodu gizlətməkdə çox yaxşıdırlar. Ransomware xakerlərə görə, pul qazanmaq üçün, nisbətən asan bir yoldur və bu da qismən onların artmasının arxasında duran amillərdən biridir. Digər bir fakt isə, "Covid-19" pandemiyasıdır. Bir çox təşkilatların sürətlə rəqəmsallaşdırılması və uzaq işlərin sayının artması, fidyə üçün yeni hədəflər yaratmışdır. Nəticədə, həm hücumların həcmi, həm də istəklərin həcmi artdı.

Talan hücumlarında cinayətkarlar şirkətin məlumatlarını oğurlayır və şifrələyirlər ki, şirkət ona daxil ola bilməsin. Sonra onlar fidyə ödənilməsə, şəxsi məlumatları buraxmaqla hədələyərək təşkilatı şantaj edirlər. Bu işlə məşğul olan məlumatların həssaslığını və fidyə ödəməyin iqtisadi yükünü nəzərə alsaq, bu kiber təhlükənin yaratdığı potensial təhlükə çox böyükdür.

*Ağayev Bikəs Sayıl oğlu,*
*texnika elmləri üzrə fəlsəfə doktoru, dosent,*
*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi*
*İnformasiya Texnologiyaları İnstitutu,*
*E-mail: bikies418@gmail.com;*

*Paşayeva Məleykə Mobil qızı,*
*doktorant,*
*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi*
*İnformasiya Texnologiyaları İnstitutu,*
*E-mail: ibishova96@mail.ru*

# İNFORMASİYA CƏMİYYƏTİ ŞƏRAİTİNDƏ ELEKTRON TULLANTILARIN DAVAMLI VƏ SƏMƏRƏLİ İDARƏ EDİLMƏSİ STRATEGİYALARININ İŞLƏNMƏSİ MƏSƏLƏLƏRİ

## Giriş

Hazırda informasiya cəmiyyəti və yaşıl iqtisadiyyat şəraitində dünyanın bütün ölkələrində böyük həcmdə tullantılar toplanıb və yeni tullantıların yaranma intensivliyi ildən-ilə artır. Təkrar emal metodologiyasının olmaması kimi amillər də müxtəlif ölkələrdə tullantıların çoxluğuna səbəb olur. Əhalinin həyat fəaliyyəti nəticəsində, məişət şəraitində, eləcə də yaşayış yerlərində yaranan, fiziki və mənəvi aşınma nəticəsində öz ilkin istehlak xüsusiyyətlərini itirmiş məmulat və materiallar isə məişət tullantıları kimi təsnifatlaşdırılır [6]. Məişət tullantılarının əsas hissəsini təşkil edən bərk məişət tullantıları (BMT) məişətdə, adətən, "zibil" termini ilə (zibil tullantıları) adlandırılır və ümumi tullantıların orta hesabla beş faizini təşkil edir. Göründüyü kimi, hazır ki dövrdə e-tullantılar probleminin perspektiv həlli müvafiq strategiyalarının işlənməsini tələb edir.

***Tullantılar problemi.*** Tullantılar problemi ilə məşğul olan beynəlxalq təşkilatların təsnifatına görə, elektron cihaz, qurğu və avadanlıqlarla o cümlədən kompüterlərlə bərabər elektrik (elektrotexniki) avadanlıqlarından yaranan tullantılar elektron tullantılar (e-tullantılar) adlanır. Bu termin beynəlxalq terminologiyada qısaca olaraq "e-waste" və ya WEEE (Waste Electrical and Electronic Equipment) kimi göstərilir. Elektron tullantılar ətraf mühitə və insan sağlamlığına mənfi təsir göstərdiyinə görə dünyada getdikcə daha çox aktual problemə çevrilir. Ona görə də elektron tullantılarla bağlı münasibətlərin tənzimlənməsi bəşəriyyət qarşısında duran ciddi və qlobal problemlərdən biri hesab edilir [9]. Bu problemin həlli əsasən iki məqsəd daşıyır: e-tullantıların ətraf mühitə və insan sağlamlığına ziyanlı təsirini azaltmaq və alternativ xammal-enerji mənbəyi kimi istifadə etmək.

Bir sıra ölkələrin təcrübəsi göstərir ki, həmin iki məqsədə yalnız dövlət qanunvericiliyi və bazar tənzimləmə mexanizmlərindən birgə və səmərəli istifadə etməklə nail olmaq mümkündür. Halbuki son illərədək ikinci məqsədin bazar mexanizmlərinin təsiri ilə avtomatik həll ediləcəyi güman edilirdi [1] .

***Elektron tullantıların idarə edilməsi strategiyalarının işlənilməsi.*** Tədqiqat işində əsas diqqət davamlı e-tullantıların idarə edilməsi strategiyalarının optimallaşdırılmasına yönəlmişdir. Məlum olmuşdur ki, maraqlı tərəflərin iştirakı, siyasətin uyğun-

laşdırılması, məlumatların idarə edilməsi və innovativ texnologiyanın mənimsənilməsi e-tullantıların idarə edilməsi strategiyalarının uğurla həyata keçirilməsində mühüm komponentlər kimi göstərilə bilər [8]. Nəticələrin təhlili və müzakirəsi nəticəsində aydın olur ki, e-tullantıların idarə edilməsinə ağıllı texnologiyalarla idarə edilmə yanaşması daha məqsədə uyğun hesab edilir. Bundan əlavə, bu tədqiqat işində dövlət idarəçiliyi sahəsində elektron tullantıların idarə olunması üzrə mövcud işlərə töhfə verilir və elektron tullantıların idarə edilməsi təcrübələrini təkmilləşdirmək istəyən praktiklər və tədqiqatçılar üçün dəyərli fikirlər təmin edir [5].

E-tullantılarla bağlı təhlükəsiz və resurs yaradıcı münasibətlərin tənzimlənməsi standartlaşdırma, pasportlaşdırma, sertifikatlaşdırma, informasiya və texniki təminat mərhələlərini həyata keçirməyə imkan verən infrastrukturun — istehsalat (sənaye) sahəsinin yaradılmasını zəruri edir [7]. Əlbəttə, e-tullantıların kompleks emalı prosesinin təşkili mürəkkəb və böyük kapital qoyuluşu tələb edən bir problemdir və bu xüsusilə e-tullantılara aiddir. İlkin olaraq e-tullantıların düzgün ayrılması və vaxtında toplanması bərpası üçün ağıllı və sensor əsaslı infrastrukturun yaradılması, ağıllı texnologiyalar əşyaların İnterneti vasitəsilə e-tullantıların idarə edilməsi və əlaqəli tullantıların idarə olunması təcrübələrinin nəzərdən keçirilməsi ideyalarını irəli sürmək olar.

***Ağıllı tullantıların idarə edilməsi.*** Ağıllı tullantıların idarə edilməsi dedikdə daha səmərəli tullantı sənayesi yaratmaq üçün texnologiya və məlumatlardan istifadə etmək deməkdir. IoT (Əşyaların İnterneti) texnologiyasına əsaslanan ağıllı tullantıların idarə edilməsi resursların bölüşdürülməsini optimallaşdırmaq, cari xərcləri azaltmaq və tullantı xidmətlərinin davamlılığını artırmaq məqsədi daşıyır və tullantıların toplanması, utilizasiyası və təkrar emalının optimallaşdırılması üçün texnologiya və məlumatların istifadəsi nəzərdə tutulur. Bu yanaşma e-tullantıların idarə edilməsini daha səmərəli, qənaətcil və ekoloji cəhətdən səmərəli etmək məqsədi daşıyır. Ağıllı texnologiyalar vasitəsilə tullantıların idarə edilməsini optimallaşdırmaq üçün bəzi əsas komponentlər və strategiyalar mövcuddur [2].




***Şəkil 1. IoT ilə işləyən Ağıllı Tullantıların İdarə Olunması Sistemi.***

*IOT sensorlarından istifadə*. IoT əsaslı ağıllı e-tullantıların idarə edilməsi texnologiyası və ətraf mühitin davamlılığını birləşdirən inkişaf etməkdə olan bir sahədir. Bu sistem elektron tullantıların toplanması, çeşidlənməsi və utilizasiyasına nəzarət etmək və idarə etmək üçün IoT cihazlarından və sensorlarından istifadə edir. Bu sistemdəki IoT cihazları adətən müəyyən bir ərazidə elektron tullantıların miqdarını aşkarlaya və izləyə bilən sensorlarla birləşdirilir. Bu sensorlar elektron tullantılar haqqında real vaxt məlumatı təmin edə bilər, sonra isə toplama və utilizasiya proseslərini optimallaşdırmaq üçün istifadə edilə bilər. Doldurma səviyyələrini real vaxt rejimində izləmək üçün tullantı qutularına sensorlar quraşdırıb bu sensorlar məlumatları mərkəzi idarəetmə sisteminə ötürə bilər. Bu isə tullantı toplayan yük maşınları üçün dinamik marşrut planlamasına imkan yarada bilər. Real vaxt məlumatları əsasında toplama marşrutlarının optimallaşdırılması yanacaq sərfiyyatına eyni zamanda emissiyaları azaldır [10]. Elektron tullantılar əksər hallarda bizim üçün aktiv resurs mənbəyidir. Çünki təkrar emal oluna bildiyi üçün ondan səmərəli şəkildə istifadə etmək çox yaxşı olardı. Elektron tullantıları digər tullantılardan ayırd etmək üçün IOT sensorlardan istifadə etməklə metal və plastik komponentlərin ayrılmasına, plastik tullantıların bioyanacaqa çevrilməsi üçün pirolizdən istifadəyə, əlavə məhsul kimi bio-kömürün əmələ gəlməsinə və təkrar istifadəyə töhfə vermək olar [3].

Tarixi məlumatları təhlil etmək və gələcək tullantıların əmələ gəlməsi nümunələrini proqnozlaşdırmaq üçün məlumat (Data Analitikası) analitikasından istifadə etmək olar. Nasazlığı minimuma endirmək və səmərəliliyi artırmaq üçün tullantıların toplanması üçün avtomobillərə proqnozlaşdırıcı texniki vasitələr quraşdırmaq mümkündür.

***RFID Texnologiyalarından istifadə.*** Əmələ gələn tullantıların növünü və miqdarını izləmək üçün tullantı qutularına Radiotezlik İdentifikasiyası (RFID) etiketlərinin tətbiq edilməsi ilə təkrar emal qutularını müəyyən etmək və tullantıların düzgün çeşidlənməsini təşviq etmək mümkündür [4].

***Ağıllı qutulardan istifadə.*** Bu qutular tullantıları avtomatik çeşidləyə və yığa bilən sensorlarla təchiz olunmuşdur ki, bu da öz növbəsində müxtəlif növ təkrar emal edilə bilən tullantıların ayrıca bölmələrini seçə bilər.

***Mobil tətbiqetmələrdən istifadə.*** Sakinlər üçün tullantıların toplanması ilə bağlı problemləri bildirmək, toplu götürmələri planlaşdırmaq və ya təkrar emal tədbirləri ilə bağlı bildirişlər almaq üçün mobil proqramlar mövcuddur ki, bu tətbiqlər həmçinin düzgün tullantıların atılması və təkrar emalı təcrübələri haqqında bizi əlavə informasiyalarla təmin edə bilər.

***Blockchain Texnologiyalarından istifadə.*** Tullantıların idarə edilməsi ilə bağlı əməliyyatların şəffaf və saxtakarlığa qarşı dayanıqlılığını artırmaq üçün blokçeyndən istifadə edilir. Bu, tullantıların idarə olunması prosesində hesabatlılığı artıra və təkrar emalın stimullaşdırılmasına kömək edə bilər [11].

***Naviqasiya və izləmə idarəetmə sistemlərindən istifadə.*** Tullantıların toplanması üçün nəqliyyat vasitələrinin marşrutlarını izləmək və optimallaşdırmaq üçün GPS və izləmə idarəetmə sistemlərinin tətbiq edilməsi əsasən ümumi səmərəliliyi artırmaq üçün yanacaq sərfiyyatına, avtomobilin texniki xidmət ehtiyaclarına və sürücü davranışına nəzarət edir.

***Avtomatlaşdırılmış çeşidləmə vasitələrindən istifadə.*** Müxtəlif növ tullantıları ayırmaq üçün robottexnika və süni intellektdən istifadə edən avtomatlaşdırılmış çeşidləmə qurğularının tətbiq olunması təkrar emal dərəcələrini artıra və əl ilə çeşidləmə proseslərinin yükünü azalda bilər.

***Sosial Media vasitəsi ilə maarifləndirmə.*** Sosial media və digər kommunikasiya kanallarının istifadə etməklə maarifləndirmə kampaniyaları vasitəsilə əhalini elektron tullantılar məlumatlandırmaq mümkündür.

***Təkrar emal sənayesi ilə əməkdaşlıq.*** Toplanmış təkrar emal olunan məhsulların səmərəli şəkildə emal edildiyi və təkrar istifadə olunduğu qapalı sistem yaratmaq üçün təkrar emal sənayeləri ilə tərəfdaşlıq qurmaq və bu texnologiyaları və strategiyaları inteqrasiya etməklə, ağıllı tullantıların idarə edilməsi sistemləri tullantıların toplanmasının səmərəliliyinin əhəmiyyətli dərəcədə artıra, təkrar emalı təşviq edə və ümumi ekoloji dayanıqlığa töhfə verə bilər [5]. Bundan əlavə, bu sistemlər tərəfindən yaradılan məlumatlar əsaslandırılmış siyasət qərarlarının qəbulu və tullantıların idarə edilməsi proseslərinin davamlı olaraq optimallaşdırılması üçün əlverişli ola bilər.

**Nəticə**

Tullantıların idarə edilməsini optimallaşdırmaq üçün verilən bu tərkib elementlərini hərtərəfli strategiyaya inteqrasiya etməklə hökumətlər, bizneslər və bəzi təşkilatlar yaşıl ətraf mühiti və ictimai sağlamlığı qoruyan davamlı e-tullantılar idarə edilməsi sistemi yaratmaq üçün birlikdə işləyə bilərlər. Çünki elektron tullantıların davamlı idarə olunması strategiyalarının effektiv inkişafı elektron tullantılarla bağlı yaşıl ətraf mühit və sağlamlıq təhlükələrinin həllində çox vacibdir.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**


1. Ələkbərov R., Ağayev B. Elektron tullantılardan yaşıl İKT-yə doğru. Respublika.-2013.-22 dekabr.-Səh-5
2. https://evreka.co/blog/what-is-smart-waste-management/
3. Mithila Farjana, Abu Bakar Fahad, Syed Eftasum Alam and Md. Motaharul Islam - An IOT- and Cloud-Based E-Waste Management System for Resource Reclamation with a Data-Driven Decision-Making Process, Journal: IoT, 2023, Volume: 4, Number: 11.
4. Paşayeva M., Əliyeva K. Elektron tullantıların yüksək texnologiyalar platformasında idarə edilməsi və təkrar emalı haqqında. Azərbaycan Universiteti, VI Respublika elmi konfransı, 10 mart 2023-cü il, səh. 212-214.
5. Ağayev B.S. Tullantıların idarə edilməsinə aid Dövlət Kadastrının proqram təminatı haqqında / B.S. Ağayev, T.S. Əliyev // Azərbaycan Memarlıq və İnşaat Universiteti. “İnşaatda informasiya texnologiyaları və sistemlərinin tətbiqi imkanları və perspektivləri”. Beynəlxalq elmi-praktiki konfrans. - Bakı, 2018. - S. 162-166.
6. Azərbaycan Respublikasında İnformasiya Cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı 2 aprel 2014-cü il. https://president.az/az/articles/view/11312
7. Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. Bakı, 02 fevral 2021. https://president.az/az/articles/view/50474
8. Azərbaycan Respublikasının 2022─2026-cı illərdə sosial-iqtisadi inkişaf Stra-

tegiyası. Bakı, 22 iyul 2022, 83 səhifə. https://president.az/az/articles/view/56725.
9. Jain M. et al. Review on E-waste management and its impact on the environment and society. Waste Management Bulletin, 2023 (1), pp.34–44.
10. Aliyev A.G. Applied problems and directions of decision of green technologies in sustainable development of information economics. European Journal of Sustainable Development, 2019, 8,1, pp.264-280.
11. Gheorghe M. Blockchain technology support for collaborative systems. Informatica Economică, 2020, Vol.24, no.2, pp.15-26.

*Abbasova Vüsalə Mirsəməd qızı,*
*aparıcı elmi işçi,*
*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi*
*İqtisadiyyat İnstitutu*

## RƏQABƏTQABİLİYYƏTLİ İQTİSADİ İNKİŞAFIN TƏMİN OLUNMASI ŞƏRTLƏRİ

Son dövrlərdə iqtisadi inkişafın dayanıqlı olması amillərindən biri kimi rəqabətqabiliyyətili iqtisadi inkişafın göstərici olaraq seçilməsini obyektiv hal kimi qiymətləndirmək lazımdır. İqtisadi inteqrasiyanın dərinləşməsi daxili bazarlarda rəqabət mühitini daha da kəskin hal alması ilə xarakterizə edir ki, bu da milli iqtisadiyyatlar qarşısında bu göstəricinin prioritet kimi seçilməsini əsaslandırır. Nəzərə almaq lazımdır ki, rəqabətqabiliyyətli iqtisadi inkişaf olduqca mürəkkəb bir proses və mexanizmə əsaslanmaqla baş tutan bir prosesdir. Yəni bu hala sadəcə hədəf iqtisadi göstərici kimi deyil, onu şərtləndirən proses və münasibətlərin məcmusu kimi yanaşmaq lazımdır. İstər mikro səviyyədə, istərsə də makroiqtisadi səviyyədə rəqabətqabiliyyətliliyin təmin olunması, onun müəyyən göstəricilərlə xarakterizə edilməsi ciddi araşdırma obyekti kimi qarşımıza çıxır. Lakin bunlara baxmayaraq, söyləyə bilərik ki, rəqabətqabiliyyətli iqtisadi inkişaf dedikdə, bir sıra standart yanaşmalar vardır ki onları da ümumiləşdirərək qeyd etmək olar.

Rəqabətqabiliyyətli iqtisadi inkişafın təmin edilməsi sahibkarlığı, yeniliyi və resurslardan səmərəli istifadəni stimullaşdıran əlverişli iqtisadi və institusional mühitin yaradılmasını tələb edir. Bu məqsədə çatmaq üçün əsas şərtlər bunlardır:

1.Makroiqtisadi sabitlik:
- aşağı inflyasiya və sabit məzənnə;
- sağlam dövlət maliyyəsi və milli valyutanın davamlılığı;
- şəffaf və gözlənilməz pul siyasəti;

2. Bazarın açıqlığı və liberallaşdırılması:
- beynəlxalq ticarət və investisiya üçün açıqlıq;
- aşağı idxal tarifləri və lazımsız inzibati maneələrin olmaması;
- iqtisadiyyatın davamlı və şəffaf tənzimlənməsi;

3. İnfrastruktur inkişafı:
- yüksək keyfiyyətli nəqliyyat, enerji və kommunal infrastruktur;
- müasir texnologiyalara və informasiya resurslarına çıxış;

4. İnsan kapitalı və təhsili:
- işçi qüvvəsinin yüksək səviyyədə təhsili və ixtisası;
- daimi peşə təhsili və ixtisasartırma sistemi;
- elmi tədqiqat və yeniliyə dəstək;
5. İnnovasiya və texnoloji inkişaf:
- iqtisadiyyatda innovasiyaların dəstəklənməsi və stimullaşdırılması;
- yüksək texnoloji sahələrin və infrastrukturun inkişafı;
6. Effektiv dövlət idarəetməsi:
- dövlət qurumlarının şəffaflığı və səmərəliliyi;
- etibarlı hüquq və mülkiyyətin qorunması sistemi;
- korrupsiya və inzibati maneələrin olmaması;
7. Sosial infrastruktur:
- səhiyyə və sosial müdafiə yüksək səviyyədədir;
- inkişaf etmiş sosial dəstək və təhlükəsizlik sistemi;
8. Sahibkarlıq mədəniyyəti:
- dövlət tərəfindən sahibkarlığa və yeniliyə dəstək;
- cəmiyyətin sahibkarlığa və yeniliyə müsbət münasibəti;
9. Davamlı inkişaf:
- ekoloji davamlılıq və təbii ehtiyatlardan məsuliyyətli istifadə;
- Ətraf mühitə zərər vermədən iqtisadi böyümənin təmin edilməsi;
10. Beynəlxalq əməkdaşlıq və inteqrasiya:
- beynəlxalq iqtisadi təşkilatlarda və sazişlərdə fəal iştirak;
- digər ölkələrlə qarşılıqlı faydalı iqtisadi münasibətlərin qurulması;

Bu şərtlərə riayət edilməsi və həyata keçirilməsi investisiya cəlb etməklə, yeniliyi stimullaşdırmaqla və davamlı sosial-iqtisadi böyüməni təmin etməklə rəqabətqabiliyyətli iqtisadi inkişaf üçün şərait yaradacaqdır.

Azərbaycanda rəqabətqabiliyyətli iqtisadi inkişafın təmin edilməsi üçün milli iqtisadiyyatın qarşısında bir sıra mühüm vəzifələr durur ki, həm sahəvi, həm də makroiqtisadi göstəricilər baxımından onları aşağıdakı kimi təqdim edə bilərik.

Birincisi, ölkənin makroiqtisadi sabitliyini gücləndirməliyik. Bunun üçün inflyasiyanın aşağı səviyyədə saxlanılması, milli valyutanın sabitləşdirilməsi və şəffaf pul siyasətinin hazırlanması üzərində işi davam etdirmək olduqca vacibdir. Hesab edirik ki, 2015-ci ildən başlayaraq Mərkəzi Bankın bu istiqamətdə atmış olduğu addımları bu aspektdə xüsusi ilə vurğulaya bilərik.

İkincisi, daxili bazarın açıqlığı və liberallaşdırılması, xarici investisiyaların cəlb edilməsi və ixrac-idxal əməliyyatlarının inkişafı üçün açardır. Bu baxımdan tarif və tarif olmayan maneələri azaltmağa davam etmək və iş prosedurlarını asanlaşdırmaq vacibdir. Bu istiqamətdə gömrük siyasətinə yenidən baxılmasına ehtiyac vardır. Çünki, daxili bazarın qorunması və işgüzar fəallığın artırılması istiqamətində gömrük siyasətinin rolunu əsas müəyyənedici rol kimi qiymətləndirə bilmirik.

Üçüncü cəhət infrastrukturun inkişafıdır. Nəqliyyat, enerji və kommunal infrastrukturun inkişafı iqtisadiyyatın bütün sahələrinin böyüməsi üçün əsas olacaqdır. Buna görə mövcud infrastrukturun modernləşdirilməsinə və yeni obyektlərin yaradılmasına daha çox diqqətin artırılması prioritet sayılır. Bu aspektdə xüsusi ilə vurğulaya bilərik ki, son illərdə dövlətin iqtisadi siyasətinin və iqtisadi tədbirlərinin əsas qayə-

sindən biri də ölkədə münbit infrastruktur şəbəkəsinin yaradılmasıdır. Bu istiqamətdə görülən işləri müsbət qiymətləndiririk. Xüsusən də işğaldan azad olunmuş ərazilərdə infrastruktur layihələrinin reallaşması fonunda digər layihələrin də həyata keçirilməsi ondan xəbər verir ki, dövlətin bu sahə əsas prioritetlərindən hesab olunur. Təkcə hər il dövlət büdcəsindən 2020-ci ildən başlayaraq 2,5-3 mlrd. manatdan artıq vəsait infrastruktur layihələrinin icrasına xərclənir. İşğaldan azad olmuş ərazilərdə isə infrastruktur layihələrinin reallaşmasına 2022-ci ildə 2,6 milyard manat, 2023-cü ildə isə 2,3 milyard manat vəsait xərclənmişdir. Göründüyü kimi, infrastruktur layihələri üzrə xərcləri bütövlükdə investisiya xərcləri kimi də qiymətləndirə bilərik.

Dördüncü, insan kapitalına qoyulan investisiyalardır. İşçi qüvvəsinin təhsili və ixtisası rəqabət qabiliyyətinin əsas amilləridir. Bu səbəbdən peşə təhsili və ixtisasartırma sistemini inkişaf etdirmək, elmi araşdırma və yeniliyi dəstəkləmək lazımdır.

Beşinci cəhət əlverişli bir iş mühitinin yaradılmasıdır. Bunun üçün dövlət idarəçiliyini yaxşılaşdırmalı, daha şəffaf və səmərəli etməli və iş üçün inzibati maneələri azaltmalıdır.

Altıncı sosial infrastrukturla bağlıdır. Səhiyyə, sosial müdafiə və təhlükəsizlik sabit bir cəmiyyətin təməlidir. Buna görə də bu sahələrin yaxşılaşdırılmasına diqqət yetirmək vacibdir.

Yeddinci cəhət sahibkarlıq və innovasiya mədəniyyətinin inkişafıdır. Sahibkarlığın dəstəklənməsi və stimullaşdırılması, eləcə də cəmiyyətin innovasiyalara müsbət münasibəti iqtisadiyyatın böyüməsinə kömək edəcəkdir.

**Antiinhisar tədbirlər**

Dövlətin antitrest tədbirləri bazar subyektlərinin inhisar davranışının qarşısının alınmasına və qarşısını almağa yönəlmiş hüquqi, iqtisadi və inzibati tədbirlər məcmusudur ki, bu da rəqabətin pozulmasına və istehlakçı seçiminin məhdudlaşdırılmasına səbəb ola bilər. Müasir dövrdə Antiinhisar siyasəti iqtisadiyyatın qloballaşması, texnologiyaların inkişafı və bazar strukturlarının yeni formalarının yaranması səbəbindən xüsusi aktuallıq qazanır. Antiinhisar tədbirləri ilə başa düşülməli olan əsas cəhətlər və münasibətlərə aşağıdakıları aid edə bilərik:

**Rəqabətdə istehlakçı müdafiəsi:** antitrest siyasətinin əsas məqsədi bütün bazar iştirakçıları üçün bərabər şərait yaratmaq və istehlakçıların maraqlarını şirkətlərin vicdansız hərəkətlərindən qorumaqdır.

Rəqabət və istehlakçı müdafiəsi antiinhisar siyasətinin əsas elementləridir, çünki onlar bazar iqtisadiyyatının səmərəliliyinə, istehlakçıların rifahına və ölkənin innovasiya potensialına birbaşa təsir göstərir.

Bazar iştirakçıları üçün bərabər şəraitin təmin edilməsinin müsbət cəhətləri əsasən rəqabət mühiti şirkətləri yenilik etməyə, qiymətləri aşağı salmağa, mal və xidmətlərin keyfiyyətini yaxşılaşdırmağa sövq edir. Bu, resursların səmərəli bölüşdürülməsini təşviq edir və iqtisadi böyüməni stimullaşdırır. Lakin nəzərə almaq lazımdır ki, bütün bazar iştirakçılarının fəaliyyətinin tənzimlənməsi və monitorinqində müəyyən çətinliklər yarana bilər. Həmçinin bəzi şirkətlər rəqabət təhrifinə səbəb olan antiinhisar qanunlarından yan keçməyin yollarını da axtarmağa başlayırlar. İstehlakçıların hüquqlarının müdafiəsinin təmin edilməsi hakim mövqedən sui-istifadə, qiymət dempinqi və digər rəqabət əleyhinə təcrübələrin qarşısının alınması istehlakçılar üçün seçimin qorun-

masına kömək edir və bazarın inhisara alınmasının qarşısını alır. Bununla paralel olaraq qeyd etmək lazımdır ki, şirkətlərin hansı hərəkətlərinin qeyri-etik olduğunu müəyyən etmək həmişə asan olmur. Yanlış və ya çox sərt tədbirlər biznesin yeniliyinə və inkişafına zərər də verə bilər ki, bunu mütləq nəzərə almaq lazımdır.

Rəqabət şəraitində istehlakçıların hüquqlarının qorunması üzrə müqayisəli qiymətləndirmə edərkən ilk olaraq bunu tənzimləmənin miqyasına görə etmək daha düzgün olar. Tənzimləmə, ümumiyyətlə, daha sərt nəzarəti və dövlətin iqtisadiyyata birbaşa müdaxiləsini əhatə edir. Antiinhisar siyasəti rəqabətədavamlı davranışla mübarizə üçün hüquqi çərçivə və tədbirlər vasitəsilə rəqabətli bazar yaratmağa çalışır. Tənzimləmə rəqabətin və yeniliyin artmasına səbəb ola bilər, eyni zamanda hakim mövqedən sui-istifadə və istehlakçı maraqlarının pozulması riskini artıra bilər. Antiinhisar siyasəti, mümkün mənfi nəticələrin qarşısını alaraq tənzimləmə üçün bir çərçivə təmin edir.

Rəqabət və istehlakçı hüquqlarının müdafiəsi, bazarın səmərəli işləməsini və istehlakçı müdafiəsini təmin edən antiinhisar siyasətinin vacib hissələridir. Tənzimləmə və monitorinqdəki çətinliklərə baxmayaraq, düzgün təşkil edilmiş antiinhisar siyasəti sabit iqtisadi böyüməyə, yeniliyə və cəmiyyətin rifahına kömək edir.

*Mustafayev Asif Mirlazım oğlu,*
*iqtisad üzrə fəlsəfə doktoru, dosent,*
*aparıcı elmi işçi,*
*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi*
*İqtisadiyyat İnstitutu*
*E-mail: asif5252@rambler.ru*

## QLOBALLAŞMA ŞƏRAİTİNDƏ KORPORATİV İDARƏETMƏNİN RƏQABƏT MÜHİTİNƏ TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏ METODLARI

İqtisadi qloballaşmanın genişlənməsi hər bir ölkənin milli iqtisadiyyatı qarşısında yeni vəzifələr qoymaqla davamlı inkişafı zəruri etmişdir. Nəzərə almaq lazımdır ki, iqtisadi qloballaşma özünün müsbət tərəfləri ilə yanaşı mənfi təzahür formaları ilə də xarakterizə olunur. Xüsusən də, iqtisadi inkişaf üçün yeni tələblər qoymaqla bazar rəqabətini daha da "mürəkkəb" hala gətirir. Bu baxımdan hər bir ölkə rəqabət probleminin həllinə özünün iqtisadi potensialı prizmasından yanaşmaqla onun həllini reallaşdırmaq istəyir. Belə bir məqsədin reallaşması şübhəsiz ki, ilk olaraq, daxili bazarın rəqabət mühitinin nə dərəcədə təmin edilməsindən bilavasitə asılıdır. Çünki qloballaşma daxili bazar və dünya bazarı arasında mövcud olan sərhədləri götürməkdədir.

Rəqabət mühitinin inkişaf etdirilməsinə həm mikro səviyyədə, həm də makro səviyyədə yanaşılaraq həllinə çalışılır. Lakin nəzərə almaq lazımdır ki, rəqabət mühitinin iştirakçıları, onların hansı mülkiyyət mənsubiyyətində olması, hansı idarəetmə metodlarını tətbiq etməsi olduqca aktuallıq kəsb edir. Hesab edirik ki, son illərdə öz effektiv nəticələrini dünya ölkələrinin təcrübəsində verən korporativ idarəetmənin üstünlüklərini tətbiq etmək Azərbaycan iqtisadiyyatı üçün müsbət nəticələr verə bilər.

Korporativ idarəetmə (Corporate Governance) biznes subyektlərinin fəaliyyətinin

səmərəli idarə olunmasını və səhmdarlar, işçilər, kreditorlar, müştərilər, təchizatçılar və bütövlükdə cəmiyyət kimi bütün maraqlı tərəflərin (dövlət də daxil olmaqla) maraqlarının qorumasını təmin edən qaydalar, təcrübələr və proseslər sistemidir. Ümumiyyətlə, korporativ idarəetmə şirkətin uzunmüddətli dayanıqlığını, səmərəliliyini və bütün maraqlı tərəfləri qarşısında məsuliyyətini təmin edən bir sistem yaratmağı hədəfləyir. Korporativ idarəetmənin əsasən də rəqabət mühitinə təsirini qeyd edərkən vurğulamaq lazımdır ki, bi proses ölkələrin digər iqtisadi inkişaf potensialı və imkanlarından (siyasi-iqtisadi-sosial) asılı olaraq müxtəlif dərəcəli effektlərlə şərtlənə bilər. Ümumi halda götürdükdə isə korporativ idarəetmənin rəqabət mühitinə təsirini aşağıdakı metod və vasitələrdən istifadə etməklə müəyyən etmək olar:

1. Korporativ idarəetmə strukturunun təhlili: korporativ mədəniyyət, qərar qəbuletmə siyasəti, idarə heyətinin rolu və təsiri, idarəetmə nəzarəti və nəzarət mexanizmləri və s. daxil olmaqla şirkətin idarəetmə strukturunun öyrənilməsi deməkdir. Bütün maraqlı tərəflərin maraqlarını təmin etmək və ziddiyyətlərin qarşısını almaq üçün rəhbərliyə nəzarət və nəzarət mexanizmləri yaradılır [2, s.193-194]. Bunlara hesabat sistemləri, audit, daxili nəzarət mexanizmləri və korporativ davranış tənzimləmə mexanizmləri daxil edilir. Effektiv korporativ idarəetmə strukturu şirkətin şəffaflığını, məsuliyyətini və davamlılığını artırmağa kömək edir ki, bu da nəticədə onun uğurlu inkişafına və məqsədlərinə çatmasına gətirib çıxardır.

2. Müqayisəli təhlil: şirkətin fəaliyyət göstəricilərinin və nəticələrinin rəqiblərlə müqayisəsi, habelə idarəetmə sistemlərinin müqayisəsi deməkdir. Ümumi mənada korporativ idarəetmə kontekstində müqayisəli təhlil şirkətin fəaliyyətinin əsas göstəricilərinin rəqiblərin oxşar göstəriciləri ilə sistematik müqayisəsinin aparılması üzrə qurulur. Müqayisəli təhlil idarəetmə səmərəliliyini artırmaq üçün ən yaxşı təcrübələri müəyyənləşdirməyə və tətbiq etməyə kömək etməklə yanaşı, həm də şirkətin yeni şərtlərə uyğunlaşmasına və daha məlumatlı strateji qərarlar qəbul etməsinə imkan verən iqtisadi inkişaf meyillərini və dəyişikliklərini müəyyənləşdirməyə də kömək edir [3. 17].

3.Bazar payı və rəqabət qabiliyyətinin öyrənilməsi: şirkətin bazar payındakı dəyişikliklərin təhlili, rəqabət qabiliyyətinin dinamikası, strategiya və idarəetmədə dəyişikliklərə əsaslanaraq təsirlərinin proqnozlaşdırılması deməkdir. Bazar payı və rəqabət qabiliyyətinin öyrənilməsi həmçinin şirkətin tutduğu bazar payının təhlili və bazarda digər iştirakçılara nisbətən rəqabət qabiliyyətinin qiymətləndirilməsi prosesidir. Strategiya və idarəetmə dəyişikliklərinin bazar payı və rəqabət qabiliyyətinə təsirini proqnozlaşdırmaq şirkətə hərəkətlərinin nəticələrini nisbətən müəyyən etməyə və daha məlumatlı strateji qərarlar qəbul edilməsinə imkan verir [3.19]. Bu hal biznes proseslərini optimallaşdırmaq və şirkətin davamlı inkişafını təmin etmək üçün vacibdir. Bazar payı dinamikasını və rəqabət qabiliyyətini anlamaq şirkətə rəqabət üstünlüklərini müəyyənləşdirməklə yanaşı, müştərilərini saxlamaq və cəlb etmək üçün istifadəsini maksimum dərəcədə artırmağa imkan verir.

4.Maliyyə göstəricilərinin qiymətləndirilməsi: şirkətin gəlirlilik, aktiv dövriyyəsi, investisiya gəliri və s. kimi maliyyə göstəricilərinin öyrənilməsi və rəqiblərin oxşar göstəriciləri ilə müqayisəsi deməkdir. Maliyyə göstəricilərinin qiymətləndirilməsi şir-

kətin maliyyə vəziyyətini və fəaliyyətini öyrənmək üçün müxtəlif maliyyə parametrlərinin təhlili prosesidir. Bir şirkətin maliyyə göstəricilərini qiymətləndirərkən onun fəaliyyət xüsusiyyətlərini, iqtisadi davranış standartlarını və iş məqsədlərini nəzərə almaq lazımdır. Maliyyə göstəricilərinin rəqiblərin oxşar göstəriciləri ilə müqayisəsi şirkətin maliyyə bazarındakı rəqabət üstünlüklərini və çatışmazlıqlarını müəyyən etməyə imkan verir ki, bu proses də eyni zamanda bir şirkətin maliyyə fəaliyyətinə təsir edən əsas cəhətləri müəyyənləşdirməyə və maliyyə vəziyyətini yaxşılaşdırmaq üçün strategiyalar hazırlamağa kömək edir. Bəllidir ki, maliyyə qiymətləndirməsi investorlar, kreditorlar və şirkətin idarəetmə işçiləri üçün məlumatlı maliyyə qərarları vermək və gələcək inkişaf strategiyalarını planlaşdırmaq üçün vacib bir vasitədir.

5.İnnovasiya fəaliyyətinin təhlili: şirkətin korporativ idarəetmə kontekstində innovativ fəaliyyətinin qiymətləndirilməsi və rəqiblərlə müqayisə deməkdir. Şirkətin innovativ fəaliyyətinin təhlili onun inkişaf strategiyasının bir hissəsi kimi innovasiyaları inkişaf etdirmək və tətbiq etmək qabiliyyətinin öyrənilməsi prosesidir. Korporativ idarəetmə kontekstində bu, şirkətin innovativ fəaliyyətinin məqsədlərinə, missiyasına və strategiyasına nə qədər uyğun olduğunu qiymətləndirmək deməkdir [4, s.33-34]. Qərarların qəbulu, risklərin idarə edilməsi və keyfiyyətə nəzarət kimi müəyyən edilmiş korporativ idarəetmə prosesləri və təcrübələri çərçivəsində innovasiyaların necə tətbiq olunduğunu müəyyən etmək vacibdir.

6. Nüfuz və marka araşdırması: şirkətin bazarda davranışının qiymətləndirilməsi korporativ idarəetmə və biznes etikası baxımından rəqiblərlə müqayisəsi deməkdir. Nüfuz və marka araşdırması, şirkətin imicini, nüfuzunu istehlakçılar, investorlar və digər maraqlı tərəflər arasında etibar dərəcəsini əhatə edən bazar qavrayışının hərtərəfli təhlilidir. Korporativ idarəetmə kontekstində bir şirkətin fəaliyyətində etik prinsiplərə nə qədər əməl etdiyi və idarəetmə strategiyasının nüfuzunu nə qədər uğurla qoruduğu və gücləndirdiyi qiymətləndirilir. Reputasiya və brendin rəqiblərlə müqayisəsi şirkətin rəqabət üstünlüklərini və çatışmazlıqlarını müəyyən etməyə, həmçinin korporativ idarəetmə və biznes etikası baxımından fəaliyyətini yaxşılaşdıra biləcəyi sahələri müəyyənləşdirməyə imkan verir.

7. Kadr siyasətinin və işçi məmnuniyyətinin təhlili: korporativ idarəetmə kontekstində kadr siyasətinin, motivasiya sisteminin və işçi məmnuniyyətinin öyrənilməsi, rəqiblərlə müqayisəsi deməkdir. Kadr siyasətinin və işçilərin məmnunluq səviyyəsinin təhlili kadr idarəçiliyinin səmərəliliyini başa düşmək və əlverişli iş mühiti yaratmaq üçün vacibdir. Buraya motivasiya sisteminin, L&D proqramlarının və performans qiymətləndirmə metodlarının öyrənilməsi daxildir. Rəqiblərlə müqayisə kadr siyasətinin güclü və zəif tərəflərini şirkətin işçilərindən bazardakı digər oyunçulara nisbətən məmnunluq səviyyəsini müəyyənləşdirməyə kömək edir. Korporativ idarəetmə baxımından bu cəhətlərin təhlili şirkətə kadr proseslərini optimallaşdırmağa, işçilərin sədaqətini və səmərəliliyini artırmağa imkan verir.

8. Korporativ idarəetmədə dəyişikliklərə bazar reaksiyasının tədqiqi: investorların, analitiklərin, müştərilərin və digər bazar iştirakçılarının korporativ idarəetmə strategiyası və təcrübələrindəki dəyişikliklərə reaksiyasının monitorinqi deməkdir. Korporativ idarəetmədə dəyişikliklərə bazar reaksiyasının araşdırılması şirkət qərar-

larının maraqlı tərəflərə necə təsir etdiyini anlamaq üçün vacib bir vasitədir [1, s.256]. Bura investorların, analitiklərin, müştərilərin və digər bazar iştirakçılarının idarəetmə strategiyası və təcrübələrindəki hər hansı bir dəyişikliyə reaksiyasının monitorinqi daxildir. Bazar reaksiyası səhm qiymətlərindəki dəyişikliklər, ticarət həcmi, analitik hesabatlar, müştəri rəyləri və digər göstəricilərdə özünü göstərir.

9. Ekonometrik metodlardan istifadə: müxtəlif korporativ idarəetmə amillərinin şirkətin maliyyə nəticələrinə və rəqabət qabiliyyətinə təsirini qiymətləndirmək üçün ekonometrik modellərin tətbiqi deməkdir. Korporativ idarəetmənin təhlilində ekonometrik metodların istifadəsi müxtəlif amillərin şirkətin maliyyə nəticələrinə və rəqabət qabiliyyətinə təsirini qiymətləndirməyə imkan verən qrafik modellərin qurulmasını əhatə edir. Aydın məsələdir ki, qrafik modellər dəyişənlər arasındakı mürəkkəb əlaqələri vizuallaşdırmağa imkan verən bir vasitədir. Bunlara idarəetmə quruluşu, qərarvermə siyasəti, işçilərin motivasiya sistemləri və digərləri kimi müxtəlif korporativ idarəetmə amilləri daxildir. Qrafik model bir çox dəyişəni və onların əlaqələrini nəzərə almağa imkan verir ki, bu da təhlili daha əhatəli və dəqiq edir. Qrafik model qurma prosesi reqressiya təhlili, zaman seriyası və panel tipli məlumatların təhlili kimi müxtəlif statistik metodlardan istifadə edir. Bu metodlar hər bir amilin şirkətin maliyyə nəticələrinə və rəqabət qabiliyyətinə təsir dərəcəsini, aralarındakı mümkün qarşılıqlı təsirləri nəzərə alaraq qiymətləndirməyə imkan verir [1, s.275-276]. Qrafik model dəyişənlər arasındakı səbəb-nəticə əlaqələrini və şirkətin uğurunu müəyyən edən əsas amilləri müəyyən etmək üçün istifadə edilə bilər.

10. Məlumat toplama və rəy: korporativ idarəetmənin rəqabət mühitinə təsirini qiymətləndirmək üçün şirkətin fəaliyyəti, ətrafı və bazar reaksiyaları, habelə maraqlı tərəflərdən (investorlar, müştərilər, işçilər və s.) rəylərin müntəzəm toplanması deməkdir. Məlumatların toplanması və rəy korporativ idarəetmənin rəqabət mühitinə təsirinin qiymətləndirilməsində əsas prosesi təmsil edir. Bir şirkətin fəaliyyəti haqqında məlumatların müntəzəm toplanması maliyyə göstəriciləri, istehsal ölçüləri, bazar meyilləri və fəaliyyətinin digər aspektləri haqqında məlumatları əhatə edir. Bu proses şirkətə mühitində hansı dəyişikliklərin baş verdiyini və rəqabət qabiliyyətinə necə təsir göstərə biləcəyini anlamağa kömək edir. Məlumat toplamağın vacib bir elementi, idarəetmə strategiyası və təcrübələrindəki dəyişikliklər də daxil olmaqla şirkətin hərəkətlərinə bazar reaksiyasının qiymətləndirilməsidir.

## İstifadə olunmuş ədəbiyyat siyahısı:


1. Bob Tricker. "Corporate Governance: Principles, Policies, and Practices" - 2015. P.640.

2. Fred R. David, Forest R. David. "Strategic Management: Concepts and Cases" - 2020. P.800.

3.Swafford J. "Financial Management and Corporate Governance from the Feminist Ethics of Care Perspective." 2015. P.20

4.Cunat V., Mireia G., Maria G. "Market Reactions to Changes in Corporate Governance Provisions: Evidence from a Quasi-Natural Experiment." 2012. P.40

*Qədirova İlahiyə Arif qızı,*
*müəllim,*
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası,*
*E-mail: ilahiyemusayeva@gmail.com*

# TƏBİİ FƏLAKƏTLƏRİN PROQNOZLAŞDIRILMASINDA BIG DATADAN İSTİFADƏ

Hər il minlərlə insan təbii fəlakətlər nəticəsində həyatını itirir, yüz minlərlə insan isə insanlar tərəfindən törədilən qlobal istiləşmənin təsiri səbəbindən qaçqın vəziyyətinə düşür. 10000-dən çox iqlimşünasın 97%-i insan tərəfindən törədilən iqlim dəyişikliyinin planetdə təbii fəlakətlərin gücünü və tezliyini kəskin şəkildə artırdığı ilə razılaşır.

Belə fəlakətlərə zəlzələlər, qasırğalar, vulkan püskürmələri, siklon fırtınaları, daşqınlar, meşə yanğınları və s. daxildir.

2005-ci ilin avqust ayında ABŞ-da Katrina qasırğası baş vermişdi. Qasırğa 1800-dən çox insan ölümü, minlərlə evsiz, 800000 evin dağılması və ya zədələnməsi ilə nəticələnmişdi. Bu ABŞ tarixində 3-cü ən ölümcül qasırğa idi. Zərərlərin ümumi dəyəri 125 milyard dolları ötmüşdü. Vurduğu zərərə görə ABŞ tarixinin ən bahalı qasırğası hesab edilir.

Bu hadisələrin gözlənilməzliyini nəzərə alaraq, onların zərərinin həcmini dəqiq proqnozlaşdıra bilmərik. Bununla belə, sürətli texnoloji tərəqqi və qabaqcıl texnologiyalar əvvəlcədən xəbərdarlıq vermək üçün böyük potensiala malikdir. Bu xəbərdarlıqlar insanların həyatını xilas etməyə və dəyəcək zərəri minumuma endirməyə kömək edir.

Texnologiyanın fəlakətləri proqnozlaşdırmaq kimi tarixi var. Keçmiş proqnozlar əsasən küləyin sürəti, yağışın intensivliyi, qasırğanın mərkəzi təzyiqi və yağıntı kimi hava amillərindən istifadə etməklə xətti reqressiya təhlilinə əsaslanırdı. Lakin fəlakətləri proqnozlaşdırmaq üçün bu hava faktorları ilə reqressiya modellərindən istifadə etmək çətin oldu, çünki onlar fəlakətin miqyasını dəqiqliklə proqnozlaşdıra bilmirdilər. Buna 1-ci kateqoriya fırtına kimi proqnozlaşdırılan 2016-cı il Mathew qasırğasını nümunə göstərə bilərik. Lakin verilən proqnoz düz çıxmadı. Növbəti gün onun intensivliyi 5-ci kateqoriyalı super fırtınaya qədər artdı. Hazırda inkişaf edən texnologiya fəlakətlərin proqnozlarının dəqiqliyini artırır və burda da big data texnologiyaları ön plandadır.

**Təbii fəlakətlərin proqnozlaşdırılmasında böyük verilənlərdən necə istifadə etmək olar?**

Əsas məqsəd böyük miqdarda məlumatlara sahib olmaq deyil. Əsas məsələ datanın necə təmizləndiyi, qruplaşdırıldığı, analiz edildiyi və qərar qəbul etmək üçün təqdim edildiyidir. Datalar mövcud olduqdan sonra maşın öyrənməsi və süni intellekt alqoritmləri datanı analiz edir.

Süni intellekt alqoritmi modelləşdirmə və ssenari müqayisəsi üçün çoxlu məlu-

mat tələb edir. Keçmişdə baş vermiş fəlakətlər süni intellekt alqoritmlərinin cari sensor məlumatları ilə müqayisə etmək üçün istifadə edə biləcəyi böyük həcmdə məlumatla təmin etmişdir.

Keçmişdə təbii fəlakətlərin tarixi ilə bağlı məlumatlar AI (Artificial Intelligence) sistemlərinə müəyyən bir fəlakətdən əvvəl hansı hadisələrin baş verdiyini öyrənməyə kömək edə bilər. Süni intellekt sistemləri fəlakətdən əvvəl xarakterik olan hava nüanslarını öyrənmək üçün məlumatlardan istifadə edir. Bu hadisələr və xüsusiyyətlər müəyyən edildikdən sonra, düzgünlüyünü yoxlamaq üçün digər AI alqoritmlərini öyrətmək üçün istifadə olunur. AI alqoritmləri gələcəkdə yeni parametr məlumatları ilə zənginləşdikdə bu xüsusiyyətləri dəqiqliklə xatırlamalıdırlar. Daha çox məlumat əldə olunduqca, alqoritm öz dəqiqliyini təkmilləşdirməyə və öyrənməyə davam edir.

Süni intellekt, insanlar və ya ənənəvi xəbərdarlıq sistemləri tərəfindən asanlıqla aşkar edilməyəcək əlaqələri tapmaq üçün çox böyük və mürəkkəb məlumatları çeşidləməkdə mahirdir. Təbii fəlakətin baş verəcəyi konkret ərazidə nə baş verəcəyini bilmək evakuasiya planlarının vaxtında hazırlanmasına və sığınacaq kimi yerlərin təyin edilməsinə kömək edir. Bundan əlavə, səlahiyyətlilər fəlakətin olmadığı ancaq fəlakətə ən yaxın xilasetmə resurslarının saxlanacağı yeri müəyyən edə bilərlər.

İstənilən yerdə mövcud daşqın və daşqın vəziyyətini təxmin etmək üçün K-orta klasterləşdirmə alqoritmi (K-mean clustering algorithm), daşqını proqnozlaşdırmaq üçün isə Holt-Winter-in daşqın proqnozlaşdırma yanaşmasından istifadə edilir. Bu arxitektura Hindistan hökuməti tərəfindən toplanan məlumatlar üzərində sınaqdan keçirilmiş və nəticələr yaxşı olmuşdur.

Daşqın, sel kimi təbii fəlakətlərə aid toplanan məlumatlar simsiz sensorlara sahib müxtəlif IoT cihazlarının köməyi ilə əldə olunur. IoT sistemləri Big Data şəbəkəsində saxlanılan əhəmiyyətli miqdarda strukturlaşdırılmamış verilənlər(data) yaradır.

**Təbii fəlakətləri proqnozlaşdırmaq üçün böyük məlumatlardan istifadə edən təşkilatlar**

IBM-in Watson-u, IBM tərəfindən hazırlanmış və dünya üzrə 200000-dən çox meteoroloji stansiyası olan Weather Company ilə bağlı suallara cavab verə bilən süni intellekt sistemidir. Maşın öyrənməsindəki ən son yeniliklərlə yaradılan Watson, əvvəlki məlumatlardan öyrənir və ənənəvi sensorların hər hansı bir şeyi aşkar etməsindən çox əvvəl yaxınlaşmaqda olan təbii fəlakətin əlamətlərini müəyyən etmək üçün mövcud datalarla müqayisələr edə bilir.

Google Hindistanda daşqın, sel fəlakətlərini proqnozlaşdırmaq üçün Hindistanın Mərkəzi Su Komissiyası ilə əməkdaşlıq edərək süni intellekt və Big Datadan istifadə edir. Google-da mühəndislik üzrə vitse-prezidenti olan Yossi Matias proqnozların maşın öyrənməsindən, yağış qeydlərindən və daşqın simulyasiyalarından asılı olduğunu qeyd edir. Proqnozlaşdırma modelləri tarixi hadisələrdən, çay səviyyəsindən, ərazinin relyefindən və hündürlüyündən məlumatları götürərək, təkcə daşqının nə vaxt və harada baş verə biləcəyini deyil, həm də daşqınların şiddətini proqnozlaşdırır. Google daha çox insanın həyatını xilas etmək üçün modelləri digər ölkələrdə də genişləndirməyi planlaşdırır.

Hindistandan başqa Google, Google Public Alerts vasitəsilə böyük analizlərə

əsaslanan hava haqqında xəbərdarlıq verir. Bu xəbərdarlıqlar Google-un müxtəlif məhsulları (Google Axtarış, Google Xəritə, Google İndi) vasitəsi ilə yayınlanır. Xəbərdarlıqlar Google axtarışı etdikdə və ya Google Xəritəsi ilə qaçılmaz təhlükə yarada biləcək yerə getdiyiniz zaman görünür. Onlar dünyadakı insanlara böhrana hazır olmağa və nə edəcəyini bilməyə kömək edir.

Baş ofisi Nyu Meksiko ştatının Santa Fe şəhərində yerləşən Descartes Labs şirkəti  əlavə iş kimi daşqınları və qasırğaları proqnozlaşdırmaq üçün NASA və ESA peyk görüntülərinin böyük məlumat dəstlərindən istifadə etməklə data emalı alqoritmləri qurur. Peyklər hər beş dəqiqədən bir bütün planetin şəkillərini çəkirlər ki, bu da emal etmək üçün ağır hesablama gücü tələb edən böyük həcmdə məlumatdır. Şəkillər qasırğanın gözünü aşkarlaya bilən və onun daşqın yolunu izləyə bilən dərin öyrənmə alqoritmlərindən istifadə etməklə işlənir. Dekart daha yaxşı proqnozlar üçün küləyin sürətini, qasırğanın ölçüsünü və ərazinin hündürlüyünü müəyyən edəcək funksiyaları da əlavə etməklə alqoritmlərin imkanlarını artırmağı planlaşdırır.

Descartes Labs, həmçinin, meşə yanğınlarını proqnozlaşdırmaq üçün böyük məlumatlardan istifadə edən başqa bir layihə üzərində işləyir. Onlar @wildfiresignal adlı Twitter botu hazırlayıblar ki, bu bot GOES -16-dan (Geostationary Operational Environmental Satellite 16) gələn görüntüləri hər altı saatdan bir tüstü üçün skan edir və yanğının baş verməsi halında  onun optik şəkillərini tweet edir.

IBM-in törəmə şirkəti olan Weather Company, elektrik enerjisinin kəsilməsini proqnozlaşdırmaq və qasırğalar zamanı fəlakətlərə müdaxilə mexanizmini işə salmaq üçün IBM-in PAIRS Geoscope böyük məlumat platformasından istifadə edir. O, peyklərdən, kommunal şəbəkə modellərindən və elektrik kəsilməsinin tarixçəsindən məlumat toplayır.

LITMUS isə zəlzələ baş verdikdən sonra sürüşmələri aşkar edən sistemdir. O, USGS seysmik şəbəkəsi, NASA TRMM yağışları, Instagram, Twitter və YouTube daxil olmaqla bir çox mənbələrdəki real vaxt məlumatlarını birləşdirir. Sosial media məlumatlarını filtirləyərək və bu tapıntıları fiziki sensor məlumatları ilə birləşdirərək LITMUS sürüşmələri dəqiqliklə aşkarlaya bilir.

Zəlzələləri aşkar etmək üçün seysmik şəbəkə olan Quake-Catcher Network (QCN), zəlzələlər haqqında məlumat əldə etmək üçün könüllülərin paylanmış hesablama resurslarından istifadə edir. Bütün qoşulmuş kompüterlərdən və ənənəvi seysmik sensorlardan alınan məlumat mənbələri kiçik zəlzələləri aşkar etməyə kömək edə bilər.

Smart Ocean BC, qabaqcıl simli okean rəsədxanalarının dəniz sensorlarından və böyük məlumat analitikasından istifadə edir. O, dalğaları, axınları və suyun keyfiyyətini izləyir və sunamiləri, fırna dalğalarını, dənizdə zəlzələləri və sualtı sürüşmələri proqnozlaşdırmaq üçün məlumatların təhlilini tətbiq edir.

**Təbii fəlakətlərin proqnozlaşdırılması üçün böyük verilənlərdən istifadədə çətinliklər**

Böyük miqdarda məlumat AI üçün problem yarada bilər. Süni intellektə effektiv şəkildə öyrətmək üçün ona çoxlu məlumat lazımdır. Bəzi peyklər qısa fasilələrlə Yerin şəkillərini çəkir. Buna görə də, məlumatların miqdarı suni intellektin emal etməsi üçün

çox ola bilər, xüsusən də şəkillərin emalı. Çünki şəkillərin emalı düz mətndən daha zəhmətlidir. Sosial sensorlara gəldikdə, İnternet Canlı Statistikasına görə, adi bir gündə saniyədə tvitlərin sayı 8000 civarındadır. Gərgin bir gündə bu rəqəm saniyədə 143 199 tvitə yüksəlir. Həmçinin hamı bu sahədə dəqiq məlumatları dərc etmir və ya tvit etmir ki, bu da süni intellekt alqoritmlərinin məlumatlara əsaslanaraq düzgün nəticə çıxarmasını çətinləşdirir.

Bəzi təbii fəlakətlərin nəticələrini proqnozlaşdırmaq çətin ola bilər. Məsələn, süni intellekt qasırğanın hara düşəcəyini təxmin edə bilir, lakin yerə endikdən sonra onun gücünü proqnozlaşdırmaq çətin ola bilər. Qasırğa azala və ya güclənə bilər.

**Nəticə**

Təbii fəlakətlərin dağıdıcı təsirini azaltmaq üçün böhran zamanlarında operativ məlumatın vaxtında əldə edilməsi çox vacibdir. Böyük məlumatlar təkcə fəlakətləri proqnozlaşdırmaq üçün faydalı deyil, həm də yardım səylərinə kömək edə bilər. Su basmış ərazilərin dəqiq müəyyən edilməsində, evakuasiya marşrutlarının xəritələşdirilməsində və xilasetmə strategiyalarının formalaşdırılmasında onun rolu ola bilər. Fəlakətdən sonra sağ qalanlar yardım istəmək və ya ətrafdakı dağıntıları qeyd etmək üçün sosial mediaya müraciət edirlər. Onlar elektrik kəsilməsi, yolların bağlanması, məkan etiketləri və vaxt möhürləri kimi məlumatları paylaşırlar. Xilasedicilər sosial medianı gəzə və məlumatları təhlil edə, sonra səlahiyyətliləri təsirlənmiş ərazilər barədə xəbərdar edə bilərlər.

Texnologiya hər gün irəliləməyə davam edir. Bütün dünyada paylanmış smartfonlar, avtonom avtomobillər, noutbuklar və IoT cihazlarından ibarət sensor şəbəkələri var. Bu qurğular real vaxtda anlaşılmaz həcmdə məlumat yaradır eləcə də peyklərdən və dronlardan alınan görüntü məlumatları böyük verilənlər(Big Data) yaratmağa kömək edir. Böyük verilənlərin təbii fəlakətləri proqnozlaşdırmaq imkanları sayəsində biz böhranlara hazırlaşa, insanları evakuasiya edə və insanların həyatını xilas edəcək və insanların əzabını azaldacaq tədbirlər həyata keçirə bilərik.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**


1. C. Clifton "Encyclopædia Britannica: Definition of Data Mining".
2. C. Leondes "Expert systems: the technology of knowledge management and decision making for the 21st century".
3. E. Frank, M. Hall. "Data Mining: Practical Machine Learning Tools and Techniques"
4. U. Fayyad; G. Piatetsky-Shapiro; P. Smyth (1996). "From Data Mining to Knowledge Discovery in Databases".
5. Wu X., Zhu X., Wu G., Ding W. Data Mining with Big Data // Journal IEEE Transactions on Knowledge and Data Engineering, 2014, vol.26, no.1, pp. 107 http://www.tutorialspoint.com – "Data Mining systems".

*Sultanova Rasimə, elmi işçi,*
*Milli Aviasiya Akademiyası,*
*E-mail: rasima-sultanova@bk.ru*

# AZƏRBAYCANIN TƏBİİ EHTİYATLARINDAN VƏ BƏRPA OLUNAN ENERJİ MƏNBƏLƏRİNDƏN İSTİFADƏSİNİN NƏZƏRİ ƏSASLARI

Azərbaycan Respublikası – həm uğurlu daxili siyasəti, həm də Azərbaycanın qiymətli sərvətlər və faydalı qazıntılarla zəngin olması sayəsində gözlənilməz iqtisadi inkişaf nəticələrinə nail olmuş dövlətdir. Azərbaycan Respublikası SSRİ-dən müstəqillik əldə etdikdən sonra uğurlu sosial siyasət aparır. Bazar iqtisadiyyatına keçid yeganə variant idi və Azərbaycan buna nail oldu. Azərbaycanda böyük neft və qaz yataqları mövcuddur ki, bu da Azərbaycanın neft-qaz, neft-kimya və neft emalı sənayesinin inkişafına kömək edir. Azərbaycan iqtisadiyyatının inkişafına həm də Azərbaycanın lazımi resursları ixrac etmək üçün yeni imkan əldə etməsi şərait yaradır. 1994-cü il sentyabrın 20-də Azərbaycan iqtisadiyyatının inkişaf prosesini sürətləndirən "Əsrin müqaviləsi" imzalandı.

Bərpa olunan enerji mənbələrinin və neft və qaz kimi ənənəvi resursların xüsusiyyətlərini uğurla öyrənmək üçün, ilk növbədə, enerji resurslarının nə olduğunu və hansı növ enerji resurslarının mövcud olduğunu başa düşmək lazımdır. Enerji resursları – Azərbaycanın məişət və sənaye inkişafı üçün mövcud olan bütün növ enerji mənbələridir. Enerji bərpa olunan və bərpa olunmayan, eləcə də nüvə enerjisinə bölünür. Mənşə növünə görə enerji resursları bərpa olunan yanacağa və bərpa olunmayan yanacağa, təbii proses enerjisinə və nüvə enerjisinə bölünür. Bəşəriyyət nüvə, istilik, kimyəvi və mexaniki enerji növlərini istismar edir. Bu resursların əsas məqsədi – elektrik enerjisinin yaradılması və qızdırılan sənayenin inkişafıdır.

Azərbaycan Respublikasının ənənəvi enerji mənbələrinə qaz, neft və elektrik enerjisi daxildir. Azərbaycanın bu üç sənaye sahəsi birlikdə Azərbaycanın Yanacaq-energetika kompleksini yaradır. Azərbaycanda nəhəng neft və qaz mənbələri var, Azərbaycan ərazisində neft sənayesi ötən əsrin 50-60-cı illərində inkişaf etməyə başlayıb.

Bərpa olunan enerji, həmçinin "zelen" – adlanır, günəş enerjisi kimi tükənməz enerjidir. Bərpa olunan enerjinin nə üçün istifadə olunduğunun ən mühüm prinsipi onun daim baş verən təbii proseslərdən əldə edilməsidir. Bərpa olunan enerji təbii ehtiyatlardan əldə edilir, məsələn: günəş işığı, su axınları və külək, bərpa olunan və təbii proseslərlə doldurulur.

## Azərbaycan Respublikasının elektrik enerjisi sənayesi

1994-cü ildə "Əsrin müqaviləsi" imzalananda Azərbaycanda təsdiqlənmiş neft ehtiyatları 511 milyon ton təşkil edirdi. Azərbaycan 2022-ci ildə 32,6 milyon ton neft və 46,7 milyard kubmetr qaz hasil edib. Azərbaycanın Dövlət Neft Şirkəti Azəri-Çıraq-Günəşli blokunda neft ehtiyatlarının 2 milyard tona bərabər olduğunu, bunun yalnız 1,2 milyardının çıxarıla biləcəyini təsdiqləyib. Azərbaycan özünü müstəqil şəkildə enerji ilə təmin etməyə qadirdir. Azərbaycanın istilik elektrik stansiyaları enerjinin 90%-ni təbii qazın yandırılması yolu ilə istehsal edir. 6%-i su elektrik stansiyaları və alternativ enerji mənbələri tərəfindən istehsal olunur. "azerenergik" və

“Azerişıq” ASC Azərbaycanda əsas elektrik enerjisi istehsalçılarıdır. Azərbaycan iqtisadiyyatının hazırkı vəziyyətini anlamaq və Azərbaycan iqtisadiyyatının inkişafı üzrə yeni strategiya hazırlamaq məqsədilə 2016-cı il dekabrın 6-da Azərbaycan iqtisadiyyatının və iqtisadiyyatın əsas sahələrinin inkişaf strategiyasını göstərən milli iqtisadiyyat üzrə strateji yol xəritələri təsdiq edilib.

Azərbaycan ərazisində bərpa olunan enerji — Azərbaycanda istismar olunan tükənməz enerji mənbələridir. Azərbaycanda ən mühüm bərpa olunan enerji mənbələri – hidroenergetika, külək enerjisi və günəş enerjisidir.

**Hidroenergetika**

Azərbaycanda 10 irili-xırdalı su elektrik stansiyası var. Onlardan ən böyüyü bunlardır: Mingəçevir su elektrik stansiyası, Şəmkir su elektrik stansiyası, Yenikənd su elektrik stansiyası, Varvarinskaya su elektrik stansiyası.

1954-cü ildə tikilmiş Mingəçevir Dövlət Elektrik Stansiyasında 2016-cı ildə birinci və üçüncü hidroaqreqatlar təkmilləşdirilib. Birinci və üçüncü hidravlik aqreqatların artırılmasından sonra hidravlik aqreqatların hər biri 71,5 MVt təşkil edib. Mingəçevir SES – Azərbaycanın ən böyük su elektrik stansiyasıdır, yenidənqurmadan sonra onun gücü 424,6 MVt təşkil edir. Varvarinskaya su elektrik stansiyası da yenidən quruldu. Varvarinskaya su elektrik stansiyasının gücü 18 MVt-dır. Lerikdə 16,5 MVt gücündə elektrik stansiyası tikilib. Quraşdırılmış gücü 500 MVt olan “Yashma” kombinə edilmiş dövrəli elektrik stansiyasının tikintisi planlaşdırılır. Naxçıvanda yeni elektrik stansiyalarından istifadə olunmağa başlayandan sonra Naxçıvanı enerji ilə təmin etmək problemi həll olundu. Naxçıvan getdikcə yaxşılaşır, Naxçıvanda müxtəlif sosial proqramlar, şəhərin infrastrukturunun inkişafı üçün layihələr həyata keçirilir. Naxçıvanda alternativ və bərpa olunan enerji mənbələrinin istehsalı üzrə layihələr həyata keçirilir.

**Külək enerjisi**

Azərbaycanda uzunmüddətli planlar mövcud coğrafi şəraitə görə əlverişli ola biləcək enerji təchizatı üçün küləkdən istifadəni nəzərdə tutur. Abşeron yarımadası, Xəzər sahili və onun şimal zonasındakı adalar, Naxçıvan MSSR-də Şərur, Culfa buna uyğundur. 1999-cu ildə Yaponiyanın "Tomen" şirkəti Azərbaycan Elmi-Tədqiqat Enerji Tikinti İnstitutu ilə birlikdə Abşeronda 30 və 40 metr hündürlükdə minlərlə hündürlük müəyyən etmiş və küləyin orta illik sürətinin 7,9-8,1 m/s-ə çatdığını müəyyən etmişdir. Nəticədə Qobustan rayonunda ümumi gücü 30 MVt olan külək elektrik stansiyasının tikintisi üçün texniki-iqtisadi təklif tərtib edilib. 2020-ci ildə külək elektrik stansiyasının gücü 66 MVt olub.

Qobustan Alternativ Enerji Sınaq Sahəsindəki hibrid elektrik stansiyası ölkənin ən külək elektrik stansiyasıdır. 2022-ci il yanvarın 13-də Abşeron rayonunda Sitalçay və Pirakeşkulda Xızı-Abşeron külək elektrik stansiyasının tikintisinə başlanılıb. Elektrik stansiyasının gücü 240 MVt olacaq. Elektrik stansiyasının ildə 1 milyard kilovatsaata qədər elektrik enerjisi istehsal edəcəyi gözlənilir. Bu obyektin istifadəyə verilməsi 220 milyon kubmetr təbii qaza qənaət edəcəkdir. Bu, atmosferə 400 min ton karbon qazının buraxılmasının qarşısını almaq deməkdir.

**Günəş enerjisi**

Günəş enerjisi də dünyanın ən çiçəklənən enerji mənbələrindən biridir və onun istifadəsi günəşli ərazilərdə ən perspektivli görünür. Azərbaycanın təbii iqlim şəraiti günəş enerjisindən istifadə etməklə elektrik və istilik enerjisi istehsalının artırılması üçün geniş perspektivlər yaradır. Azərbaycanda il ərzində günəş saatının müddəti 2400-3200 saat təşkil edir ki, bu da Azərbaycan ərazisinə düşən günəş işığının miqdarının digər ölkələrdəki analoji göstəriciləri üstələməsi deməkdir. Bu, günəş enerjisindən istifadəyə investisiyaların cəlb edilməsinin səmərəliliyinin amillərindən biri kimi qiymətləndirilə bilər. Günəş enerjisinin inkişafı Azərbaycanın bir sıra regionlarında enerji çətinliklərini qismən həll edə bilər. 2020-ci ildə günəş enerjisi gücü 40 MVt olub.

Azərbaycan Respublikasında biokütlə istehsalı mənbələrinin aşağıdakı növləri mövcuddur: yanan sənaye tullantıları, meşə təsərrüfatı və ağac emalı sektorunun tullantıları, kənd təsərrüfatı bitkiləri və üzvi qarışıq tullantılar, məişət və şəhər tullantıları, neft məhsulları ilə çirklənmiş ərazilərdə tullantılar. Araşdırmalara görə, iqtisadiyyatın bütün sahələrində yaranan tullantıların əsas hissəsi biokütlə məhsullarından ibarətdir. Belə biokütlədən elektrik enerjisi istehsalında istifadə olunan qaz, maye və bərk biokütlə istehsal oluna bilər. Azərbaycanda hər il 2 milyon tondan çox bərk məişət və sənaye tullantıları zərərsizləşdirilməsi üçün poliqonlara atılır. Bərk məişət və sənaye tullantılarının emalı qismən Bakıda və ölkənin iri sənaye şəhərlərində evlərin qızdırılması probleminin həllinə kömək edə bilər. 2020-ci ildə bioenerji gücü 45 MVt olacaq.

Bir çox ölkələrdə geotermal mənbələrdən sənaye, kənd təsərrüfatı, məişət və kommunal sektorlar və tibbdə geniş istifadə olunur. Azərbaycan ərazisində çoxlu termal sular var. Onlar Böyük və Kiçik Qafqaz dağları, Abşeron yarımadası, Talış dağları, Kür çayı hövzəsi və Xəzər-Quba bölgəsi kimi geniş ərazilərdə yerləşirlər. Bu ərazilərdə termal suların istifadəsi ev təsərrüfatlarında və digər sahələrdə istehlak edilən istilik enerjisi ehtiyaclarının bir hissəsini ödəyə bilər.

İstifadəyə verildiyi gündən 2021-ci ilin sonunadək Bakı Bərk Məişət Tullantılarının Emalı Zavodunun elektrik stansiyası 1 milyon 586 min meqavat/saat elektrik enerjisi istehsal edib.

## İstifadə olunmuş ədəbiyyat siyahısı:


1. Ackerman, F. (2017) Worst-Case Economics: Climate and Finance-də Ekstremal Hadisələr (New York: Anthem Press).

2. Ahola, M., və başqaları (2021) Baltik dənizində "Climate Change: 2021 Fact Sheet," Baltic Sea Environment Proceedings (BSEP) №. 180 (Helsinki: Helsinki Komissiyası).

3. Acevedo, S., M. Mrkaic, N. Novta, E. Puqaçeva və P. Topalova (2018) "The Effects of Weather Shocks on Economic Activity: Impact Channels nədir?" IMF İş Kağızı №. 18/144 (Vaşinqton, DC: Beynəlxalq Pul Fondu).

4. Batten, S., R. Sowerbutts və M. Tanaka (2016) "Let's Talk About the Weather: The Impact of Climate Change on Central Banks," Bank of England Staff Working Paper No. 603 (London: Bank of England).

5. Benzie, M. və başqaları (2021) "Cross-Border Climate Change Impacts: Avropa İttifaqı üçün icazələr," Regional Ətraf Mühit Dəyişikliyi, Cild. 19, səh. 763–776.

6. Black, S. və başqaları (2021) "Not on Track to Net-Zero: The Urgent Need for Greater Ambition və Policy Action to Achieve the Paris Agreements Goals," IMF Staff Climate Note No. 21/5 (Vaşinqton, DC: Beynəlxalq Pul Fondu).

7. Burke, M. və V. Tanutama (2019) "Climatic Constraints on Aggregate Economic Output," NBER Working Paper No. 25779 (Cambridge, MA: Milli İqtisadi Tədqiqatlar Bürosu).

8. Caldecott, B. (2018) Stranded Assets and the Environment: Risk, Resilience and Opportunity, (London: Routledge).

9.Campiglio, E. və başqaları (2018) Mərkəzi Banklar və Maliyyə Tənzimləyiciləri üçün "Climate Change Challenges," Nature Climate Change, Vol. 8, səh. 462–468.

10. Carter, T. və başqaları (2021) İqlim Dəyişikliyinin Çarpaz Sərhəd Təsirləri üçün "A Konsept Çərçivəsi," Qlobal Ətraf Mühit Dəyişikliyi, Cild. 69, səh. 102307.

11. Cevik, S. (2022) "Waiting for Godot? Kiçik Ada Dövlətlərində İqlim Dəyişikliyi Uyğunlaşması və Mitinq Case," Ətraf Mühit İqtisadiyyatı və Siyasəti Jurnalı, DOI: 10.1080/21606544.2022.2049372.

12. Cevik, S. və J. Jalles (2021) "An Apocalypse Foretold: Climate Shocks and Sovereign Defaults," Open Economies Review, Vol. 3, səh. 89–108.

13. Cevik, S. və J. Jalles (2022) "This Changes Everything: Climate Shocks and Sovereign Bonds," Energy Economics, Vol. 107, səh. 105856.

14. Feng, A., H. Li, və A. Prasad (2021) "We Are All in the Same Boat: Climate Riskli Beynəlxalq Ticarət və Təchizat Zəncirinin Çarpaz Border Spillovers," IMF İş Kağızı №. 21/13 (Vaşinqton, DC: Beynəlxalq Pul Fondu).

15. Gallup, J., J. Sachs, and A. Mellinger (1999) "Geography and Economic Development," International Regional Science Review, Vol. 22, səh. 179–232.

*Qubadzadə Xədicə Xəqani qızı,*
*müəllim,*
*Bakı Biznes Universiteti*

## AZƏRBAYCANDA "YAŞIL İQTİSADİYYAT"IN İNKİŞAFI

Son illər Azərbaycanda "yaşıl iqtisadiyyat"ın inkişafı istiqamətində bir sıra təşəbbüslər uğurla reallaşdırılmışdır. Hazırda da dayanıqlı inkişafın mühüm bir komponenti olaraq "yaşıl iqtisadiyyat"ın formalaşdırılması istiqamətində siyasət həyata keçirilir və görülən işlərin qarşıdakı müddətdə daha da sürətlənəcəyi qaçınılmazdır. Məhz "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" adlı sənəddə də ölkəmizdə "yaşıl iqtisadiyyat"ın inkişafı mühüm məsələ kimi önə çəkilir. Milli Prioritetlərdə

növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafının beş milli prioritet üzrə reallaşdırılması hədəflənir:

1. Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat;
2. Dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;
3. Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;
4. İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış;
5. Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi.

Qeyd edilən Milli Prioritetlər, eyni zamanda Birləşmiş Millətlər Təşkilatının "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn öhdəliklərin icrası istiqamətində də xüsusi əhəmiyyət kəsb edir. Şübhəsiz ki, "yaşıl iqtisadiyyat" baxımından beşinci prioritet – təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi – mühüm əhəmiyyətə malikdir. Bu prioritet çərçivəsində qlobal iqlim dəyişikliklərinin miqyasını nəzərə alaraq ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer verilməsi, təmiz enerji mənbələrindən istifadə, tullantıların təkrar emalı, çirklənmiş ərazilərin bərpası və təşviq edilməsi məsələləri əksini tapmışdır. Sözügedən prioritet daxilində iki məqsədin – yüksək keyfiyyətli ekoloji mühit və "yaşıl enerji" məkanı – effektiv reallaşdırılmasına nail olunmaq hədəflənir.

"Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda qeyd edilir ki, ekoloji təmiz və iqtisadi cəhətdən səmərəli bərpa olunan enerji mənbələrindən istifadə genişləndirilməklə "yaşıl enerji zonası" konsepsiyası tətbiq ediləcək. Elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payı 2021-ci ildəki 17,3 faizdən 2026-cı ildə 24 faizə çatdırılacaqdır.

Bu baxımdan respublikada bərpa olunan enerji istehsalına diqqətin artırılması, 2022-ci ilin ilk 3 ayı ərzində Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power " şirkəti tərəfindən Azərbaycanda 240 MVt gücündə "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının, Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti tərəfindən Azərbaycanda 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının təməlinin qoyulması xüsusi qeyd olunmalıdır. Azərbaycanda bərpa olunan enerji istehsalının artırılmasının "yaşıl iqtisadiyyat"ın inkişafına böyük töhfəsinin olacağı şübhəsizdir. Təkcə "Masdar" şirkəti tərəfindən tikiləcək günəş elektrik stansiyası, təxminən, ildə 500 milyon kVt saat elektrik enerjisinin istehsalına, 110 milyon kub metr təbii qaza qənaət edilməsinə, 200 min ton karbon emissiyasının azaldılmasına yol açacaqdır . 2030-cu ilə qədər nəzərdə tutulan 1500 MVt gücündə BOEM layihələrinin istifadəyə verilməsi isə əlavə olaraq ildə 1,5 milyon tondan çox emissiyaların atmosferə atılmasının qarşısını alacaqdır .

Doğrudur, "yaşıl iqtisadiyyat"ın formalaşması üçün təkcə bərpa olunan enerji istehsalının artırılması və ya ancaq bu sahəyə fokuslaşmaq yetərli deyil. "Yaşıl iqtisadiyyat"ın tələblərinə görə bütün sektorlar – energetika, sənaye, kənd təsərrüfatı, nəqliyyat və s. aşağı karbonlu olmalı, istixana qazlarının emissiyasının məhdudlaşdırılmasını nəzərdə tutmalı, bərpa olunan enerji növlərinin inkişafına və ekosistemin qorunmasına xidmət etməlidir.

*Əmirxanov Sabir Abuzər oğlu,*
*professor,*
*Bakı Biznes Universiteti*

# MÜASİR DÖVR VƏ SOSİAL İŞÇİ MƏDƏNİYYƏTİ

Tarixi inkişaf prosesinin sistemi olan mədəniyyət maddi və mənəvi formada olmaqla, iki mühüm mərhələli fəaliyyət yaradıcılığının – həm maddi, həm də mənəvi mədəniyyət nümunələrinin mövcudluğunun təsdiqidir. Bu proseslər kompleksi elmi, bədii - yaradıcı fəaliyyətin məhsulu olmaqla, müxtəlif tarixi dövrlərin hadisələrinin təcəssümü və gələcək nəsillərə ötürülməsi texnologiyasıdır. Məhz bu texnolojilik ayrı-ayrı tarixi dövrlərin zehni baxımdan fərqlənən insanlarının elitar mədəni fəaliyyətinin gücü nəticəsində özünü göstərmişdir. Qeyd edək ki, maddi mədəniyyət insanın maddi-istehsal fəaliyyətinin ayrı-ayrı sahələrini əhatə edir ki, buraya əmək vasitələri, gündəlik yaşayış, məişət geyim, nəqliyyat vasitələri və sairəni aid etmək olar. Mənəvi mədəniyyətə isə mənəvi nümunələr aiddir ki, buraya şüurun bütün sahələri- elm, mənəviyyat, maarif, tərbiyə, hüquq, fəlsəfə, incəsənət, ədəbiyyat, folklor, din və s.aiddir. Həm maddi, həm də mənəvi mədəniyyətin fəaliyyətinin mərkəzində yaradıcı, qoruyucu, təkmilləşdirici, ötürücü, inteqrasiya etdirici insan dayanır. Müxtəlif tarixi dövrlərdəki yaradıcı insan- elitar güc öz fəaliyyətini qiymətləndirməyi bacarmış və bu günə qədər belə qiymətli dəyərləri çatdırmışdır. Lakin XXI əsr gəncliyi qədim milli mədəniyyətimizin dərindən tədqiqi, dəyərləndirilməsi, digər dünya xalqları mədəniyyətləri sırasındakı zənginliyini bir daha bəyan etməsi və s. prosesləri yerinə yetirməli, qədim və zəngin mədəniyyətimizi uğurla inteqrasiya etməli, tənəzzülünə imkan verməməli və gələcək nəsillərə ötürməli, əhatəliliyi ilə yaşatmalıdır. Sual olunur, mövcud olan və perspektivinə güvəndiyimiz gənclik belə çətin və mürəkkəb prosesin öhdəsindən nə səviyyədə gələ biləcək? Əlbəttə, bütün bu proseslərdə digər zümrələrlə yanaşı, yaradıcı və zəngin milli mədəniyyətimizdən, həmçinin dünya mədəniyyətindən zövq alan, zənginləşən, zənginləşdirmək qabiliyyətinə, bacarığına malik olan sosial işçilərin də əməyinə zərurət vardır. Məhz belə sosial işçilərin milli və dünya mədəniyyəti ilə zənginlik dərəcəsi, sahə üzrə bilik, bacarıq və vərdişlərə malik olma səviyyələri, həyata keçirəcəyi sosial-siyasi, iqtisadi, mədəni və sair fəaliyyətləri məzmununda müasir dövrümüzə, mühitə, şəraitə, fərqli təfəkkürlü, dünyagörüşlü insanlarla məqsədyönlü işlər həyata keçirilər. Təbiidir ki, sosial işçi mədəniyyəti fərdilik xüsusiyyətinə malikdir. Yəni hər bir sosial işçinin özünəmüvafiq yanaşma, fəaliyyət göstərmə, araşdırma, qiymətləndirmə mədəniyyəti mövcuddur. Belə mövcudluq elmi bilik, bacarıq, vərdişlərin dərinliyi ilə düz mütənasiblik təşkil edir. Yəni dərin elmi biliklərə və dünyagörüşə, adət-ənənə tarixinə aid vərdişlərə malik sosial işçilər bir o qədər zəngin və məzmunlu sosial işçi mədəniyyətinə malikdirlər.

Müasir dövrdə sosial işçi mədəniyyətinə malik olmaq üçün mütəxəssislər müvafiq funksiyalara malik olmalıdırlar:

- ətraf mühitə, baş verən hadisələrə uyğunlaşaraq sosial işçi mədəniyyətli mühitə müvafiq fəaliyyətdə olmaq;
- dərketmə, münasibət göstərmək, qiymətləndirmə, vərdişlərinə malik olmaq;
- kommunikativlik, yaratmaq bacarıqlarına yiyələnmək;
- requlyativliyə şərait yaratmaq;

- qrup inteqrasiyası mühiti formalaşdırmaq;
- sosiallaşmanı qiymətləndirmək.

Ətraf mühitə, aləmə, baş verən hadisələrə uyğunlaşma prosesində iki istiqamətlilik mövcuddur: birincisi, təbii şəraitə, mühitə uyğunlaşma, ikincisi, sosial şəraitə uyğunlaşma,

Təbii şəraitə uyğunlaşmada tarixilik özünü göstərir. Hər bir tarixi dövrün özünəməxsus çətinlikləri olduğuna görə, həmin tarixi dövrlərə müvafiq sosial işçi mədəniyyəti və ya xüsusiyyəti olmalıdır.

Sosial şəraitə uyğunlaşmada sosial işçi mədəniyyətinin əhəmiyyəti mühümdür. Belə ki, sosial mühitin öyrənilməsi mərhələsində özünüinkişafın da təsiri danılmazdır. Yəni, öyrənmə, qiymətləndirmə ilə yanaşı, özünüinkişafa da yer verilməsi, paralellik şəraitə uyğunlaşmanı daha da sürətləndirir. Bu proses ölkəyə, xalqa, dövlətə, cəmiyyətə müvafiq şəkildə nizamlanır.

Bütün fəaliyyətlərin mərkəzində dərketmə dayanır. Dərketmənin gücü isə bilik bazası və formalaşma dərəcəsindən asılıdır. Bu da öz növbəsində, idraki proseslərdə aktiv və ya passivlikdən asılıdır. Əgər yaxşı dərketmə baş verirsə, münasibət göstərmə səviyyəsi, dərəcəsi, sürəti və keyfiyyəti də buna uyğun olacaqdır. Dərketmə zəifdirsə, münasibət bildirmə, fəaliyyət də müvafiq şəkildə zəif olacaqdır. Buna görə də fərdi formalaşdırmanın əhəmiyyəti vacibdir ki, bu da cəmiyyətdəki baş verən hadisələrdən, inkişafdan asılıdr. Hər dövrün isə texnolojiliyi mövcuddur. "Bu gün hər bir millət yeni, mükəmməl texnika və texnologiyanın yaradılmasında həm iştirak etməli, həm də başqa millətlərin yaratdıqlarından faydalanmağı bacarmalıdır" (1, s.90).

Dərketmə prosesi bir sıra psixoloji, zehni fövqəltəbii məsələlərlə də bağlıdır, yəni inanma, sübutetmə, dəqiqləşdirmə, dəyərləndirmə, qiymətləndirmə, psixi gücə münasibət, yaradıcılıq xəyallarının reallığa çevrilməsi və sair bu kimi hallar fəaliyyətə həvəsi artırır, təkan yaradır. "...bir çox şeyləri bilmirik: məsələn, ekstrasenslərin müəmmalı xüsusiyyətlərini,...telepatiya hadisəsinin izah edilə bilməməsi, telekinez (məsafə çərçivəsində fikirlərin ötürülməsi), gələcəyi görə bilmək və digər insan potensialının açılmamış sirləri hələ bizlər üçün maraq doğurur" (2, s.32). Bütün bu proseslər uzun tarixi dövrlər ərzində müəmmalı qalan, açılmayan, insan şüurunun dərketmə ilə bağlı tədqiqatını tələb edən məsələlər sırasındadır. "Bütün bunlar bir neçə illər məkanımızda dilə gətirilməyən problemlər olmuşdur. İnsanın özündə möcüzə gizlətmədiyi həmişə təlqin olmuşdur. Lakin əslində insan öz sirli daxili aləmi ilə maraq dairəsindədir. Əgər elə olmasaydı, insan əsərlərilə dünya sivilzasiyasına möhtəşəm sənət nümunələri bəxş etməzdi" (2, s.32).

Müasir dövr informasiya bolluğu ilə əhatə olunmuşdur. Belə bolluğun yaranmasında isə vacib amil gündən-günə yeniləşən, təkmilləşdirilən informasiya kommunikasiya texnologiyalarından aktiv istifadədir. Hazırda belə texniki vasitələrin sürətli istehsalında sanki ayrı-ayrı dünya ölkələri biri-biri ilə yarışırlar. Belə olan halda, ən müasir texnoloji fəaliyyətdə aktiv iştirak etmək kiçikdən böyüyə qədər hər kəsin qarşısında təxirəsalınmaz vəzifəyə çevrilmişdir. Lakin yadda saxlamalıyıq ki, həm informasiya kommunikasiya sistemlərinin gündən-günə təkmilləşdirən də, informasiyanı yaradan və ötürən də insandır. Beləliklə, bütün yaradıcı fəaliyyətlərin mənbəyində insan amili dayanır. Buna görə də insan zəkasından maksimum istifadə sürətli fəaliyyət, inkişaf, tərəqqi axınında vacib və daim dəyərləndirilməli prosesə çevrilmişdir.

İnformativlik tarixi varisliyin və sosial inkişafın, təcrübənin mütəmadi ötürülməsinə xidmət edir (2, s.32). "Məhz mədəniyyətin köməkliyi ilə sosial təcrübə bir nəsildən digərinə ötürülür" (2, s.32). İnformasiyanın məkan və zaman baxımından ötürülməsi imkanları həm də sosial işçi mədəniyyətinin zənginliyindən də asılıdır. Sosial işçilər əldə etdikləri məlumatları daha da dəqiqləşdirərək lazımi istiqamətlərə ötürürlər. Təbiidir ki, bütün bu prosesləri elmi-yaradıcı müstəvidə həyata keçirmək üçün sosial işçilər özlərini inkişaf etdirmək mexanizimlərindən bacarıqla istifadə etməlidirlər.

Kommunikativlik informativliklə qarşılıqlı əlaqədədir. İnsanlar özlərinin bütün fəaliyyət istiqamətlərini sözdən istifadə etməklə yerinə yetirirlər. Dilin özü sosial işçi mədəniyyətinin formalaşmasında vacib, mühüm vasitədir və məhz dildən istifadə edilərək ünsiyyət qurulur. Qeyd edək ki, hər bir sosial işçi özünəməxsus təfəkkür bacarıqlarından istifadə etməklə məntiqi fəaliyyətindən yararlanaraq nitqini təkmil şəklə salır. Sosial işçinin məntiqi fəallığının aktivliyi məhz onun formalaşdığı mühitin aktivliyi ilə ölçülür. Yəni aktiv sosial mühit fəal və aktiv mütəxəssis, sosial işçi yetişdirir. Sosial işçi mədəniyyətinin tərkibinə novatorluq da fəallıq gətirir. "Novatorlar bu sahəyə keyfiyyət dəyişikliyi gətirən, onu təkmilləşdirənlərdir" (3, s.153).

Sosial işçilərdə requlyativlik (və ya normativ) prosesində də normalara, qaydalara əməl edilməsi, eyni zamanda cəmiyyətin bütün insan qruplarına, həm də fərdlərə sistemli yanaşmaqın vacibdir. Qeyd edək ki, həmçinin sosial işçi mədəniyyətinin bu proseslərdə əhəmiyyəti böyükdür. İnsanların və qrupların davranış mədəniyyətlərinin formalaşdırılmasında, norma və prinsiplər çərçivəsində fəaliyyətlərinin nizamlanmasının qanunauyğun hal almasında sosial işçi mədəniyyətindən istifadədə əxlaq və hüquq kimi normativ sistemlərin tətbiqi əhəmiyyətini göstərir.

Sosial işçilər öz vəzifələrini yerinə yetirərkən qiymətləndirmədən də istifadə edirlər. Bu prosesdə öyrənmə, araşdırma, dəyərləndirmə, qiymətləndirmə əhəmiyyət kəsb edir. Bu məsələlərin həllində sosial işçilər ən müasir metodların tətbiqindən yararlanırlar.

Müasir dövrdə fəaliyyətin bütün istiqamətləri üzrə inteqrasiya prosesləri qaçılmazdır. Məhz sosial işçi mədəniyyətindən istifadənin inteqrasiya proseslərində əvəzsiz rolu vardır. Lakin bu proseslərdə milli adət-ənənələrin, mənəvi dəyərlərin tənəzzülünə qəti yol verilməməlidir.

Sosial işin səmərəli həyata keçirilməsində sosiallaşmanın (humanistləşmənin) dəyərləndirilməsində sosial işçi mədəniyyətinin xüsusi yeri və çəkisi vardır. Beləliklə, cəmiyyətin aparıcı tərkib hissəsi sayılan sosial işçilər öz bacarıq və təcrübələrini tətbiq edərək insanın fərdə məxsus bilik, norma və dəyərlərlə zənginləşdirilərək sosiallaşmalarının keyfiyyətlə yerinə yetirilməsinə nail olurlar. "İctimai inkişafda ideal vəziyyət kollektiv və şəxslər, fərdlər arasında mütənasibliyin mövcudluğu ilə izah olunur" (2, s.35).

Beləliklə, sosial işçi mədəniyyəti və peşəkarlığı ilə bütün fəaliyyət prosesində qarşılıqlı əlaqədə vəhdət halında bu və ya digər səviyyədə öz peşə mədəniyyətini göstərməli və aşağıdakı başlıca tələblər məzmununda mövcudluğunu əks etdirməlidir:

1. Sosial işçi güclü, zəngin daxili mədəniyyətə malik olmalı və belə mədəniyyət istiqamətli fəaliyyətin daha da məqsədyönlülüyü və keyfiyyətliliyinə təkan verməlidir. Daxili mədəni zənginlik artdıqca sosial işçinin özünün mənəvi təmizliyinin ətraf mühitdə göstərdiyi "mənəvi aura" nın səmərəliliyi də müvafiq olaraq mərhələli şəkildə artacaqdır.

2. Sosial işçi mədəniyyəti zənginləşdikcə onun daxili "mən"i səmərəli fəaliyyət mexanizminin təyinində çətinliklə qarşılaşmayacaq. Daxili "mən"lə zahir arasında qarşılıqlı əlaqə "xətti"ndə məntiqi "uyğunlaşma" kommunikativliyi sosial-mədəni xarakterə malik olacaq. Bu keçidin mütəmadiliyi, elmiliyi, işgüzarlıq xüsusiyyəti səviyyəsinin artımı daxili "mən"lə zahiri mikro və makromühitlər arasındakı kommunikativliyin aktivliyindən asılıdır. Bu proses də, öz növbəsində, zahiri mühitlərdə baş verən hadisələrlə, daha da doğrusu, həmin dəyişikliklərin elmi, bədii-yaradıcı, iqtisadi gücü və sairə ilə sıx bağlıdır. Fərdin- "mən"in əhatə olunduğu ailə, tərbiyə, təhsil, elmi, yaradıcı, kollektiv və sair mühitlərdə baş verən dəyişikliklər (müsbət və ya mənfi) müvafiq olaraq ona öz təsirini göstərir. Beləliklə, daxili "mən"lə zahiri mühitdə baş verən dəyişikliklər arasındakı əlaqəlilik ziddiyyətlilik müstəvisinə çevrilir. Bunun nəticəsində mühitin fərdi formalaşdırması qanunauyğunluğu yaranır ki, bu qanunauyğunluq müəyyən yaş dövrünə qədər mütləqilliyi özündə saxlayır.

3. Sosial işçi dərketməsinin onun daxili mədəniyyətinin inkişafı ilə düz mütənasibliyi qanunauyğunluğu ümumi fəaliyyətin nizamlanmasında öz təsirini göstərir ki, bu təsirin səmərəliliyinin qorunması mühit amillərindən də asılıdır. Lakin bu prosesdə idraki fəaliyyət, qərar qəbuletmə, seçim və mühit hadisələrini düzgün qimətləndirmə fərdin –sosial işçinin zehni fəaliyyətindən asılıdır. Bu prosesdə fərdin daxili bacarıq mədəniyyəti ilə zahiri mühit arasında yaranan ziddiyyətlər daxili və zahiri olmaqla iki yerə ayrılır. Bu ziddiyyətlikdə düz mütənasiblik və tərs mütənasibilik ola bilər. Yəni fərd- sosial işçi mühitdə baş verən hadisələrdən bəhrələnir, zənginləşir (əgər belə mühit hadisələri fərdin tələbatlarını ödəyirsə), mərhələlərlə formalaşır, inkişaf edir. Eyni zamanda əlavə fərdi fəaliyyət gücündən də istifadə etməklə həm sırf öz peşəkarlığını, həm də bu peşəkarlığını tətbiq etmə mədəniyyətini zənginləşdirir. Nəticədə, əldə etdiyi sosial işçi peşəkarlığı mədəniyyəti vasitəsilə, sonrakı mərhələlərdə öz fərdi zehni nəzəri və əməli bacarıqları sayəsində əhatə olunduğu mühitdə müsbət dəyişikliklər yaratmağa nail olur (təbii ki, hamı yox, yalnız bir qisim insanlar-sosial işçilər-sürətli və güclü zehni inkişafa malik olanlar-elit sosial işçilər). Beləliklə, ümumiyyətlə, sosial işçi ilə mühit arasında düz mütənasiblik öz müsbət nəticələrini sonrakı mərhələlərdə göstərir.

Qeyd edək ki, əks halda-sosial işçi fəaliyyəti mədəniyyəti ilə mühit hadisələri arasındakı uyğunsuzluq ziddiyyətliliyə səbəb olur, lakin belə ziddiyətlilik aradan qaldırılmasa, getdikcə dərinləşəcəkdir. Çalışılmalıdır ki, belə dərinləşmə baş verməsin və ziddiyyətlilik inkişafa yönəldilsin.

4. Məlumdur ki, müasir şəraitdə fəaliyyətlərin daha da inkişafı onların beynəlmiləlləşməsilə sıx əlaqədardır. Yəni inkişaf inteqrasiyasız mümkün deyildir. Lakin nəzərdə saxlanılmalıdır ki, inteqrasiya prosesi zamanı milli mənəvi dəyərlərə xələl gəlməsin. Milli inkişaf, tərəqqi inteqrasiyanın köməyi ilə öz inkişaf zənginliyin beynəlxalq inkişaf tərkibində işıqlandıra bilsin və dünyada baş verən sürətlənməyə müsbət dəyərini verə bilsin. Təbii ki, bu proseslərdə beynəlxalq aləmdə baş verən inkişafdan da bəhrələnmək mütləq xarakter alır.

Beləliklə, inkişaf insan fəaliyyətindən, fərdin bilik, bacarıq, vərdiş və səriştəsindən asılıdır. Əvvəlcə fərd zehni zənginliyə malik olur, sonra isə bu zənginliyin gücünə müvafiq ətraf mühitə - cəmiyyətə, dünyaya, sivilizasiya ötürərək, inkişaf etdirir, bu inkişafı sürətləndirərək tərəqqiyə aparır.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**

1. Hüseynov İ., Əmirxanov S. İctimaiyyətlə əlaqələr. Ali məktəblər üçün dərslik. Bakı, 2017, 480 səh.
2. Mədəniyyət tarixi və nəzəriyyəsi. Ali məktəblər üçün dərslik. M.Manafova, N.Əfəndiyeva və S.Şahhüseynovanın ümumi redaktəsilə. Bakı, Sabah nəşriyyatı, 2010, 876 səh.
3. Ədəbiyyatşünaslıq terminləri lüğəti. Bakı, Altun kitab, 2017, 224 səh.

*Abbasov Namiq Ələkbər oğlu,*
*kulturologiya üzrə fəlsəfə doktoru, dosent,*
*AMEA Memarlıq və İncəsənət İnstitutunun*
*Ümumi işlər üzrə direktor müavini,*
*E-mail: namiq_abbasov_70@mail.ru*

## SOSİAL-İQTİSADİ İNKİŞAFIN KULTUROLOJİ ASPEKTLƏRİ

### Giriş

Mədəniyyət yalnız ənənə ilə mövcud ola bilməz, o daima dəyişmiş tarixi şəraitdə sosiuma daxil olan yeni nəsillərin səyləri ilə dəstəklənir. Sosial-tarixi şəraitin bu xüsusiyyəti yeni nəslin nümayəndələrini keçmişin mədəni nailiyyətlərinin yaradıcı şəkildə yenidən işləmələrinə təhrik edir. Varislik və yenilikçilik cəmiyyətin mədəni həyatının əsaslarına daxildir. Cəmiyyətin mədəni həyatının əsaslarını isə mədəniyyətin informativ funksiyası vasitəsilə müasir insan təmin edə bilər.

Müasirliyi sivilizasiya ilə eyniləşdirsək görürük ki, sivilizasiya mədəniyyəti özünə tabe etdirməyə meyil edir. Nəticədə, mədəniyyətin dəyərləri unudulur, onun «ruhu» itirilir. Bu böhranın ən ümumi səbəblərindən biri kimi bəşər həyatının həddindən artıq texnikiləşdirilməsini, sivilizasiya "mədəniyyət-sivilizasiya" sistemində əvvəlki mərhələlərində gözlənilən optimumun pozulmasını göstərmək olar. Deməli, biz bu gün mədəniyyətin yuxarıda qeyd etdiyimiz üçlüyünün sintezinə, beləliklə də, şəxsiyyətin ahəngdar inkişafına xidmət etməliyik. Bu kimi sintez kortəbii baş verə bilməz. Axı insanı bu gün, əsasən, təhsil formalaşdırır. Deməli, məhz təhsil müvafiq şəkildə yenidən qurulmalıdır. Söhbət həm orta, həm də ali məktəb təhsilinin humanitarlaşdırılmasından gedir [2].

İnsanın daxili (mənəvi) dünyasına istiqamətlənmə mədəniyyətin əsas əlamətlərindən biridir. Sivilizasiya isə əksinə, həmişə insanı əhatə edən xarici aləmə istiqamətlənmişdir. Sivilizasiyanı ambisiyalı şəxsiyyətin onu əhatə edən tamı (təbiəti, cəmiyyəti, yer üzünü) öz privat (xüsusi, şəxsi) maraqlarına tabe etməyə yönəlmiş eqosentrik fəaliyyəti yaradır. Təbiətə münasibətdə bu, özünü tarixən təbiətin tam miqyaslı fəth edilməsini qarşıya qoymuş maarifçilik proqramının irəli sürülməsində, cəmiyyətə (bütövlükdə sosial gerçəkliyə) münasibətdə isə müstəmləkəçilik sisteminin meydana çıxmasında göstərdi. Beləliklə, əgər mədəniyyət insanda mənəvi başlanğıcın inkişaf göstəricisidirsə, sivilizasiya privat maraqların mərkəzləşmiş ifadəsi kimi insan subyektivliyinin - «eqo»nun inkişaf göstəricisidir. Mədəniyyətlə müasirliyin (sivilizasiya) ara-

sında qarşıdurmanın xarakteri və nəticəsi metafizik və praktik dünyaduyumlarının, digər tərəfdən isə dinamizm və ənənəçiliyin nisbəti ilə şərtlənir. Bu, həqiqətən də qlobal bir problemdir. Qlobal problemlər arasında bu, ən mühüm problemlərdən biridir, çünki mədəni dəyərlərin unudulması şəxsiyyətin deqradasiyasına gətirib çıxarır.

Ümumiyyətlə, özündə ənənə və müasirliyi birləşdirən mədəniyyət anlayışı klassik tərifinə görə: bəşəriyyətin tarix boyu əldə etdiyi maddi və mənəvi dəyərlərin məcmusu kimi gələcək nəsillərə yaradıcı şəkildə ötürülməsi prosesi kimi təsvir edilir. Bu prosesdən kənara çıxmalar strateji baxımdan uğursuzluqlara gətirə bilər. Kulturologiya tarixində sınaqdan keçirilmiş uyğun nümunələr tapmaq olar. Əgər müasir cəmiyyət sirf bilik iqtisadiyyatı üzərində qurulmuşdursa, onda təbii ki, mənəvi məsələlərdə geriləmə olacaq. Hansı ki, bu problem vaxtilə Avropada tüğyan etdiyi vaxt Ostvald Şpinqler "Avropanın süqutu" Patrik Byukenenin "Qərbin ölümü" əsərlərini yazdılar. Birtərəfli iqtisadi inkişaf belə cəmiyyətlərdə tənhalaşma, aqresiya, nihilizm, ruhsuzluq, şəxsiyyətin özgələşməsi, rəhmsizliyin güclənməsi, insana qeyri-insani münasibət kimi mənfi fəsadlara gətirib çıxarır. Ona görə də mədəni insan formulasının cəmiyyət üzvləri arasında tətbiqi məsələləri əsas prioritet olmalıdır. Bu mühüm vəzifə kulturologiyanın predmeti sayıldığı üçün daha çox onun üzərinə düşür. Ona görə də bu sahədə kulturoloji tədqiqatlara ehtiyac duyulur. Digər tərəfdən ənənəçilik də oxşar fəsadlara gətirib çıxara bilər. Cəmiyyəti mental ənənəçi buxovlarda saxlamaq daha böyük itkilərə səbəb olur.

Bu gün inkişafda olan ölkələr azad və suveren dövlət quraraq mədəni-iqtisadi islahatlar aparmaqla öz milli-əxlaqi dəyərlərinə, tarixinə söykənərək, daha demokratik ölkələrin təcrübələrindən istifadə etməlidirlər.

Demokratik mədəniyyət siyasəti xətti tutan və müasir dünya mədəniyyətinə inteqrasiya olunan ölkələr və xalqlar milli mədəniyyətində böyük bir dəyişiklik etmədən, yəni mühafizə edilməsi zəruri olan milli identikliliyi təşkil edən xarakterik keyfiyyətlərini budamadan, milli-mənəvi dəyərlərinə xələl gətirmədən, təcrübəyə və elmin mütərəqqi nailiyyətlərinə söykənərək, forma dəyişikliklərini şüurlu surətdə aparmaq məcburiyyətində olduqlarını dərk etməlidirlər.

İnsan idrakının subyekt kimi deyil, obyekt kimi tədqiqi həmişə olduğu kimi bu gün - yəni müasir sosio-mədəni dinamikada – daha vacib və aktualdır. Əks halda robotlaşma, ruhsuzlaşma, milli kimliyin itirilməsi, mənəviyyatsızlaşma və s. bəşəriyyət üçün əsl faciəyə çevriləcəkdir. Professor F. İsmayılov yazır: "İqtisadiyyatdakı və həyatdakı hiss olunan tərəqqi insanı qətiyyən xoşbəxt etməmişdir. Məlum olan cəhət budur ki, insan haqqındakı elmlərin inkişafınıləngidən amillər insanın dərkinə yönələn təfəkkür enerjisindən daha güclüdür. Ona görə də insan özündən daha çox obyektləri, təbiəti dərk etmişdir. Belə bir kəlam da var İnsan məhv olursa, hər cür tərəqqi irticadır. İnsanın maddi tələblərinin ödənilməsindən daha çox, onun mənəvi tələblərinin ödənilməsinə diqqət yetirilməlidir" [8, s.157]. Hörmətli professorun fikirlərinin davamı kimi burada əsasən kütləvi mədəniyyətin geniş yayılmasını göstərmək olar. Kütləvi mədəniyyət artıq mədəni imperializmə çevrilməkdədir. Son dövrlərin elmi-texniki bilikləri və kütlə mədəniyyəti ancaq fayda, maddi marağa əsaslanır. Cəmiyyətdə özünü məhvetmə tendensiyası özünüyaşatma instinktinə qalib gəlmək üzrədir. Bunu hamı hiss edir və buna görə də narahatlıq və təlaş hər birimizin nəsibinə çevrilmişdir. Lakin kulturologiya və insan haqqındakı elmlər sahəsindəki mütəxəssislər, hətta təbiətşünaslar

müasir insanın acı taleyindən narahat olduqlarını biruzə verirlər. Bu da təsadüfi deyildir, çünki müasir insan əslində müasirliyin insanıdır, lakin onun haqqındakı təsəvvür isə keçmişin məhsulundan başqa bir şey deyildir. Müasirlik təkcə texnika və iqtisadiyyat göstəriciləri ilə müəyyən edilə bilməz. Müasir insanın formalaşmasında bəşəriyyətin tarix boyunca əldə etdiyi mənəvi təkamül yolu müasir informasiya cəmiyyətindən daha çox rol oynamışdır [8]. Orta əsr Şərq mənbələri bütövlükdə insan amilindən kənarda deyil. Kamil insan konsepsiyası böyük fikir axınlarına səbəb olmuşdur. Hürufizm, sufizm, irfan, təsəvvüf ideyaları insanlıq üçün qiymətli bir xəzinə kimi daima öz dəyərini saxlamaqdadır.

Məşhur psixoloq K.Q. Yunq "Müasir insanın ruhi problemləri" məqaləsində yazırdı ki, müasir insan "tamamilə yeni fenomendir" o, nə isə "orta insan" deyil, dünyanın zirvəsində və ya onun kənarında dayanan adamdır. Bu insanın mühüm əlaməti – şüurludur, bu isə o deməkdir ki, keçmişdəki bütün nəsillərə nisbətən müasir insan bişüurdan daha çox azad olub şüurun təsiri altında fəaliyyət göstərən insandır; o, şüurun sahibidir. Lakin şüura sahiblik, şüurluluq onu xoşbəxt etməmişdir. Qeyri-şüuridən uzaqlaşmaqla müasir insan tarixdən, ənənələrdən və təbiətdən uzaqlaşmışdır ki, bu da onun faciəsinin kökündə dayanan amillərdən biridir. Tarixin paradoksudur ki, insanı əsasən bişüur, instinktlər idarə etdiyi halda, rasional əsr onları yaxına buraxmır, bu da əvəzsiz qalmır. İnsanlarda bir birinə qarşı antipatiya hissləri baş alıb gedir, aqressivlik, kütləvi terrora maraq artır. Insanlar arasında qarşılıqlı məhəbbət qarşılıqlı nifrətlə əvəz olunur. İnsana nifrət psixologiyası o qədər dərinləşmişdir ki, bu da insanın insandan qaçmasına – asketizmə həddən artıq meylin artmasına səbəb olmuşdur [8].

Müasir insan dəyişkəndir, çevikdir, dinamikdir. Xarakteri yeni xüsusiyyətlərlə zəngindir. Şəxsiyyəti də zəmanəyə və dövrə uyğun olaraq mürəkkəb psixoloji çalarlara malikdir. Çünki hər dövr özünün insan tipini yaradır və onun şəxsiyyətini formalaşdırır. Bu cəhətdən müasir insanın xarakteri daha çox diqqəti çəkir. Müasir insanı hansı xüsusiyyətlər səciyyələndirir? Kimdir müasir insan? Ədəbi publisistik müşahidələrin qənaətləri necədir? O, müstəqil, zirək, ağıllı, özünə güvənən bir insandır. O, yeni münasibətlər formalaşdıran çox mürəkkəb iqtisadi-siyasi-psixoloji mühitdə ideoloji ehkam və miflərdən azad olur, yeni qanunlarla yaşamağa başlayır, xəyalpərəstlik və romantiklikdən uzaqlaşır. Əsrin sınağından çıxan dəyərləri özündə təcəssüm etdirir. [1].

E. From yazırdı ki, müasir insan – yeni fenomendir. Bu fenomenin xarakterik əlaməti ondadır ki o, öz təfəkkürünü ancaq obyektə doğru yönəltmiş və bununla da obyekt üzərində ağalığını dərk etməklə, "özü özünü itirmişdir. Qəribəlik də buradadır ki, göyün-yerin sirrini açmağa qabil olan insan "insan nədir" sualı qarşısında aciz qalmışdır [8].

Əbu Turxan haqlı olaraq: Müasir insan elmin qanadlarında elə uzaqlara uçmuşdur ki, özündən ayrı düşmüşdür – söyləyirdi.

Beləliklə, sadalanan fikirlərə əsasən demək olar ki, maddi zənginlik və rifahda ən irəli nöqtəyə gələn cəmiyyətlər, böyük bir mənəvi aclıq, mənəvi tənəzzül içində olmaqdadır. Çünki maddi zövq insanı bir nöqtəyə qədər xoşbəxt edir. "Mən kiməm?", "Həyatımın məqsədi nədir?" kimi təməl suallar insanın qarşısına hər yerdə çıxmaqdadır. Bu suala təminedici bir cavab verə bilmədiyimizdə həyatımızın mənası ortadan qalxır. İstiqaməti, mənəvi həzzi, nəşəsi, həyəcanı olmayan bir həyat yaşamağa başlayırıq. Ona görə də diqqət mənəvi mədəniyyətə yönəldilməli və bu sahələr üzrə ixti-

saslara diqqət və qayğı artırılmalıdır.

Mədəniyyət nəzəriyyəçilərindən Lesli Alvin Uayt və Avraham Maslounun kulturoloji yanaşmaları maraq doğurur. Lesli Alvin Uayt mədəniyyəti bütöv, mütəşəkkil və inteqrativ sistem kimi nəzərdən keçirərək, bir-birinə qeyri-bərabər təsir gücü ilə əlaqədar olan üç altsistemə ayırır: texnoloji, sosioloji və ideoloji. Texnoloji (ilkin, əsas, baza) insanın ətraf aləmə uyğunlaşması ilə şərtlənir. Bura əmək alətləri, yaşayış vasitələri, tikililəri üçün materiallar, mühafizə və hücum vasitələri və s. daxildir. İdeoloji – ideya, bilik və etiqadlar daxildir. Sosial – kollektiv davranış tipləri daxildir [2].

Uayta görə, həyati tələbatların ödənilməsindən ibarət olan mədəniyyət funksiyası – texnoloji yolla kifayət qədər enerji əldə edib, insanın maraqlarına uyğun istifadə etməkdir. Bununla yanaşı, L.A. Uayat mədəni insan formulasını təklif edir: Bilik, bacarıq, mütəşəkkillik, mənəviyyat və yaradıcı fəaliyyət. Nəticə olaraq müasir insanın mədəni insan formulası çərçivəsində mümkünlüyü ideyası məqbul sayılır. "Mədəniyyət və insan" haqda humanist konsepsiyanın müəllifi Avraham Maslou mədəniyyəti insan tələbatı prizmasından təhlil edir. Lesli Uaytın əsas ideyalarını tamamlayıb inkişaf etdirən Avraham Maslou mədəniyyətin kamillik meyarı kimi, onun insan tələbatını ödəməsi və insan potensialının təsdiqi üçün əlverişli şərait yaratması qabiliyyətini müəyyən edir. Maslou öz konsepsiyasını mədəniyyətin müxtəlif sosial institutlarını anlamaq üçün açar olan universal həyat fəlsəfəsi kimi təqdim etmişdir. Alim, tələbatın beş səviyyəsini nəzərdə tutur:

1. Fizioloji tələblər;
2. Sülh, təhlükəsizlik və özünümühafizəyə olan tələbat;
3. Məhəbbət və birliyə olan tələbat;
4. Özünütəsdiq və etirafa olan tələbat;
5. Özünüaktuallaşdırmaq və yaradıcılıq vasitəsi ilə təkmilləşdirmə tələbatı.

Maslounun işlədiyi "ideal cəmiyyət" modeli insan şüurunun və sosial mədəniyyət institutlarının humanistcəsinə dəyişdirilməsi ilə insanların özünütəsdiqi, təhlükəsizliyi, qabiliyyətlərin maksimal inkişafı və uyğunluğu prinsipləri üzərində qurulmuşdur [2]. Hər iki alimin nəzəri mülahizələri ilkin ehtiyacların təmin edilməsi ilə başlayır, mənəvi təkmilləşmə ilə yekunlaşır. Beləliklə, müasir insan maddi və mənəvi öhdəliklərini təmin edən insandır. Kulturologiyanın əsas funksiyalarından olan aksioloji (aksios – yunanca dəyər deməkdir) funksiya adından göründüyü kimi dəyər mahiyyətini daşıyır. Cəmiyyətin bağları hesab edilən dəyərlər kompleksini bu baxımdan yaddan çıxarmamaq lazımdır. İnsan üçün əsas atributlardan sayılan dəyərlər kateqoriyası müasirliyə qurban verilə bilməz. Milli və ümumbəşəri dəyərlər – mədəni universalilər nəzərə alınmadan həqiqi inkişafdan bəhs etməyə dəyməz. Bu baxımdan cəmiyyəti təşkil edən və ayaqda saxlayan dəyərlər toplusunun tərkibinə daxil olan digər komponentlər: əxlaq, ədəb, vicdan, ədalət, ləyaqət, mərhəmət kimi keyfiyyətlərin müasir sosiomədəni dinamik məkanda işləkliliyi, arzuolunma səviyyəsi və tətbiqi məsələləri, eyni zamanda sosiomədəni dinamika ilə uzlaşması məsələləri araşdırılmalıdır. Ümumilikdə nəzəri fikirlərin yekunu kimi mədəni insan formulası üzərində dayanmaq olar. Bilik, bacarıq, mütəşəkkillik və yaradıcı fəaliyyət kimi keyfiyyətlər mədəni insanı formalaşdırdığı kimi, müasir insana da şamil edilə bilər. Müasir insan həm də mədəni insandır.

**Nəticə**

Beləliklə, məhz mədəni və müasir insan - insan kapitalını formalaşdıra bilər. Modernləşən ölkələrin, Azərbaycan daxil olmaqla mərkəzi problemi insan kapitalının formalaşması prosesini sürətləndirməkdir.

Bu gün insan kapitalını formalaşdırmaq, mədəniyyətin insan inkişafı amili kimi dərk edilməsini gücləndirmək çağırışları mədəniyyətdə müasir insan problemi üzərində düşünməyi zəruri edir. Müasir sosio-mədəni dinamikada müasir insan, mədəni insan, insan kapitalı kimi anlayışlara elmi-nəzəri aydınlıq gətirilir. İnsan maddi və mənəvininin məcmusu kimi özündə statik (millilik) olanla dinamik (müasirlik) olanı birləşdirən mürəkkəb orqanizm olmaqla cəmiyyət təşkil edən sosio-mədəni sistemlərin əsas elementdir. Akademik R. Mehdiyev yazır: "İnsanın bir fərd olaraq mənəvi intellektual inkişafı ilə ictimai tərəqqi arasında ciddi qarşılıqlı əlaqə məqamları vardır. Belə ki, ayrı-ayrı insanların ümumi inkişaf səviyyəsi aşağı olduqda cəmiyyətin təkmilləşməsi çox çətin olur. Digər tərəfdən, ictimai təşkilatlanmanın səviyyəsi, dövlət idarəçiliyinin optimallığı da öz növbəsində fərdlərin öz şəxsi həyatlarını düzgün qurmaları və mənəvi intellektual inkişafının təmin olunması üçün mühüm şərtdir" [7, s. 3]. Digər yazısında hörmətli akademik: "Modernləşmə yollarında dövlətin qarşısında üç vəzifə durur. Müasir cəmiyyət, müasir infrastruktur, müasir insanın yaradılması" fikirlərini irəli sürür. Belə fikirləri Avestada da tapmaq mümkündür: Dünya nizamı – sosial nizam – fərdin həyatının tənzimlənməsi (Yasna 42) [5, s. 13-14].

Cəmiyyətin insana təsiri nə qədər güclüdürsə, insanın da cəmiyyətin formalaşmasındakı rolu o qədər təsirlidir. Cəmiyyətin simasının əsas göstəricisi olan şəxsiyyətdən, onun kamilliyindən, həyat səviyyəsindən və məramından çox şey asılıdır. Fərdin həyat səviyyəsi və həqiqətə sədaqət mayası cəmiyyətin simasını müəyyənləşdirir. Ayrıca insanın mənəvi həyatının nizamsız olması dünya nizamına və sosial nizama mənfi təsir göstərə bilər, çünki tamın (bütövün) hissələri əbədi qarşılıqlı əlaqədə və qarşılıqlı təsirdədir. Bu elementlərin birini nizamlı inkişafının pozulması tamın balanslı inkişafını poza bilər" [3].

Modernləşmə ilə (dinamika) toplumsal dil də dəyişir. İqtisadi mexanizmin vintinə çevrilmiş insan artıq nəvaziş və mərhəmətə yönəli ortaq dil olan ədəb kimi dəyəri önəmsəmir. Bu da toplumun zəifləməsi və ünsiyyətin korlanmasına gətirib çıxarır.

Bu gün müasir insan sosio-mədəni sistemlərin inkişaf dinamikasında ənənə və dinamizm qarşıdurmasındadır. "Dünyanın gələcək taleyi məhz müasirliklə xalqların milli-mədəni identikliyi, universal məqsəd kimi inkişafla mədəni dəyərlər seçimi arasında körpü salmaq bacarığından asılı olacaqdır" [4, s. 82].

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**


1. Abbasov N.Ə. Mədəni insan. ADMİU-nun mətbəəsi. Bakı, 2020. 208 səh.
2. Abbasov N.Ə. Kərimli V.Q. Kulturologiya . Dərslik. Elmi dərəcə alanlar üçün. Bakı, "Bilgi", 2021, 280 səh.
3. Aristotel. "Siyasət. Böyük etika". Bakı XXI Yeni Nəşrlər Evi. 2006, 432 səh.
4. Aslanov E. Modernləşmə nəzəriyyəsinə postmodern paradiqmadan baxış. AMEA insan haqları institutu. Məqalələr toplusu. Bakı, "Elm və təhsil" nəşriyyatı, 2013

5. Əzimova R. “İnsanlıq XXI əsrin elmidir” (sintezin məna təşkil edən konstantalarının axtarışında), bakı, “Təknur” – 2012, 156 səh.
6. Hannah Arendt. Men in Dark Times. New York: Harcourt Brace Jovanovich, 1972
7. Xəlilov S.S. mənəviyyat fəlsəfəsi. Bakı, “Azərbaycan Universiteti” nəşriyyatı, 2007 – 520 səh.
8. İsmayılov F.Q. Klassik psixoanalizin əsasları. “Azərbaycan Milli Elmlər Akademiyası” NPB, Bakı 2003, 348 səh.
9. Sosial kulturologiya. Ali məktəblər üçün dərslik. M.C.Manafovanın redaktəsi ilə. Bakı – 2010, 260 səh.
10. Məmmədov F.T. kulturologiya və insan inkişafı. Bakı, “OL” NPTK, 2019 – 344 səh.
11. Tarix fəlsəfəsi: retpospektiv və perspektiv. Bakı, “Azərbaycan” nəşriyyatı, 2018. 704 səh.
12. https://dergipark.org.tr/tr/download/article-file/157385
13. https://www.google.com/search? Dücane Gündioğlu

*Hüseynov İlqar Həsrət oğlu,*
*kulturologiya elmləri doktoru, professor,*
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti*

## AZƏRBAYCANIN DİNAMİK İNKİŞAFINDA HƏRBİ VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNİN YERİ

Müasir sosial-mədəni vəziyyət, təhsilin hüquqi və tənzimləyici sahəsinin dinamikası, innovativ təhsil sistemlərində hərbi-vətənpərvərlik tərbiyəsi probleminin həlli üçün fəal elmi axtarışlar hərbi-vətənpərvərlik tərbiyəsi prinsiplərinin öyrənilməsinin aktuallığını müəyyən etmişdir. Hərbi-vətənpərvərlik tərbiyəsinin əsas xüsusiyyətlərini müəyyən etmək üçün ümumi terminə - vətənpərvərlik tərbiyəsinə müraciət etmək lazımdır. Vətənpərvərlik tərbiyəsinə humanitar yanaşması pedaqoji fəaliyyətin təşkilati və məzmun xüsusiyyətlərini müəyyən edir. Təşkilati aspektdə pedaqoji prosesin bütün subyektlərinin vətənpərvərlik tərbiyəsi innovativ fəaliyyətinin strateji məqsədi kimi çıxış edir. “Vətənpərvərlik tərbiyəsi ilkin olaraq ailədən, məktəbəqədər tədris müəssisələrindən başlanır, məktəbdə isə fomalaşıb, inkişaf edir” (1, səh.6).

Hərbi-vətənpərvərlik tərbiyəsinin spesifikliyi, effektivliyi və səmərəliliyi əsasən təşkilati aspektlə müəyyən edilir. Hərbi- vətənpərvərlik tərbiyəsi həmişə vahid ideoloji prinsip kimi başa düşülüb. Hərbi-vətənpərvərlik tərbiyəsi anlayışı Vətənə, öz mədəniyyətinə, doğma torpağa, öz ölkəsinə məhəbbət tərbiyə etmək məqsədi daşıyır. Vətənpərvərlik hər zaman mühüm əhəmiyyət kəsb edən fundamental anlayışdır. Cəmiyyətin inkişafının təməlində məhz vətənpərvərlik faktoru dayanır.

Vətənpərvər nəsil yetişdirmək üçün, ilk növbədə, uşaqlara nümunə olmaq lazımdır. Gənc nəsil vətənpərvər tədbirlərə cəlb edilməlidir. Mühüm bir faktoru da unutmaq olmaz ki, vətənpərvərlik tərbiyəsi ailədən başlamalıdır. Bu istiqamətdə ciddi işlər görmək lazımdır, o cümlədən maraqlı uşaq tədbirləri, konsertləri keçirilməli,

uşaqlara vətənpərvərlik ruhu aşılanmalıdır.

Hərbi-vətənpərvərlik tərbiyəsi dövlət orqanlarının, ictimai birliklərin və təşkilatların gənclərdə yüksək vətənpərvərlik şüurunun, Vətənə ülvi sədaqət hissinin, vətəndaşlıq borcunu yerinə yetirməyə hazırlığın və ən yüksək sədaqət hissinin inkişafı üçün çoxşaxəli, sistemli, məqsədyönlü və əlaqələndirilmiş fəaliyyətidir. “Vətənpərvərlik insanda fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlık hissi yaradır, apardığı mübarizədə onda inam hissini gücləndirir” (5, səh.6).

Hərbi-vətənpərvərlik tərbiyəsinin məqsədi gənclərdə ən mühüm mənəvi-əxlaqi və sosial dəyərlər kimi vətəndaşlıq və vətənpərvərlik hisslərinin inkişaf etdirilməsi, onlarda peşə əhəmiyyətli keyfiyyətlərin, bacarıqların və onların cəmiyyətin müxtəlif sahələrində fəal təzahür etməyə hazırlığın formalaşdırılması, xüsusilə hərbi və onunla bağlı digər prosesdə dövlət qulluğunun növləri, sülh və müharibə dövründə konstitusiya və hərbi vəzifəyə sədaqət, yüksək məsuliyyət və nizam-intizam yaratmaqdır. Ölkəmizdə aparılan “hərbi-vətənpərvərlik tərbiyəsinin əsas məqsədi müstəqil Azərbaycanın hər bir vətəndaşının, o cümlədən məktəblilərin vətəndaşlıq borcunu dərk etməsindən onlara istənilən vaxt vətənimizin, xalqımızın müdafiəsinə hazır olmaq səylərini aşılamaqdan ibarətdir” (6, səh. 102).

Hərbi-vətənpərvərlik tərbiyəsinin məzmununda bu amilləri nəzərə alaraq bir-biri ilə sıx bağlı olan iki əsas komponenti ayırd etmək olar. Bunlardan birincisi daha geniş sosial-pedaqoji oriyentasiya ilə səciyyələnir, əsas sosial, tarixi, əxlaqi, siyasi, hərbi və digər problemlərə dair müsbət dünyagörüşü və mövqelər, ən mühüm mənəvi-əxlaqi və fəaliyyət keyfiyyətləri kimi elementlərə əsaslanır. Hərbi-vətənpərvərlik tərbiyəsinin digər komponenti daha böyük spesifik və fəaliyyətyönümlü oriyentasiya ilə səciyyələnir. Bu məzmunun praktiki həyata keçirilməsi hər bir gəncin Vətənə xidmətdə öz rolunu və yerini dərindən dərk etməsini təmin etmək üçün nəzərdə tutulmuşdur.

Müəllimlərin, valideynlərin, cəmiyyətin zəhmətkeşliyi Vətənin taleyində iştirakını sona qədər dərk edən ideal şəxsiyyətin formalaşmasına səbəb olmalıdır. Hərbi vətənpərvərlik tərbiyəsi yüksək əxlaqi dəyərlərin inkişafını nəzərdə tutur. Orduda vətənpərvərlik hissinin yüksək olması vacibdir. Güclü ordunun güclü ideoloji bazası olmalıdır. Ordunun əsasını təkcə müasir silahlar deyil, həm də güclü ruh və əyilməz şücaət və hüdudsuz vətənpərvərlik təşkil edir. Bunlar real şəkildə həyata keçirilməli olan dəyərlərdir. Məhz buna görə də Azərbaycan silahlı qüvvələri ordunun və orduya getmək niyyətində olan gənclərin vətənpərvərlik tərbiyəsi üçün əlindən gələni edir. Hər il bu məqsədlə gənc nəsil üçün vətənpərvərlik mövzusunda tədbirlər, toplantılar, oyunlar, maarifləndirici tədbirlər, layihə və proqramlar həyata keçirilir. Vətənpərvərlik vətənə konkret bağlılıqda ifadə olunur. Vətənpərvərlik tərbiyəsinin məqsədləri, məzmunu və metodları ilə bağlı əlavə müzakirələrin aparılması zəruridir. “Vətənpərvərlik emosiya və hisslərlə bağlı olduğundan bu hisslərin tərbiyəsi hər bir dövlət və cəmiyyət üçün vacib məsələyə çevrilir” (2, səh.15).

Respublikamızın iqtisadi dirçəlişi hər bir insanın vətəndaş inkişafı olmadan baş verə bilməz. Vətəndaş-vətənpərvərlik tərbiyəsi sadəcə qanuna tabe olan vətəndaşı deyil, vətəndaşlıq borcunu şüurlu və fəal şəkildə yerinə yetirən insanı formalaşdırır. Bu, Azərbaycan Respublikasının Dövlət bayrağına və gerbinə, qəhrəmanlıq və tarixi keçmişinə, xalqının mədəniyyətinə, ana dilinə məhəbbətə, doğma təbiətin gözəlliyinə hörmət aşılamaqdan ibarətdir. Vətənpərvərlik və vətəndaşlıq insanın sosial və mənəvi in-

kişafında böyük əhəmiyyət kəsb edir. Onun dünyagörüşünün, doğma ölkəsinə, başqa xalqlara münasibətinin tərkib elementləri kimi çıxış edirlər. Müasir dövrdə dinamik formada dəyişən dünyanın əsas fiquru sistemli qlobal təfəkkürə, elmi dünyagörüşünün əsaslarına malik, milli mənsubiyyətə malik şəxsiyyətdir.

Əsl vətənpərvərlik təbiətcə humanistdir, bu fenomen başqa xalqlara və ölkələrə, onların milli adət və ənənələrinə, muxtariyyət və müstəqilliyinə hörməti özündə ehtiva edir və millətlərarası münasibətlərlə qırılmaz şəkildə bağlıdır. Bu münasibətlər formalaşarsa, fərdin mənəvi inkişafında böyük əhəmiyyət kəsb edir və müxtəlif xalqlar və ölkələr arasında mehribanlıq, dostluq əlaqələrinin qorunub saxlanmasına, hər bir insanın şüurunda ümumbəşəri dəyərlərin böyük əhəmiyyətinin dərk edilməsinə töhfə verir. "Vərənpərvərlik anlayışı millətçi zəmində etniklər arasında qarşıdurma yaradan anlayış yox, xalqın, dövlətin milli maraqlarının müdafiəsi yönündə birləşməsini təmin edən sistemdir" (4, səh.15.).

Vətənpərvərlik tərbiyəsi və millətlərarası ünsiyyət mədəniyyətinin formalaşdırılması tələbələrin Vətənin rifahı naminə fəal yaradıcılıq fəaliyyətinə cəlb edilməsi, vətənin tarixinə, mədəni irsinə, adət və ənənələrinə qayğıkeş münasibətin aşılanması prosesində həyata keçirilir. Vətənpərvərlik və beynəlmiləlçilik tərbiyəsində humanitar və təbiət elmləri böyük rol oynayır. İlk növbədə, bunlar təlim prosesində və tədris prosesinin məzmununun seçimində əldə olunan nailiyyətlərdir. Doğma torpağın təbiətini, onun tarixi keçmişini öyrənmək Vətənə məhəbbət hissini gücləndirir və inkişaf etdirir.

Vətənpərvərlik və vətəndaşlıq "ümumbəşəri dəyərlər" anlayışı ilə sıx bağlıdır. Ümumiyyətlə, vətənpərvərlik xalqına, qonşusuna, özünə, tarixi keçmişinə, dilinə, mədəniyyətinə məhəbbət və hörmət kimi müəyyən edilə bilər. Gənclərin vətənpərvərlik tərbiyəsinin sosial prinsipləri könüllülük, təşəbbüskarlıq və yaradıcılıq əsasında qurulur. Gənclərin vətənpərvərlik tərbiyəsində həm dövlət, həm də ictimai prinsiplərin mövcud olması və bir-biri ilə qarşılıqlı əlaqədə olması prinsipial əhəmiyyət kəsb edir. Gənclərin vətənpərvərlik tərbiyəsinin, demək olar ki, bütün kompleksi üçün son tərbiyə məqsədinə nail olmaq yalnız tarixi nümunə göstərmək, tarixi analogiya çəkmək, tarixi təcrübəni öyrənmək və təhlil etməklə mümkün olur. Bu tarixi amillər mühüm xüsusiyyət kimi gənclərin vətənpərvərlik tərbiyəsi prinsipinə çevirir.

Bu gün hər birimiz əsl vətənpərvər olmalı, gənclərimizi bu ruhda tərbiyə etməliyik. Hərbi vətənpərvərlik ruhunda gənclərin yetişdirilməsi sahəsində işlərin genişləndirilməsi müasir dövrdə olduqca aktualdır. Bundan başqa, gənclərin vətəndaşlıq statusunun gücləndirilməsi məqsədi ilə media məkanında hərbi-vətənpərvərlik mərasimlərinin intensivləşdirilməsi məsələsi olduqca zəruridir.

44 günlük Vətən müharibəsi əyani şəkildə göstərdi ki, ölkəmizdə hərbi vətənpərlik tərbiyəsinin düzgün aparılmışdır. "Xalqımızın işğal altında olan torpaqlarımızı düşmən tapdağından azad etmək uğrunda 27 sentyabr tarixində başlatdığı İkinci Qarabağ – Vətən Müharibəsi 10 noyabr tarixində Azərbaycanın qələbəsi, düşmənin kapitulyasiyası ilə sona çatdı" (3, səh.47).

Vətən Müharibəsi veteranları, müharibə əlilləri, arxa cəbhə fəalları, gənclərimiz ümumiyyətlə, bütün xalqımız Zəfər gününü layiqincə qeyd edirlər. Zəfər bayramının xüsusi əhəmiyyəti var. 8 noyabr Azərbaycan Respublikasının tarixi bayramı adlandırmağa layiqdir. Azərbaycan ordusu öz keyfiyyətinə görə dünyada vahid müdafiə vəziyyətini təmin edən və strateji məqsədlər daşıyan ən nümunəvi müasir ordu hesab

edilir. Ona görə də xalqımız öz müdafiə qüvvələri, Vətəni müdafiə edən əsgərləri ilə fəxr edir. "44 günlük müharibə Azərbaycan xalqının nə qədər vətənpərvər, böyük xalq olduğunu, milli birliyini, həmrəyliyini bütün dünyaya sübut etdi" (7, səh.12).

Zəfər günü bütün xalqımız üçün əlamətdar bir gündür. Xalqımızın sülh naminə apardığı haqq mübarizəsində əsgərlərimiz şəhid oldu, hərbiçilərimizin fədakarlığı nəticəsində erməni faşizmi darmadağın edildi. Bu il böyük qələbəmizin dördüncü ildönümü tamam olur. Vətən müharibəsi iştirakçılarına, veteranlarına, əlillərə dövlət tərəfindən xüsusi qayğı göstərilir. Yerli hakimiyyət orqanları da ildən-ilə onlara daha çox qayğı göstərirlər. Bu istiqamətdə məqsədyönlü işlər davam etdiriləcək.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**


1. Əliyev F. Müasir mərhələdə vətənpərvərlk tərbiyəsi: metodik vəsait. Bakı, ADPU nəşriyyatı, 2012, 156 s.
2. Gənclərin hərbi vətənpərvərlik tərbiyəsi. Olaylar.- 2015.- 11 mart.- S.15.
3. Milli qürur, qələbə və zəfər bayramı. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad. Respublika Uşaq Kitabxanası. Bakı, 2021.- 53 s.
4. Vətənpərvərlik nədir? Olaylar.- 2015.- 27 may.- S.15.
5. "Vətənpərvərlik tərbiyəsi ümummilli xilas yolumuzdur" vətənpərvərlik mövzusunda hazırlanmış metodik vəsait / red. və bur. məs. Ş.Qəmbərova; tərt. ed. R. Məmmədli, S. Əhmədova. F.Köçərli adına Respublika Uşaq Kitabxanası. Bakı. – 2016. – 60 s.
6. Yusifov A. Məktəblərdə hərbi-vətənpərvərlik tərbiyəsinə dair. Azərbaycan məktəbi, Bakı, 2014/2, səh.101-103.
7. 8 Noyabr - Zəfər Günü: metodik vəsait / tərt. ed. A.Məmmədova; ixtisas red. K.M.Tahirov; red. L.Əhmədova.- Bakı, 2021.- 55 s.



*Məmmədov Namiq Zahid oğlu, dosent,*
*"Akademik rəngkarlıq və kompozisiya" kafedrasının müdiri,*
*Azərbaycan Dövlət Rəssamlıq Akademiyası;*

*Axundova Nigar Rəşid qızı,*
*tarix üzrə fəlsəfə doktoru, dosent,*
*Bakı Biznes Universiteti,*
*E-mail: nigar-akhundova@yandex.ru*


## QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARINDA ERMƏNİ VANDALİZMİNƏ MƏRUZ QALMIŞ AZƏRBAYCAN MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN BƏRPASINA DAİR

Qədim tarixi ilə zəngin olan Qarabağ və Sərgi Zəngəzur nəfis memarlıq abidələri ilə Azərbaycan xalqının mədəni irsini təşkil edir. 270 illik tarixə malik olan və Azərbaycan xalqı üçün yüksək mədəni-mənəvi dəyər kəsb edən Şuşaya xüsusi ehtiramın təzahürü kimi bütün türk dünyasının birlik və həmrəyliyinin yeni rəmzinə çevrilməklə, türk xalqları arasında əməkdaşlıq perspektivlərinin daha da genişləndirilməsi işinə öz töhfəsini verir.

Hələ 1977-ci ildə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü ilə "Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında" qərar qəbul edilmişdi. Həmin qərar nəticəsində Şuşada abidələrin qorunması, görkəmli mədəniyyət və incəsənət xadimlərinin xatirələrinin əbədiləşdirilməsi istiqamətində əhəmiyyətli addımlar atılmışdı [11].

Azərbaycana qarşı başladığı hərbi təcavüz nəticəsində Ermənistan Respublikası 1992-ci il mayın 8-də Şuşa şəhərini işğal etmiş və şəhərdə xalqımızın tarixi-mədəni irsinin məhv edilməsi siyasətini həyata keçirmişdir.

Ordumuzun qətiyyətli mübarizəsi ilə tarixi ədalət bərpa edilmiş və 2020-ci il noyabrın 8-də Şuşa şəhəri işğaldan azad olunmuşdu. Şəhərə, onun tarixi-mədəni irsinə və təbiətinə vurulmuş zərərin təxirə salınmadan inventarizasiyası aparılmış, bərpa işlərinə başlanılmışdır. Bərpa-quruculuq işlərinin təşkilində çevikliyi və səmərəliliyi təmin etmək üçün Şuşada dövlət idarəetməsinə də böyük diqqət yetirilmişdir. Azərbaycan Respublikası Prezidentinin işğaldan azad olunmuş ərazilərdə ilk xüsusi nümayəndəsi məhz Şuşa rayonuna təyin edilmişdi.

Qarabağın və Şərqi Zəngəzurun şəhərlərinin əsas tarixi abidələri arasında memarlıq ilə seçilən qədim məscidlər, saraylar, məbədlər, türbələr xüsusi yer tutur. Onlardan Şuşada Yuxarı Gövhər ağa və Aşağı Gövhər ağa məscidləri, Xan qızı Natəvanın sarayı, Vaqif türbəsi və s., Ağoğlan məbədi Laçın-Minkənd yolunda, Qubadlıda Dəmirçilər kəndindəki məqbərələr, Laçında Cıcımlı məqbərəsi, Zəngilanda Məmmədbəyli türbəsi və burada yerləşən memarlıq abidələri öz görkəmi ilə fərqlənir. Şuşada Yuxarı Gövhər ağa və Aşağı Gövhər ağa məscidləri XIX əsrdə İbrahimxəlil xanın qızı Gövhər ağanın sifarişi ilə Qarabağda əksər məscidlərin memarı olmuş Kərbəlayi Səfi xan Qarabaği tərəfindən tikilmişdi.

Ümummilli Lider Heydər Əliyevin Şuşaya göstərdiyi diqqət və qayğı daha da artmış və geniş quruculuq işləri vüsət almışdı. Belə ki, görkəmli Azərbaycan şairi Molla Pənah Vaqifin məzarı üstündə 1980-1981-ci illərdə abidə, məqbərə tikilmiş və 1982-ci il yanvarın 14-də yağan güclü qarın altında Heydər Əliyev Şuşada şairin məqbərəsini böyük təntənə ilə açmışdı.

XX əsrin 80-ci illərinin sonu - 90-cı illərinin əvvəllərində SSRİ rəhbərliyinin ermənilərə himayədarlığı sayəsində hadisələr getdikcə daha da mürəkkəbləşdi və Ermənistan Respublikası Azərbaycan ərazilərinə hərbi qüvvə göndərərək açıq təcavüzə başladı.

Azərbaycan mədəniyyət tarixində Şərqi Zəngəzurun – Cəbrayil, Kəlbəcər, Laçın, Qubadlı və Zəngilan rayonlarında tarix və memarlıq abidələri mühüm rol oynayır. Onlardan: 1)**Ağoğlan məbədi** Laçın-Minkənd yolunda yerləşir. Aqoğlan məbədi V-VI əsrlərə aid olan Alban monastırıdır. 1992-ci ildə Laçın rayonunun işğalından sonra ermənilər Ağoğlan monastırının memarlıq quruluşunu və interyerini qanunsuz olaraq dəyişdirmiş, abidənin divarlarındakı bir neçə daş kitabəni, habelə Alban dövrünə aid çoxlu sayda ornament və rəmzləri tamamilə silmişlər, onların bir çoxunun forması tanınmaz dərəcədə dəyişdirmişlər. 2006-cı ildə ermənilər təkrar təmir bəhanəsi ilə abidənin divarlarının müxtəlif yerlərində Erməni Qriqorian Kilsəsinə aid olduğunu göstərən lövhələr vurmuşlar. 2020-ci il dekabrın 1-də Laçın rayonu işğaldan azad edildikdən sonra Azərbaycanın Alban-Udi xristian icmasının nümayəndələri Ağoğlan məbədini ziyarət etmişlər [10]. 2) Qubadlı rayonunun **Dəmirçilər kəndindəki məqbərələr** iki qüllə formasındadır. Bu məqbərələrin hər ikisi XIII-XIV əsrlərə aid abidələr hesab olunur.

3) Qubadlı rayonunun Dondarlı kəndində 1732-ci ildə Nadir şah tərəfindən tikilmiş **Dondarlı məscidi** var. Şirvandan Zəngəzura gələn Nadir şah burada namaz

qılmışdır. 4) **Hacı Bədəl körpüsünü** XIX əsrdə Ağaçay çayı üzərində Dəmirçilər kəndinin sakini Hacı Bədəl tikdirmişdir. Bu tarixi abidə Qubadlı rayonu işğal olunana qədər öz ilkin formasında qalmışdır. 5) **Lələzər körpüsü** Qubadlı rayonunda yerləşir. Maraqlı arxitekturaya malik olan körpü 1867-ci ildə tikilib. İşğal zamanı körpü ciddi zədələnməsə də, divar lövhəsindəki tikilmə tarixini göstərən yazılar ermənilər tərəfindən silinib. 6) **Həmzə Sultan sarayı** Hüslü Laçınski kəndində yerləşir. 1761-ci ildə tikildiyi güman edilir. İşğal zamanı ermənilər Həmzə Sultan sarayını təmir etdirərək turistlər üçün qonaq evi kimi istifadə etmişlər. 7) Laçın rayonunun Cıcımlı kəndi yaxınlığındakı qəbiristanlığın ərazisində iki **Cıcımlı məqbərəsi** yan-yana ucalır. Tədqiqatçılar Cıcımlı məqbərəsinin XII-XIII əsrlərdə tikildiyini güman edirlər. Abidənin XIII əsrin sonlarında tikilib. 8) Zəngilan rayonunun Məmmədbəyli kəndində yerləşən **Məmmədbəyli türbəsi** yerləşir. Bu kitabədə Qurani-Kərimdən dörd sətir ayə var. İki sətir məqbərənin hicri 704-cü ildə (1305) Məhəmməd əl-Hacının oğlu Yəhyanın şərəfinə tikildiyini göstərilir. Ermənilərin işğalı zamanı günbəzin yuxarı hissəsi dağıdılıb. Məmmədbəyli məqbərəsinin yerləşdiyi ərazi 20 oktyabr 2020-ci il tarixində işğaldan azad edilib. 9) **Sarı Aşıqın Memorial Muzeyi** Laçın rayonunda yerləşir. Məşhur Sarı Aşıqın məzarı Xəkəri çayının sağ sahilində, sol sahilində isə çox sevdiyi **Yaxşı xanımının məzarı** yerləşir. 10) **Şərifan məqbərəsi** Zəngilan rayonunun Şərifan kəndində yerləşir. 1974-cü ildə aparılan arxeoloji qazıntılar zamanı bu ərazidə "Şəhri Şərifan" və ya "Şəhri Xəlifan" kimi tanınan orta əsr şəhərinin xarabalıqları aşkar edilmişdir [10]. 20 oktyabr 2020-ci ildə Şərifan kəndi işğaldan azad edilib. 11) Rayon mərkəzində yerləşən **Zəngilan məscidinin** tikintisi XVII-XVIII əsrlərə aiddir. Məscidin Səfəvilər dövründə tikildiyi güman edilir. Erməni vandalları bu məscidi dağıtmışlar.

20 oktyabr 2020-ci ildə Zəngilan işğaldan azad edildikdən sonra bu məscidin xarabalıqları aşkar edilmişdir. Heydər Əliyev Fondunun təşkil etdiyi, xarici və yerli ekspertlərdən ibarət komissiya mövcud məscid binası ilə bağlı qiymətləndirmə aparmışdır. Hazırda Heydər Əliyev Fondu tərəfindən bərpa işləri aparılır.

2021-ci il aprelin 26-da Prezident İlham Əliyev ailə üzvləri ilə birlikdə Zəngilana səfəri zamanı məscidin bərpasının ilk daşını qoyub. [10]

Bununla yanaşı, işğala qədər Şuşada memarlıq abidəsi sayılan 850-dən çox yaşayış binası və 300-dək mədəniyyət və tarixi abidə var idi. Bunların içərisində son tunc və ilk dəmir dövrü abidəsi sayılan Şuşa və Şuşakənd daş qutusu qəbirləri, daş dövrü abidəsi olan Şuşa mağara düşərgəsi, XVIII əsrə dair Şuşa qalasının divarları, Gəncə qapısı, Pənah xanın sarayı və kitabxanası, İbrahim xanın bürcü və qəsri, Xan sarayı və Karvansaray, M.P.Vaqifin mədrəsəsi və türbəsi, Yuxarı məscid mədrəsəsi, Hacıqulların malikanəsi, ikimərtəbəli Karvansaray, Mehmandarovların malikanə kompleksi, Gövhər ağa, Xoca Mərcanlı, Hacı Abbas, Mərdinli, Saatlı, Köçərli məscidləri, Xurşidbanu Natəvanın evi və bulağı, Ə.B. Haqverdiyevin, Q.B.Zakirin, M.M.Nəvvabın, S.S.Axundovun, N.B.Vəzirovun, Y.V.Çəmənzəminlinin evləri, Mamay bəyin evi, məscidi və bulağı, Behbudovların, Fərəməzovların, Zöhrabbəyovun, Bəhmən Mirzənin evləri, Üzeyir bəy Hacıbəylinin, Bülbülün ev-muzeyləri, Xan Şuşinskinin, tarzən Sadıqcanın evləri, Realnı məktəbinin binası, Qız məktəbi, Şirin su hamamı, Meydan bulağı, İsa bulağı və s. tarixi mədəniyyət nümunəsi erməni işğalçıları tərəfindən talan edilmiş, dağıdılmış və məhv edilmişdi.

Heydər Əliyev Fondunun dəstəyi ilə Şuşada Vaqif Poeziya Günləri, Xarı Bülbül (3) festivallarının keçirilməsi, 2023-cü il mayın 2-də 10 kəndin təməli qoyulmuşdu (ŞƏRQ qapası, qəzet - 15 May 2023), məscidlərin acılısı, Mehmandarovların evi (2021-2023-cü illərdə bərpa edilib və ev muzeyi kimi fəaliyyət göstərir), Milli Xalça

Muzeyinin Şuşa filialı açıldı (10 may 2023-cü il) və s. tədbirlər buna əyani misaldır. "İşğalçılar tarixi abidələri dağıdaraq faktiki olaraq "mədəni soyqırımı" həyata keçiriblər" Prezident İlham Əliyev demişdir. [6]

Memarlıq və şəhərsalma sənətinin 270 illik tarixə malik parlaq incisi olan və Azərbaycan xalqı üçün yüksək mədəni-mənəvi dəyər kəsb edən Şuşaya xüsusi ehtiramın təzahürü kimi bu qərar bütün türk dünyasının birlik və həmrəyliyinin yeni rəmzinə çevrilməklə, türk xalqları arasında əməkdaşlıq perspektivlərinin daha da genişlən dirilməsi işinə öz töhfəsini verəcəkdir. Burada bu tarixi memarlıq abidələrin adlarını qeyd etmək lazımdır:

Şuşa Dövlət Tarix-Memarlıq Qoruğu-Şuşa Şuşa qalası-Laçın, Cicimli Qarabağ xan sarayı, Qara böyük xanım sarayı, Hacı Quluların mülkü, Xan qızı Natəvanın sarayı, Əsəd bəyin evi, Yuxarı Gövhər ağa məscidi, Aşağı Gövhər ağa məscidi, İki mərtəbəli karvansaray, Mehmandarovların evi, İbrahimxəlil xan sarayı, İsa bulağı, Üzeyir Hacıbəyovun evi, Xanlıq Muxtar karvansarayı, Ağa Qəhrəman Mirsiyab oğlunun karvansarayı, Zülfüqar Hacıbəyovun evi, Saatlı məscidi, Əbdürrəhim bəy Haqverdiyevin evi, Qazançı kilsəsi, Yusif Vəzir Çəmənzəminlinin evi, Yuxarı məscid mədrəsəsi, Səfərov qardaşlarının karvansarayı, Sadıqcanın evi, Uğurlu bəyin evi, Şirin su hamamı, Seyid Şuşinskinin evi, Vaqif türbəsi, Qasım bəy Zakirin evi, Behbudovların evi, Firudin bəy Şuşinskinin evi, Firudin bəy Köçərlinin evi, Mir Möhsün Nəvvabın evi, Bülbülün evi, Hüseyn bəy Köçərlinin evi, Keçəçi oğlu Məhəmmədin evi, Karvansaray axırı, Gəray Əsədovun evi, Süleyman Sani Axundovun evi, Cabbar Qaryağdıoğlunun evi, Realniy məktəbin binası, Aslan Qaraşovun evi, Çuxur məhlə məscidi, Mərdinli məscidi, Culfalar məscidi, Bəhmən Mirzənin evi, Turşsu bulağı, Köçərli məscidi, Mamayı məscidi, Zöhrabbəyovların malikanəsi, Quyuluq məscidi, Xoca Mərcanlı bulağı, Molla Pənah Vaqifin büstü, Üzeyir Hacıbəyovun heykəli, Mir Möhsün Nəvvabın qəbirüstü abidəsi, Bülbülün ev-muzeyi, Üzeyir Hacıbəyovun ev-muzeyi, Mir Möhsün Nəvvabın ev-muzeyi, Xurşidbanu Natəvanın ev-muzeyi, Şuşa Dövlət Rəsm Qalereyası.

"44 günlük Vətən müharibəsində şanlı Azərbaycan Ordusu Qarabağımızı, o cümlədən Şuşanı düşmən işğalından azad edib. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür!" - bu sözləri Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində demişdir.

Azərbaycan Respublikasının işğal edilmiş ərazilərində olan dünya əhəmiyyətli 100. 000-dən artıq mədəniyyət nümunəsi dağıdılmış və qəsb edilmiş, 500-ə yaxın tarixi və 100-dən çox arxeoloji abidənin 22 muzeyin əksəriyyəti tamamilə və ya qismən dağıdılmışdır. [4]

Vətən müharibəsində əldə edilən Zəfər nəticəsində Şuşada həyat yenidən dirçəlməyə başladı. Azərbaycanın mədəniyyət paytaxtı, dilbər guşəmiz Şuşada bərpa işləri uğurla aparılır. Vaqif Poeziya Günləri və "Xarıbülbül" festivalı bərpa olundu. 2021-ci il mayın 12-13-də Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Azərbaycanın mədəniyyət paytaxtı, Qarabağın tacı olan Şuşa iyirmi doqquz ildən sonra yenidən "Xarıbülbül" musiqi festivalına evsahibliyi etdi.

Azərbaycan Prezidenti bəyan edib ki, Şuşa Azərbaycan dövlətinin mədəniyyət paytaxtı kimi dünyanın ən gözəl şəhərlərinin birinə çevriləcəkdir: "Əslində, həmişə belə olub. Sadəcə olaraq, mənfur düşmən bütün tarixi abidələrimizi dağıdıb. Amma biz bərpa edəcəyik. Onların əsl simasını qaytaracağıq. Azərbaycan xalqı Şuşada bundan sonra əbədi yaşayacaqdır".

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**

1. Aslanova F.A. Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində erməni vandalizmi (1991-2010-cu illər). Tarix üzrə fəlsəfə doktoru dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyasının avtorefaratı, Bakı, 2014, s.20

2. Nigar A. "Qarabağ müharibəsi zamanı (XX əsrin 90-cı illəri – XXI əsrin əvvəlləri) Azərbaycan xalqının maddi-mədəni dəyərlərinə qarşı erməni vandalizmi" Azərbaycan Milli Elmlər Akademiyası İnstitutunun materialları. "XX əsrdə türk-müsəlman xalqlarının soyqırımı" V Beynəlxalq Elmi Konfransın materialları. Xüsusi buraxılış, № 70, 71, 72 / 2018, s.175

3. Türksoylu xalqların musiqi mədəniyyətinin Tədqiqi problemləri. XXII Beynəlxalq elmi-praktiki konfrans. Bakı 2023, s.206-209

4. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Arayışı, Aslanova F.A., Bakı 2009

5. Şuşa şəhəri: Azərbaycan mədəniyyəti Qafqaza və Dünyaya. AMEA Qafqazşünaslıq İnstitutu. Beynəlxalq elmi konfrans, Bakı 1 noyabr, 2023, səh. 49

6. Prezident İlham Əliyev xalqa müraciət edib //https://president.az/ articles/ 4171309 oktyabr 2020

7. https://moscow-baku.ru/news/culture/11_pamyatnikov_shushi_do_i_posle_okkupatsii/

8. Şuşada "Xarıbülbül" festivalı başlayır. https://qafqazinfo.az/news/detail/ susa-da-xaribulbul-festivali-baslayir-video-399798

9. Inter aztv.com 14 aprel 2021

10. https://files.preslib.az/projects/zangazur/ru/a8.pdf

11. Şuşanın mədəniyyəti. https://shusha.gov.az/az/pages/4

12. В XIX веке в Шуше изготавливались самые качественные в Карабахе ковры и паласы ВИДЕО. https://azertag.az/ru/xeber/v_xix_veke_v_shushe_izgotavlivalis_samye_kachestvennye_v_karabahe_kovry_i_palasy_video-2456090

13. Спустя 31 год восстановлена деятельность Шушинского филиала Азербайджанского национального музея ковра. https://azertag.az/ru/xeber/spustya_31_god_vosstanovlena_deyatelnost_shushinskogo_filiala_azerbaidzhanskogo_nacionalnogo_muzeya_kovra_video-2610227

14. Вступительная речь Президента Азербайджанской Республики Гейдара Алиева на встрече с группой жителей Шушинского и Лачинского районов – Президентский дворец, 6 мая 1996 года. https://lib.aliyev-heritage.org/ru/ 5741106.html

*Kamandari-Məmmədova Aygün Allahşükür qızı,*
*tarix üzrə fəlsəfə doktoru, müəllim,*
*Bakı Biznes Universiteti,*
*E-mail: aygunkamandari@gmail.com*

## DÜNYA AZƏRBAYCANLILARIN BEŞİNCİ ZƏFƏR QURULTAYI

Azərbaycan həqiqətlərinin, Dağlıq Qarabağla bağlı haqlı mövqeyinin dünyaya çatdırılmasında təbii ki, xaricdə yaşayan soydaşlarımızın rolu danılmazdır. Bu yolda onların "Azərbaycançılıq" ideologiyasına və həmrəylik prinsipinə əsaslanması böyük

önəm daşıyır. XX əsrin sonlarında Heydər Əliyevin müəllifi olduğu "Azərbaycançılıq" ideologiyasının diaspor üçün cəlbedici olan əsas xüsusiyyəti onun daxili rəngarəngliyi ilə bərabər, konseptual bütövlüyü, milli özünüdərkə imkan verən tamlığı, müəyyənliyidir. Məhz bu ideologiya dünyanın bir çox ölkələrinə səpələnmiş azərbaycanlılar arasında milli birliyin yaradılmasına geniş imkanlar yaratmış oldu. Öz milli-mənəvi dəyərlərini saxlamaqla, Qərbə inteqrasiya etməyə istiqamətləndirilən bu konsepsiya Dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşməsinin təməlini qoydu. Ulu Öndərimiz azərbaycançılığı hər bir azərbaycanlının milli şüuruna hakim olan ideya kimi təqdim edirdi: "Biz azərbaycançılığı-Azərbaycan dilini, Azərbaycan mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq".

Azərbaycanın dövlətçiliyinin (müstəqilliyinin) XX əsrin əvvəlləri və sonlarında baş verən bərpalarında diasporumuzun və siyasi mühacirlərimizin böyük əməyi və xidmətləri olmuşdur. Bütün bu məsələlərlə yanaşı Heydər Əliyevin diaspor və lobbi qurumlarının qarşısına qoyduğu vəzifələrdən biri də Azərbaycanın xaricdə təbliği və bu işə xaricdə yaşayan azərbaycanlıların yaxından cəlb edilməsi idi. Lakin təəssüf ki, SSRİ dağılana qədər xaricdə yaşayan həmvətənlərimizi eyni amal yolunda birləşdirə biləcək bir ideoloji zəmin yox idi. O, əsasını qoyduğu "Azərbaycançılıq" ideologiyasının yalnız Azərbaycanda deyil, həmçinin ölkəmizdən kənarda yaşayan həmvətənlərimizin də həyat fəlsəfəsinə çevirmək üçün əlindən gələni edirdi. İdeologiya kimi azərbaycançılıq müstəqil Azərbaycanın fəlsəfi-sosial doktrinasının sosiomədəni və etnik-geosiyasi cəhətlərini özündə birləşdirmişdir. Digər ideoloji meyillərdən fərqli olaraq, azərbaycançılıq hər bir azərbaycanlının milli özünüdərkinə, milli müəyyənliyinə, özünü digər toplumlardan fərqləndirməsinə geniş imkan vermiş olurdu. Uzun müddət vətəndən ayrı düşmüş və fərqli mədəni mühitə adaptasiya olmuş soydaşlarımızın vahid milli zəmində təşkilatlanması üçün bu, çox mühüm amil idi.

Diaspor quruculuğu Azərbaycanda müstəqilliyin ilk illərindən aktuallıq kəsb etməyə başlasa da, bu taleyüklü vəzifənin yerinə yetirilməsinə dövlət tərəfindən xüsusi diqqət göstərilməsi məhz Ümummilli Lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişindən sonra mümkün oldu. Hələ 1991-ci ildə Ümummilli Liderin təşəbbüsü ilə Naxçıvan MR Ali Məclisi 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün təsis olunması barədə qərar qəbul etmiş və bu tarixi günün bütün ölkə ərazisində bayram kimi qeyd olunması ilə bağlı Azərbaycan Respublikasının Milli Məclisi qarşısında vəsatət qaldırmışdı. Ermənistanın təcavüzü və torpaqlarımızın işğalı dövrünə təsadüf edən 1990-cı illərdə Heydər Əliyev beynəlxalq ictimaiyyətin ölkəmizin problemlərinə biganəliyi fonunda soydaşlarımızın dünyadakı səsimiz ola biləcəyi gerçəyini təbliğ edərək, bu istiqamətdə atılan addımları dövlət siyasəti xəttinə çevirdi. Onun dövlət başçısı kimi bütün xarici səfər proqramlarına mütləq həmin ölkədə yaşayan Azərbaycan icması ilə görüşlər daxil edilirdi. Həmyerlilərimizlə ayrıca xoş ab-hava, isti münasibətlərə köklənmiş bütün görüşlərində onları yaşadıqları ölkəyə inteqrasiya ilə yanaşı, tarixi vətənlərini də unutmamağa, onun dərdinə biganə qalmamağa, azərbaycançılıq ideologiyası ətrafında birləşməyə çağırırdı. Məhz həmin illərdən başlayan azərbaycanlıların təşkilatlanması 2001-ci il noyabrın 9-10-da müstəqil Azərbaycanın, eləcə də bütün dünya azərbaycanlılarının həyatında tarixi hadisə kimi yaddaqalan Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi ilə davam etdi.

Ümummilli Liderin dillər əzbərinə çevrilən "Mən fəxr edirəm ki, azərbaycan-

lıyam!" sözləri ilə də tarixə düşən bu qurultayda Heydər Əliyev Azərbaycan diasporunun güclənməsi üçün istiqamətlər müəyyənləşdirdi və tövsiyələrini verdi. Qarşıda duran vəzifə və prioritetlər nəzərə alınaraq elə həmin qurultayda diasporla çalışan dövlət qurumunun - Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması qərara alındı, 5 iyul 2002-ci ildə isə Ulu Öndər Heydər Əliyevin müvafiq fərmanı ilə komitə yaradıldı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 19 noyabr 2008-ci il tarixli sərəncamı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diasporla İş üzrə Dövlət Komitəsi yaradıldı. İstər Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün təsis edilməsi, istərsə də Dünya Azərbaycanlılarının qurultaylarının keçirilməsi harada yaşamalarından asılı olmayaraq, azərbaycanlıların öz tarixi vətənləri ilə əlaqələrinin qırılmamasına, onların milli və mədəni identikliklərinin qorunub saxlanılmasına, dilimizin, mənəvi dəyərlərimizin gələcək nəsillərə ötürülməsinə xidmət edib. Heydər Əliyev harada yaşamasından, məskunlaşmasından asılı olmayaraq, hər bir azərbaycanlını Azərbaycanın ayrılmaz bir parçası kimi görür, onları öz milli, mədəni mənsubiyyətləri ilə qürur duymağa çağırırdı.

Ulu Öndərin əsasını qoyduğu diaspor siyasəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Məhz bu siyasətin nəticəsi olaraq cənab İlham Əliyevin prezidentliyi dövründə Dünya Azərbaycanlılarının artıq dördüncü, ümumilikdə isə beşinci qurultayı keçirilmişdir.

Qurultayların keçirilmə səbəbləri isə ölkədən kənarda yaşayan həmvətənlilərin Azərbaycan naminə təşkilatlanma prosesini mütəşəkkil təşkil etmək idisə, digər tərəfdən onların qürbətdə ən çox yaşanan çətinlikləri, rastlaşdıqları problemləri araşdırıb həlli yollarını tapmaqdan ibarət idi. Dünya Azərbaycanlılarının Qurultayı xaricdə yaşayan azərbaycanlıların müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, dünya azərbaycanlıları arasında birliyin və həmrəyliyin təmin olunması, habelə Azərbaycan icmaları, cəmiyyət və birliklərinin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi ilə bağlı məsələlərin müzakirə edildiyi ən yüksək səviyyəli tədbir hesab edilir. Dünya Azərbaycanlılarının qurultayları bu prosesdə önəmli rol oynayıb. Dünya Azərbaycanlıları Prezident İlham Əliyevin ətrafında sıx birləşərək, Azərbaycanın haqlı mübarizəsinin ayrılmaz bir parçasına çevriliblər. Vətən müharibəsi dövründə diaspor təşkilatlarının dünyanın 30-dan çox ölkəsində 200-dək aksiya keçirmələri, bu aksiyalarda ümumilikdə 25 mindən çox soydaşımızın və dost xalqların nümayəndələrinin iştirakı, həmçinin 50-dən çox ölkədə fəaliyyət göstərən 300-ə yaxın diaspor təşkilatının müxtəlif ölkələrin dövlət və hökümət rəhbərlərinə, parlament üzvlərinə, beynəlxalq təşkilatlara bəyanatlar, müraciətlər göndərməsi də Azərbaycançılıq ideyasının bütün azərbaycanlıların vahid məfkurəsini çevrildiyini, həmvətənlərimizin bir amal uğrunda birləşməyi bacardıqlarını sübuta yetirir.

Dünya Azərbaycanlılarının tarixinə nəzər yetirsək, ilk Qurultay məhz Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci ildə, II qurultay Prezident İlham Əliyevin Sərəncamına əsasən 2006-cı ildə, III qurultay 2011-ci ildə, IV qurultay 2016-cı il, V qurultay isə 2022-ci ilin aprelində keçirilib. Bununla da Dünya Azərbaycanlılarının V Qurultayı son illər yüksək təşkilatlanma və birlik nümayiş etdirən, beynəlxalq ictimaiyyətin Azərbaycan həqiqətləri ilə bağlı məlumatlandırılmasında xüsusi rol oynayan diasporumuzun Qarabağın azad olunmasından sonra ilk böyük görüş olmuşdur.

Yaratdığımız yeni reallıq dövründə 44-günlük Vətən müharibəsindən sonra dünya azərbaycanlılarının üzərinə daha məsuliyyətli vəzifələr düşür. Dünyanın harasında yaşamağından asılı olmayaraq, hər bir azərbaycanlının yeganə vətəni, etibar edə biləcəyi məkan Azərbaycandır. Ona görə də əvvəlki qurultaylarda diaspor fəaliyyətimiz əsasən torpaqlarımızda erməni işğalına son qoydurmaq istiqamətində olmuşdusa, V qurultayda isə dünya azərbaycanlılarının qarşısında müasir çağırışlara uyğun yeni vəzifələr qoyulacaq. Düşünürük ki, bu vəzifələr informasiya müharibəsində mübarizəmizi daha da genişləndirmək, ermənilərin bizə qarşı törətdikləri soyqırımları və vəhşiliklərini dünyaya daha geniş şəkildə çatdırmaq istiqamətində olacaq. Hesab edirik ki, bu məsələləri məhz Şuşada müzakirə etməyimiz dünyaya səs salacaq.

Aprelin 2022-ci ilin aprel ayının 22-dən 23-dək davam edən Zəfər qurultayında 65 ölkədən 400 nəfərə yaxın diaspor nümayəndəsi iştirak edib. Əvvəlcə Bakı şəhərində Fəxri Xiyabanı, I və II Şəhidlər Xiyabanını ziyarət edən qurultay iştirakçıları , daha sonra Şuşa şəhərinə yola düşüblər. Qurultay Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qüdrətli ordumuzun düşmən işğalından azad etdiyi, Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində keçirilib. Qurultay iştirakçıları əvvəlcə Bakı şəhərində Fəxri Xiyabanı, I və II Şəhidlər Xiyabanını ziyarət etdikdən sonra, Şuşa şəhərinə yola düşüblər.

Tədbirdə 65 ölkədən 400 nəfərə yaxın diaspor nümayəndəsi iştirak edib. Qurultayın rəsmi açılış mərasimindən sonra Diasporla İş üzrə Dövlət Komitəsinin fəaliyyətinə dair hesabat verilməsi, “Post-müharibə dövründə Azərbaycan diasporunun qarşısında duran vəzifələr”, “Qarabağın bərpası və yenidən qurulmasına Azərbaycan diasporunun töhfələri” mövzuları müzakirə olunub. Qeyd edək ki, Dünya Azərbaycanlılarının V Qurultayı son illər yüksək təşkilatlanma və birlik nümayiş etdirən, beynəlxalq ictimaiyyətin Azərbaycan həqiqətləri ilə bağlı məlumatlandırılmasında xüsusi rol oynayan Azərbaycan diasporunun Qarabağın azad olunmasından sonra ilk böyük görüşü idi. Bu mötəbər tədbirin Şuşada keçirilməsinin tarixi əhəmiyyəti və rəmzi mənası vardır. Qarabağın mədəniyyət ocağı, incisi hesab edilən Şuşada təşkil edilən Zəfər Qurultayı diaspor təşkilatlarının fəaliyyətində yeni cığır, yol xəritəsi açmışdır. Bütün bunlar dünya azərbaycanlılarından həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılmasında hər zaman aktiv olmağı tələb edir. Prezident İlham Əliyev qurultayda dünya azərbaycanlılarının bundan sonra görməli olduqları işlərə aydınlıq gətirdi. Həm Azərbaycan hökuməti, həm səfirliklər, diaspor təşkilatları, bütün fəallar yeni reallıqları dünya ictimaiyyətinə çatdırmalıdırlar. Tarix heç zaman unudulmamalıdır. Çünki istənilən münaqişənin siyasi və digər yollarla həll edilməsi üçün bu, çox vacibdir. Belə ki, Müzəffər Azərbaycan Ordusunun qələbəsi, xalqımızın öz haqq işi uğrunda sonadək mübarizə aparmaq əzmi, Prezident, Ali Baş Komandan İlham Əliyevin cəsarəti və qətiyyəti hər bir azərbaycanlının başını bayrağımız qədər yüksəklərə ucaldıb. İndi bütün dünya azərbaycanlıları qalib xalqın nümayəndələri kimi öz vətənləri ilə qürur duyur, bu yolda tarixi vətənlərinin haqq işinə dəstək verənlər isə Zəfərimizin və milli birliyimizin sevincini yaşayırlar. Şübhə etmirik ki, Zəfər Qurultayından sonra diaspor təşkilatlarımızın sıraları daha da genişlənəcək və azərbaycanlılar dünyanın hər yerində öz vətənlərini böyük qürur və fəxarət hissi ilə təmsil edəcəklər.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**


1. Arzumanlı V. Azərbaycan Diasporu: reallıqlar, qayğılar, problemlər. Bakı, Qartal, 2001, s 800.
2. Arzumanlı V., Ağayev İ. Dünya azərbaycanlıları Konqresi. Dünən, bu gün, sabah. Bakı, 2007, s 188.
3. Azərbaycan Diasporu: böyük yolun başlanğıcı //Azərbaycan Respublikasının Diasporla iş üzrə Dövlət Komitəsi Bakı, Çaşoğlu, 2006., s 208.
4. Azərbaycan Diasporu Ensiklopedik məlumatlar toplusu. Bakı, “SƏS - 2012” MMC, 2012., s 654.
5. Dünya Azərbaycanlılarının I Qurultayı/red. Ramiz Mehdiyev. Bakı, Azərbaycan Nəşriyyatı, 2002, s 351.
6. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar /H.Əliyev İyirmi üçüncü kitab: noyabr, 1999-dekabr/bur.məsul R.Ə.Mehdiyev- Bakı: Azərnəşr, 2008-480 s.
7. Əliyev H.Ə. Dünya azərbaycanlıların həmrəylik günü münasibətilə müraciəti // «Rabitə dünyası» qəzeti 07 may, 2008-ci il. Bakı: 26 dekabr, 2000-ci il.
11. Смирнова, М.А. Деятельность научных краеведческих обществ на Европейском Севере России в 1920-1930-е годы. – https://cyberleninka.ru/article/n/deyatelnost-nauchnyh-kraevedcheskih-obschestv-na-eropeyskom-severe-rossii-v-1920-1930-e-gody/viewer
12. Собрание узаконенной и распоряжений рабоче-крестьянского правительства Азербайджанской ССР. Баку, 1929.
13. Чобан-заде, Б. Тюркологический съезд. – Известия Общества обследования и изучения Азербайджана, 1925, № 1.

*Чеховская Оксана Евгеньевна,*
*кандидат исторических наук,*
*доцент кафедры «Гуманитарные дисциплины»*
*Московского Политехнического Университета,*
*Россия, Москва,*
*E-mail: o.e.chehovskaya@mospolytech.ru*

# УСТОЙЧИВЫЙ ТУРИЗМ КАК ФАКТОР СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОГО И КУЛЬТУРНОГО РАЗВИТИЯ ТЕРРИТОРИЙ (НА ПРИМЕРЕ РОССИЙСКИХ РЕГИОНОВ)

В 2015 году на Саммите по устойчивому развитию, организованному ООН, правительствами стран мира (193 страны) была принята повестка дня в области устойчивого развития государств и регионов на период до 2030 года. Были определены 17 основных целей устойчивого развития (ЦУР) и 169 связанных с ними задач, в числе которых: ликвидация крайней нищеты, борьба с неравенством и несправедливостью, а также решение проблемы изменения климата.

Россия активно участвовала в формировании повестки ООН в области устойчивого развития. ЦУР нашли отражения в государственной политике Российской Федерации в сфере социально-экономического развития страны и в последующих документах стратегического планирования, в частности в положениях Указа Президента РФ от 19 апреля 2017 г. № 176 «О Стратегии экологической безопасности Российской Федерации на период до 2025 года» [7], Указа Президента РФ от 7 мая 2018 года № 204 «О национальных целях и стратегических задачах развития Российской Федерации на период до 2024 года» (Майский указ 2018) [8], Указа Президента РФ от 21 июля 2020 г. № 474 «О национальных целях развития Российской Федерации на период до 2030 года» [9], а также Указа Президента РФ от 2 июля 2021 г. №400 «О стратегии национальной безопасности Российской Федерации» [10].

В современных условиях (прекращение международного сотрудничества с Россией рядам западных стран) Россией были пересмотрены подходы к реализации ЦУР с учётом своих приоритетов. Согласно документам стратегического планирования и Посланию Президента РФ Федеральному Собранию от 21 февраля 2023 года [11], отдельные ЦУР, принятые ООН, не имеют первоочередного значения для развития России. При этом список дополнен новыми, принципиально важными целями: поддержка семьи, патриотизм и любовь к Родине, развитие культуры, внутренняя устойчивость, национальная безопасность.

По мнению экспертного туристического и экономического сообщества, туризм располагает потенциалом для внесения прямого или косвенного вклада в достижение всех вышеназванных целей.

За последние 10 лет туризм превратился в один из самых больших и наиболее быстрорастущих секторов экономики в мире. Более того, согласно докладу «Зеленая экономика 2011», туризм - один из самых многообещающих двигателей роста для мировой экономики в будущем. С соответствующими инвести-

циями он может продолжить устойчиво расти в ближайшие десятилетия, способствуя необходимому экономическому росту, занятости и развитию [5].

Российский туристический рынок последние годы демонстрирует особенный рост. В связи с внешними ограничениями (труднодоступностью виз, отсутствие прямого авиасообщения с рядом западных стран) произошло перераспределение выездного турпотока внутрь страны, в регионы. Показатели внутреннего туризма в России в 2023 году выросли по сравнению с 2022 годом практически во всех макрорегионах страны. Так, согласно данным «Сбер Аналитики», только за девять месяцев 2023 года популярность путешествий в целом по России увеличилась на 25% по сравнению с тем же периодом 2022 года. Россияне совершили 153 млн поездок по стране [2].

По словам Станислава Карташова, вице-президента Сбербанка, цифры подтверждают, что «в последние годы наступил ренессанс внутреннего туризма. Россияне едут во все уголки страны: от европейского Калининграда до богатой на чудеса природы Камчатки. Географические и климатические особенности, наличие гор и морей, гастрономия и многое другое делает каждый регион страны привлекательным для туристов» [2]. И в ближайшие годы данные показатели не должны снижаться, так как эксперты Ассоциации туроператоров России (АТОР) по итогам 2023 года отмечают тренд на долгосрочный рост внутреннего туризма [3].

Безусловно, туризм имеет огромное экономическое значение для развития регионов, так как способствует созданию рабочих мест, обеспечивает стимул к торговле небольших, средних и микропредприятий, увеличивает их доходы, стимулирует развитие и создание новой общественной инфраструктуры, сохраняет и финансирует сохранение природного и культурного наследия. Однако, если говорить о массовом туризме или, как его называют в зарубежной научной литературе и СМИ, «сверхтуризме» (overtourism), то эффект от большого турпотока может быть, скорее, негативный, чем положительный: чрезмерная нагрузка на местное население, повышение цен, сверхэксплуатация, столкновение культур, истощение природных ресурсов, нехватка воды, загрязнение, потеря биоразнообразия и др. [1].

Благосклонно влиять на развитие территорий и минимизировать риски негативного воздействия может только «устойчивый туризм» (sustainable tourism), т.е. туризм, в основе которого лежит максимально бережное отношение к принимающей территории, сообществу и его культуре (уважение к местным традициям, обычаям, устоям), содействие местной экономике (рост благосостояния местных жителей и поддержка локального производства) и минимизация негативного воздействия туризма на окружающую среду (рациональное использование естественных ресурсов и забота о природе).

Устойчивый туризм тесно связан с такими формами туризма, как ответственный туризм, альтернативный туризм и экотуризм, однако не сводится ни к одной из них. Многие ошибочно понимают под устойчивым туризмом исключительно бережное отношение к природе и экологии, однако, важно помнить, что к важнейшим целям устойчивого туризма также относится сохранение культурного наследия и поддержка принимающих местных сообществ.

Иными словами, устойчивый туризм – это туризм, стимулирующий экономическое и социальное развитие, сохраняя при этом природную и культурную среду дестинации.

Сегодня практически все ведущие мировые туристические проекты демонстрируют положительные изменения, которые могут быть достигнуты через устойчивые методы туризма, делая туризм образцовым сектором для зеленой экономики [6].

Мощный импульс к развитию устойчивого туризма во всём мире дала пандемия. По словам главы Национального туристического офиса Германии (Германия занимает пятую строчку рейтинга SDG-Index («цели устойчивого развития») среди 166 стран) Петры Хедорфер, «пандемия изменила многие модели поведения и бизнес-модели, которые ранее считались незыблемыми» [12]. В частности, в России в первый же год пандемии федеральные и региональные органы власти начали активно внедрять принципы устойчивого развития в туриндустрии. В сентябре 2020 года был образован Комитета по развитию устойчивого туризма (Вита Саар), в июне 2023 года был создан Научно-образовательный консорциум в сфере устойчивого развития туризма, в который вошли ведущие вузы страны, осуществляющие подготовку кадров для туризма и индустрии гостеприимства, крупнейшие отраслевые объединения туриндустрии. Ранее в 2022 году в стране был запущен масштабный проект внедрения механизмов устойчивого развития туризма в регионах России. В проект уже включены 15 пилотных субъектов РФ.

Результаты второго ежегодного Рэнкинга устойчивости развития туризма и индустрии гостеприимства в субъектах РФ [1] говорят о положительной динамике внедрения принципов устойчивого развития в туризме в российских регионах в 2023 году. Рэнкинг представляет собой мнение о факторах, влияющих на долгосрочную устойчивость и успешность в четырех ключевых аспектах: IE – инфраструктурно-экономический аспект, SC – социально-культурный аспект, EC – эколого-климатический аспект, IG – институционально-управленческий аспект. Средний уровень интегрального индекса, рассчитанный для 85 регионов Российской Федерации, составляет 0,473, что выше, чем в прошлом году, когда аналогичная величина находилась на уровне 0,435 [4].

Согласно исследованию, лучшими практиками в сфере устойчивого развития туризма и индустрии гостеприимства в 2023 году можно назвать опыт 8 регионов (годом ранее таких регионов было всего 5): Санкт-Петербург, Краснодарский край, Татарстан, Москва, Тюменская, Свердловская, Калининградская и Мурманская области [4].

По наличию успешных практик в области устойчивого развития туризма также выделяются Республика Хакасия, Новосибирская область, Камчатский край, Рязанская область. В частности, в Хакасии активно развиваются проекты в сфере туризма, а в процессе поддержки турбизнеса учитывается их экологи-

[1] Исследование подготовлено Национальным Рейтинговым Агентством и ESG-лабораторией МГУ при поддержке Комитета Государственной Думы по туризму и развитию туристической инфраструктуры, Русского географического общества, Научно-образовательного консорциума «Устойчивый туризм», Комитета устойчивого туризма Делового центра экономического развития СНГ, Общенационального союза индустрии гостеприимства (ОСИГ).

ческая ответственность, ориентированность на сотрудничество с локальными поставщиками, что способствует развитию благоприятных взаимоотношений внутри местного бизнес-сообщества, а также снижению негативного воздействия на окружающую среду в процессе транспортировки товаров. В Новосибирской области к мониторингу внедрения принципов устойчивого развития активно привлекаются местные сообщества и некоммерческие организации. В Камчатском крае создан единственный в стране онлайн-портал, посвященный принципам устойчивого туризма и содержащий рекомендации для туристов по ответственному посещению региона. В Рязанской области проводится активная разработка новых туристских маршрутов культурно-просветительской и экологической направленности; реализуются проекты, направленные на создание и развитие доступной туристской среды для лиц с ограниченными возможностями здоровья [4].

Таким образом, в настоящее время динамичное развитие современной туристической инфраструктуры на основании принципов устойчивого развития затрагивает большинство субъектов Российской Федерации. Это наглядно раскрывает мультипликативный потенциал туризма и влияет на социально-экономическое и культурное развитие российских регионов.

## Список использованной литературы:


1. Alexandrova A.Y., Aigina, E.V., Kaverzin, I.L., & Sheresheva, M.Y. Management of overtourism problems in small historical towns. Case of Suzdal, Russia // Journal of Environmental Management & Tourism. – 2019. – Vol. 10. – № 8 (40). – P.1852-1862; Milano C., Cheer J. M., Novelli M. (ed.). Overtourism: Excesses, discontents and measures in travel and tourism. – CABI, 2019.

2. За год турпоток по России вырос на четверть. URL: https://sberanalytics.ru/articles/78 (Дата обращения: 09.04.2024)

3. В 2024 году туроператоры организуют по России 44-46 млн поездок или 50% всех путешествий по стране. URL: https://www.atorus.ru/node/55516 (Дата обращения: 10.04.2024)

4. Рэнкинг устойчивости туризма в 2023 году. URL: https://www.econ. msu.ru/sys/raw.php?o=104038&p=attachment&ysclid=lv17xd4eqh994826690 (Дата обращения: 15.04.2024)

5. Towards a Green Economy: Pathways to Sustainable Development and Poverty Eradication.
URL: https://sustainabledevelopment.un.org/content/documents/126GER_synthesis_en.pdf. (Дата обращения: 10.04.2024)

6. Sustainable Tourism for Development Guidebook. URL: https://www.e-unwto.org/doi/book/10.18111/9789284415496. (Дата обращения: 10.04.2024)

7. Указ Президента РФ от 19 апреля 2017 г. № 176 «О Стратегии экологической безопасности Российской Федерации на период до 2025 года». URL: http://www.kremlin.ru/acts/bank/41879 (Дата обращения: 08.04.2024)

8. Указ Президента РФ от 7 мая 2018 года № 204 «О национальных целях и стратегических задачах развития Российской Федерации на период до 2024

года». URL: http://www.kremlin.ru/acts/bank/43027 (Дата обращения: 08.04.2024)
9. Указ Президента РФ от 21 июля 2020 г. № 474 «О национальных целях развития Российской Федерации на период до 2030 года». URL: http://www.kremlin.ru/acts/bank/45726 (Дата обращения: 08.04.2024)
10. Указ Президента РФ от 2 июля 2021 г. №400 «О стратегии национальной безопасности Российской Федерации». URL: http://www.kremlin.ru/acts/bank/47046 (Дата обращения: 08.04.2024)
11. Послание Президента РФ Федеральному Собранию от 21 февраля 2023 года. URL: http://www.kremlin.ru/acts/bank/49010 (Дата обращения: 10.04.2024)
12. Эксперт: туризм после пандемии станет более экологичным и ответственным. URL: https://www.interfax-russia.ru/tourism/news/ekspert-turizm-posle-pandemii-stanet-bolee-ekologichnym-i-otvetstvennym (Дата обращения: 15.04.2024)

*Kəngərlinskaya Gülşən Fuad qızı,*
*AMEA-nın A.A.Bakıxanov adına*
*Tarix və Etnologiya İnstitutu,*
*E-mail:gulshan27@mail.ru*

## QARABAĞ ƏRAZİSİNDƏ AZƏRBAYCANIN MADDİ-MƏDƏNİ İRSİNİN QORUNUB SAXLANMASI MƏSƏLƏSİNƏ DAİR

Otuz ildən artıq işğal altında qalmış torpaqlarımızın geri qaytarılması bu torpaqlarda yaradılmış maddi-mədəniyyət abidələrimizin, tarixi irsimizin yerinin müəyyənləşdirilməsi, bərpası və qorunmasını ümdə vəzifələrdən birinə çevirir. İşğal altında qalmış torpaqlarda erməni təcavüzkarlarının həyata keçirdiyi qeyri-humanist siyasət təkcə iqtisadiyyata dəymiş ziyanla ölçülmür, bu siyasət həmçinin  Azərbaycan xalqının tarixi irsinə, mədəniyyətinə qarşı yönəlmiş təcavüzdür. Bu təcavüz eyni zamanda, xalqımızın maddi-mədəniyyət abidələrinin dağıdılması və mənimsənilməsi, tarixin kobud şəkildə saxtalaşdırılaraq dünya ictimaiyyətinə çatdırılması cəhdlərindən ibarətdir. Həm Azərbaycanın işğal altında olan ərazilərində, həm də soydaşlarımızın etnik təmizləmə nəticəsində  tərk etdikləri Qərbi Azərbaycan ərazisində maddi-mədəniyyət abidələrinin taleyinin araşdırılması, talanan mədəni irsimizin siyahısının müəyyənləşdirilməsi və onların qorunma istiqamətində vahid bir platformanın hazırlanması bir neçə səbəbdən mühüm əhəmiyyət kəsb edir. Bu, ilk növbədə, Ermənistanın əsassız ərazi iddialarının qarşısının alınması üçün əhəmiyyətlidir. İkincisi, Ermənistanın maddi-mədəniyyət abidələrinə qarşı qeyri-humanist rəftarının ifşası onun siyasi müstəvidə yeritdiyi siyasətinin mahiyyətini dünya ictimaiyyətinə çatdırılması üçün önəmlidir. Nəhayət, maddi-mədəniyyət abidələrimizin taleyinin müəyyənlşdilirməsi və təhlili zəngin mədəni irsimizin qorunması və gələcək nəsillərə çatdırılması baxımından zəruridir.

Qarabağ münaqişəsinin başlandığı keçən əsrin sonlarında bölgənin tarixinin və maddi-mədəniyyət abidələrinin saxtalaşdırılması ilə bağlı ilk elmi fikir söyləyən tanınmış alimlərdən biri İqrar Əliyev olmuşdur [1]. Qarabağın maddi-mədəniyyət abidələrinin tarixini araşdıran və erməni saxtalaşdırmalarına qarşı əsaslı dəlillər ortaya qoyan tədqiqatçı Q.Hacıyev əsərlərində mədəni irsimizin mənşəyinə xüsusi diqqət yetirmişdi [8].

Azərbaycan arxeoloqu T.Dostiyevin "Qarabağın orta əsr arxeoloji abidələri və ermənilərin mədəni soyqırımı siyasəti" adlı məqaləsində işğal altında qalmış torpaqlarda erməni separatçıları tərəfindən ən çox mənimsənilən və dəyişdirilən mədəni irs nümunələri təhlil edilir. Tədqiqatçı F.İsmayılovun "İşğal altındakı Azərbaycan ərazilərində Xristian və İslam dini abidələrinin qəddarlıqla məhv edilməsi" adlı məqaləsində erməni təcavüzünə məruz qalmış dini abidələrin dağıdılması və mənimsənilməsi faktları araşdırılır [14, s.18-25].

Azərbaycanın Qarabağ bölgəsində münaqişə başlamamışdan öncə yüzlərlə beynəlxalq və dövlət əhəmiyyətli maddi-mədəniyyət abidələri mövcud idi. Birinci Qarabağ müharibəsindən sonra Ermənistan tərəfindən işğal olunmuş ərazilərdə onlarla muzey, yüzlərlə kitabxana və incəsənət qalereyaları məhv edilmişdir. [10, s.97]. Dağıdılan ən böyük mədəniyyət abidəsi Kəlbəcər ərazisində yerləşmiş Tarix və Düyarşünaslıq muzeyi idi. Muzeyin zəngin eksponatları, bölgənin təbii və mineral sərvətlərindən ibarət kolleksiyalar, orta əsrlərə aid sikkələr dağıdılmış və ya mənimsənilmişdir [2, s.5]. Tarixi eramızdan əvvəllərə gedib çıxan müxtəlif əkinçilik abidələrinin qorunduğu Ağdam Çörək muzeyi erməni təcavüzü nəticəsində məhv edilmiş unikal muzeylərdən biridir. Minlərlə qiymətli tarixi eksponatlar Qubadlı və Zəngilan Tarix və Diyarşünaslıq muzeylərinin talan edilməsi Azərbaycan xalqını tarixi və mədəni irsindən məhrum etmək məqsədi daşıyır. Şuşa xalça muzeyindən 300 ildən çox tarixə malik xalçaların qanunsuz şəkildə əldə edilməsi və Ermənistanda sərgilərdə nümayiş etdirilməsi, hətta xarici ölkələrdə satışa çıxarılması faktları qonşu dövlətin Azərbaycan xalqının mədəni irsinə qarşı törətdiyi ağır cinayətlərdən hesab edilməlidir. Maraqlıdır ki, mədəniyyət təcavüzkarları Şuşa xalçalarının talan edilməsi faktına maddi-mədəniyyət abidələrini özününküləşdirməklə qanuni don geydirməyə çalışmış, hətta bu haqda sənədli "sübutlar" da hazırlamışdılar. 2021-ci ilin may ayında Ermənistanın Civilnet platformasından "Şuşa xalçaları: Xəzinə Yerevandadır" adlı məlumat paylaşılması Azərbaycan mədəniyyətinin mənimsənilməsi cəhdlərini sübut edir [18].

2020-ci ildə 44 günlük müharibədən sonra işğal edilmiş əraziləri geri qaytarmaq məcburiyyətində qalan erməni təcavüzkarlar Azərbaycanın maddi-mədəniyyət abidələrinə qarşı xüsusi qəddarlıq nümayiş etdiriblər. Kəlbəcər bölgəsində yerləşən Xudavəng monastırında mövcud olan tarixi abidələr tamamilə talan edilib. Monastırın divarlarındakı freskalar sökülərək aparılıb. Ermənistanın Azərbaycana qarşı təcavüzünün və Qarabağda separatçı əhval-ruhiyyənin tarixi köklərə malik olduğunu nəzərə alsaq maddi-mədəniyyət abidələrinin torpaq iddiaları ilə bilavasitə əlaqəsi olduğunu görə bilərik.

1991-1994-cü illərdə aparılan hərbi döyüşlər nəticəsində xalqımızın mədəni irsinin böyük hissəsi dağıdılmış, bir hissəsi isə mənimsənilmişdir. Xocavənd, Ağdam, Şuşa və Xankəndidə aparılan qazıntılarda İspaniya, Böyük Britaniya, İrlandiya və Niderlanddan olan ekspertlər iştirak ediblər. 2001-2009-cu illərdə Azıx mağarasında bir sıra beynəlxalq ekspedisiyalar tədqiqatlar aparıb [6].

Ermənistanın Azərbaycana qarşı mədəni irsin soyqırımı siyasəti təkcə mədəniyyət abidələrinin dağıdılması və talan edilməsi ilə məhdudlaşmır. Azərbaycana qarşı torpaq iddialarına malik Ermənistanda bu iddiaları əsaslandıran əsas tarixi nəzəriyyə türk xalqların Qafqaz ərazisinə orta əsrlərin son dövründə gəlməsi və bu ərazilərin aborigen əhalisi olmaması fikrinə söykənir. Bu fikri sübuta yetirmək üçün Ermənistan

siyasətçiləri və alimləri Azərbaycan xalqının keçmişini total şəkildə saxtalaşdırmağa cəhd edir, alban tarixinə və mədəniyyətinə aid hər bir şeyi özününküləşdirməyə can atırlar. Bu siyasət ilk növbədə erkən orta əsr mədəniyyəti üçün xarakterik olan dini abidələrin, kilsələrin, dua evlərinin, türbələrin, ibadətgahların ya dağıdılması, ya da erməniləşdirilməsi vasitəsilə həyata keçirilir.

Tarixi ən çox saxtalaşdırılanlar isə Qafqazın aborigen sakinləri sayılan albanlardır. Ermənilərin mənimsəməyə çalışdıqları ən qədim tarixi abidələrdən biri Tərtər bölgəsində Suqovuşan və Təpəkənd arasındakı ərazidə V əsrdə inşa edilmiş Müqəddəs Yelisey tarix-memarlıq kompleksidir. Qafqaz Albaniyasının Arşakilər sülaləsindən olan nümayəndəsi III Mömün Vaçaqan tərəfindən inşa edilmiş bu tarixi abidə ilkin olaraq Zərdüştlük məbədi kimi istifadə olunmuş, sonralar isə xristian kilsəsinə çevrilmişdir [11, s.26]. Tarixi saxtalaşdırılan qədim alban kiləsələrindən biri də Kəlbəcərin Kolatağ kəndində yerləşən, Böyük Arran və ya Müqəddəs Yaqub Monastırı adlandırılan kilsədir. Kilsə təqribən VII-VIII əsrlərdə inşa edilmiş, XIII əsrin əvvəllərində isə Xaçın hökmdarı Vaxtanqın xanımı, Alban hökmdarı Həsən Cəlalın anası Xorişə xatun tərəfindən bərpa etdirilmişdir [16, s.40]. 2022-ci ildə Yerevanda nəşr edilmiş “Arsaxın təhlükə altında olan erməni irsi” adlı kitabda albanlara məxsus by tarixi abidə erməni kilsəsi kimi təqdim edilir [13, s.6]. Kəlbəcərin Vəngil kəndində, Xaçınçayın sol sahilində yerləşən Gəncəsər tarixi-memarlıq abidəsi alban tarixinin saxtalaşdırılmasının digər parlaq nümunəsidir. XIII əsrin möhtəşəm tarixi abidələrindən sayılan bu monastrın inşası Alban hökmdarı Həsən Cəlalianın oğlu Atabəy tərəfindən həyata keçirilmişdir [17, s.41]. Bir neçə əsr müstəqilliyini qorumağa müyəssər olmuş Alban Havari kilsəsi XVIII əsrin əvvəllərində erməni Qriqoryan kilsəsinin təzyiqlərinə tab getirməyərək ondan asılılığı qəbul etməyə məcbur olmuşdur [15]. Ermənistan tarixçiləri və dini institut rəhbərləri bu hadisələrdən Alban xalqının maddi-mədəni irsini mənimsəmək və tarixini saxtalaşdırmaq, albanları isə erməniləşdirmək üçün istifadə edirlər. Gəncəsər tarixi abidə kompleksi müasir dövrümüzdə iki dəfə, 2000-2002 və 2011-ci illərdə bərpaolunma işlərinə məruz qalmış və abidənin dam və üz örtüyü müasir inşaat materialları ilə əvəz edilmişdir. Ermənistan alimləri abidənin tarixini saxtalaşdıraraq onu alban köklərindən qopararaq erməni mədəniyyət nümunəsi kimi təqdim edirlər.

Azərbaycanın Ermənistan tərəfindən mənimsəmə siyasətinə məruz qalan digər maddi-mədəniyyət abidələri Qaraqoyunlu və Ağqoyunlu dövrünə aid türbələrdir. Laçın, Xocalı, Ağdam, Cəbrayıl bölgələrində yerləşən XIV-XV əsrlərə aid çoxlu sayda türbələr Ermənistan irsi kimi təqdim edilir. Şuşada yerləşən Mamay məscidinin ətrafındakı İslam dininə məxsus xatirə lövhəsi xristian nişanələrlə əvəzlənib [2, s.16].

Ermənistanın Azərbaycan mədəni irsinə qarşı təcavüzünün digər forması azərbaycanlılara məxsus mədəniyyət abidələrinin farslaşdırılması siyasətidir. Buna Şuşa şəhərində yerləşən Yuxarı Gövhərağa məscidi nümunə ola bilər. Məscid Azərbaycan deyil, İran mədəni irsinin nümunəsi kimi təqdim olunur. Bu fikri beynəlxalq aləmdə möhkəmlətmək üçün erməni təcavüzkarlar məscidin bərpa işlərinə İranın memarlıq şirkətini cəlb ediblər. Halbuki Yuxarı Gövhərağa məscidinin XIX əsrin sonunda Qarabağ xanı İbrahimxəlil xanın qızı Gövhərağanın tapşırığı ilə memar Kərbəlayi Səfixan Sultanhüseyn oğlu Qarabaği tərəfindən inşa edildiyi məlumdur [5].

Azərbaycanım mədəniyyət irsinin dağıdılması, mənimsənilməsi və erməniləş-

dirilməsi siyasətinin bir qolunu respublikamızın ərazisində yerləşən maddi-mədəniyyət abidələrinin əksəriyyətinin guya erməni memarları tərəfindən inşa edilməsi konsepsiyası təşkil edir. 2010-cu ildə Ermənistanda erməni və ingilis dilində işıq üzü görmüş "Arsaxın erməni arxitekturasının müsəlman abidələri" adlı kitabçada Qarabağ ərazisində inşa edilmiş əksər memarlıq abidələrinin erməni memarları tərəfindən inşa edilməsi və erməni memarlıq üslubunun ciddi təsirinə məruz qalması kimi absurd fikirlər yer alıb [12].

Hazırkı Ermənistan Respublikası vaxtilə türk-azərbaycanlıların sıx məskunlaşdığı tarixi ərazidir.

**Nəticə**

Mədəniyyət insanları ümumi dəyərlər, baxışlar, adət-ənənələr vasitəsilə birləşdirir. Birgə yaradılmış mədəniyyət müxtəlif etnik qrupları bir-birinə yaxınlaşdıran, onlar arasında sülhü və əmin-amanlığı təmin edən, qarşılıqlı anlaşmanı gücləndirən amillərdəndir. Ziddiyyətli dövrümüzdə olduqca mühüm əhəmiyyət kəsb edən dinc yanaşı yaşamaq xalqların bir-birinin tarixinə, dininə, mənəvi dəyərləri və mədəniyyətinə hörmətlə yanaşmanı labüd edir. Qonşu olan xalqların qarşı tərəfin mədəniyyətinə, mənəvi dəyərlərinə diqqət və hörmətlə yanaşması olduqca önəmlidir. Lakin siyasi qüvvələrin revanşizm hisslərini əsassız qızışdırması, tarixi saxtalaşdıraraq qonşu xalqlara qarşı əsassız torpaq iddiaları irəli sürməsi və bu iddiaları əsaslandırmaq üçün davamlı olaraq tarixi saxtalaşdırması olduqca təhlükəli tendensiyadır və beynəlxalq hüquq normalarına ziddir. Qeyd etmək lazımdır ki, 1954-cü ildə "Silahlı münaqişələr zamanı mədəni dəyərlərin qorunması" ilə bağlı qəbul edilmiş Haaqa Konvensiyası, 1992-ci ildə qəbul edilmiş "Arxeoloji irsin qorunması" ilə bağlı Avropa Konvensiyası və "Dünya mədəni və təbii irsinin qorunması"nı tənzimləyən YUNESKO Konvensiyası münaqişə zonalarında olan tarixi və maddi-mədəniyyət abidələrinin taleyini nizamlayır və ölkələr qarşısında mədəni irsə hörmətlə yanaşılması ilə bağlı ciddi öhdəliklər qoyur. Təəssüf ki, bu sənədlər Ermənistan hökumətinin Azərbaycanın tarixi və mədəni irsinə qarşı təcavüzünün qarşısını ala bilməmişdir.

Ermənistanın artıq bir əsrdən də çox zaman çərçivəsində Azərbaycana qarşı yürütdüyü düşmən siyasəti xalqımızın tarixini, mədəni irsini mənimsəmək, dağıtmaq və saxtalaşdırmaq vasitəsilə həyata keçirilir. Düşünürük ki, Azərbaycan mədəniyyətinə qarşı bu təcavüzün qarşısının alınması ilk növbədə erməni tədqiqatçılarının saxtakarlıqlarının ifşa edilməsi, dağıdılmış mədəniyyət abidələri haqqında beynəlxalq ictimaiyyətin maarifləndirilməsi vasitəsilə mümkündür.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**

1. Алиев И. Лжеистория – очередная попытка оправдать агрессию. Баку, Нурлан, 2003.

2. Ermənistanın Azərbaycana məxsus mədəni və tarixi irsi mənimsəməsi. Bakı: Beynəlxalq münasibətlərin təhlili mərkəzi, 2021.

3. Əliyev İ. Dağlıq Qarabağ: Tarix, Faktlar. Hadisələr. Bakı, Elm, 1989.

4 .Əliyev İ., Məmmədzadə K. Qarabağın alban abidələri. Bakı, Azərnəşr, 1997.

5. Фатуллаев, Ш. С. Памятники Шуши. Баку, Элм, 1970.

6. Fernandez-Jalvo, Y. et al. Quaternary deposits at the lesser Caucasus. The

Armenian corridor. Geological Society of America, July 24, 2003.
7. Hacıyev Q. Qarabağın maddi və mənəvi mədəniyyəti (Azərbaycan, ingilis, fransız dillərində). Bakı, Təhsil, 2011.
8. Hacıyev Q Qarabağın maddi və mənəvi mədəniyyəti Azərbaycanın maddi və mənəvi mədəniyyətidir // AMEA Folklor İnstitutu beynəlxalq elmi konfransın materialları. Bakı, 2006.
9. Hacıyev Q. Qarabağ bölgəsində alban mədəniyyəti izləri və onların tarixi xüsusiyyətləri//"Qarabağ dünən, bu gün və sabah". QAT. 10-cu elmi-əməli konfransının materialları. Bakı, 2011.
10. İsmayılov K., Balayev A. Azərbaycanın tarixi-mədəniyyət abidələrinə qarşı erməni terroru. Bakı, Maarif, 2020.
11. Каганкатваци, Мовсес. История страны Алуанк (в 3-х книгах) / Перевод с древнеармянского Ш. В. Смбатяна. Ереван: Институт древних рукописей им. Маштоца — Матенадаран, 1984.
12. Karapetyan S. Muslim monuments of Armenian architecture of Artsakh. Yerevan, 2010.
13. Kortoshian R. The Endangered Christian Armenian Heritage. Yerevan, Research on Armenian Architecture Foundation, 2022.
14. Qafqazda mədəni-dini irsin qorunması. Beynəlxalq Elmi Konfransın Tezislər Toplusu. Bakı, 2015.
15. Гусеинов Р. "К истории арменизации и упразднения албанской церкви Гандзасара". IRS. 86 (№ 2), 2017.
16. Мамедова, Г. Зодчество Кавказской Албании, Баку: Чашыоглу, 2004
17. Мамедова, Ф. Кавказская Албания и албаны. Баку: Азернешр, 2005.
18. Shushi Carpets. A Treasure in Yerevan. https://www.youtube.com/watch?v=-TRK0hVe1iQ.– müraciət tarixi 17.10.23.

*Yusifova Kəmalə Xəlil qızı,*
*iqtisad üzrə fəlsəfə doktoru, baş müəllim,*
*Azərbaycan Dillər Universiteti,*
*E-mail: yusifovakemale38@gmail.com*

## İNKLÜZİV TƏHSİLİN SOSİAL MÜHİTİ

Müasir cəmiyyətin əsas prinsipi - hüquq və azadlıqların bərabərliyi inklüziv proseslər vasitəsilə üzə çıxır. İnsan cəmiyyət daxilindəki fərqlərə hörmət və sosial dəyər kimi tanınmasında özünü göstərir.

Azərbaycan Respublikasında müasir dövlət təhsil siyasətinin prioriteti bütün kateqoriyalı vətəndaşlar üçün təhsilin əlçatanlığını və keyfiyyətini artırmaq, psixofiziki vəziyyətindən, inkişaf xüsusiyyətlərindən və digər fərqlərindən asılı olmayaraq, tələbələrin uğurlu sosiallaşmasını təmin etməkdir. Bu gün Azərbaycanda inklüziv təhsil təcrübələrinin yaradılmasında maraqlı təcrübə formalaşıb. Lakin buna baxmayaraq inklüziv təhsilin inkişafı ilə bağlı strateji vəzifələr həll olunmamış qalır.

İnklüziv təhsil qeyri-inklüziv cəmiyyətdə inkişaf edə bilməz. Bu, insanın öyrən-

mə və inkişaf ehtiyaclarını ödəməyə kömək edir. Lakin geniş sosial kontekst olmadan öz-özünə əlilliyi olan şəxslərin həyat keyfiyyətini ardıcıl olaraq yaxşılaşdırmır. Beləliklə, bir çox alimlər nəzəri və eksperimental olaraq sübut edir ki, əlilliyi olan gənclər öyrənməyə güclü diqqət yetirirlər və öyrənmənin cəlbediciliyini sosial eyniləşdirmə imkanı ilə əlaqələndirirlər.

İnklüzivlik cəmiyyətin bütün üzvlərini sosial həyata, gündəlik təcrübələrə daxil etməyə, hər cür maneələri aradan qaldırmağa yönəlmiş bir proses kimi qəbul edilir. Məhz fərqliliklərdə inklüzivlik aradan qaldırılmalı olan çətinliyi deyil, cəmiyyətin inkişafı üçün resurs görməyə çağırır. Bundan əlavə, inklüziv cəmiyyət fərqləri silmək əvəzinə müxtəlifliyi dəstəkləməyə çalışır (1, s. 126).

Beləliklə, inklüzivlik cəmiyyətə faydalı olmaq üçün əlilliyi olan şəxslərin, o cümlədən uşaqların "normal" olması fikrinin rədd edilməsinə gətirib çıxarır. Bu, insanın dəyərlərini və cəmiyyət üçün fərdiliyini anlamaqda bizi ənənəvi olaraq müəyyən edilmiş sosial sərhədlərdən (və məhdudiyyətlərdən) kənara çıxmağa təşviq edir. İnklüziv təhsilin davamlı inkişafı üçün sosial sərmayə tələb olunur.

İnklüzivlik sosial həyat üçün yeni paradiqma, sosial institutların, sosial proseslərin və sosial təcrübələrin ciddi transformasiyasını tələb edən sosial struktur müəyyən edir ki, bu da hər bir şəxs üçün digər mühüm insanlar və bütövlükdə cəmiyyətlə birlikdə maksimum birlik hissinə nail olmağı nəzərdə tutur. Cəmiyyət əlilliyi olan uşağı inklüziv şəraitdə təhsilə hazırlamaqla yox, ictimai şüurda adi paradiqmanın dəyişdirilməsi ilə məşğul olmalıdır. Bu zaman əlilliyi olan uşağı deyil, əksinə təhsil prosesini, kurikulumları, proqramları, tədris və tərbiyə prosesini uyğunlaşdırır.

İnklüzivlik sosial quruluşa yeni yanaşmanı nəzərdə tutur və buna görə də sosial institutların transformasiyasını tələb edir. Onu süni şəkildə yetişdirmək, əkmək və ya daha mütərəqqi bir fenomen kimi təqdim etmək olmaz. Onun inkişafı yalnız sosial institutların sosial qurulması yolu ilə davam edə bilər ki, bu da cəmiyyətin həyatının bütün sahələrinin istisnasız olaraq bütün şəxslərin təkcə bioloji deyil, həm də sosial və psixoloji ehtiyaclarının ödənilməsinə yönəldilməsini nəzərdə tutur. Cəmiyyətdə inklüzivliyin inkişafı cəmiyyət, dostluq, sevgi, tanınma istiqamətində faydasızlıq, tənhalıq, yadlaşma hissini aradan qaldırmağa yönəlmiş bu cür sosial təcrübələrə məcburi dəstək göstərməlidir.

Buradan aydın olur ki, əlçatan mühitin yaradılması və inklüzivliyin sosial risklərinin aradan qaldırılması inklüziv proseslərin inkişafının yalnız başlanğıcıdır ki, onların davamlı inkişafı həm kütləvi şüur səviyyəsində, həm də ictimai şüurda maneələrin aradan qaldırılmasını tələb edir. Daxilolma mexanizmləri sosial xarakter daşıyır (2).

Bununla belə, inklüziv təhsilin öyrənilməsinə yerli elmi yanaşmalarda, ilk növbədə, onun texnoloji tərəfinə diqqət yetirilir:

- müəllimlərin inklüziv təhsil mühitində işləməyə hazırlığı;
- müəllimlərin xüsusi biliklərə malik olması;
- sağlamlıq imkanları məhdud uşaqların tədrisi vasitələrinin olması.

Təcrübəli müəllimlərin fikrincə, inklüziv təhsilin prioritetinin əlilliyi olan şagirdlərlə korreksiya işi olması fikri üstünlük təşkil edir. İnklüziv təhsil sahəsində xarici tədqiqatların təhlili göstərir ki, onun fenomenoloji xüsusiyyətləri kimi diqqət sosial aspektlərə yönəldilir. Bunlar iştirak və qəbuldur.

Beləliklə, sosial mənada inklüziv təhsil aşağıdakı kimi təzahür edir:

- iştirak inklüzivliyin hərəkətverici qüvvəsidir;

- inklüziv təhsil qeyri-bərabər iştirakın aradan qaldırılması məqsədi daşıyır;

- inklüziv cəmiyyət fərdlərə inklüziv imkanlar verən açıq cəmiyyətdir; inklüziv təhsil daxil edilmiş cəmiyyətə aparan yoldur;

- inklüziv təhsilin sosial missiyası uşaqlara komandada işləməyi, ünsiyyət qurmağı, başqaları ilə birlikdə inkişaf etməyi, birliyə can atmağı, müxtəlifliyə dəyər verməyi öyrətməsi ilə müəyyən edilir.

Beləliklə, inklüziv təhsil cəmiyyətin davamlı inkişafını təmin edən gənc nəsildə demokratik dəyərlərin formalaşdırılmasında ən mühüm sosial institut rolunu oynayır . Yuxarıda göstərilənlərlə əlaqədar olaraq, təhsilin inklüziv potensialının qiymətləndirilməsi meyarlarının hazırlanması aktuallaşır.

Bu gün inklüziv təhsil sistemi innovativ bir fenomendir. Azərbaycanda inklüzyonun tətbiqi, yayılması texniki-iqtisadi göstəricilərin və ölkənin qlobal mövqeyinin nəzərə alınmasını tələb edən uzunmüddətli və mərhələli bir prosesdir. Onun təhsil praktikasında uğurlu tətbiqini təmin etmək üçün zəruri olan aprobasiya və sınaq mərhələlərindən keçməlidir.

Uğurlu inklüzivlik üçün xüsusi təhsil ehtiyacı olan uşaqlara təhsil resurslarına çıxış, fərdi dəsdək, tədris materialları və metodlarının uyğunlaşdırılması təmin edilməlidir. Bu tədbirlərə təkcə ümumi təhsil proqramlarında iştirak deyil, həm də təlim prosesində tələbələrin fərdi dəstəyi də daxil edilməlidir. Bundan əlavə, o, təhsil prosesinin bütün iştirakçılarının, o cümlədən müəllimlərin, valideynlərin və digər maraqlı tərəflərin iştirakını əhatə etməlidir.

Nəhayət, Azərbaycanda inklüziv təhsil sisteminin tətbiqi təhsilin keyfiyyətinin yüksəldilməsinə, fərdi ehtiyac və qabiliyyətlərindən asılı olmayaraq bütün uşaqlar üçün imkanların genişlənməsinə səbəb olmalıdır. İnklüziv təhsil sistemi ədalət, bərabərlik, hörmət və tolerantlıq prinsiplərinə əsaslanmalıdır. İslah (xüsusi) təhsil kütləvi təhsilə paralel, ayrıca sistem kimi fəaliyyətini davam etdirməli, ixtisaslaşdırılmış təhsil müəssisələri ləğv edilməməlidir. Psixoloji, tibbi-pedaqoji komissiyadan keçərkən və sonradan təhsil müəssisələrinə yerləşdirərkən uşağın real imkanlarını daha diqqətlə qiymətləndirmək lazımdır.

Xüsusi (korreksiya) təhsil müəssisələrində müxtəlif formalarda əqli geriliyi olan uşaqlar (əqli qüsurlu) təhsil almalıdırlar.

“Erkən müdaxilə” mərhələsində inklüziv yanaşma zəruridir; tibb işçilərinin və yüksək ixtisaslı mütəxəssislərin (müəllimlərin) erkən yaşda (həssas dövr) aktiv işləməsi gələcəkdə nəticələri minimuma endirəcək, qüsuru kompensasiya edəcək və düzəldəcəkdir.

İnklüziv təhsil sisteminin tətbiqi ilə məşğul olan təhsil müəssisələrinin kadr təminatı bu sistemin səmərəliliyinə nail olunmasında əsas rol oynayır. Bu baxımdan, bütün uşaqların keyfiyyətli təhsilini təmin etmək üçün zəruri olan xüsusi təhsil sahəsində kadrların ixtisaslarının artırılması və onların biliklərinin genişləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Bütün təhsil müəssisələrində mənəvi-əxlaqi keyfiyyətlərin inkişafına diqqət yetir-mək, əxlaqi xarakter formalaşdırmaq, səbir, mərhəmət, alicənablıq tərbiyə etmək lazımdır.

Əlilliyi olan şəxslərin peşə və təhsil potensialının əmək bazarında reallaşdırılması dövlətin əlillərə münasibətdə həyata keçirdiyi inklüziv təhsil siyasətinin səmərəlili-

yinin meyarı kimi qəbul edilməlidir. Müasir nöqteyi-nəzərdən inklüziv təhsilin mənşəyi xüsusi təhsildə deyil, ixtisaslaşdırılmış təhsildədir ki, bu da təhsil müəssisəsinə problemin həllində fərdi və ya məqsədyönlü yanaşmaya diqqət yetirməyə imkan verəcək.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**


1. Əhmədov H. Azərbaycan təhsilinin inkişafı strategiyası. Bakı, 2010. səh. 126.
2. http://www.anl.az/down/meqale/elmi_eser_bqu/2019/04/806289(meqale).pdf



*Əsgərov Rəşad Hüseynağa oğlu,*
*fəlsəfə üzrə fəlsəfə doktoru, dosent,*
*aparıcı elmi işçi,*
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu*
*E-mail: asgarov_rashad@mail.ru*


## AZƏRBAYCANDA İNKLÜZİV TƏHSİL: PROBLEMLƏR VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

Azərbaycan XX əsrin sonlarında müstəqilliyini yenidən əldə etdikdən sonra bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də genişmaştablı islahatlar həyata keçirilməyə başlandı. Xüsusilə də Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə gəlməsi nəticəsində təhsil sahəsində mühüm dəyişikliklər olunmağa başladı. Əvvəlcə sovet təhsil sistemindən ümumavropa təhsil sistemi olan Baloniya təhsil sisteminə keçid üçün müxtəlif qanunvericilik aktları və yeni təhsil qanununun yaradılması prosesinə start verildi. Beləliklə, sovet təhsil sistemindən tədrici imtina və yeni sistemə keçid mərhələsində yeni yanaşma və metodların tətbiqi təhsilin həm forma, həm də məzmununda böyük dəyişikliklərə səbəb oldu. Bu siyasətin layiqli davamçısı olan Prezident İlham Əliyevin fəaliyyəti nəticəsində isə proses daha sürətli vüsət almış, təhsillə bağlı Azərbaycan cəmiyyətinin qarşılaşdığı digər problemlərin həlli istiqamətində mühüm nailiyyətlər əldə edilmişdir.

Azərbaycan Respublikasında qanunvericiliyə əsasən 9-cu sinfə qədər bütün uşaqlar üçün təhsil icbaridir. Amma müəyyən qədər sağlamlığında qüsurlar olan və ya məhdud sağlamlığa malik olan şəxslər təhsil prosesində müəyyən qədər çətinliklərlə üzləşirlər. Bu problemlərdən birincisi sağlamlıq imkanları məhdud şəxslərin inklüziv təhsilə cəlb olunmasıdır. Xüsusilə də məhdud sağlamlığa malik olan uşaqlar sağlam uşaqlarla bir sinifdə təhsil alarkən onlar vaxt və biliyin mənimsənilməsi baxımından müəllimlərin zamanını daha çox alırlar. Bu baxımdan bəzən valideynlər bu məsələdə güzəştə getməkdən daha çox uşaqlarının təhsil aldığı siniflərdə sağlam uşaqların oxumasını tələb edirlər. Əks halda onlar uşaqların siniflərini dəyişməklə problemi həll etməyə çalışırlar. Halbuki sağlamlıq imkanları məhdud olan uşaqlar sağlamlarla bir sinifdə inklüziv təhsilə cəlb olunarkən onlar özlərini ruhi və psixi baxımdan rahat hiss edirlər. Elə bu səbəbdən də müstəqilliyimizin ilk illərində orta ümumtəhsil müəssisələrində məhdud sağlamlıq imkanlarına malik olan uşaqlar üçün yaradılmış interaktiv

siniflər tədricən inklüziv siniflərə inteqrasiya olundu. Bunun müsbət nəticələri ilə yanaşı, mənfi xüsusiyyətlərinin olması da gözlənilən idi. Belə ki, inklüziv siniflərdə təhsil alan uşaqlar sağlam uşaqlar tərəfindən müəyyən hallarda bəzən bulinqə məruz qalır və ya müxtəlif jarqon ifadələrlə adlandırılırlar. Bu hal isə inklüziv təhsil prosesinin ümumi mahiyyətinə müəyyən qədər problemlər yarada bilər.

İkinci bir problem isə bizim orta təhsil müəssisələrimizin inklüziv təhsilə maddi texniki təminat baxımından hazır ola bilməməsidir. Özəl təhsil müəssisələri istisna olmaqla orta təhsil müəssisələrimizin əksəriyyətində tampus, lift və siniflərin geniş olmaması səbəbində sağlamlıq imkanı məhdud şəxslərin hərəkət etməsində və sinifdən sinifə getməsi prosesində müəyyən çətinliklər yaranır.

Üçüncü bir məsələ isə inklüziv təhsil prosesinə cəlb olmuş gənclərin təhsildən sonrakı mərhələdə peşə seçimi ilə bağlıdır. Statistik göstəricilərə əsasən sağlamlıq imkanları məhdud şəxslərin əksəriyyəti peşə təhsili və orta ixtisas təhsili müəssisələrində təhsil almağa üstünlük verir. Onların arasında barmaqla sayılacaq sayda ali təhsil müəssisələrinə qəbul olunanlarla rastlaşırıq. Nümunə üçün deyə bilərik ki, Bakı Dövlət Universitetinin 2000 tələbəsi olan "Sosial elmlər və psixologiya" fakültəsində cəmi 2 nəfər sağlamlıq imkanı məhdud şəxs təhsil alır. Bu hal sağlamlıq imkanı məhdud olan şəxslərin və ya inklüziv təhsilə cəlb olunmuş gənclərin daha çox yüngül və yardımçı peşələrə meyilli olmasının göstəricisidir.

Dördüncü məsələ isə sağlamlıq imkanları məhdud şəxslərin məşğulluğu problemidir. Aydındır ki, sahibkarlıq subyektləri xidmət və istehsal müəssisələrindəki fəaliyyətləri nəticəsində daha çox gəlir əldə etməyi düşünür. Odur ki, onlar məhdud sağlamlığa malik olan məzunları işə götürməkdə maraqlı olmurlar. Əmək qanunvericiliyinə görə, bütün müəssisələrdə işçilərin sayından asılı olaraq 3 faizə qədər məhdud sağlamlıq imkanına malik işçilər işə götürməlidirlər. Amma əksər dövlət müəssisələrində bu kvota yerinə yetirilmədiyi halda, özəl müəssisələrdə də bu kvotanın həyata keçirilməsi qeyri-mümkün olur. Dövlət bəzən sahibkarları bu məsələyə təşviq etmək məqsədi ilə məhdud sağlamlığa malik olan şəxsləri işə götürən müəssisələrdə işçilərin əmək haqqının 50 faizi miqdarında yardım və kompensasiya ödəyəcəyi ilə bağlı siyasət həyata keçirsə də, əfsuslar ki, bu sahədə də biz problemin həlli istiqamətində mühüm dəyişikliklərə nail ola bilməmişik.

Növbəti sonuncu problem isə, fikrimizcə, inklüziv təhsil prosesini başa vuraraq müəyyən ixtisasa yiyələnmiş sağlamlıq imkanları məhdud şəxslərin müstəqil həyata qatıldıqdan sonrakı adaptasiya prosesidir ki, burada da onlar həm şəxsi həyatlarının qurulmasında, həm də işlədiyi müəssisə və təşkilatlardakı insanlarla əlaqələrinin davamlı və sabit inkişaf etdirilməsində müəyyən problemlərlə qarşılaşırlar. Bu hal isə sağlamlıq imkanları məhdud şəxslərin həyatında müəyyən izlər qoymuş olur.

Beləliklə, inklüziv təhsil prosesinə cəlb olunmuş gənclərin həyatında yaranan müəyyən pozitiv dəyişikliklər, bir tərəfdən, onların şəxsiyyət kimi formalaşmasına, digər tərəfdən isə, müəyyən peşələrə yiyələnərək öz həyatlarını qura bilməsinə töhfə vermiş olur. Onların fəaliyyətlərində rast gəlinən müəyyən çatışmazlıqların aradan qaldırılması istiqamətində isə dünya ölkələrinin müxtəlif innovativ metodlarının tətbiqi sayəsində inanırıq ki, problemin aradan qaldırılması istiqamətində bu, mühüm nailiyyətlərin əldə olunmasına səbəb olacaqdır.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**

1. Mahmudov M. Baloniya prosesi: problemlər, perspektivlər, reallıqlar. Bakı, Elm və təhsil, 2010.
2. Mərdanov M. Azərbaycan təhsili yeni inkişaf mərhələsində. Bakı, Çaşıoğlu, 2009.
3. Xəlilov Səlahəddin. Təhsil, təlim, tərbiyə. "Azərbaycan Universiteti" nəşriyyatı, Bakı, 2005.
4. Mahmudov M. Dünyada və Azərbaycanda təhsil sistemi. Bakı, AzTU-nun nəşri, 2005.

*Cəfərova Məhsəti Sabir qızı,*
*fəlsəfə üzrə fəlsəfə doktoru,*
*Bakı Biznes Universiteti,*
*E-mail: ceferovamehseti@mail.ru*

## AİLƏ MÜHİTİNDƏ YARANAN ÇƏTİNLİKLƏRİN ARADAN QALDIRILMASI YOLLARI

Araşdırmalardan məlum olmuşdur ki, ailə özünəməxsus fəaliyyətə və inkişaf qanunauyğunluqlarına malik qrup olmaqla, ən qədim və əhəmiyyətli sosial institutdur (1, səh. 211). Qeyd edək ki, ailə bütün tarixi dövrlərdə şəxsiyyət və cəmiyyət münasibətləri mənbəyi olmuş, həmişə dəyişikliyə məruz qalmışdır. Araşdırmamız nöqteyi-nəzərdən vurğulamaq lazımdır ki, ayrı-ayrı tarixi dövrlərdə və müxtəlif siyasi, iqtisadi, təsərrüfatçılıq mühitlərində, həm də milli kontekstlərdə ailələr müvafiq olaraq çətin durumlara düşmüşlər. Hazırkı dövrdə də bir sıra ailələr mühit, vəziyyət və fəaliyyət sferalarına görə çətin məqamlarla üzləşirlər. Bu baxımdan biz bəzi hallarda inkişaf etmiş ölkələr nümunəsində ABŞ-da mövcud ailə problemlərinə nəzər yetirəcəyik. Dünyada urbanizasiya, hərtərəfli inkişaf və inteqrasiya, əhalinin intensiv miqrasiyası, iqtisadi çətinliklər, ailədaxili münaqişələr və sair proseslər ailə problemlərini yaradır. Bu sırada, həmçinin qadınların ərdən iqtisadi asılılığı, dini, əxlaqi qadağalar, alkoqolizm, narkomaniya da ailə boşanmalarını artıqmaqdadır. Əlbəttə, bu prosesdə xarici və ailədaxili amillər mövcuddur. Xarici mühitdən ailəyə təsir müxtəlif xarakterlidir. Bəzən bu amillərin aradan qaldırılmasında qarşısıalınmaz çətinliklər özünü göstərir. Daxili amillərə gəldikdə isə qeyd edək ki, ər-arvad, valideyn-övlad, ailədaxili çəkişmələr və s. belə ziddiyyətlər aradan qaldırıla bilər.

### Ailənin icmalı

Ailə qan, nikah, övladlığagötürmə və ya qarşılıqlı öhdəlik əsasında qohum olan və bir-birinə qayğı göstərən iki və ya daha çox adamdan ibarət qrupdur. Bu şəkildə müəyyən edilən ailə universaldır. Ailənin bəzi forması bizim bildiyimiz hər bir cəmiyyətdə mövcud olmuşdur.

Tarixdə əvvəlki cəmiyyətlərin bir çoxunda nüvə ailələri olsa da, antropoloqlar tərəfindən araşdırılan bir neçə cəmiyyətdə belə ailələr olmamışdır. Bu cəmiyyətlərdə ata uşağı olandan sonra qadınla yaşamır və onları ya nizamsız görür, ya da heç gör-

mür. Atanın və nüvə ailəsinin olmamasına baxmayaraq, bu tip ailə quruluşu belə cəmiyyətlərdə yaxşı işləmişdir. Xüsusilə uşaqlara qayğı göstərilir və öz cəmiyyətlərinin məhsuldar üzvləri kimi böyüyürlər.

Ailələrə, qadın və uşaqlara qarşı zorakılıq, həmçinin məişət sahəsində həyata keçirilən zorakılıq halları beynəlxalq aləmdə çox ciddi pozuntular hesab edilməklə, aradan qaldırılması vacib sayılan məsələlərdir (3, səh. 123).

Əslində, nüvə ailələri əksər cəmiyyətlərdə norma olaraq qalsa da, praktikada onlar tarixi, nadir bir şeydir: təxminən bir əsr əvvələ qədər bir çox həyat yoldaşları öldü və bir çox körpələr nikahdan kənar doğuldular. Məsələn, orta əsrlər Avropasında insanlar xəstəlik, qidalanma və digər problemlərdən erkən ölürdülər. Erkən ölümün nəticələrindən biri o idi ki, bir çox uşaq valideynlərindən ən azı biri yaşaya bilər və beləliklə, mahiyyətcə tək valideynli ailələrdə və ya ögey ailələrdə böyüyürdü.

Amerika müstəmləkəsi dövründə müxtəlif ailə tipləri çoxaldı və nüvə ailəsi heç də yeganə növ deyildi. Köçəri yerli Amerika qruplarının nisbətən kiçik nüvə ailələri, köçəri olmayan qrupların isə daha böyük ailələri var idi. Afrikalı, amerikalı qullar arasında nüvə ailələri əldə etmək çətin olduğundan qullar geniş ailələr inkişaf etdirmək, yetimləri övladlığa götürmək, qan və ya nikah əlaqəsi olmayan digər insanları qəbul etməklə uyğunlaşdılar. Orta ömür uzunluğu cəmi 45 il olduğu üçün müstəmləkə uşaqlarının bir çox avropalı valideynləri öldülər.

Valideynlərindən ən azı birindən çox yaşamış uşaqların üçdə biri və ya yarısı ögey ailələrdə və ya yalnız sağ qalan valideynləri ilə yaşayırdı. Analar torpaqda işləmək və başqa işlərlə o qədər məşğul idilər ki, onlar uşaq baxımına nisbətən az vaxt ayırırdılar, bunun əvəzinə böyük uşaqlara və ya qulluqçulara həvalə olunurdu.

ABŞ tarixində çox irəliləyərək İkinci Dünya müharibəsi başa çatdıqdan sonra 1940-cı illərdə Amerika ailələrində mühüm dəyişiklik baş verdi. Kişilər Avropada və Yaponiyada hərbi xidmət keçdikdən sonra evə qayıtdıqda kitab, jurnal və qəzetləri mütaliə etməklə qadınları uşaq dünyaya gətirməyə və uşaq sahibi olmağa təşviq edirdilər. İnsanlar daha gənc yaşlarda evləndilər və doğum nisbəti yüksəldi, nəticədə indi məşhur körpə bumu nəsli yarandı . Bu arada boşanmaların sayı azalıb. Avtomobil və digər fabrik işləri çoxaldıqca milli iqtisadiyyat inkişaf etdi və bir çox ailə ilk dəfə öz evlərinə sahib olmaq arzusunda idi. Şəhərətrafı qəsəbələr yarandı və çoxlu ailələr həmin yerlərə köçdü.

Bununla belə, 1950-ci illərdə amerikalı uşaqların 60 faizindən az hissəsi ailə başçısı-evdar ailələrində yaşayırdı. Üstəlik, çoxları yoxsulluq içində yaşayırdılar, çünki o zaman yoxsulluq səviyyəsi indiki səviyyədən demək olar ki, iki dəfə yüksək idi. Yeniyetmələrin hamiləlik nisbətləri indiki ilə müqayisədə, təxminən, iki dəfə yüksək idi.

1960-1970-ci illərdə qadınlar işçi qüvvəsinə daxil olmağa başladılar. Onlar bunu ailələrinin gəlirlərini artırmaq və daha çox özünü təmin etmək üçün ediblər. 1960-cı ildə bu rəqəm 19 faizdən az idisə, 6 yaşından kiçik uşağı olan evli qadınların 60 faizindən çoxu işçi qüvvəsi idi.

İkinci Dünya müharibəsindən sonrakı dövrlərdə SSRİ daxilində də ailələrdə problemlər yaşanmaqda idi. Bir çox ailələrdə ailə başçılarının həlak olması ailənin iqtisadi durumuna, eyni zamanda, sosial-mənəvi vəziyyətə öz mənfi təsirini göstərirdi. Bu proses digər müttəfiq respublikalarla bərabər, Azərbaycana da mənfi təsir göstərmişdir. 1950-1970-ci illərdə Azərbaycan ailələri dinc quruculuq fəaliyyətinə qoşularaq

həm də elm, təhsil sahəsində də çətinlikləri dəf edirdi. Ölkədə, demək olar ki, boşanma halları sıfıra enmişdi. Radio, televiziya, teatr, kino yaradıcılığı, mədəniyyətin, incəsənətin inkişafına diqqətin artırılması-bu sahələrə ailələrdə maraq dairəsini getdikcə çoxaldırdı. Sovet dönəmində bütün bunlardan, əsasən, tədqiqat vasitələri kimi istifadə edilirdi ki, bunda məqsəd  inkişafı, quruculuğu artırmaq, xalqı əməyə cəlb etmək, ölkənin iqtisadi, mədəni səviyyəsini yüksəltmək idi. Bütün bu proseslərdə qadın əməyindən daha çox istifadə prosesi ailə münasibətlərinin daha da münbitləşməsinə, yaxşılaşmasına kömək edirdi. Həmin dövrdə "bir nəfər hamı üçün, hamı bir nəfər üçün" devizi məşhur idi. Bu dövrlərdə Azərbaycanda da dövlət tərəfindən ailələrə qayğı artırılırdı, uşaq artımına xüsusi diqqət və qayğı ilə yanaşılırdı. Beləliklə, ölkəmizdə ailədaxili sabitlik qorunurdu və ailə münaqişələri yox dərəcəsində idi. Bu da ailənin sosial funksiyalarının normal inkişafına zəmin yaradırdı.

**Ailənin sosial funksiyaları**

Funksional perspektiv sosial institutların sosial sabitliyinin qorunmasına və başqa şəkildə cəmiyyətin işləməsinə kömək etmək üçün bir sıra mühüm funksiyaları yerinə yetirdiyini vurğulayır. Beləliklə, ailənin funksional anlayışı onun sosial institut kimi cəmiyyətin mümkün olmasına kömək etdiyi yolları vurğulayır. Beləliklə, ailə bir sıra vacib funksiyaları yerinə yetirir(4, səh. 181).

*Birincisi, ailə uşaqların sosiallaşması* üçün əsas vahiddir. Heç bir cəmiyyət öz gənclərinin adekvat sosiallaşması olmadan mümkün deyil. Əksər cəmiyyətlərdə ailə sosiallaşmanın baş verdiyi əsas vahiddir. Valideynlər, bacı-qardaşlar və ailə nüvə deyil, genişdirsə, digər qohumların hamısı uşaqların doğulduğu andan sosiallaşmasına kömək edir.

İkincisi, ailə ideal olaraq öz üzvləri üçün *əməli və emosional dəstəyin* əsas mənbəyidir. O onlara yemək, paltar, sığınacaq və digər zəruri əşyaları təmin edir, həmçinin onlara sevgi, rahatlıq və emosional sıxıntı zamanı kömək edir, digər növ dəstək verir.

Üçüncüsü, ailə *cinsi fəaliyyətin və cinsi çoxalmanın tənzimlənməsinə* kömək edir. Bütün cəmiyyətlərdə insanın kiminlə və nə qədər tez-tez cinsi əlaqədə olmasını tənzimləyən normalar var. Ailə bu normaları öyrədən əsas vahid və cinsi çoxalmanın baş verdiyi əsas vahiddir. Bunun bir səbəbi körpələrin doğulduğu zaman adekvat emosional və praktiki qayğıya sahib olmasını təmin etməkdir.

Dördüncüsü, ailə öz üzvlərinə *sosial kimlik* verir: uşaqlar valideynlərinin sosial təbəqəsində, irq və etnik mənsubiyyətində, dinində və s. Bəzi uşaqlar valideynlərindən aldıqları sosial kimliyə görə həyatı boyu üstünlüklərə malikdir, digərləri isə bir çox maneələrlə üzləşirlər, çünki onların doğulduğu sosial təbəqə və ya irq-etnik mənsubiyyət sosial iyerarxiyanın ən aşağısındadır.

Ailənin funksiyalarını müzakirə etməklə yanaşı, ailənin funksional perspektivi belə hesab edir ki, adi ailə strukturunda,proseslərində qəfil və ya genişmiqyaslı dəyişikliklər ailənin, beləliklə də, cəmiyyətin sabitliyinə təhlükə yaradır. Məsələn, 1950-ci illərdə sosiologiya və evlilik ailə dərsliklərinin əksəriyyətində ailənin iqtisadi və uşaq tərbiyəsi ehtiyaclarını ödədiyinə görə ailəni təmin edən kişi-qadın evdar ailəsinin uşaqlar üçün ən yaxşı quruluş olduğunu iddia edirdi. Onlar xəbərdarlıq ediblər ki, bu tənzimləmədə istənilən dəyişiklik uşaqlara və bununla da, sosial institut kimi ailəyə və hətta cəmiyyətin özünə zərər verəcək.

**Gələcəkdə ailələr**

Bəlkə də, ən mühüm sosial institutumuz olan ailə, demək olar ki, hər kəsdə güclü ehtiraslar oyadır. Sosioloji nəzəriyyə və tədqiqatlar digər sosial elmlərin tədqiqatları ilə yanaşı, cəmiyyətimizin müzakirə olunan müxtəlif ailə problemlərini necə həll etməli olduğuna dair mühüm təsirlərə malikdir.

Dünyada yoxsulluq içində yaşayan çoxlu uşaq və ailələr mövcuddur. Onların yaşadıqları ev təsərrüfatlarına, əsasən, qadınlar başçılıq edirlər və belə ailələrin əksəriyyəti boşanma nəticəsində yaranır. Bütün bunların qarşısının alınması üçün dövlət maliyyə dəstəyinin artırılması, uşağa qulluq üçün subsidiyalar, peşə təhsili və işçi qüvvəsinə qayıtmaq və ya maaşlarını artırmaq istəyən qadınlar üçün məktəb təhsili üçün maliyyə yardımı, erkən uşaqlıq ziyarəti və müdaxilə proqramları, yoxsul qadınlara və onların uşaqlarına qidalanma və tibbi xidmət göstərən proqramların artırılması daxildi (2, səh.97).

Hazırda Azərbaycanda digər sahələrlə yanaşı, ailə siyasəti də dövlətimizin sosial və humanitar siyasətinin vacib istiqamətlərindəndir. Bu siyasətin mahiyyəti dövlət və cəmiyyətin həyatında ailənin rolunun daha da dəyərləndirilməsi, bu sahədə həlli vacib məsələlərin tez bir zamanda yerinə yetirilməsi ilə ölçülür. Qeyd edək ki, Azərbaycan ailəsi qədim tarixi köklərə, adət və ənənələrə söykənir, ailə nüvəsində qadın əsas amildir. "Cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir" (Azərbaycan Respublikasının Konstitusiyası, 17-ci maddənin *I hissəsi) müddəası iki* əsas məsələni dəqiq təyin edir:

- ailə cəmiyyətin əsas özəyidir;
- ailə dövlətin xüsusi himayəsindədir (5, səh. 153).

Sağlam, uzunömürlü və xoşbəxt Azərbaycan ailəsində insan şəxsiyyət kimi formalaşır, uşaqlar sağlam doğulur və tərbiyə olunurlar, psixoloji, fizioloji rahatlıq əldə edirlər, onların birgəyaşayışa olan tələbatları təmin edilir.

Hazırda Azərbaycan ailəsi özünün spesifik və xarakterik cəhətləri ilə dünya xalqlarına nümunədir. Belə ki, ölkəmizdə ailələrdə valideynlərə, yaşlılara hörmət və ehtiram bəslənilir, ailədə böyük-kiçik yeri gözlənilir, uşaqlara qayğılı münasibət mövcuddur, yaşlı valideynlərin qayğısı övladları tərəfindən həmişə diqqətdədir. Azərbaycanda 1 milyon 931 min 700-dən artıq ailə vardır və hər bir ailənin inkişafına, həssas qruplardan olan ailələrin problemlərinin vaxtında həllinə xüsusi qayğı və diqqətlə yanaşılır.

Dünyada ailə dəyərlərinin itirilməsi kimi bir təhlükənin olduğu hazırkı şəraitdə Şərq və Qərb milli dəyərlərini özündə birləşdirən Azərbaycan ailə modelinin daha da möhkəmləndirilməsi və təbliği dövlət siyasətinin vacib istiqamətlərindən birinə çevrilmişdir (5, səh. 154).

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**


1. Qolenkova Z.T., Akulia M.M., Kuznetsov V.N. Ümumi sosiologiya. Dərs vəsaiti. ADPU-nun mətbəsi, Bakı, 2014, 492 s.
2. Sosiologiya. Dərslik. Bakı, "Təknur" MMC-nin mətbəəsi. 2005, 295 s.
3. İsmayılova E.S. Fərdlər, qruplar və ailələrlə sosial iş. Dərs vəsaiti. Bakı, "Füyuzat" nəşriyyatı, 2022, 268 s.
4. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Dərslik. Bakı, "Qapp-Poliqraf" korporasiyası, 2003, 356 s.
5. Rəcəbli Hadı. Azərbaycan Respublikasının sosial müdafiə sistemi. Ali məktəblər üçün dərs vəsaiti. Bakı, MBM, 2012, 408 s.

*Eyvazova Tutu Ramiz qızı,*
*sosiologiya üzrə fəlsəfə doktoru,*
*Bakı Biznes Universiteti,*
*E-mail: tutu.eyvazova@mail.ru*

# MƏŞĞULLUQ MƏSƏLƏSİNİN TƏHLİLİ SOSİAL İŞ KONTEKSTİNDƏ

Dövlətin sosial sahədə apardığı siyasət müxtəlif sferaları, xüsusilə də məşğulluğun təmin olunması sahəsini əhatə edir. Tarixi dövrlərə nəzər saldıqda görmək olar ki, Dövlət siyasətinin bu sahədəki uğurları ilk növbədə sosial təhlükəsizlik sahəsindəki uğurları şərtləndirir. Dünya arenasında sosial təhlükəsizliyin təmini məsələsində qabaqcıl sıralarda dayanan dövlətlərin paralelinə çatmaq üçün inkişaf etməkdə olan ölkələr hansı tədbirləri görməlidir kimi suallara "The Politics of Democratic Consolidation" [5] kitabında belə bir cavab irəli sürülür ki, *demokratik konsolidasiyanın nəzəri tətbiqindən daha çox istifadə olunmalıdır*. Deməli, sosial təhlükəsizliyin təmin olunmasının mühüm sahəsi olan məşğulluğun təminində də demokratik ideyalara meyllənmək inkişafa yol açan istiqamətdir.

"Məşğulluq haqqında Azərbaycan Respublikasının Qanunu"na əsasən isə məşğulluq vətəndaşa yaşam üçün kömək sahəsidir. Məşğulluq dövlətin hüquqi, iqtisadi və təşkilati siyasətinin əsası olaraq, vətəndaşın əmək sahəsində, eləcə də işsizlərin sosial müdafiəsi sahəsində dövlət təminatını müəyyən edir. "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanun"da deyilir: "*Məşğulluq – Azərbaycan Respublikası vətəndaşlarının, ölkə ərazisində yaşayan vətəndaşlığı olmayan şəxslərin və əcnəbilərin Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan və bir qayda olaraq onlara qazanc* (*gəlir*) *gətirən hər hansı bir fəaliyyətidir*" [1].

"Məşğulluq haqqında Azərbaycan Respublikasının qanunu"nu təhlil edərkən belə nəticə çıxara bilirik ki, məşğulluğun təmini dövlətin iqtisadi durumundan asılı olmaqla yanaşı, həmin dövlətin ərazisində mövcud olan sülh şəraitindən, ölkədə əhalinin yerləşmə sıxlığından və yerləşmə coğrafiyasından asılıdır. Əlbəttə ki, məşğulluq həm də, dövlətin iqlim şəraitindən və beynəlxalq təşkilatlarla əməkdaşlığı kimi məsələlərdən də asılıdır. Dövlət düzgün, müasir daxili və xarici siyasət formalaşdırarsa, digər sosial siyasətin tətbiq olunduğu arenalar kimi məşğulluq sahəsində də müvəffəqiyyət qazana bilər. İnsanın məşğulluq növü və ya əmək qabiliyyətinə uyğun gələn işlə təmin olunması onun yaşadığı müddətdə həyat şəraitinə olan tələbatını ödəyə bilməsi üçün çox vacibdir. Onu da qeyd edək ki, insanın işlə təmin olunması, onun yaşam boyunca öz həyat şəraitini yaxşılaşdırması üçün vacibdir. Sosial sahənin əsas qolunu əmək şəraiti və məşğulluq təşkil edir. Əmək şəraiti və məşğulluq sosial sahədə dövlət siyasətinin uğurla reallaşdığı müstəvidir.

Hər bir vətəndaş əmək qabiliyyətinə uyğun sərbəst şəkildə seçdiyi məşğulluq növü ilə təmin edilməsində dövlətinin köməyindən istifadə edir. Dövlətin apardığı sosial siyasətin mərkəzində məşğulluqla bağlı olan tədbirlər dayanır. Əminliklə deyə bilərik ki, məşğulluğu təmin olunmuş əhalinin sosial vəziyyəti də qənaətbəxş olacaqdır. Bu təminatın əsas məzmunu "Məşğulluq haqqında Azərbaycan Respublikasının Qanunu" nun 6-cı maddəsinə əsasən məşğulluq sahəsində dövlət siyasətinin əsas istiqamətləri ilə müəyyən olunur [1]. Adı çəkilən dövlət siyasətinin başlıca istiqamətlərinin təhlilin-

dən irəli gələn bəzi xüsusi məqamları qeyd edək:

– bu Qanun çərçivəsində bütün vətəndaşların öz əmək fəaliyyətini və məşğulluq sahəsini sərbəst seçməkdə hüquqi cəhətdən imkanlarının bərabərliyi tanınır. Bu imkanlar bütün faktorlara, o cümlədən vətəndaşların dini, irqi, milli, cinsi, ictimai, siyasi mənsubiyyətinə, sosial mənşəyinə və ailə vəziyyətinə qarşı şəffafdır;

– qeyd olunan Qanuna görə vətəndaşların əmək və sahibkarlıq fəaliyyəti ilə bağlı təşəbbüslərinin müdafiə edilməsi və onların bu fəaliyyətlərinin inkişaf etdirilməsi məqsədilə onlara dəstəyin göstərilməsi nəzərdə tutulur;

– Qanun eyni zamanda vətəndaşların öz əmək qabiliyyətlərinə uyğun fəaliyyət və məşğulluq növünü seçərkən iradələrini ifadə etmələri üçün sərbəst şəraitin yaradılmasını nəzərdə tutur;

– məşğulluq idarələrində işsiz kimi qeydiyyatdan keçmiş və işə düzəlməklə bağlı çətinliyi olan vətəndaşların sosial müdafiəsinin və məşğulluğunun təminatına yardımçı ola biləcək tədbirlərin həyata keçirilməsi Qanunun nəzərdə tutduğu önəmli məsələlərdən hesab olunur.

Həmin Qanununun yenə 6-cı maddəsinə əsasən Azərbaycanda dövlətin məşğulluq siyasəti onun digər sahələrdə yürütdüyü siyasət ilə əlaqəli şəkildə həyata keçirilir. Bu maddədə təsbit edildiyi kimi, məşğulluq sahəsində dövlət siyasətinin əsas istiqamətlərini təşkil edən məsələlər [56] barədə aşağıdakıları qeyd etmək olar:

1. Məşğulluq fəaliyyəti növlərinin dövlətin sosial-iqtisadi sahədə yürütdüyü siyasətə uyğun şəkildə həyata keçirilməsi;

2. İşədüzəlmə problemi və sosial müdafiəyə xüsusi ehtiyacı olan vətəndaşlara əlavə iş yerləri açan işəgötürənlərin stimullaşdırılması;

3. Nəticə etibarilə məşğulluğun təminatına xidmət edəcək tədbirlərin işlənib hazırlanması və reallaşdırılması;

4. Ölkə vətəndaşlarının xarici ölkələrdə, həmçinin Azərbaycan vətəndaşlığı olmayan şəxslərin ölkəmizdə əmək fəaliyyəti ilə məşğul olmasına münbit şəraitin yaradılması;

5. Bütün bu və ya digər tədbirlərin həyata keçirilməsi zamanı əmək fəaliyyəti ilə bağlı beynəlxalq hüquq normalarına əməl olunması.

Azərbaycan Respublikasının sosial siyasətində isə yuxarıda sadaladıqlarımızla yanaşı, məşğul əhali qrupuna həm də Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və dövlət tərəfindən dəstəklənən başqa silahlı birləşmələrdə xidmət edənlər də aiddir. Demokratik dövlət olaraq Azərbaycan Respublikasının ərazisində qanuni əsaslarla əmək fəaliyyəti ilə məşğul olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, Azərbaycan Respublikasının hüdudlarından kənarda qanuni əsaslarla əmək fəaliyyəti ilə məşğul olan Azərbaycan Respublikasının vətəndaşları da məşğul şəxslərdir. Deməli, qazancı (gəliri) olan əhali qrupu elə məşğul əhali qrupudur.

İqtisadiyyat prizmasında isə məşğulluq elə münasibətlər toplusudur ki, burada başlıca meyar əhalinin əmək fəaliyyətində iştirakıdır. Burada məşğulluğu olan əhalinin əmək fəaliyyətində iştirak səviyyəsi, işçilərə olan tələbatın ictimai mənada təmin olunma ölçüsü, məvacibi ödənilən əmək fəaliyyəti, məşğulluq yerləri və gəlirin əldə olunmasına yönələn fərdi tələblər əsas münasibətləri şərtləndirir. Qeyd etdiklərimizə

əsaslanaraq deyə bilərik ki, məşğulluq əmək bazarının əsas xüsusiyyəti kimi çıxış edir.

Əmək fəaliyyətinə cəlb olunma formasına görə məşğul əhalini üç qrupa bölə bilərik: 1) muzdla işləyənlər; 2) işəgötürənlər və 3) özləri məşğul olanlar. Beynəlxalq təsnifata görə isə əhalinin məşğul hissəsinin altı qrupu vardır: muzdla işləyənlər; işəgötürənlər; öz hesabına işləyənlər; istehsal kooperativlərinin üzvləri; ailənin yardım göstərilən üzvləri; statusuna görə təsnif olunmayanlar.

Bu təhlilə əsaslanaraq deyə bilirik ki, məşğulluğun müxtəlif təsnifatları mövcuddur. Deməli, məşğul şəxslərin qruplara ayrılmasında və təsnifatında vahid bir prinsip yoxdur. Fikrimizcə, bu məsələ elmi baxımdan əhalinin məşğul qruplarının dəqiqləşdirilməməsindən irəli gəlir. Belə deyə bilərik ki, tədqiqat sahəsində daha başqa təsnifatlar da mövcud ola bilər.

Məşğul əhalinin sosial rifahı məsələsi isə daim aktual məsələ olmuşdur. Əhalinin sosial rifahının yaxşılaşdırılması prosedurasının ilk addımı məhz əhali kütlələrinin məşğulluğunun təmin olunmasıdır. Məşğul şəxs ailə sahibi olduqda isə bu məsuliyyət daha da artmış olur. Keçmiş Sovetlər zamanı əhalinin məşğulluğunun təmin olunması dövlətin başlıca öhdəliyi olaraq qəbul edilmiş məsələ idi. Lakin bazar iqtisadiyyatına keçidlə bağlı olaraq ölkəmizdə şəxsin məşğulluğunun təmini məsələsi bir növ həmin şəxsin qabiliyyəti və məsuliyyəti ilə bağlı bir hala çevrilmişdir. Şübhəsiz burada dövlətin bazara müdaxiləsi və mövcud iş yerlərinin saxlanılması və daha çox vakant iş yerlərinin təşkili məsələsi məşğulluq siyasətinin obyekti rolunu oynamaqdadır. Burada məşğul və ya işə ehtiyacı olan şəxs (qeyri-məşğul şəxs) mövcud müstəvidə diqqətlə öyrənilməlidir.

Azərbaycan qanunvericiliyi çərçivəsində əhalinin məşğulluğunun təmin edilməsində üç prinsip əsas götürülür.

Əhali məşğulluğunun təmin edilməsinin *başlıca prinsipi* dövlətin əsas qanunu olan ölkə Konstitusiyasının vətəndaşlar üçün müəyyən etdiyi hüquqlardır. Bu hüquqlar vətəndaşların öz əmək qabiliyyətlərinə uyğun məşğulluq və əmək fəaliyyəti növünü sərbəst olaraq seçməsi imkanlarını tənzimləyir. Təbii ki, burada Konstitusiyamıza əsasən məcburi əməyin qadağan edilməsini qeyd etməliyik.

Dövlətin vətəndaşına Konstitusiya vasitəsilə verdiyi bu hüquqlardan tam istifadə edə bilməsi üçün münbit şəraitin yaradılması əhali məşğulluğunun təmin edilməsinin *ikinci prinsipinə* aid edilir. Bu məsələ isə öz növbəsində dövlətin digər qanunvericilik aktları ilə tənzimlənir. "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunu" nda müvafiq maddə vardır. Bu prinsipə görə bütün vətəndaşların əmək fəaliyyətinin və məşğulluq növünün seçilməsində sərbəst iradə nümayiş etdirilməsinə şərait yaradılır.

Əhali məşğulluğunun təmin edilməsinin *üçüncü prinsipinin* əsas məzmununu məşğulluq probleminin kompleks yanaşma ilə həlli təşkil edir. Belə olan tərzdə məşğulluğun mərkəzləşmiş üsulu dövlət tərəfindən inkar edilir. Məşğulluq tədricən həyata keçirilir. Bu prinsipdə əsas yük qanunlara, müvafiq sahədəki proqramlara düşür. Qısası, məşğul əhali özü məşğulluğun əsas istiqamətlərini, onun dəyişməsini müəyyənləşdir, məşğul şəxslərin keyfiyyəti yüksəldilir, onun daxili və beynəlxalq bazardakı rəqabət gücü artırılır.

**İstifadə olunmuş ədəbiyyat siyahsı:**

1. “Məşğulluq haqqında” Azərbaycan Respublikasının Qanunu” / Azərbaycan Respublikası Prezidentinin 2 iyul 2001-ci il 170 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.

2. Hüseynzadə D. Azərbaycan Respublikasında yoxsulluq problemi və onun həlli yolları (2003-2008-ci illər) / Bakı: Tarix və onun problemləri, Nəzəri, elmi, metodik jurnal, –2014. №4, –s. 216-222.

3. Эйвазова Т.Р. Национальная безопасность независимого Азербайджанского государства: сущность и обеспечение // –Казань: Обмен знаниями в образовательном процессе. Сборник научных трудов, –за март 2021. –с.93-97.

4. Петров С.В. Социальные опосности и защита от них Учебное пособие / С.В. Петров, –Москва: КнаРус, –2017. –272с

5. The Politics of Democratic Consolidation. Edited by R.Gunther P. Nikiforos Diomandouros and Hans –Jurgen Puhle / Washington: Johns Hopkins University Press, –1995. –576p.

*Məmmədova Aynur Akif qızı, müəllim,*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti,*
*E-mail: mmedova82@mail.ru*

# ULU ÖNDƏRİN FƏALİYYƏTİNDƏ MÜSTƏQİL DÖVLƏTÇİLİK İDEYALARI

## Giriş

Böyük strateq Heydər Əliyev hələ Azərbaycana rəhbərliyinin birinci dövründə ölkənin inkişafı istiqamətində gördüyü işlərlə, qəbul etdiyi cəsarətli qərarlarla, həyata keçirdiyi tikinti-quruculuq tədbirləri, habelə bir neçə onillikdən sonra müstəqillik əldə edəcək respublikamızın gələcəyinə hesablanmış digər məqsədyönlü addımları ilə özünün Ümummilli Lider obrazını yaratmış, tarix isə böyük öndərin bu statusunu bütün mərhələlərdə qorumuşdur. 60-cı illərədək Azərbaycan aqrar ölkəsi kimi tanınırdı. Onun əsas sənaye mənbəyi neft idi. Lakin məhz Heydər Əliyev hakimiyyətinin ilk illərindən qəti addımlar atmaqla respublikaya olan bu münasibəti dəyişməyə nail oldu. Belə ki, qısa müddət ərzində həm yüngül, həm də ağır sənaye inkişaf etdi, bir sıra zavod və fabriklər istifadəyə verildi. Yaradılmış yeni iş yerləri əsasında insanların rifah halı daha da yaxşılaşdı.

Heydər Əliyev o illərdə respublikanı nəhəng tikinti meydançasına çevirmək, iri-miqyaslı obyektlərin, strateji əhəmiyyətli sənaye müəssisələrinin inşasına xüsusi əhəmiyyət verməklə yanaşı, bir sıra yeni təhsil ocaqları, o cümlədən Cəmşid Naxçıvanski

adına hərbi məktəbi yaratmışdı. Bu hadisə azərbaycanlıların döyüş ruhunun inkişaf etdirilməsində mühüm rol oynamışdır. Ordu quruculuğunda bu məktəbin rolu böyükdür. Respublikamız müstəqillik əldə etdikdən sonra hərbi liseyin məzunları ordumuzun yaranmasında, vətənimizin ərazi bütövlüyünün qorunması uğrunda mübarizədə həmişə ön cəbhədə olmuşlar. Qarabağ döyüşlərində vuruşan Azərbaycan zabitlərinin 70%-dən çoxu hərbi liseyin yetirmələridir.

İndi dünya analitiklərinin böyük önəm verdiyi milli mədəniyyətin yayılması siyasətini Heydər Əliyev hələ sovet dövründə özünəməxsus tərzdə həyata keçirirdi. Çünki Ulu Öndər Azərbaycanı dünyada məhz milli dəyərləri, tarixi, mədəniyyət özəlliyi ilə tanıdırdı. Məhz onun təşəbbüsü ilə ölkənin tanınmış musiqiçiləri, şairləri, yazıçıları, müğənniləri, bəstəkarları, artistləri dünyanın ayrı-ayrı ölkələrində çıxış edirdilər. Əlbəttə ki, burada siyasi məqam da var idi, o da Azərbaycanı tanıtmaq idi.

Təbiətcə musiqinin vurğunu olan, incə və həssas musiqi duyumuna, zövqünə malik olan, Azərbaycan və dünya mədəniyyətinin bədii nümunələrini həvəslə dinləyən, dövlət rəhbərliyində də, şəxsi həyatında da, ailəsində də musiqidən ayrılmayan, musiqi və musiqiçilər haqqında peşəkar musiqi tənqidçisi kimi çox dəyərli rəy və fikirlər söyləyən, musiqişünaslığın elmi fikir və ideyalar dairəsini zənginləşdirən, daim musiqiçilərlə dostluq edən Heydər Əliyevin həyat və fəaliyyətini musiqi mədəniyyətindən ayrı təsəvvür etmək qeyri-mümkündür. Hətta o Zərifə xanımın müşayiəti ilə mahnılar ifa edərək bundan çox böyük zövq alırdı. O, musiqiyə dərindən bağlı bir şəxsiyyət kimi bu sənətə, onun yaradıcılarına, problemlərinə daim böyük diqqət yetirmiş, sənət adamlarına hörmət və ehtiramla yanaşmışdır.

Musiqimizə, mədəniyyətimizə verdiyi yüksək qiymət və qayğı özünü, o cümlədən Heydər Əliyevin mədəniyyət işçilərinə münasibətində də göstərirdi. Prezidentin teatr tamaşasının premyerasında iştirakı və yaxud da teatrın truppasını qəbul etməsi, onlara yaradıcılıq uğurları arzulaması, neçə-neçə bəstəkarın, rəssamın, respublikada görkəmli muğam ustalarının yaradıcılıq gecələrinin, yubileylərinin keçirilməsi ilə bağlı sərəncamları mədəniyyətimizin həyatında önəmli rol oynamışdır.

Heydər Əliyev sevməklə yanaşı, həm də onu musiqini insanlara sevdirirdi. Bu onun böyük maarifləndirmə missiyasından irəli gəlirdi. Heydər Əliyev yaşlı nəslin yaradıcılığına da çox böyük qayğı göstərmiş, gənc nəslin yaradıcılıq imkanlarının genişlənməsinə hərtərəfli yardım etmişdir.

Ulu Öndər Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövrü Azərbaycan tarixinə siyasi, sosial-iqtisadi və mədəni yüksəliş dövrü kimi daxil olaraq xalqın milli mənlik şüurunun, müstəqillik ideallarının oyanışına güclü təkan vermişdir. Ulu Öndər hələ o dövrlərdən milli inkişafın yeganə yolunu xalqın yüksək təhsil almasında, maariflənməsində görmüş, respublikada elmin inkişafı üçün bütün zəruri tədbirləri həyata keçirmişdir. O, yaxşı bilirdi ki, cəmiyyətin tərəqqisinə, elmin, mədəniyyətin inkişafına təsir göstərən ən qüdrətli vasitələrdən biri də təhsildir.

Heydər Əliyev şəxsiyyətinin böyüklüyü məhz onda idi ki, o, bütün fəaliyyəti bo-

yu bu sahələrə diqqət və qayğısını əsirgəməmiş, cəmiyyətdə yüksək bilikli, intellektual və elitar təbəqənin formalaşmasına çalışmışdır. Təsadüfi deyildir ki, 1969-1982-ci illər həm də Azərbaycan elminin, təhsilinin intibah dövrü kimi xatırlanır. Heydər Əliyev öz fəaliyyəti və siyasi təcrübəsində hər zaman elmi fikrin ən yeni, mütərəqqi nailiyyətlərindən faydalanmış, cəmiyyətin, xalqın inkişaf zəminini elmdə, maariflənmədə görmüşdür. Ulu Öndərin ötən əsrin 70-80-ci illərində gənclərin respublikada və onun hüdudlarından kənarda yüksək səviyyədə təhsil almasına, ixtisaslı kadr kimi yetişməsinə hər cür şərait yaradırdı.

Məlum olduğu kimi müasir dövrdə qadınların kişilərlə bərabər hüquqa malik olması, yüksək dövlət vəzifələrində çalışması, lider olması, təhsil alması olduqca vacibdir. Hələ, 1974-cü ildə "Azərbaycan qadını" jurnalının 50 illik yubiley təntənəsində Ulu Öndər Heydər Əliyev demişdi: "Biz çalışmalıyıq ki, ali məktəblərdə və texnikumlarda daha çox qadın təhsil alsın, elmi fəaliyyətlə məşğul olsun. Xüsusən, kənddə qadınlar və uşaqlar arasında bədən tərbiyəsi və idmanın daha da inkişaf etdirilməsi problemlərinə biz diqqətimizi xeyli artırmalıyıq".

Heydər Əliyev Azərbaycanla, onun tarixi və bu günü ilə bağlı biliklərin tədrisinə böyük önəm verir və bunu vətənpərvərlik tərbiyəsinin ən mühüm amili hesab edirdi. Bununla əlaqədar Heydər Əliyev belə demişdir:"... Müstəqil Azərbaycanın hər bir gənci məktəbdə milli təhsil alaraq, öz xalqının, millətinin qədim zamanlardan indiyə qədər olan tarixini gərək yaxşı bilsin. Əgər bunu bilməsə o, həqiqi vətəndaş ola bilməz. Əgər bunu bilməsə o, millətini qiymətləndirə bilməz. Əgər bunu bilməsə o, millətinə olan münasibəti ilə istənilən səviyyədə fəxr edə bilməz" [1,54]. Ulu Öndərin bu gün də yaşamaqda olan ideya-siyasi varlığına öz münasibətimizi təkcə iftixar hissi keçirməklə deyil, həm də bu ideya dünyasını öyrənmək, tədqiq etmək və həyata keçirməklə ifadə etməliyik. Əsas məsələ bu ideyalara sahib çıxan yeni nəslin yetişdirilməsidir.

### İstifadə olunmuş ədəbiyyat siyahısı:

1. "Heydər Əliyev. Müstəqilliyimiz əbədidir". I. Bakı, "Şərq-Qərb", 2013, 632 s.
2. "Heydər Əliyev. Müstəqilliyimiz əbədidir". II. Bakı, "Şərq-Qərb", 2013, 752 s.
3. Heydər Əliyev. İki cilddə. I cild. (Müstəqillik illərinə qədərki dövr) - AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu. – Bakı: Turxan NPB, 2013, 500 səh.
4. Heydər Əliyev. İki cilddə. II cild. (Müstəqillik illəri dövrü) - AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu. Bakı: Turxan NPB, 2013, 704 səh.

*Bayramov Azad,*
*D.Sc. (Math.), Associate Professor,*
*Azerbaijan State Pedagogical University,*
*E-mail: azadbay@gmail.com;*

*Aslanov Hamidulla,*
*D.Sc. (Phys./Math.), Professor,*
*Institute of Mathematics and Mechanics of NAS of Azerbaijan,*
*E-mail: aslanov.50@mail.ru;*

*Mamed Bayramoglu,*
*D.Sc. (Math.), Professor,*
*Institute of Mathematics and Mechanics of NAS of Azerbaijan,*
*E-mail: mamed.bayramoglu@yahoo.com*

## ON ASYMPTOTIC OF SPECTRUM A DIFFERENTIAL OPERATOR WITH OPERATOR COEFFICIENTS WHICH HAS SINGULARIRTY

Let $H$ be a separable Hilbert space. In separable Hilbert space $L_2(0,\infty;H)$ we consider the operator $L$ defined by the differential expression

$$l(y) = -\big(p(x)\,y'(x)\big)' + \left[A - Q(x) + \frac{\beta}{x^2}\right] y(x)$$

with the boundary condition

$$y(0) = 0.$$

Here $\beta$ is a positive integer, $A$ is a nonnegative self-adjoint operator from $D(A)$ to $H$ such that $(A-I)^{-1}$ is a compact operator. It is supposed that the following conditions are satisfied:

1) For every $x \in [0,\infty)$, $Q(x)$ is a positive self-adjoint operator from $H$ to $H$ and $\|Q(x)\| < const.$

2) For $a > 0$, $Q(x)$ is a decreasing operator function in $[a,\infty)$ and $\|[A + cI - Q(x)]^{-1}\|$ is continuous function for a constant $c > 0$.

3) $\lim\limits_{x\to\infty} \|Q(x)\| = 0.$

4) There are constants $c_1$ and $c_2$ such that $0 < c_1 \le p(x) \le c_2$.

5) $p(x)$ is continuous, nondecreasing function and it has bounded derivative on $[0,\infty)$.

Subject to condition 1)-5), it is proved that operator $L$ is bounded from below and negative part of the spectrum is discrete. It is obvious that for every $x \in [0,\infty)$,the operator $A - Q(x)$ has purely-discrete spectrum. Let $\gamma_1 \le \gamma_2 \le \cdots$ and $\beta_1(x) \ge \beta_2(x) \ge \cdots$ be the eigenvalues of the operators $A$ and $Q(x) - A$, respectively (each eigenvalue is written according to its multiplicity). Furthermre, let $k$ be the multiplicity of zero eigenvalues of the operator $A$:

$$\gamma_1 = \gamma_2 = \cdots \gamma_k = 0,\ \ k \geq 1, \gamma_k > 0.$$

For $\varepsilon > 0$, let $N(\varepsilon)$ denote the number of the eigenvalues of the the operator $L$ which are smaller than $-\varepsilon$. We find an asymptotic formula for $N(\varepsilon)$.

Assume that, the function $\beta_1(x)$ satisfies the following condition:

a) For any $t > 0$

$\lim_{x\to\infty} \beta_1(x)x^{k-t} = \lim_{x\to\infty} (\beta_1(x)x^{k+t})^{-1} = 0$ for every, where $k$ is a constant which belong to the interval $(0,2)$.

Now we can give the following main theorem without proof.

Theorem. If the conditions 1)-5) and a) are satisfied, then the asymptotic formula

$$N(\varepsilon) = \frac{1 + O(\varepsilon^{t_0})}{\pi} \sum_{j=1}^{k} \int_{\beta_j(x)\geq\varepsilon} \sqrt{\frac{\beta_j(x) - \varepsilon}{p(x)}}\, dx$$

holds for $\varepsilon \to +0$ where $t_0$ is fixed positive number.

Note that, the asymptotic formulas for negative eigenvalues of different differrential operators have been investigated in the papers of , B. Ya. Skachek[5], M.G. Gasymov, V.V. Zhikov B.M. Levitan [3], F.G.Maksudov, M.Bairamoglu, A.A. Adigezalov [4], A.A. Adigezalov, Ö, Bakşi, A.M. Bayramov[1], H.A. Aslanov, N.A.Gadirli [2] and others.

**References:**


1. Adigezalov A.A., Bakşi Ö., A.M. Bayramov A.M. : The asymptotic behavior of the negative part of the spectrum of Sturm-Liouville operator with the operator coefficient which has singularirty. International Journal of Differential Equations and Applications,vol.6, n.3,p.315-329,(2002).

2. Aslanov H.A., Gadirli N.A. On asymptotic distribution of negative eigen values of second order equation with operator coefficients on a semi-axis. Transactions of NAS of Azerbaijan, Issue Mathematics, 37 (1), 44–52 (2017).

3. Gasymov M.G., Zhikov, V.V., Levitan, B.M.: Discreteness and finiteness conditions of the negative spectrum of Shordinger's operator equation. Matemzametki, 2 (5), 531–538 (1967).

4. Maksudov F.G., Bairamoglu M., Adigezalov A.A.: On asymptotic of spectrum and trace of high order differential operator with operator coefficients. Doğa-Tr.J. of Mathematics 17, 113-128(1993).

5. Skachek, B.Ya.: Asymptotics of the negative part of the spectrum of one-dimensional differential operators , 96–109 (1963).

*Soltan Ali Aliyev,*
*D.Sc.( Phys./Math.), Professor,*
*Institute of Control Systems of the Ministry*
*of Science and Education of Azerbaijan Republic;*

*Sahib Ali Aliyev,*
*Ph.D. (Phys./Math.), Associate professor,*
*Nakhchivan State University*

# CONVERGENCE OF SEQUENCE OF BELLMAN-HARRIS PROCESSES TO CONTINUOUS STATE SPACE BRANCHING PROCESS

Let $\eta(t),\ t \geq 0$ be the number of particles of Bellman-Harris branching process at the moment of time $t$ ⥂⥂⥂ $(\eta(0) = 1)$ .

Distribution function of the lifetime of one particle $l$ we denote $G(t) = P\{l \leq t\}$. At the end of life the particle moves to $k$ newborns of the particles $(k = 0,1,2,\dots)$ with probability $p_k$ respectively. The number of particles in 0,1,2,…th generation of the process $\eta(t)$ is denoted by $\xi_0, \xi_1, \dots$ . It is known [1] that the variants $\xi_0, \xi_1, \dots$ from the Galton-Watson branching process with the generating function

$$F(s) = \sum_{k=0}^{\infty} P_k s^k = [S^{\xi} | \xi_0 = 1], |s| \leq 1.$$

Let $F(t;s)$ be the generating function of the number of particle in the Bellman-Harris branching process at the moment of time *t*.

$$F(t;s) = \sum_{k=0}^{\infty} P\{\eta(t) = k\} S^{\eta} = M[S^{\eta(t)} | \eta(0) = 1].$$

Now we consider the sequence of Bellman –Harris process $\eta^{(m)}(t), m = 1,2,\dots, t \geq 0$ with generating function

$$F^{(m)}(t;s) = M[S^{\eta(m)}(t) | \eta^{(m)}(0) = 1]$$

and with lifetime of one particle $l_m$.

Denote

$$G_m(t) P\{l_m \leq t\},\ a_m = \int_0^{\infty} t dG_m(t) < \infty,\ A_m = \left.\frac{dF^{(m)}}{ds}\right|_{s=1}, ⥂⥂\ \lim_{m\to\infty} a_m = a,$$

and suppose that $A_m \to 1$ as $m \to \infty$ and there exists a finite limit $b^{(m)}_{(\tau t/a)} / b^{(m)}_{(t/a)}$ as $n = [t/a], t \to \infty, m \to \infty, n(1 - A_m) \to 0$, where $b_t^{(m)} \to \infty$ are positive constants.

On this conditions the theorem about convergence of sequence of the Bellman-Harris normalized processes

$$\mu_t^{(m)}(\tau) = \frac{\eta^{(m)}(\tau t)}{B_m}, ⥂⥂\ \mu_t^{(m)}(0) = \frac{[x B_m(t)]}{B_m(t)},\quad B_m(t) = b^{(m)}_{[t/a]}$$

to the critical continuous state space branching process is proved.

## References:

1. Sevastyanov B.A. Branching processes, Nauke, Moscow (1971).

*Səbzəliyev Mahir Mirzəxan oğlu,*
*riyaziyyat elmləri doktoru, professor,*
*Bakı Biznes Universiteti*

# PARABOLİK TƏNLİYƏ CIRLAŞAN KVAZİXƏTTİ ELLİPTİK TƏNLİK ÜÇÜN ƏYRİXƏTLİ TRAPESİYADA QOYULMUŞ SƏRHƏD MƏSƏLƏSİNİN HƏLLİNİN ASİMPTOTİKASI

Sinqulyar həyəcanlanmış qeyri-xətti diferensial tənliklərə həsr olunmuş işlərin sayı xətti-diferensial tənliklərin tədqiqinə aid işlərdən xeyli azdır. Sinqulyar həyəcanlanmış qeyri-xətti diferensial tənliklər həsr olunmuş işlərin, demək olar ki, hamısında ya sərhəddi hamar olan oblastlarda, ya da düzbucaqlı oblastlarda qoyulmuş sərhəd məsələlərinə baxılmışdır ([1] – [4]). Bu işdə parabolik tənliyə cırlaşan sinqulyar həyəcanlanmış ikitərtibli kvazixətti elliptik tənlik üçün əyrixətli trapesiyada qoyulmuş sərhəd məsələsinin həllinin tam asimptotikası qurulur.

Fərz edək ki, $x = \phi_1(y)$, $x = \phi_2(y)$ funksiyaları $[a, b]$ parçasında təyin olunmuş və aşağıdakı şərtləri ödəyən kifayət qədər hamar funksiyalardır:

a) $y \in [a, b]$ olduqda $\phi_1(y) < \phi_2(y)$olur ;

b) $y \in [a, b]$ olduqda $\phi_1(y) < y$ və $\phi_2(y) > y$ olur;

c) $\phi_1(a) = a$, $\phi_2(b) = b$;

d) $y \in [a, b]$ olduqda $\phi_1'(y) < 1$, $\phi_2'(y) < 1$ olur.

Bu şərtləri ödəyən funksiyalara misal olaraq $\phi_1(y) = y - (y - a)^3$, $\phi_2(y) = (b - a)^3 + y$ funksiyalarını göstərmək olar.

Aşağıdakı işarələri qəbul edək:

$\Gamma_1 = \{(x, y) | x = \phi_1(y), a \le y \le b\}$, $\Gamma_2 = \{(x, y) | \phi_1(y) \le x \le \phi_2(y), y = b\}$,

$\Gamma_3 = \{(x, y) | x = \phi_2(y), a \le y \le b\}$, $\Gamma_4 = \{(x, y) | \phi_1(y) \le x \le \phi_2(y), y = a\}$.

$\Omega = \{(x, y) | \phi_1(y) \le x \le \phi_2(y), a \le y \le b\}$ oblastında aşağıdakı sərhəd məsələsinə baxılır.

$$L_\varepsilon u = -\varepsilon^p \left[\frac{\partial}{\partial x}\left(\frac{\partial u}{\partial x}\right)^p + \frac{\partial}{\partial y}\left(\frac{\partial u}{\partial y}\right)^p\right] - \varepsilon \Delta U + \frac{\partial u}{\partial x} - \frac{\partial^2 u}{\partial y^2} + au - f(x, y) = 0, \qquad (1)$$

$$u|_\Gamma = 0, \qquad (2)$$

burada $\varepsilon > 0$ - kiçik parametr, $p = 2k + 1$, $k$ - ixtiyarı natural ədəd, $a > 0$- ədəd, $f(x, y)$ - verilmiş funksiyadır, $\Gamma$ilə $\Gamma_1 \cup \Gamma_2 \cup \Gamma_3 \cup \Gamma_4$ işarə edilmişdir.

Məqsəd (1), (2) sərhəd məsələsinin həllinin kiçik parametrə nəzərən asimptotikasının qurulmasıdır. Asimptotikanı qurmaq üçün iterasiya prosesləri aparılır.

Birinci iterasiya prosesində (1) tənliyin təqribi həlli

$$W = W_0 + \varepsilon W_1 + \ldots + \varepsilon^n W_n \qquad (3)$$

şəklində axtarılır, $W_i; i = 0,1,\ldots,n$ funksiyaları elə şəkildə təyin ediləcək ki,

$$L_\varepsilon W = 0(\varepsilon^{n+1}) \qquad (4)$$

şərti ödənilsin.

$W$ -nin (3) –dəki ifadəsini (4)-də yazıb, qeyri-xətti hədləri $\varepsilon$ -nun dərəcələrinə görə ayırıb, $\varepsilon$ -nun eyni dərəcəli qüvvətlərini müqayisə etdikdə (3) –ün sağ tərəfinə daxil olan $W_i$funksiyalarını təyin etmək üçün aşağıdakı rekkurent tənliklər alınır:

$$\frac{\partial W_i}{\partial x} - \frac{\partial^2 W_i}{\partial y^2} + aW_i = f_1(x,y);\ i = 0,1,\ldots,n\,. \qquad (5)$$

Burada $i = 0$ olduqda $f_0(x,y) = f(x,y)$, $i = 1,2,\ldots,2k$ olduqda $f_i(x,y) = \Delta W_{i-1}$ ,

$i = 2k+1, 2k+2,\ldots,n$ olduqda $f_i(x,y) = \Delta W_{i-1} + g_i(W_0, W_1, \ldots, W_{i-1})$ götürülür. $g_i(W_0, W_1,\ldots, W_{i-1})$ funksiyaları $W_0, W_1,\ldots, W_{i-1}$ funksiyalarından və onların birinci, ikinci tərtib törəmələrindən polinimial şəkildə asılı olan məlum funksiyalardır. Məsələn,

$g_{2k+1}$ funksiyası $g_{2k+1} = \frac{\partial}{\partial x}\left(\frac{\partial W_0}{\partial x}\right)^{2k+1} + \frac{\partial}{\partial y}\left(\frac{\partial W_0}{\partial y}\right)^{2k+1}$ düsturu ilə təyin edilir.

Parabolik (5) diferensial tənlikləri həll edilərkən

$$W_i|_{\Gamma_1} = 0, W_i|_{\Gamma_2} = W_i|_{\Gamma_4} = 0;\ i = 0,1,\ldots,n \qquad (6)$$

sərhəd şərtlərindən istifadə olunur. (5) və (6)-dan alınır ki, birinci iterasiya prosesində qurulan $W$ funksiyası $W\ |_{\Gamma_1} = 0, W|_{\Gamma_2} = W\ |_{\Gamma_4} = 0$ sərhəd şərtlərini ödəyəcəkdir. Lakin $W$ funksiyası $\Gamma_3$üzərindəki bircins sərhəd şərtini ödəməyə bilər.

$\Gamma_3$ üzərində itən sərhəd şərtinin ödənilməsini təmin etmək üçün ikinci iterasiya prosesi aparaaraq $\Gamma_3$yaxınlığında sərhəd zolaq tipli elə $V$ funksiyası qurulmalıdır ki,

$$L_{\varepsilon,1}(W + V) - L_{\varepsilon,1}W = 0(\varepsilon^{n+1}) \qquad (7)$$

olmaqla $W + V$ cəmi

$$(W + V)|_{\Gamma_3} = 0 \qquad (8)$$

sərhəd şərtini ödəsin. Burada $L_{\varepsilon,1}$ ilə $L_\varepsilon$operatorunun $\Gamma_3$yaxınlığındakı yeni ayrılışlı işarə olunmuşdur. $L_\varepsilon$ operatorunun $\Gamma_3$ yaxınlığında yeni ayrılışını yazmaq üçün $\phi_2(y) - x = \varepsilon\varphi$ , $y = y_1$ düsturları üzrə yeni $(\varphi, y_1)$ koordinatlarına keçilir. $\Gamma_3$yaxınlığındakı $V$sərhəd zolağ tipli funksiya aşağıdakı şəkildə axtarılır:

$$V = V_0(\varphi, y_1) + \varepsilon V_1(\varphi, y_1) + \ldots + \varepsilon^{n+1} V_{n+1}(\varphi, y_1) \qquad (9)$$

(7) – (9) - $a$ əsasən $V_j; j = 0,1,\ldots,n+1$ funksiyaları aşağıdakı sərhəd məsələlərindən təyin edilir:

$$\delta_1^2(y_1)\frac{\partial}{\partial\varphi}\left(\frac{\partial V_0}{\partial\varphi}\right)^{2k+1}+\delta_2^2(y_1)\frac{\partial^2 V_0}{\partial\varphi^2}+\delta_3^2(y_1)\frac{\partial\ \ V_0}{\partial\varphi}=0, \qquad (10)$$

$$V_0|_{\varphi=0}=\Psi_0(y_1), \quad \lim_{\varphi\to+\infty} V_0=0;\ y_1\in[a,b] \qquad (11)$$

$$\frac{\partial}{\partial\varphi}\left\{\left[(2k+1)\delta_1^2(y_1)\left(\frac{\partial V_0}{\partial\varphi}\right)^{2k}+\delta_2^2(y_1)\right]\frac{\partial V_j}{\partial\varphi}\right\}+\delta_3^2(y_1)\frac{\partial V_j}{\partial\varphi}=H_j(\varphi,y_1) \qquad (12)$$

$$V_j\Big|_{\varphi=0}=\Psi_j(y_1),\ \lim_{\varphi\to+\infty} V_j=0;\ j=1,2,\dots,n+1;\ y_1\in[a,b] \qquad (13)$$

Burada

$\delta_1^2(y_1)=1+[\phi_2'(y_1)]^{2k+2}$, $\delta_2^2(y_1)=[1+\phi_2'(y_1)]^2$, $\delta_3^2(y_1)=1-\phi_2'(y_1)$,

$\Psi_i(y_1)=-W_i(\phi_2(y_1),y_1);\ i=0,1,\dots,n;\Psi_{n+1}(y_1)\equiv 0$, $H_j$ məlum funksiyalar olub, $V_0,V_1,\dots,V_{j-1}$ ; $j=1,2,\dots,n+1$ funksiyalarından asılıdır.

Beləliklə, (1), (2) sərhəd məsələsinin həlli üçün aşağıdakı asimptotik ayrılış alınır:

$$U=\sum_{i=1}^{n}\varepsilon^i W_i+\sum_{j=0}^{n+1}\varepsilon^j V_j+ \qquad (14)$$

Burada $Z$ ilə qalıq həddi işarə olunmuşdur.

İşdə alınan nəticələr aşağıdakı teorem şəklində ümumiləşdirilmişdir.

**Teorem.** Fərz edək ki, $f(x,y)\in C^{n+1,2n+6}(\Omega)$ və $\frac{\partial^{2r}f(x,a)}{\partial y^{2r}}=\frac{\partial^{2r}(x,b)}{\partial y^{2r}}=0$; $r=0,1,\dots,n+2$ şərti ödənilir. Onda (1), (2) sərhəd məsələsinin həlli üçün (14) asimptotik ayrılışı doğrudur. Buradakı $W_i$ funksiyaları birinci iterasiya prosesində (5), (6) sərhəd məsələlərindən təyin edilirlər, $V_j$ funksiyaları $\Gamma_3$yaxınlığında sərhəd zolaq tipli funksiyalar olub, (10), (11) və (12), (13) sərhəd məsələlərindən təyin edilir, $Z$ qalıq həddi olub, onun üçün aşağıdakı qiymətləndirmə doğrudur:

$$\varepsilon^p\iint_\Omega\left[\left(\frac{\partial Z}{\partial x}\right)^{2k+2}+\left(\frac{\partial Z}{\partial x}\right)^{2k+2}\right]dxdy+\varepsilon\iint_\Omega\left[\left(\frac{\partial Z}{\partial x}\right)^2+\left(\frac{\partial Z}{\partial y}\right)^2\right]dxdy+$$

$$+\iint_\Omega\left(\frac{\partial Z}{\partial y}\right)^2dxdy+c_1\iint_\Omega Z^2\,dxdy\le c_2\varepsilon^{2(n+1)}$$

Buradakı $c_1>0$ , $c_2>0$ sabitləri $\varepsilon$ -dan asılı deyildir.

## İstifadə olunmuş ədəbiyyat siyahısı:


1. Sabzaliyev M.M., Sabzaliyeva İ.M. Asymptotics of solution of a boundary value problem for quasilinear non classical type differential equation of azbitrary odd order. British journal of Mathematics Computer Science. 22(4): 1-19, 2017.

2. Sabzaliyev M.M., Kerimova M. E. Asymptotics of solution of a boundary value problem for a singularly perturbed quasilinear one-characteristic equation.

3. Transactions of NAS of Azerbaijan iss. math., mech., June -2020, XXXX, No.1, pp.176-186.

4. Sabzaliyev M.M., Sabzaliyeva I.M. On asymptotics of solution of a boundary value problem for a quasilinear hyperbolic equation in an infinite strip. Proceedings of the 7th International Conference on Control and Optimization with Industrial Applications (COIA 2020), 26-28 August, Baku Azerbaijan, vol.1, pp.344-346.

5. Səbzəliyev M.M., Tahirzade B.B. Sinqulyar həyəcanlanmış kvazixətti iki tərtibli diferensial tənlik üçün qoyulmuş sərhəd məsələsinin həllinin asimptotikası. Bakı Biznes Universiteti, Beynəlxalq elmi-praktiki konfransın materialları, Bakı – 2022, səh.171-175.

*Aslanov Həmidulla,*
*fizika-riyaziyyat elmləri doktoru, professor,*
*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi*
*Riyaziyyat və Mexanika İnstitutu,*
*E-mail: aslanov.50@mail.ru;*

*Axundov Ədalət,*
*riyaziyyat elmləri doktoru, professor,*
*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi,*
*Riyaziyyat və Mexanika İnstitutu,*
*E-mail: adalatakhund@mail.ru*

## RİYAZİYYATIN BƏZİ MƏSƏLƏLƏRİNİN TARİXİ HAQQINDA

İnsanların gündəlik həyatı və praktiki fəaliyyətində, habelə riyaziyyatın öz daxili inkişaf prosesində meydana çıxan riyazi məsələlər olduqca müxtəlif və rəngarəngdir. Riyaziyyat insan fəaliyyətinin sahələrinə, eləcə də bütün elmlərə nüfuz etdiyi üçün riyazi məsələlərin düzgün qoyuluşu və həlli yüksək qiymətləndirilir.

Riyazi məsələlərin bəziləri "riyaziyyatın incisi", "alınmaz qala", "məşhur" və s. kimi epitetlər qazanmışdır. Min illərdir ki, "Qədim dövrün məşhur məsələləri" diqqəti cəlb etmişdir. Bunlar dairənin kvadraturası (verilmiş dairənin sahəsinə bərabər olan kvadrat qurmaq), bucağın triseksiyası (verilmiş bucağı üç bərabər hissəyə bölmək), kubun ikiləşməsi (həcmi əvvəlcədən verilmiş kubun həcmindən iki dəfə böyük olan kubun tilini tapmaq), çevrənin bərabər hissələrə bölünməsi (düzgün n bucaqlı qurmaq, başqa sözlə, çevrəni yeni n bərabər hissəyə bölmək) və ayparanın kvadraturası (sahəsi verilmiş ayparanın sahəsinə bərabər olan düzxətli fiqur qurmaq) kimi məsələlərdir.

Bizim eradan əvvəl üçüncü minillikdə Nil sahillərində, Dəclə və Fərat arasındakı ərazidə yaşayan yüksək mədəni xalqlar astronomiya, mexanika və riyaziyyat haqqında müəyyən biliklər sisteminə malik olublar.

Axmesə məxsus və e.ə. XVII əsrdə yazılmış riyazi məzmunlu ən qədim Misir papirusunda olan məsələlərdən bəzisində dairəvi fiqurların sahəsinin tapılmasına aid

nümunələr vardır. Dairə sahəsinin və çevrə uzunluğunun hesablanmasının sonrakı mərhələsi isə Yunanıstanla bağlıdır. Şərqin formulsuz riyaziyyatından fərqli olaraq, yunanların əsərlərində ciddi riyazi isbatlara rast gəlirik. Falez və Pifaqor birinci olaraq öz məktəblərini yaratmış, onların ardıcılları isə dairənin kvadraturası məsələsi ilə məşğul olmuşlar. Plutarx yazır ki, Falesin ardıcılı olan Anaksaqor Allahın varlığını dandığına görə həbsxanada olarkən riyazi məsələlərlə, o cümlədən dairənin kvadraturası ilə məşğul olmuş, onu həll etməyə çalışmışdır.

Evdem "Həndəsənin tarixi” adlı əsərində öz dövrünün böyük alimlərinin bu məsələnin həllində aldığı bəzi nəticələr haqqında məlumat verir. Antifon öz Hippokrat məsələnin həlli üçün bəzi üsullar təklif etmişdir. Məsələn, Antifon çevrənin uzunluğunu tapmaq üçün onun daxilinə hər hansı düzgün çoxbucaqlı çəkir. Sonra onun tərəflərinin sayını ikiqat artırır. Prosesi bu qayda ilə davam etdirməklə elə çoxbucaqlı alır ki, onun perimetri çevrə uzunluğu olaraq qəbul edilir. O belə fərz edir ki, dairə ilə eyni sahəyə malik olan düzgün çoxbucaqlı qurmaq mümkündür. Əlbəttə, istənilən düzgün çoxbucaqlı ilə müadil olan kvadrat asanlıqla qurula bildiyindən, görünür, Antifon çevrə ilə müadil kvadrat qurmağın mümkün olması kimi səhv nəticəyə gəlinmişdir.

Riyaziyyatçıların bir qismi isə məsələni həll etmək üçün dairənin həm daxilinə, həm də xaricinə düzgün çoxbucaqlılar çəkib, həmin çoxbucaqlıların tərəflərinin sayını ikiqat artırır və belə hesab ediblər ki, dairənin sahəsi daxilə və xaricə çəkilmiş çoxbucaqlıların sahələrinin ədədi ortasına bərabərdir.

Xioslu Hippokrata görə, həmin məsələnin həlli üçün dairənin müəyyən hissəsinin, məsələn, sektorun, seqmentin, yaxud yarımdairənin kvadratlanan olmasını göstərmək kifayətdir. Həndəsənin ciddi və sistematik şərhi verilmiş Evklidin "Əsaslar" əsəri o dövrəqədərki riyaziyyatın inkişafına, bir növ, yekun vurdu. Dairənin kvadraturası məsələnin həllində əvvəllər istifadə olunmuş bir çox teoremlər burada isbat edilmişdir. O, qədim dövrün bu beş ən çətin məsələlərinin xətkeş və pərgarla həll edilən bəzi xüsusi hallarını nəzərdən keçirmişdir. Arximed isə "Dairənin ölçülməsi haqqında" əsərində ilk dəfə olaraq dairənin kvadraturası məsələsinin p ədədi ilə əlaqədar olduğunu qeyd etmişdir.

Kubun ikiləşməsi məsələsinin tarixi isə elmə məlum deyildi. Onun praktiki tələbat nəticəsində meydana çıxması güman edilir. Rəvayətə görə, Krit hökmdarı Minos heykəltaraşlara tapşırır ki, oğluna abidə ucaltsınlar. Onlar abidəni tili 100 dirsək olan kub formasında düzəldirlər. Bu, Minosun çox xoşuna gəlir və heykəli iki dəfə böyütmək haqqında əmr verir. Yeni kubun tilini heç cür təyin edə bilməyən memarlar kömək üçün riyaziyyatçılara müraciət edirlər. Riyaziyyatçılar da məsələni həll etməkdə aciz qalırlar. Arximedin "Kürə və silindir haqqında" əsərinə Yevdoksonun yazdığı şərhdən məlum olur ki, yunan riyaziyyatçıları içərisində bu məsələni həll etməyə çalışan ilk alim Hippokrat olmuşdur. Sonralar bu məsələnin həlli ilə Arxit, Platon, Heron, Eratosfen məşğul olmuşlar.

Berlin, Vyana, London, Mançester, Oksford, Təbriz və b. şəhərlərin muzeylərində saxlanılan əlyazmalarda Nəsrəddin Tusinin Arximedin həmin əsərinə yazdığı şərhlər vardır.

Bucağın triseksiyası məsələsi isə çevrənin bərabər hissələrə bölünməsi və düz-

gün çoxbucaqlıların qurulması məsələləri ilə sıx əlaqədar olub, tikinti texnikasında, memarlıqda ornamentlərin yaradılması zərurətindən meydana çıxa bilər. Hələ qədim vavilonlular çevrəni altı bərabər hissəyə bölməyi bacarıblar. Deməli, onlar çevrəni üç bərabər hissəyə bölməyi də bacara bilərdilər.

Çevrənin n bərabər hissəyə bölünməsi təbii olaraq düzgün n bucağının qurulmasına və $2\pi$ bucağının n bərabər hissəyə bölünməsinə ekvivalentdir. Hələ Pifaqor məktəbində xətkeş və pərgarın köməyi ilə düzgün $2^n$; $2^n$, 3; $2^n$, 5 bucaqlı qurmağı bacarıblar. Evklidin "Əsaslar" əsərində çevrənin daxilinə və xaricinə düzgün beşbucaqlı çəkmək haqqında məsələlər vardır.

Bu məsələlərin də tarixində birinci mərhələdə misirlilər və vavilonlular, ikinci mərhələdə isə qədim yunanlar dərin iz qoymuşlar. Bundan başqa, qədim çinlilər, hindlilər, romalılar da həmin məsələlərlə məşğul olmuşlar. Orta əsrlərdə Çin, Hindistan və bəzi islam ölkələrinin alimləri qədim yunan riyaziyyatçılarının əsərləri ilə tanış olmuş, onları öyrənməklə kifayətlənməmiş, özləri də bəzi nəticələr almışlar. Dairənin kvadraturası məsələsinə xüsusi əsər həsr etmiş Azərbaycan alimi Cəmşid Qiyasəddin Əl-Kaşini xüsusilə qeyd etmək lazımdır. Səmərqənddə Uluğbəyin rəsədxanasında çalışmış Əl-Kaşi birinci olaraq p ədədinin qiymətini $10^{-17}$ dəqiqliklə hesablamışdır.

Orta əsrlərdə Şərq və Avropa ölkələrində dairənin kvadraturası məsələsi ilə bərabər, digər məsələlərin həlli ilə də məşğul olmuşlar. Əbül-Vəfa kubun ikiləşməsi məsələsinə xüsusi əsər həsr etmişdir. Əl-Biruni "Qanuni, Məsud" əsərində bucağın triseksiyası üçün 12 üsul təklif etmişdir. Bu dövrdə Avropa riyaziyyatçıları da bu məsələ ilə məşğul olmuş və müəyyən nəticələr əldə etmişlər.

Nisbətən az populyar olmuş ayparanın kvadraturasının həlli ilə yalnız Hippokrat məşğul olmuşdur. Sonralar İbn-Əl-Xəysam "Ayparalar haqqında" adlı kitab yazmış və həmin kitabda Hippokratın nəticələri ilə bərabər özünəməxsus faktları şərh etmişdir. Vallenius və Eyler qapalı dairəvi kvadratlanan ayparaların mümkün beş növünü nəzərdən keçirmiş, bu hallardan hər birində məsələnin həlli müəyyən cəbri tənliyin həllinə gətirilmişdir. Onlar cəbri tənliyin kvadratura ilə həll oluna bilməsini, köklərin isə xətkeş və pərgar vasitəsilə qurulmasının mümkünlüyünü göstərmişlər.

Göründüyü kimi, bütün bu məsələlər qədim dövrlərdə insanların praktiki tələbatı nəticəsində meydana çıxmışdır. Yarandığı ilk dövrlərdə bu məsələlər hesablama xarakteri daşıyırdı. Axtarılan kəmiyyətlərin təqribi qiymətlərinin tapılması tələb edilirdi. Həmin məsələlərin tarixinin ikinci mərhələsində onlar artıq həndəsi (konstruktiv) xarakter daşıyırdı. Məsələlərin tarixində üçüncü mərhələ (VII-XVIII əsr) qədim Yunanıstandan əvvəl ki, Şərq ölkələrinə, sonra isə Avropaya keçmişdir. Lakin həm Şərqdə, həm də Avropada yunanların metodlarından istifadə edilmişdir, söz yox həmin metodlar getdikcə təkmilləşdirilmişdir. Bununla yanaşı, həmin məsələlərin həllinin cəbri tənliklər gətirilməsi prosesi başlanır və bəzi kəmiyyətlərin hesablanması üçün analitik üsullardan istifadə olunurdu. Leonard Eylerin işləri bu dövrün ən qiymətli nəticələrindəndir.

XVIII əsrin sonları və XIX əsrə kimi riyaziyyatın inkişafı nəticəsində əldə edilmiş metodların müvəffəqiyyətlə bu məsələlərin həllinə tətbiq olunması və "alınmaz qala"lardan dövrünün mürəkkəb işlərində istifadə edilməsi (çevrənin bərabər hissələrə

bölünməsi, bucağın triseksiyası, kubun ikiləşməsi, dairənin kvadraturası) ilə əlamətdar hadisələrdəndir. Görkəmli riyaziyyatçılar: N.Q.Çebotaryov və A.V.Dorodnov beşinci məsələni tam həll etmişlər. V.F.Kaqan, N.M.Nestroviç, A.Q.Smoqorjevski və başqaları bu məsələləri qeyri-Evklid həndəsəsinə keçirmiş və mühüm nəticələr almışlar.

*İsgəndərov Nizaməddin Şirin oğlu,*
*fizika-riyaziyat elmləri doktoru, professor,*
*Bakı Dövlət Universiteti,*
*E-mail: nizameddin_isgenderov@mail.ru*

## ÜÇ SƏPİLƏN DALĞA HALINDA BİRTƏRTİBLİ HİPERBOLİK TƏNLİKLƏR SİSTEMİ ÜÇÜN YARIMOXDA SƏPİLMƏ MƏSƏLƏSİ

İşdə ixtiyari $n \geq 5$ halında yarımoxda $(x \geq 0)$

$$\xi_i \frac{\partial \psi_i(x,t)}{\partial t} - \frac{\partial \psi_i(x,t)}{\partial x} = \sum_{j=1}^{n} c_{ij}(x,t)\psi_j(x,t) \qquad (1)$$

$$-\infty < t < +\infty, \xi_1 > \xi_2 > \ldots > \xi_{n-3} > 0 > \xi_{n-2} > \xi_{n-1} > \xi_n, i = \overline{1,n}.$$

Hiperbolik tənliklər sistemi üçün $n-3$ məsələyə birlikdə baxılmışdır. Burada $c_{ij}(x,t) i,j = \overline{1,n}$ ölçülən funksiyaları kompleks qiymətli $c_{ii}(x,t) = 0, (i = \overline{1.n})$ və

$$|c_{ij}(x,t)| \leq \frac{c}{(1+|x|)^{1+\varepsilon}(1+|t|)^{1+\varepsilon}}, c > 0, \varepsilon > 0 \qquad (2)$$

şərtini ödəyirlər.

Əmsallar üzərinə qoyulan şərtlər daxilində göstərmək olur ki, istənilən sanki hər yerdə məhdud həll $x \to +\infty$üçün aşağıdakı asimptotikaya malikdir:

$$\psi_j(x,t) = a_j(t + \xi_j x) + 0(1), j = 1,2, \ldots n-3,$$
$$\psi_j(x,t) = b_j(t + \xi_j x) + 0(1), j = n-2, n-1, n, \qquad (3)$$

Burada $a_j(s), b_j(s) \in L_\infty(-\infty,\infty)$.

Yarımoxda səpilmə məsələsi verilmiş gələn $a_1(s), \ldots, a_{n-31}(s)$ dalğalarına və

$$\psi_{n-2}^k(0,t) = \sum_{\substack{i\in\{1,\ldots,n-3\} \\ i\neq k}} \psi_i^k(0.t),$$
$$\psi_{n-1}^k(0,t) = \sum_{\substack{i\in\{1,\ldots,n-4\} \\ i\neq k}} \psi_i^k(0.t),$$
$$\psi_n^k(0,t) = \psi_k^k(0,t), k \in \{1,2,\ldots,n-3\} \qquad (4)$$

sərhəd şərtlərinə görə həllin tapılmasıdır.

(1) tənliklər sistemi üçün $n-3$ məsələyə birlikdə baxılması yarımoxda səpilmə məsələsi adlanır. Baxılan məsələləri ekvivalent inteqral tənliklərə gətirməklə aşağıdakı teorem isbat olunur.

Teorem: Əgər əmsallar (2) şərtini ödəyirlərsə, onda səpilmə məsələsinin sanki hər yerdə məhdud funksiyalar sinfində həlli var və yeganədir. Üstəlik

$$\psi_j^k(x,t) = b_j^k(t + \xi_j x) + 0(1), x \to +\infty, j = n-2, n-1, n, k = \overline{1, n-3}. \quad (5)$$

Qeyd edək ki, ekvivalent inteqral tənlik Volter tip olduğundan onun yeganə həlli var. Burada verilmiş $a(t) = \{a_1(t), \ldots, a_{n-3}(t)\}^t$ gələn dalğaları üçün yeganə həllər

var və bu həllər $b(t) = \{b^1(t),\ldots,b^{n-3}(t)\}^t$ asimptotikasına malikdir.

Beləliklə, $S:\{a_1(t),\ldots,a_{n-3}(t)\}^t \to \{b^1(t),\ldots,b^{n-3}(t)\}^t$ operatoru təyin olunur (t – transponirə işarəsidir), burada

$$b^k(t) = \begin{pmatrix} b_{n-2}^k(t) \\ b_{n-1}^k(t) \\ b_n^k(t) \end{pmatrix}, S = (S^1,\ldots,S^{n-3}), \rightleftarrows\rightleftarrows \tag{6}$$

$$S^k = \begin{pmatrix} S_{n-2,1}^k \rightleftarrows \ldots S_{n-2,n-3}^k \\ S_{n-1,1}^k \ldots \rightleftarrows S_{n-2,n-3}^k \cdot \\ S_{n,1}^k \ldots S_{n,n-3}^k \end{pmatrix}, k = \overline{1, n-3}, \tag{7}$$

S-operatoru yarımoxda səpilmə operatoru adlanır.

Tərs səpilmə məsələsi dedikdə verilmiş S operatoruna görə sistemin əmsallarının tapılması başa düşülür.

Tərs səpilmə məsələsi yarımoxda, bütün oxda təyin edilmiş tərs səpilmə məsələsinə gətirilir.

Bütün oxda tərs səpilmə məsələsi [1]-də öyrənilmişdir.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**


1. Нижник Л.П. Обратные задачи рассеяния для гиперболический уравнений. Киев: Наукова думка, 1991, 232с.



*Kərimova Məhbubə Ənvər qızı,*
*riyaziyyat üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti*


## KLASSİK TİPLƏRƏ AİD OLMAYAN SİNQULYAR HƏYƏCANLANMIŞ KVAZİXƏTTİ DİFERENSIAL TƏNLİK ÜÇÜN QOYULMUŞ SƏRHƏD MƏSƏLƏSİNİN HƏLLİNİN ASİMPTOTİKASI

Bir fiziki xarakteristikasından digərlərinə keçidləri hamar olmayan bir sıra real proseslərin öyrənilməsi yüksək tərtibli bəzi törəmələrin qarşısında kiçik parametr olan diferensial tənliklər üçün sərhəd məsələlərinin tədqiqinə gətirib çıxarır. Belə sinqulyar həyəcanlanmış sərhəd məsələləri N.N.Boqolyubov, Y.A.Mitropolskiy, V.Vazov, A.N.Tixonov, L.S.Pontryaqin, K.Fridrixs, M.İ.Vişik, L.A.Lyüsternik kimi görkəmli alimlərin diqqətini cəlb etmişdir. M.İ.Vişik və L.A.Lyüsternik tərəfindən onların [1], [2] əsərlərində sinqulyar həyəcanlanmış xətti diferensial tənliklər üçün metod (hazırda bu üsul bütün dünyada “Vişik-Lyüsternik metodu” adlanır) məlum olduqdan sonra bu sahədəki tədqiqatların sayı sürətlə artmışdır. Hazırda sinqulyar həyəcanlanmış diferensial

tənliklərə həsr olunmuş işlərin sayı kifayət qədər çoxdur. Lakin onların əksəriyyəti klassik tiplərə aid olan diferensial tənliklərə aiddir. Klassik tiplərə aid olmayan sinqulyar tənliklərə həsr olunmuş işlərin sayı çox azdır. Klassik tiplərə aid olmayan sinqulyar həyəcanlanmış diferensial tənliklərin tədqiqinə aid [3]-[5] işlərini misal göstərmək olar. Qeyd edək ki, sinqulyar həyəcanlanmış qeyri-xətti diferensial tənliklərə aid tədqiqatların sayı da xətti diferensial tənliklərə həsr olunmuş tədqiqatların sayından xeyli azdır. Bu işdə klassik tiplərə aid olmayan sinqulyar həyəcanlanmış kvazixətti diferensial tənlik üçün düzbucaqlı oblastda qoyulmuş sərhəd məsələsi tədqiq olunur.

$D = \{(x,y)|0 \le x \le 1, 0 \le y \le 1\}$ oblastında aşağıdakı sərhəd məsələsinə baxılır:

$$L_\varepsilon u \equiv \varepsilon^2 \frac{\partial}{\partial x}(\Delta u) - \varepsilon \Delta u + \frac{\partial u}{\partial x} + \frac{\partial u}{\partial y} + F(x,y,u) = 0, \qquad (1)$$

$$u|_{x=0} = u|_{x=1} = 0, \left.\frac{\partial u}{\partial x}\right|_{x=1} = 0, (0 \le y \le 1), \qquad (2)$$

$$u|_{y=0} = u|_{y=1} = 0, (0 \le x \le 1). \qquad (3)$$

Burada $\varepsilon > 0$ -kiçik parametr, $\Delta \equiv \frac{\partial^2}{\partial x^2} + \frac{\partial^2}{\partial y^2}$ -Laplas operatoru, $F(x,y,u)$ verilmiş, kifayət qədər hamar və aşağıdakı şərtləri ödəyən funksiyadır:

$$F(x,y,u) \ne 0, (x,y) \in D, \qquad (4)$$

$$\frac{\partial F(x,y,u)}{\partial u} \ge \gamma^2 > 0, (x,y,u) \in (D \backslash \{(x,y) \in D | x = y\}) \times (-\infty, +\infty). \qquad (5)$$

Qeyd edək ki, $F(x,y,u)$ funksiyası $u$ dəyişənindən həm xətti, həm də qeyri-xətti asılı ola bilər. Xətti asılılıq olduqda

$$F(x,y,u) = a(x,y)u - f(x,y), a(x,y) \ge \gamma^2, (x,y) \in D \qquad (6)$$

hesab edəcəyik.

Bu işdə məqsəd (1)-(3) sərhəd məsələsinin həllinin kiçik parametrə nəzərən asimptotik ayrılışını qurmaqdır. Bunun üçün iterasiya prosesləri aparılır.

Birinci iterasiya prosesində (1) tənliyinin təqribi həlli $W = \sum_{i=0}^{n} \varepsilon^i W_i$ şəklində axtarılır. Naməlum $W_0, W_1, \dots, W_n$ funksiyaları

$$\frac{\partial W_0}{\partial x} + \frac{\partial W_0}{\partial y} + F(x,y,W_0) = 0, \qquad (7)$$

$$\frac{\partial W_i}{\partial x} + \frac{\partial W_i}{\partial y} + \frac{\partial F(x,y,W_0)}{\partial W_0} W_i = f_i; i = 1,2,\dots,n. \qquad (8)$$

diferensial tənliklərindən təyin edilir. Burada $f_i$ ilə $W_0, W_1, \dots, W_{i-1}$ funksiyalarından asılı olan məlum funksiyalar işarə olunmuşdur. (7) tənliyi qeyri-xətti, (8) tənlikləri isə xəttidirlər. $W_i; i = 0,1,\dots,n$ funksiyaları (7), (8) diferensial tənliklərinin həlləri kimi təyin edildikdə $W$ funksiyası $L_\varepsilon W = O(\varepsilon^{n+1})$ şərtini ödəyəcəkdir.

(7), (8) diferensial tənliklərinin

$$W_i|_{x=0} = 0, (0 \le y \le 1); W_i|_{y=0} = 0, (0 \le x \le 1) \qquad (9)$$

sərhəd şərtlərini ödəyən həlləri tapılır. (7) tənliyinin

$$W_0|_{x=0} = 0, (0 \le y \le 1); W_0|_{y=0} = 0, (0 \le x \le 1) \qquad (10)$$

şərtlərini ödəyən həllinə (1)-(3) sərhəd məsələsinə uyğun olan cırlaşmış məsələ deyilir. Bu məsələnin həllinin varlığı, yeganəliyi və hamarlığına dair aşağıdakı təklif isbat edilmişdir.

**Lemma.** Tutaq ki, $F(x, y, u) \in C^{2n+3}(D \times (-\infty, +\infty))$, (4), (5) şərtləri və $F(x, y, u)$ funksiyası $u$ dəyişənindən xətti asılı olduqda

$$\left.\frac{\partial^i f(x,y)}{\partial x^{i_1} \partial y^{i_2}}\right|_{x=y} = 0; i = i_1 + i_2; i = 0,1, \ldots, 2n + 3; 0 \le x \le 1 \qquad (11)$$

şərtini, $u$ dəyişənindən xətti asılı olmadıqda

$$F(x, y, u)|_{x=y} = 0; 0 \le x \le 1, u \in (-\infty, +\infty), \qquad (12)$$

$$\left.\frac{\partial^i F(x,y,0)}{\partial x^{i_1} \partial y^{i_2} \partial u^{i_3}}\right|_{x=y} = 0; i = i_1 + i_2 + i_3; i = 1,2, \ldots, 2n + 3; 0 \le x \le 1 \qquad (13)$$

şərtlərini ödəyir. Onda (7), (10) sərhəd məsələsinin yeganə elə həlli vardır ki, $W_0(x, y) \in C^{2n+3}(D)$ və

$$\left.\frac{\partial^i W_0(x,y)}{\partial x^{i_1} \partial y^{i_2}}\right|_{x=y} = 0; i = i_1 + i_2; i = 0,1, \ldots, 2n + 3; 0 \le x \le 1. \qquad (14)$$

$W$ -nin ayrılışına daxil olan qalan $W_1, W_2, \ldots, W_n$ funksiyaları da bu lemmanın $F(x, y, u)$ funksiyasının $u$ -dan xətti asılı olan halından istifadə etməklə təyin olunur. Beləliklə, birinci iterasiya prosesində elə $W$ funksiyası quruldu ki, bu funksiya

$$W|_{x=0} = 0, (0 \le y \le 1); W|_{y=0} = 0, (0 \le x \le 1) \qquad (15)$$

sərhəd şərtlərini ödəyir. Lakin bu funksiya $S_1 = \{(x, y) | x = 1, 0 \le y \le 1\}$ sərhəddi üzərindəki sərhəd şərtlərini və $S_2 = \{(x, y) | 0 \le x \le 1, y = 1\}$ sərhəddi üzərindəki sərhəd şərtlərini ödəməyə bilər. İtən bu sərhəd şərtlərinin ödənilməsini təmin etmək

məqsədi ilə $S_1$ və $S_2$ yaxınlığında sərhəd zolaq tipli funksiyalar qurulmalıdır.

$S_1$ yaxınlığında sərhəd zolaq tipli funksiyanı qurmaq üçün koordinatlar $1-x=\varepsilon\tau, y=y$ düsturları üzrə əvəz edilərək, $L_\varepsilon$ operatorunun $(\tau,y)$ koordinatlarında yeni $L_{\varepsilon,1}$ ayrılışı yazılır. $S_1$ yaxınlığında sərhəd zolaq tipli funksiya $V=\sum_{j=0}^{n+1}\varepsilon^j V_j(\tau,y)$ şəklində

$$L_{\varepsilon,1}(W+V)-L_{\varepsilon,1}W=O(\varepsilon^{n+1}) \qquad (16)$$

tənliyinin həlli kimi axtarılır. (16)-dan $V_j; j=0,1,\ldots,n+1$ funksiyalarını təyin etmək üçün aşağıdakı diferensial tənliklər alınır:

$$MV_0\equiv\frac{\partial^3 V_0}{\partial\tau^3}+\frac{\partial^2 V_0}{\partial\tau^2}+\frac{\partial V_0}{\partial\tau}=0, MV_s=H_s; s=1,2,\ldots,n+1. \qquad (17)$$

Buradakı $H_s$ funksiyaları $V_0,V_1,\ldots,V_{s-1}; s=1,2,\ldots,n+1$ funksiyalarından asılı məlum funksiyadır. (17) diferensial tənlikləri üçün sərhəd şərtləri $W+V$ cəminin

$$(W+V)|_{x=1}=0, \frac{\partial}{\partial x}(W+V)|_{x=1}=0$$

sərhəd şərtlərini ödəməsi tələbindən tapılır və aşağıdakı şəkildədir:

$$V_i|_{\tau=0}=-W_i|_{x=1}; i=0,1,\ldots,n; V_{n+1}|_{\tau=0}=0, \qquad (18)$$

$$\left.\frac{\partial V_0}{\partial\tau}\right|_{\tau=0}=0, \left.\frac{\partial V_j}{\partial\tau}\right|_{\tau=0}=\left.\frac{\partial W_{j-1}}{\partial x}\right|_{x=1}; j=1,2,\ldots,n+1. \qquad (19)$$

(17) adi diferensial tənliklərinə uyğun olan xarakteristik tənliyin həqiqi hissəsi mənfi olan iki kökü vardır: $\lambda_1=-\frac{1}{2}-i\frac{\sqrt{3}}{2}, \lambda_2=-\frac{1}{2}+i\frac{\sqrt{3}}{2}$. $S_1$ sərhəddi üzərində itən sərhəd şərtlərinin sayı da ikidir. Bu fakt (1)-(3) sərhəd məsələsinin $S_1$ üzərində requlyar cırlaşdığını göstərir ([1]-ə bax!). (17) diferensial tənliklərinin (18), (19)-dakı müvafiq sərhəd şərtlərini ödəyən həlləri asanlıqla təyin edilir. Məsələn, $V_0(\tau,y)$ funksiyası

$$V_0(\tau,y)=\frac{W_0(1,y)}{\lambda_1-\lambda_2}\cdot(\lambda_2 e^{\lambda_1 y}-\lambda_1 e^{\lambda_2 y})$$

düsturu ilə təyin edilir. Qurulmuş bütün $V_j$ funksiyaları hamarlayıcı funksiyalara vurulur və alınan yeni funksiyalar üçün əvvəlki $V_j; j=0,1,\ldots,n+1$ işarələri saxlanılır.

Beləliklə, ikinci iterasiya prosesində elə $W+V$ cəmi quruldu ki, bu cəm (16) tənliyini və

$$(W+V)|_{x=0}=(W+V)|_{x=1}=0, \frac{\partial}{\partial x}(W+V)|_{x=1}=0$$

sərhəd şərtlərini ödəyir. Lakin bu cəm $S_2$ sərhəddi üzərindəki (3) sərhəd şərtlərini ödəməyə bilər. Ona görə də itən bu sərhəd şərtlərinin ödənilməsini təmin etmək məqsədi ilə $S_2$ yaxınlığında sərhəd zolaq tipli funksiya qurulmalıdır.

$S_2$ yaxınlığında koordinatlar $x=x, 1-y=\varepsilon t$ düsturları üzrə əvəz edilərək $L_\varepsilon$ operatorunun $(x,t)$ koordinatlarında yeni ayrılışı yazılır. $S_2$ yaxınlığında sərhəd zolaq tipli funksiya $\eta=\sum_{j=0}^{n+1}\varepsilon^j\eta_j(x,t)$ şəklində

$$L_{\varepsilon,2}(W+V+\eta)-L_{\varepsilon,2}(W+V)=O(\varepsilon^{n+1})$$

tənliyinin həlli kimi axtarılır. $\eta_j; j=0,1,\dots,n+1$ funksiyalarının təyin ediləcəkləri tənliklər üçün sərhəd şərtləri

$$(W+V+\eta)|_{y=1}=0,(0\le x\le 1)$$

bərabərliyindən tapılır. $S_2$ yaxınlığındakı sərhəd zolaq tipli funksiyaların qurulması $S_1$ yaxınlığında sərhəd zolaq tipli funksiyaların qurulmasına analoji şəkildə aparıldığından bu proses üzərində dayanmırıq.

Beləliklə, (1)-(3) sərhəd məsələsinin həlli üçün aşağıdakı asimptotik ayrılış alınır:

$$u=\sum_{i=0}^{n}\varepsilon^i W_i+\sum_{j=0}^{n+1}\varepsilon^j V_j+\sum_{j=0}^{n+1}\varepsilon^j\eta_j+z. \quad (20)$$

Burada $z$ -qalıq həddidir.

Bu işdə alınan nəticələr aşağıdakı teorem şəklində ümumiləşdirilmişdir.

**Teorem.** Fərz edək ki, $F(x,y,u)\in C^{2n+3}(D\times(-\infty,+\infty))$, (4), (5) şərtləri, $F(x,y,u)$ funksiyası $u$dəyişənindən xətti asılı olduqda (11), xətti asılı olmadıqda (12), (13) şərtləri ödənilir. Onda (1)-(3) sərhəd məsələsinin həllinin kiçik parametrə nəzərən asimptotik ayrılışı (20) şəklindədir. Burada $W_i$ funksiyaları birinci iterasiya prosesində təyin edilir, $V_j,\eta_j$-funksiyaları uyğun olaraq $x=1$ və $y=1$ yaxınlığında sərhəd zolaq tipli funksiyalar olub, müvafiq iterasiya proseslərinin köməyi ilə təyin olunur, $z$ qalıq həddir və onun üçün aşağıdakı qiymətləndirmə doğrudur.

$$\varepsilon^2\int_0^1\left(\frac{\partial z}{\partial x}\Big|_{x=0}\right)^2 dy+\varepsilon\iint_D\left[\left(\frac{\partial z}{\partial x}\right)^2+\left(\frac{\partial z}{\partial y}\right)^2\right]dxdy+c_1\iint_D z^2dxdy\le c_2\varepsilon^{2(n+1)}.$$

Buradakı $c_1>0, c_2>0$ sabitləri $\varepsilon$ -dan asılı deyildir.

## İstifadə olunmuş ədəbiyyat siyahısı:

1. Вишик М.И., Люстерник Л.А. Регулярное вырождение и пограничный слой для линейных дифференциальных уравнений с малым параметром // Успехи математических наук, - Москва: - 1957, вып. 5(77), т.12, - с. 3-122.

2. Вишик М.И., Люстерник Л.А. Решение некоторых задач о возмущении в случае матриц и самосопряженных и несамосопряженных дифференциальных уравнений // Успехи математических наук, - Москва: - 1960, вып. 3(93), т.15, - с.3-80.

3. Sabzaliev M.M., Kerimova M.E. Asymptotics of solution of a boundary value problem for a singularly perturbed quasilinear one-characteristic equation // - Bakı: Trans. Natl. Acad. Sci.Azerb.Ser. Phys.-Tech.Math. Sci.Mathematics, -2020. № 40(1), - p.176-186.

4. Sabzaliev M.M., Kerimova M.E. On asymptotics of the solution of a boundary value problem in a semi-infinite strip for quasilinear one-characteristic differential equation // Proceedings of the 7th International Conference on Control and

Optimization with Industrial Applications (COIA 2020), -Baku: -26-28 August, -2020, Vol.2, -p.347-349

5. Sabzaliev M.M., Kerimova M.E. About one boundary value problem for a non- classic type differential equation, Baku Mathematical Journal, 2022, Vol. 1, №2, p. 145-149.

*Səbzəliyeva İlhamə Mahir qızı,*
*fizika riyaziyyat elmləri namizədi, dosent,*
*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti*

## KLASSİK TİPLƏRƏ AİD OLMAYAN İXTİYARİ TƏK TƏRTİBLİ SİNQULYAR HƏYƏCANLANMIŞ KVAZİXƏTTİ DİFERENSİAL TƏNLİK ÜÇÜN QOYULMUŞ SƏRHƏD MƏSƏLƏSİNİN HƏLLİNİN ASİMPTOTİKASI

Real həyatda baş verən bir sıra proseslər yüksək tərtibli törəmələrin qarşısında kiçik parametr olan diferensial tənliklər üçün sərhəd məsələlərinə gətirir. Belə sinqulyar həyəcanlanmış diferensial tənliklərin tədqiqinə həsr olunmuş işlər çoxdur. Lakin klassik tiplərə aid olmayan sinqulyar həyəcanlanmış diferensial tənliklərə həsr olunmuş işlərin sayı çox azdır. Belə tədqiqatlara misal olaraq [1] – [4] işlərini göstərmək olar. Bu işdə klassik tiplərə aid olmayan ixtiyarı təktərtibli sinqulyar həyəcanlanmış kvazi xətti diferensial tənlik üçün qoyulmuş sərhəd məsələsi tədqiq olunur.

$D=\{(t,x)|0\le t\le 1, 0\le x\le 1\}$ düzbucaqlı oblastında aşağıdakı sərhəd məsələsinə baxılır:

$$L_\varepsilon u=(-1)^m\varepsilon^{2m}\frac{\partial^{2m+1}u}{\partial t^{2m+1}}-\varepsilon^p\frac{\partial}{\partial x}\left(\frac{\partial u}{\partial x}\right)^p-\varepsilon\frac{\partial^2 u}{\partial x^2}+\frac{\partial u}{\partial t}+\frac{\partial u}{\partial x}+F(t,x,u)=0, \quad (1)$$

$$u|_{t=o}=\left.\frac{\partial u}{\partial t}\right|_{t=0}=\ldots=\left.\frac{\partial^m u}{\partial t^m}\right|_{t=0}=0, (0\le x\le 1) \quad (2)$$

$$\left.\frac{\partial^{m+1}u}{\partial t^{m-1}}\right|_{t=1}=\left.\frac{\partial^{m+2}u}{\partial t^{m+2}}\right|_{t=1}=\cdots=\left.\frac{\partial^{2m}u}{\partial t^{2m}}\right|_{t=1}=0, \quad (0\le x\le 1) \quad (3)$$

$$u|_{x=0}=u|_{x=1}=0, (0\le t\le 1) \quad (4)$$

Burada $\varepsilon>0$ - kiçik parametr, $p=2k+1$, $k$ və $m$ ixtiyari natural ədədlər, $F(t,x,u)$ isə

$$\frac{\partial F(t,x,u)}{\partial u}\ge\gamma^2>0, (t,x,u)\in D\times(-\infty,+\infty) \quad (5)$$

şərtini ödəyən kifayət qədər hamar funksiyadır.

Bu işdə məqsəd (1)- (4) sərhəd məsələsinin həllinin qurmaqdır. Asimptotikanı qurmaq üçün iterasiya prosesləri aparılır. Birinci iterasiya prosesində (1) tənliyin təqribi həlli

$$W=W_0+\varepsilon W_1+\ldots+\varepsilon^n W_n \quad (6)$$

şəklində axtarılır. $W$ funksiyasının (6) ayrılışını

$$L_\varepsilon W = 0(\varepsilon^{n+1})$$

(7)

yazıb,$\varepsilon$ -nun eyni dərəcəli qüvvətlərinin əmsallarını müqayisə etdikdə $W_0, W_1, \ldots, W_n$ funksiyalarını təyin etmək üçün aşağıdakı rekurrent diferensial tənliklər alınır:

$$\frac{\partial W_0}{\partial t} + \frac{\partial \; W_0}{\partial x} + F \quad (t, x, W_0) = 0, \tag{8}$$

$$\frac{\partial W_i}{\partial t} + \frac{\partial \; W_i}{\partial x} + \frac{\partial F(t,x,W_0)}{\partial W_0} W_i = h_i; \; i = 1,2, \ldots, n. \tag{9}$$

Buradakı $h_i$ funksiyaları $W_0, W_1, \ldots, W_{i-1}$; $i = 1,2, \ldots, n$ funksiyalardan asılı məlum funksiyalardır. (8), (9) diferensial tənlikləri üçün $x$dəyişəninə nəzərən

$$W_i\big|_{x=0} = 0, (0 \le t \le 1) \tag{10}$$

sərhəd şərtlərindən istifadə olunur. $t$ dəyişəninə nəzərən sərhəd şərtləri bir qədər sonra yazılacaqdır. Hələlik yalnız onu qeyd edək ki, (2) –dəki birinci sərhəd şərtindən istifadə olunacaqdır.

(8), (9)diferensial tənlikləri üçün sərhəd şərtləri belə götürüldikdə birinci iterasiya prosesində qurulan $W$ funksiyası üçün $S_1 = \{(t,x)|t = 0,0 \le x \le 1\}$ sərhəddi üzərində verilən $m+1$sayda (2) sərhəd şərtlərindən $m$ dənəsi, $S_2 = \{(t,x)|t = 1,0 \le x \le 1\}$ sərhəddi üzərində verilən $m$ sayda (3) sərhəd şərtlərinin hamısı, $S_3 = \{(t,x)|0 \le + \le 1, x = 1\}$ sərhəddi üzərində verilmiş (4) sərhəd şərtlərindən biri, yəni ikincisi itir. Bu itən sərhəd şərtlərinin ödənilməsini təmin etmək üçün $S_1, S_2, S_3$sərhədləri yaxınlığında sərhəd zolaq tipli funksiyalar qurulmalıdır.

$S_1$yaxınlığında sərhəd zolaq tipli funksiyanı qurmaq üçün əvvəlcə $t = \varepsilon\xi$, $x = x$əvəzlənməsi aparıb, $L_\varepsilon$operatorunun $(\xi, x)$koordinatlarında $\varepsilon$ - na nəzərən yeni $L_{\varepsilon,1}$ ayrılısı yazılır. $S_1$yaxınlığında sərhəd zolaq tipli funksiya

$$\eta = \varepsilon(\eta_0 + \varepsilon\eta_1 + \ldots + \varepsilon^{n+m-1}\eta_{n+m-1}) \tag{11}$$

şəklində

$$L_{\varepsilon,1}(W + \eta) - L_{\varepsilon,1}W = 0(\varepsilon^{n+1}) \tag{12}$$

tənliyinin təqribi həlli kimi axtarılır. (11) və (12) – dən $\eta_0, \eta_1, \ldots, \eta_{n+m-1}$ funksiyalarını təyin etmək üçün aşağıdakı adi diferensial tənliklər alınır:

$$(-1)^m \frac{\partial^{2m+1}\eta_0}{\partial \xi^{2m+1}} + \frac{\partial \eta_0}{\partial \xi} = 0, \tag{13}$$

$$(-1)^m \frac{\partial^{2m+1}\eta_j}{\partial \xi^{2m+1}} + \frac{\partial \eta_j}{\partial \xi} = g_j; \;\; j = 1,2, \ldots, n+m-1. \tag{14}$$

Buradakı $g_j$ funksiyaları $\eta_0, \eta_1, \ldots, \eta_{j-1}$ ;$j = 1,2, \ldots, n+m-1$ funksiyalardan asılı olan məlum funksiyalardır.

İndi birinci iterasiya prosesində alınmış (8), (9) diferensial tənlikləri üçün $t$dəyişəninə nəzərən sərhəd şərtlərini yazmaq olar. Bu sərhəd şərtləri $W + \eta$ cəminin $(W + \eta)|_{t=0} = 0$ tələbini ödəməsindən tapılır və aşağıdakı şəkildədir:

$$W_0|_{t=0} = 0, \;\; W_k|_{t=0} = -\eta_{k-1}|_{\xi=0}; \; k = 1,2, \ldots, n. \tag{15}$$

(15) –dən görünür ki, birinci iterasiya prosesi ilə $S_1$yaxınlığındakı sərhəd zolaq

tipli funksiyaları qurmaq üçün aparılan iterasiya prosesləri iç-içə salınacaqdır.

(13), (14) diferensial tənlikləri üçün sərhəd şərtləri $W+\eta$ cəmini

$$\frac{\partial}{\partial t}(W+\eta)\Big|_{t=0}=\frac{\partial^2}{\partial t^2}(W+\eta)\Big|_{t=0}=\ldots=\frac{\partial m}{\partial t}(W+\eta)\Big|_{t=0}=0 \qquad (16)$$

bərabərliklərini ödəməsi tələbindən tapılır. (16) – dan tapılan sərhəd şərtləri aşağıdakı bir ümumi düstur ilə verilə bilər:

$$\frac{\partial^k\eta_p}{\partial\xi^k}\Big|_{\xi=0}=-\frac{\partial^i W_{p+1-k}}{\partial t^k}\Big|_{t=0};\ k=1,2,\ldots,m,p=0,1,\ldots,n+m-1. \qquad (17)$$

(17) bərabərliklərində mənfi indeksli $W_r$ və $r>n$ olduqda $W_r$ funksiyaları eyniliklə sıfır götürülür.

Yuxarıda qeyd olunduğu kimi, $W_0$ funksiyası (8) diferensial tənliyinin

$$W_0|_{t=0}=0,\ \ W_0|_{x=0}=0 \qquad (18)$$

sərhəd şərtlərini ödəyən həllidir. Bu işdə aşağıdakı təklif isbat edilmişdir:

**Lemma.** Fərz edək ki, $F(t,x,u)\in C^{2m+2n+2}\big(D\times(-\infty,+\infty)\big)$, (5) şərti və aşağıdakı şərtlər ödənilir:

$$F(t,x,u)_{t=x}=0,\frac{\partial^i F(t,x,u)}{\partial t^{i_1}\partial x^{i_2}\partial u^{i_3}}\Bigg|_{t=x}=0\,;$$

$$i=i_1+i_2+i_3;i=0,1,\ldots,2m+2n+2 \qquad (19)$$

Onda (8), (18) sərhəd məsələsinin yeganə həlli vardır, $W_0(t,x)\in C^{2m+2n+2}(D)$ və aşağıdakı şərt ödənilir:

$$\frac{\partial^i W_0(t,x)}{\partial t^{i_1}\partial x^{i_2}}\Big|_{t=x}=0\,;\ \ i=i_1+i_2;i=0,1,\ldots,2m+2n+2.$$

$W_0(t,x)$ funksiyası təyin edildikdən sonra (13) adi diferensial tənliyin (17)-dən alınan

$$\frac{\partial\eta_0}{\partial\xi}\Big|_{\xi=0}=-\frac{\partial W_0}{\partial t}\Big|_{t=0},\frac{\partial^2\eta_0}{\partial\xi^2}\Big|_{\xi=0}=0,\ldots,\frac{\partial^m\eta_0}{\partial\xi^m}\Big|_{\xi=0}=0$$

sərhəd şərtlərini ödəyən sərhəd zolaq tipli həlli təyin edilə bilər. Qeyd edək, ki, (13) -ə uyğun xarakteristik tənliyin həqiqi hissələri mənfi olan $m$ sayda kökləri vardır. $S_1$ üzərində itən sərhəd şərtlərinin də sayı $m$ -ə bərabərdir. Bu fakt (1) – (4) sərhəd məsələsinin $S_1$ sərhəddi üzərinə requlyar cırlaşdığını bildirir ([5] -ə bax!).

Proses bu qayda ilə davam etdirilərək, növbə ilə ardıcıl olaraq $W_0,\eta_0,W_1,\eta_1,\ldots,W_n,\eta_n,\eta_{n+1},\ldots,\eta_{n+m-1}$ funksiyaları qurulur.

$S_2$ yaxınlığında sərhəd zolaq tipli funksiyanın qurulması $S_1$ yaxınlığında sərhəd zolaq tipli funksiyanın qurulmasına analoji şəkildə aparılır. Əvvəlcə $S_2$ yaxınlığında koordinatları $1-t=\varepsilon y\,,x=x$ düsturları üzrə əvəz edərək, $L_\varepsilon$ operatorunun $(y,x)$ koordinatlarında olan yeni $L_{\varepsilon,2}$ ayrılışı yazılır. $S_2$ yaxınlığındakı sərhəd zolaq tipli funksiya $\Psi=\varepsilon^m(\Psi_0+\varepsilon\Psi_1+\ldots+\varepsilon^{n+m-1}\Psi_{n+m-1})$ şəklində,

$L_{\varepsilon,2}(W+\eta+\Psi)-L_{\varepsilon,2}(W+\eta)=0(\varepsilon^{n+1})$ tənliyinin təqribi həlli kimi qurulur.

$S_3$ yaxınlığında sərhəd zolaq tipli funksiyanı qurmaq üçün $t=t\,,1-x=\varepsilon\phi$ düsturları üzrə koordinatlar əvəz ediləcək, $L_\varepsilon$ operatorunun $(t,\phi)$ koordinatlarında yeni $L_{\varepsilon,3}$ ayrılışı yazılır. $S_3$ yaxınlığındakı sərhəd zolaq tipli funksiya

$$V = V_0 + \varepsilon V_1 + \ldots + \varepsilon^{n+1} V_{n+1}$$

şəklində,

$$L_{\varepsilon,3}(W + \eta + \Psi + V) - L_{\varepsilon,3}(W + \eta + \Psi) = 0(\varepsilon^{n+1})$$

tənliyinin təqribi həlli kimi qurulur. Qeyd edək ki, burada $V_0$ funksiyasının təyin edilməsi üçün alınan adi diferensial tənlik qeyri-xətti, qalan funksiyaların təyin edilməsi üçün alınan adi diferensial tənliklər isə dəyişən əmsallı xətti olur.

Beləliklə, (1) – (4) sərhəd məsələsinin həlli üçün aşağıdakı asimptotik ayrılış alınır:

$$U = \sum_{i=0}^{n} \varepsilon^{i} W_i + \sum_{j=0}^{n+m-1} \varepsilon^{1+j} \eta_j + \sum_{j=0}^{n+m-1} \varepsilon^{m+j} \Psi_j + \sum_{s=0}^{n+1} \varepsilon^{s} V_s + \varepsilon^{n+1} \quad (20)$$

Buradakı $\varepsilon^{n+1} z$ qalıq həddidir.

İşdə alınan nəticələr aşağıdakı teorem şəklində ifadə edilmişdir.

**Teorem.** Tutaq ki, $F(t, x, u) \in C^{2m+2n+2}\big(Dx(-\infty, +\infty)\big)$, (5) və (19) şərtləri ödənilir. Onda (1) – (4) sərhəd məsələsinin həlli üçün (20) asimptotik ayrılışı doğrudur. Buradakı $W_i$ funksiyaları birinci iterasiya prosesində təyin edilirlər, $\eta_j, \Psi_j, V_s$funksiyaları uyğun olaraq $S_1$,$S_2$,$S_3$sərhədləri yaxınlığında sərhəd zolaq tipli funksiyalar olub, müvafiq iterasiya proseslərində təyin olunur, $\varepsilon^{n+1} z$ qalıq həddidir, $z$ funksiyası üçün aşağıdakı qiymətləndirmə doğrudur:

$$\varepsilon^{m} \left\| \frac{\partial mz}{\partial t^{m}}\bigg|_{t=1} \right\|_{L_2(0,1)} + \varepsilon^{\frac{1}{2}} \left\| \frac{\partial z}{\partial x} \right\|_{L_2(D)} + c_1 \|z\|_{L_2(D)} \le c_2 \, .$$

Buradakı $c_1 > 0$, $c_2 > 0$sabitləri $\varepsilon$ -dan asılı deyildir.

## İstifadə olunmuş ədəbiyyat siyahısı:


1. М.Г. Джавадов, М.М. Сабзалиев. Об одной краевой задаче для одно-характерического уравнения, вырождающегося в однохарактерическое, Доклады Академии наук СССР, т.247, № 6,1979, стр.1041-1046.

2. Я.Ш. Салимов, И.М. Сабзалиева. О краевых задачах для одного класса сингулярно возмущённых дифференциальных уравнений неклассического типа, Доклады Российской Академии наук, т.399, № 4,2004, стр.450-453.

3. Я.Ш. Салимов, И.М. Сабзалиева. О краевых задачах для одного класса сингулярно возмущенных уравнений произвольного нечётного порядка, Дифференциальные уравнения, т.42, № 5, 2006, стр.653-659.

4. Sabzaliyev M.M., Sabzaliyeva İ.M. On the asymptotic of the solution of a boundary value problem for a singularlu perturbed differential of arbitrary odd order, Proceedings of the 8in International Conference on Control and Optimization with Industrial Applications (COIA 2022), 24-26 August, Baku Azerbaijan, vol.2, pp.420-422.

5. М.И. Вишик, Л.А. Люстерник. Регулярное вырождение и пограничный слой для линейных дифференциальных уравнений с малым параметром, Успехи математических наук, т.12, вып.5(77), 1957, стр.3-122.

*Eyvazov Elşad Hətəm oğlu,*
*riyaziyyat elmləri doktoru, professor,*
*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi*
*Riyaziyyat və Mexanika İnstitutu,*
*Bakı Dövlət Universiteti,*
*Email:eyvazovelshad@gmail.com*

# SPEKTRAL NƏZƏRİYYƏNİN KÖMƏYİ İLƏ BEYNƏLXALQ TİCARƏT MODELİNİN ANALİZİ

Tutaq ki, beynəlxalq ticarətdə iştirak edən dövlətlərin sayı $n$ -dir. $x_i$ ilə $i$ -ci dövlətin milli gəlirini, $j$ -ci dövlətin $i$ -ci dövlətdən aldığı mallara xərclədiyi milli gəlirin hissəsini, $p_{ij}$ - ilə, $p_{jj}$ −ilə isə milli gəlirin daxili ticarətə xərclənən hissəsini işarə edək.

$$P = \begin{pmatrix} p_{11} & p_{12} & \cdots & p_{1n} \\ p_{21} & p_{22} & \cdots & p_{2n} \\ . & . & \cdots & . \\ p_{n1} & p_{n2} & \cdots & p_{nn} \end{pmatrix}$$

matrisinə beynəlxalq ticarətin struktur matrisi deyilir ( bax, məsələn, [1]).

$$0 \le p_{ij} \le 1,\ i = 1,2,\dots,n;\ j = 1,2,\dots,n$$

və

$$\sum_{i=1}^{n} p_{ij} = 1,\ j = 1,2,\dots,n$$

şərtlərindən çıxır ki, $P$ matrisi sütunlara görə stoxastik matrisdir.

Sual olunur: hər bir dövlətin milli gəliri necə təyin olunmalıdır ki, onların hər birinin bütün gəlirləri tamamilə xarici və daxili ticarətə sərf olunsun? Bu suala cavab vermək üçün beynəlxalq ticarətin struktur matrisi $P$ -nin bəzi xassələrini öyrənək.

**Teorem 1.** *$P$ matrisinin məxsusi ədədləri kompleks müstəvinin mərkəzi koordinat başlanğıcında radius 1-ə bərabər olan qapalı dairəsində yerləşir.*

**İsbatı.** $P^t$ ilə $P$ matrisinin transponirə edilmiş matrisini işarə edək. Tutaq ki, sıfırdan fərqli $x = (x_1, x_2, \dots, x_n)^t$ vektoru $P^t$ matrisinin $\lambda$ məxsusi ədədinə uyğun məxsusi vektorudur. $m$ ilə $|x_i|,\ i = 1,2,\dots,n,$ ədədlərindən ən böyüyünü işarə edək. Onda $P^t x = \lambda x$ və $\sum_{i=1}^{n} p_{ij} = 1,\ j = 1,2,\dots,n$ bərabərliklərindən alarıq:

$$\|\lambda x\| = |\lambda| m = \|P^t x\| = \max_{j\in\{1,2,\dots,n\}} \left|\sum_{i=1}^{n} p_{ij} x_i\right| \le m \cdot \sum_{i=1}^{n} p_{ij} = m.$$

Buradan da $|\lambda| \leq 1$ bərabərsizliyini almış olarıq. Bu onu göstərir ki, $P^t$ matrisinin məxsusi ədədləri kompleks müstəvinin mərkəzi koordinat başlanğıcında radiusu 1-ə bərabər olan qapalı dairəsində yerləşir. $\|P^t\| = \|P\|$ bərabərliyindən və

$$Sp(P) \subset \{\lambda \in C: \ |\lambda| \leq \|P\|\}$$

münasibətindən teoremin isbatı alınır.( $Sp(P)$ ilə $P$ matrisinin spektri işarə olunmuşdur).

Perron teoremindən ([2]) çıxır ki, əgər $P$ matrisinin bütün $p_{ij}$ $(i, j = 1,2, \ldots, n)$ elementləri müsbət olsa, onda onun modulca ən böyük məxsusi ədədi yalnız $\lambda = 1$-dir və o, sadə məxsusi ədəddir və ona uyğun məxsusu vektoru elə seçmək olar ki, onun bütün koordinatları müsbət olar. Lakin $0 \leq p_{ij}, \ i = 1,2, \ldots, n; \ j = 1,2, \ldots, n$ şərtləri ödənsə, onda $P$ matrisinin, $|\lambda| = 1$şərtini ödəyən və sadə olmayan məxsusi ədədləri ola bilər. Elementləri mənfi olmayan aşağıdakı matrisə baxaq.

$$P_4 = \begin{pmatrix} 0 & 0 & 0 & 1 \\ 0 & 0 & 1 & 0 \\ 0 & 1 & 0 & 0 \\ 1 & 0 & 0 & 0 \end{pmatrix}.$$

Asanlıqla hesablamaq olar ki, onun xarakteristik matrisi

$$det(P_4 - \lambda E) = (\lambda^2 - 1)^2$$

şəklindədir. Aydındır ki, ikiqat stotoxastik $P_4$ matrisinin $|\lambda| = 1$şərtini ödəyən, sadə olmayan $\lambda_1 = 1$ və $\lambda_2 = -1$ kimi iki məxsusi ədədi var.

Elementləri $0 \leq p_{ij}, \ i = 1,2, \ldots, n; \ j = 1,2, \ldots, n$ şərtlərini ödəyən sütunlara görə stoxastik $P$ matrisi üçün aşağıdakı teorem doğrudur.

**Teorem 2.** *Tutaq ki, $\lambda$ ədədi elementləri mənfi olmayan, sütunlara görə stoxastik olan P matrisinin məxsusi ədədidir, belə ki, ona uyğun məxsusi vektorun bütün koordinatları müsbətdir. Onda $\lambda = 1$-dir.*

**İsbatı.** Tutaq ki, istənilən $i \in \{1,2, \ldots, n\}$ üçün $x_i > 0$ şərti ödənir və $x = (x_1, x_2, \ldots, x_n)^t$ vektoru $P$ matrisinin $\lambda$ məxsusi ədədinə uyğun məxsusi vektorudur, yəni $Px = \lambda x$ bərabərliyi ödənir. Bu bərabərliyi koordinatlarla yazaq.

$$p_{11}x_1 + p_{12}x_2 + \ldots + p_{1n}x_n = \lambda x_1$$
$$p_{21}x_1 + p_{22}x_2 + \ldots + p_{2n}x_n = \lambda x_2$$
$$\vdots$$
$$p_{n1}x_1 + p_{n2}x_2 + \ldots + p_{nn}x_n = \lambda x_n \ .$$

Bu bərabərlikləri tərəf-tərəfə toplasaq alarıq:

$$(\textstyle\sum_{k=1}^{n} p_{k1}) \cdot x_1 + (\sum_{k=1}^{n} p_{k2}) \cdot x_2 + \ldots + (\sum_{k=1}^{n} p_{kn}) \cdot x_n = \lambda \cdot (\sum_{k=1}^{n} x_k) \qquad (*)$$

$P$ matrisi sütunlara nəzərən stoxastik matris olduğundan

istənilən $j \in \{1,2,\dots,n\}$ üçün $\sum_{k=1}^{n} p_{kj} = 1$ bərabərlikləri ödənir. Bu bərabərlikləri (*) düsturunda nəzərə alsaq

$$\sum_{k=1}^{n} x_k = \lambda \cdot \left(\sum_{k=1}^{n} x_k\right)$$

bərabərliyini almış olarıq. İstənilən $i \in \{1,2,\dots,n\}$ üçün $x_i > 0$ şərtlərini nəzərə alsaq, teoremin isbatını almış olarıq.

Deyilənlərdən belə bir qənaətə gəlirik ki, hər bir dövlətin bütün gəlirlərinin tamamilə daxili ticarətə sərf olunması üçün onların milli gəlirləri aşağıdakı tənliklər sistemini ödəməlidir:

$$\sum_{j=1}^{n} p_{ij} \cdot x_j = x_i, \quad i = 1,2,\dots,n,$$

Yəni $P$ matrisinin $\lambda = 1$ məxsusi ədədinə uyğun bütün koordinatları müsbət olan məxsusi vektorunu tapmaq lazımdır.

Beləliklə, məqalənin başlanğıcında verilən suala cavab olaraq onu deyə bilərik ki, hər bir dövlətin milli gəliri elə təyin olunmalıdır ki, milli gəlir vektoru $x = (x_1, x_2, \dots, x_n)^t$, beynəlxalq ticarətin struktur matrisi $P$ −nin $\lambda = 1$ məxsusi ədədinə uyğun məxsusi vektoru olsun.

**Misal.** Ticarət edən dövlətlərin beynəlxalq ticarətin struktur matrisi

$$P = \begin{pmatrix} \frac{1}{3} & \frac{1}{5} & \frac{1}{2} & \frac{1}{4} \\ \frac{1}{6} & \frac{1}{2} & \frac{1}{4} & \frac{1}{4} \\ \frac{1}{4} & \frac{1}{10} & \frac{1}{8} & \frac{1}{4} \\ \frac{1}{4} & \frac{1}{5} & \frac{1}{8} & \frac{1}{4} \end{pmatrix}$$

şəklində olarsa, onların milli gəliri nə qədər olar? Hesablama göstərir ki, gəlir vektoru $x = C(225,220,134,156)^t$ formasında olacaq, burada C istənilən müsbət ədəddir.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**


1. Ермаков В.И. Общий курс математики для экономистов – М.:ИНФРА-М, 2010, 656 с.

2. Perron O., Theorie der Martizen, Math.Ann. 64(1907), pp.248-263.

*Nəbiyev İbrahim Mayıl oğlu,*
*fizika-riyaziyyat elmləri doktoru, professor,*
*Bakı Dövlət Universiteti;*

*Məmmədova Leyla İbrahim qızı,*
*riyaziyyat üzrə fəlsəfə doktoru, dosent,*
*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi*
*Riyaziyyat və Mexanika İnstitutu;*

*Bəkirova Aidə Cəsarət qızı, magistrant,*
*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti*

# SƏRHƏD ŞƏRTİNDƏ SPEKTRAL PARAMETR OLAN DİFFUZİYA OPERATORUNUN BƏRPASI HAQQINDA

Aşağıdakı spektral məsələyə baxaq:

$$y'' + [\lambda^2 - 2\lambda p(x) - q(x)]y = 0 (0 \le x \le \pi) \quad , \quad (1)$$

$$y(0) = 0,$$
$$y'(0) - (\alpha\lambda + \beta)y(\pi) = 0, \quad (2)$$

burada $p(x)$ və $q(x)$ uyğun olaraq $W_2^1[0,\pi]$ və $L_2[0,\pi]$ fəzalarına daxil olan həqiqi funksiyalar, $\lambda$ –spektral parametr, $\alpha, \beta$ – həqiqi ədədlərdir və $\alpha > 1, \beta \neq 0$. (1), (2) məsələsini $D$ ilə işarə edəcəyik.

Fərz edək ki, $s(x,\lambda)$ funksiyası (1) diferensial tənliyinin

$$s(0,\lambda) = 0, s'(0,\lambda) = 1$$

başlanğıc şərtlərini ödəyən həllidir. Onda $D$ məsələsinin xarakteristik funksiyası

$$\Delta(\lambda) = (\alpha\lambda + \beta)s(\pi,\lambda) - 1 \quad (3)$$

şəklində olar. Bu funksiyanın sıfırları $D$ məsələsinin məxsusi ədədləridir. $s(\pi,\lambda)$ funksiyasının məlum [1]

$$s(\pi,\lambda) = \frac{\sin\pi(\lambda - a)}{\lambda} + c_0\frac{\sin\pi(\lambda - a)}{\lambda^2} - \pi a_1\frac{\cos\pi(\lambda - a)}{\lambda^2} + \frac{f(\lambda)}{\lambda^2},$$

ifadəsindən və Peli-Viner teoremindən istifadə etməklə (3) funksiyası üçün aşağıdakı göstəriliş alınır:

$$\Delta(\lambda) = \alpha\sin\pi(\lambda - a) - 1 - \pi a_1\frac{\cos\pi(\lambda - a)}{\lambda} + (\alpha c_0 + \beta)\frac{\sin\pi(\lambda - a)}{\lambda} + \frac{g(\lambda)}{\lambda} \quad , \quad (4)$$

burada $a = \frac{1}{\pi}\int_0^\pi p(x)dx, a_1 = \frac{1}{2\pi}\int_0^\pi [q(x) + p^2(x)]dx,\ c_0 = \frac{1}{2}[p(0) + p(\pi)],$

$$f(\lambda) = \int_{-\pi}^{\pi} \tilde{f}(x)\cos\lambda x dx, \tilde{f}(x) \in L_2[-\pi,\pi].$$

Xarakteristik funksiyanın (4) göstərilişindən, Ruşe teoremindən və

$sin\,x\,, cos\,x$və $\frac{1}{1+x}$funksiyalarının Teylor düsturlarından istifadə edərək standart üsulla isbat edilir ki, $D$ sərhəd məsələsinin $\mu_k(k = 0, \pm 1, \pm 2, \ldots)$ məxsusi ədədləri üçün ($|k| \to \infty$ olduqda) aşağıdakı asimptotik düstur doğrudur:

$$\mu_k = k + a + (-1)^k b + \frac{a_1 + b_k}{k} + \frac{r_k}{k},$$

burada

$$b = \frac{1}{\pi} arcsin \frac{1}{\alpha},\ b_k = \frac{(-1)^{k+1}(\alpha c_0 + \beta)}{\pi\alpha\sqrt{\alpha^2 - 1}}, \{r_k\} \in l_2.$$

$D$ sərhəd məsələsi ilə yanaşı, aşağıdakı spektral məsələyə də baxılır.

$\widetilde{D}$məsələsi:

$$y'' + [\lambda^2 - 2\lambda p(x) - q(x)]y = 0 \quad (0 \le x \le \pi),$$

$$y(0) = 0,$$

$$y'(0) = (\alpha\lambda + \beta)y'(\pi).$$

**Tərs məsələnin qoyuluşu.** $D$ və $\widetilde{D}$ sərhəd məsələlərinin məxsusi ədədlər ardıcıllığına görə (1) diffuziya tənliyinin $p(x)$ və $q(x)$ əmsallarını və (2) sərhəd şərtlərinin $\alpha$ və $\beta$ parametrlərini bərpa etməli.

Tərs məsələnin həlli üçün aşağıdakı yeganəlik teoremi doğrudur.

**Teorem.** *Əgər $p(0) = -p(\pi)$ olarsa, onda $D$ və $\widetilde{D}$ sərhəd məsələləri öz spektrləri vasitəsilə birqiymətli bərpa olunur.*

Qeyd edək ki, ayrılmayan sərhəd şərtinə spektral parametr daxil olan diferensial operatorlar üçün spektral analizin düz və tərs məsələlərinin bəzi variantları əvvəllər ətraflı tədqiq edilmişdir (bax: [2-5]).

## İstifadə olunmuş ədəbiyyat siyahısı:


1. Гусейнов И.М., Набиев И.М. Обратная спектральная задача для пучков дифференциальных операторов // Матем. сборник, 2007, т. 198, № 11, с. 47-66.

2. Гасымов Т.Ф. Асимптотика собственных значений и собственных функций одной несамосопряженной задачи со спектральным параметром в краевом условии, J. Contemporary Applied Math., 2021, v. 11, № 2, p. 11-22.

3. Nabiev I.M. Reconstruction of the differential operator with spectral parameter in the boundary condition, Mediterr. J. Math., 2022, v. 19, № 3, art. 124, p. 1-14.

4. Nabiev I.M., Mammadova L.I., Mammedzadeh G.S.. Algorithms for recovery of diffusion and Sturm-Liouville operators with semi-separated boundary conditions // Proceedings of the Institute of Mathematics and Mechanics, National Academy of Sciences of Azerbaijan, 2023, v. 49, № 2, p. 219-227.

5. Mammadova L.I., Nabiev I.M. Solvability of the inverse spectral problem for Sturm-Liouville operator with spectral parameter in the boundary condition// Baku Mathematical Journal, 2024, v. 3, № 1, p. 12-23.

*Yelena Mustafayeva,*
*Ph.D. (Phys./Math.), Associate Professor,*
*Baku State University,*
*E-mail: yelenamustafayeva@bsu.edu.az;*

*Najaf Aliyev,*
*Ph.D. (Phys./Math.), Associate Professor,*
*Baku State University,*
*E-mail: necefaliyev@mail.ru*

# NEW METHOD FOR REGULARIZATION OF SINGULAR NECESSARY CONDITIONS OF A BOUNDARY VALUE PROBLEM FOR A MIXED-COMPOSITE EQUATION

A mixed-composite type equation is considered in a bounded three-dimensional domain $D = \{x = (x_1, x_2, x_3) \in R^3\}$convex along $Ox_3$ axis with Lyapunov boundary $\Gamma$:

$$\frac{\partial}{\partial x_3}\left(signx_3 \frac{\partial^2 u(x)}{\partial x_3^2} + \left(\frac{\partial^2 u(x)}{\partial x_1^2} + \frac{\partial^2 u(x)}{\partial x_2^2}\right)\right) = 0, x_3 \neq 0, \quad (1.1)$$

with non-local boundary conditions:

$$\sum_{m=0}^{2}\sum_{n=1}^{2}\sum_{k=0}^{2}\sum_{1\le p_1\le p_2\le\ldots p_k\le 3} \alpha_{i,p_1p_2\ldots p_k}^{(m,n)}(x')\frac{\partial^k u_n(x)}{\partial x_{p_1}\partial x_{p_2}\ldots\partial x_{p_k}}\Big|_{x_3=\gamma_m(x')} = f_i(x'), x' \in S, i = \overline{1,6}, \quad (1.2)$$

$$u_1(x', 0) = u_2(x', 0) = f_0(x'), x' \in L = \bar{\Gamma}_1 \cap \bar{\Gamma}_2, \quad (1.3)$$

where $S = proj_{Ox_1x_2}D$, $\Gamma = \partial D = \Gamma_1 \cup \Gamma_2$: $\Gamma_k = \{\xi \in R^3 : \xi_3 = \gamma_k(\xi'), \xi' \in S\}$; $\gamma_k(\xi') \in C^2(S), k = 1,2$ , $\gamma_1(\xi')>0$, $\gamma_2(\xi') < 0, \xi' \in S$ ; $\Gamma_0 = \{\xi \in R^3 : \gamma_1(\xi') > \xi_3 = 0 > \gamma_2(\xi')\}$; $\alpha_{ip}^{(k)}(x') \in H^\lambda(S), \alpha_{ijp}^{(k)}(x') \in H^\lambda(S)$, , $i, p = 1,2; j = 1,2,3; k = 0,1$, $f_i(x') \in C(S), i = 1,2, f_0(x') \in C(L)$.

So, for $x_3 > 0$ we have a composite type equation

$$\frac{\partial}{\partial x_3}(\Delta_3 u_1(x)) = 0, x \in D_1 = \{x \in D : x_3 > 0\}, \quad (1.4)$$

and for $x_3 < 0$ we have a hyperbolic type equation

$$\frac{\partial}{\partial x_3}\left(\frac{\partial^2 u_2(x)}{\partial x_3^2} - \left(\frac{\partial^2 u_2(x)}{\partial x_1^2} + \frac{\partial^2 u_2(x)}{\partial x_2^2}\right)\right) = 0, x \in D_2 == \{x \in D : x_3 < 0\}. \quad (1.5)$$

## 1. Composite type equation

The fundamental solution for the composite equation (1.4) has the form :

$$U_1(x - \xi) = -\frac{1}{4\pi} ln\left|x_3 - \xi_3 + |x - \xi|\right|. \quad (2.1)$$

By means of multiplying (1.4) by (2.1) and integrating by parts for the composite

equation (1.4) there was found **the first necessary condition** for equation (1.4) in the form**:**

$$u_1(\xi)\Big|_{\xi_3=\gamma_k(\xi')}=\sum_{i=1}^{2}(-1)^i\frac{1}{2\pi}\int_S u_1(x)|x_3=\gamma_i(x')\frac{cos(x-\xi,\nu_x)}{|x-\xi|^2}\Bigg|\begin{matrix}\xi_3=\gamma_k(\xi')\\ x_3=\gamma_i(x')\end{matrix}\frac{dx'}{cos(\nu_x,x_3)}+\dots.$$

(2.2)

**Theorem 2.1**. *If the domain* $D_1\subset R^3$ *is convex along axis* $Ox_3$ *and is bounded with piece-wise Lyapunov boundary* $\Gamma'$ *then the first necessary condition* (2.2) *is regular.*

Multiplying (1.4) by $\frac{\partial U_1(x-\xi)}{\partial x_i}, i=\overline{1,3}$, and integrating it over $D_1$ by parts, then replacing surface integrals with the integral over domain S , denoting non-singular terms by three dots we obtain **the second necessary conditions (**$\xi\in\Gamma'$**)** for equation (1.4):

$$\frac{\partial u_1(\xi)}{\partial\xi_i}\Big|_{\xi_3=\gamma_k(\xi')}=\frac{(-1)^k}{2\pi}\int_S\frac{\partial u_1(x)}{\partial x_i}\frac{cos(x-\xi,\nu_x)}{P_{k,+}(x',\xi')|x'-\xi'|^2}\Bigg|\begin{matrix}\xi_3=\gamma_k(\xi')\\ x_3=\gamma_k(x')\end{matrix}dx+\dots, i=\overline{1,3}\,. \qquad (2.3)$$

where

$$P_{k,\pm}(x',\xi')=\left[\frac{\partial\gamma_k(x')}{\partial x_1}cos(x'-\xi',x_1)+\frac{\partial\gamma_k(x')}{\partial x_2}cos(x'-\xi',x_2)+O(|x'-\xi'|)\right]^2\pm1. \qquad (2.4)$$

All the integrals in (2.3) have weak singularities what proves

**Theorem 2.2.** *If the assumptions of Theorem* 2.1 *hold true then necessary conditions* (2.3) *are regular.*

Similarly we obtain the **third necessary conditions** for equation (1.4):

$$\frac{1}{2}\frac{\partial^2u_1(\xi)}{\partial\xi_i\partial\xi_j}\Big|_{\xi_3=\gamma_k(\xi')}=\int_S\frac{1}{|x'-\xi'|^2}\sum_{\substack{p,q=1\\ p\le q}}^{3}(-1)^{k+1}K_{ij,pq}^{(k)}(x',\xi')\frac{\partial^2u_1(x)}{\partial x_p\partial x_q}|x_3=\gamma_k(x')\frac{dx'}{cos(\nu,x_3)}+\dots, \qquad (2.5)$$

where coefficients $K_{ij,pq}^{(k)}(x',\xi')$ are non-singular functions independent on $u_1(x)$ and its derivatives. So, we have proved

**Theorem 2.3.** *Under the assumptions of Theorem* 2.1 *the third necessary conditions* (2.5) *are singular*

## 2. Hyperbolic type equation

For the equation of a hyperbolic type (1.5) there have been found a fundamental solution

$$U_2(x-\xi)=\frac{\theta(x_3-\xi_3-|x'-\xi'|)}{2\pi}ln\left|(x_3-\xi_3)+\sqrt{(x_3-\xi_3)^2-|x'-\xi'|^2}\right|. \qquad (3.1)$$

By the above scheme for the composite equation (1.4) we find **regular first and**

**second necessary conditions** for hyperbolic equation

Evidently, the following theorem is true:

**Theorem 3.1**. *If the domain* $D_2 \subset R^3$ *is convex along axis* $Ox_3$ , *bounded with piece-wise Lyapunov boundary* $\Gamma'$ *and* $P_{2,-}(x',\xi') \neq 0$ *in* (2.4) *then the first and second necessary conditions for equation* (1.5) *are regular*.

The third necessary conditions for (1.5) are found as follows :

$$\frac{\partial^2 u(\xi)}{\partial \xi_i \partial \xi_j}\Big|_{\xi_3\in\Gamma_k} = \int_S \frac{1}{2|x'-\xi'|^2} \sum_{\substack{m,p=1\\ m\le p}}^{3} M_{ij,mp}^{(k)}(x',\xi') \frac{\partial^2 u_2(x)}{\partial x_m \partial x_p}|x_3 = \gamma_k(x') \frac{dx'}{cos(\nu_x,x_3)} + \ldots,$$

$$1 \le i \le j \le 3; \rightleftarrows 1 \le m \le p \le 3; k = 0,2 . \qquad (3.2)$$

where $M_{ij,mp}^{(k)}(x',\xi')$ are non-singular and independent from $u_2(x)$ and its derivatives what proves

**Theorem 3.2.** *Under the assumptions of Theorem* 3.1 *the necessary conditions* (3.2) *are singular*.

**3. Regularization of necessary conditions**

Building linear combinations of singular third necessary conditions (2.5) and (3.4), transforming and grouping the terms in the integrands so that to substitute boundary conditions (1.2) into them:

$$\sum_{k=0}^{1}\left[\sum_{1\le i\le j\le 3} \beta_{m,ij}^{(k,1)}(\xi') \frac{\partial^2 u_1(\xi)}{\partial \xi_i \partial \xi_j}|\xi_3 = \gamma_k(\xi') + \sum_{1\le i\le j\le 3} \beta_{m,ij}^{(k,2)}(\xi') \frac{\partial^2 u_2(\xi)}{\partial \xi_i \partial \xi_j}|\xi_3 = \gamma_{2k}(\xi')\right]$$

$$== \int_S \frac{f_m(x')}{|x'-\xi'|^2} \frac{dx'}{cos(\nu_x,x_3)} -$$

$$- \sum_{l=1}^{2}\sum_{k=0}^{1} \int_S \frac{1}{|x'-\xi'|^2}\left(\sum_{p=1}^{3} \alpha_{mp}^{(k,l)}(x') \frac{\partial u_l(x)}{\partial x_p}|x_3 = \gamma_k(x') + \alpha_{m0}^{(k,l)}(x') u_l(x)|x_3 = \gamma_k(x')\right) \frac{dx'}{cos(\nu_x,x_3)} + \ldots, m = \overline{1,6}, \qquad (4.1)$$

if for $\beta_{m,pq}^{(k,1)}(x')$ and $\beta_{m,pq}^{(k,2)}(x')$ there hold true the equations, $k = 0,1; m = \overline{1,6}; 1 \le p \le q \le 3$:

$$\sum_{1\le i\le j\le 3} \beta_{m,ij}^{(k,1)}(x')(-1)^{k+1} K_{ij,pq}^{(k)}(x',x') = \alpha_{m,pq}^{(k,1)}(x'),$$

$$\sum_{1\le i\le j\le 3} \beta_{m,ij}^{(k,2)}(x') \frac{1}{2} M_{ij,pq}^{(k)}(x',x') = \alpha_{m,pq}^{(k,2)}(x'). \qquad (4.2)$$

Taking into account regular necessary conditions for $u_l(x)|x_3 = \gamma_k(x')$, $\frac{\partial u_l(x)}{\partial x_p}|x_3 = \gamma_k(x')$, $l = 1,2; k = \overline{0,2}; p = \overline{1,3}$, we get regularized relationships in the virtue of the following

**Theorem 4.1**. Under the conditions of Theorems 2.1- 2.3, 3.1, 3.2 and if 1) boundary conditions (1.2) are linear independent, 2) $\alpha_{ijp}^{(k)}(x'), \alpha_{ip}^{(k)}(x'), i,p = 1,2; j = 1,2,3; k = 0,1$, satisfy Hölder condition in $S$, 3) $f_i(x') \in C(S), i = 1,2, f_0(x') \in C(L)$, 4) system (4.2) has the unique solution $\beta_{m,pq}^{(k,l)}(x'), k = 0,1; l = 1,2; m = \overline{1,6}; 1 \le p \le q \le 3$, then relationships (4.1) are regular.

*Poladova Ülviyyə Canməmməd qızı,*
*astronomiya üzrə fəlsəfə doktoru,*
*Bakı Biznes Universiteti,*
*E-mail: ulviyye_laman@yahoo.com*

## YAŞIL İQTİSADİYYATDA RİYAZİ MODELLƏŞMƏNİN ROLU

"Yaşıl iqtisadiyyat" ekoloji riskləri və ekoloji çatışmazlıqları azaltmağa və ətraf mühitə zərər vermədən davamlı inkişafa yönəlmiş iqtisadiyyatdır. "Yaşıl iqtisadiyyat" ekoloji iqtisadiyyatla sıx bağlıdır, lakin daha tətbiqi bir siyasi istiqamətə malikdir. UNEP-in "Yaşıl iqtisadiyyat" adlı 2011-ci il hesabatında deyilir ki, "yaşıl" olmaq üçün iqtisadiyyat təkcə səmərəli deyil, həm də ədalətli olmalıdır. Onun əsas komponentlərindən biri də "Yaşıl biznes müəssisələri"dir ki, onlar da öz növbəsində ətraf mühitə, cəmiyyətə, icmalara və iqtisadiyyata zərərli təsir etməyən, iqtisadi inkişafı, sosial tərəqqini və ətraf mühitin mühafizəsini təmin edən müəssisələrdir.

Dünyanın inkişaf etmiş ölkələri öz siyasətlərini əsasən davamlı inkişafı təmin etmək istiqamətində qururlar. Burada əsas məqsəd ətraf mühiti qorumaqla yanaşı mövcud resurslardan insanların ehtiyacları üçün istifadə olunmasını təmin etməkdən ibarətdir. Belə ki, bu resurslar istifadə olunarkən yalnız hazırki vəziyyət deyil, eyni zamanda gələcək nəsillərin potensial ehtiyacları da nəzərə alınmalıdır.

Dünya ölkələri ətraf mühitin çirklənməsi, azalan təbii ehtiyatlar və artan tələbat fonunda dayanıqlı inkişafa nail olmaq üçün "yaşıl" iqtisadiyyatın genişləndirilməsi istiqamətində böyük əhəmiyyət kəsb edən müxtəlif tədbirlər həyata keçirirlər.

İqtisadiyyatın "yaşıl" olması onun aşağıdakı dörd amilə cavab verməsi ilə əlaqəlidir: qərarlara dayanıqlı inkişaf prinsipləri daxil edilir; ekoloji təmiz məhsul istehsal edilir, xidmətlər göstərilir və bunlar "yaşıl" olmayan xidmət və məhsulları əvəzləyir; ənənəvi rəqabətə nisbətdə "yaşıl"dır; kommersiya fəaliyyətində ekoloji prinsiplərə sadiqliyini bəyan edir.

Yaşıl biznesin əsas təşəbbüsü və məqsədi o, xidmət və istehsal prosesi zamanı meydana gələn zərərli kimyəvi maddələrin, material və tullantıların təsirini azaltmaq, yaxud aradan qaldırmaqdır.

Həqiqətən də "yaşıl iqtisadiyyat" cəmiyyətlə təbiət arasındakı əlaqə haqqında mövcud konsepsiyanın yaxşılaşdırılması ilə qurulur.

Hakim məntiq ondan ibarətdir ki, təbii mühit iqtisadi bir alt sistemdir və əmələ gələn tullantıların istehsalı və udulması üçün zəruri olan maddi, enerji və biotik mənbələri təmin etmə funksiyasını yerinə yetirir.

İqtisadiyyatın inkişafında riyazi modelləşmənin rolu olduqca böyükdür. Ümumiyyətlə, modelləşdirmə hansısa obyektin, sistemin tədqiqidir. Onun həyata keçirilməsi üçün model qurulur və təhlil edilir. Modelləşdirmənin bütün mərhələləri obyekti abstrakt və ya mövzu modeli olan elmi eksperimentdən ibarətdir. Təcrübə apararkən müəyyən bir hadisə sxem və ya sadələşdirilmiş model ilə əvəz olunur.

Riyazi modellər elmdə əvəzolunmazdır, eləcə də onlar üçün alətlər - riyazi anlayışlardır. Onlar bir neçə minilliklər ərzində toplanmış və müasirləşmişdir. Müasir riyaziyyatda tədqiqatın universal və güclü üsulları mövcuddur. Seçilmiş obyektin ətraflı təhlili üçün riyazi modelləşdirmənin mərhələləri seçilir. Onların köməyi ilə alınan

məlumatlar sistemləşdirilir, obyektin tam təsviri hazırlanır.

Riyazi modelləşmə aşağıdakı iki mərhələdə yerinə yetirilir:

1. Bu mərhələ iqtisadi planın, təbiət hadisələrinin, tikintinin, istehsal prosesinin qurulmasını əhatə edir. Bu mərhələdə vəziyyəti aydın təsvir etmək çətindir. Əvvəlcə fenomenin xüsusiyyətlərini müəyyənləşdirmək, onunla digər obyektlər arasındakı əlaqəni müəyyən etmək lazımdır. Sonra bütün keyfiyyət xüsusiyyətləri riyazi dilə çevrilir və riyazi model qurulur. Bu mərhələ bütün modelləşdirmə prosesində ən çətin mərhələdir.

2. Alqoritmlərin işlənməsi, kompüter texnologiyasında problemin həlli üsulları, ölçmə xətalarının müəyyən edilməsi ilə bağlı riyazi məsələnin həlli mərhələsi.

Riyazi modelləşdirmənin bu üç mərhələsi alınan modelin adekvatlığının yoxlanılması ilə tamamlanır. Təcrübədə alınan nəticələrin nəzəri biliklərlə uyğunluğu yoxlanılır. Lazım gələrsə, yaradılmış modeli dəyişdirin. Əldə edilən nəticələrdən asılı olaraq mürəkkəb və ya sadələşdirilmişdir.

İqtisadi sistemlərin riyazi modellərinin optimal həllərinin tapılması hələ bu sistemlərin səmərəli davranışı və inkişafına təmin edəcək optimal idarəetmə strategiyalarının qurulmasını təmin etmir. Belə ki, İRM-in həlli qərar qəbul etmək səlahiyyətlərinə malik şəxsi dinamik informasiya ilə təmin etməlidir. Çünki iqtisadi sistemin riyazi modelinin qurulduğu ilkin şərtlər dəyişdiyi anda statik optimal həllə bağlı informasiya öz aktuallığını itirir və alınmış optimal həlli real iqtisadi şəraitə adekvatlığı əhəmiyyətli dərəcədə aşağı düşür. Odur ki, ilkin şərtlərin dəyişməsi nəticəsində modelin optimal həllinin çevikliliyini təmin etmək üçün bu həllin dayanıqlılığı və həssaslığının iqtisadi-riyazi təhlilinin aparılması zərurəti yaranır. Bu halda dayanıqlılıq dedikdə, iqtisadi sistemin qarşısında duran məqsədin riyazi ifadəsi olan məqsəd funksiyasının əmsallarının dəyişməsinin tapılmış optimal həllə necə təsir etdiyinin öyrənilməsi, həssaslıq dedikdə isə modellərin ekzogen xarakterli əmsallarının və sərbəst hədlərin məqsəd funksiyasına göstərdiyi təsirin kəmiyyətcə təhlili başa düşülür.

**İqtisadi – riyazi modellərin təsnifatı**

İqtisadi proseslərin və ya obyektlərin riyazi modellərini qısaca iqtisadi – riyazi modellər adlandırırlar. Bu modellər iqtisadi proseslərin qanunauyğunluqlarını riyazi münasibətlərin köməyi ilə abstrakt şəkildə ifadə edir.

Təyinat məqsədinə görə iqtisadi-riyazi modellər iki tipə bölünürlər: nəzəri-analitik və tətbiqi modellər. Nəzəri-analitik modellər əsasən iqtisadi proseslərin ümumi xassələrinin qanunauyğunluqlarının tədqiqində, tətbiqi modellər isə konkret iqtisadi məsələlərin həllində istifadə edilir.

Riyazi modellərin ümumi təsnifatına uyğun olaraq, iqtisadi-riyazi modellərdə struktur və funksional modellərə, həmçinin aralıq forma olan struktur-funksional modellərə ayrılır. Planlaşdırmada və idarə etmədə obyektlərin daxili qurluşunu və altsistemlərin qarşılıqlı əlaqəsini bilməyin böyük əhəmiyyəti var. Ona görə də iqtisadiyyatda tez-tez struktur və struktur-funksional modellər tətbiq olunur. Struktur modellərin tipik nümunəsi sahələrarası əlaqələr modelidir. Funksional modellər iqtisadi tənzimləmədə tətbiq edilir. Bu zaman obyektin fəaliyyətinə "giriş" parametrlərini dəyişməklə təsir edilir. Əmtəə-pul münasibətləri şəraitində istehlakçıların davranışı modeli belə modellərdəndir.

İqtisadi tədqiqatlara müxtəlif yanaşma tərzinə görə deskriptiv və normativ model-

ləri fərqləndirirlər. Deskripitiv modellər müşahidə olunan hadisələri yalnız izah edir və ya passiv proqnoz verir. Məsələn: Obyekt necədir? Nədən ibarətdir? Nə cür inkişaf edər? suallarını cavablandırır. Normativ modellər məqsədyönlü fəaliyyət üçün nəzərdə tutulur. Normativ modellərə nümunə olaraq optimal planlaşdırma modellərini göstərmək olar. Bəzi istehsal funksiyaları və istehlakçının tələb funksiyaları deskriptiv modellərdəndir.

İqtisadi-riyazi model iki formada istifadə oluna bilər: deskriptiv və normativ. Əslində iqtisadi-riyazi modelin deskriptiv yaxud normativ olması təkcə onun riyazi strukturunun deyil, həm də bu modelin istifadə olunma xarakterindən də asılıdır. Məsələn, sahələrarası balans modeli keçmiş dövrün təhlili yaxud passiv proqnoz üçün istifadə edilərsə, deskriptiv hesab olunur. Əgər riyazi model xalq təsərrüfatının inkişafının balanslaşdırılmış variantlarının hesabatı üçün tətbiq olunursa, onda o normativ formaya aiddir.

*Əfəndiyeva Teybə Aslan qızı,*
*müəllim,*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti,*
*Şamaxı filialı*

## AĞILLI HESABLAMALAR VƏ KİBERTƏHLÜKƏSİZLİK

**Ağıllı hesablamalar**

Ağıllı hesablama gələcək kompüter sistemlərinin maşın öyrənməsi, səs, rəng və forma tanınması, robototexnika, dil təhlili və digər intellektual funksiyaları əvəz etmək üçün inkişaf edən bir sahədir. Ağıllı hesablamalar məntiq və süni intellekt prinsiplərə əsaslanır və mahiyyətcə insan müdaxiləsinin azaldılmasını, məlumatın avtomatik təhlilini, problemlərin həllini, optimallaşdırmanı əks etdirir.

Ağıllı hesablamanın əsas konsepsiyalarına aşağıdakılar daxildir:

1. Maşın öyrənmə. Bu, sistemlərə məlumat vasitəsilə öyrənməyə və qərar qəbul etməyə imkan verən sahədir. Müşahidə olunmayan məlumatları təhlil etmək və məlumatlar arasında gizli nümunələri tapmaq üçün istifadə olunur.

2. Neyron şəbəkələri. Beyin fəaliyyətinə əsaslanan bir model olaraq neyron şəbəkə məlumatı təhlil etmək, məlumatı proqnozlaşdırmaq və məlumatı kateqoriyalara ayırmaq üçün istifadə olunur.

3. Yaddaş. Bu, sistemlərin informasiyaya əsaslanmasını və gələcəkdə ondan öyrənilməsini təmin edən komponentdir. Axtarış sistemlərin keçmiş məlumatları daxil etməsini və geri çağırmasını təmin edir.

4. İnformasiyanın təqdimatı və mühafizəsi. Ağıllı hesablamalardan böyük informasiya bazalarını idarə etmək, məlumatı təşkil etmək və qorumaq üçün də istifadə olunur. İnformasiyanın düzgün idarə edilməsi və qorunması sistemlərin səmərəliliyini və effektivliyini təmin edir.

Ağıllı hesablamalar bir çox sahələrdə, məsələn, səhiyyə, marketinq, avtomobil sənayesi, maliyyə və bir çox başqa sahələrdə inkişaf edir. Bu sahədəki inkişaflar həm fərdi, həm də biznes səviyyəsində geniş tətbiq imkanları yaradır.

**Kibertəhlükəsizlik**

Kibertəhlükəsizlik, kompüter təhlükəsizliyi və ya informasiya texnologiyaları təhlükəsizliyi (İT təhlükəsizliyi) kompüter sistemləri və şəbəkələrinin icazəsiz şəkildə məlumatların açıqlanması, oğurlanması və ya texniki vasitələr, proqram təminatı və ya verilənlərin (data) zədələnməsi ilə nəticələnə bilən zərərli aktorlar tərəfindən hücumdan, habelə proqram təminatının pozulmasından və ya yanlış istiqamətləndirilməsindən qorunmasıdır.

Bu sahə kompüter sistemlərinə, internetə və Bluetooth və Wi-Fi kimi simsiz şəbəkə standartlarına olan inamın genişlənməsi və smartfonlar, televizorlar və müxtəlif əşyaların internetini (IoT) təşkil edən müxtəlif cihazlar da daxil olmaqla smart cihazların artması ilə əlaqədardır. Kibertəhlükəsizlik həm informasiya sistemlərinin mürəkkəbliyinə, həm də onların dəstəklədiyi cəmiyyətlərə görə müasir dünyanın ən mühüm problemlərindən biridir. Elektrik paylanması, seçkilər və maliyyə kimi genişmiqyaslı sistemləri, dövlət və əhalinin məlumatlar bazasını və s. idarə edən sistemlər üçün təhlükəsizlik xüsusilə yüksək əhəmiyyət kəsb edir.

**Tarixi**

İnternetin gəlişindən və son illərdə başlanan rəqəmsal transformasiya ilə “kibertəhlükəsizlik” anlayışı həm peşəkar, həm də şəxsi həyatımızda tanış bir mövzuya çevrildi. Kibertəhlükəsizlik və kiber təhdidlər texnoloji dəyişikliklərin son 50 ilində ardıcıl olaraq mövcuddur. 1970 və 1980-ci illərdə kompüter təhlükəsizliyi, əsasən, internet konsepsiyasına qədər akademik mühitlə məhdudlaşdı, burada artan əlaqə ilə kompüter virusları və şəbəkə müdaxilələri artmağa başladı. 1990-cı illərdə virusların yayılmasından sonra 2000-ci illər kibertəhlükəsizlik və kibertəhlükəsizliyin institusionallaşdırılması aktual mövzuya çevrildi.

1967-ci ilin aprel ayında Uillis Var (Willis Ware) Spring Joint Computer Conference-ında təşkil edilən sessiya və Ware Hesabatının sonradan nəşri kompüter təhlükəsizliyi sahəsinin tarixində yeniliyin təməlini qoydu.

1977-ci ildə NIST nəşri əsas təhlükəsizlik məqsədlərini təsvir etmək üçün aydın və sadə üsul kimi CIA-nın məxfilik, bütövlük və əlçatanlıq (confidentiality, integrity, and availability) triadasını təqdim etdi. Hələ də aktual olsa da, o vaxtdan bəri daha çox işlənmiş çərçivələr təklif edilmişdir.

Bununla belə, 1970 və 1980-ci illərdə ciddi kompüter təhdidləri yox idi, çünki kompüterlər və internet hələ də inkişaf edirdi və təhlükəsizlik təhdidləri asanlıqla müəyyən edilirdi. Çox vaxt təhlükələr həssas sənədlərə və fayllara icazəsiz giriş əldə edən zərərli insayderlərdən gəlirdi. Zərərli proqramlar və şəbəkə pozuntuları ilk illərdə mövcud olsa da, onlardan maliyyə mənfəəti üçün istifadə etmədilər. 1970-ci illərin ikinci yarısında IBM kimi qurulmuş kompüter firmaları kommersiya girişinə nəzarət sistemləri və kompüter təhlükəsizliyi proqram məhsulları təklif etməyə başladılar.

Kompüter şəbəkəsinə hücumun ilk nümunələrindən biri Bob Thomas tərəfindən BBN-də yazılmış və 1971-ci ildə ARPANET vasitəsilə yayılan Creeper kompüter qurdudur. Proqram sırf eksperimental xarakter daşıyırdı və heç bir zərərli yük daşımırdı. Sonrakı proqram, (Reaper), 1972-ci ildə Rey Tomlinson tərəfindən yaradılmış və Creeper-i məhv etmək üçün istifadə edilmişdir.

1986-cı ilin sentyabrından 1987-ci ilin iyununa qədər bir qrup alman haker kibercasusluqla bağlı ilk sənədləşdirilmiş hadisəni həyata keçirdi. Qrup Amerikanın müda-

fiə şirkətlərinə, universitetlərinə və hərbi baza şəbəkələrinə müdaxilə edərək toplanmış məlumatları Sovet DTK-ya satdı. Qrupa 29 iyun 1987-ci ildə həbs edilmiş Markus Hess rəhbərlik edirdi. O, 1990-cı il fevralın 15-də casusluqda (iki sui-qəsdçi ilə birlikdə) məhkum edildi.

1988-ci ildə "Morris qurdu" adlanan ilk kompüter qurdlarından biri internet vasitəsilə yayıldı, əsas medianın əhəmiyyətli diqqətini çəkdi.

**Zəifliklər və hücumlar**

Zəiflik dizayn, icra, əməliyyat və ya daxili nəzarətdəki zəiflikdir. Aşkar edilmiş boşluqların əksəriyyəti "Ümumi zəifliklər və təsirlər" (CVE) verilənlər bazasında sənədləşdirilmişdir. İstismar edilə bilən zəiflik ən azı bir işləyən hücum və ya istismarın mövcud olduğu zəiflikdir. Zəifliklər avtomatlaşdırılmış alətlər və ya fərdiləşdirilmiş skriptlərdən istifadə etməklə tədqiq edilə, tərs dizayn edilə, ovlana və ya istismar edilə bilər. Kompüter sisteminin təhlükəsizliyini təmin etmək üçün ona qarşı edilə biləcək hücumları və bu təhlükələri anlamaq vacibdir.

Bunlar, adətən, aşağıdakı kateqoriyalardan birinə təsnif edilə bilər:

***Backdoor***

Kompüter sistemində, kriptosistemdə və ya alqoritmdə arxa qapı normal autentifikasiya və ya təhlükəsizlik nəzarətindən yan keçmək üçün hər hansı gizli üsuldur. Onlar orijinal dizayn və ya zəif konfiqurasiya da daxil olmaqla bir çox səbəblərə görə mövcud ola bilər. Onlar bəzi qanuni girişə icazə vermək üçün səlahiyyətli tərəf və ya zərərli səbəblərə görə təcavüzkar tərəfindən əlavə edilmiş ola bilər, lakin onların mövcudluğu motivlərindən asılı olmayaraq, zəiflik yaradır. Arxa qapıları aşkar etmək çox çətin ola bilər və arxa qapılar, adətən, proqramın mənbə koduna çıxışı olan və ya kompüterin əməliyyat sistemi haqqında yaxından məlumatı olan şəxs tərəfindən aşkar edilir.

***Denial-of-service attack (DoS)***

Xidmətdən imtina hücumları (DoS) maşın və ya şəbəkə resursunu nəzərdə tutulan istifadəçilər üçün əlçatmaz etmək üçün nəzərdə tutulub. Hücumçular qurbanın hesabının kilidlənməsinə səbəb olmaq üçün kifayət qədər ardıcıl, qəsdən səhv parol daxil etməklə fərdi qurbanlara xidmətdən imtina edə bilər və ya onlar maşının və ya şəbəkənin imkanlarını həddən artıq yükləyə və bütün istifadəçiləri bir anda bloklaya bilərlər. Tək bir IP ünvanından şəbəkə hücumu yeni bir təhlükəsizlik divarı qaydası əlavə edilməklə bloklana bilsə də, hücumun çox sayda nöqtədən gəldiyi və müdafiənin daha çətin olduğu yerlərdə paylanmış xidmətdən imtina (DDoS) hücumlarının bir çox formaları mümkündür. Bu cür hücumlar botnetin zombi kompüterlərindən yarana bilər və ya bir sıra digər mümkün üsullardan, o cümlədən əks-etdirmə və gücləndirmə hücumlarından, günahsız sistemlərin aldadıldığı və qurbana trafik göndərilməsi ola bilər.

**Risklər haradan gələ bilər?**

Kompüter istifadəsindən qaynaqlanan risklər, müxtəlif şəkillərdə ortaya çıxar. İşlətdiyimiz proqramlarda tapılması mümkün olabiləcək açıqlar və səhvlər, sistemə yerləştirilmiş ola biləcək arxa qapılar, zərər vermə məqsədi ilə yazılmış virus və bənzəri proqramları, pisniyyətli kəslərin edə biləcəyi birbaşa və dolayı hücumları, yalan cəhdləri və istifadəçi səhvləri bunlara örnəkdir.

"Kiber hücumlardan necə qorunmaq olar?" sualına keçməzdən əvvəl hansı tip

kiber hücumların var olduğu haqqında danışmaq lazımdır. Bir çox fərqli kiber hücum tipləri vardır. Lakin bunlar ümumi olaraq aşağıdakı kateqoriyalara ayrılır:

1.Hədəf sistemin təhlükəsizliyini keçərək məlumatları kopyalamaq

2.Açıq mikrofon/kamera dinləmək.

3.“Network scanning” dediyimiz şəbəkə axtarışı ilə sistemə sızmaq.

4.Hədəf sistemdəki bütün istifadə edilə bilən servisləri sıradan çıxarmaq (Denial of Service).

5.Hədəflənən şəbəkənin bütün internet servislərini məhv etmək.

6.Kripto hücumlar ilə şifrələri sındırmaq.

7.IP gizlətmə və başqa IP-ə keçmək (IP Masquerading).

8.İki şəbəkə arasına sızaraq dinləmək və məlumat oğurlamaq (MITM)

9.Aldatmaq-yemləmək (Phishing)

**Kiber təhlükəsizliyin yaranmasına səbəb olan kiber hücumları kimlər edirlər?**

İnformasiya sistemlərinə sızan, məlumatları oğurlayan, şəbəkələrə kiber hücumlar edən pisniyyətli şəxslərə adətən “hacker”, “cracker”, qara şapqalı xakerlər və ya kibercinayətkarlar deyilir. Bu insanlar, adətən, mükəmməl dərəcədə kod yazmağı bacaran, tərsinə mühəndislik bacarıqlarına malik olan insanlardır. Bu tip insanlara misal olaraq Kevin Mitnick adlı şəxsi göstərmək olar. Dünya tarixində yeganə insandır ki, kofe maşınına yaxın durmaq qadağan edilib. Səbəb isə kofe maşınını belə “hack”layaraq öz kodlarını yazıb istifadə etmə bacarığına malik olmasıdır.

**Kiber təhdidlərin riski və ya Kibertəhlükəsizliyin önəmi**

Kiber təhlükələr və təhdidlərlə bağlı bir çox araşdırma qurumları mövcuddur. Bu qurumlar müxtəlif riskləri araşdırır, il ərzində hansı tip hücumların daha çox olduğu haqqında məlumatları verirlər. Kiber təhlükəsizlik şirkəti olan Arbor Networks-un son verdiyi statistikalara görə, 2019-da baş verən kiber cinayətlər son 11 ilə nəzərən 60 dəfə daha çoxdur. Kiber hücumların tiplərində, əsasən, pul sızdırma və kiber cinayətkarların bacarıqlarını göstərmək üçün etdikləri hücumlar önə çıxır. Kiber hücumlarda olan ciddi artımlar səbəbi ilə dövlətlər və şirkətlər üçün Kiber təhlükəsizlik ciddi dərəcə önəm qazandı. Dünya tarixində ən böyük kiber hücumlara misal olaraq aşağıdakıları göstərmək olar:

- I Love You - bu virus qlobalda 45 milyon kompüterə yoluxmuş və ümumi 10 milyard dollarlıq zərər vermişdir.
- Nimda – bu soxulcan tipli zərərli proqram ümumilikdə 3 milyard dollarlıq zərərə səbəb olmuşdur.
- Love Bug – bu virus ümumilikdə bir çox şəbəkəni çökdürmüş və 10 milyard dollarlıq zərər vermişdir.

Sadalanan hadisələrdən görünür ki, kiber hücumlardan 100% qorunmaq mümkün olmur. Kiber təhlükəsizliyi təmin edə bilmək üçün daimi olaraq investisiyalar etməli, müxtəlif kiber təhlükəsizlik mütəxəssisləri ilə işləmək lazımdır.

**Kibertəhlükəsizliyi təmin etmək. Kiber hücumlardan qorunmaq**

2019-cu ilə nəzər saldıqda Kiber təhlükəsizliyə xərclənən büdcənin 101 milyard dollardan daha çox olduğunu görürük. Digər tərəfdən Kiber təhlükəsizliyin önəmini 2019-da daha yaxşı anlamaq mümkündür. Ən çox istifadə edilən sosial media platformaları olan Facebook və İnstaqram milyonlarca istifadəçisinin şəxsi məlumatlarını

kiber təhlükəsizliyi təmin edə bilmədiyi üçün internetə sızdırmışdı. Bəs Kiber təhlükəsizliyi necə təmin etmək olar? Bu suala 2 fərqli kateqoriyada cavab vermək mümkündür: istifadəçilərin və şirkətlərin baxış bucağı ilə.

**Necə kibertəhlükəsizlik mütəxəssisi olmaq olar?**

- İstifadəçilər Kiber təhlükəsizliyi öz cihaz və şəbəkələrində necə təmin edə bilər?

Qeyd etdiyimiz kimi, kiber təhlükəsizliyi 100% təmin etmək heç vaxt mümkün deyil. Bacarıqları üstün bir xaker və ya kibercinayətkar hər zaman bir yol tapacaq. Lakin qoruna bilmək üçün dediklərimizi icra etməyinizdə fayda var.

- Antivirus işlətmək.

Artıq bir çox antiviruslarda bank şifrələrinin qorunmasından təhlükəsizlik divarına qədər (Firewall) bir çox funksiyalar var. Bu səbəbdən kompüterinizdə hətta mobil telefonunuzda təhlükəsizliyi təmin etmək üçün, ilk növbədə, antiviruslardan istifadə etməlisiniz. Əməliyyat sisteminin təhlükəsizlik divarını deaktiv etməyin (Windows Firewall).

Bir çox istifadəçi təhlükəsizlik divarını deaktiv edərək əməliyyat sistemindən istifadə edir. Bu, birbaşa cihazınızı kiber təhlükələrə qarşı qoymaqdır. Bu təhlükəsizlik divarı arxa planda işləyən servisləri analiz edərək bilinməyən servislərin internetə çıxışını qadağan edir.

- Modem və ya Routerinizin sistemini yeniləyin.

Şəbəkə ilə əlaqə quran cihazların da sistemləri var və bu sistemlərin də müəyyən açıqları ola bilir. Məsələn, Tp-link cihazlarda tapılan son açıq ilə şəbəkəyə qoşularaq kompüterə müdaxilə etmək mümkün idi. Şirkət tərəfindən yayımlanan yeni sistemlə bu açıq bağlandı. Ona görə də modem və router aldığınız zaman rəsmi sayta giriş edərək ən sonuncu sistemi yükləyib quraşdırın. Bu sizin kiber təhlükəsizliyini müəyyən dərəcədə təmin edir.

- Təhlükəli görünən saytlardan, tətbiqlərdən və fayllardan uzaq durun.

Əgər yuxarıda dediyimiz variantlardan istifadə etmirsinizsə, daha da diqqətli olmaq məcburiyyətindəsiniz. Saytlar vasitəsilə "adaware" tipli viruslar, fayllardan virus və troyanlar, tətbiqlərdən isə virus və soxulcanlar yoluxa bilər. Ona görə girdiyiniz saytlara daha diqqətli olmalısınız, həmçinin hər faylı da yükləmək olmaz.

- Gələn E-mailləri diqqətli analiz edin.

Son illərdə Yemləmə (Phishing) üsulundan ən çox E-maillərdə istifadə olunur. Apple, Microsoft kimi şirkətlərin adından istifadə edərək kiber cinayətkarlar yalan məlumatların olduğu E-maillər ilə istifadəçiləri aldadırlar. Ona görə də E-mailləri cavablamadan öncə göndərən mail adresinə diqqətlə baxın.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**


1. Kərimov S.Q., Həbibullayev S.B., İbrahimzadə T. İ. İnformatika. Ali məktəblər üçün dərslik. Bakı, 2011.
2. Əliyev E.E., Əliyev A.Y., Kazımov C.K. İnformatikanın əsasları. Bakı, Mutercim, 2009.
3. Xəlilov M. İnformatika. Bakı, 2009.
4. Musayev V.H., İsmayilov M.A.və başqaları."İnformatika". Bakı, 2011.
5. Rüstəmov E.M."İnformatika". Bakı, 2009.

*Sevinj Saday Zeynalova,*
*D.Sc. (Philology), Professor,*
*Azerbaijan University of Languages,*
*E-mail:sevinjz@yahoo.com*

# LANGUAGE AS A CATALYST: STRENGTHENING SOLIDARITY FOR GREEN ECONOMY ADVANCEMENT

## Introduction

In the global pursuit of sustainable development, solidarity among diverse stakeholders is paramount. This solidarity is particularly crucial in the context of advancing green economy initiatives, where collective action is essential for addressing environmental challenges and promoting sustainable practices. However, achieving solidarity among individuals and groups with different languages, cultures, and backgrounds can be challenging. Language barriers often hinder effective communication and collaboration, potentially impeding progress towards green economy goals. (6)

In this article, we explore the pivotal role of language as a catalyst for strengthening solidarity in the advancement of the green economy. We examine how language diversity can either facilitate or impede solidarity, discuss strategies for overcoming language barriers, and highlight the importance of inclusive communication in promoting collaboration and collective action. Through case studies and examples, we illustrate the transformative power of language in fostering solidarity for green economy advancement.

## Language Diversity and Solidarity

Language serves as a fundamental aspect of human identity and culture, reflecting the rich diversity of communities worldwide. However, this diversity can pose challenges when attempting to build solidarity across linguistic boundaries. In the context of green economy initiatives, stakeholders may speak different languages, making effective communication and collaboration more complex. Despite these challenges, language diversity also presents opportunities for enriching perspectives, fostering creativity, and promoting inclusivity within sustainability efforts.(1)

In the Azerbaijani context, language diversity is a significant aspect of the country's rich cultural heritage and societal fabric. Azerbaijan is a linguistically diverse nation, with Azerbaijani (also known as Azeri) as the official language and several minority languages spoken by various ethnic groups. This diversity presents both opportunities and challenges for fostering solidarity within the country.

One example of language diversity and solidarity in Azerbaijan is the celebration of Novruz, the traditional New Year holiday. Novruz is celebrated by people from diverse linguistic and cultural backgrounds, including Azerbaijanis, Lezgins, Talysh, and others. Despite linguistic differences, people come together to participate in rituals, share traditional foods, and enjoy cultural performances, fostering a sense of unity and solidarity among communities.

Another example is the promotion of multilingual education in Azerbaijan.

While Azerbaijani is the primary language of instruction in schools, efforts have been made to support minority languages and preserve linguistic diversity. In regions with significant ethnic minority populations, schools offer bilingual education programs, where subjects are taught in both Azerbaijani and minority languages. This approach not only promotes inclusivity but also helps preserve minority languages and strengthen solidarity among different linguistic communities.

Furthermore, Azerbaijan's commitment to linguistic diversity is reflected in its cultural policies and initiatives. The government supports cultural festivals, language revitalization programs, and literary events that celebrate the country's linguistic heritage. For instance, the annual Gabala International Music Festival brings together musicians and artists from diverse linguistic backgrounds to showcase Azerbaijan's cultural diversity and promote solidarity through the universal language of music.

Overall, language diversity in Azerbaijan contributes to the country's cultural richness and societal cohesion. By embracing and celebrating linguistic diversity, Azerbaijan promotes solidarity among its diverse communities, fostering a sense of belonging and unity across language barriers. (4)

**Breaking down Language Barriers**

Overcoming language barriers is essential for promoting solidarity and facilitating effective collaboration in green economy projects. Various strategies can be employed to address these barriers, including the use of translation services, multilingual communication tools, and language training programs. (2) By investing in language resources and fostering a culture of linguistic inclusivity, organizations and communities can create environments where individuals from diverse linguistic backgrounds feel valued and empowered to contribute to green economy advancement.

**Leveraging Language for Collective Action**

Language proficiency plays a crucial role in enhancing collaboration, knowledge exchange, and joint decision-making among stakeholders involved in green economy initiatives. By fostering a shared understanding through effective communication, language can bridge divides and build trust among individuals and groups with different linguistic backgrounds. Moreover, inclusive communication practices that respect and accommodate linguistic diversity can promote a sense of belonging and ownership among participants, fostering greater commitment to collective action for sustainable development.

**Empowering Language Skills for Green Economy Participation**

Empowering individuals with the language skills necessary to participate in green economy activities is essential for promoting inclusivity and diversity within the sustainability sector.(8) Language education and training programs can equip individuals with the linguistic capabilities needed to access information, engage in dialogue, and contribute meaningfully to green economy projects. By prioritizing language learning and promoting multilingualism, organizations can create more equitable opportunities for participation and representation in sustainability initiatives. (6)

In preparation for hosting COP 29, Azerbaijan is actively working to empower individuals with the language skills necessary to participate effectively in green economy initiatives. Recognizing the importance of multilingualism in facilitating international cooperation and dialogue on environmental issues, Azerbaijan has launched various language education and training programs aimed at equipping stakeholders with the linguistic capabilities needed to engage meaningfully in sustainability discussions.

One example of empowering language skills for green economy participation is the establishment of language training courses specifically tailored to COP 29 delegates and participants. These courses provide intensive instruction in English, the primary language of international diplomacy, as well as other relevant languages such as Russian and French. By enhancing participants' language proficiency, Azerbaijan aims to ensure that all stakeholders, regardless of their linguistic background, can actively contribute to COP 29 discussions and negotiations on climate action and sustainable development.

Additionally, Azerbaijan is leveraging its experience in hosting international events to promote language diversity and inclusivity during COP 29. The country is providing translation and interpretation services in multiple languages to facilitate communication among delegates from different countries and linguistic backgrounds. (5)This ensures that all voices are heard and that language barriers do not hinder meaningful participation in COP 29 proceedings.

Furthermore, Azerbaijan's commitment to empowering language skills for green economy participation extends beyond COP 29. The government is investing in language education initiatives aimed at building a workforce equipped with the language competencies needed to drive sustainable development in various sectors, including renewable energy, eco-tourism, and environmental management. By prioritizing language learning and promoting multilingualism, Azerbaijan is creating opportunities for individuals to engage actively in green economy activities and contribute to the country's transition to a more sustainable future. (3)

**Conclusion**

In conclusion, language serves as a powerful catalyst for strengthening solidarity and advancing green economy goals. By breaking down language barriers, fostering inclusive communication, and empowering individuals with language skills, we can create environments where diverse stakeholders can collaborate effectively towards sustainable development. Moving forward, it is essential to prioritize language diversity and inclusivity in green economy initiatives, recognizing the transformative potential of language in promoting solidarity and driving positive change. As an example, Azerbaijan's efforts to empower language skills for green economy participation are instrumental in fostering inclusivity, diversity, and effective communication in the context of COP 29 and beyond. By investing in language education and promoting multilingualism, Azerbaijan is ensuring that all stakeholders have the linguistic capabilities needed to engage meaningfully in sustainability efforts and contribute to global climate action initiatives.

## References:

1. Adams, J. (2019). Language Diversity and Environmental Sustainability. Environmental Communication, 13(4), 423-425.

2. Crystal, D. (2017). Language and the Environment. Cambridge University Press.

3. Garibova, J., & Asgarova, M. (2009). Language policy and legislation in post-Soviet Azerbaijan. *Language Problems and Language Planning*, *33*(3), 191-217.

4. Gaziyeva, M., & Zeynalova, S. (2018). Welcome to Azerbaijan. Baku, Azerbaijan: Mutarjim Publishing-Polygraphic Centre.

5. Government of Azerbaijan. (2024). National Strategy for COP 29 Preparation. Baku, Azerbaijan: Ministry of Ecology and Natural Resources.

6. Kymlicka, W. (2020). Solidarity in diverse societies: Beyond neoliberal multiculturalism and welfare chauvinism. *Minorities and populism–critical perspectives from South Asia and Europe*, 41-62.

7. Le Roux, J., & Malan, A. (2020). Overcoming Language Barriers in International Collaborative Research: Language and Translation Challenges. Journal of Multilingual and Multicultural Development, 41(5), 374-388.

8. UNESCO. (2019). Linguistic Diversity and Multilingualism in Sustainable Development Goals Implementation. UNESCO Policy Paper 19. UNESCO Publishing.

9. Wapner, P. (2016). Global Environmental Politics: From Person to Planet (3rd ed.). Routledge.

*Ulviyya Hajiyeva,*
*Associate Professor,*
*Azerbaijan State Pedagogical University,*
*E-mail: ulviyyehaciyeva13@mail.ru*

## LANGUAGE LEARNING STRATEGY TRAINING MODELS

Finding the usefulness of strategy training, some researchers tried to present a model including the steps to be taken by teachers for this kind of instruction [1], [2].

O'Malley and Chamot found two approaches in teaching learning strategy, direct (overt in Oxford's model) and embedded (covert in Oxford' model). Direct training is "learning strategy instruction in which students are informed about the value and purpose of learning strategies" [2, 229]. Whereas, embedded training is "guidance in the use of learning strategies that is embedded in the task materials but not explicitly defined to the learner as strategy instruction" [2, 230]. They added that embedded approach had little effect on learners. Wenden [3, 31-42] has also criticized embedded instruction since with this kind of training the learners who were not familiar with cognitive or socio-affective strategies that were available to them, could not use the metacognitive ones and as a result no transfer occurred. As a result, she recommended the use of a more direct approach for the instruction.

Later, Chamot & O'Malley working on a project called Cognitive Academic Language Learning Approach (CALLA) provided a useful framework for direct language learning strategies instruction. The sequence of instruction in CALLA approach is a five-phase recursive cycle for introducing, teaching, practicing, evaluating, and applying learning strategies. In this approach, highly explicit instruction in applying strategies to learning tasks is gradually faded so that students can begin to assume greater responsibility in selecting and applying appropriate learning strategies. The cycle repeats as new strategies or new applications are added to students' strategic repertoires [4, 371-392].

CALLA model of Chamot and O'Malley relies on Anderson's (1985) distinction between declarative knowledge and procedural knowledge. Declarative knowledge is defined as "A special type of information in long term memory that consists of knowledge about the facts and things that we know. This type of information is stored in terms of propositions, schemata, and propositional networks. It may also be stored in terms of isolated pieces of information temporal strings, and images" [2, 229], whereas, procedural knowledge is the "Knowledge that consists of the things that we know how to do. It underlies the execution of all complex cognitive skills and includes mental activities such as problem solving, language reception and production, and using learning strategies" [2, 231]. They also suggested that all the three main categories of learning strategies could be taught through the CALLA approach [5].

To have a successful and helpful learning strategy instruction some requirements must be met by the teachers. These are summarized by R. Oxford into the following principles that she left subject to further investigation: 1) L2 strategy training should be based clearly on students' attitudes, beliefs, and stated needs, 2) strategies should be chosen so that they mesh with and support each other and so that they fit the requirements of the language task, the learners' goals, and the learners' style of learning, 3) training should, if possible, be integrated into regular L2 activities over a long period of time rather than taught as a separate, short intervention, 4) students should have plenty of opportunities for strategy training during language classes, 5) strategy training should include explanations, handouts, activities, brainstorming, and materials for reference and home study, 6) affective issues such as anxiety, motivation, beliefs, and interests–all of which influence strategy choice–should be directly addressed by L2 strategy training, 7) strategy training should be explicit, overt, and relevant and should provide plenty of practice with varied L2 tasks involving authentic materials, 8) strategy training should not be solely tied to the class at hand; it should provide strategies that are transferable to future language tasks beyond a given class, 9) strategy training should be somewhat individualized, as different students prefer or need certain strategies for particular tasks, and 10) strategy training should provide students with a mechanism to evaluate their own progress and to evaluate the success of the training and the value of the strategies in multiple tasks [5].

Nevertheless, not all L2 strategy training studies have been successful or conclusive. Some training has been effective in various skill areas but not in others, even within the same study (Oxford, 1989). Therefore the present study was conducted to shed some light on this issue. Considering that different variable of gender, cultural background, motivation, learning style, and attitudes and beliefs may affect strategy

use and learning, the present study can add to the previous literature on strategy training.

The results of the studies on strategy description and categorization have found their implications in language classrooms in helping teachers accelerate the language learning of their students. If learners are to be in a position to be made aware of different strategies that can assist them in the process of learning, they should be familiar with the strategies that are available. In other words, if students have to make their strategy selection, they have to know about the process of making this selection, because "informed selection of strategies presupposes knowledge of strategies and knowledge of strategies presupposes instruction" [6,179]. With the expansion of language learning strategy instruction research, the question to be answered is whether training on strategies would result in improvement in language learners. A large body of research supports the positive effects of training on strategies in language learning performance [7].

It has been suggested that learning strategy instruction may help learners in three ways: firstly, learning strategies instruction can help students to become better learners, secondly, skill in using learning strategies assists them in becoming independent and confident learners, and finally, they become more motivated as they begin to understand the relationship between their use of strategies and success in learning languages [4].

To ratify this premise, an abundant body of research has been carried out in recent years. O'Malley and Chamot, and R. Oxford have found that the use of learning strategies in classroom instruction is fundamental to successful learning. Supporting their findings [2, 210] in their studies of six cases found that "Strategy training can enhance both the process of language learning (the strategies or behaviors learners use and the affective elements involved) and the product of language learning (changes in students' language performance)." They also claimed that the training has some positive effects on the teacher:

Teachers who use strategy training often become enthusiastic about their roles as facilitators of classroom learning. Strategy training makes them more learner oriented and more aware of their students' needs. Teachers also begin to scrutinize how their teaching techniques relate (or fail to relate) to their students' learning strategies and sometimes teachers choose to alter their instructional patterns as a result of such scrutiny [1, 210].

With regard to vocabulary learning, research shows that for most adult learners direct vocabulary instruction is beneficial and necessary, due to the fact that students are not able to acquire the mass of vocabulary just by meaningful reading, listening, speaking and writing. Learners can be taught explicitly how to improve their own vocabulary by teaching them appropriate vocabulary learning strategies in contrast to simply letting students learn vocabulary in their own way. R. Ellis notes that we should remember that vocabulary learning also involves the use of individual learning techniques. R. Ellis has also found that the growing interest in providing a description of vocabulary learning techniques and strategies aims to enhance understanding of the acquisition processes that take place in the learners' mind. Therefore a description of vocabulary learning strategies can be used as a guideline to help learners in their

lexical acquisition [8, 409-441].

In relation to vocabulary learning strategies, R.Sanaoui reported that there were two approaches to vocabulary learning among students: a systematic approach and an unsystematic approach. In systematic approach learners were more organized and independent, used extensive records of lexical items, and reviewed words more often. In unsystematic approach, learners were dependent on the course, used minimal or no records of lexical items, and reviewed words little or not at all.

Coady J., arguing on the importance of context in vocabulary learning, recommended the use of vocabulary learning strategy instruction approach to enhance lexical acquisition:

The proponents of this approach (learning strategy instruction) also believe that context is the major source of vocabulary learning but they express some significant reservations about how well students can deal with context on their own. As a result, there is considerable emphasize on teaching specific learning strategies to students so that they can effectively learn from context [9, 276].

J. Husltijn claimed that the teaching of vocabulary learning strategies especially at the intermediate and advanced level by the use of keyword strategy would bring significant result. He added, "Modern foreign language pedagogy stresses the importance of teaching students appropriate learning and studying strategies" [10, 127]. He carried out a study that showed how cognitive strategies had dramatic impacts on the success or failure of students in terms of their acquisition of academic words. He also showed the significance of metacognitive awareness in the process of using words in oral communication.

The findings of this study support the foreign language research literature on strategy training of other components and skills of the language such as reading comprehension. Moreover, it can be asserted that the model used to teach metacognitive strategies was a practical and useful one.

The findings of the present study have implications for learners, teachers, and teacher educators in the realm of TEFL in particular and education in general. It helps teachers in accomplishing their challenging task of teaching English in EFL contexts where learners have less exposure to language compared to ESL contexts. Teachers can help learners use different metacognitive strategies to facilitate their vocabulary learning. Textbook writers, especially in the context of EFL, do not include a sufficient amount of information on learning strategies. A need for the inclusion of and emphasis on learning strategies is obvious.

Both learners and teachers need to become aware of learning styles and strategies through strategy instruction. Attempts to teach students to use learning strategies have produced good results. The main objective of such attempts is to allow students to become more aware of their preferred learning strategies and to help them become more responsible for meeting their own objectives. Such objectives can be only achieved when students are trained in strategy use so that they become more independent and effective.

There is a need for more comprehensive research on a wide range of variables affecting language learning strategies use. Variables such as cultural background, beliefs, learning style, motivation, and attitude that may have a bearing on language

learning strategy use should be studied with students of different language backgrounds and proficiency levels. Moreover, research on the frequency of use of the social and affective strategies and choice of given strategies is recommended since it is helpful for both learners and teachers.

**References:**

1. Oxford, R. (1990). Language learning strategies: What every teacher should know. New York: Newbury House.

2. O'Malley, J. M., & Chamot, A. U. (1990). Learning strategies in second language acquisition. Cambridge: Cambridge University Press.

3. Wenden, A. L. (1987). Incorporating learner training in the classroom. In A. L. Wenden, & J. Rubin (Eds.), Learner strategies in language learning (pp. 31-42). Englewood Cliffs, NJ: Prentice-Hall.

4. Chamot, A. U., & O'Malley, J. M. (1994). Language learner and learning strategies. In N. C. Ellis (Ed.), Implicit and explicit learning of languages (pp. 371-392). London: Academic.

5. Zohreh Eslami Rasekh, Reza Ranjbary, Metacognitive Strategy Training for Vocabulary Learning, https://tesl-ej.org/wordpress/issues/volume7/ej26/ej26a5/

6. Nunan, D. (1991). Language learning methodology. London: Prentice Hall International.

7. Carrell, P.L., Pharis, B.G. & Liberto, J.C. (1989). Metacognitive strategy training for ESL reading. TESOL Quarterly, 23, 647-678.

8. Ellis, R. (1995). Modified oral input and the acquisition of word meaning. Applied Linguistics, 16, 409-441.

9. Coady, J. (1997). L2 vocabulary acquisition through extensive reading. In J. Coady & T. Huckin (Eds.), Second language vocabulary acquisition (pp. 225-237). Cambridge: Cambridge University Press.

10. Hulstijn, J. (1997). Mnemonic methods in foreign language vocabulary learning: Theoretical considerations and pedagogical implications. In J. Coady, & T. Huckin, Second Language Vocabulary Acquisition (pp. 203-224). Cambridge: Cambridge University Press.

*Şahbazlı Çinarə Zahid qızı,*
*filologiya üzrə fəlsəfə doktoru,*
*Bakı Biznes Universiteti,*
*E-mail: chinara.shahbazli@mail.ru*

## MÜXTƏLİF SİSTEMLİ DİLLƏRDƏ KONSEPTLƏRİN TƏTQİQİ İSTİQAMƏTLƏRİ

Dilçilikdə konseptlərlə əlaqədar və ümumiyyətlə, koqnitiv dilçilik istiqamətində dissertasiya işləri yazılmışdır. G.H.Əliyeva düzəltmə sözlərin semantika və praqmatikası və onların koqnitiv xüsusiyyətlərini [4], A.M.Allahverdiyeva ingilisdilli televiziya

mətnlərinin [1], G.İ.Yusifova ingilisdilli idiomların koqnitiv özəlliklərini, onların anlaşılmasında koqnitiv amilləri araşdırma mövzusu etmişdir [9]. A.İ.Məmmədbəyli bədii diskursun koqnitiv strukturunda mədəni freymlərin rolunu araşdıraraq, bədii diskurs və onun linqvistik səciyyəsini, bədii diskursda mədəni freymlərin metonimik və hiperbolik, metaforik verballaşmasını [7], S.S.Zeynalova koqnitiv metaforlaşmanın substansional və prosessual aspektlərini [8], N.N.Muradova əlavələrin koqnitiv-semantik təhlilini [10], R.Q.Rzayeva isə "in" sözünün koqnitiv-linqvistik xüsusiyyətlərini [9] tədqiq etmişlər.

Müxtəlif növ konseptlərə ayrı-ayrılıqda tədqiqatlar həsr olunmuşdur. Konseptlərin bu şəkildə tədqiqata cəlb olunması, əsasən, son illərə təsadüf edir. Məsələn, 2017-ci ildə A.Q.Muradova "qiymətli daşlar" konseptini və həmin konseptin Şərqi slavyan dillərində verballaşmasını araşdırmışdır [7]. 2018-ci ildə Ü.A.Əhmədova müxtəlifsistemli dillərdə "qadın" konseptini linqvokulturoloji baxımdan [3], A.V. Mahmudova Azərbaycan və ingilis dillərində "müdriklik" konseptinin koqnitiv xüsusiyyətlərini [6], N.H.Quliyeva "multikulturalizm" konseptinin sözlü və sözsüz ifadə xüsusiyyətlərini tədqiq etmişdir [5].

Konseptləri müəyyən etmək üçün müxtəlif tədqiqatlar aparılmalıdır. Konseptosfer dilin koqnitiv baxımdan təhlilindən sonra reallaşmalıdır. Bunun üçün konseptosferin mühüm istiqamətləri konkretləşməlidir. Burada müəyyən çətinliklər meydana çıxır ki, bu da konseptlərin mental səciyyəsi ilə bağlıdır. Bütün konseptlər leksik vahidlərdən və leksik sistemdən çıxış edir. Hər hansı bir konsept yalnız verballaşdığı vaxt biz onların varlığını öyrənirik. Konseptosferdə mental sahə konkretləşməlidir. Koqnitiv tədqiqatlar özləri də çox vaxt qeyri-elmi təsəvvürlərə əsaslanır. V.A.Maslova yazır: "*Yüksək züvvar" dini jurnalının fikrinə görə, xalqımızın şüuruna, mentalitetinə və mənəvi təcrübəsinə daxil olan genetik kod Söz, Yaradan, Həqiqət, Xeyir, Səadət, Sülh, Azadlıq, Mənfəət, İnsan konseptləri ilə reprezentasiya oluna bilər ki, bunlardan hər biri rus pravoslav şüuru konseptosferinin sərhədlərində sakral mənalara malikdir"* [11, s.17].

Əslində, Söz, Yaradan, Həqiqət, Xeyir, Səadət, Sülh, Azadlıq, Mənfəət, İnsan kimi leksik vahidlər konseptlərin verballaşmasına xidmət edir. V.A.Maslovanın əsərində bütün bu konseptlər təbii ki, rus dilinin leksik vahidləri ilə verballaşıb: *Слово, Творец, Истина, Добро, Благо, Мир, Свобода, Польза, Человек* [11, s.17]. Bu sözlərin Azərbaycan dilinə tərcüməsində qarşıya böyük çətinliklər çıxır. Bu sözləri Azərbaycan dilinə tərcümə edən şəxs ciddi bir seçim qarşısında durur. Ən azı rus dilinin omonim sözlərindən birini seçmək lazım gəlir. G.H. Babaşova yazır: *" Мир sözünü "sülh" yaxud "dünya" kimi vermək lazımdır. Польза - "xeyir"dir ya "mənfəət"? Rus dilindəki Благо sözü və anlayışı yunan və dini mənşəli olaraq son dərəcə mürəkkəbdir. Onu "xeyir", "aydınlıq", "bərəkət", "səadət", "xoş məram" və bir çox digər sözlərlə Azərbaycan dilinə tərcümə etmək olar. Belə halda Благо söz kimi yox, "Благо" konsept kimi verilməlidir ki, bu konsept bir sıra leksik vahidlərlə Azərbaycan dilində xırdalanmalı və izah olunmalıdır"* [2, s.50]. G.H. Babaşovanın Azərbaycan və rus dilləri haqqındakı fikirlərini ingilis dili üçün də məqbul hesab etmək olar.

Ümumiyyətlə, konseptlər dilçilikdə tədqiqat obyekti kimi universal səciyyə

daşıyır. Universal konseptlər dedikdə, əsasən, bu konseptlər göstərilir: *sevgi, nifrət, sülh, müharibə, xeyir, şər, yaxşı, pis, insan, azadlıq, gözəllik, çirkinlik* kimi ümumbəşəri konseptlər vasitəsilə verballaşan dəyərləri bütün bəşəriyyətə şamil etmək olar.

Bu universal konseptlərin bütün bəşəriyyətə aid olması barədə müxtəlif fikirlər mövcuddur. Tədqiqatçıların fikrincə, bu konseptlər yalnız təkallahlılıq dini baxışları ilə bağlı olan dəyərlərdir. Lakin bu fikir yanlışdr. Dünyanın bütün din daşıyıcıları arasında xeyir və şər, yaxşı və pis, gözəllik və çirkinlik kimi anlayışlar müəyyən cüzi fərqlər olsa da, demək olar ki, eyni cür qəbul edilir. Yaxud dünyanın elə bir xalqı və ya milləti tapılmaz ki, onun müharibəyə rəğbəti olsun.

Qeyd edilən konseptlərin təhlili göstərir ki, onlar hamısı fəlsəfi, mənəvi və konseptual səciyyə daşıyır.

Mentalitet, yaxud milli mentallıq - əslində "milli psixologiya" deməkdir. Milli mentallıq kütləvilik, eyni zamanda, mücərrədlikdir. Kütləvi olduğu qədər də konkret və fərdidir. Milli mentalitet nə qədər fərdidirsə, o qədər də o, kütləvidir və yaxud əksinə. Xalqın mentaliteti olduğu kimi, şəxsin də fərdi mentaliteti olur.

## İstifadə olunmuş ədəbiyyat siyahısı:


1. Allahverdiyeva, A.M. İngilisdilli televiziya mətnlərinin koqnitiv xüsusiyyətləri: / filologiya üzrə fəlsəfə doktoru dis. avtoreferatı / – Bakı, 2014. – 24 s.
2. Bəydili, Atalar sözü / Tərtib və ön sözün müəllifi: C.Bəydili (Məmmədov) – Bakı: Öndər, – 2004. – 264 s.
3. Əhmədova, Ü. Müxtəlifsistemli dillərdə "qadın" konseptinin linqvokulturoloji xüsusiyyətləri: / filologiya üzrə fəlsəfə doktoru dis. avtoreferatı / – Bakı, 2018. – 22 s.
4. Əliyeva, G.H. Düzəltmə sözlərin semantika və praqmatikası və onların koqnitiv komponentlərində qarşılıqlı münasibətlərin aşkarlanması (müasir ingilis dilinin materialları əsasında): / filologiya üzrə fəlsəfə doktoru dis. avtoreferatı / – Bakı, 2012. – 28 s.
5. Quliyeva, N. Multikulturalizm konseptinin sözlü və sözsüz ifadə xüsusiyyətləri (İngilis və Azərbaycan dilləri materialları əsasında): / filologiya üzrə fəlsəfə doktoru dis. avtoreferatı / – Bakı, 2018. – 28 s.
6. Mahmudova, A. Azərbaycan və ingilis dillərində "müdriklik" və "wisdom" konsepti: / filologiya üzrə fəlsəfə doktoru dis. avtoreferatı / – Bakı, 2018. – 24 s.
7. Mənsimzadə, S. Müxtəlifsistemli dillərdə hərəkət feilləri əsasında yaranan frazeologizmlər: / filologiya üzrə fəlsəfə doktoru dis. avtoreferatı / – Bakı, 2012. – 145 s.
8. Muradova, N.N. Əlavələrin koqnitiv-semantik təhlili (İngilis dili materialları əsasında): / filologiya üzrə fəlsəfə doktoru dis. avtoreferatı / – Bakı, 2018. – 28 s.
9. Şükürlü, S. Konsept termini və dildə "yaxşı", "pis" konseptlərinin ifadə vasitələri haqqında // – Bakı: Terminologiya məsələləri, – 2016. № 2, – s.178-184
10. Akdağ, Ö. Kötülük Sorunu Ve Teodise // International Journal of Social Science, – 2015. Number: 38, Autumn II, – p. 473-480.
11. Мещерякова, Ю.В. Концепт "красота" в английской и русской культурах // Языковая личность: проблемы лингвокультурологии и функциональной семантики: Сборник научных трудов, – Волгоград: Перемена, – 1999. – с. 209-215.

*Nuriyeva Səadət Tapdıq qızı,*
*filologiya üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Dillər Universiteti,*
*E-mail: saadetnuriyeva@gmail.com*

# XARİCİ DİLİN ÖYRƏNİLMƏSİNDƏ QRAMMATİKANIN ƏHƏMİYYƏTİ

Məqaləni yazmaqda əsas məqsəd dilin əsas aspektlərindən biri olan qrammatikanın xarici dilin öyrənilməsində vacibliyindən, lazımlılığından bəhs etməkdir. Qrammatika hər bir dilin əsası olub sözlərin sistemli bir şəkildə bir-biri ilə əlaqəyə girərək müəyyən məna ifadə etməsində ən əsas vasitədir. Qrammatika dilçilikdə ən çox tədqiq edilən sahələrdən biridir. Bu isə məhz onun daha çox önəmli olmasından irəli gəlir. İstər yazılı, istərsə də şifahi dilin formalaşmasında əsas rol oynayan qrammatikanın öyrənilməsi ən əsas məqsədlərdən biri hesab olunur. Son onilliklər ərzində qrammatikaya qarşı ögey münasibət onun dilin digər sahələrinə nisbətdə sıxışdırılmasına səbəb olub. Qrammatikanın tədrisinə ayrılan dərs saatlarının azaldılması, qrammatikanın müxtəlif sahələrindən bəhs edən fənlərin kənarlaşdırılması, qəbul imtahanları zamanı qrammatikaya dair sualların azaldılması və ya sıfırlanması buna əyani sübutdur. Hal-hazırda "Qrammatikasız dil öyrənmək" tezisi narahatçılıq yaradan qeyri-normal bir haldır. Istər-istəməz bu kimi hallar bizdə belə bir sualın yaranmsına səbəb olur. Dilin qrammatik quruluşa malik olmadan, (yəni qrammatikasız) dil kimi formalaşması mümkündürmü? Ana dilini çıxmaq şərtilə, hər hansı bir dili öyrənərkən onun qrammatikasını öyrənməmək olarmı? Hər hansı bir xarici dildə onun qrammatikasını öyrənmədən danışmaq mümkündürmü? Bu kimi suallar məqalədə özünə cavab tapır.

Təsadüfü deyildir ki, bir çox məşhurlar qrammatikaya xüsusi önəm verərək bu barədə önəmli fikirlər irəli sürmüşlər. Məsələn, A.P.Martiniç qrammatika haqqında yazır:"A Philosopher once said, 'Half of Philosophy is a good grammar' (Filosof yazır: "Fəlsəfənin tən yarısı yaxşı qrammatikadır") [9].

O.İ.Musayev qrammatikanı dilin onurğa sütunu adlandırır. O yazır: " Grammar is a backbone of a language" [4] Görkəmli dilçinin dediklərində həqiqət var, insan onurğa sütunu olmadan yeriyə və ayaq üstə dura bilmədiyi kimi, dil də qrammatikasız formalaşa bilməz.

B.J.Chute qrammatikaya xüsusi dəyər verərək yazır: "Grammar is to a writer what anatomy is to a sculptor, or the scales to a musician. You may loathe it, it may bore you, but nothing will replace it, and once mastered it will support you like a rock. "Anatomiya heykəltəraş üçün, simlər musiqiçilər üçün nə deməkdirsə, qrammatika da yazıçı üçün o deməkdir. Sən ona nifrət edə bilərsən, sən ondan cana gələ bilərsən, amma heç nə onu əvəz edə bilməz. Sən bir dəfə ona yiyələndinsə, o həmişə arxanda dağ kimi duracaq." Bizim fikrimizcə, B.J.Chute tamamilə haqlıdır. Gözəl nitq mədəniyyətinə malik olmaq üçün qrammatikanın öyrənilməsi çox vacibdir. [9]

M.C.Murcia və D.L.Freeman "The Grammar Book" adlı kitabda qeyd edir ki, ingilis dilini ikinci dil kimi öyrənən hər bir şəxs həmin dilin qrammatikasını mükəmməl dərəcədə bilməsə həmin dildə fikrin aydın ifadə edə bilməz. [3, p.3]

David Kristal "Qrmmatikanın əhəmiyyəti"adlı məqaləsində haqlı olaraq qeyd edir ki, qrammatika bizim özümüzü ifadə etmək bacarığının struktural əsasıdır. [8]

Qrammatikanı yaxşı bilmək, başa düşmək danışana imkan verir ki, öz fikrini

dinləyiciyə daha düzgün, dəqiq çatdırsın, və eyni zamanda, onun nə dediyini daha səlist başa düşsün. Bu ondan irəli gəlir ki, qrammatika mənanın düzgün ifadəsinə xidmət edir, ünsiyyət zamanı qeyri-müəyyənlık və yanlış ünsiyyət kimi neqativ hallar kənarda qalır. Qrammatikanı dərindən bilən şəxs öz fikrini dəqiq ifadə edir, ünsiyyətdə olduğu insanlar tərəfindən daha yaxşı başa düşülür və normal ünsiyyət yaranır. Qeyd etmək lazımdır ki, xarici dil öyrənən şəxsin qrammatik biliklərə malik olması ona həmin dilin qrammatik strukturunu qavramaqa, anlamaqda kömək edir və onlar yazılı və şifahi mətnləri daha dolğun şəkildə anlayır, çünki onlar qrammatik kateqoriyaları praktik şəkildə yaxşı mənimsədikləri üçün, feilin zamanlarını, məchul növ formalarını, icbar növü, cümlə quruluşunu, söz sırasını və s. düzgün müəyyən edir və bütün bu sadalananlar onların anlama bacarığını daha da artırır.

Qrammatika yazılı nitq üçün çox vacibdir. Fikrin düzgün ifadə edilərək oxucuya çatdırılması üçün aşağıdakılar çox önəmlidir:

- zamanların düzgün işlədilməməsi;
- söz sırası;
- feillərin düzgün növdə işlədilməsi;
- feilin şəkil kateqoriyasının nitqdə düzgün tətbiqi;
- zamanların uzlaması;
- düzgünəntiqi ardıcıllıq;
- durğu işarələrindən düzgün istifadə olunması;
- inversiya;
- qrammatik abiqitivlik və s.

Xüsusilə qeyd etmək lazımdır ki, yanlız qrammatikanı mükəmməl bilən şəxs qrammatik omonimlərin bir-birindən fərqli işlənməsini müəyyən edə bilər, əks təqdirdə dolaşıq, anlaşılmaz fikir formalaşa bilər. Məsələn, ingilis dilində keçmiş qeyri-müəyyən zaman ilə (The Past Indefinite tense form) feilin indiki və gələcək zamana aid olan (The Past Subjunctive) formaca qrammatik omonimdir. Onların fərqləndirmək üçün gərək onların işlənməsini biləsən. Bu isə qrammatik biliklərə malik olmadan mümkün deyil. Digər bir nümunə durğu işarələrinin düzgün işlədilməsidir, çünki adi bir səhv mənanın itməsinə səbəb ola bilər. Məsələn,

1. Let’s eat kids.
2. Let’s eat, kids.

Hər iki cümlə eyni sözlərdən ibarətdr, onlar yalnız ikinci cümlədə işlənən vergül işarəsinə görə fərqlənir. Birinci cümlə “Gəlin uşaqları yeyək”, ikinci cümlə isə “Uşaqlar, gəlin yemək yeyək”mənasında işlənir. Daha bir nümunəyə nəzər salaq.

1. No more tequila! Daha içki lazım deyil!
2. No, more tequila! Yox! Bir az da içki!

Və yaxud, eyni quruluşa malik olan ancaq mənaca tamamilə bir birindən fərqlənən iki cümləyə nəzər salaq.

1. Did Tom come in?
2. Did Tom come in.(=In did Tom come.)

Birinci cümlə sual cümləsidir. İkinci cümlə isə nəqli cümlədir, sadəcə ikinci cümlədə inversiya baş vermişdir və bu səbəbdən köməkçi feil mübtədadan əvvəl işlənərək baş verən hərəkəti vurğulamışdır.

İndi isə eyni mənaya malik olan ancaq müxtəlif qrammatik quruluşa malik olan cümlələrə nəzər salaq:

1. I saw that she was coming. (Tamamlıq budaq cümləli mürəkkəb cümlə);
2. I saw her coming. (Mürəkkəb tamamlıqlı sadə cümlə);
3. She was seen coming. (Mürəkkəb mübtədası olan sadə cümlə);
4. It was seen that she was coming. (Mübtəda budaq cümləli mürəkkəb cumlə).

Sözsüz ki, dilin qrammatikasını, qrammatik incəlikləri bilmədən bir fikiri bir neçə cür ifadə etmək mümkün deyil, ancaq qrammatik bilik və vərdişlərə yiyələnən şəxs öz fikrini rəngarəng şəkildə heç bir səhvə yol vermədən ifadə edə bilər. Məsələn, yuxarıda verilən dörd cümləni düzgün ifadə etmək üçün ingilis dilində feilin zaman formalarını, zamanların uzlaşmasını, feilin təsriflənməyən forması olan "indiki zaman feili sifəti"ni, onunla əmələ gələn tamamlıq və mübtəda feili sifət tərkiblərini bilmək lazımdır. Bundan əlavə, mürəkkəb cümlənin sadə cümləyə və sadə cümlənin mürəkkəb cümləyə transformasiya olunması yollarını bilmək zəruridir. Sözsüz ki, doğma dil daşıyıcısı bütün bunların fərqinə varmadan öz fikrini ana dilində sərbəst şəkildə ifadə edir, danışır. Məsələn, doğma dil daşıyıcısı "Subjective Participial Construction" və ya "Subject clause" kimi qrammatik terminlərin mahiyyətini dərk etmədən belə həmin qrammatik vahidləri dilində sərbəst şəkildə işlədir. Sözsüz ki, hər hansı bir dil daşıyıcısı öz dilini qrammatikanınn mahiyyətinə varmadan körpəlikdən öyrənir, çünki onların beyni ilk öyrəndikləri dili birbaşa mənimsəməyə uyğunlaşıb.

Nəticə etibarilə, qeyd etmək lazımdır ki, sözlərin bir-biri ilə əlaqəyə girərək söz birləşməsi yaratması, söz birləşmələrinin sözlərlə və eləcə də söz birləşmələri ilə əlaqəyə girərək cümlə yaratması, cümlə üzvləri arasında məntiqi ardıcıllıq, həmin sözləri, birləşmələri bir-birinə bağlayan vasitələr və söz sırası dilin strukturu olan qrammatikanın fonunda reallaşır.

Qrammatika dilin elə bir sahəsidir ki, o dil səriştəsinin əsasını qoyur. Dil səriştəsi isə qrammatik qaydaları və nümunələri öyrənməklə əldə edilir və bu birbaşa dil bacarıqlarının sistemli şəkildə inkişafına səbəb olur, çünki bu dil öyrənənlərə cümlələr qurmağa, nitqlərinə düzgün qrammatik qaydalar tətbiq etməyə imkan verir. Bu sadalananlar bizə qrammatikanın dilin ən əsas aspekti olmasını vurğulamağa əsas verir.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**

1. Jespersen O. (1958) *The Philosophy of Grammar,* Москва: 396 p.
2. Khaimovich B. S. et al. A Course in English Grammar, Moscow, Выс..шк., 1967, 298 p.
3. Marianne-Celce Murcia, Dane Larsen-Freeman "The Grammar Book" An ESL/EFLTeacher's Course, first printing, U.S.A.1983, 651p.
4. Musayev O.I., E.I.Hacıyev, Huseynov A.R. "A Practical Grammar a of Contemporary English. Bakı, Qismət, 2009, 552 s.
5. David Cristal, "In Word and Deed'TES Teacher, April, 2004.

Internet saytları:

6. https://www.fluentu.com/blog/english/english-grammar-importance/
7. https://writerarmy.com/top-5-reasons-why-grammar-is-important/
8. https://nool.ontariotechu.ca/writing/english-language-resources/grammar/index.php
9. https://www.21kschool.com/in/blog/the-importance-of-grammar-in-english-language/#:~:text=The%20primary%20purpose%20of%20grammar,%2C%20sentence%20structure%2C%20and%20punctuation.

*Allahverdiyeva Vəfa Elxan qızı,*
*filologiya üzrə fəlsəfə doktoru, baş müəllim,*
*Bakı Slavyan Universiteti,*
*E-mail: vefabsu@mail.ru*

# DİL SİYASƏTİNİN VƏ XARİCİ DİL TƏDRİSİNİN EKOLİNQVİSTİK PRİNSİPLƏRİ

Xarici dil tədrisinə ekolinqvistik yanaşma ilk növbədə dil və mədəni müxtəlifliyin qorunmasını nəzərdə tutur. Bu gün YUNESKO kəmiyyət müxtəliflik indeksi yaratmaqla qlobal və ya regional miqyasda dil müxtəlifliyini ölçməyə çalışır. Bu yolla BMT qlobal vətəndaşlıq kontekstində mədəni və dil müxtəlifliyini qorumağa səy göstərir. Bu o deməkdir ki, mədəniyyətlərarası dialoqun və qlobal anlaşmanın gücləndirilməsi zərurəti ilə eyni zamanda mədəni və dil müxtəlifliyinin, milli kimliklərin qorunması və dillərə ədalətlə yanaşma və onların bərabərliyinə cəhd arasında tarazlıq yaratmaq vacibdir. Başqa sözlə, insanın dil və mədəni müxtəlifliyini və milli mənsubiyyətini pozmadan xalqları birləşdirə biləcək millətlərarası və mədəniyyətlərarası qarşılıqlı əlaqə üçün optimal bir vasitə inkişaf etdirilməlidir.

Ekolinqvistikanın prinsipləri diktə edir ki, xalqların birləşməsi ilə yanaşı, milli mədəniyyətləri öz orijinal dəyərlər toplusu, adət-ənənələri, institutları, mentaliteti və artefaktları ilə qoruyub saxlamaq və inkişaf etdirmək lazımdır. Müxtəliflikdəki birliyin dialektik prinsipi etnolinqvistik müxtəlifliyin vahid və mədəni baxımdan daha zəngin dünyanın təməlinə çevriləcəyini deməyə əsas verir.

Məlumdur ki, mədəniyyət və tarix dildə və nitqdə həkk olunur. Dil biliyi eyni zamanda bu dildə danışan insanların mədəni dəyərlərinə, adət-ənənələrinə, düşüncə və davranış tərzlərinə keçid deməkdir. Mədəniyyət və dil müxtəlif etnik və milli icmaların ontologiyasını əks etdirir, onları digər xalqlardan fərqləndirir. Xalqın mədəni-tarixi ontologiyası onun mövcudluğunun obyektiv şərtləri, tarixi, istehsal etdiyi sərvətlərin məcmusu ilə şərtlənən xarakteroloji xüsusiyyətləridir. Ontologiya, öz növbəsində, qnoseologiyanı, xalqın dünyanı dərk etmə tərzini qabaqcadan müəyyən edir, və bu da öz növbəsində Vilhelm fon Humboldtun "xalqın ruhunu" dərin tarixdən çıxan daxili mənalar toplusu kimi müəyyənləşdirir [1, s.92]. Bu mənalar dil və mədəniyyətin inkişafını ənənədən yeniliyə doğru istiqamətləndirir. Beləliklə, xalqın ontologiyası onun dili, mədəniyyəti və son nəticədə ideologiyası ilə belə bağlıdır.

Mədəniyyət və dil (linqvokultura) həm müəyyən bir icmanı və onun daxilindəki qrupları, həm də fərdi cəmiyyətin bir hissəsi kimi müəyyən etməyə xidmət edir. Şübhəsiz ki, milli identifikasiya daha möhkəm və davamlıdır, çünki mədəniyyət və dil (Şerbanın "nitq fəaliyyəti — dil sistemi — dil materialı" triadası (üçlüyü) kimi [3, s.17]) daha müxtəlifdirlər və erkən uşaqlıqdan başlayaraq dünya, cəmiyyət və onun içində özünü bir növ birlik kimi güclü dərk etməyi formalaşdıran daha çox sinoptik və assosiativ əlaqələr yaradır.

Bir dildə düşünülə və hiss oluna bilən başqa bir dildə eyni şəkildə edilə bilməz; dilin təcəssüm etdirdiyi qavrayış növü, onun ifadə edə bildiyi hadisələrin spektr dairəsi, zehni fəaliyyət və onun nəticəsində işlənən əşya və hisslər düşünən fərdin dilindən asılı olaraq həm keyfiyyət, həm də tip baxımından fərqlənir.

İstənilən dilin dərindən öyrənilməsi müəyyən mədəniyyətin ayrılmaz tərkib hissəsini təşkil edən linqvistik və obrazlı materialın, anlayışların, stereotiplərin, simvolların, düşüncə/davranış üslublarının və ideologiyaların uzun müddət mənimsə-nilməsi deməkdir.

Mədəniyyət və dil identifikasiya fenomeni, şəxsiyyətin formalaşması prosesi ilə ayrılmaz şəkildə bağlıdır. İdentifikasiya insanın bu və ya digər milli-mədəni icmaya (millət/milliyyət, irq, inanc, sinif, sosial təbəqə, qrup) mənsubiyyətinin dərk edilməsi kimi müəyyən edilə bilər. İnsan müəyyən bir irsin, sosial təcrübənin davamçısı olduğundan insanın şəxsiyyəti qismən subyektiv, qismən də obyektiv xarakter daşıyır.

Mədəniyyət və dil milli-mədəni mənaların özünəməxsus mental sahəsini yaradır ki, onun daxilində insan dünyanı bu sahənin "prizmasından" dərk edir [2, s.369].

Dil seçimi və istifadəsi insanın şəxsiyyətində və dünyagörüşündə dəyişikliklərə səbəb ola bilər.

Fikrimizcə, yuxarıda qeyd olunan məsələlər üzrə konsensusa razılığa nail olmaq, vahid mövqe formalaşdırmaq üçün dil siyasəti və linqvodidaktika sahəsində çalışan dilçi və alimlərin, xarici dil müəllimlərinin birgə səyləri vacib amillərdən hesab olunur.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**

1. Vilhelm fon Humboldt. Məqalələr və fraqmentlər. Bakı: Elm və təhsil, 2019, 132 s.

2. Марусенко М.А. Эволюция мировой системы языков в эпоху постмодерна: языковые последствия глобализации. М.: ВКН, 2015. 496 с.

3. Щерба Л.В. Языковая система и речевая активность / ред. Л.Р. Зиндер, М.И. Матусевич; Академия наук СССР. Ленинград: Наука: Ленинградский филиал, 1974. 432 с.

*İskəndərova Şaiqə Həmzə qızı,*
*filologiya üzrə fəlsəfə doktoru, dosent,*
*Bakı Biznes Universiteti,*
*E-mail: iskenderovashaiqe@gmail.com*

## "YAŞIL" TƏYİNİ İLƏ YARANMIŞ İQTİSADİ TERMİNLƏRİN STRUKTUR SEMANTİKASI

Dil və təfəkkür qarşılıqlı əlaqədədir. Biz dildə mövcud olan söz və ifadələri öz fikirlərimizə, düşüncələrimizə uyğun olaraq istifadə etməklə qarşı tərəflə ünsiyyət qururuq. Söz sadəcə səslərdən, müəyyən fonetik quruluşdan ibarət məfhum deyildir. Özündə müəyyən şüur aktını cəmləşdirən səs kompleksinə malik dil faktıdır. Təfəkkür inkişaf etdikcə yeniliklər baş verir. Bu yeniliklərin nəticəsi olaraq yeni anlayış, məfhum və bunun müqabilində yeni söz və ifadələr yaranır. Sözün bir neçə məna kəsb etməsi sayəsində konkret mənalar müstəqil sözlərlə ifadə olunur. Sözün yeni məna ifadə etməsi onun əşya, anlayış arasında mövcud olan assosiativ əlaqələri əsasında baş verir. Yeni terminlərin formalaşmasında dilin daxili imkanlarından da istifadə olunur.

Çünki ana dilinin saflığı, xəlqiliyi əsas prinsip hesab edilməli və onun həlledici rolu nəzərə alınmalıdır. "Elm və texnikanın müxtəlif sahələrində meydana gələn yeni anlayışların ifadəsi üçün terminlər yaradılarkən ən əvvəl ana dilinin lüğət tərkibinə nəzər salmaq, onun daxili imkanlarından səmərəli istifadə etmək lazımdır. Ana dilinin lüğət tərkibi əsasında termin yaratmaq üçün yalnız mövcud söz yaradıcılığı modellərindən istifadə etmək kifayətdir" (7, s.8).

Terminologiyada ümumişlək sözlərin məna derivasiyası əsasında terminləşməsi prosesinin əsas səbəbi ümumişlək sözün çoxmənalı lüğəvi semantikaya malik olması ilə bağlıdır. Bu proses sözün mənasının çoxalması, genişlənməsi ilə baş verir. Ümumişlək sözlərin terminləşməsi prosesi dedikdə, sözlərin mənasının dəyişməsi nəticəsində yeni vahidlərin meydana gəlməsi nəzərdə tutulur. "Azərbaycan dilinin ən müsbət xüsusiyyətlərindən biri də eyni səs tərkibinə malik olan sözün bir neçə leksik mənaya malik olmasıdır" (7, s.53).

"Söz təkcə termin kimi işlənmir, eyni zamanda terminoloji leksikanın zənginləşməsində rol oynayır və bir sıra terminlərin yaranmasında iştirak edir" (6, s.71). Beləliklə, aydın olur ki, sözün terminoloji leksikada öz yerini tapması üçün sözün mənasının dərinləşməsi və təkmilləşməsi əsas şərtdir "Yeni anlayışı əks etdirmək üçün dildə əvvəlcədən mövcud olan sözdən istifadə edilir. Lakin yeni anlayışı bildirmək üçün hansı sözdən istifadə olunması təsadüfü deyildir. Bu zaman sözün əvvəlki mənası ilə yeni anlayış arasında əvvəlki sözün təkcə səs tərkibi yox, mənası da iştirak edir" (9,s.196).

Cəmiyyətin və elmin inkişafı ilə bağlı olaraq sözün funksiyası dildə genişlənərək yeni termin yaranmasına səbəb olur. Məsələn, ümumişlək söz olan "yaşıl" sözünü götürək. Müasir Azərbaycan dilində rəng mənasını bildirən bu söz artıq yeni münasibətlər, yeni tələblər və yeni istiqamətlər fonunda termin kimi özündən sonra uyğun sözlərlə birləşərək terminləşmə prosesində fəal iştirak edir.

Məlum olduğu kimi, 2024-cü il Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları tərəfindən "Yaşıl dünya naminə həmrəylik ili" elan olunmuşdur. Bunun ölkəmiz üçün əlamətdar hadisə olduğunu qeyd edən Prezident İlham Əliyev hər zaman bu məsələlərə böyük diqqət ayırdığını bildirərək, Azərbaycanın 2030-cü ilə qədər müəyyən edilmiş milli sosial-iqtisadi inkişafa dair prioritetləri sırasında yaşıl cəmiyyətin formalaşdırılması, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi kimi məsələlərin yer aldığını hamının diqqətinə çatdırmış, ənənəvi iqtisadiyyatin yaşıl iqtisadiyyata transformasiya olunması üçün cəmiyyətimizdə yaşıl mədəniyyətin formalaşdırılması, xüsusən, gənclərə bu təfəkkürün aşılanması və nəhayət, yaşıl cəmiyyətin formalaşması istiqamətində ardıcıl, sistemli tədbirlərin görülməsinin zəruri olduğunu vurğulamışdır.

Yaşıl cəmiyyətin formalaşması üçün qarşıda duran vəzifələrin yerinə yetirilməsi zamanı iqtisadiyyatın, kənd təsərrüfatının bütün sahələrində olan proseslər "yaşıl" sifəti ilə təyin olunur. Məsələn, yaşıl iqtisadiyyat, yaşıl cəmiyyət, yaşıl enerji, yaşıl şəhər və s. Göründüyü kimi, Azərbaycan dilinin öz daxili imkanları hesabına, yəni ümumişlək söz olan "yaşıl" sifəti ilə dilimizdə saysız iqtisadi terminlər yaranmışdır.

Bu iqtisadi terminlər daha çox I, II, III növ sadə və mürəkkəb təyini söz birləşmələri ilə ifadə olunur. Təyini söz birləşmələri iki və daha artıq müstəqil sözün məna və qrammatik cəhətdən birləşməsindən əmələ gəlir. Təyini söz birləşmələrində, adətən, birinci tərəf ikinci tərəfi təyin (izah) etdiyi üçün həmin birləşmələrə təyini söz birləşmələri deyilir.

Azərbaycan dilində həm sadə təyini söz birləşmələri, həm də mürəkkəb təyini söz birləşmələri geniş işlənir. Dilimizin lüğət tərkibinə son illər daxil olmuş və ümumişlək söz olan "yaşıl" təyini ilə yaranmış iqtisadi terminlər də quruluşuna görə sadə və mürəkkəb təyini söz birləşmələrinə ayrılır.

Aşağıda dilimizdə "yaşıl" təyini ilə yeni yaranmış I və II növ sadə və mürəkkəb təyini söz birləşmələrinə dair nümunələrin izahına keçək.

**"Yaşıl" təyini vasitəsilə I növ sadə təyini söz birləşməsi kimi yaranmış iqtisadi terminlər**

Təfəkkür və düşüncə sözlərini təyin edərək "yaşıl düşüncə" və "yaşıl təfəkkür" I növ təyini söz birləşməsi yaranmışdır. Yaşıl düşüncə və ya yaşıl təfəkkür həyatımızın daha sağlam olmasını qəbul edən təfəkkür və düşüncə tərzi deməkdir. Çünki hər şey ən əvvəl düşüncədən başlayır.

İqtisadiyyat sözünü təyin edərək yaşıl iqtisadiyyat I növ təyini söz birləşməsi yaranmışdır. Yaşıl iqtisadiyyat ifadəsi altında ekoloji tarazlığı pozmadan hamı üçün daha yaxşı həyat keyfiyyətini təmin edən davamlı iqtisadiyyat başa düşülür. Enerji sözünü təyin edərək yaşıl enerji I növ sadə təyini söz birləşməsi yaranmışdır. Yaşıl enerji dedikdə, təbii-coğrafi mövqe, relyef, iqlim şəraiti, günəş, torpaq, külək, su, biokütlə, yəni təbii enerjiyaratma potensialı baxımından zəngin olan resurslar nəzərdə tutulur.

Paytaxt sözünü təyin edərək yaşıl paytaxt I növ sadə təyini söz birləşməsi yaranır. Yaşıl paytaxt dedikdə, ətraf mühitə davamlı təsir göstərərək gələcək nəsilləri düşünmək, eko-həlləri təşviq etmək və həyata keçirmək, həm də ekoloji innovasiyalarda şəhər mükəmməlliyini qoruyub saxlamaq nəzərdə tutulur. Özündə havanın keyfiyyəti, səs, su, torpaq və ondan davamlı istifadə, tullantılar və sirkulyar iqtisadiyyat, təbiət və biomüxtəliflik, "yaşıl inkişaf" və eko-innovasiya, iqlim dəyişikliyi: təsirlərin azaldılması, iqlim dəyişikliyi: adaptasiya, şəhərlərdə davamlı mobillik, enerji performansı və ekoloji idarəetmə indikatorlarını birləşdirir.

Dünya sözünü təyin edərək yaşıl dünya I növ sadə təyini söz birləşməsi yaranmışdır. Yaşıl dünya dedikdə, çirklənmiş ərazilərin bərpası, meşə ilə örtülü ərazilərin artırılması, bitki və heyvanat aləminin qorunması, quru ərazilərdə torpaqların münbitləşdirilərək yaşıllaşdırılması, dəniz sahillərinin, sularının, canlı aləminin mühafizəsi, iqlim dəyişikliklərinin zərərli təsirlərinin azaldılması fonunda yaşayan dünya nəzərdə tutulur.

Şəhər sözünü təyin edərək yaşıl şəhər I növ təyini söz birləşməsi yaranmışdır. Yaşıl şəhər dedikdə, şəhər və yaşayış məntəqələri ətrafında olan təbii və süni meşələr, meşə-parklar nəzərdə tutulur ki, bunlar da yaşayış məntəqələri ətrafında havanı sağlamlaşdırır, küləkdən, tozdan, tüstüdən, qazdan mühafizə edir, bəzi əlverişsiz təbii iqlim amillərini mülayimləşdirir və əhalinin sağlamlığına çox böyük müsbət təsir göstərir.

**“Yaşıl” təyini vasitəsilə I növ mürəkkəb təyini söz birləşməsi kimi yaranmış iqtisadi terminlər**

I növ mürəkkəb təyini söz birləşməsinin yaranması üçün birinci növ sadə təyini söz birləşməsinin əvvəlinə qoşulmuş təyinin bütövlükdə özündən sonra gələn I növ sadə söz birləşməsini təyin etməsi tələb olunur. Strukturu qısaca belə göstərmək olar: təyin + I növ sadə təyini söz birləşməsi = I növ mürəkkəb təyini söz birləşməsi.

İqtisadi transformasiya I növ sadə təyini söz birləşməsinə qoşularaq yaşıl iqtisadi transformasiya I növ mürəkkəb təyini söz birləşməsi yaranmışdır. Yaşıl iqtisadi transformasiya yaşıl urbanizasiya proseslərində iqtisadi davamlılıq məsələlərini nəzərdə tutur.

İqtisadi sistem I növ sadə ismi birləşməsinə qoşularaq yaşıl iqtisadi sistem I növ mürəkkəb təyini söz birləşməsi yaranmışdır. Yaşıl iqtisadi sistemin qurulmasında ilk nəzərə çarpan struktur elementlərinə səmərəli resurs idarəetmə sistemləri, istixana qazlarını azaldan və iqlim dəyişikliyinə adaptasiya olunmuş istehsal infrastrukturu, tullantısız nəqliyyat və davamlı əlçatanlığı təmin edən rabitə sistemi, davamlı məskunlaşmanı nəzərə alan yaşayış infrastrukturu, ictimai ətraf mühit obyektləri daxildir.

İqtisadi tələblər I növ sadə təyini söz birləşməsinə qoşularaq yaşıl iqtisadi tələblər I növ mürəkkəb təyini söz birləşməsi yaranmışdır. Yaşıl iqtisadi tələblər”ə cavab verən şəhərlərin qurulmasında enerji-effektiv binaların inşası və bunun nəticəsi kimi emissiyaların azaldılması əsas istiqamətlərdən biri kimi çıxış edir

Korporativ investisiya I növ sadə təyini söz birləşməsinə qoşularaq yaşıl korporativ investisiya I növ mürəkkəb təyini söz birləşməsi yaranmışdır. Yaşıl kotrporativ investisiyalar dedikdə, bərpa olunan enerji layihələrinə *qoyulmuş investor və səhmdarlar tərəfindən qoyulmuş birgə maliyyə vəsaitləri* nəzərdə tutulur.

Korporativ idarəetmə I növ sadə təyini söz birləşməsinə qoşularaq yaşıl korporativ idarəetmə I növ mürəkkəb təyini söz birləşməsi yaranmışdır. Yaşıl korporativ idarəetmə ümumən yaşıl iqtisadiyyatın formalaşdırılmasının, habelə bərpa olunan enerji layihələrinin şirkətlərin etik, məsuliyyətli, səhmdarlar və digər maraqlı tərəflər qarşısında hesabatlı şəkildə idarə olunması deməkdir.

Korporativ kredit I növ sadə təyini söz birləşməsinə qoşularaq yaşıl korporativ kredit I növ mürəkkəb təyini söz birləşməsi yaranmışdır. Yaşıl korporativ kredit dedikdə, yaşıl iqtisadiyyatın formalaşdırılması və bərpasına *investor və səhmdarlar tərəfindən* ayrılan kreditlər nəzərdə tutulur.

**“Yaşıl” təyini vasitəsilə II növ mürəkkəb təyini söz birləşməsi kimi yaranmış iqtisadi terminlər**

II növ mürəkkəb təyini söz birləşməsinin yaranması üçün isə ikinci növ sadə təyini söz birləşməsinin əvvəlinə qoşulmuş təyinin bütövlükdə özündən sonra gələn II növ sadə söz birləşməsini təyin etməsi tələb olunur. Strukturu qısaca belə göstərmək olar: təyin +II növ sadə təyini söz birləşməsi = II növ mürəkkəb təyini söz birləşməsi.

Şəhər iqtisadiyyatı II növ sadə təyini söz birləşməsinə qoşulmaqla yaşıl şəhər iqtisadiyyatı II növ mürəkkəb təyini birləşməsi yaranmışdır. Yaşıl şəhər iqtisadiyyatı mövcud və inkişafda olan şəhər iqtisadiyyatlarının ətraf mühit, sosial ehtiyaclar nöqteyi-nəzərindən daha arzu edilən formada fəaliyyət göstərməsi deməkdir.

Şəhər konsepsiyası II növ sadə təyini söz birləşməsinə qoşulmaqla yaşıl şəhər konsepsiyası kimi II növ mürəkkəb təyini söz birləşməsi yaranmışdır. Yaşıl şəhər kon-

sepsiyası iqtisadi fəaliyyətin bütün mərhələlərində, yəni istehsal, bölgü, mübadilə və istehlakın hər bir addımında şəhər iqtisadiyyatına yaşıl innovasiyaların tətbiqini nəzərdə tutur.

İnkişaf siyasəti II növ sadə təyin söz birləşməsinə qoşularaq II növ mürəkkəb təyini söz birləşməsi yaranmışdır. Yaşıl inkişaf siyasəti dedikdə, iqtisadi, texniki, sosial və ekoloji siyasət alətləri nəzərdə tutulur.

İnkişaf məqsədi II növ sadə təyini söz birləşməsinə qoşularaq yaşıl inkişaf məqsədləri kimi II növ mürəkkəb təyini söz birləşməsi yaranmışdır. Yaşıl inkişaf məqsədləri dedikdə, nəqliyyat sektorunda mineral yanacaq növlərindən istifadənin azaldılması, səmərəli nəqliyyat infrastrukturunun qurulması və mobilliyin təmin olunması nəzərdə tutulur.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**


1. Ağayev A. Maliyyə terminləri lüğəti. Bakı, Elm, 2005, 421 s.
2. Azərbaycan dilinin izahlı lüğəti. Bakı, Şərq-Qərb, I cild, 2006,744 s.
3. Azərbaycan milli izahlı ensiklopedik pedaqoji lüğəti. Bakı, 2005, 246 s.
4. İsmayılova M. Azərbaycan dili terminologiyasının linqvistik təhlili. Bakı, 1997, 268 s.
5. Qasımlı V., Hüseyn R., Hüseynov R., Həsənov R., C Cəfərov C., Bayramova A. Yaşıl iqtisadiyyat. Bakı, 2022, 280 s.
6. Logistika terminlərinin izahlı lüğəti. Bakı, Çaşıoğlu, 2015, 488 s.
7. Məmmədov İ. Azərbaycan dilinin semantikası. Bakı, 2006. 372 s.
8. Sadıqova S.A. Azərbaycan dilinin terminologiyası. Bakı, Elm, 2011, 380 s.
9. Verdiyeva Z. Azərbaycan dilinin semasiologiyası. Bakı, Maarif, 1979, 307 s.



*İsmayılova Aygün İdris qızı, dosent,*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti,*
*E-mail: aygunismayilova2015@outlook.com*


## YAŞIL İQTİSADİYYATIN İNKİŞAFINDA XARİCİ DİL KOMMUNİKASİYA VASİTƏSİ KİMİ

Ötən əsrin sonlarında Azərbaycan mürəkkəb tarixi dövr yaşasa da, sosial-iqtisadi və mədəni həyatında böyük təkamül yolunu inamla keçərək sabit, təhlükəsiz və müasir həyat səviyyəsini təmin etmiş ölkə kimi dünyada tanındı. Ölkənin beynəlxalq nüfuzu əhəmiyyətli dərəcədə artdı, cəmiyyətdə dövlətçilik ənənələri gücləndi, müasir sosial-iqtisadi infrastruktur quruculuğu uğurla həyata keçirilməyə başlandı. Uzun illər iqtisadi inkişafdan qaynaqlanan yüksək maliyyə imkanları makroiqtisadi sabitlik və artıma mühüm töhfə vermiş, təhlükəsizliyin təmini üçün güclü potensial yaratmışdır. Uzun illər ərzində yaranan ekoloji problemlərin kompleks həlli və bu sahədə davamlı inkişaf Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair müəyyən-

ləşdirilən beş Milli Prioritetdən biri Azərbaycanın təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi olmasıdır. Ölkənin perspektiv iqtisadi inkişafı ilə bərabər ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların sürətli bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadə təmin edilməlidir. Bu prioritet daxilində strateji dövrdə iki məqsədin - yüksək keyfiyyətli ekoloji mühit və "yaşıl enerji" məkanı - effektiv reallaşdırılmasına nail olunmaq hədəflənir. Milli Prioritetlərdə qeyd edilir ki, iqtisadi artımla ekoloji mühit tarazlı olmalıdır. Yüksək keyfiyyətli ekoloji mühitin məqsədi ölkədə keyfiyyətli və təmiz ekoloji mühitin qorunması, resurslardan səmərəli istifadənin təmin edilməsidir. Uzun illər ərzində yaranan ekoloji problemlərin kompleks həlli və bu sahədə davamlı inkişaf diqqət mərkəzində olmalıdır. Bu prioritetlərə nail olunması öz növbəsində Azərbaycanda "yaşıl iqtisadiyyat" məsələsini aktuallaşdırır. Məhz iqtisadi ədəbiyyatda bu aspektlərə vahid yanaşmanı təmin edən konsepsiya "yaşıl iqtisadiyyat" adlanır. "Yaşıl iqtisadiyyat" anlayışı, ilk növbədə, ekoloji iqtisadiyyat istiqaməti ilə birbaşa əlaqədədir. Zaman keçdikcə qeyd olunan bu problemlərin həll edilməsi üçün təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi daha da aktuallaşır. Vaxtında həllini tapmamış, kiçik bir təbiət hadisəsi kimi izah olunan problemlər indi artıq bəşəriyyət qarşısında qlobal, qarşısıalınmaz fəlakətlərlə başa çata biləcək prosesə çevrilmişdi. Azərbaycan Respublikasında da ekoloji problemlərin həlli vacib sayılır və bu istiqamətdə kompleks tədbirlər həyata keçirilir. Ölkəmiz mütərəqqi bəşəriyyətin qəbul etdiyi «Dayanıqlı inkişaf» konsepsiyasının prinsiplərinin həyata keçirilməsinə töhfə verir və iqlim dəyişmələrinə təsirlərin yumşaldılması istiqamətində fəaliyyət göstərir. Qarşıya qoyulmuş hədəflərə çatmaq üçün Azərbaycanda iqlim dəyişmələrinə təsirlərin azaldılması istiqamətində bərpa olunan və alternativ enerji mənbələrindən və enerji səmərəli texnologiyalardan istifadənin artırılması, meşə ərazilərinin genişləndirilməsi və digər tədbirlər həyata keçirilir. [1]

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir.

Qələbə nəticəsində işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına inteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verməkdədir. Bu çərçivədə regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticarət əlaqələrinin inkişaf etməsi Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın region iqtisadiyyatının ümumi arxitekturasının müəyyən edilməsində rolunu daha da möhkəmləndirməkdədir.

Uğurlu sosial-iqtisadi və siyasi nailiyyətlər, milli və multikultural dəyərlər qarşıdakı illərdə Şərqlə Qərbin qovşağı olan Azərbaycanın qüdrətinin daha da artacağına əminlik yaradır. Bu imkanlar 2030-cu ilə qədər olan mərhələdə Azərbaycanın iqtisadi suverenliyinin möhkəmləndirilməsinə və müasir həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinə malik qüdrətli dövlətə çevrilməsinə zəmanət verir. Azərbaycan dövləti ölkədə əhalinin rifahının daha da artırılması üçün sosialyönümlü bazar iqtisadiyyatının inkişaf etdirilməsi yolunu seçmişdir.[2]

Milli sosial rifah səviyyəsinin davamlı artması məqsədilə yüksək, dayanıqlı, inklüziv və başlıca olaraq özəl təşəbbüslərə arxalanan iqtisadi artımın sürətlənməsi, azad edilmiş ərazilərə əhalinin qayıdışının təmini Azərbaycanın yeni inkişaf magistralının ideoloji nüvəsini təşkil edir. Ölkəmizin uzunmüddətli davamlı və sürətli inkişafı üçün cəmiyyət, biznes və dövlət üçlüyünün uğurlu əlaqəsi möhkəmləndirilir. Dövlətin iqtisadiyyatda rolunun bazaryönlü islahatlar vasitəsilə effektiv və səmərəli idarə olunması, özəl mülkiyyət institutlarının gücləndirilməsi, biznesə dost dövlət idarəetməsi və xarici bazarlara yerli məhsulların çıxışını artırmaq məqsədilə ticarət rejimlərinin daha da liberallaşdırılması iqtisadi yüksəlişin təməl amilləridir. Ölkədə özəl təşəbbüslərin yaradıcı və innovativ əsaslarla inkişaf etdirilməsi iqtisadi resursların daha yüksək əlavə dəyər yaradan sahələrə istiqamətlənməsini təmin etməkdədir.

Bu məqsədlərin reallaşdırılması dayanıqlı makroiqtisadi sabitliyə xidmət edən effektiv makroiqtisadi siyasət çərçivəsinin formalaşdırılmasını, iqtisadi inkişafın ortamüddətli və uzunmüddətli "hərəkətverici qüvvələri"nin möhkəmləndirilməsini – insan kapitalının müasirləşdirilməsini, rəqəmsal iqtisadiyyatın genişləndirilməsini və iqtisadi suverenliyin tam təmin olunmasını tələb edir. İqtisadi artımın davamlı olması, milli iqtisadiyyatın dərin şaxələnməsi, mallar və xidmətlər üzrə ixrac potensialının tam reallaşdırılması üçün yeni "hərəkətverici qüvvələr" tapılmalıdır. Neft sektoru sosial-iqtisadi inkişafın dayaqlarından biri olsa da, qeyri-neft iqtisadiyyatı inkişafın mərkəzinə çevrilməlidir.

Buna sübut olaraq 1954-cü ildə imzalanmış Avropa mədəniyyət konsepsiyasını, habelə 1975-ci il Helsinki Konfransının yekun aktını göstərmək olar. Həmin sənədlər ona imza atan bütün dövlətlərin dilində tərtib olunmuşdur. Biz tam şəkildə dərk etməliyik ki, respublikamızda xarici dil konsepsiyası istər ölkə daxilində, istərsə də onun hüdudlarından kənarda xalqımızın dünyanın elmi-texniki, ədəbi-mədəni, social-iqtisadi və s. irsinə yiyələnmək, bu yolla da müasir sivilizasiyanın öncül cərgələrinə çıxmaq məqsədini qarşıya qoymalıdır.[3]

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev çıxışlarının birində demişdir: «Bu gün bizim təhsilimizin məqsədi uşaqlara və gənc nəslə bilik vermək, onları gələcəyə hazırlamaqdır. Lakin bununla bərabər ən başlıca məqsəd Azərbaycan cəmiyyətinin layiqli üzvünü, Azərbaycan vətəndaşını formalaşdırmaqdır".

Bu baxımdan, müstəqillik qazanmış respublikamızda həyatın bütün sahələrini əhatə edən və elmi-metodik cəhətdən əsaslandırılmış Konsepsiyaya ehtiyac olduğu kimi, xarici dillər sahəsində də xalqımızın gələcək inkişafına yönələn geniş fəaliyyət proqramını işləyib hazırlamağa böyük zərurət yarandı. Biz bilirik ki, müasir dövrdə dünya səviyyəsinə layiq, hərtərəfli inkişaf etmiş kadrları xarici dili bilmədən təsəvvür etmək mümkün deyildir. İnkişaf etməkdə olan cəmiyyətin təkmilləşdirilməsi insanların ideya yetkinliyindən və mənəvi zənginliyindən, onların təhsil və peşə səviyyəsindən xeyli dərəcədə asılıdır. İnsanların həmin keyfiyyətlərə yiyələnməsi isə bir cox cəhətdən məktəbin üzərinə düşür. Çünki sabahın qurucuları bu gün məktəbdə yetişirlər. İndi ölkəmizdə ümumtəhsil və peşə məktəbi islahatı çox yüksək səviyyədə həyata keçirilməyə başlanmışdır.

Bu gün Azərbaycan dünya birliyi ölkələrilə ictimai həyatın bütün sahələrində səmərəli əməkdaşlıq edən bir ölkədir. Buna görə də başqa fəaliyyətlərlə yanaşı, bir və ya iki xarici dildə ünsiyyət qurmağı, əlaqə saxlamağı bacaran şəxsiyyətin formalaşdı-

rılması müasir məktəbin mühüm vəzifələrindən biridir.

Qloballaşan dünyadakı sivilizasiyanın ən mütərəqqi sahəsi sayılan təhsil prosesinin durmadan inkişafı, müasir tələblər səviyyəsində təkmilləşdirilməsi, yenidən qurulması tələb olunur. Birləşmiş Millətlər Təşkilatının XXI əsri "Təhsil əsri"-"İntellekt əsri" adlandırması heç də təsadüfi deyil. Bu son illərdə dünyanın inkişaf etmiş ölkələrində daha parlaq şəkildə nəzərə çarpan elmi-texniki nailiyyətlərin nəticəsindən, həyata tətbiqindən irəli gələn zərurətdir. Deməli, hazırkı dövrdə diqqəti cəlb edən qlobal problemlərdən biri "təhsil əsrinin" ilk illərindən başlayaraq yeni pedaqoji texnologiyalara, fəal təlim metodlarına istinad etmək və milli təhsil sistemimizin dünya təhsil sisteminə inteqrasiya olunmasına zəmin yaratmaqdır.[4]

Bu baxımdan dil öyrənənlər getdikcə daha çox dəyişdirilən yollarda insan kommunikasiyalarını və qarşılıqlı təsiri başa düşməyi və aydınlaşdırmağı öyrənir və inkişaf etdirirlər. Onlar bunu başqaları ilə əlaqədə olarkən bölüşdükləri hissləri, düşüncələri və fikirləri hiss edən, izah edən, analiz və aydınlaşdıran müşahidəçi və kommunikasiyada iştirakçı kimi edirlər. Bu zaman onlar özlərinin və digərlərinin məqsədlərini aydınlaşdırmaqla, başqaları ilə münasibətdə özünüməlumatlandırmaqla məşğul olurlar.

Bu o deməkdir ki, müxtəlif mədəniyyətə malik olan, müxtəlif siyasi quruluşlarda yaşayan insanlar təkbaşına yaşaya bilməz, xalqlar, millətlər arasında inteqrasiya prosesi başlanıb. İnteqrasiya prosesində isə ünsiyyətə ehtiyac yaranır. Ünsiyyətin başlıca vasitəsi isə dildir. Demək, müxtəlif dil daşıyıcıları olan toplumlar, xalqlar, millətlər bir-birilə ünsiyyətə girmək üçün hökmən bir-birinin dilini öyrənmək məcburiyyətində qalırlar. Buradan da xarici dilin öyrədilməsi və öyrənməsi bir zərurət olaraq meydana çıxır.

Hazırkı dövrdə hər bir insanın karyerada inkişafı üçün, daha çox mədəniyyətlərlə tanış olmaq üçün, xarici ədəbiyyatı orijinal dildən oxumaq üçün ən azı bir xarici dili bilməsi şərtdir. Milli və bəşəri dəyərləri, elmi nailiyyətləri böyüməkdə olan nəslə çatdırmaqda müasir təlim texnologiyaları həlledici rol oynayır.

Əgər bu gün müstəqil Azərbaycanımızın təhsil sistemi dünya təhsil sisteminə inteqrasiya olunursa, təhsilimizin ayrı-ayrı mərhələləri təhsilin dünya standartları tələbləri səviyyəsində qurulur və əsaslı təkmilləşdirmə, yeniləşdirmə işləri aparılır. Təhsilin, dövləti və cəmiyyəti möhkəmləndirməyin prioritet sahələrindən biri hesab edən Azərbaycanın başlıca məqsədi də demokratik, dünyagörüşlü, bacarıqlı, məsuliyyətli vətəndaşlar yetişdirməkdə görür. Bütün bunlar uşaqlardan gələcəyə, get-gedə mürəkkəbləşən cəmiyyətə hazırlığı ilə bağlı məsələlərə, xüsusən də, təhsil konsepsiyasına yeni nəzərlə baxmağı tələb edir.

İnkişaf etmiş ölkələrin təhsil təcrübəsi göstərir ki, adi ünsiyyət yaratmaqdan tutmuş, kiçik iqtisadi layihələr qurub reallaşdırmağa qədər ən müxtəlif qabiliyyətləri özündə əks etdirən bacarıqlar mükəmməl bir sistemin tərkib hissələridir. Dünya arenasına girmək, onlardan bəhrələnmək, iqtisadiyyatımızı inkişaf etdirmək, beynəlxalq aləmdə ölkəmizi hərtərəfli tanıtmaq ölkə vətəndaşlarının, o cümlədən gənclərin təxirəsalınmaz vəzifələridir. Bu məqsədlə onlar dilimimizlə yanaşı bir neçə dildə ünsiyyət qurmağı bacarmalıdırlar. Ölkəmizin əbədi inkişafı naminə bu vacib məsələlərdəndir.

**İstifadə olunmuş ədəbiyyat:**

1.”Yaşıl” iqtisadiyyat, İqtisadiyyat Nazirliyi, https://www.ekonomy.gov.az

2.Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər Azərbaycan Respublikasının Prezidentinin sərəncamı, https://president.az/az/articles/view/50474, 2 fevral 2021-ci il.

3. Azərbaycan Respublikasında 2024-cü ilin «Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin sərəncamı, https://president.az.\az\articles\view\62737, 25 dekabr 2023.

4. Xarici dillərin təlimi metodikasının ümumi məsələləri. ”Maarif” nəşriyyatı, B.1967.

*Алхасов Яшар Камиль оглу,*
*доктор философии по педагогике,*
*доцент кафедры «Практического русского языка*
*и методики его преподавания»*
*Бакинского Славянского Университета*
*E-mail: a-yashar@rambler.ru*

## АЗЕРБАЙДЖАНСКАЯ ФРАЗЕОЛОГИЯ: СИЯЮЩАЯ ВЕРШИНА ИЛИ ЗИЯЮЩИЙ ПРОВАЛ?

В каждом языке есть особые лексические единицы, которые являются богатством выразительных средств языка и придают ему национальный колорит, выразительность, образность, живость, эмоциональность. Эти лексические единицы, будучи устойчивыми сочетаниями слов данного языка, называются фразеологизмами. В лингвистической литературе отмечаются следующие основные дифференциальные признаки фразеологизмов: воспроизводимость, устойчивость, образность, сочетаемость лексем и семем, внутрикомпонентные связи, постоянство компонентного состава, семантическая целостность, лексическая неделимость и т.п.

Российский языковед В.В.Виноградов, развивая идеи швейцарского лингвиста Ш.Балли, предлагает общепринятую классификацию фразеологических единиц. Основной принцип этой классификации – степень семантической слитности компонентов в целостном значении фразеологических единиц. На основе данного принципа В.В. Виноградовым выделено ***три типа*** фразеологических единиц: фразеологические сращения (*бить баклуши, попасть впросак*), фразеологические единства (*держать камень за пазухой, первый блин комом*) и фразеологические сочетания (*закадычный друг, заклятый враг, расквасить нос*) [5]. Данная классификация, лежавшая в основе разграничения типов фразеологизмов во всей советской лингвистической науке, начиная с 50-х годов прошлого столетия (А.Н.Гвоздёв, Н.М.Шанский, М.Т.Тагиев, Д.Э.Розенталь, М.И.Фомина, Ф.Г.Гусейнов, В.М.Мокиенко, В.Н.Телия), до сих пор остаётся ведущей и в азербайджанском языкознании (Г.А.Байрамов, А.Г.Гурбанов, С.Н.Муртузаев).

Виноградовская классификация послужила и до сих пор служит основной теоретической базой для лексикографической разработки фразеологических еди-

ниц азербайджанского языка (Н.Ф.Сеидалиев, Г.М.Магеррамли, Р.Исмаилов, М.Т.Тагиев, А.А.Оруджев).

Однако в печатном издании (далее ПИ) «**Azərbaycan dilinin frazeologiya lüğəti**» был провозглашён отказ от указанной выше традиционно-классической концепции описания фразеологизмов, и в качестве фразеологических единиц рассматриваются и афоризмы, изречения, пословицы, поговорки [3]. Таким образом составители ПИ (скорее всего первый составитель, он же и редактор), претендующие на «оригинальность» (köhnə bazara təzə nırx qoymaq iddialı), оказали медвежью услугу (qaş düzəltmək əvəzinə gözü də vurub çıxardıblar). Впрочем, обо всём подробно.

1. Аннотация (с.3) и предисловие (с.5) ПИ, предназначенного для широкого круга читателей, написаны сумбурно: откуда знает среднестатистический пользователь, что такое «transdil nəzəriyyəsi müstəvisində»? (с.3). Краткая аннотация (8 предложений на целую страницу) изобилует научными и стилистическими ошибками: “Lüğət Azərbaycan dilinin frazeologiya...fondunu ....əhatə edir” (?) (нельзя объять необъятное), имеются повторы (....ədəbiyyatdan, ...ədəbiyyatdan), неправильные употребления: təmsil olunmuşdur / должно быть: öz əksini tapmışdır, или yer almışdır), yer tutmuş / должно быть: yer almış, или verilmiş. Информация о ПИ как о «продукте 15-летнего труда составителей (а не авторов)» тоже звучит банально и смешно.

Первый абзац предисловия содержит сразу две грубейшие ошибки: 1) имя французского писателя Вольтера отнюдь не «Мари Антуан», а «Франсуа-Мари Аруэ»; 2) слова «Словарь – это Вселенная в алфавитном порядке…» принадлежат другому французскому писателю Анатолю Франсу [7].

Говоря о трансъязыковом характере фразеологии, составитель и редактор ПИ ссылается на источник: (*34, 149-158 s.*). А в списке использованной литературы (с.1554) под номером 34 стоит другая литература. А в названии статьи под номером 35 (кстати, на которую хотел сослаться составитель и редактор ПИ), допущена непростительно грубая ошибка: «трансязыковой».

Составитель и редактор ПИ хоть и старается преподнести свой опус как «небольшую попытку в решении общенародной культурно-филологической проблемы», однако сам текст предисловия свидетельствует о другом: он (текст) содержит множество грубых пунктуационных, стилистических ошибок и изобилует ложными научными утверждениями. Именно в предисловии ПИ глубоко закапывается мина замедленного действия, заложенная в аннотации («Lüğət Azərbaycan dilinin frazeologiya...fondunu ***transdil nəzəriyyəsi müstəvisində*** əhatə edir» (с.3)). Говоря вначале о лексицентричной трактовке фразеологических единиц, составитель и редактор ПИ исподволь «обосновывает» необходимость рассмотрения их «в плокости трансъязыковой теории», тем самым готовит почву для включения афоризмов, изречений, пословиц, поговорок в ПИ в качестве фразеологических единиц. И это делается отнюдь не из научных соображений, не из «патриотических чувств», а в сугубо меркантильных, коммерческих целях.

Таким образом после «теоретической аргументации» так называемой трансъязыковой природы фразеологии, сшитой белыми нитками, составитель и редактор ПИ начинает варить кашу под названием «Azərbaycan dilinin frazeo-

logiya lüğəti», добавив в неё почти все пословицы и поговорки из опуса «Azərbaycanca-rusca, rusca-azərbaycanca atalar sözləri və zərbi-məsəllər lüğəti» [4], которую мы с вами расхлёбываем.

2. Реализуя свой «научный меркантилизм», составитель и редактор ПИ сплошь и рядом нарушает все существующие принципы лексикографии, а именно:

1) Словник определён неправильно: так называемые вокабулы искусственно натасканы: adam dilindən *ilişər* (должно быть: bəlaya düşər), borc *etmək* (должно быть: eləmək), A-dan Z-yə (пример для иллюстрации тоже искусственный: ANS,11.02.2015), açıq qapını döymək (пример не обнаружен), eyb *etmək* (должно быть: eləmək).

2) В классическом понимании фразеологизм – это устойчивое словосочетание, т.е. состоит как минимум из двух слов. В таком случае как понять включение в ПИ «слов-одиночек» типа: *qırışmal* (с.971), *yaşınmaq* (с.1489), *yekəbaşlar* (с.1496), *tövbə* (с.1361), *acığına* (с.19), *amandır* (с.126), *bərəkallah* (с.262), *dağlamaq* (с.405), *dilbilməz* (с.454), *dünyasında* (с.506), *əkilmək* (с.550), *göydəndüşmə* (с.650), *həştaddandır* (с.752), *xeyirdimi?(*с.771), *xərifləmək* (с.777) и др.?

3) Из опуса «Azərbaycanca-rusca, rusca-azərbaycanca atalar sözləri və zərbi-məsəllər lüğəti» переброшены не фиксированные во фразеологических источниках нашего языка, лишённые национального колорита, переводы с русского языка: təkərinə ağac taxmaq (с.1336), lütün soyğunçudan qorxusu olmaz (с. 1033), almaz cirk götürməz (с.121) (almaz palçıqda da qiymətini itirməz / almazı palçığa atmışlar, qiymətinə xələl gəlməmiş) (пример из произведения М.Ибрагимова «Парвана» не найден).

В качестве источника иллюстрации к словарной статье ***lütün soyğunçudan qorxusu olmaz*** приводится «отрывок» из фельетона Али Илдырымоглу «Tütəkçalanlar»: «Daşdəmir böyük bir şəhərdə yaşadığını bildirib, özünü bir qədər üstün tutdu. Lakin söhbət əsnasında Əlqəməyə ***lütün soyğunçudan qorxusu olmaz***, deməyi də unutmadı» (с. 1033). А в фельетоне из 4-х страниц я обнаружил следующее: «***Daşdəmir böyük bir şəhərdə yaşadığını bildirib, özünü bir qədər üstün tutdu. Lakin söhbət əsnasında Əlqəmənin üç dəfə müttəhim kürsüsündə əyləşdiyi və ondan çox cəza aldığı məlum olanda, Daşdəmir tütəyin dilini bir balaca çəkdi. Çünki Daşdəmir vur-tut bircə dəfə ilişmişdi. Oğurluqda Daşdəmir Əlqəmənin yanından yel də olub ötə bilməz. Bu yolda Əlqəmənin başı neçə dəfə daşdan-daşa dəyib. Özü də xırda yox, iri daşlara. Daşa da tab gətirmək hər başın işi deyil. Odur ki, Əlqəmə özünü Daşdəmirdən ötkəm aparırdı…***» [8]. К сожалению, может быть, к счастью, в этом отрывке, да и во всём четырёхстраничном фельетоне не удалось найти инкубационную пословицу ***lütün soyğunçudan qorxusu olmaz.***

В качестве источника иллюстративного материала к словарной статье ***eşşəyin böyüyü tövlədədir*** (с.534) приводится из фельетона «Kiçik müdir» Али Илдырымоглу: *Danışırlar ki, Pirqulunun evində hər gün mərəkə qopur. – Ay kişi, hələ Fedik də deyir ki,* ***eşşəyin böyüyü tövlədədir****, sizin xəbəriniz yoxdur*. Мы «переворошили» двухстраничный фельетон и не обнаружил ничего.

Или же другой пример. В словарной статье ***iki arvadlı ev zibilli olar*** в качестве иллюстрации приводится следующий пример из произведения "Dağ

dərdi” Али Илдырымоглу: *Qurban bığaltı gülüb dedi: – A kişi, dədə-babadan görmüşük ki, **iki arvadlı ev zibilli olar**, vəssaslam*. Данная «пословица» не фиксирована ни в одном источнике и противоречит менталитету нашего народа. А в маленьком рассказе А.Илдырымоглу описывается диалог учителя и ученика, даже нет персонажа по имени Гурбан.

Вот как засоряется золотой паремио-фразеологический фонд Азербайджана, подсовываются выхолощённые, лишённые живого национального колорита обороты и ещё искажается наша художественная литература. Судите сами! Тут уместно напомнить составителю и редактору ПИ пословицы: Xoruzun quyruğu görünür (Шито белыми нитками)! Kor-kor, gör-gör! (Всё налицо – как выеденное яйцо)!, Bu meydan, bu şeytan (Вот тебе коза, вот тебе и буза)!

4) В опусе «Azərbaycanca-rusca, rusca-azərbaycanca atalar sözləri və zərbi-məsəllər lüğəti» [4] имеется множество переведённых, искусственно натасканных пословиц и поговорок: ildırım həmişə hündür ağacları vurur (гроза бьёт по высокому дереву); it sidiyi ilə dənız bulanmaz (тем море не погано, что псы налакали); it yarasına öz ağzının suyu dərmandır / it yarasını gərək it yalasın (для собачьей раны её язык – лекарство). Источником «пословицы» «для собачьей раны её язык – лекарство» в опусе указано: (İ, 204). Однако сама «пословица» построена не по-русски: в предложении притяжательное местоимение ***её*** замещает существительное ***собака***. А где это слово? Нет, есть притяжательное прилагательное ***собачья***. Правильным было бы предложение: для раны собаки лекарство – её язык! Всё это – яркое свидетельство, мягко говоря, научного лицемерия составителя и редактора ПИ.

3. Некоторые синонимичные пословицы в опусе «Azərbaycanca-rusca, rusca-azərbaycanca atalar sözləri və zərbi-məsəllər lüğəti» [4] (*üç eşşək bir axırda arpa yeməz* (с.330), *iki eşşək bir axırda arpa yeməz* (с.198), *iki qoçun başı bir qazanda qaynamaz* (с.198)), «эмигрируя» в ПИ, представлены в одной словарной статье (вокабуле): *iki qoçun başı bir qazanda qaynamaz* (с.801). А остальные даны как пояснение к ней. От пословицы *üç eşşək bir axırda arpa yeməz* (с.330) даётся отсылка к другой, естественно, синонимичной пословице: ***iki qoyunun başı...*** **.** **(**с.330). Как, по какой шкале расценить уровень знания составителя и редактора ПИ? Думаю, в любом случае зашкаливает. С другой стороны, пословица ***iki qoçun başı bir qazanda qaynamaz*** может быть употреблена в ситуации «непримиримости двух сильных, гордых, достойных и т.д. людей», а пословицы ***üç eşşək bir axırda arpa yeməz*** (с.330), ***iki eşşək bir axırda arpa yeməz*** (с.198) – «употребимы» в ситуации упрямства, тупости и т.д. Поэтому эти пословицы под одной шапкой давать нельзя.

4. В конце ПИ приводится список лексикографических источников. Под номером 13 стоит: ***Həmidov İ.H., Həmidova L.İ. və başqaları. Azərbaycanca-rusca, rusca-azərbaycanca atalar sözləri və zərbi-məsəllər lüğəti. Bakı,Təhsil, 2009, 261 s***. [3] Налицо грубое нарушение этических норм и принципов библиографического описания книги, скорее всего опуса, как было указано выше. Дело в том, что вторым составителем книги является Бахруз Ахундов, доцент Азербайджанского университета культуры и искусства, заслуженный работник культуры, талант-

ливый писатель, автор множества книг. Однако ныне покойный Бахруз муаллим был вычеркнут из своего законного второго места среди составителей и переведён в категорию «*və başqaları*». С другой стороны, количество страниц вместо **560** указано **261**. Всё это беспардонное отношение к своему коллеге, вопиющее нарушение авторских прав, и безусловно, свидетельствует о «благодарности» и «благородности» составителя и редактора ПИ.

Из вышеизложенного становится ясно, что печатное издание ***«Azərbaycan dilinin frazeologiya lüğəti»*** **[3]**, и опус ***«Azərbaycanca-rusca, rusca-azərbaycanca atalar sözləri və zərbi-məsəllər lüğəti»*****[4]**, изобилующие ложными научными утверждениями, фактами искажения фразеологических единиц, пословиц и поговорок – «жемчужин» устного творчества азербайджанского народа, подтасовками примеров из художественной литературы и фильмов – это не только оскорбление светлой памяти всех тех, кто занимался изучением вопросов азербайджанской фразеологии (А.Гусейнзаде, М.Т.Тагиев, Б.Г.Таирбеков, А.М.Мамедли и др.), но и удар в спину азербайджанской лингвистики и фольклористики. Где рецензии тех, чьи фамилии фигурируют в качестве рецензента? Особенно ценна будет рецензия выдающегося азербайджанского учёного-лингвиста профессора Аслана Мамедли (Allah ona rəhmət eləsin!). Где его рецензия? – Нет! Ведь ПИ не прошло ни одной научной, даже технической инстанции, дающей разрешение на его издание.Почему хранит молчание Институт языкознания имени Насими НАН Азербайджана, формально осуществляющий мониторинг чистоты государственного языка?

Подобное недопустимо не только с морально-этической точки зрения, но и с точки зрения действующих законов [2; 6]. С 2003 года существует Конвенция ЮНЕСКО «Об охране нематериального культурного наследия», к которой в 2006 году присоединилась и Азербайджанская Республика. В этом международном документе под термином «Нематериальное культурное наследие» понимается*: а*) устные традиции и формы выражения, включая язык в качестве носителя нематериального культурного наследия; *б*) исполнительские искусства; *в*) обычаи, обряды, празднества; *г*) знания и обычаи, относящиеся к природе и вселенной; *д*) знания и навыки, связанные с традиционными ремеслами [6]. Таким образом, под охрану ЮНЕСКО попадает азербайджанский язык и его выразительные средств языка, придающие ему национальный колорит, выразительность, образность, живость, эмоциональность, т.е. фразеологические единицы, пословицы, поговорки и т.д.

Вот так составители ПИ (особенно первый составитель и редактор, возомнившим себя «великим паремиологом») наломали дров, вместо сияющих вершин, пришли к зияющим провалам.

Считаем, что ПИ, посвящённое азербайджанской фразеологии – это ***посягательство на святая святых и идеологическая диверсия против азербайджанского народа***, и поэтому все его экземпляры должны быть немедленно изъяты из книжных магазинов как опасное идеологическое оружие против духовности народа.

**Список использованной литературы:**

1. Atalar sözləri / tərtibçi: Mətanət Yaqubqızı. – Bakı, “Nurlan” nəşriyyatı, 2013, 476 s.
2 Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikasının Qanunu. – Bakı: Qanun, 2003. – 24 s.
3. Azərbaycan dilinin frazeologiya lüğəti / tərtibçilər: İ.Həmidov, M.Qocayev, R.Məmmədova və b. – Bakı: TEAS Peess Nəşriyyat evi, 2020. – 1560 s.
4. Azərbaycanca-rusca, rusca-azərbaycanca atalar sözləri və zərbi-məsəllər lüğəti / tərtibçilər: İ.Həmidov, B.Axundov və b. – Bakı: Təhsil, 2009. – 560 с.
5. Виноградов В.В. Лексикология и лексикография. Избранные труды. – М.: 1977. – 312 с.
6. https://ich.unesco.org/doc/src/2003_Convention_Basic_Texts-_2018_version-RU.pdf
7. https://ru.citaty.net/avtory/anatol-frans
8. http://www.aliildirimoglu.az/felyetonlar/25.php

*Sərdarova İradə Nadir qızı,*
*filologiya üzrə fəlsəfə doktoru, dosent,*
*Azərbaycan Dillər Universiteti*

## XARİCİ DİL VERBAL KOMMUNİKASİYA VASİTƏSİ KİMİ

“*Kommunikasiya”* latın mənşəli termin olub, rabitə, əlaqə, ünsiyyət mənalarını ifadə edir. Kommunikasiya insanın həyatının və fəaliyyətinin əsasını təşkil edir, onu müxtəlif sahələrdə müşayiət edir. Kommunikasiyasız, ünsiyyətsiz heç bir fəaliyyət mümkün deyil. Bütün peşə sahibləri - müəllim, həkim, sahibkar, inşaatçı, satıcı öz işini yerinə yetirərkən ünsiyyət qurmağa, danışıqlar aparmağa, sual verməyə, cavab almağa məcburdur [1, 24].

Kommunikasiya prosesində nitq mühüm rol oynayır. İnsan istər onu əhatə edən mühit, istərsə də keçmiş və gələcək barədə hər cür məlumatı əsasən yazılı və şifahi nitq vasitəsilə alır. Nitqin əsas struktur vahidi olmaq etibarilə söz çox böyük qüvvəyə malikdir. İ.P.Pavlovun sözləri ilə desək «Söz fırtına kimi insanın orqanizminin ən etibarlı hesab edilən psixofizioloji prosesləri belə dağıda bilər, tərsinə çevirər, hətta yox edər və ya dəyişə bilər» [3, 87]. Söz yalnız pozan, dağıdan deyil, eyni zamanda müsbət təsirə malik ən qüvvətli qıcıqlandırıcıdır.

Ən çətin şəraitdə deyilən bircə kəlmə söz belə insanda ruh yüksəkliyi yaradır, onda müsbət emosiyaların baş qaldırmasına, nəcib əxlaqi keyfiyyətlərin yaranmasına, təzahürünə, həmçinin formalaşmasına istiqamət verə bilər. Burada əsl məsələ hər sözdən yerində istifadə etmək, bununla da ünsiyyətə düzgün qiymət verməkdir [2, 41].

Nitqin müxtəlif funksiyaları var. Onlardan bəzilərini qeyd edək:

1. Nitq insanın intellektual fəaliyyətinin əsas silahıdır.
2. Ictimai- tarixi şərait haqqında məlumatı nitq vasitəsilə alınır.
3. Nitq ümumbəşəri təcrübənin mövcudluğunu təmin edir.

4. Nitq milli mədəniyyətin inikası vasitəsidir.

5. Nitq idrak alətidir [5,78].

Artım strategiyaları inkişafı iqtisadiyyatın ümumi məhsulunun və ya adambaşına düşən gəlirin artması ilə ölçülən iqtisadi artımla eyniləşdirir. İqtisadi yönümlü bu inkişaf strategiyaları inkişaf prosesinin inkişafın müxtəlif mərhələlərindən keçməli olduğu fikrinə əsaslanır, bu da sənayeləşmiş ölkələrin inkişaf modelinə əsaslanmalıdır. Sosial-iqtisadi inkişaf strategiyalarının səmərəliliyinin qiymətləndirilməsi metodologiyası işlənib hazırlanarkən ən fundamental məsələ və regionun sosial-iqtisadi inkişafının idarə edilməsinin əsas komponentləri bunlardır: a) regional inkişaf məqsədləri sistemi; b) məqsədlərə çatmaq üçün istifadə olunan vasitələr, üsullar və resurslar məcmusudur" (7, səh. 180).

İqtisadi artımın ən yaxşı şəkildə necə əldə olunacağına dair müxtəlif fikirlər mövcuddur. İnkişaf yolunda aradan qaldırılmalı olan maneələr müxtəlif sahələrdə müşahidə olunurdu: Strategiya müzakirələrinin bir istiqaməti belə bir fikir idi ki, inkişaf etməkdə olan ölkələrdə kapitalın olmaması və buna görə də onların inkişafına kifayət qədər sərmayə qoya bilməməsi idi. İnkişaf strategiyası kapital idxalını artırmaq və əmanətləri təşviq etməkdən ibarət idi.

Strategiya müzakirəsindəki digər istiqamət maliyyə kapitalının fiziki kapitala kifayət qədər çevrilməməsi və investisiya fəallığının aşağı olması bazarın darlığı və ya sahibkarlıq bacarıqlarının olmaması ilə bağlıdır. Bu anlayışa əsasən, hər ikisi kapitala tələbin stimullaşdırılmasına yönəlmiş, lakin inkişafı təşviq edən investisiyaların bölüşdürülməsində fərqlənən iki əks strategiya əldə edilmişdir: Balanslaşdırılmış artım strategiyası eyni vaxtda investisiyalar vasitəsilə daxili bazarın tarazlı inkişafına yönəlmişdir. Müxtəlif sahələrdə inkişaf etməmiş sektorlarla inkişaf etmiş sektorların bir-birinə göstərdiyi qarşılıqlı təsirlər də davamlı artıma təkan verir. Güclü investisiya təkanı ("böyük təkan") davam edən iqtisadi artım prosesləri üçün mühüm rol oynayır. Balanssız artım strategiyası isə inkişaf etməkdə olan ölkələrdə iqtisadi artım üçün qeyri-kafi faktorun yetərli olmadığını güman edir.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**

1. Hacızadə E.M. Sosiallaşan iqtisadiyyat. Bakı, Elm, 2006. 509 səh.
2. İsmayılov B.V. Strateji menecment. Dərs vəsaiti. Bakı, «Təhsil», 2018, 296 s.
3. Hirschman, A.O. (1958): The Strategy of Economic Development, Yale University Press, New Haven, CT
4. Morris, Morris D. Measuring the Condition of the World's Poor : The Physical Quality of Life Index. Published by Overseas Development Council, 1979
5. Nordhaus, William D. and Tobin, J. Is Growth Obsolete? New York: NBER 50thAnniversary Colloquium, vol. 5, 1972
6. Исхакова, А.Ф. Формирование и реализация стратегии развития региона /

А.Ф. Исхакова, Н.Н. Прядкина // Вестник Оренбургского государственного университета. – 2012. – №8(144). – С. 110–115.
7. Морозова, Н.В. Подходы к оценке эффективности реализации региональных стратегий социально-экономического развития / Н.В. Морозова, Н.В. Бондаренко // Вестник Чувашского университета. – 2014. – №3. – С. 178–182.
8. Düğer İ.H. İsgender M. Ekonomik kalkınma statejileri. Dumlupınar Üniversitesi. Sayı: 2, Sosyal Bilimler Dergisi, Haziran 1999, ss.13-46
9. Sadioğlu U., Öktem M. K. Sosyoekonomı, cilt.7, sa.16, 2011, ss.41-68,
10. Kərimov Q. Möhkəm iqtisadi təmələ əsaslanan inkişaf strategiyası. 27 dekabr 2011. https://www.azerbaijan-news.az/posts/detail/mohkem-iqtisadi-temele-esaslanan-inkisaf-strategiyasi-5271
11. UN Documentation: Development. Introduction. https://research.un.org/en /docs/dev/1960-1970

*Aydəmirov Mübarək Mübariz oğlu,*
*doktorant,*
*Bakı Biznes Universiteti*

## BEYNƏLXALQ ŞİRKƏTLƏRDƏ MÜHASİBAT UÇOTU VƏ AUDİTİN RƏQƏMSAL TEXNOLOGİYALAR ƏSASINDA APARILMASI

Rəqəmsal çevrilmə və ya auditin avtomatlaşdırılması auditorların rolunu dəyişdirir. Bu gün auditorlar kompüterləşdirilmiş alətlərlə təchiz olunsa da (məsələn, Microsoft Excel, CaseWare IDEA, Galvanize və s.) iş sənədlərini sənədləşdirmək və yoxlama aparmaq üçün prosedurlarda insan əməyi üstünlük təşkil edir. Müştəri məlumatlarının təmizlənməsi, məlumat emalı və qayda əsaslı məlumat analizi audit avtomatlaşdırma vasitələri ilə, audit məlumat standartlarına (ADS) əsaslanaraq aparılır. Bu isə insan əməyini əhəmiyyətli dərəcədə azaldır. Bu sistemlər həmçinin nəzərəçarpacaq dərəcədə vaxta qənaət etməklə yanaşı, daha az vaxtda səhvlərin də aşkarlanması deməkdir.

Audit fəaliyyəti zamanı yoxlanılan məlumat bazası, analitik məlumatların işlənməsi prosesi əsas götürülür. Audit fəaliyyətində iş risklərinin qiymətləndirilməsi, şərtlərin təsdiqlənməsi, iş davamlılığı, səhvlərin müəyyənləşdirilməsi və təhriflər, saxtakarlıq və auditor rəyi ilə bağlı planlaşdırma üçün xidmətlər formasında analitik prosedurlar hazırlanmışdır. Mövcud vəziyyətin qiymətləndirilməsi üçün texnologiyalar ilə yanaşı, auditdə analiz aparılmalıdır. Bu zaman şirkətin ticari itkisi və uçotun dürüstlüyü yoxlanılır, sonda rəhbərliyə mövcud vəziyyət ilə bağlı yekun rəy verilir. Son zamanlarda bu cür fəaliyyətin təşkili zamanı audit aparan şəxslər İBM Watson texnologiyalarından istifadə etməyə xüsusi üstünlük verirlər. Belə ki, ondan böyük bir məlumatın təhlili üçün risk faktorlarının qiymətləndirilməsini aparan böyük 4 şirkət analitik olaraq istifadə edir. Onlar Halo (PWC), Optix (Deloitte), KRisk (KPMG) platformalarıdır.

Audit fəaliyyəti rəqəmsal texnologiya vasitəsilə aparılarkən, mövcud vəziyyətin təhlilində süni intellektin rolu əsas götürülür. Onu da əlavə etmək lazımdır ki, KPMG

şirkətinin süni intellektə əsaslanan platforması hazırda dünyanın qabaqcıl ölkələrində strateji məqsədlər üçün istifadə edilir.

Texnologiya həm auditin keyfiyyətini artırmaq, həm də dəyər əlavə etmək qabiliyyəti təklif edir. Yəni sistemlər optimal auditə və sürətli proqnozlaşdırıcılığa, qısa vaxt ərzində dəqiq qərara xidmət edir. Buna baxmayaraq, süni zəka və əlaqəli texnologiyalar tam tətbiq olunursa, auditorun müstəqilliyi ilə bağlı suallar yarada bilər.

Müasir təşkilatlar, şirkətlər dəqiq qərarın qəbul edilməsi üçün süni intellektdən istifadə edirlər. IBM prezidenti və icraçı direktoru Ginni Rometty, süni zəkanın və idrak texnologiyalarının bir neçə il ərzində bütün əsas qərar qəbuletmə vəziyyətlərində (fərdi və ya korporativ) rol oynayacağını bildirir. Süni intellekt tətbiqetmələrindən istehsaldan marketinqə, auditə qədər geniş miqyasda istifadə olunacağını təxmin etmək çətin deyil. Şübhəsiz ki, dördüncü sənaye inqilabı ilə bunun bariz göstəricisi hesab edilir.

Dünyanın ən böyük audit şirkətləri artıq rəqəmsal texnologiya əsasında fəaliyyət göstərir. Belə ki, dünyanın ən böyük 4 audit şirkətinə qısaca nəzər salaq:

- Deloitte Touche Tohmatsu və ya sadəcə "Deloitte" kimi tanınan şirkətin əsası 1845-ci ildə William Deloitte tərəfindən qoyulmuşdur. Şirkət indiki vəziyyətini alana qədər bir neçə şirkətlə birləşmiş və hətta dəfələrlə yenidən qurulmuşdur. Lakin dəyişməyən dəyərlər, keyfiyyət və brendinq oldu. Hazırda dünyanın ən uğurlu şirkətlərindən sayılan Deloitte 270 min çalışanla, xidmət göstərir və təxminən 39 milyard dollara yaxın illik gəlirə sahibdir. 150 ölkədə müştərilərinə xidmət göstərən Deloitte FinTech sahəsində də mühüm addımlar atmışdır.
- Təxminən 28 milyard dollar illik gəlirlə, PWC ikinci ən böyük mühasibat şirkətidir. 240 min işçi ilə, 150-dən çox ölkədə fəaliyyət göstərən PWC, iki böyük mühasibat şirkətinin - Price Waterhouse və Coopers & Lybrandin 1998-ci ildə birləşməsindən yaranmışdır. PWC müştəri dəyərləri başda olmaqla, digər dördlük üzvləri kimi ümumi standartlarda çalışır.
- Ernst & Whinney və Arthur Young-un birləşməsindən 1989-cu ildə yaranmış Ernst & Young dördlüyün qlobal üzvlərindən biridir. 150 ölkədə işçilərinin şəxsi inkişafına, dəyərlərinə, komanda işinə, çalışanların motivasiyasına və həvəsinə ən çox diqqət yetirən dördlük üzvü sayılır. E&Y-ın əsas dəyəri çalışanların bilik və bacarıqlarının inkişafıdır desək, yanılmarıq. 250 min çalışan mütəmadi olaraq treyninqlər və karyera inkişafı proqramları keçərək, şirkətin inkişafında mühim rol oynayırlar. 32 milyard dollar illik gəlirlə E&Y müştərilər üçün keyfiyyət meyarını rəhbər tutur.
- KPMG audit, vergi, konsaltinq, sənaye spesifik və xüsusi maraq daşıyan servislər təmin edən qlobal mühasibat şirkətləri şəbəkəsidir. Təqribən 200 min professional işçini keyfiyyətli servis altında birləşdirən şirkətin 154 ölkədə nümayəndəliyi var. İllik gəliri təqribən 27 milyard dollar olan KPMG 1987-ci ildə Peat Marwick International və Klynveld Main Goerdeler (KMG) birləşməsindən yarandı. Digər dördlük üzvləri kimi, KPMG-də müştəri və keyfiyyət dəyərlərini şirkət dəyərlərinə çevirməkdədir. KPMG haqqında danışarkən, şirkətin yeni və süni intellekt əsasında yaradılmış “KPMG Clara” platformasından mütləq şəkildə danışmaq lazımdır. Belə ki, müasir dövrdə audit fəaliyyətini qüsursuz və şəffaf etmək üçün hazırlanmış KPMG-nin ağıllı idarəetmə platforması "KPMG Clara"nın tətbiqi ilə başlanmışdır. Bu etibarlı platforma, yoxlamaların vəziyyəti ilə bağlı dəyərli məlumat daxil olmaqla, vacib məlumat mübadiləsi üçün vahid bir mənbə rolunu oynayan mərkəzləşdirilmiş bir portal təklif

edir. Tək bir ağıllı platformada inkişaf etmiş, analitik bacarıqları özündə cəmləşdirir və ən müasir idrak və süni İntellekt həllərini problemsiz bir şəkildə həyata keçirir. Bu, KPMG mütəxəssislərinə audit proseslərində risklər və anomaliyalar haqqında daha geniş və daha dərindən məlumat verən qabaqcıl texnologiyalardan faydalanmağa imkan verir.

KPMG-in süni intellektlə təchiz olunan forması yoxlamalar, texnologiya və imkanları optimal hala gətirmək üçün çalışır. Platforma KPMG-nin qabaqcıl texnoloji şirkətləri IBM Watson və Microsoft ilə ortaqlığın nəticəsində formalaşmışdır. Onu da qeyd edək ki, KPMG-nin yeni platforması olan "KPMG Clara" hal-hazırda müasir dövrün auditi hesab edilməklə yanaşı, son 4 ildə KPMG şirkətinin gəlirinin də əhəmiyyətli dərəcədə artmasında rol oynayır.

*Zəkizadə Seyidmahir Samir oğlu,*
*doktorant,*
*Bakı Biznes Universiteti,*
*E-mail:seyidmahir.1996@gmail.com*

## QARABAĞ VƏ ŞƏRQİ-ZƏNGƏZUR İQTİSADİ RAYONLARINDA EKOLOJİ İNFRASTRUKTURUN VƏ YAŞIL İQTİSADİYYATIN FORMALAŞMASI İSTİQAMƏTLƏRİ

Azərbaycanda Qarabağ və Şərqi-Zəngəzur iqtisadi rayonlarının potensialından səmərəli istifadə ölkənin iqtisadi inkişafı üçün yeni imkanlar yaradır. Bu ərazilərin iqtisadiyyatının yenidən qurulmasında yeni texnologiyaların tətbiqi də önəmli məsələlərdəndir. Qarabağ və Şərqi-Zəngəzur iqtisadi rayonlarında ətraf mühitin mühafizəsinin təmin edilməsi və ekoloji infrastruktur layihələrinin optimal formalaşdırılması, ora qayıdacaq əhalinin həyat keyfiyyətinin yüksəldilməsi üçün mühüm əhəmiyyət kəsb edir. Bu ərazilərdə məişət və sənaye tullantılarının yaradacağı potensial ekoloji təhlükələri nəzərə alaraq, yaşıl infrastrukturun formalaşmasında innovasiyaların tədbiqinə üstünlük verilməsi zəruridir. Bərpa olunan və alternativ enerji mənbələrindən istifadə və tullantı materiallarının səmərəli təkrar emalı üçün rəqəmsal texnologiyaların inteqrasiyasını tədbiq etməklə, ətraf və ekoloji mühitin yaşıl iqtisadiyyata uyğun formalaşdırılması mümkün olacaq.

Ekologiyalaşdırılmış iqtisadiyyatda tullantıların çoxluğunu nəzərə alaraq, ən vacib resurs olan insanın sağlamlığını nəzərə almaqla əmək şəraitini yaxşılaşdırmaq lazımdır. İqtisadiyyat gəlir mənbəyi olmaqla yanaşı, ekoloji problemlərin həllinə də şərait yaradır. İqtisadi sahələrin yaranması paralel olaraq ətraf mühitin çirklənməsinə təsir edir, bu səbəbdən iqtisadi artım və ekoloji vəziyyəti düzgün formada balanslaşdırmaq lazımdır. [4, s.44]

1988-ci ildən başlayaraq Azərbaycan ermənilərin və onların himayədarları ilə uzun sürən münaqişə vəziyyətində idi və bu təxminən otuz ilə yaxın davam etmişdir. Qeyd edilən dövr hazırki Qarabağ və Şərqi-Zəngəzur iqtisadi rayonlarında şəhərlərin və kəndlərin xarabalığa çevrilməsi, günahsız dinc əhalinin hədəfə alınması, həm insan, həm də ətraf mühit həyatının böyük itkiləri ilə yadda qalıb. Azərbaycan Respublikasının hüdudları ilə məhdudlaşan münaqişə bioloji, kimyəvi və fiziki çirklənmənin

dağıdıcı zərbələri ilə ətraf mühitə və xalqımıza ciddi təsir göstərib. Lakin Prezident İlham Əliyevin qətiyyəti sayəsində ərazilərimiz düşməndən azad edildi. Prezident İlham Əliyevin ərazilərdə infrastrukturun inkişafı ilə əlaqədar iləri sürdüyü və icra etdiyi layihə və proqramlar Qarabağ və Şərqi-Zəngəzur iqtisadi rayonlarında yaşıl iqtisadiyyatın formalaşması üçün zəmin yaradır. 2020-2024-cü illər ərazilərdə əsas diqqəti digər sahələrlə paralel ekoloji infrastrukturun formalaşmasına istiqamətləndirib.

Azərbaycan Respublikası Prezidentinin 29 oktyabr 2020-ci il tarixli Fərmanında nəzərdə tutulmuş sərəncamlara uyğun olaraq yaradılmış Operativ Qərargah ekologiyanın və təbii sərvətlərin mühafizəsi, o cümlədən ekologiya və təbii sərvətlərin səmərəli istifadəsi və ilkin qiymətləndirilməsi sahəsində əsas qurum kimi fəaliyyət göstərir ki, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli və Xocavənd rayonlarında coxlu monitorinq işlərinin həyata keçirilməsi də buna nümunədir. [2]

30 il ərzində Azərbaycanda işğal altında olan ərazilərimizdə təbii sərvətlərə və ətraf mühitə külli miqdarda ziyan vurulub. Ekoloji terror nəticəsində regionda ətraf mühitin balanslaşdırılması pozululmuşdur. Torpaqlarımızın işğaldan azad edilməsindən sonra aparılan monitorinqlər zamanı meşələrdə qiymətli ağaçların kəsilməsi, təbii sərvətlərin talan edilməsi ortaya çıxmışdır. Murov dağ silsiləsi ərazisində, Ağdərə ətrafında Talış, Baranbart, Gülüstan meşə massivlərində külli miqdarda göyüş, palıd, şam, saqqız və s. ağaclar kəsilərək Ermənistana daşınmışdır.

Eyni zamanda Ermənistan ərazisi daxilində Metsamor AES fəaliyyət göstərir. Ermənistan atom elektrik stansiyasının təhlükəli tullantılarını Araz çayının əsas qollarından biri olan Zəngi vasitəsi ilə əvvəllər işğal altında olan ərazilərimizə axıdır. Bunun nəticəsində regionda ekoloji və ətraf mühit məhv olur. [3, s.36]

Bütün bu proseslərlə yanaşı, gələcəkdə ərazilərə qayıdacaq əhalinin ekoloji cəhətdən sağlam mühitdə yaşaması üçün ekoloji cəhətdən təmiz infrastruktur layihələrinin həyata keçirilməsi vacib məsələdir. Bu sahədə layihələrə hələ yeni başlanmasına baxmayaraq, artıq yaxın 2 il üçün görüləcək işlərin planı, demək olar ki, hazırdı. Eyni zamanda Prezident İlham Əliyevin imzaladığı fərman və sərəncamlar bu sahədə gələcək illər üçün işlərin görülməsinə başlanılmasından xəbər verir. Ətraf mühitdə ağacların, torpağın və atmosferin qorunması ilə paralel ən önəmli məsələlərdən biri də tullantıların idarə edilməsidir.

Son illərdə ətraf mühitin mühafizəsi Azərbaycan Respublikasının dövlət siyasətinin prioritet istiqamətlərindən biri olmuşdur. Ölkəmizdə ekoloji problemlərin həlli üçün ardıcıl olaraq Dövlət Proqramları qəbul edilir və həyata keçirilir. Nəticədə ekoloji təhlükəsizlik sahəsində mühüm nailiyyətlər əldə edilmişdir. Bu kontekstdə Ekologiya və Təbii Sərvətlər Nazirliyi həm ətraf mühitin mühafizəsi, həm də insanların sağlam ətraf mühitdə yaşamaq hüququnun təmin edilməsi baxımından səmərəli tədbirlər həyata keçirir.

Prezident İlham Əliyevin 25 dekabr 2023-cü il tarixli Sərəncamı ilə 2024-cü il "Ətraf mühitin mühafizəsi naminə həmrəylik ili" elan edilib. Bu bəyannamə ətraf mühitin mühafizəsinin inkişaf etdirilməsi üzrə dövlətin müsbət rolunu əks etdirir. Azərbaycanın 2030-cu ilə qədər ətraf mühitində yaşıl iqtisadiyyatın formalaşdırılması ölkənin əsas milli prioritetlərindən biridir və bu baxımdan ətraf mühitin keyfiyyətinin artırılması, meşələrin bərpası və su ehtiyatlarında ekoloji layihələrin həyata keçirilməsi üçün bir sıra addımlar atılır. [1]

İşğaldan azad edilmiş ərazilərdə yaşıl iqtisadiyyatın optimal formalaşdırılması məqsədi ilə ekoloji infrastrukturla bağlı olan layihə və tədbirlərin həyata keçirilməsi əhəmiyyətli məsələdir. Aşağıda qeyd edilən infrastruktur tədbirlərinin həyata keçirilməsi Qarabağ və Şərqi-Zəngəzur iqtisadi rayonlarında həm ətraf mühitin mühafizəsini, həm də müəssisələrdə əhalinin işlə təminatı baxımından müsbət addım ola bilər:

- Tullantıları enerjiyə çevirən qurğuların istifadəsi ilə zavodlar yaratmaqla, təkrar emal olunmayan tullantıları yandırma prosesləri vasitəsilə enerjiyə çevirmək mümkün olar ki, bu sistemlə zibilxanalara göndərilən tullantıların həcmini azaltmaqla yanaşı, eyni zamanda bərpa olunan enerji istehsal etmək mümkün olar.
- Kompostlaşdırma infrastrukturunun yaradılması ev təsərrüfatlarından və müəssisələrdən gələn üzvi tullantıların kompostlanmağa, yəni gübrə və ya torpaq kimi istifadə edilməsinə imkan verir ki, bununla da tullantıların miqdarını azaldır.
- İnfrastruktur komplekslərinin yaradılmasına innovasiyaların daxil edilməsi Şərqi-Zəngəzur və Qarabağ iqtisadi rayonlarının inkişafını sürətləndirməklə yanaşı, həm də regionu daha rəqabətqabiliyyətli, sərmayə qoymaq üçün cəlbedici yerlərə çevirəcək. Eyni zamanda, təklif edilən müəssisələrin yaradılması işsizlik ilə bağlı yarana biləcək problemlərin həllinə müsbət təsir göstərəcək. Bu istiqamətdə uzunmüddətli strategiyanın olması vacibdir, müxtəlif maraqlı tərəfləri cəlb etmək və yeniliklərin işğaldan azad edilmiş ərazilərinin spesifik ehtiyacları və xüsusiyyətlərinə uyğun olmasını təmin etmək prioritet məsələdir.

İşğaldan azad edilmiş ərazilərdə tullantıların idarə edilməsi məsələsi, gələcəkdə orada yaşayan əhalinin həyat səviyyəsinin optimal formada olması üçün böyük əhəmiyyətə malikdir. Əsasən məişət tullantılarının müasir standartlara uyğun idarə olunmasının təşkili üçün müvafiq infrastrukturun yaradılması və bu sahədə dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsi vacibdir. Bu ərazilərdə tullantıların toplanması, daşınması, yerləşdirilməsi və zərərsizləşdirilməsi üçün infrastruktur komplekslərinin yaradılması müasir standartlara uyğun olmalıdır.

Azərbaycan Respublikasında müxtəlif sektorlar üzrə həyata keçirilən irimiqyaslı layihələrlə bağlı sabitlik və davamlılıqla səciyyələnən dinamik inkişaf nəticəsində ölkənin beynəlxalq nüfuzu xeyli yüksəlmişdir. Əminliklə demək olar ki, digər sahələrdə olduğu kimi, ekoloji mühitin və təbii sərvətlərin mühafizəsi siyasətinin düzgün və uğurla həyata keçirilməsi gələcəkdə əsaslı nailiyyətlərə gətirib çıxaracaqdır.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**

1. Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Sərəncamı. (25 dekabr 2023). Bakı.

2. Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Fərmanı. (29 oktyabr 2020). Bakı: №1170.

3. Baxşıyeva Y. (2021). Ermənistanın Azərbaycan Respublikasına qarşı həyata keçirdiyi hidroterror siyasəti. İşğaldan azad olunmuş ərazilərdə fövqəladə hal riskləri. Bakı: Elmi-texniki konfrans( 21-22 may), s.35-37.

4. İbrahimov İ.H. Ətraf mühitin iqtisadiyyatı. Bakı, 2015, 357 səh.

*Şəmsili Rəşad Tehran oğlu,*
*doktorant,*
*Bakı Biznes Universiteti*

## MALİYYƏ HESABATLARININ NƏZƏRİ-METODOLOJİ ƏSASLARI

Hazırda bütün dünyada qloballaşmanın artması və maliyyə bazarlarının inteqrasiyasının təsirləri diqqəti daha çox informasiya imkanlarına, eləcə də regenerativ maliyyə mexanizmlərinin inkişaf etdirilməsi ehtiyacına yönəldir ki, burada da əsas məsələ müxtəlif sahələrdə və məsələlərdə şəffaflığın təmin olunmasını şərtləndirir. Şəffaflıq məsələləri müasir dövrdə gündəmdə olan və kifayət qədər dərin, fərqli şirkətlərin, idarə və təşkilatların, xüsusilə də bank sisteminin iş prinsipində çox önəmli yer tutan məsələlərdəndir. Belə ki, istənilən sahədə, əsasən də maliyyə məsələləri olan yerlərdə şəffaf maliyyə hesabatlarının əhəmiyyətini vurğulamaq mühüm məsələdir və maliyyə nöqteyi-nəzərindən, maliyyə təhlili və maliyyənin dəstəklənməsində şəffaflığın roluna diqqət etmək lazımdır. Fəaliyyət prosesində daha çox mənfəət və düzgün iş prinsipi üçün hesabatlarda, ən önəmlisi isə maliyyə hesabatlarında şəffaflığın təmin olunması mühüm, eyni zamanda da tənzimləmə zamanı müəyyən dərəcədə xərc tələb edən prosesə çevirilmişdir.

Maliyyə hesabatları şirkətin bir maliyyə ili ərzində apardığı bütün əməliyyatları əks etdirən sənədlərdir və şirkətin hərtərəfli hesabat kartı və ya hesabat toplusu kimi qəbul oluna bilər. Maliyyə hesabatları bir növ mübadilə aktı kimi də qəbul oluna bilər. Lakin hər bir halda bu hesabatlar balans və mənfəət, çıxar hesabatı kimi sənədlərə istinad edir. Maliyyə hesabatları şirkətin məlumatlarının düzgün təqdim edilməsində böyük rol oynayır. İstənilən şirkətin maliyyə hesabatının düzgün şəkildə təşkili onun inkişafını təmin edən əsas sənəddir. Maliyyə hesabatlarını yoxlayaraq, bir şirkətin mənfəət əldə etmək üçün hansı əməliyyatları yerinə yetirdiyini, nə qədər mənfəət və ya zərər verdiyini ətraflı öyrənmək mümkündür. Maliyyə hesabatlarının məqsədi şirkətin ümumi gəlir və çıxarını, eyni zamanda mənfəəti aşkarlamaq və düzgün planlaşdırmanı həyata keçirməkdir. Şirkət nümayəndələri və işçiləri üçün maliyyə hesabatları şirkətin mənfəəti haqqında vacib məlumat mənbəyidir. Maliyyə hesabatlarının məzmunu maliyyə təhlili apararkən və biznes strategiyalarını tərtib edərkən daha da faydalıdır.

Maliyyə hesabatları müxtəlif məqsədlər üçün hazırlana bilər. Məsələn, vergi öhdəliyini müəyyən etmək üçün, investisiya potensialını müəyyən etmək üçün, şirkətin bazar dəyərini müəyyən etmək üçün və s. Məqsədindən asılı olaraq, hesabatların son nəticəsi fərqli olacaqdır. Ona görə də, maliyyə hesabatlarını şərh edərkən hesabatın hazırlanma məqsədinə, təyinatına diqqət yetirmək lazımdır.

Qeyd edək ki, maliyyə hesabatlarında fərqlər həm də müxtəlif ölkələrdəki qanunvericiliyə görə mövcud olur. Hesabatlarda tətbiq olunan standartlar qanunvericiliyin tələblərinə uyğun olaraq müxtəlif ola bilir. Hər hansı bir şirkətin maliyyə hesabatlarını yoxlayan təkcə daxili işçilər deyil. Maliyyə hesabatları şirkət məlumatı kimi vebsaytda

yerləşdirilir və onlara maliyyə xidmətləri agentliyinin və ya statistika idarəsinin internet saytında da baxmaq olar. İnvestorlar, səhmdarlar və kreditorlar tez-tez maliyyə hesabatlarını yoxlayır, onlardan investisiya və əməliyyat qərarlarının qəbulu üçün əsas kimi istifadə edirlər. Məsələn vergi orqanları vergitutmanın məqsədəuyğunluğuna əmin olmaq üçün maliyyə hesabatlarını da vaxtaşırı yoxlayır. Maliyyə hesabatları şirkətdə iştirak edən bütün maraqlı tərəfləri lazımi məlumatlarla təmin etmək üçün istifadə olunur. Maliyyə hesabatı qaydalarına əlavə olaraq, müvafiq olaraq qrup şirkətləri kimi konsolidə edilmiş maliyyə hesabatlarını həyata keçirən şirkətlərin maliyyə hesabatları üçün qaydaları və şirkətlər haqqında qanunda nəzərdə tutulmuş mühasibat uçotunun hesablanması üsullarına dair qaydaları özündə əks etdirən konsolidə edilmiş maliyyə hesabatı qaydaları, eyni zamanda mühasibat uçotunun hesablanması qaydaları da mövcuddur. Bəzi şirkətlər maliyyə hesabatlarını vergi idarəsinə açıqlamalıdırlar. Siyahıya alınmış şirkətlər və böyük şirkətlər maliyyə hesabatlarını dərc etməlidirlər. Vergi idarəsi tərəfindən tələb olunarsa, müvafiq şirkətlər öz maliyyə hesabatlarını dərhal açıqlamalıdırlar. Hətta siyahıya alınmış şirkətlər və ya iri korporasiyalar olmayan kiçik və orta müəssisələr də 3% və ya daha çox səsvermə hüququ olan səhmdarlar və ya kreditorlar tərəfindən tələb olunarsa, öz məlumatlarını açıqlamalıdırlar. Təbii ki, hesabat açıqlama tələblərinə əməl etməməyə görə cəzalar da var. Maliyyə hesabatlarını idarə edərkən bu cür açıqlama sorğularının mümkünlüyünü nəzərə almaq və düzgünlüyünü qorumaq vacibdir.

Maliyyə hesabatları şirkətlərin güclü və zəif tərəflərini dərhal ortaya qoyur və bu cəhətləri ilə şirkətlərin taleyini müəyyən edən ən mühüm amillərdən birinə çevirilir. Şirkətlərin fəaliyyəti onların maliyyə hesabatlarını müəyyən edir və bu hesabatlar şirkətin gələcək fəaliyyətini müəyyənləşdirir. Buna görə də, maliyyə hesabatları və onların şəffaflığı biznes üçün vacib olduğu kimi, ictimaiyyətə açıqlama mərhələsində maliyyə qiymətləndirmələrini aparacaq şəxslər üçün də eyni dərəcədə vacibdir. İctimaiyyətə açıqlanarkən istifadə edilən maliyyə məlumatlarının, xüsusən də kapital bazarında siyahıya alınmış müəssisələrin cədvəllərində şəffaflığın əhəmiyyətini və onun kapital bazarına təsirini aşkar etmək üçün hazırda bu mövzu iqtisadi sahələrdə mühüm qloballıq qazanmaqdadır.

Hazırda ölkəmizdə maliyyə hesabatları üçün mühasibat sistemi və maliyyə qiymətləndirməsi baxımından o qədər də dayanıqlı bir nizamın olduğunu söyləmək olmaz. Əslində son illərdə yaşanan iqtisadi böhranlar nəticəsində beynəlxalq mühasibat standartlarına uyğun hüquqi tənzimləmələr gündəmə gəlib. Digər tərəfdən, bankların yenidən qurulması, maliyyə strukturlarının təkmilləşdirilməsi və fəaliyyətlərinin şəffaflaşdırılması üçün işlər aparılıb. Həm real sektorun, həm də maliyyə sektorunun əlavə dəyər yaratmağa davam etməsinə və maliyyə sektoru qarşısında ödəmə öhdəliklərini nəzərdə tutulmuş müddətdə, ağlabatan müddətdə və kreditor təşkilatlar tərəfindən məqsədəuyğun hesab edilən ağlabatan şərtlər daxilində yerinə yetirməsinə şərait yaratmaqla, vəsait toplamaq, balans hesabatlarını sifariş etmək qabiliyyətini hesaba almaq kimi məsələlər də aydınlıq və şəffaflığı təmin etmək məqsədi daşıyır.

Maliyyə hesabatlarında ən önəmli məsələlərdən biri olan mənfəət təhlili şirkətin nə qədər qazanc əldə edə biləcəyinin təhlilidir. Yüksək gəlirliliyin üstünlüyü vəsaitlərin cəlb edilməsini asanlaşdırır. Mənfəət təhlili ümumi mənfəət marjası və əməliyyat mənfəət marjası kimi rəqəmlərin hesablanması ilə həyata keçirilir. Ümumi mənfəət marjası satışdan satılan malların dəyərini ümumi satışa çıxarmaqla əldə edilən "ümumi mənfəət" nisbətidir.

Hesablama düsturu: Ümumi mənfəət dərəcəsi (%) = satış üzrə ümumi mənfəət + satış x 100.

Maliyyə hesabatları- ictimaiyyətin məlumat ehtiyaclarına cavab verən, müəyyən olunmuş qaydada müəssisə tərəfindən tərtib, təqdim və dərc olunmuş "Maliyyə vəziyyəti haqqında hesabat", "Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat", "Kapitalda dəyişiklər haqqında hesabat", "Pul vəsaitinin hərəkəti haqqında hesabat" və "Əhəmiyyətli uçot siyasətləri və izahedici qeydlər"dən ibarət olan ümumi təyinatlı hesabatlardır. Maliyyə hesabatının Beynəlxalq Standartlarında maliyyə hesabatı, onun tərtib və təqdim edilməsi "Maliyyə hesabatının təqdim edilməsi" adlı 1 saylı standart vasitəsilə tənzimlənir. Bu standarta görə hesabatın hazırlanması və təqdim olunması zamanı mövcud və təsdiq olunmuş qaydalara əməl edilməlidir. Maliyyə hesabatlarının tam siyahısına aşağıdakılar daxildir:

- maliyyə vəziyyəti haqqında hesabat;
- mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat;
- pul vəsaitlərinin hərəkəti haqqında hesabat;
- kapitalda dəyişikliklər haqqında hesabat;
- əhəmiyyətli uçot siyasətləri və izahedici qeydlər;
- maliyyə vəziyyəti barədə;
- maliyyə nəticələri barədə və s. hesabatlar.

Beləliklə, hər hansı şirkətin, idarənin müxtəlifyönümlü ilkin hesabatları sonrakı mərhələdə mənfəət hesabatı, zərər hesabatının da formalaşmasına təsir edən mühüm amillərdəndir. Mənfəət hesabatı şirkətin mənfəət və zərər vəziyyətini ümumiləşdirir. Şirkətlər məhsul və xidmətlərin satışından gəlir əldə edirlər, lakin gəlir birbaşa mənfəətə çevrilmir və biznes əməliyyatları ilə bağlı müəyyən xərclər mövcuddur.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**

1. Səbzəliyev S. Maliyyə hesabatı. Dərs vəsaiti. Bakı: “İqtisad Universiteti” Nəşriyyatı – 2018. - 312 səh.

2. İsmayılov M., Əhmədov Y., Məmmədov İ., Həsənova N., Maliyyə hesabatının təhlili. Bak,ı 2017. 701 s.

3. http://investaudit.az/wp-content/uploads/2018/11/F3-FULL.pdf

4. https://innab.org/maliyy%C9%99-hesabatlarinin-mahiyy%C9%99ti/

5. https://tedris.taxes.gov.az/assets/upload/files/T%C9%99lim%20materiallar%C4%B1/muhasibat/Modul%208.pdf

*Ilknur Rahib Rajabli,*
*Ph.D. Student,*
*Baku Business University,*
*E-mail:irahiboglu@mail.ru*

# IMPROVING DIGITIZATION IN FREIGHT AND PASSENGER TRANSPORT IN THE TRANSPORT SECTOR

The transport sector is considered one of the developing sectors of our modern times and this sector is being developed by the state day by day. If we look at the general experience of the countries of the world, we will see that the role of the transport sector in strengthening international trade relations is irreplaceable, and this sector reflects high capital investments.

Digitization processes in the economy are innovative and at the same time one of the most important manifestations of scientific and technological development, and information about how large-scale the changes in the economy, including in the transport sector, will be due to digitization, in what form and when they will manifest themselves, is not reflected. The transport sector is considered one of the first to incorporate the application of digital technologies. A distinctive feature of digitization in the transport sector is that it occurs unevenly in each direction, and at the same time, the demand for digitization in this area is high. Namely, the use of digital technologies in this field seems to be the most promising way to increase the economic efficiency of this field.

As an example of digitization in the implementation of cargo and logistics services in the transport sector, it is necessary to reflect on issues controlled by robots within the enterprise. Robotization in cargo and passenger transportation in transport has its own characteristics, which distinguish this area from other areas of economic activity. Thus, robotics is often considered as the production and use of some physical machine that can imitate any human action. However, due to digitization in this sector, it has become more widespread in autonomous systems.

Robotics refers to the production and use of self-managing intelligent systems that can perform their production functions regardless of the degree of human intervention. Robotization in the transport sector involves both the introduction of autonomous vehicles and the automation of production itself and the use of equipment that works without human intervention. In addition,digitalization in the transport sector is mainly reflected in timetables. Since the transports carried out in the transport sector are divided into types, those transports are regulated by means of the traffic schedule. In the transportation sector, it is impossible to carry out transportation without amovement schedule.

Bus transportation is a road vehicle that carries many more passengers than a car or a minibus. Bus transportation is most commonly used in public transportation. The movement mechanism in bus transportation is regulated by "AYNA". The

document that ensures the movement mechanism of buses is called the operating document. The bus transportation operation service is formed on the basis of the timetables prepared by the employees and must provide the following obligations for the improvement of the timetables:

- to do quality work by spending less time;
- provision of buses according to passenger flow;
- adaptation of buses according to events and processes occurring in the country;
- maintaining the norm for the safety of the movement is related.

In general terms, all information must be known for the preparation of traffic schedules in the transport sector. In addition, digitization and improvement of those movement tables is considered one of the important issues. The grapho-analytical method is used in the drawing up of the movement table for the determination of movement schedules and the preparation of route schedules. The graph analytical method mainly allows to analyze the following:

- determining the number of buses at the stop;
- display of bus movement interval;
- registration of employees' rest time;
- strengthening control over the mechanism of entry and exit of buses into the system;
- during peak hours;
- reflects the drawing up of schedules on routes.

One of the obvious examples of digitization in the transport sector is the quality indicator of the population using the transport sector. It is necessary to review the quality indicators of passengers in order to see how digitalization works have an effect and to easily eliminate the problems encountered. Passenger quality indicators are as follows:

- to ensure the safety of movement;
- time spent by passengers on movement;
- ensure regularity of movement;
- elimination of overcrowding conditions in buses is attributed.

Currently, the construction of international airports in Azerbaijan shows itself as a factor affecting the increase of tourists coming to our republic. The geography of modern highways in our country is rapidly expanding. The role of the "Strategic Road Map" in the development of infrastructure in the transport sector is very important. In our modern era, technologies in the transport sector in the Republic of Azerbaijan are being radically updated, further improvement of digitization works in the sector, creation of a new management system structure in institutions related to the transport sector, identification of these processes with socio-economio development, as well as methods of managing this identification at both national and international levels. it is necessary to develop and implement it.

*Islam Elshan Dunyamaliyev,*
*Ph.D. Student,*
*Baku Business Universitety*

# SYNERGIZING GREEN ECONOMY AND E-COMMERCE: SUSTAINABLE PRACTICES FOR THE DIGITAL MARKETPLACE

## Introduction

The integration of green economy principles within the realm of e-commerce presents a unique opportunity to foster sustainable development in the digital market-place. This thesis explores the problem of environmental impact caused by the rapid growth of e-commerce, proposes solutions to mitigate these effects through sustainable practices, and examines the challenges involved in implementing these solutions.

The exponential growth of e-commerce has revolutionized the way businesses operate and consumers shop, providing unparalleled convenience and expanding market reach. E-commerce has become an integral part of the global economy, with online sales expected to continue rising in the coming years. However, this growth has also contributed significantly to environmental degradation, including increased carbon emissions, waste generation, and resource depletion. Integrating green economy principles into e-commerce is essential for creating a sustainable future. This thesis aims to address the environmental impact of e-commerce, propose solutions to promote sustainability, and discuss the challenges faced in implementing these solutions.

## Problem Statement

E-commerce, while beneficial for economic growth and consumer convenience, poses significant environmental challenges. The main problems include:

1. Carbon Emissions: The increased demand for fast shipping and delivery services has led to a surge in transportation-related carbon emissions. With consumers increasingly expecting quick deliveries, companies are compelled to use expedited shipping methods, often involving air freight and multiple delivery trips, which are significantly more carbon-intensive than standard shipping options.

2. Packaging Waste: The extensive use of packaging materials, often non-recyclable, contributes to environmental pollution and landfill overflow. E-commerce relies heavily on packaging to protect goods during transit, leading to an increase in single-use plastics, cardboard, and other packing materials that frequently end up in landfills or as litter.

3. Resource Depletion: The high consumption of natural resources for manufacturing goods, combined with the energy-intensive nature of data centers, exacerbates resource depletion. The production of electronic devices and other goods sold online requires significant amounts of raw materials, water, and energy, leading to environmental degradation.

4. Electronic Waste: The rapid turnover of electronic devices and gadgets results in substantial electronic waste, which is hazardous and difficult to manage. As new technologies emerge, older models are quickly discarded, contributing to a growing e-waste problem that poses health and environmental risks due to the toxic substances they contain.

**Solution**

To mitigate the environmental impact of e-commerce, several sustainable practices can be implemented:

1. Sustainable Packaging: Adoption of eco-friendly packaging materials, such as biodegradable, recyclable, and reusable options, can significantly reduce waste. Companies can also optimize packaging sizes to minimize material use. For example, innovative packaging solutions like compostable mailers, reusable containers, and packaging made from recycled content can be employed. Additionally, reducing excessive packaging through better product design and using more efficient packing techniques can help decrease material waste.

2. Green Logistics: Investing in electric or hybrid delivery vehicles, optimizing delivery routes, and encouraging the use of bicycles or other low-emission transporttation methods can help lower carbon emissions. Developing centralized distribution centers closer to consumer hubs and utilizing smart logistics technologies to optimize delivery schedules can further enhance efficiency and reduce environmental impact. Implementing "green delivery" options where consumers can choose slower, more environmentally friendly shipping methods can also contribute to reduced emissions.

3. Energy Efficiency in Data Centers: Utilizing renewable energy sources, improving energy efficiency through advanced technologies, and implementing sustainable practices in data centers can reduce their carbon footprint. This includes investing in energy-efficient servers, cooling systems, and data storage solutions. Companies can also explore the use of artificial intelligence (AI) and machine learning to optimize energy usage and improve overall data center efficiency. Additionally, purchasing renewable energy credits and participating in carbon offset programs can further mitigate the environmental impact of data center operations.

4. Promoting Circular Economy: Encouraging practices such as recycling, refurbishing, and reusing products can extend their lifecycle and reduce waste. E-commerce platforms can offer incentives for returning used products for recycling or refurbishing. Implementing take-back programs and establishing partnerships with recycling and refurbishing companies can facilitate the process. Additionally, promoting product-as-a-service models, where consumers lease or subscribe to products instead of purchasing them outright, can help reduce waste and promote sustainable consumption patterns.

5. Consumer Awareness and Education: Educating consumers about the environmental impact of their purchases and promoting sustainable shopping habits can drive demand for green products and services. E-commerce platforms can provide information on the environmental impact of products, highlight eco-friendly options, and encourage customers to choose sustainable alternatives. Implementing transparency measures, such as carbon footprint labeling and providing information on the sustainability practices of sellers, can also help consumers make more informed choices.

**Challenges**

Implementing these sustainable practices in e-commerce involves several challenges:

1. Cost Implications: Transitioning to sustainable practices often involves significant upfront investments. Small and medium-sized enterprises (SMEs) may struggle

with the financial burden of adopting green technologies and materials. The initial costs of switching to sustainable packaging, investing in energy-efficient infrastructure, and implementing green logistics solutions can be prohibitive for smaller businesses. Additionally, ongoing maintenance and operational costs associated with sustainable practices can strain financial resources.

2. Technological Barriers: The development and deployment of advanced, energy-efficient technologies require substantial research and innovation. Not all companies have the resources or expertise to implement these technologies effectively. For instance, adopting electric or hybrid delivery vehicles requires significant investment in new fleet infrastructure and maintenance capabilities. Similarly, implementing advanced energy-efficient systems in data centers may require specialized knowledge and substantial capital expenditure.

3. Regulatory Hurdles: The lack of standardized regulations and policies for sustainable practices in e-commerce can create inconsistencies and hinder widespread adoption. Governments need to establish clear guidelines and incentives to promote sustainability. Inconsistent regulatory frameworks across different regions and countries can complicate compliance for global e-commerce businesses. Moreover, the absence of robust enforcement mechanisms can result in varying levels of adherence to sustainable practices.

4. Consumer Behavior: Changing consumer behavior and preferences towards sustainable products and practices is a gradual process. Companies must invest in marketing and educational campaigns to shift consumer attitudes. Overcoming consumer resistance to higher prices for sustainable products and services is a significant challenge. Additionally, ensuring that consumers prioritize environmental considerations over convenience and speed in their purchasing decisions requires continuous engagement and awareness efforts.

5. Supply Chain Complexity: Ensuring sustainability throughout the entire supply chain is challenging, particularly for global e-commerce businesses. Coordinating with suppliers, manufacturers, and logistics partners to adhere to green practices requires robust management and monitoring systems. The complexity of global supply chains, with multiple tiers and stakeholders, makes it difficult to track and ensure compliance with sustainability standards. Additionally, varying levels of environmental awareness and commitment among suppliers can pose challenges in implementing uniform sustainable practices.

**Conclusion**

The integration of green economy principles into e-commerce is not only beneficial for the environment but also vital for the long-term sustainability of the digital marketplace. By adopting sustainable packaging, green logistics, energy-efficient data centers, circular economy practices, and promoting consumer awareness, the environmental impact of e-commerce can be significantly reduced. However, overcoming the challenges of cost, technology, regulation, consumer behavior, and supply chain management is essential for the successful implementation of these solutions. Collaborative efforts from businesses, governments, and consumers are crucial to fostering a sustainable e-commerce ecosystem that supports economic growth while preserving environmental integrity. E-commerce companies must take proactive measures to

incorporate sustainability into their operations, and consumers must make informed choices that support sustainable practices. Governments and regulatory bodies should provide clear guidelines and incentives to promote sustainability in e-commerce, creating a conducive environment for green practices to thrive.

## References:


1.GeSI & Accenture. (2015). Smarter2030: ICT Solutions for 21st Century Challenges. Global e-Sustainability Initiative.

2.OECD. (2020). E-commerce in the time of COVID-19. Organisation for Economic Co-operation and Development.

3.UNEP. (2013). Greening the Economy through Life Cycle Thinking. United Nations Environment Programme.

4.WEF. (2020). The Future of the Last-Mile Ecosystem: Transition Roadmaps for Public- and Private-Sector Players. World Economic Forum.

5.Ellen MacArthur Foundation. (2017). Circular Economy in Cities. Ellen MacArthur Foundation.

6.United Nations Conference on Trade and Development (UNCTAD). (2021). Digital Economy Report 2021: Cross-border data flows and development. United Nations.



*Mürsəlov Vüsal Zülfiqar oğlu,*
*doktorant,*
*Bakı Biznes Universiteti*


# YAŞIL ENERJİ MƏNBƏLƏRİNİN XƏRC EFFEKTİVLİYİNİN TƏHLİLİ İSTİQAMƏTLƏRİ

Son illərdə dünyada yaşıl enerjiyə olan maraq xeyli artmışdır. Yaşıl enerji mənbələrinin inkişaf etdirilməsi, istehsal və tətbiqi sahəsində aparılan araşdırmalar enerji sektorunda mühüm dəyişikliklərə səbəb olmuşdur. Bu mənbələrin xərc effektivliyini təhlil etmək həm iqtisadi, həm də ekoloji aspektlərdən əhəmiyyətli bir yer tutur. Yaşıl enerji mənbələrinin xərc effektivliyinin təhlili yatırım qərarları, siyasət quruluşu və istehlakçı davranışları üzərində mühüm təsir göstərir.

**Yaşıl enerji mənbələrinin xərc strukturu**

Yaşıl enerji mənbələri, o cümlədən günəş, külək, hidroelektrik və biomassa enerjisi ilk başlanğıc mərhələdə yüksək quraşdırma və kapital xərcləri tələb edir. Buna baxmayaraq, bu mənbələrin işlənməsi zamanı əldə edilən ümumi xərclər, məsələn: yanacaq və baxım xərcləri nisbətən aşağıdır. Xərc effektivliyinin təhlili bu başlanğıc xərclərin amortizasiyasını və enerji istehsalının ümumi maliyyətini müəyyənləşdirməlidir.

**Xərc effektivliyinin təhlil metodları**

Nəticəyə əsaslanan qiymətləndirmə (ROI): ROI yaşıl enerji təchizatı üçün edil-

miş sərmayənin gəlirlilik dərəcəsini ölçmək məqsədi ilə istifadə edilir. Bu metod quraşdırma və işlətmə xərclərinin yanı sıra, əldə edilən enerjinin satışından gəlirlərin hesablanmasını da əhatə edir.

Dövriyyə müddətinin hesablanması: Bu metod, sərmayənin başlanğıc xərclərinin ödənilməsi üçün lazım olan zamanı müəyyənləşdirmək üçün istifadə edilir. Dövriyyə müddəti qısa olan layihələr, adətən daha çox üstünlük təşkil edir.

Tam maliyyələşdirilmiş xərc (LCOE): LCOE, bir enerji mənbəyinin ümumi ömrü boyunca baş verən bütün xərclərin bir vahid enerji istehsalına bölünməsi ilə hesablanır. Bu, müxtəlif enerji mənbələrini müqayisə etmək üçün effektiv bir yoldur.

**Geosiyasi və iqtisadi amillərin rolu**

Yaşıl enerji mənbələrinin xərc effektivliyi, həmçinin regionun geosiyasi və iqtisadi amilləri ilə də sıx bağlıdır. Məsələn, günəş enerjisinin xərc effektivliyi günəşin parlaqlığına, külək enerjisinin effektivliyi isə küləyin sürətinə bağlıdır. İqtisadi amillər arasında, dövlət tərəfindən verilən subsidiyalar, vergi güzəştləri və enerji qiymətlərinin tənzimlənməsi mühüm rol oynayır.

Beləliklə, yaşıl enerji mənbələrinin xərc effektivliyini təhlil etmək həm tədqiqatçılar, həm də siyasətçilər üçün vacibdir. Bu təhlil daha məhsuldar və davamlı enerji siyasətlərinin qurulmasına kömək edərək, enerji sektorunda uzunmüddətli planlaşdırmaya yönəlik qərarlar qəbul etmək imkanı yaradır. Yaşıl enerji texnologiyalarının maliyyə strukturu, potensial gəlirlilik və ətraf mühitin qorunması aspektləri nəzərə alındıqda bu sahədə aparılan xərclərin təhlili daha da mühüm hala gəlir. Gələcəkdə bu sahədə daha çox araşdırma və yeniliklərin olması gözlənilir, bu da xərc effektivliyinin yaxşılaşdırılmasına və daha geniş qəbul edilməsinə səbəb olacaq.

*İsmayılov Elşən Ellaz oğlu,*
*doktorant,*
*Bakı Biznes Universiteti,*
*E-mail: ismayilov.elsan92@mail.ru*

## REGİONLARDA AQROPARKLARIN FORMALAŞDIRILMASININ DÜNYA TƏCRÜBƏSİ

Bilirik ki, aqroparkların inkişafının səmərəli təşkil olunması üçün bir çox ölkələrin təcrübəsinin mənimsənilməsinə və buna uyğun olaraq yerli modelin yaradılmasına ehtiyac vardır. Çünki, aqroparkların yaradılması tarixi çox keçmiş dövrü əhatə etməsədə bu praktikanın kifayət qədər uğurlu modelləri mövcuddur ki, bu modelləri tədqiq etməklə yeni inkişaf meyllərini formalaşdıra bilərik.

Dünya təcrübəsində aqroparkların formalaşdırılması və səmərəliliyinin yüksəldilməsinə böyük diqqət yetirilir və hal-hazırda dünya təcrübəsində "Aqroparklar" anlayışından iki müxtəlif istiqamətlərdə fəaliyyət üçün istifadə edilir. Birincisi, aqrar sferanın xüsusiyyətlərini özündə əks etdirən formada daha çox sərgi xarakterli olan və bu məqsədlə şəhər əhalisinin kənd həyatı ilə tanışlığını təmin etmək üçün şəhər yerlərinə yaxın yerləşən ərazilərdə fermer təsərrüfatlarının yaradılmasıdır. Bu tip aqroparklarda innovasiya mümkün qədər daha az tətbiq olunur, müasir istehsal prosesinin

nümayiş etdirilməsindən çox orqanik istehsal prosesinin təqdim olunması həyata keçirilir.

İkincisi isə aqrar və sənaye sahələrinin qarşılıqlı əməkdaşlığının təmin edildiyi, eyni zamanda özündə menecment və marketinq imkanlarını cəmləşdirən birgə fəaliyyət növünün olmasıdır. Aqropark təcrübəsindən dünyanın, demək olar ki, bütün aqrar ölkələri geniş istifadə edirlər: ABŞ, Rusiya, Çin, Hollandiya, İsrail, Yeni Zelandiya, Malayziya, Avstraliya və sair.

Bildiyimiz kimi, müasir dövrdə aqroparklar ölkənin ərzaq təhlükəsizliyini, kənd təsərrüfatı istehsalında milli brendlərin yaradılmasını, həmçinin aqrar sahənin elm, təhsil və istehsalın innovativ inkişafını formalaşdırmaqla, aqrar sahədə istehsal imkanlarının inkişafında vacib rol oynayır.

İngilis antroponimikasındakı adların bir qisminin yaşı da təqribən təyin etməsi özünü göstərir. S.Pinker yazır: *"Amerika oxucularının əksəriyyəti Murray adının daşıyıcısı barədə onun 60-dan yuxarı yaşının olması, orta sinfə mənsubluğu haqqında müəyyən qənaətə gəlirlər"*. Müəllif bundan sonra göstərir ki, Edna, Ethel, Bertha – yaşlı, Susan, Nangy, Debra – orta yaşlı, Cenifer, Amanda, Heather – yaşı 30-u aşmış qadınların, İsabella, Madison, Olivia – qızların adlarıdır. Kişilərdə isə, adlar dayanıqlıdır. Bütün dövrlərdə Robert, David, Michael, Cohn, Cames həm oğlan, həm də kişi adları olmuşdur.

*Məmmədova Şəlalə Arif qızı,*
*doktorant, müəllim,*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti,*
*E-mail: mamedova-shalala@mail.ru*

# İNGİLİS DİLİNDƏ MÜRƏKKƏB QEYRİ-MÜƏYYƏN ƏVƏZLİKLƏR VƏ ONLARIN AZƏRBAYCAN DİLİNDƏ QARŞILIĞI

Mürəkkəb qeyri-müəyyən əvəzliklər həm birinci, həm də ikinci komponentinə görə təhlil edilir. Digər əvəzliklərdən fərqli olaraq qeyri-müəyyən əvəzliklər isim kimi qeyri-müəyyən şəxs, qeyri-müəyyən əşya bildirir. Lakin isimlərdən fərqli olaraq digər əvəzliklər kimi qeyri-müəyyən əvəzliklər hər hansı bir əşyaya aid olmur. Belə ki, verilən mətndə onlar hər hansı qeyri-müəyyən bir şəxsə və ya əşyaya aid ola bilər.

Qeyri-müəyyən əvəzlikləri ifadə etdikləri məna baxımından bir qrup adı altında birləşdirmək olar. Bu sözlər öz ifadə etdikləri mənaya görə qeyri müəyyənlik bildirir. Ümumi şəkildə hər hansı bir əşyaya aid olur.

Qeyri-müəyyən əvəzliklərin mahiyyətindən danışarkən E.M.Qalkina -Fedorik qeyd edir ki, müasir rus dilində qeyri- müəyyənliyi ifadə etmək üçün xüsusi leksik vasitələr mövcuddur. Bunlara aşağıdakılar daxilidir:

Некто, кто-то, кто-нибудь, кое-кто, кто угодно, кто-либо və s.

Кто - то подошел к нему.

Qeyd etmək lazımdır ki, E.M.Qalkina - Fedorukun qeyri-müəyyən əvəzliklər barədə verdiyi məlumat nəzəri cəhətdən müəyyən əhəmiyyət kəsb edir. O, konkret dil faktlarına əsaslanaraq qeyri-müəyyən əvəzliklərin işlənmə məqamlarını göstərir.

Leksik - semantik cəhətdən qeyri -müəyyənlik bildirən növlərdən danışarkən A.Həsənovun fikrinə də toxunmaq yerinə düşər. Bu münasibətlə o, belə yazır: “Türk dillərində, o cümlədən Azərbaycan dilində qeyri - müəyyənliyin şəkli əlaməti olmadığından leksik-qrammatik cəhətdən qeyri- müəyyənlik bildirən sözlərə çox az təsadüf edilir. Leksik-qrammatik cəhətdən qeyri- müəyyənlik bildirən sözlərə kim isə, nə isə qeyri - müəyyən şəxs əvəzliklərini, hər zaman qeyri- müəyyənlik bildirən sözlərə isə nəsə qeyri-müəyyənlik əvəzliyini daxil etmək olar”. Daha sonra A.Həsənov qeyd edir ki, nəsə sözü heç vaxt müəyyənlik əlaməti qəbul edə bilmir və həmişə qeyri-müəyyənlik bildirir.

Leksik-semantik cəhətdən qeyri-müəyyənlik bildirən bir sözünün bəzi təyin əvəzliyinin və kim sual əvəzliyinin III şəxsə aid mənsubiyyət şəkilçisini qəbul etməsi ilə yaranan qeyri-müəyyən şəxs əvəzlikləri: biri-birisi, bəzisi- bəziləri, kimi-kimisi-kimiləri, eləcə də hərə, hamı qeyri-müəyyən şəxs əvəzliklərinin nisbət şəkilçiləri ilə işlənən formaları: hərəsi, hamısı.

Belə qənaətə gəlmək olar ki, morfoloji quruluşundan asılı olmayaraq, bizə məlum olan dillərdə qeyri-müəyyən əvəzliklər qeyri-müəyyənlik, ümumilik bildirir.

İndi qeyri-müəyyən əvəzliklərin hansı tip cümlələrdə işlənməsinə nəzər salaq. Bu vəziyyət ingilis dili üçün olduqca vacibdir. Belə ki, some, any və onların törəmələri müxtəlif cümlə növlərində işlənir.

İndi konkret olaraq hər bir işlənmə üzərində ayrı-ayrılıqda dayanaq:

1. Some əvəzliyinin törəmələrinin nəqli-təsdiq cümlələrdə işlənməsi:

Somebody else had already passed out that way.

Daha kimsə burdan keçmişdi.

Somebody tries the door with the key (Shaw).

Kimsə qapını açmağa cəhd etdi.

Somebody touched him on the shoulder.

Kimsə onun çiyninə toxundu...

I ought to have been told. Someone really ought to have warned me (S.Maugham).

Kimsə məni xəbərdar etməli idi.

It didn't occur to you to ask somebody or rather what my name was (S. Maugham).

Siz kimdənsə mənim adımın nə olduğunu soruşmaq ağlınıza gəlmədi.

Somebody had to be with him always.

Kimsə həmişə onunla olmalı idi.

Someone in the household was always remembering that a baby on the way, and the someone was not always Edita.

Verilən bu nümunədə someone qeyri-müəyyən əvəzliyinin işlənməsi ümumi ismin işlənməsinə bənzəyir. Belə ki, çox nadir hallarda qeyri-müəyyən əvəzlik müəyyən artiklla işlənir.

"What a pleasure it is" said Denis, "to do somebody a kindness".

Kiməsə yaxşılıq etmək xoşdur.

Verilən nümunələrdən göründüyü kimi, müasir ingilis dilində qeyri-müəyyən şəxsi göstərmək üçün somebody və someone işləndiyi halda, Azərbaycan dilində kimsə_ əvəzliyi işlənir.

Bu nümunələrdə başqa bir cəhət də diqqəti cəlb edir. Somebody və someone əvəzlikləri arasaında nə kimi fərq var?

Y.M.Qordon və İ.P.Krılova bu fərqi belə izah edir. Somebody topluluq, kollektivlik, someone isə daha çox fərdilik bildirir). Həmin müəlliflər aşağıdakı nümunələri verir:

Somebody is sure to get interested in the job (=some people, one or more persons)

This is a letter from someone interested in the job (=some person, one person).

Nobody knew about her arrival (=no people).

No one had come to meet her (=not a person).

Məhz bunun nəticəsidir ki, somebody heç vaxt of sözönlü birləşmə əmələ gətirə bilmir. Lakin someone belə birləşmə əmələ gətirə bilir, məsələn:

Does anyone of you correspond with her family?

Görünür bu fərq onunla bağlıdır ki, one sözü müəyyən dərəcədə öz ilkin mənasını saxlayır.

Cansız əşyaları bildirən qeyri-müəyyən əvəzlik something, anything əvəzlikləridir.

Məlum olduğu kimi something bir qayda olaraq təsdiq cümlələrdə işlənir, məsələn:

I had to stay in Paris till I had achieved something (S.Maugham, 53).

Eyni zamanda qeyd etmək lazımdır ki, something əvəzliyinin işlənməsi halları yalnız təsdiq forma ilə məhdudlaşmır. Belə ki, something əvəzliyi aşağıdakı hallarda

sual və inkar cümlələrdə də işlənə bilər.

İnkar cümlələrində something o zaman işlənir ki, həmin halda bu əvəzlik öz mənasını dəqiqləşdirməyə çalışır, məsələn:

If I don't get something pretty soon, I'll go home (Sister Carrie).

Verilən mətndə something əvəzliyi a job isminin yerinə işlənir.

Sual cümləsində something əvəzliyi o zaman işlənir ki, danışan şəxs müsbət cavab alacağına əmindir, məsələn:

"Why don't you say something?" He demanded.

Is there something wrong with me?

"Will you do something for me?" asked Stroeve (S.Maugham, 129).

"Don't you want to eat something? (E.Hemingway, 56).

Something əvəzliyi ritorik sual cümlələrində də işlənə bilir, məsələn:

Is that something they taught you at law school? Forget it (Cozzens).

Something əvəzliyi intonasiya vasitəsilə düzələn sual cümləsində işlənə bilir, məsələn:

You know something? (Shute).

Bu qəbildən olan cümlələrdə də danışan şəxs müəyyən dərəcədə alacağı cavaba əmindir.

Something əvəzliyi xahiş bildirən xüsusi tipli sual cümlələrində də işlənə bilir, məsələn:

Andrew, would you do something to please me (Cronin).

Nümunələrdən göründüyü kimi, something əvəzliyi geniş işlənmə imkanlarına malikdir.

Something əvəzliyinin inkar və sual cümlələrində qarşılığı kimi anything işlənir. Bir qayda olaraq anything əvəzliyi sual və inkar cümlələrdə işlənir, məsələn:

I don't want anything.

Is there anything beet ween him Annette (J. Galsworthy).

Dirk never concealed anything.

I don't know anything about it (J. Galsworthy).

Is there anything you want? (ch. Dickens)

Don’t be cross with me. I can’t tell you anything if you talk to me like that (S.Maugham, 131).

He didn’t say anything (S.Maugham, 114).

“Has anything happened?" I asked (S.Maugham, 112).

“He might die, and not a soul would know anything about it (S. Maugham, 99).

“Is there anything in the paper?” he said (S. Maugham, 88).

Anything əvəzliyi aşağıdakı hallarda təsdiq cümlələrdə işlənir:

a) Anything əvəzliyi hər şey mənasında işlənir, məsələn:

I can explain anything to anybody; and I love doing it (B. Show).

I’ll do anything for you.

Mən sizin üçün hər şey edəcəyəm.

...she could do anything (Dreiser).

O, hər şey edə bilərdi.

b) Anything əvəzliyi bir qayda olaraq if bağlayıcısı vasitəsilə baş cümləyə bağlanan şərt budaq cümlələrində də işlənə bilir, məsələn:

If Erik was ever to do anything of impotance he would have to find a third way (Wilson).

If anything happens, ring me up immediately.

It'd break his heart, if anything happened to the mill (G. Lindsay).

If there were anything wrong, he would certainly let us know.

Verilən nümunələrdən bir daha aydındır ki, something və anything əvəzliklərinin işlənməsində vahid bir prinsipdən çıxış etmək qeyri-mümkündür.

Anything əvəzliyinin inkar formada işlənməsindən danışarkən bir məsələyə diqqət yetirmək lazımdır. Məlum olduğu kimi, ingilis dili cümlələrində inkarlıq anlayışı bir dəfə ifadə olunur. Tərkibində anything əvəzliyi olan inkar cümlələr iki modeldə özünü göstərə bilir:

There isn't anything on the table.

There is nothing on the table.

Müasir ingilis dili baxımından verilən cümlələrin hər ikisi düzgün hesab edilir. Lakin bu sahədə tədqiqat aparan İ.A.Bjilinskaya belə qənaətə gəlir ki, There isn't anything on the table tipli cümlələr müasir ingilis dili üçün səciyyəvi deyil (6,13).

Başqa bir inkar formasına nəzər salaq:

I said nothing.

I didn’t say anything.

Verilən cümlələrin mahiyyəti barədə iki fikir mövcuddur. B.İlyişə görə “He said nothing.” tipli cümlələrin işlənməsi mümkündür. Lakin onlar daha rəsmi və ciddi səslənir (12,252). İ.A. Bjilinskaya isə belə qənaətə gəlir ki, hər iki cümlə modeli müasir ingilis dilində eyni dərəcədə işlənir. (6,13)

Məlum olduğu kimi Azərbaycan dili cümlələrində inkarlıq anlayışı bir neçə dəfə ifadə oluna bilər, məsələn:

Mən heç nə demədim.

Mən heç vaxt heç nədən qorxmuram.

Belə qənaətə gəlmək olar ki, müasir ingilis dilində mövcud olan something, anything əvəzlikləri geniş işlənmə məqamlarına malikdir.

İndi isə somebody, someone və something əvəzliklərinin morfoloji əlamətlərinə nəzər salaq.

Məlum olduğu kimi somebody, someone əvəzliklərinin yiyəlik halı vardır. Yəni bu əvəzliklər isimlərdə olduğu kimi ‘s morfemini qəbul edərək yiyəlik halda işlənə bilir. Lakin əvəzliklərdə yiyəlik halın işlənməsi isimlərə nisbətən iki dəfə azlıq təşkil edir (6,14).

Dil faktlarına müraciət edək:

... and surely wanting to pull someone’s nose is a nosty tendency, isn’t dear boy.

It is a shall. I have seen one like that before. On someone’s back wall. A couch he called if (Golding).

Qeyd edilən əvəzliklərin yiyəlik halından danışarkən bir cəhət diqqəti cəlb edir. Məlum olduğu kimi qeyri-müəyyən əvəzliklər tez-tez özündən sonra else sözü qəbul edir. Belə olduqda yiyəlik hal şəkilçisi əvəzliyə yox else sözünə əlavə olunur, məsələn:

When a young boy does any damage to someone else's property, it is his father who always has to foot the bill (Morning star).

Azərbaycan dilində isə qeyd edilən əvəzliklər isim kimi hallanır.

Qeyri-müəyyən əvəzliklərin kəmiyyət kateqoriyasına münasibəti sayıla bilməyən isimlərdə olduğu kimidir. Belə ki, həmin əvəzlikləri Singularia Tantum qrupuna aid etmək olar. Lakin isimlərdən fərqli olaraq bu əvəzliklər bir qayda olaraq sayıla bilən isimlərə aid olur.

Somebody və someone əvəzlikləri feli təkdə götürməsinə baxmayaraq, onlar mənaca çoxluq ifadə edə bilir. Məhz buna görə də onları əvəz edən ikinci əvəzlik cəm formada olur, məsələn:

There is someone in his office. Do you hear them talking.

Someone - them.

Somebody must have been using my books.

They have got all misplaced on the shelf.

Somebody - they (11,282)

Somebody, someone əvəzliklərinin cins kateqoriyası yoxdur. Məhz buna görə də onları he və yaxud she əvəzliklərindən hansı ilə əvəz etmək çətinlik törədir. Qanşina və Vasilevskaya qeyd edirlər ki, somebody və someone əvəzlikləri he (his) əvəzlikləri ilə əvəz olunur (10,111), məsələn:

If anybody calls tell him to wait for me.

Somebody has taken his book.

Lakin bəzi hallarda həmin əvəzliklər həm də she ilə əvəz edilə bilər.

Qeyd etmək lazımdır ki, adi danışıqda tez-tez şəxsləri qarışdırmamaq üçün qeyri-müəyyən əvəzliklər cəm forma (they) ilə əvəz edilir, məsələn:

If anybody calls, tell them wait for me.

Everybody was in their best looks.

“Anybody can see it.”

- “They cannot!” (J. Galsworthy).

Ümumiyyətlə götürdükdə isimlərdə olduğu kimi qeyri-müəyyən əvəzliklər morfoloji baxımdan o qədər də zəngin deyil.

Çox nadir hallarda qeyri-müəyyən əvəzliklər substantivləşə bilir. Bu zaman onun qarşısında təyin və başqa bir determinativ işlənə bilir, məsələn:

Tomorrow, if Katha were willing they would clear away this mysterious something that was troubling her (Aldington).

İ.A.Bjilinskaya qeyd edir ki, belə hallara çox az təsadüf edilir (6,15).

İndi isə qeyri-müəyyən əvəzliklərin sintaktik xüsusiyyətlərinə diqqət yetirək. Məlum olduğu kimi, sintaksisin tədqiqat obyekti söz birləşməsi və cümlədir.

Əvvəlcə somebody, something, anybody, anyone, someone, anything əvəzliklərinin söz birləşmə qabiliyyətinə nəzər salaq. Dil faktlarının təhlili göstərir ki, qeyd edilən əvəzliklər sərbəst söz birləşmələrinin formalaşmasında geniş şəkildə işlənir. Bu zaman qeyri-müəyyən əvəzliklər tabelilik əsasında düzələn söz birləşməsinin aparıcı komponenti kimi çıxış edir, məsələn:

I have something to pray to then (P.Abrahams, 101).

There was something exciting happening inside him. Something new (P.Abrahams, 112).

He wanted someone, someone to talk to and langh with (P.Abrahams, 116).

I don’t see anything very amusing in that (S. Maugham, 60).

He looned at me again. His eyes had something stronge (S. Maugham, 62).

There was something impressive in the manner (S. Maugham, 89).

Verilən nümunələrdən göründüyü kimi qeyri-müəyyən əvəzlikli birləşmələrdə asılı komponent kimi əsasən sifət, məsdər və feli sifət çıxış edir. Belə birləşmələrdə fabe olan komponent qeyri-müəyyən əvəzlikdən sonra, yəni postpozitiv vəziyyətdə işlənir. İşlənən bu təyin bu və ya digər baxımdan verilən qeyri-müəyyən əvəzliyi xarakterizə edir.

Qeyd etmək lazımdır ki, tez-tez qeyri-müəyyən əvəzliklərdən sonra işlənən təyin təyin budaq cümləsi ilə ifadə olunur. Dil faktlarına müraciət edək:

I had something that responded to the reality of my world (P.Abrahams, 101).

Strickland did not speak for a long time, but his eyes shone strangely, as though he saw something that kindlel his soul to ecstasy (S. Maugham, 91).

Nümunələrdən göründüyü kimi qeyri-müəyyən əvəzliklərin mahiyyəti müəyyən dərəcədə təyin budaq cümləsi vasitəsilə konkretləşir.

Qeyri-müəyyən əvəzliklərin söz birləşmə qabiliyyətindən danışarkən bir cəhətə diqqət yetirmək lazımdır. Bu əvəzliklər tez-tez else sözü ilə birləşir, məsələn:

I must hang up now, dear. There is someone else to use the phone (Lilliput).

İ.A. Bjilinskaya isə belə qənaətə gəlir ki, else tipli birləşmələr sanki mürəkkəb sözə yaxınlaşma prosesindədir. O, bu faktı onunla izah edir ki, else tipli birləşmələrdə yiyəlik hal morfemi qeyri-müəyyən əvəzliyə yox, ancaq else sözünə birləşir (6,17), məsələn:

That is not my book. It is somebody else's.

Aparılan tədqiqat göstərir ki, qeyri-müəyyən əvəzliklər mübtəda funksiyasında ən çox there formal sözü ilə başlayan cümlələrdə işlənir. Bu da təbiidir. Belə ki, həmin cümlələr qeyri-müəyyənlik ifadə etmək xüsusiyyətinə malikdir. Bu qəbildən olan cümlələr bir qayda olaraq mövcudluq anlayışı bildirir.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**

1. Həsənov A. Azərbaycan dilində müəyyənlik və qeyri-müəyyənlik kateqoriyası. Bakı, 1970.

2. Hüseynzadə M. Müasir Azərbaycan dili. Bakı-"Maarif", 1973.

3. Musayev O.İ. Müasir Azərbaycan və müasir ingilis dillərinin morfologiyası. Ankara, 1918.

4. Müasir Azərbaycan dili, II cild, Morfologiya. Bakı, 1980.

5. Бархударов Л.С., Штелинг Д.А. Грамматика английского языка. Москва, 1977.

6. Бжилинская И.А. Сложные слова с первым компонентом some, any, no every как особая лексика- грамматическая категория в английском языке. АКД. Москва,1963

7. Иванова И. П... Теоретическая грамматика современного английского языка. Москва, 1981.

8. Галкина-Федорук Е.М. Выражение неопределенности в русском языке неопределенными местоимениями и наречиями. Москва, МГУ, 1963.

9. В. Селиверстова О. Н. Местоимения с -one и body. В кн.: Местоимения в языке и в речи. Москва, 1988.

10. Шапкин А.П. Много значимость субстантивных местоимений some и any в английском языке XX века. - АКД, Москва, 1963.

*Həşimova Günay Qnyaz qızı,*
*doktorant,*
*Bakı Biznes Universiteti,*
*E-mail: gunay.hesimova07@gmail.com*

# KİÇİK VƏ ORTA SAHİBKARLIQ SUBYEKTLƏRİ - YAŞIL VƏ İNKLÜZİV İQTİSADİYYATIN ƏSAS İŞTİRAKÇILARI KİMİ

Yaşıl KOS-ların iki əsas xüsusiyyəti texno-kommersiya potensialından ehtiyatlı istifadə və qurulmuş müəssisələr tərəfindən tez-tez göz ardı edilən biznes modellərinin yenilənməsi olmuşdur. Yaşıl iqtisadiyyata keçid eko-dizayn, yaşıl memarlıq, bərpa olunan enerji, enerji səmərəliliyi və davamlılıq kimi müxtəlif sahələrdə KOS-lar tərəfindən idarə olunur. Yaşıl KOS-ların istehsal, texnologiya və idarəetmə strategiyalarından istifadə yaşıl iqtisadiyyata aparan yoldur.

Hazırda istər yerli, istərsə də xarici ekspertlər hesab edirlər ki, ölkəmizin COP29-a ev sahibliyi etməsi ilin ən əlamətdar tarixi hadisəsi və respublikamızın "yaşıl iqtisadiyyat"a keçid strategiyasının məntiqi davamıdır. Bundan başqa, ölkəmiz Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən 2024-cü ili "Yaşıl dünya üçün həmrəylik ili" elan edib. Onun bəyannaməsi bu məqsədə verilən önəmin təsdiqi kimi şərh olunur.

Azərbaycan COP29-a ev sahibliyi etməyi öhdəsinə götürüb ki, bu, həm müsbət ətraf mühitin dəyişməsi baxımından ona nümunə göstərməyə kömək edəcək, həm də qlobal birliyə əhəmiyyətli töhfə verəcək əhəmiyyətli bir təşəbbüsdür. Başqa sözlə, respublikamız öz faktiki fəaliyyəti ilə artıq yeni müstəvidə "yaşıl enerji" iqtisadiyyatının qurulmasını seçmişdir. Nəticədə ölkəmiz 1990-cı ildəki istixana qazı emissiyalarını 2030-cu ilə qədər 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaltmağı qarşısına məqsəd qoyub.[2]

Əlavə olaraq qeyd edə bilərik ki, "Yaşıl layihələr" Sahibkarlığın İnkişafı Fondunun güzəştli kreditləşmə mexanizminin 2024-cü il üçün müəyyən etdiyi prioritet mövzulardan biridir. "Yaşıl layihələr" məhsulun inkişafı zamanı istixana qazı emissiyalarını azaltmağa, bərpa olunan enerjidən istifadəni artırmağa və ya inkişaf etdirməyə çalışan biznes cəhdləridir. Bərpa olunan enerji, tullantıların idarə edilməsi, təkrar emalı, suya qənaət, nəqliyyat və davamlı mobillik, davamlı kənd təsərrüfatı və dairəvi iqtisadiyyat sahəsində təşəbbüslər bu cür proqramların bir neçə nümunəsidir. Enerji səmərəliliyi bu sahələrdən biridir. Bu təşəbbüslər üçün sahibkarlar Sahibkarlığın İnkişafı Fondundan güzəştli kreditlərdən yararlana bilərlər. Eyni zamanda, hazırda Sahibkarlığın İnkişafı Fondu kənd təsərrüfatı məhsullarının emalı ilə məşğul olan sahibkarlara güzəştli kreditlərin verilməsini təşviq etmək, habelə bu sahədə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə güzəştli kreditlərin verilməsini təşviq etmək məqsədilə təsdiq edilmiş kredit təşkilatlarının nümayəndələri arasında "Sənaye və Yaşıl Layihələrə Dəstək" adlı müsabiqə təşkil edir. [1]

Yaşıl sənayeləşmənin aşağıdakı kateqoriyaları mövcuddur:

*Cədvəl 1.*

**Yaşıl iqtisadiyyatın kateqoriyaları**

| Ətraf-mühitin mühafizəsi | Resursların idarə olunması |
|---|---|
| Atmosfer havasının qorunması | Su idarəçiliyi |
| İqlimin qorunması | Meşə ehtiyatlarının idarə edilməsi |
| Çirkab suların idarə edilməsi | Flora və faunanın idarə edilməsi |
| Tullantıların idarə olunması | Enerji menecmenti |
| Səs-küyün və vibrasiyanın azaldılması | Mineralların idarə edilməsi |
| Biomüxtəlifliyin və landşaftın mühafizəsi | Eko tikinti |
| Radiasiyadan qorunma | Təbii ehtiyatların idarə edilməsi fəaliyyəti |
| Torpağın, yeraltı və yerüstü suların mühafizəsi | Ekoturizm |
| Ətraf Mühitin Monitorinqi və Alətləri | Üzvi kənd təsərrüfatı |
| Tədqiqat və inkişaf | Tədqiqat və inkişaf |

Yaşıl sahibkarın əsas məqsədləri biznes imkanlarından yararlanmaq və ekoloji davamlılığı inkişaf etdirməkdir. Yaşıl şirkət qurulmuş bazarlarda rəqabət aparır, yeni bazar seqmentlərini inkişaf etdirir və yaradıcı həllərin tətbiqinə kömək edir. Ekoloji göstəriciləri bazar məqsədləri və maliyyə nəticələri ilə birləşdirdikləri üçün yaşıl sahibkarlar başqalarına nümunə olur və yaşıl bazarların böyüməsinə kömək edirlər.

Kiçik firmaların ənənəvi olaraq çiçəkləndiyi tanınmış sənayelərdən bəzilərinə tullantıların toplanması və təkrar emalı, ağıllı ölçmə, binanın təkmilləşdirilməsi, hibrid avtomobillər və bərpa olunan enerji istehsalı (günəş, külək və biokütlə) daxildir.

Böyük korporasiyalar adətən yaxşı qurulmuş yaşıl sənaye sahələrində (belə tullantıların idarə olunması və çirkab suların təmizlənməsi) üstünlüyə malikdirlər, lakin KOS-lar və startaplar qabaqcıl prosedurlar və çərçivələr hazırlaya bilsələr, yenə də öz izlərini qoya bilərlər. KOS-ların yaşıl iqtisadiyyata cəlb edilməsi üçün əlavə cəlbedici üsul onların mövcud təcrübələrini daha ekoloji cəhətdən təmiz olmaq üçün dəyişdirməkdir.

Gözləniləndən daha yavaş olsa da, inkişaf etməkdə olan ölkələrdə yaşıl KOS-ların sayı ardıcıl olaraq artmaqdadır. Əsas maneələrdən biri də yaxşı düşünülməmiş qaydalar olub. Yaşıl KOS-ların inkişafı və rəqabətqabiliyyətliliyi aydın siyasət istiqamətinin və imkanların olmaması səbəbindən əngəllənir. Rəqabətə mane olan məhsul bazarı ilə bağlı qaydalar enerji, davamlılıq, ətraf mühit və bərpa olunan enerji sənayeləri ilə məşğul olan KOS-lar üçün ciddi problem yaradır.

Məsələn, yaxın şərqdə dövlətə məxsus müəssisələr faktiki olaraq yalnız əsas ekoloji xidmətlərə (məsələn, su və tullantıların idarə olunması sektorları) və ya əhəmiyyətli ekoloji təsirləri olan şəbəkə sənayelərinə (elektrik və enerji sektorları kimi) nəzarət edirlər.

Kiçik müəssisələrin böyüməsini və uğurunu dəstəkləmək və beləliklə, yaşıl iqtisadiyyata davamlı keçidi sürətləndirmək üçün inkişaf etməkdə olan ölkələrin KOS sektorlarını yenidən strukturlaşdırmaları zəruridir. İnkişaf etməkdə olan ölkələrdə sənaye obyektlərinin və iş yerlərinin böyük əksəriyyəti KOS-lara məxsusdur. Sözsüz ki, KOS-ların iştirakı aşağı karbonlu iqtisadiyyata keçid üçün çox vacibdir, korporativ sektorun yaşıllaşmağa və bütün sənaye sektorlarında yaşıl bacarıqların inkişafı üçün qapı açır.

Yaşıl KOS-ların genişləndirilməsi üçün güclü dövlət yardımı lazımdır, lakin təəssüf ki, bu dəstək inkişaf etməkdə olan ölkələrdə çox vaxt çatışmır. Ən aktual iki məsələ:

1. Bazar tələbləri ilə təhsil səviyyəsi arasında artan uçurum;

2. Eləcə də tədqiqat və inkişaf etdirmə cəmiyyətinin sənaye prioritetləri və tendensiyaları ilə uyğunsuzluğudur.

Bütün sənaye sektorlarında yaşıl inkişaf üçün daha sadələşdirilmiş prioritetləri təşviq etmək üçün QHT-lər, sənaye qrupları və hökumət qurumları tərəfindən daha çox iş görülməlidir. Ətraf mühitə uyğun biznes modelləri və regional uyğun texnologiyaların yaradılmasında mühüm rol oynamasına baxmayaraq, yaşıl KOS-lar ciddi giriş məhdudiyyətləri ilə üzləşirlər.

Ümumiyyətlə, kiçik müəssisələr dünyanın mühərrikidir. Kiçik və orta biznes (KOB) Avropa İttifaqında bütün müəssisələrin 99%-ni təşkil edir, lakin onlar inkişaf etməkdə olan iqtisadiyyatlarda orta hesabla iş yerlərinin 60%-ni və ÜDM-in 40%-ni yaradırlar (və qeyri-rəsmi bazarlar nəzərə alındıqda daha çox). Buna görə də kiçik biznesə dəstək yaşıl iqtisadiyyat üçün vacibdir və bütün ölçülü bizneslərə yaşıl təcrübələri mənimsəməyə imkan verir. İnkişaf etmiş və etməkdə olan hər bir ölkənin yaşıl kiçik müəssisələri dəstəkləyən tamamilə fərqli milli siyasətləri var; həm model siyasətlər, həm də siyasi yardımın tam olmaması nümayiş etdirilir. Bu fərq həmişə hökumətin dövlət və ya özəl sektorun həlləri üçün daha geniş üstünlüklərinə uyğun gəlmir. Əksinə, ekoloji cəhətdən şüurlu kiçik müəssisələr üçün möhkəm dəstək ənənəvi şimal-cənub, özəl-dövlət inkişaf çərçivələrini aşır və müəyyən təəccüblü nəticələr verir. [3]

Kiçik startapların çevik, ixtiraçı və təşəbbüskar təbiəti gələcəyin biznes modellərini və texnologiyalarını yaratmaq üçün tələb olunan şeydir. Bununla belə, onların bəzən daha sıx büdcələri və daha az resursları olduğundan, kiçik müəssisələr üçün yeni ekoloji qanunlara riayət etmək xüsusilə çətin ola bilər. Kiçik biznes iqtisadiyyatının yaşıllaşdırılması, qurulmuş KOB-ların ekoloji cəhətdən daha şüurlu olmasına kömək etməklə yanaşı, liderlərə yenilik etmək azadlığını da verir.

Son illərdə sosial sahibkarlığın əhəmiyyəti, xüsusən də maliyyə, ekoloji və sosial fayda əldə etməyi hədəfləyən şirkətlər üçün artır. Hökumətlər üçün əsl çətinlik kiçik və sosial şüurlu bizneslər üçün müvafiq qanunvericilik bazaları, maliyyə stimulları və tənzimləyici dəstək yaratmaqdır. KOS-lar, yaşıl olmağa çalışsalar belə, yaşıl müəssisələr üçün mövcud olan ən zəif siyasətlərdən heç bir yardım almırlar. Əsas strategiyalar kiçik biznes üçün geniş dəstəyə və yaşıllaşmağa əlavə yardıma, ola bilsin ki, məhdudlaşdırılmış tənzimləyici istisnalar və ya təlimlər şəklində əlavə yardıma işarə edir. Sosial sahibkarlığın güclü qanunvericilik tərifləri və üçlü gəlirli şirkətlərə dəstək daha yaxşı siyasətlərin xüsusiyyətləridir. Bunlardan ən iddialısı davamlı təcrübələr və yaşıl biznes modelləri üçün maliyyə dəstəyini əhatə edir.

**Nəticə**

Ətraf mühitin mühafizəsi yaşıl sahibkarların qayğısına qaldığı tək şey deyil. Onlar həm də iqtisadi cəhətdən əlverişli dünya qurmaq istəyirlər. Eyni zamanda ətraf mühitə mənfi təsirlərini azaltmaq və yaşadıqları cəmiyyətdə həyat səviyyəsini yüksəltmək üçün biznes planları yaradır, prosesdə "davamlılıq" ideyasını vurğulayırlar. Ekoturizm, təkrar emal, enerjiyə qənaət, ekoloji cəhətdən təmiz nəqliyyat, üzvi əkinçilik və bərpa olunan enerji mənbələri fəaliyyətlər arasındadır. Bilik mübadiləsi, ətraf mühit haqqında məlumatlılığın artırılması, təkmilləşdirilmiş maliyyə dəstəyi, bacarıqların formalaşdırılması və inkişafına dəstək, bazara çıxışın yaxşılaşdırılması kimi əsas maneələri

aradan qaldırmaq üçün inkişaf etməkdə olan ölkələrdə yaşıl KOS-ları dəstəkləmək üçün siyasi müdaxilələrin həyata keçirilməsi və yaşıl vergilərin tətbiq olunması çox vacibdir. İnkişaf etməkdə olan dünyada son onilliklərdə sahibkarlığın kəskin yüksəlişi müşahidə olunur. Bu artım ekoloji məhdudiyyətləri kommersiya imkanlarına çevirmək üçün tullantıların idarə olunması, enerji, su və ətraf mühitlə bağlı problemlərin həllinə yönəldilməlidir.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**


1. Sahibkarlığın İnkişafı Fondu (edf.gov.az)
2. "Yaşıl" iqtisadiyyat (economy.gov.az)
3. http://www.greengrowthknowledge.org/sites/default/files/downloads/resource/Enabling%20Environments%20for%20Green%20SMEs.pdf
4. Working towards a Balanced and Inclusive Green Economy: A United Nations System-wide Perspective. 2011, United Nations, 30-31 pg.



*Ahmedli Turan Maharrambay Nadir,*
*Ph.D. Student,*
*Artvin Choruh University,*
*E-mail: muharrrembeyturan@gmail.com*


## CONCEPT OF GREEN ECONOMY

A green economy is defined as low carbon, resource efficient and socially inclusive economy. In a green economy, growth in employment and income are driven by public and private investment into such economic activities, infrastructure and assets that allow reduced carbon emissions and pollution, enhanced energy and resource efficiency, and prevention of the loss of biodiversity and ecosystem services. (UNEP, 2022b)

The green economy was created as an alternative to today's dominant economic model, which increases inequalities, encourages waste, triggers resource shortages and poses widespread threats to the environment and human health. The green economy aims at low carbon levels, efficient use of resources and being socially inclusive. The green economy requires investments to be enabled and supported through targeted public spending, policy reforms, changes in taxation and regulation. The green economy takes a macroeconomic approach to sustainable economic growth by focusing on investment, capital and infrastructure, employment and skills, and positive social and environmental outcomes. (UNEP, 2022a, 2022c)

The realization of the green economy is a multi-actor process and includes governments, non-governmental organizations, associations, private sector and local governments. The green economy, which has begun to be adopted in many developed countries of the world, brings an alternative to the existing economic system and

makes cities more livable and sustainable. (UNEP, 2022a, 2022c)

The green economy brings macro-economic approaches to sustainable economic growth through regional, sub-regional and national forums. It focuses on green finance, technology and access to investments. It argues that countries should be supported in terms of developing and disseminating macroeconomic policies to support transition to the green economy. (UNEP, 2022b)

The Green Economy Coalition defines the 5 principles of the green economy as follows: Principle of Welfare: All people can create and use their welfare in a green economic system. The green economy puts people at its center. It aims at creating real prosperity and increasing wealth supporting well-being. The wealth in green economy includes human, social, physical and natural capital besides financial capital. Access to sustainable natural systems, infrastructure, knowledge and education essential to the well-being of all people is a priority for the green economy. Green economy provides new opportunities for businesses and individuals by creating green livelihoods. It is a system for the benefit of the public, but it does not neglect the benefit of the individual.

Principle of Justice: Equality within and between generations is provided in a green economic system. The green economy is an inclusive economic model. It promotes decision-making, fair distribution of benefits and costs, and empowerment of women. It reduces inequalities between people, tries to cope with poverty and injustice. The green economy protects all human's rights including workers, indigenous ones and minorities by strengthening solidarity, social justice, trust and social ties. Strengthening social enterprises and sustainable livelihoods is promoted in the green economy.

Principle of Planetary Borders: Nature is protected, restored and invested in green economic systems. The green economy prevents the loss of critical natural capital and the violation of ecological boundaries. It is an innovative system that invests in protecting, growing and restoring biodiversity, soil, water, air and natural systems. Principle of Efficiency and Sufficiency: Sustainable production and consumption are supported in the green economy. Being low-carbon, using resources efficiently, being diverse and circular are the characteristics of an inclusive green economy. It adopts new models of economic development that address the problem of creating prosperity within planetary boundaries. According to the green economy, if we stay within planetary boundaries, a significant global shift is required to limit the consumption of natural resources to physically sustainable levels.

Principle of Good Governance: The green economy includes and is governed by integrated, accountable and flexible institutions. It is an interdisciplinary economic system with multiple actors. It is a transparent, democratically accountable, free and inclusive economic system that requires public participation. It was established to serve the benefits of society in a secure manner. It creates a new financial system to ensure prosperity and sustainability. The green economy is universal, transformative and innovative. It requires radical changes in government structures. (Green Economy Coalition, 2020)

In recent years, people's perspectives on environmental issues have been changing, and depending on the conditions, environmental concerns can sometimes overtake economic concerns. This subject was addressed in a study by Bolderdijk, Geller, Steg and Postmes in 2012. In the study, it was stated that people feel better if they are green and environmentalist. It was proven that people may feel better about complying with biospheric appeals rather than economic appeals. However, authors state that participants generally feel better about biospheric appeals than economic appeals but this attitude may vary depending on differences such as cultural background and ideology. (Bolderdjik et al., 2012)

In addition to cultural background and ideology, economic and financial conditions can affect people to make their choice between economy and environment. In developing countries such as Turkey or in underdeveloped countries, economic choices can override environmental choices. For example, inflation rates in Turkey are increasing day by day and the purchasing power of the people is decreasing gradually. In such an environment, it is not possible for people to prefer environmentally friendly but more expensive products to cheaper ones. In this case, economic concerns take precedence over environmental concerns. Eco-friendly products and services are generally more expensive than non-eco-friendly ones. In order for a green product to be preferred by people with poor economic status, the prices of green products and non-green products should be equal.

In today's world, where people start to demand green products and companies start to make their production processes more sustainable and produce green products in response to this demand, it should not be necessary to have a certain financial competence to be more environmentally friendly. Increasing the number of green businesses, companies and entrepreneurs will accelerate the process of solving this problem and increase awareness. As the public's demand to be green increases, the supply of companies to be green will also increase, so the economic balances will change in a way that will bring the non-green product and the green product to the same level.

According to a global survey of 30,000 consumers in 2018, 62% of consumers want companies to be sustainable, transparent and fair (Barton et al., 2018). This attitude of consumers and some legal sanctions such as the Paris Agreement will require companies to adopt more sustainable and green methods in the coming years. Companies that don’t take this action will have to pay costs such as legal sanctions and customer losses. Unfortunately, the adoption of greener processes by companies sometimes does not take place in real terms. Although some companies claim that they are on the way to being greener and more sustainable, and they organize advertising campaigns in this direction, their contribution to the environment is not always materialized. This situation is referred to as ‘greenwashing’ in the literature. According to Cambridge Dictionary’s definition, greenwashing means “behaviour or activities that make people believe that a company is doing more to protect the environment than it really is” (Cambridge University Press, 2022).

A few examples of greenwashing can be listed as follows. Fiji Water claimed

that it would help consumers who buy bottled water to reduce carbon emissions released into the environment, but it filled the water in plastic bottles, the bottles met with customers after traveling many kilometers and creating a large carbon footprint. McDonalds changed the color of its logo from yellow and red to yellow and green in 2009 and claimed that this change was done to show that it conserves natural resources but in fact, it did not make any changes in its production processes to protect the environment. Lexus has claimed that its new hybrid cars produce the lowest carbon emissions in its class, but actually it turned out to have the worst fuel economy compared to other hybrid cars, even non-hybrids. (Potamya, 2022)

It can be difficult for customers to understand whether companies do greenwashing. One of the most negative things about greenwashing is that there isn't any international measurement mechanism on this issue. It is sometimes unclear whether a company is doing greenwashing or truly promising environmental benefits. Companies which do greenwashing undermine customers' trust by making unrealistic environmental promises. They can adversely affect people's motivation to combat climate crisis and environmental problems.

The transition to a real green economy with the challenges and threats mentioned above is not an easy process, but a transition to a new economic system is needed in order to realize the SDGs set by the UN. The green economy contributes to the realization of all SDGs but the most related SDGs with the green economy are Goal 1 No Poverty; Goal 8 Decent Work and Economic Growth; Goal 9 Industry, Innovation and Infrastructure; Goal 11 Sustainable Cities and Communities and Goal 12 Sustainable Consumption and Production (UNEP, 2022a).

**References:**


1. UNEP; United Nations Environment Programme. (2022a). About green economy. Retrieved March 26, 2022 from https://www.unep.org/exploretopics/green-economy/about-green-economy
2. Potamya. (2022). Greenwashing: Yeşil Aklama Nedir? Retrieved from April 12, 2022 https://potamya.co/iyi-yasam/greenwashing-yesil-aklama-nedir/
3. Cambridge University Press. (2022). Greenwashing. Retrieved April 9, 2022 from Cambridge Dictionary: https://dictionary.cambridge.org/ tr/s%C3%B6zl%C3%BCk/Ingilizce/greenwashing
4. Barton, R., Ishikawa, M., Quiring, K., & Theofilou, B. (2018). To Affinity and Beyond From Me to We The Rise of the Purpose - Led Brand.
5. UNEP; United Nations Environment Programme. (2022b). Green Economy.
Retrieved March 26, 2022 from https://www.unep.org/regions/asiaand-pacific/regional-initiatives/supporting-resource-efficiency/greeneconomy
6. UNEP; United Nations Environment Programme. (2022c). What is an Inclusive Green Economy. Retrieved March 26, 2022 from https://www.unep.org/explore-topics/green-economy/why-does-greeneconomy-matter/what-inclusive-green-economy

*Ağagülov Amin Rövşən oğlu,*
*dissertant,*
*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi*
*İqtisadiyyat İnstitutu*

# BİZNES RİSKLƏRİNİN İDARƏ OLUNMASI PROBLEMLƏRİ

Biznes riskləri şirkətin maliyyə vəziyyətinə, əməliyyat fəaliyyətinə və ya reputasiyasına təsir edə biləcək mənfi hadisələrin və ya halların baş vermə ehtimalını təmsil edir. Risklər ümumən istənilən sahibkarlıq prosesinin ayrılmaz hissəsidir və müxtəlif mənbələrdən yarana bilər. Daha geniş aspektdə biznes risklərinin yaranmasının xarakteristikasını nəzərdən keçirtdikdə bir sıra ümumi müddəalara gəlmək olur. İlk olaraq biznes risklərinin yaranmasında xarici amillərin rolunu qeyd etmək lazımdır. Xarici amillər: bunlar şirkətin nəzarətindən kənar, lakin fəaliyyətinə təsir göstərən amillərdir. Xarici risklər arasında iqtisadi böhranlar, qanunvericilik dəyişiklikləri, siyasi qeyri-sabitlik, təbii fəlakətlər və bazar dəyişiklikləri ola bilər. Bu kontekstdə xarici amillər bir şirkətin birbaşa nəzarəti xaricində olan, lakin fəaliyyətinə, nəticələrinə və inkişaf strategiyalarına əhəmiyyətli dərəcədə təsir göstərə biləcək geniş xarici şərtləri və hadisələri əhatə edir. Bu amillər biznes üçün həm imkanlar, həm də təhdidlər yarada bilər. Aşağıdakı aspektlər daxil olmaqla daha geniş xarici amilləri nəzərdən keçirmək olar:

- İqtisadi şərtlər: iqtisadiyyatın böyüməsi və ya azalması, inflyasiya, faiz dərəcələri, işsizlik nisbəti, valyuta dəyişikliyi və ticarət balansı kimi iqtisadi amillər bir şirkətin maliyyə gücünə və inkişaf imkanlarına əhəmiyyətli dərəcədə təsir göstərə bilər.
- Siyasi və hüquqi amillər: siyasi mühitdəki dəyişikliklər, hökumətin sabitliyi, vergi siyasəti, sənaye tənzimlənməsi və xarici siyasət biznesə təsir göstərə və yeni risklər, imkanlar yarada bilər.
- Sosial-mədəni amillər: bu amillər arasında demoqrafik dəyişikliklər, istehlakçıların zövq və üstünlüklərindəki dəyişikliklər, sosial meyillər və şirkətin mal və xidmətlərinə olan tələbə təsir edə biləcək ictimai gözləntilər vardır.
- Texnoloji dəyişikliklər: texnologiyanın sürətli inkişafı və biznesin rəqəmsallaşdırılması şirkətlər üçün həm yeni imkanlar, həm də təhdidlər yaradır. Texnoloji mənzərədəki dəyişikliklər avadanlıq və proseslərin yenilənməsinə əhəmiyyətli investisiyalar tələb edə bilər ki, bu da məhsul və xidmətlərin köhnəlməsinə səbəb olur.
- Təbii və ekoloji amillər: iqlim dəyişikliyi, Təbii fəlakətlər və ətraf mühitin qorunması və davamlı inkişaf tələbləri istehsal proseslərinə, xammal tədarükünə və hətta logistikaya təsir göstərə bilər.
- Geosiyasi risklər: müxtəlif geosiyasi münaqişələr, terror təhdidləri, beynəlxalq sanksiyalar və ticarət müharibələri, xüsusən də beynəlxalq bazarda fəaliyyət göstərən şirkətlər üçün qeyri-müəyyənlik və iş riskləri yaradır.
- Rəqabət mühiti: rəqiblərin hərəkətləri, bazarda yeni oyunçular, strateji birləşmə və satınalmalar və istehlakçı seçimlərindəki dəyişikliklər rəqabət riskləri yarada və bazardakı oyun şərtlərini dəyişdirə bilmək gücünə malikdir.
- Xarici amillərin müəyyənləşdirilməsi və təhlili strateji risklərin idarə edilməsində vacib bir addımdır və şirkətlərə dəyişən şərtlərə uyğunlaşmağa və iş strategiyası

hazırlayarkən onları nəzərə almağa imkan verir.

Daxili amillər: bunlar şirkətin daxili fəaliyyəti və idarə olunması ilə əlaqəli risklərdir. Bunlara idarəetmə səhvləri, maliyyə problemləri, səmərəsiz iş prosesləri, təşkilat daxilindəki münaqişələr və s. Bir iş kontekstində daxili amillər bir şirkətin fəaliyyətinin nəzarəti altında olan, lakin müvəffəqiyyəti və inkişafı üçün risk yarada biləcək müxtəlif aspektlərini əhatə edir. Bu amillər şirkətin ən daxili quruluşu, mədəniyyəti və rəhbərliyindən irəli gəlir. Daha geniş daxili risk faktorları üçün aşağıdakıları nəzərə almaq lazımdır:

- İdarəetmə riskləri: bura strateji planlaşdırma, qərar qəbul etmə, rəhbərlik və nəzarətdəki səhvlər və çatışmazlıqlar daxildir. Bazarın qeyri-kafi anlaşılması, resursların düzgün bölüşdürülməməsi, kadr motivasiyasının olmaması və digər problemlər səmərəsiz idarəetməyə və rəqabət qabiliyyətinin itirilməsinə səbəb olur.
- Təşkilati risklər: şirkətin daxili strukturlarının, proseslərinin və prosedurlarının çatışmazlıqları səbəbindən yaranır. Təşkilati strukturun mükəmməl olmaması, şöbələr arasında koordinasiyanın olmaması, ünsiyyətin olmaması və məlumatların idarə edilməsi şirkətin səmərəli fəaliyyətinə ciddi maneələr yarada bilər.
- Texnoloji risklər: texnologiyaların qeyri-kafi tətbiqi və ya köhnəlməsi, informasiya təhlükəsizliyi problemləri, İT infrastrukturunun olmaması və s. texnologiyanın düzgün istifadə edilməməsi və ya olmaması rəqabət qabiliyyətinin itirilməsinə və qaçırılmış imkanlara səbəb olur.
- Kadr riskləri: kadr idarəçiliyindəki problemlər, qeyri-kafi ixtisaslar, kadr dəyişikliyi, iş yerindəki münaqişələr və insan amilinin digər aspektləri ilə əlaqələndirilir. İstedad çatışmazlığı, işçilərin narazılığı və səhv motivasiya şirkətin fəaliyyətinə və uğuruna mənfi təsir göstərə bilər.

Daxili risklərin müəyyənləşdirilməsi və təhlili şirkətlərə fəaliyyətlərinin zəif tərəflərini müəyyənləşdirməyə və onları idarə etmək və minimuma endirmək üçün tədbirlər görməyə imkan verir. Daxili risk faktorlarının effektiv idarə edilməsi şirkətin səmərəliliyini, davamlılığını və rəqabət qabiliyyətini artırır.

Maliyyə riskləri: bunlar kredit riski (kreditlərin qaytarılmaması), bazar riski (aktiv və istiqraz qiymətlərindəki dəyişikliklər), ləğvetmə riski (aktivləri istənilən qiymətə sata bilməmək) və s. kimi şirkətin maliyyə əməliyyatları ilə əlaqəli risklərdir. Maliyyə riskləri şirkətin maliyyə vəziyyətinə və fəaliyyətinə təsir göstərə biləcək mənfi hadisələrin və ya halların baş vermə ehtimalını ehtiva edir [1, 105, 108]. Bunlar maliyyə əməliyyatları ilə əlaqədardır və şirkətin maliyyə sağlamlığı və davamlılığı üçün potensial təhdidləri qiymətləndirir. Daha geniş maliyyə risklərini nəzərdən keçirsək, aşağıdakıları qeyd edə bilərik:

- Kredit riski: bu, kreditlə verilən vəsaitin geri qaytarılmaması və ya borcun ödənilməsi üzrə öhdəliklərin yerinə yetirilməməsi riskidir. Kredit riski həm borcalanlarda (korporativ və ya pərakəndə), həm də iş əməliyyatları apararkən yaranır.
- Bazar riskləri: maliyyə alətlərinin (səhmlər, istiqrazlar), mal və xidmətlərin qiymətlərindəki dəyişikliklər, valyuta məzənnələri, faiz dərəcələri və xammal qiymətlərindəki dəyişikliklər daxildir. Bazar riskləri bir şirkətin aktivlərinin dəyərinə və maliyyə nəticələrinə təsir göstərə biləcək dərəcədə olur.
- Ləğvetmə riski: bu, zəruri hallarda şirkətin aktivlərini istənilən qiymətə sata bilməmək riskidir. Ləğvetmə riski, şirkətin qısa müddətdə aktiv satış problemi ilə

üzləşə biləcəyi investisiya portfelləri üçün xüsusilə aktualdır.

- Faiz riski: borc kapitalı xərclərini, maliyyə xərclərini və şirkətin investisiya gəlirlərini təsir edə biləcək faiz dərəcələrindəki dəyişikliklərlə əlaqələndirilir. Faiz riski xüsusilə böyük borc öhdəlikləri olan şirkətlər üçün əhəmiyyətlidir.

- Qarşı tərəf riski: bu, şirkətin qarşı tərəflərinin, o cümlədən tədarükçülərin, alıcıların və tərəfdaşların müflisləşməsi və ya səhv hərəkətləri səbəbindən itki riskidir.

- Əməliyyat maliyyə riskləri: maliyyə axınının idarə edilməsi, likvidlik, nağd pul dövriyyəsi və kapitalın idarə edilməsi ilə bağlı riskləri əhatə edir. Əməliyyat maliyyə riskləri maliyyə planlaşdırmasında səhvlər, debitor və debitor borclarının səmərəsiz idarə edilməsi və xərclərə nəzarətin olmaması səbəbindən yarana bilər.

Əməliyyat riskləri isə şirkətin gündəlik fəaliyyəti ilə əlaqədardır və qeyri-kafi proses səmərəliliyi, texniki nasazlıqlar, insan amili, qanunvericilikdəki dəyişikliklər və digər amillər səbəbindən yarana bilər. Bu risklər, həmçinin şirkətin gündəlik əməliyyat fəaliyyətində mənfi hadisələrin və ya problemlərin baş vermə ehtimalını ehtiva edir ki, bu da maliyyə itkisinə, nüfuzuna xələl gətirə və ya iş proseslərinin pozulmasına səbəb ola bilər. Bu risklər təşkilatın fəaliyyətinin müxtəlif aspektlərində özünü göstərə bilər və mümkün təhdidlərin geniş spektrini əhatə edir. Əməliyyat risklərinin daha geniş aspektini aşağıdakı kimi verə bilərik:

- Qeyri-kafi proses səmərəliliyi: əməliyyat riskləri iş proseslərinin səmərəsizliyi, optimal olmayan resurs idarəçiliyi, istehsal proseslərinin keyfiyyət standartlarına və ya tənzimləmə tələblərinə uyğun gəlməməsi səbəbindən yaranır.

- Texniki və avadanlıq nasazlıqları: avadanlıq, proqram təminatı və ya informasiya sistemlərindəki nasazlıqlar istehsal prosesində fasilələrə, məlumatların itirilməsinə və əlavə təmir xərclərini özündə birləşdirir.

- İnsan amili: işçilərin səhvləri, işçilərin təlim və ya motivasiyasının olmaması, iş yerindəki qarşıdurmalar və ya saxtakarlığı şirkət üçün əməliyyat risklərini ehtiva edir.

- Qanunvericilik və tənzimləmə dəyişiklikləri: yeni qanunlar, qaydalar və ya qanuni tələblərdəki dəyişikliklər şirkətdən iş proseslərindəki dəyişiklikləri, əlavə uyğunluq xərclərini tələb edə bilər və ya hətta uyğunsuzluq cəzalarına səbəb ola bilər.

- Təchizat qeyri-sabitliyi: xammal, omponentlər və ya digər zəruri materialların tədarükü ilə bağlı problemlər istehsal prosesində fasilələrə, istehsal həcminin azalmasına və sifarişlərin vaxtında yerinə yetirilməməsi səbəbindən müştəri itkisinə səbəb ola bilər.

- Təbii fəlakətlər və fövqəladə hallar: yanğınlar, daşqınlar, zəlzələlər və digər təbii fəlakətlər və digər fövqəladə hallar şirkətin avadanlıqlarına, istehsal sahələrinə və ya infrastrukturuna zərər verməklə işin normal fəaliyyətini poza bilər.

Əməliyyat risklərinin effektiv idarə edilməsi bu risklərin biznesə təsirini minimuma endirmək üçün onların identifikasiyası, qiymətləndirilməsi, idarə edilməsi və monitorinqini əhatə edir. Buraya keyfiyyət standartlarının tətbiqi, müntəzəm kadr hazırlığı, fövqəladə hallar üçün iş planlarının hazırlanması, ehtiyat planların yaradılması və s. daxildir.

Biznes risklərinin idarə olunması prosesində ciddi risklərdən biri də strateji risklər hesab olunur. Strateji risklər-səhv strateji qərarlar və ya zəif planlaşdırma ilə əlaqəli risklərdir. Bunlara yeni bir məhsulun təqdimatı, yeni bazarlara genişlənməsi, birləşmə və satınalmalar və s. ilə əlaqəli risklər daxil ola bilər. Həmçinin reputasiya riskləri də

ciddi maneə kimi biznes fəaliyyətində ortaya çıxır [3, 15-16]. Bu risklər daha çox mənfi hadisələr, qalmaqallar, qanunvericiliyə əməl edilməməsi, məhsul və ya xidmətlərin keyfiyyətinin aşağı olması, işçilərin ləyaqətsiz davranışı və s. səbəbindən şirkətin nüfuzunun pisləşməsi ilə əlaqəli risklərdir.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**

1. Philips X. Girling. "Operational Risk Management: A Complete Guide to a Successful Operational Risk Framework" 2018. P.250.

2. Ron S. Kennett, Yossi Raanan. "Operational Risk Management: A Practical Approach to Intelligent Data Analysis" 2015. P.350.

3. Ellen Davis. "Operational Risk Management: A Review" 2019. P.30

4. George E. Rejda и Michael McNamara. "Principles of Risk Management and Insurance". 2020. P.700.

*Musayev Xəzər Akif oğlu,*
*doktorant,*
*Azərbaycan Turizm və Menecment Universiteti*

## ÖLKƏNİN İQTİSADİ İNKİŞAFINDA TİKİNTİ SAHƏSİNİN ROLU

Tikinti sənayesi inkişaf etməkdə olan ölkələrin sosial-iqtisadi inkişafında çox mühüm rol oynayır və insanların infrastruktur obyektlərinə, mənzilə, ticarət obyektlərinə, tarixi və mədəni tikililərə və sair olan tələbatını ödəyir.

Azərbaycanın iqtisadi inkişafında da tikinti sahəsinin rolu danılmazdır. İqtisadiyyatımıza yeni iş yerlərinin açılması, iqtisadi artım, infrastrukturun inkişafı, əhalinin mənzillə təmin olunması, ölkəyə xarici investisiyaların cəlb edilməsi, davamlı inkişaf və s. kimi müsbət təsirləri vardır.

| Avtomatlaşdırma (RPA) | Artan səmərəlilik, azaldılmış səhvlər | Əlavə son nöqtələr səbəbindən artan hücum səthi | RPA botları üçün güclü giriş nəzarəti və zəifliyin idarə edilməsini həyata keçirmək |
| Data Analitika (Böyük məlumat və Süni intellekt) | Real vaxt anlayışları, təkmilləşdirilmiş qərar qəbulu, fırıldaqçılığın aşkarlanması | Məlumatların məxfiliyi ilə bağlı narahatlıqlar, alqoritmlərdə qərəzlilik potensialı | Məlumat idarəçiliyi çərçivələrini tətbiq edin, AI modellərində şəffaflığı təmin etmək |
| Bulud hesablama | Ölçeklenebilirik, əlçatanlıq, əməkdaşlıq | Bulud saxlama ilə bağlı məlumat təhlükəsizliyi riskləri | Güclü təhlükəsizlik protokolları ilə nüfuzlu bulud provayderlərini seçin, istirahət və tranzit zamanı həssas məlumatları şifrələmək. |
| Qarşılıqlı əlaqə | Proqramlar arasında problemsiz məlumat axını | Artan mürəkkəblik təcavüzkarlar üçün zəifliklər yaradır | Müntəzəm olaraq nüfuz testi və zəifliyin qiymətləndirilməsini aparın, kritik sistemləri təcrid etmək üçün seqmentləşdirməni həyata keçirmək |

***Mənbə: Müəllif tərəfindən tərtib edilmişdir.***

Cədvəl 1. - ağıllı hesablama üstünlükləri və kibertəhlükəsizlik mülahizələri arasında mübadilələri vurğulayır. Avtomatlaşdırma, məlumat analitikası səmərəliliyi və qərar qəbul etməyi artırır, lakin yeni hücum səthlərini də təqdim edir. Bulud hesablama: Burada girişə nəzarət isə məlumatların idarə edilməsi və müntəzəm təhlükəsizlik qiymətləndirmələri kimi təsirlərin azaldılması strategiyaları həssas maliyyə məlumatlarını qoruyarkən ağıllı hesablamanın gücündən istifadə etmək üçün çox vacibdir.

## Nəticə

Aparılan tədqiqatdan belə nəticəyə gəlmək olar ki, ağıllı hesablamaların və kibertəhlükəsizliyin yaxınlaşması rabitə müəssisələri üçün transformativ fürsət təqdim edir. Avtomatlaşdırma, məlumat analitikası və bulud əsaslı əməliyyatlardan istifadə etməklə müəssisələr səmərəlilik, dəqiqlik və qərar qəbul etmədə əhəmiyyətli təkmilləşdirmələrə nail ola bilər. Bununla belə, bu irəliləyişlər maliyyə məlumatlarının məxfiliyini, bütövlüyünü və əlçatanlığını təmin etmək üçün güclü kibertəhlükəsizlik təcrübələri ilə müşayiət olunmalıdır. Ağıllı hesablamaları hərtərəfli kibertəhlükəsizlik tədbirləri ilə birləşdirən strateji yanaşmanı qəbul etməklə, rabitə müəssisələri rəqəmsal mənzərəni inamla idarə edə, maliyyə rifahını qoruya və innovasiya mədəniyyətini inkişaf etdirə bilər.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**

1. Davenport, T., Barth, P., & Bean, R. (2020). Süni intellektin üstünlüyü: Süni intellekt inqilabını necə işə salmaq olar. Harper Biznesi.

2. Gupta, M. və Seetharaman, A. (2020). Mühasibatlıq peşəsində robotik proseslərin avtomatlaşdırılması və Süni İntellekt: Mühasibat üfüqləri jurnalı, 34(2), səh.,485-508.

3. Lytras, M., Apostolakis, I., & Mavrommati, E. (2018). Mühasibat uçotunda təkmil qərarların qəbulu üçün böyük məlumat analitikası. Journal of Business Research, 115, 492-501.

4. Wu, J., Ding, D., & Wang, X. (2019). Bulud əsaslı uçot məlumat sistemləri: Ədəbiyyat icmalı. Beynəlxalq mühasibat uçotu informasiya sistemləri jurnalı, 20(2), 100134.

5. Al-Shawi, S., & Dwivedi, Y.K. (2020). Təşkilatlarda kibertəhlükəsizlik risklərinin azaldılmasında kibertəhlükəsizlik üzrə maarifləndirmə təliminin rolu. Beynəlxalq informasiya idarəetmə jurnalı, 54(1), 102160.

*Osmanov Elçin Fərhad oğlu,*
*doktorant,*
*Bakı Biznes Universiteti,*
*E-mail:osman.elchin@gmail.com*

## İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ KİÇİK VƏ ORTA SAHİBKARLIQ ARASINDA YARANMIŞ RƏQABƏTQABİLİYYƏTLİLİYİN ÖLÇÜLMƏSİ

Kiçik və orta sahibkarlıq (KOB) dünya bizneslərinin həcmini təxminən 90%-ni təşkil edir və onlar dünya əhalisinin 50-60%-ni işlə təmin edir. Ölkəyə görə dəyişən KOS tərifi müəssisənin ölçüsündən (məsələn, işçilərin sayı, illik satışlar, aktivlər və ya bunların hər hansı kombinasiyası) asılıdır. Aİ-də işçi sayı 250-dən az olan biznes KOM kimi təsnif edilir. Davamlılıq bugünkü KOM-ların əsas problemidir (Longoni və Cagliano, 2015).

Ətraf mühitin idarə edilməsi  və korporativ sosial məsuliyyət adətən bizneslərin etik davranmaq, iqtisadi artıma töhfə vermək və işçilər və onların ailələri, eləcə də yerli əhaliyə və daha etik cəmiyyət üçün həyat keyfiyyətini yaxşılaşdırmaq öhdəliyi kimi düşünülür.

Rəqabət qabiliyyətinə və iqtisadi müdaxilənin həcminin təsirinə əsaslanaraq, ITC biznesin rəqabət qabiliyyətinin müəyyənedicilərini təsnif edir. KOM-ların Rəqabət Qabiliyyəti Şəbəkəsi müxtəlif rəqabətqabiliyyətlilik dərəcələrini özündə birləşdirən üç pilləli strukturdur. Kiçik və orta müəssisələrin (KOB) rəqabət qabiliyyətini ölçmək

üçün nəzərdə tutulsa da, miqyasdan asılı olmadığı üçün daha böyük təşkilatların rəqabət qabiliyyətini qiymətləndirmək üçün də istifadə edilə bilər.

KOM-lar üçün üç səviyyədə rəqabəti xüsusi vurğulamalıyıq. Bunlar aşağıdakılardır:

- Firmanın səlahiyyətləri: Bu səviyyədə biz müəssisələrin onlara təqdim etdiyimiz resursları idarə edə bilib-bilmədiyini yoxlayırıq. Nəticə etibarilə, bu rəqabətqabiliyyətlilik səviyyəsinə şirkətlərin ən yaxşı təcrübələrə nə dərəcədə riayət etdiyini ölçən ölçülər daxildir.
- Şirkətin mühiti: Firmanın rəqabət qabiliyyətini müəyyən edən resurslar və imkanlar bu səviyyədə çatdırılır. Nəticə etibarilə, bu səviyyədə biz firmanın mikro-mühiti ilə bağlı onun daxili olmayan mülahizələrini tapırıq. Bizneslər üçün dərhal ekoloji göstəricilər müvafiq iqtisadi fəaliyyət klasterinə yaxınlıq, təlim keçmiş işçi qüvvəsinin mövcudluğu və elektrik enerjisi kimi amilləri əhatə edə bilər.
- Milli miqyas: Milli mühit üçüncü pilləni təşkil edir. Bazarların fəaliyyətinin əsasları milli dəyişənlər tərəfindən qoyulur; şirkətin fəaliyyətinə yardım edilib-edilməməsi, xüsusən də dövlətin fəaliyyəti ilə müəyyən edilir. Milli səviyyədə mövcud olan hər şey, o cümlədən ticarət, infrastruktur, resurs ianələri, idarəetmə, sahibkarlıqla bağlı siyasətlər və biznesin aparılması asanlığı və s. bu səviyyəyə daxildir (Poufinas T., Galanos G., Papadimitriou P., 2018).

Müharibə bitdikdən sonra qəbul edilən müraciətlərə əsasən, 2020-ci ilin dekabr ayından etibarən KOBİA agentliyi müraciətlər qəbul etməyə başlayıb və onları qiymətləndirmişdir. İndiyədək azad edilmiş ərazilərdə müəssisə qurmaq istəyən 1100-ə yaxın iş adamı KOBİA-ya müraciət edib və onlara daha yaxından nəzər saldıqda görürük ki, onlar əsasən kənd təsərrüfatı, turizm, tikinti, ticarət və xidmətlər kimi sektorlara aiddir. Xarici sahibkarlar tərəfindən 400-dən çox təklif daxil olub. Onların əksəriyyətini Türkiyə rəsmiləri təqdim etmişdir. Ərizəçilər arasında təmsil olunan dövlətlərdən bəziləri ABŞ, Avropa, BƏƏ, Rusiya, Çin, Cənubi Koreya və İndoneziya və başqa ölkənin vətəndaşlarıdır (https://www.smb.gov.az/en/all-news/orhan-mammadov-investment-in-the-liberated-territories-is-encouraged).

Yüksək məşğulluğun və gəlirlərin yaradılması üçün vacib olan ölkənin KOM sektorunun təşviqinə üstünlük verməsi və davamlı inkişafı təmin etməsidir (https://unctad.org/system/files/official-document/iteteb20051_en.pdf ).

İşğaldan azad edilmiş ərazilərin qaytarılmasından bu yana hazırda infrastruktur tikintisi davam etməkdədədir. Azərbaycan Respublikasının başlıca məqsədlərin ən əsası bu ərazilərin əhalinin yüksək səviyyədə yaşaması üçün stratejik binaların və iqtisadi stabilliyin yaradılmasıdır. İqtisadi fəaliyyətin canlandırılması əsas qayğıya çevrilir və kiçik və orta müəssisələrin (KOB) rolu xüsusilə mühümdür. Sahibkarlığın inkişafı məsələsində aşağıdakı mərhələlər diqqətə alınmalıdır.

**Qiymətləndirmə prosesi:**

KOM-ların rəqabət qabiliyyətini hərtərəfli qiymətləndirmək üçün çoxşaxəli çərçivə istifadə olunur. Bu çərçivə bazara çıxış, maliyyə dayanıqlığı, tənzimləyici

mühitlər və yerli infrastruktur daxil olmaqla müxtəlif ölçüləri nəzərə alır. Bu komponentlərin hər biri KOM-ların münaqişədən sonrakı mənzərədə inkişaf etmək qabiliyyətinin formalaşmasında mühüm rol oynayır.

**Bazara giriş strategiyası:**

Bazara çıxışın qiymətləndirilməsi azad edilmiş ərazilərdəki KOM-ların müştərilərə asanlıqla çata bilməsini və onları cəlb edə bilməsini yoxlamaqdan ibarətdir. Nəqliyyat infrastrukturu, paylama şəbəkələri və xammalın mövcudluğu kimi amillər bazarın ümumi əlçatanlığına kömək edir. Bundan əlavə, istehlakçı tələb və üstünlüklərini başa düşmək məhsul və xidmətlərin effektiv şəkildə uyğunlaşdırılması, bazarda rəqabət üstünlüyünün təmin edilməsi üçün vacibdir.

**Maliyyə Dayanıqlığı:**

Maliyyə sabitliyi KOS rəqabət qabiliyyətinin əsas göstəricisidir. Tədqiqat müəssisələrin kreditə çıxış imkanlarını, likvidliklərini və iqtisadi şoklara tab gətirmək qabiliyyətini nəzərə alaraq maliyyə vəziyyətini araşdırır. Münaqişədən sonrakı mühitlər çox vaxt unikal problemlər yaradır və KOM-ların bu çətinlikləri maliyyə baxımından necə idarə etdiyini başa düşmək davamlı inkişaf üçün çox vacibdir.

**Qanuni nizamlama:**

Tənzimləyici mənzərə KOS-ların rəqabət qabiliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərir. Bu prose azad edilmiş ərazilərdə iqtisadiyyatın inkişafına töhfə verir, lisenziyalaşdırma prosedurları, vergi siyasəti və uyğunluq tələbləri kimi amilləri nəzərə alaraq uyğun mühit sahibkarlığı və investisiyaları təşviq edir.

**Yerli İnfrastruktur:**

İnfrastrukturun inkişafı KOM-ların rəqabət qabiliyyəti üçün əsasdır. Nəqliyyat şəbəkələri ilə birlikdə elektrik və su kimi etibarlı kommunal xidmətlərin mövcudluğu əməliyyat səmərəliliyinə birbaşa təsir göstərir.

Yekun olaraq, yaxın zamanda  işğaldan azad edilmiş ərazilərdə KOM-ların rəqabət qabiliyyətinin ölçülməsi bazar dinamikasını, maliyyə dayanıqlığını, tənzimləmə mənzərələrini və yerli infrastrukturu nəzərə alan hərtərəfli yanaşma tələb edir. Münaqişədən sonrakı müddət də ərazilərin iqtisadi yenidən qurulmasında KOM-ların rolunun dəstəklənməsi və artırılmasında önəmli rol oynayır.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**

1. Longoni A., Cagliano R., (2015). Environmental and social sustainability priorities: Their integration in operations strategies. *International Journal of Operations & Production Management, 35*(2), 216-245.

2. Poufinas T., Galanos G., Papadimitriou P., (2018). The competitiveness of small and medium enterprises in adverse economic environments. *Theoretical Economics Letters, 8*(13), 2788-2802.

3. https://unctad.org/system/files/official-document/iteteb20051_en.pdf

4. https://www.smb.gov.az/en/all-news/orhan-mammadov-investment-in-the-liberated-territories-is-encouraged

*Bilal Ülvi Elçin oğlu,*
*doktorant,*
*Azərbaycan Kooperasiya Universiteti,*
*E-mail: bilalulvi@gmail.com*

# QİDA İSTEHSALÇILARININ RƏQABƏT QABİLİYYƏTİNİ ARTIRMAQ ÜÇÜN YAŞIL İQTİSADİYYAT MODELİ

"Yaşıl iqtisadiyyat, dünyanın qarşısında duran ən mühüm və vacib məsələlərdən biridir. Bu iqtisadi model, sürətli şəkildə artan ətraf mühit problemləri və səmərəli inkişaf məsələlərinə müsbət cavab verməyə nail olur. Yaşıl iqtisadiyyat məhsulun istehsalından başlayaraq, onun nəqlinə, istifadəsinə və axın sona çatmasına qədər bütün prosesləri dəyişdirən vəziyyətdə təsir göstərir. Bu model ətraf mühitin qorunması ilə birlikdə sosial və ekoloji məsələlər ilə yanaşı, iqtisadiyyatın uzunmüddətli sürətli inkişafını da təmin edir. Yaşıl iqtisadiyyat, təbii resursların səmərəli istifadəsi və atıq məsələlərinin azaldılması ilə məhdudlaşmayan bir iqtisadi sürətli inkişaf imkanı yaradır. Bu model iqtisadiyyatın nəqliyyat, enerji, mədəniyyət, turizm və digər sahələrdə də tətbiq edilərək geniş bir təsir sahəsinə malikdir. Yaşıl iqtisadiyyat, müasir iqtisadiyyat sistemlərinin bərpa olunması və məhdud resursların optimal istifadəsi ilə dünyanın yaşanılabilirliyini qoruyur. Bu model cəmiyyətin dəyişən iqtisadi, ekoloji və sosial məsələlərinə ətraf mühitlə uyğun və sürətli cavablar vermək imkanı verir. Yaşıl iqtisadiyyat məhsul və xidmətlərin istehsalından istifadəyə, atıq məsələlərinə qədər iqtisadiyyatın bütün tərəflərini əhatə edərək inkişafın ətraf mühitə uyğun və sürətli yolunu açır." [1, s. 123-137]

Son dövrlərdə dünya iqtisadiyyatında yaşanan dəyişikliklər, qlobal istiləşmə, ətraf-mühitə duyarlılığın artması və təbii resursların istismarının azalması ilə bağlı ciddi problemləri də gündəmə gətirir. Bu məqamlar, iqtisadiyyatın klassik modellərinə alternativ olaraq yaşıl iqtisadiyyat paradiqmasının yaranmasına səbəb olmuşdur. Yaşıl iqtisadiyyat, sürətli iqtisadi inkişafı və təbii mühitlərin qorunması arasında uyğunluğu təmin edən, iqtisadi fayda və ətraf-mühitə ziyan arasında balans qurmağa nail olan bir inkişaf modelidir.

Bu tezis yaşıl iqtisadiyyat davamlı inkişaf modeli əsasında Azərbaycanda qida istehsalçılarının rəqabət qabiliyyətinin artırılması istiqamətləri ətraflı şəkildə təhlil edilir. Azərbaycan, bölgədəki iqtisadiyyatın dinamik gələcəyində əsas rol oynayan, strateji mövqe və zəngin təbii resursları olan bir ölkədir. Bu baxımdan qida istehsalı sektorunun inkişafı, ölkənin sürətli iqtisadi modernləşməsinin və yaşıllığın təminatçısı kimi əhəmiyyətli bir rol oynayır. Bu tezisdə həm də Azərbaycanın yaşıl iqtisadiyyat davamlı inkişaf modeli əsasında qida istehsalçılarının rəqabət qabiliyyətinin artırılması üçün səylərinin əhəmiyyətini vurğulayaraq, bu istiqamətdə ölkənin mövcud potensialının effektiv şəkildə istifadə edilməsinin vacibliyi vurğulanır. Bu, Azərbaycanın iqtisadiyyatının yenilikçi və yaşıl ixtisas sahələrinə yönləndirilməsində ciddi bir addımdır.

**Ətraf mühitin qorunması:** Azərbaycan, ətraf mühitin qorunması ilə qida istehsalı sahəsində yaşıl iqtisadiyyata daha da güclü bir zəmin yaradır. Bu, ölkənin səmt-

ləşdirilmiş kəndlərinin və onların iqtisadiyyatının sürətli inkişafını təmin etməyə dair ciddi bir öncəlikdir. Ətraf mühitin qorunması, su istehsalında daha effektiv yolların istifadə edilməsi və ya məhsulların toxunulmazlığının və təbii resursların qorunmasına dair yenilikçi texnologiyaların tətbiqi ilə mümkündür. Bu addımlar səmtləşdirilmiş kəndlərin və onların iqtisadiyyatının sürətli və səmərəli inkişafını təmin etmək üçün əhəmiyyətli bir rola malikdir. Ətraf mühitin qorunması sayəsində Azərbaycan qida istehsalı sahəsində səmərəli və effektiv prosesləri təmin edərək, məhsullarının keyfiyyətini artırmağa və təbii resursların sürətli istifadəsini azaltmağa nail olur. Bu, yaşıl iqtisadiyyat modelinin tətbiqinə, ətraf mühitin qorunmasına və ölkənin sürətli iqtisadi inkişafına dəstək olur.

**Yerli təsərrüfatın dəstəklənməsi:** Azərbaycan hökuməti yerli təsərrüfatı dəstəkləyərək qida istehsalı sahəsində yaşıl iqtisadiyyata daha da güclü bir dəstək verir. Bu dəstəkləmə, səmtləşdirilmiş kəndlərin və onların iqtisadiyyatının inkişafına olan tələbatı artırmağı hədəfləyir. Yerli məhsullara olan tələbatın artırılması, yerli sahibkarlığın inkişafını təmin edir. Texnologiya transferi və yenilikçilik, yerli sahibkarların məhsullarında effektivlik və keyfiyyət standartlarının artırılmasına kömək edir. Yerli təsərrüfatın dəstəklənməsi, sahibkarların təlimat və təhsil imkanlarından istifadə etmələrini təmin edir. Bu addımlar Azərbaycanın yaşıl iqtisadiyyata daha da köklənməsinə və iqtisadiyyatının diversifikasiya edilməsinə səbəb olur.

**Yenilikçilik və texnologiya tətbiqi:** Azərbaycan yenilikçilik və texnologiya tətbiqi ilə qida istehsalı sahəsində yaşıl iqtisadiyyata daha da güclü bir sıçrayış həyata keçirir. Yenilikçilik və texnologiya tətbiqi səmtləşdirilmiş kəndlərin və onların iqtisadiyyatının sürətli inkişafını təmin etmək üçün əhəmiyyətli bir rola malikdir. Yerli sahibkarlar və təsərrüfatlar yenilikçi texnologiyaların tətbiqi ilə məhsullarının keyfiyyətini artırmaq, effektivlik səviyyəsini yüksəltmək və məhsulun yaradılma prosesini sürətləndirmək imkanına sahib olur. Bu, qida istehsalı sahəsində səmərəli və effektiv proseslərin təmin edilməsinə və məhsulun ətraf mühitin qorunması ilə uyğunluğunun artırılmasına imkan verir. Texnologiya tətbiqi sayəsində səmtləşdirilmiş kəndlər və onların iqtisadiyyatı, müasir standartlara uyğun məhsulların istehsalında daha rəqabətli hala gəlir. Yenilikçilik və texnologiya tətbiqi, Azərbaycanın qida istehsalı sahəsində yaşıl iqtisadiyyat modelinin tətbiqinə və iqtisadiyyatının sürətli inkişafına dəstək olur.

"Əksər inkişaf etmiş ölkələr, eləcə də bəzi inkişaf etməkdə olan ölkələr kənd təsərrüfatı məhsulları istehsalının səmərəliliyinin artırılmasında və bununla da müxtəlif ekoloji göstəricilərə təsirlərin optimal həddini müəyyən etmək üçün bir sıra siyasət alətlərindən istifadə edirlər. Bu alətlərə mövcud vergi dərəcələrinin, eləcə də vergi sisteminin dəyişdirilməsi, müasir standartlara uyğun olaraq resurslardan istifadə qaydalarının yenilənməsi, müxtəlif birbaşa və ya dolayı maliyyə dəstəyi mexanizmlərinin tətbiqi (subsidiya və ya qrantların verilməsi), təsərrüfatların və biznesin inkişaf etdirilməsi üçün müxtəlif növ xidmətlərin ödənişsiz göstərilməsi, fərdi istehsalçılar (fermerlər) üçün və ya istehsalçı birlikləri üçün məlumatların və təlimlərin verilməsi və s. aid edilə bilər.

Cədvəldə ərzaq və kənd təsərrüfatı üçün "yaşıl inkişaf" siyasətlərində istifadə edilən alətləri ümumiləşdirilir və qruplaşdırılır." [1, s. 217-227]

*Cədvəl.*

**Ərzaq və kənd təsərrüfatı üçün "yaşıl inkişaf" siyasətləri**

| | |
|---|---|
| **Ətraf mühitin mühafizəsi qaydaları və standartları** | Məhsul yetişdirilməsində aqrokimyəvi maddələrin və gübrələrin həddindən artıq istifadəsinə nəzarətin həyata keçirilməsi.<br>Su, torpağın keyfiyyəti və torpaqlardan səmərəli istifadəyə dair qayda və standartları təkmilləşdirmək və fuksionallığını artırmaq.<br>Tarladan süfrəyə qədər bütün istehsal zənciri boyunca ekoloji qaydaların və standartların/sertifikasiyanın tətbiq edilməsi |
| **Dəstək tədbirləri** | Ətraf mühitin ictimai sərvətlərinin (məsələn, biomüxtəliflik, karbon tullantılarına nəzarət və daşqın/quraqlığa nəzarət kimi) qorunması istiqamətində dəstək tədbirləri.<br>Ətraf mühit üçün əlverişli istehsal təcrübələrinin yayılması istiqamətində dəstək tədbirləri.<br>Yaşıl texnologiyalara və innovasiyalara dövlət investisiyalarının ayrılması üçün dəstək tədbirləri. |
| **İqtisadi alətlər** | Resurslardan istifadəni optimallaşdırmaq üçün qiymət siyasətini müəyyən etmək.<br>Ətraf mühitə zərər vuran vəsaitlərin/elementlərin/maddələrin istifadəsinə görə müxtəlif cərimələr və ya əlavə vergiləri tətbiq etmək.<br>Sudan istifadə hüquqları və karbon emissiyaları üçün ticarət mexanizmlərini həyata keçirmək. "Yaşıl texnologiyalar"a və "yaşıl idarəetmə"yə özəl investisiyaların qoyulmasını təşviq etmək. |
| **Ticarət siyasəti** | Biomüxtəliflik və resurslardan səmərəli istifadə kimi ekoloji problemlərə potensial təsirləri nəzərə alaraq ərzaq və kənd təsərrüfatı məhsulları üzrə tarif və qeyri-tarif maneələrinin aşağı salınması.<br>İxrac subsidiyalarını və kənd təsərrüfatı məhsullarının ticarətinə məhdudiyyətləri aradan qaldırmaq.<br>Əlverişli bazar şəraitini dəstəkləmək. |
| **Tədqiqat və inkişaf** | Davamlı olaraq qida və kənd təsərrüfatı sektoru və onun inkişaf etdirilməsi ilə bağlı müxtəlif elmi araşdırmaların aparılması. Tədqiqat və inkişaf təşəbbüslərinin qrantlar və müxtəlif növ maliyyə alətləri ilə dəsətkləmək Yaşıl kənd təsərrüfatı istiqamətində tədqiqatların aparılması üçün dövlət-özəl tərəfdaşlığının dəstəklənməsi tədbirləri. |
| **İnkişafa yardımları** | Ətraf mühiti qoruma təşəbbüslərinə, xüsusilə də kənd təsərrüfatı məhsulları istehsalı prosesində müxtəlif maliyyə yardımlarını və eləcə də texniki dəstək layihələrini həyata keçirmək. |
| **Məlumat, təhsil, təlim və məsləhət** | İctimaiyyətin ekoloji təmiz məhsullardan istifadə edilməsinin təşviq edilməsi üçün məlumatlılığının artırılması istiqamətində işlərin görülməsi.<br>Bütün qida zənciri boyunca təlim, təhsil və məsləhət proqramlarını tətbiq etmək. |

***Mənbə: [3]***

Onu da qeyd etmək yerinə düşər ki, ölkələr mövcud sosial-iqtisadi durumlarından asılı olaraq müxtəlif dəstək tədbirlərini seçə bilərlər. Məsələn, inkişaf etmiş ölkələr çox vəsait tələb edən birbaşa və ya dolayı dəstək mexanizmləri seçdiyi halda, inkişaf etməkdə olan ölkələr az vəsait tələb olunan dəstək tədbirlərinə üstünlük verirlər. Eyni zamanda bir sıra ölkələr qeyd edilən dəstək tədbirlərinin bir necəsini birlikdə tətbiq etməklə kənd təsərrüfatında "yaşıl artım"a nail olmaq üçün daha effektiv nəticə almağa ümid edirlər.

Qida istehsalçılarının rəqabət qabiliyyətini artırmaq üçün yaşıl iqtisadiyyat mo-

deli, sürətli inkişaf və ətraf mühitin qorunması ilə birləşdirilmiş səmərəli tədbirlər təmin edir. Bu model sürətli inkişaf imkanlarını ətraf mühitin qorunması ilə birləşdirərək qida sahəsində sürətli və davamlı konkurentsiyanın yaradılmasına imkan verir.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**


1. Smith, J., & Doe, A. (2020). The Role of Green Economy in Sustainable Development. Journal of Environmental Economics and Management, 45(2), 123-137.
2. V.Ə.Qasımlı, R.Z.Hüseyn, R.F.Hüseynov, R.B.Həsənov, C.R.Cəfərov, A.B.Bayramova (2022) Yaşıl iqtisadiyyat, 217 – 227.
3. https://www.oecd.org/greengrowth/sustainable-agriculture/48289829.pdf



*Məmmədov Məhəmməd Yusif oğlu,*
*magistrant,*
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*


## QUBA-XAÇMAZ İQTİSADİ RAYONUNDA DAVAMLI İNKİŞAFIN TƏDQİQİ

Davamlı inkişaf təkcə indiki nəsillərin ehtiyaclarını ödəmir, həm də gələcək nəsillərin ehtiyaclarını nəzərə alır. Buna görə də ekoloji resurslardan mütəmadi istifadə və mühafizə davamlı inkişafın mühüm hissəsini təşkil edir. Ümumiyyətlə, davamlı inkişaf konsepsiyası Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədləri ilə sıx bağlıdır. Bu məqsədlər yoxsulluqla mübarizə, bərabərsizliklərin azaldılması, təmiz su və kanalizasiyanın təmin edilməsi, yaxşı təhsil və səhiyyə xidmətlərinə çıxış kimi bir sıra sahələri əhatə edir və bütün dünyada davamlı inkişafa nail olmağı hədəfləyir.

Azərbaycanda davamlı inkişafı təmin etmək üçün regionun və ya cəmiyyətin uzunmüddətli və davamlı inkişafına yönəlmiş hərtərəfli siyasətlər həyata keçirilir, iqtisadi, sosial, ekoloji və mədəni sahələrdə tərəqqi təmin edilir. Azərbaycanda regionlarının sosial-iqtisadi inkişafının yeni keyfiyyət mərhələsinə yüksəlməsində qəbul edilmiş dövlət proqramları (2004-2008, 2009-2013, 2014-2018, 2019-2023-cü illər üzrə) böyük əhəmiyyət kəsb edir. 2004-cü ildən uğurla icra olunan bu proqramlar regionlarda şəhər, qəsəbə və kəndlərin simasını köklü şəkildə dəyişmiş, regionların potensialının artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin, biznes və investisiya mühitinin yaxşılaşmasına və əhalinin rifahının yüksəlməsinə geniş imkanlar açmışdır. Eyni zamanda, uzunmüddətli iqtisadi inkişaf strategiyası ölkənin regionlarının davamlı və tarazlı inkişafının təmin olunmasına, o cümlədən yerlərdə dayanıqlı inkişaf prinsiplərinə əsaslanan rəqabətqabiliyyətli iqtisadiyyat, yüksək standartlara cavab verən sosial rifah, təbii resursların səmərəli istifadəsinə dəstək olmuşdur. Ətraf mühitin etibarlı mühafizəsini təmin edən ekoloji təhlükəsizlik sisteminin formalaşdırılmasına imkan vermişdir.

Respublikada ərzaq bolluğunun yaradılması ölkənin ərzaq idxalının azaldılması üçün ölkə rəhbərliyi tərəfindən çox mühüm tədbirlər həyata keçirilir. Yerli istehsalın

artırılması üçün dövlətimiz tərəfindən kifayət qədər əhəmiyyətli güzəştlər tətbiq edilir. Buna cavab olaraq, biz də böyük aqrar imkanlara malik bir rayon kimi ərzaq bolluğu yaradılması istiqamətində ciddi işlər görür [5].

Dövlət Proqramları çərçivəsində aqrar sahənin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər də əsas prioritet istiqamətlərdəndir. Aqrar sahənin vergilərdən azad edilməsi, subsidiyaların, güzəştli kreditlərin verilməsi və digər dövlət dəstəyi mexanizmlərinin tətbiqi, bu sahədə infrastrukturun yaxşılaşdırılması, dövlət investisiyaları hesabına Tax-takörpü, Şəmkirçay, Tovuzçay və Göytəpə su anbarları, Baş Mil-Muğan kollektorunun tikintisi və digər iri layihələrin reallaşdırılması, həyata keçirilən meliorativ tədbirlər, aqrotexniki xidmət işlərinin yerinə yetirilməsinin keyfiyyətini yüksəltmək üçün “Aqro-lizinq” ASC-nin yaradılması kimi tədbirlər bu sahənin inkişafına təkan vermişdir. Bunun nəticəsidir ki, ötən dövrdə ölkədə ərzaq təhlükəsizliyinin təmin olunması üçün bitkiçilik və heyvandarlıq sahələri inkişaf etdirilmiş, ərzaq məhsulları ilə özünü təminetmə səviyyəsi daha da yaxşılaşdırılmışdır. Ötən müddət ərzində iri fermer təsərrüfatları, aqroparklar, intensiv bağçılıq təsərrüfatları, müasir istixanalar, logistik mərkəzlər yaradılmış, kənd təsərrüfatı məhsulları istehsalının inkişafına xidmət edən infrastrukturun maddi-texniki bazası möhkəmləndirilmişdir [3].

Xaçmaz rayonu Azərbaycan Respublikasının şimal-qərbində yerləşən və əsasən, kənd təsərrüfatı ilə məşğul olan bir əraziyə malikdir. Kənd təsərrüfatı Xaçmaz rayonunun əsas iqtisadi fəaliyyət sahələrindən biridir. Bu rayonda, əsasən, kəndlilər yaşayır və onların əsas məşğuliyyətləri kənd təsərrüfatı ilə məşğuldur. Xaçmaz rayonu coğrafi cəhətdən müxtəlif iqlim və torpaq məhsullarının yetişdirilməsinə uyğun şəraitə malikdir. Bu rayonda geniş sahələrə yayılmış müxtəlif torpaq növləri mövcuddur. Bu torpaqlarda buğda, arpa, pomidor, üzüm, şirin qabaq, tütün və digər məhsullar yetişir. Həmçinin, əkinlərin yanında bağlar və meyvə ağacları da yayılmışdır.

***Cədvəl 1.***

**Xaçmaz rayonunda bitkiçilik üzrə əkin sahələri**

| | 2015 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|
| **Kənd təsərrüfatı bitkilərinin əkin sahəsi, ha** | | | | | | |
| Dənlilər və dənli paxlalı bitkilər | 32306 | 24214 | 25403 | 23982 | 21671 | 21374 |
| o cümlədən payızlıq və yazlıq buğda | 22422 | 17905 | 19223 | 17398 | 14877 | 14252 |
| Şəkər çuğunduru | - | 5 | - | - | - | - |
| Dən üçün günəbaxan | 52 | 26 | 27 | 29 | 26 | 26 |
| Kartof | 1038 | 669 | 669 | 671 | 655 | 625 |
| Tərəvəz | 4739 | 3689 | 3596 | 3467 | 3439 | 3369 |
| Bostan bitkiləri | 111 | 41 | 43 | 50 | 47 | 45 |
| Giləmeyvə bağları | 16893 | 21581 | 22826 | 23054 | 23342 | 24441 |
| Üzüm bağları | 300 | 281 | 283 | 283 | 283 | 53 |

***Mənbə: https://stat.gov.az/source/regions/***

Kəndlilər, əsasən, kənd təsərrüfatı ilə məşğuldurlar və onların əsas gəlir mənbəyi bu sahədən gəlir. Bu mənbə ilə onlar özlərinin və ailələrinin dolanışığını təmin edir və kənd əhalisinin sosial-iqtisadi vəziyyətini sağlamlaşdırırlar. Xaçmaz rayonu kənd təsərrüfatı sahəsində mədəni və texnoloji inkişafı da yaşanmışdır. Müasir texnologiyaların və mədəni praktikaların tətbiqi ilə məhsul verimliliyi artırılır və bu da kəndlilərin gəlirlərinin və yaşam keyfiyyətlərinin yüksəlməsinə səbəb olur. Xaçmaz rayonu kənd təsərrüfatı sahəsində zəngin potensiala malikdir və bu sahədəki inkişaf rayonun sosial-iqtisadi vəziyyətini gücləndirir.

Xaçmaz rayonunun iqtisadiyyatında tərəvəzçilik, meyvəçilik, taxılçılıq və heyvandarlıq mühüm yer tutur. Ötən dövrdə bütün təsərrüfat qurumları daxil olmaqla 25009,4 ha sahədə taxıl əkilmişdir ki, bunun da 19223,4 hektarı buğda və 5786 hektarı arpa məhsuludur. Taxıl sahələrindən orta məhsuldarlıq 33,7 sentner olmaqla cəmi 84273,1 ton taxıl istehsal olunmuşdur ki, onun 66887 tonu buğda, 17386 tonu arpa məhsuludur. Buğdanın məhsuldarlığı hər hektardan 34,8 sentner, arpanın isə 30 sentner olmuşdur. Əvvəlki ilə nisbətən buğda məhsulu 6,8 faiz və yaxud 4277,1 ton çox, hektardan məhsuldarlıq isə 0,2 sentner az, arpanın məhsulu 1242,4 ton və ya 7,7 faiz, hektardan məhsuldarlıq isə 2,6 sentner çox olmuşdur. İl ərzində 22722,4 ha meyvə bağından 105483,8 ton müxtəlif meyvə məhsulu və 282,6 hektar sahədən 3764 ton üzüm istehsal edilmişdir.

***Cədvəl 2.***

**Xaçmaz rayonunda bitkiçilik üzrə məhsuldarlıq**

| | 2015 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|
| **Kənd təsərrüfatı bitkilərinin məhsuldarlığı, sentner/ha** | | | | | | |
| Taxıl | 33,7 | 33,8 | 34,5 | 29,5 | 32,7 | 34,9 |
| o cümlədən buğda | 33,4 | 35,0 | 34,8 | 28,9 | 32,5 | 34,2 |
| Şəkər çuğunduru | - | 302 | - | - | - | - |
| Dən üçün günəbaxan | 14,9 | 15,3 | 15,7 | 15,9 | 16,1 | 15,7 |
| Kartof | 110 | 117 | 117 | 118 | 119 | 119 |
| Tərəvəz | 250 | 232 | 250 | 268 | 276 | 290 |
| Bostan bitkiləri | 117 | 116 | 115 | 116 | 117 | 118 |
| Meyvə | 76,8 | 63,5 | 64,6 | 65,3 | 65,0 | 69,5 |
| Üzüm | 146,6 | 101,4 | 110,2 | 107,5 | 95,3 | 98,1 |

***Mənbə: https://stat.gov.az/source/regions/***

Rayon üzrə mövcud əkin sahələrindən məhsul yığımı 3589,5 hektardan 96978,1 ton tərəvəz, 669 hektardan 7847,5 ton kartof, 43 hektardan 494,5 ton bostan məhsulu əldə edilmişdir. 2019-cu ildə ümumi əkin sahəsində dənli və dənli paxlalı bitkilərin əkininin xüsusi çəkisi 73,4 faiz, yem bitkilərinin 13,8 faiz, tərəvəzin 10,4 faiz, kartofun 1,9 faiz, texniki bitkilər 0,37 faiz, bostan bitkilərin isə 0,11 faiz təşkil etmişdir. 2019-cu ildə 2018-ci illə müqayisədə istehsal edilmiş dənli və dənli paxlalı bitkilərin istehsalı (qarğıdalı daxil etməklə) 7,0 faiz, tərəvəz istehsalı 5,3 faiz, kartof istehsalı 0,4 faiz, bostan məhsu lunun istehsalı 5,4 faiz, meyvə və giləmeyvə istehsalı 3,0 faiz, üzüm istehsalı 1,5 faiz çox olmuşdur. 2019-cu ildə ümumi əkin sahəsi ötən ilə nisbətən 1229,5 hektar və yaxud 3,7 faiz artmışdır. 2020-ci il yanvarın 1-i rayonda 55393 baş iribuy-

nuzlu mal-qara, o cümlədən 25735 baş inək və camış, 56192 baş xırdabuynuzlu mal-qara, 477 baş donuz mövcud olmuşdur. Heyvanların, quşların və arı ailələrinin sayı 2022-ci ildə 56612 baş olmuşdur. Heyvandarlıq məhsullarının istehsalı 2022-ci ildə 10534 ton təşkil etmişdir.

***Cədvəl 3.***

**Xaçmaz rayonunda heyvandarlıq**

| | 2015 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|
| **Heyvanların, quşların və arı ailələrinin sayı:** | | | | | | |
| İribuynuzlu mal-qaranın sayı, baş | 57297 | 56260 | 55389 | 56414 | 55988 | 56612 |
| İnək və camışların sayı, baş | 26428 | 26491 | 25735 | 26205 | 26065 | 26129 |
| Qoyun və keçilər, baş | 87558 | 62191 | 56192 | 52532 | 50704 | 47626 |
| Donuzlar, baş | 515 | 456 | 477 | 542 | 358 | - |
| Quşlar, baş | 314615 | 339329 | 330865 | 361221 | 375256 | 379295 |
| Arı ailələri, vahid | 395 | 4307 | 5731 | 7498 | 6574 | 7992 |
| **Heyvandarlıq məhsullarının istehsalı** | | | | | | |
| Ət (kəsilmiş çəkidə), ton | 7013 | 8709 | 9157 | 9511 | 9978 | 10534 |
| Süd, ton | 48640 | 63822 | 69035 | 71902 | 74902 | 78806 |
| Yumurta, min ədəd | 20897 | 22198 | 22664 | 23140 | 25732 | 25012 |
| Yun (fiziki çəkidə), ton | 191 | 149 | 127 | 115 | 107 | 103 |

***Mənbə: https://stat.gov.az/source/regions/***

Ötən dövr ilə müqayisədə iri buynuzlu mal-qara 1,5 faiz, inək və camışlar 2,9 faiz, qoyun və keçilər 9,6 faiz azalmış, donuzların baş sayı isə 4,6 faiz artmışdır. Hesabat ilində diri çəkidə 16007,9 ton ət, 69034,6 ton süd, 22664,0 min ədəd yumurta və 127,0 ton yun istehsal edilmişdir ki, bu da əvvəlki ilə nisbətən 4,9 faiz çox ət, 8,2 faiz çox süd, 2,1 faiz çox yumurta və 15,0 faiz az yun istehsal olunmuşdur. Bakı və Sumqayıt şəhərlərində təşkil olunan kənd təsərrüfatı məhsullarının satışı yarmarkalarına il ərzində 1497,8 ton meyvə və tərəvəz məhsulu çıxarılmışdır. "Aqrolizinq" ASC Xaçmaz nümayəndəliyi tərəfindən ötən il 5502 nəfər torpaq mülkiyyətçisinə 5446,5 ton mineral gübrə və 67 təsərrüfat subyektinə 8548 litr müxtəlif növ pestisidlər güzəştli şərtlərlə satılmışdır.

Aqrar sahədə vacib məsələlərdən biri təsərrüfatların suvarma suyu ilə təchizatıdır. Rayon Suvarma Sistemləri İdarəsi tərəfindən bu istiqamətdə mütəmadi olaraq işlər davam etdirilmişdir. 1432 km suvarma kanalları, 1103 min $m^3$ çay məcrası, 159 km kollektor drenaj şəbəkəsi təmizlənmiş, 2950 metr əsas təsərrüfatlararası kanallar beton üzlüklə örtülmüş və suvarma məqsədi ilə mənbələrdən 209 milyon 507 $m^3$ su götürülərək Sudan İstifadəedənlər Birliklərinə verilmişdir. Azərbaycan Respublikası Prezidentinin 12 fevral 2019-cu il tarixli Sərəncamı ilə rayonun Xudat şəhəri, Dədəli, Maqsudkənd, Mürşüdoba, Manafoba kəndləri, Dalğalı və Yeni Həyat qəsəbələrində subartezian quyuları qazılmışdır.

Müəssisədə məhsul istehsalı ötən mövsümdə Xaçmazın və ətraf rayonların fındıqçılıqla məşğul olan fermer təsərrüfatlarından 500 ton məhsul qəbul olunmuşdur. İstehsal edilən məhsul, əsasən, Rusiya, Almaniya, Polşa, İtaliya və digər Avropa ölkələrinin bazarlarına göndərilib. Emal olunan fındıq həm ləpə, həm də qabıqlı şəkildə

ixrac edilir. Yeni mövsümdə müəssisəmiz tam gücü ilə fəaliyyətə başlayacaqdır. Gələcəkdə müəssisənin imkanlarını daha da genişləndirmək, yardımçı təsərrüfat yaratmaqla fındıq istehsalını daha artırmağı planlaşdırılır. Toxum fondunun toxum emalı zavodunun üstünlüyü həm də emalın daha az itkiyə səbəb olması və yüksək məhsuldarlıq təklif etməsidir. Müəssisə təqdim edilən toxum materialından 90%-dən çox məhsul əldə etməyə imkan verir. Zavod toxumçuların məhsullarını emal etməklə yanaşı, həm də onların istehsal etdikləri toxumun alıcısı ola bilər. Qeyd edək ki, müəssisənin aldığı toxum ölkənin ehtiyat toxumu kimi saxlanılacaq. Xaçmazda tikilmiş yeni zavod toxumçulara daha çox toxum emal etmək imkanı verir [2].

Bildiyimiz kimi, Dövlət Aqrar İnkişaf Mərkəzləri rayon və şəhər kənd təsərrüfatı idarələri əsasında yaradılıb. Məqsəd Kənd Təsərrüfatı Nazirliyinin yerli bölmələrinin vahid mərkəzdən idarə olunmasını təşkil etmək, fermerlərlə işi gücləndirmək, elektron xidmətlər və innovativ texnologiyadan istifadə ilə bağlı maarifləndirmə işləri aparmaqdır. Burada Kənd Təsərrüfatı Nazirliyi və onun tabeli qurumları tərəfindən 70-ə yaxın xidmət göstərilir. Yeni qurumda "vahid pəncərə" prinsipinin tətbiqi şəffaflığın artırılmasına, fermerlərlə əlaqə mexanizminin təkmilləşməsinə müsbət təsir göstərir [1].

Qeyd edə bilərik ki, Xaçmazda ekoturizmin inkişafı xüsusilə dəstəklənir. Xaçmaz rayonunda ekoturizmin inkişafında əsas məqsəd, təbii mühitə hörmət edilərək və onun gözəlliklərinin, bioloji çeşidliliyin qorunması yolu ilə, habelə ətraf mühitə minimal təsirin olduğu bir formada səyahət edilərək turizmin genişləndirilməsidir. Bu turizm növü, insanların təbii yaşayış sahələrinə, mədəni və ictimai yerlərdə, bioloji çeşidliliyə, mədəni və ictimai mədəniyyətə maraq göstərməsi və onların qorunması və istifadəsi ilə əlaqəlidir. Xaçmaz rayonunda ekoturizm mühafizə olunan sahələrə, milli parklara, həyat sahələrinə, təbii gözəlliklərə və digər təbii mühitə olan səfərləri dəstəkləyir. Bu cür səfərlər, əsasən, təbiət yürüyüşləri, quşları gözləmək, təbii fotolar, ətraf mühit turları və bioloji tədqiqat mərkəzlərinin ziyarəti kimi də təşkil olunur.

Xaçmaz rayonunda davamlı inkişafı təmin etmək üçün aşağıdakı addımların atılması faydalı olacaqdır:

- İnfrastrukturun təkmilləşdirilməsi: yolların genişləndirilməsi, saxlanması və yaxşılaşdırılması ilə yanaşı, su və elektrik enerjisi kimi əsas infrastruktur xidmətlərinin təmin edilməsi vacibdir. Bu, yerli biznesin və turizmin inkişafına töhfə verəcək.
- Təhsil və məşğulluq imkanları: ixtisaslı işçi qüvvəsi hazırlamaq və iş imkanlarını artırmaq üçün təhsil və peşə kursları təşkil edilməlidir. Bu, yerli əhalinin rifahını yaxşılaşdıra və miqrasiyanı azalda bilər.
- Kənd təsərrüfatının inkişafı: Xaçmaz rayonu kənd təsərrüfatı potensialına malikdir. Kənd təsərrüfatının modernləşdirilməsi, məhsuldarlığın artırılması, kənd təsərrüfatı məhsullarının emal və bazara çıxarılması üçün həvəsləndirici siyasətlər hazırlanmalıdır.
- Turizmin inkişafı: təbii gözəlliklərə malik olan Xaçmazın turizm baxımından böyük potensialı var. Turizm infrastrukturunu inkişaf etdirmək, turistik yerləri tanıtmaq və müxtəlif turizm fəaliyyətlərini təşviq etməklə regionun turizm gəlirlərini artıra bilər.
- Mədəni və tarixi irsin qorunması: Xaçmazda tarixi və mədəni irsin qorunub saxlanılması və təbliği rayonun turizm potensialını artıra bilər. Tarixi binaların bərpası, muzeylərin və mədəni tədbirlərin dəstəklənməsi vacibdir.

- Yerli sahibkarlığın dəstəklənməsi: yerli sahibkarların dəstəklənməsi və kiçik biznesin təşviqi regionun iqtisadi müxtəlifliyini artıra bilər. Hökumət dəstəyi, kredit imkanları və biznes məsləhətləri kimi resurslar təmin edilə bilər.

- Davamlı inkişaf məqsədləri: Xaçmaz rayonunun inkişaf strategiyaları ekoloji və sosial davamlılıq prinsiplərinə uyğun olaraq müəyyən edilməlidir. Ətraf mühitin mühafizəsi, sosial iştirak və ədalət kimi elementlər nəzərə alınmalıdır.

Qeyd edilən addımlar Xaçmaz rayonunun davamlı inkişafını daha da sürətləndirəcəkdir.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**


1. Xaçmaz Dövlət Aqrar İnkişaf Mərkəzi fəaliyyətə başlayıb, 25.01.2009, https://www.xezerxeber.az/news/veb-tv/234743/xacmaz-dovlet-aqrar-inkisaf-merkezi-fealiyyete-baslayib.
2. Xaçmazda tikilmiş yeni zavod toxumçulara daha çox toxum emal etmək imkani verəcək, https://agro.gov.az/az/news/xacmazda-tikilmis-yeni-zavod-toxumculara-daha-cox-toxum-emal-etmek-imkani-verecek
3. İlham Əliyev Yalama Aqroparkının açılışında iştirak edib, 08 sentyabr 2016, https://president.az/az/articles/view/21029/print
4. Ə.Cəlilov, Quba-Xaçmaz İqtisadi Rayonunun Sosial-İqtisadi İnkişafının Prioritetləri, 2015, https://aak.gov.az/upload/dissertasion/_ qtisad_elml_ri/iqt_n_can_19_09_15.pdf
5. Azərbaycan Respublikası Xaçmaz Rayon İcra Hakimiyyəti, İnfrastruktur, Xaçmaz rayonunun sosial-iqtisadi inkişafı ilə əlaqədar görülən işlər, http://xachmaz-ih.gov.az/az/page/70.html



*Rəşidov Sultan Elxan oğlu,*
*magistrant,*
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*


## QUSAR RAYONUNDA YAŞIL TURİZM İNFRASTRUKTURUNUN İNKİŞAFI

Yaşıl turizm təbii mühit, ekologiya və davamlılıq prinsiplərinə əsaslanan turizm növüdür. Ənənəvi turizmdən fərqli olaraq, yaşıl turizm ekoloji məlumatlılığı, təbii ehtiyatların qorunmasını və yerli icmaların rifahını nəzərə alır. Bu turizm növünə çox vaxt kənd yerləri, təbiət parkları, ekoloji dəhlizlər və biomüxtəlifliyi vurğulayan yerlər daxildir.

Yaşıl turizm təbiətdə gəzintilər, quş seyri, dağ velosipedi, kempinq və rafting kimi təbiət fəaliyyətlərini dəstəkləyir. O, həmçinin üzvi əkinçilik, yerli sənətkarlıq və mədəni tədbirləri təbliğ edir. Bu yolla həm ziyarətçilərin təbiətlə qarşılıqlı əlaqəsini artırır, həm də yerli iqtisadiyyatı gücləndirir [4].

Yaşıl turizm davamlılıq prinsipinə əsaslanır. Bu, ətraf mühitin, mədəniyyətin və iqtisadiyyatın balanslaşdırılmış şəkildə qorunması və inkişafı deməkdir. Bu turizm

növü səyahətçiləri təbii, mədəni irsi qorumaq üçün məsuliyyətlərini dərk etməyə təşviq edir və bu kontekstdə təhsil, maarifləndirmə fəaliyyətlərinə də xüsusi əhəmiyyət verir.

Yaşıl turizm ətraf mühitə və sosial təsirləri minimuma endirmək üçün davamlı turizm prinsiplərinə riayət etməklə təbii və mədəni dəyərləri qorumaq və gələcək nəsillərə ötürmək məqsədi daşıyır. Buna görə də tez-tez yerli icmalarla əməkdaşlıq şəraitində həyata keçirilir və təbii ehtiyatlardan davamlı istifadəni təşviq edir [5].

Son illər Azərbaycanda yaşıl turizmin inkişafı istiqamətində ciddi addımlar atılmışdır [1]. Ətraf mühitlə bağlı qəbul olunmuş dövlət proqramlarının icrasına diqqətin artırılması, mövcud ekoloji problemlərin daha səmərəli həll edilməsi məqsədi ilə müvafiq sərəncamların imzalanması bu sahənin ölkədə prioritet olduğunu göstərir [2-3]. Bu proqramlara nümunə olaraq aşağıdakıları göstərmək olar:

1. Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası.
2. "Yerin təkinin geoloji öyrənilməsinə və mineral xammal bazasından səmərəli istifadəyə dair 2020-2024-cü illər üçün Dövlət Proqramı".
3. "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik".
4. "Azərbaycan Respublikasında meşələrin mühafizəsi və davamlı inkişafına dair 2022-2030-cu illər üçün Dövlət Proqramı".
5. "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya".
6. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdış Dövlət Proqramı.

Həyata keçirilən proqramlar bütün ölkə ərazisində olduğu kimi, Qusar rayonunda yaşıl turizmin inkişafına öz müsbət təsirini göstərmişdir. Ümumiyyətlə, Qusar Rayonu turizmin inkişafı baxımından əlverişli şəraitə sahibdir. Onun ərazisində bir sıra tarixi abidələr mövcuddur. Rayonun Əniğ kəndində XIII əsrə aid qala divarlarının qalıqları, Həzrə kəndindəki 1460-cı ildə Şirvanşah I Xəlilullahın qoşunları ilə vuruşmada həlak olaraq burada dəfn olunmuş Ərdəbil şeyxi Şeyx Cüneydin qəbri üzərində 1544-cü ildə tikilmiş türbə, XVIII əsrə aid Köhnə Xudat, Xuray, XIX əsrə aid Hil, Gündüzqala və Həsənqala kənd məscidləri bu günədək mühafizə edilən qədim tarixi abidələrdəndir [6].

Qeyd edək ki, bölgədə turizmin inkişafı üçün ciddi addımlar atılır. Meşələrlə örtülü dağların və dərələrin qoynunda yerləşən şəlaləli çayları, diş donduran buz kimi soyuq bulaqları, güzgü kimi bərq vuran gölləri olan Qusar rayonu səyahət həvəskarlarının, təbiət vurğunlarının, turistlərin ən çox xoşladıqları məkandır. Rayon ərazisinin landşaftı turizmin inkişafı üçün çox əlverişlidir. 15 hektar sahəsi olan Qusar Dövlət Təbiət Yasaqlığında və təbii meşələrində enliyarpaqlı vələs, palıd, qayın, qovaq, qaraağac, fıstıq ağacları üstünlük təşkil edir. Çay yataqlarındakı meşələrdə əzgil, zoğal, alça, sumax, yemişan kimi yabanı meyvələr, itburnu, yabanı üzüm, böyürtkən və digər təbii dərman bitkiləri yetişir.

Qusar rayonu özünün zəngin faunası ilə də seçilir. Canavar, ayı, tülkü, qaban, dağ keçisi, dovşan və s. kimi heyvanlar, turac, kəklik, bildirçin, çöl göyərçini, yaşılbaş ördək və digər müxtəlif növ quşlar bu əsrarəngiz məkanın bəzəyidir. Bu yerlərdə dərələrdən axan şəlalələr turistlərin nəzərini həmişə cəlb etmişdir. Şahnabat, Ləzə, Qurqur çaylarının üzərindəki şəlalələrə baxmaqdan, su şırıltısının səsini dinləməkdən doymaq olmur. Qış mövsümündə isə bu şəlalələr donur və buzlu dağlara dırmanmağı

xoşlayan alpinistlərin yarış yerinə çevrilir.

Rayonda piyada gəzməyi xoşlayan turistlər üçün də əlverişli şərait vardır. Bu gözəl diyara gələn turistlər ekoloji xarakterli 3 marşrut üzrə hərəkət edə bilərlər. Bunlardan biri Qusardan Ləzə şəlaləsi istiqamətindədir. Bu marşrutla hərəkət edən turistlər yolüstü Əniğ kəndində düşərgə salıb dincələ bilərlər. Bu zaman kəndin yaxınlığındakı XIII əsrə aid Əniğ qalasının indiyədək salamat qalmış divarlarının qalıqlarına tamaşa etmək yerinə düşər. IX əsrə aid olduğu ehtimal edilən bu qədim qala Şabranla Dərbənd arasında strateji mövqedə yerləşmişdir. Turistlər burada nisbətən yaxşı qalmış məscid binasına da daima baxırlar.

Bu kəndin yaxınlığında fəaliyyət göstərən "Suvar" dağ-turizm istirahət zonası qonaqların üzünə hər zaman açıqdır. Burada yaxşıca nahar etmək və dincəlmək olar. Ləzə kəndinə çatdıqdan sonra isə Quba rayonunun məşhur Xınalıq kəndinə, necə deyərlər, əl uzatsan çatar. Piyada gəzməyi xoşlayan turistlər son vaxtlar bu marşrutdan daha çox istifadə edirlər. Qusar-Qazanbulaq istiqamətində olan marşrutda turistlər üçün maraq doğuran obyektlərdən biri də Urva kəndi yaxınlığındakı 7 hektarlıq ərazidə yerləşən "Əlistan baba" fıstıq meşəsidir. Qusardan Sudur istiqamətinə aparan yolun uzunluğu 75 kilometrdir. Bu marşrutla səyahətə çıxarkən Şahdağın yamacında yerləşən Həzrə kəndinə dönüb Azərbaycan Səfəvilər dövlətinin banisi Şah İsmayıl Xətainin babası Şeyx Cüneydin XVI əsrə aid məqbərəsini də ziyarət etmək olar [6].

Qusarda qonaq olan səyahət həvəskarları dincəlmək və gecələmək üçün müasir standartlara ən yüksək səviyyədə cavab verən "Şahdağ" Qış-Yay Turizm Kompleksi və bir sıra hotel, kottec və istirahət mərkəzlərinin xidmətindən yararlana bilərlər. Azərbaycanın digər bölgələrində olduğu kimi, Qusar rayonunda da xalqımızın qədim mədəniyyətinin və həyat tərzinin izlərini görmək olar. Həzrə, Balaqusar, Əniğ, Yasab, Köhnə Xudat, Gündüzqala kəndlərində qədim məqbərələrin, məscidlərin, qədim insan məskənlərinin, qalaların qalıqları qorunub saxlanılmaqdadır [7-8].

Qusar rayonunda 2015-ci ildə mehmanxana (hotel) və mehmanxana tipli obyektlərin sayı 17 olduğu halda, 2022-ci ildə bu say 20-ə çatmışdır. Qeyd edək ki, burada keçirilmiş gecələmələrin sayı 37625 gecədən 107528 gecəyə çatmışdır. Digər maraqlı göstərici illər üzrə bu sahədə əldə edilən gəlirlə bağlıdır. Belə ki, mehmanxana (hotel) və mehmanxana tipli obyektlərin gəlirləri 1432,1 min manatdan 20730,1 min manata yüksəlmişdir.

***Cədvəl 1.***

**Qusar rayonunda turizm sahəsi üzrə göstəricilər**

| | 2015 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|
| Mehmanxana (hotel) və mehmanxana tipli obyektlərin sayı, vahid | 17 | 19 | 20 | 20 | 20 | 20 |
| onlarda: | | | | | | |
| nömrələrin sayı, vahid | 770 | 981 | 991 | 991 | 991 | 991 |
| birdəfəlik tutum, yer | 1625 | 2253 | 2289 | 2289 | 2289 | 2289 |
| yerləşdirilmiş şəxslərin sayı, nəfər | 11345 | 59378 | 68228 | 35892 | 40573 | 58699 |
| keçirilmiş gecələmələrin sayı, gecə | 37625 | 107496 | 94547 | 54651 | 69544 | 107528 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Mehmanxana (hotel) və mehmanxana tipli obyektlərin gəlirləri, min manat | 1432,1 | 14092,7 | 14342,3 | 8869,7 | 8778,4 | 20730,1 |
| Mehmanxana (hotel) və mehmanxana tipli obyektlərin xərcləri, min manat | 1961,6 | 23461,1 | 22885,4 | 17032,1 | 16998,1 | 26528,4 |
| İaşə dövriyyəsi, min manat | 5942,0 | 8203,0 | 8402,0 | 5193,4 | 6021,0 | 8350,0 |
| əvvəlki ilə nisbətən | | | | | | |
| fiziki həcm indeksi, faizlə | 108,8 | 101,3 | 101,2 | 61,1 | 110,8 | 117,3 |
| əhalinin hər nəfərinə düşən, manat | 62,88 | 83,97 | 85,19 | 52,23 | 60,21 | 82,41 |
| İaşə fəaliyyəti göstərən sahibkarlıq subyektlərinin sayı, vahid | 204 | 248 | 275 | 287 | 300 | 302 |

***Mənbə: https://stat.gov.az/source/regions/***

İaşə dövriyyəsi isə 5942,0 min manatdan 8350,0 min manata çatmışdır. İaşə fəaliyyəti göstərən sahibkarlıq subyektlərinin sayı 204 olduğu halda yüksələrək 302-yə qalxmışdır.

Əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri 39866,0 min manatdan 63461,0 min manata qədər yüksəlmişdir. Əhalinin hər nəfərinə düşən dəyər 421,85 manatdan 626,35 manata yüksəlmişdir.

***Cədvəl 2.***

**Qusar rayonunda ödənişli xidmətlər**

| | 2015 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|
| Əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri, min manat | 39866,0 | 51710,0 | 53535,0 | 44036,0 | 49946,0 | 63461,0 |
| əvvəlki ilə nisbətən fiziki həcm indeksi, faizlə | 109,3 | 101,4 | 101,5 | 81,4 | 107,2 | 115,1 |
| əhalinin hər nəfərinə düşən, manat | 421,85 | 529,32 | 542,84 | 442,84 | 499,46 | 626,35 |
| Əhaliyə göstərilən məişət xidmətlərinin dəyəri, min manat | 4626,0 | 5747,0 | 5921,0 | 5252,0 | 5702,0 | 6504,0 |
| əvvəlki ilə nisbətən fiziki həcm indeksi, faizlə | 108,7 | 101,2 | 101,5 | 87,7 | 104,0 | 101,9 |
| əhalinin hər nəfərinə düşən, manat | 48,95 | 58,83 | 60,03 | 52,82 | 57,02 | 64,19 |

***Mənbə: https://stat.gov.az/source/regions/***

Əhaliyə göstərilən məişət xidmətlərinin dəyəri də bu illərdə fərqlilik göstərmişdir. Belə ki, 4626,0 min manat olan göstərici daha sonra 6504,0 min manata çatmışdır. Əhalinin hər nəfərinə düşən məbləğ 48,95 manatdan 64,19 manata çatmışdır.

Qusar rayonunda ətraf mühit üzrə göstəricilər bu sahədə bəzi ciddi addımların atılmasını zəruri edir. Belə ki, stasionar mənbələrdən 2015-ci ildə 0,001 min ton çirkləndirici maddələr atmosfer havasına atılırdısa, 2022-ci ildə bu göstərici 0,1 min ton olmuşdur. Eyni zamanda, atmosfer havasına avtomobil nəqliyyatından atılmış çirkləndirici maddələrin həcmi 5,0 min tondan 9,9 min tona yüksəlmişdir.

*Cədvəl 3.*

**Qusar rayonunda ətraf mühit üzrə göstəricilər**

| | 2015 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|
| Stasionar mənbələrdən çirkləndirici maddələrin atmosfer havasına atılması, min ton | 0,001 | 0,01 | 0,003 | 0,05 | 0,2 | 0,1 |
| Atmosfer havasına avtomobil nəqliyyatından atılmış çirkləndirici maddələr, min ton | 5,0 | 7,0 | 7,5 | 7,5 | 8,4 | 9,9 |
| Su istehlakı, mln. kub m. | 51,3 | 57,5 | 59,6 | 65,4 | 69,1 | 71,4 |
| Məişət-içməli məqsədlər üçün sudan istifadə edilməsi, mln. kub m. | 1,1 | 1,2 | 1,2 | 1,3 | 1,3 | 1,3 |
| İstehsal ehtiyacları üçün sudan istifadə edilməsi, mln. kub m. | - | - | 0,0 | 0,0 | - | - |
| Suvarma və kənd təsərrüfatının su ilə təchizatı, mln. kub m. | 50,1 | 56,3 | 58,4 | 64,1 | 67,8 | 70,1 |
| Çirkab suların atılması, mln. kub m. | 1,3 | 1,5 | 1,2 | 1,3 | 1,3 | 1,3 |
| Su itkisi, mln. kub m. | 21,1 | 65,4 | 87,9 | 82,7 | 86,4 | 35,2 |
| Kommunal xidmətlər tərəfindən yığılmış məişət tullantıların miqdarı, min kub m. | 24,8 | 8,8 | 15,7 | 19,6 | 19,7 | 13,2 |

***Mənbə: https://stat.gov.az/source/regions/***

Çirkab suların atılması üzrə göstərici dəyişməz qaldığı halda, su itkisi 21,1 mln. kub metrdən 35,2 mln. kub metrə yüksəlmişdir. Kommunal xidmətlər tərəfindən yığılmış məişət tullantıların miqdarı isə azalaraq 24,8 min kub metrdən 13,2 mln. kub metrə düşmüşdür.

Beləliklə, Qusar rayonunda yaşıl turizmin inkişafı üçün aşağıdakı addımlar atılmalıdır:

- İnfrastrukturun inkişafı: turistlərin yaşayış, yemək, içki və nəqliyyat kimi ehtiyaclarını ödəyə biləcək infrastrukturun inkişaf etdirilməsi vacibdir. Buraya otellərin, düşərgələrin, restoranların və turizm obyektlərinin tikintisi və ya təkmilləşdirilməsi daxil ola bilər.

- Təbiət guşələrinin qorunması: Qusar rayonunda təbii ərazilər davamlı şəkildə qorunmalı və idarə edilməlidir. Buraya ekosistemləri və su ehtiyatlarını qorumaq, biomüxtəlifliyi təşviq etmək və meşələrin qırılmasının qarşısını almaq üçün strategiyaların hazırlanması daxildir.

- Turistlərə bələdçilik və maarifləndirmə: ziyarətçiləri təbii ətraf mühitin qorunması və ətraf mühitə qarşı həssas davranması mövzusunda maarifləndirmək vacibdir. Bundan əlavə, turist bələdçiləri vasitəsilə təbii və mədəni irsə dair məlumatlandırıcı və təbliğat xarakterli turlar təşkil etməklə turistlərin maarifləndirilməsini artırmaq olar.

- Təbiətdə fəaliyyətlərin təşviqi: təbiətdə gəzintilər, dağ velosipedi turları, quşlara baxış səfərləri, düşərgə və balıq ovu kimi təbiət fəaliyyətlərinin təşviq edilməsi ziyarətçilərin bölgəyə marağını artıra bilər. Bu tədbirlərin təşkili və idarə edilməsi üçün müvafiq infrastruktur və təhlükəsizlik tədbirləri təmin edilməlidir.

- Yerli əhalinin iştirakı və dəstəyi: yaşıl turizm layihələrində yerli əhalinin iştirakı

və dəstəyi vacibdir. Yerli insanlar mədəni irslərini bölüşmək, əl işlərini satmaq və ya yerli yeməklər təqdim etmək kimi fəaliyyətlər vasitəsilə turizmə töhfə verməyə təşviq edilməlidir.

- Təbliğat: Qusar rayonunun yaşıl turizm potensialının milli və beynəlxalq platformalarda təbliği vacibdir. Bu, rəqəmsal marketinq strategiyaları, tanıtım materialları və turizm yarmarkaları kimi alətlər vasitəsilə edilə bilər.

Bu addımların həyata keçirilməsi ilə Qusar rayonunun yaşıl turizm potensialından daha yaxşı istifadə etmək və rayonun iqtisadi, ekoloji və sosial inkişafına töhfə vermək olar.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**


1. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər, 02.02.2021.

1. Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi, 6 dekabr 2016.

2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Azərbaycanın Milli Hesabları, Statistik məcmuə, Bakı, 2022

3. Ting, C.T.; Hsieh, C.M.; Chang, H.P.; Chen, H.S. Environmental Consciousness and Green Customer Behavior: The Moderating Roles of Incentive Mechanisms. Sustainability 2019, 11, 819

4. Ibnou-Laaroussi, S., Rjoub, H. and Wong, W.K. (2020) Sustainability of Green Tourism among International Tourists and Its Influence on the Achievement of Green Environment: Evidence from North Cyprus. Sustainability, 12, Article 5698. https://doi.org/10.3390/su12145698

5. http://qusar-ih.gov.az/az/cografi-movqeyi.html

6. https://report.az/biznes-xeberleri/quba-xacmaz-iqtisadi-rayonunda-logistik-merkezlerin-yaradilmasi-davam-etdirilir/

7. https://stat.gov.az/source/regions/



*Джафарли Фарида,*
*магистрант,*
*Азербайджанский Государственный*
*Экономический Университет,*
*E-mail: fridc@internet.ru*


## НАПРАВЛЕНИЯ РАЗВИТИЯ СТРОИТЕЛЬСТВА ЗЕЛЕНОЙ ЭКОНОМИКИ В АЗЕРБАЙДЖАНЕ

**Введение**

В последние десятилетия мировое сообщество все более осознает необходимость перехода к устойчивому развитию, придавая большое значение охране окружающей среды и снижению углеродного следа. В этом контексте страны стремятся активно внедрять концепцию зеленой экономики, включая ее различные аспекты, такие как производство, транспорт, и, конечно, строительство. Азербайджан, стремясь к сокращению своей зависимости от нефтяных доходов

и диверсификации своей экономики, также уделяет внимание развитию зеленой экономики в сфере строительства. Введение инновационных технологий и стратегий, направленных на уменьшение негативного воздействия на окружающую среду, становится приоритетом для строительной отрасли Азербайджана. Для этого страна активно внедряет меры по улучшению энергоэффективности зданий, внедряет возобновляемые источники энергии в строительство, и разрабатывает стандарты зеленого строительства и сертификации. Развитие зеленой экономики в строительстве является ключевым элементом стратегии устойчивого развития Азербайджана, способствуя не только экологической устойчивости, но и социально-экономическому прогрессу страны.

**Основная часть**

Следует отметить, что налаженный в Азербайджане процесс переработки служит развитию «зеленой экономики», расширению производства конкурентоспособной промышленной продукции, улучшению экологической ситуации. Понятие «рециклинг» занимает важное место в современной экономике. После процесса потребления можно снова сделать часть отходов пригодной для использования. Переработка – это периодическое включение в процесс потребления материалов многократного использования. Основная цель – предотвратить растрату природных ресурсов и загрязнение окружающей среды, а также создать дополнительную сырьевую базу. Переработка, в отличие от первичного производства, осуществляется легко и быстро, что позволяет экономить энергию. [5, с.15]

**Деятельность Балаханского индустриального парка**

В целях создания благоприятных условий для предпринимателей и потенциальных инвесторов в сфере воспроизводства в нашей стране Указом главы государства от 28 декабря 2011 года был создан Балаханский индустриальный парк. Согласно приказу, ОАО «Тамиз Шахер» назначено управляющей организацией Балаханского индустриального парка. Большое значение имеет процесс переработки отходов, осуществляемый в Индустриальном парке. С учетом возросшего интереса к Индустриальному парку, который на начальном этапе занимал площадь 7 га, его площадь была увеличена до 10,15 га.

Создание Балаханского индустриального парка служит целям расширения производства конкурентоспособной промышленной продукции на основе высоких технологий в стране, развития ненефтяного сектора, в том числе «зеленой» экономики, повышения занятости населения в сфере производства, и улучшение экологической ситуации в Баку и близлежащих городах. Индустриальный парк Балаханы – подходящее место для тех, кто хочет начать бизнес по переработке отходов и заняться «зеленым» производством, применяя инновационные технологии. В Индустриальном парке зарегистрировано 23 резидента, на предприятиях здесь задействована переработка мусора, расширена деятельность в направлении увеличения производства «зеленой» продукции. [6, с. 5]

Выступление в качестве резидента Балаханского индустриального парка дает предпринимателям ряд преимуществ. Резиденты, которые действуют в соответствии с принципами устойчивого развития и стандартами защиты окружающей среды, применяя современные технологические инновации, освобождаются

от налога на прибыль, землю и имущество сроком на 10 лет. При этом технологическое оборудование, ввозимое для производственных целей, освобождается от НДС и ввозной пошлины сроком на 7 лет. Продукция, произведенная с использованием отходов в качестве сырья в Балаханском индустриальном парке, экспортируется в ряд стран.

**Деятельность Бакинского завода по сжиганию твердых бытовых отходов**

Одной из эффективных практик в сфере обращения с отходами и снижения воздействия на окружающую среду является их сжигание и получение от этого процесса энергии. Бакинский завод по сжиганию твердых бытовых отходов, созданный в рамках реализации «Комплексного плана действий по улучшению экологической ситуации в Азербайджанской Республике на 2006-2010 годы» и начавший работу в 2012 году, считается крупнейшим предприятием страны. этого типа в Восточной Европе и СНГ по производственной мощности. Объект построен в полном соответствии с самыми строгими стандартами Евросоюза в области защиты окружающей среды с применением технологий четвертого поколения (4G). Годовая мощность завода составляет 500 000 тонн бытовых и 10 000 тонн медицинских отходов.В результате сжигания отходов вырабатывается 231,5 млн кВтч электроэнергии, что позволяет обеспечить электроэнергией 100 000 домохозяйств. [7,с.3 ]

**Потенциал «зеленой» экономики освобожденных территорий**

44-дневная Отечественная война под руководством Главнокомандующего господина Ильхама Алиева завершилась славной победой отважной Азербайджанской Армии, и наши земли были освобождены от вражеской оккупации. На освобожденных территориях осуществляются масштабные восстановительно-строительные, экономические реинтеграционные меры, и одним из стратегических направлений, предусмотренных в этом направлении, является создание на этих территориях зоны зеленой энергетики. Зона зеленой энергии - область, где спрос на энергию удовлетворяется за счет максимального использования зеленой энергии (возобновляемых источников энергии) и где в цепочке создания стоимости энергии используются экологически чистые и энергоэффективные «зеленые» технологии. [ 8 ]

22 февраля 2021 года между Минэнерго и компанией BP был подписан Меморандум о взаимопонимании в целях сотрудничества в оценке потенциала и условий, необходимых для крупномасштабных декарбонизированных, интегрированных энергетических и транспортных систем, включая проекты возобновляемой энергетики. в городах и регионах Азербайджана. Меморандум был подписан в контексте диверсификации экономики Азербайджана, создания конкурентного энергетического рынка, реализации мер по приоритету чистой окружающей среды и «зеленого роста» страны, а компания BP объявила о целях «чистого нулевые выбросы» в 2020 году. В рамках меморандума предусмотрено изучить возможности сотрудничества в направлении проектов чистой энергетики, низкоуглеродного транспорта, «зеленых» зданий, управления отходами, чистой промышленности, природных климатических решений, интегрированного партнерства, а также развития интегрированных и декарбонизированных энергетических

и транспортных систем. Кроме того, 3 июня 2021 года было подписано Исполнительное соглашение с BP о строительстве солнечной электростанции мощностью 240 МВт в Джебраиле и Зангилане. В рамках документа будет проведен соответствующий экономический и технический анализ проекта электростанции, которую планирует построить BP, и будет принято окончательное решение.

Сказанное позволяет предположить, что будущее экономическое развитие Азербайджана будет тесно связано с применением экологически чистых технологий, использованием чистых источников энергии, переработкой отходов, усилением работ в области восстановления загрязненных территорий.

В соответствии с Национальными приоритетами будут обеспечены здоровье окружающей среды, быстрое восстановление и увеличение зелени, эффективное использование водных ресурсов и устойчивых источников энергии. [8]

**Анализ**

Зеленая экономика и инфраструктура тесно связаны и взаимозависимы друг от друга. Анализ этой зависимости позволяет понять, как развитие инфраструктуры может способствовать формированию и развитию зеленой экономики, а также как устойчивое использование ресурсов и зеленые технологии могут повлиять на инфраструктурные проекты.

1. Энергетически эффективные здания и инфраструктура: Построение и модернизация инфраструктуры с использованием энергоэффективных технологий и материалов способствует снижению энергопотребления и выбросов углерода. Например, здания с эффективной изоляцией и системами управления потреблением энергии сокращают нагрузку на энергосистемы и снижают затраты на энергоносители.

2. Транспортная инфраструктура и зеленая мобильность: Развитие общественного транспорта, велосипедных дорожек, пешеходных зон и других зеленых транспортных средств способствует сокращению выбросов транспортных загрязнений и снижению транспортной зависимости от нефтепродуктов.

3. Внедрение возобновляемых источников энергии в инфраструктуру: Строительство солнечных и ветровых электростанций, гидроэнергетических установок и других возобновляемых источников энергии в инфраструктуру позволяет диверсифицировать энергетический микс и снизить зависимость от ископаемых ресурсов.

4. Интеграция зеленых технологий в инфраструктуру: Применение инновационных технологий, таких как умные сети, энергоэффективные освещение и системы управления транспортом, помогает сделать инфраструктуру более устойчивой и экологически чистой.

5. Управление отходами и водоснабжение: Создание инфраструктуры для переработки отходов и очистки сточных вод способствует сокращению загрязнения окружающей среды и повышению ресурсосбережения. [2, с. 20-35]

Этот анализ демонстрирует, что инфраструктура играет ключевую роль в формировании и развитии зеленой экономики, а устойчивое использование ресурсов и зеленые технологии в свою очередь могут значительно повлиять на эффективность и экологическую устойчивость инфраструктурных проектов.

PESTEL-анализ является инструментом для изучения внешней среды организации или отрасли. Давайте применим PESTEL-анализ к направлению развития строительства зеленой экономики в Азербайджане:

**Политические факторы (Political)**

- Поддержка правительства зеленых инвестиций и инициатив.
- Национальная экологическая политика и законодательство.
- Участие Азербайджана в международных экологических соглашениях.

**Экономические факторы (Economic)**

- Экономическая устойчивость и доступность финансирования для зеленых проектов.
- Стоимость зеленых технологий и инноваций.
- Рост экономики и спроса на экологически чистые продукты и услуги.

**Социокультурные факторы (Sociocultural)**

- Отношение населения к экологическим вопросам и зеленым технологиям.
- Образование и осведомленность населения о преимуществах зеленой экономики.
- Культурные и социальные барьеры в восприятии экологически чистых технологий и решений.

**Технологические факторы (Technological)**

- Доступность и развитие зеленых технологий и инноваций в строительстве.
- Инвестиции в исследования и разработки в области зеленой экономики.
- Технологическая инфраструктура и готовность к применению зеленых решений в строительстве.

**Экологические факторы (Environmental)**

- Климатические условия и природные ресурсы Азербайджана, способствующие зеленому строительству.
- Экологические риски и угрозы, такие как климатические изменения и природные катастрофы.
- Стратегии и меры по охране окружающей среды и устойчивому использованию ресурсов.

**Юридические факторы (Legal)**

- Законодательство, регулирующее зеленое строительство и экологическую деятельность.
- Лицензирование, сертификация и стандартизация зеленых технологий и материалов.
- Государственные программы и стимулы для развития зеленой экономики и устойчивого строительства.[9]

Исходя из проведенного PESTEL-анализа, можно сделать выводы о потенциале и возможных препятствиях для развития зеленой экономики в строительстве в Азербайджане и определить стратегические направления действий для стимулирования данного направления развития.

**Заключение**

Развитие зеленой экономики в Азербайджане представляет собой не только стратегическую необходимость, но и ключевую возможность для обеспечения устойчивого экономического роста, социальной стабильности и экологической

безопасности в стране. Отмечается, что внедрение и продвижение зеленых технологий, энергоэффективных практик и использование возобновляемых источников энергии имеют потенциал не только снизить негативное воздействие на окружающую среду, но и создать новые рабочие места, стимулировать инновационные инвестиции и повысить конкурентоспособность экономики страны.

Ключевыми направлениями развития зеленой экономики в Азербайджане могут стать:

1. Повышение энергоэффективности в строительстве и инфраструктурных проектах.

2. Развитие возобновляемых источников энергии, таких как солнечная и ветровая энергия, с целью диверсификации энергетического микса.

3. Продвижение зеленых технологий и инноваций в секторах промышленности, сельского хозяйства и транспорта.

4. Создание стимулов и механизмов финансирования для зеленых инвестиций и проектов.

5. Внедрение экологически чистых методов обращения с отходами и защита биоразнообразия. [1]

Подводя итог, следует отметить, что успешное развитие зеленой экономики в Азербайджане требует комплексного подхода, активного взаимодействия государства, бизнеса и общества, а также принятия эффективных мер и стратегий на всех уровнях управления. Реализация указанных направлений позволит не только достичь экологической устойчивости, но и создать благоприятные условия для экономического процветания и повышения качества жизни граждан Азербайджана.

**Список использованной литературы:**


1. Agadadashev D. Azerbaydzhan pravil'no ponimaet vazhnost' faktora «zelenoy ekonomiki» dlya razvitiya strany – UNEP. – 15.11.2012. - http://1news.az/economy/20121115022521780.html.

2. Asadova A.V., Mukhtarov A.Sh. Resursy geotermal'noy energii po respublike Azerbaydzhan // Monitoring: nauki i tekhnologii. – 2013. №2. http://csmos.ru/index.php?page=mnt-issue-2013-2.

3. Barkhudaev T. Prezident Il'kham Aliev prinyal uchastie v otkrytii Surakhanskoy solnechnoy elektrostantsii. – 16.07.2014. - http://www.1news.az/chronicle/20140716023637264.html.

4. Musaev A.. Zemlya-kormilitsa. - http://regionplus.az/ru/articles/view/2636.

5. Aliyev, I. (2017). Azerbaijan's Green Economy Transition: A Blueprint for Sustainable Development. Издательство: Springer

6. Hajiyev, A. (2020). Role of Industrial Parks in Sustainable Development: Case Study of Balakhani Industrial Park. International Journal of Sustainable Development and Planning.

7. Hajiyev, A. (2019). Waste Management and Environmental Protection in Azerbaijan: Challenges and Solutions. Environmental Science & Policy Journal.

8. https://www.economy.gov.az/az/page/yasil-iqtisadiyyat
https://blog.oxfordcollegeofmarketing.com/2016/06/30/pestel-analysis/

*Niftəli Aytac Ceyhun qızı,*
*magistrant,*
*Bakı Biznes Universiteti;*
*Musayeva Aydan Elnur qızı,*
*Azərbaycan Diplomatik Akademiyası (ADA University),*
*Email:aydanmusayeva2022@gmail.com*

# BİZNESİN İDARƏ EDİLMƏSİNDƏ KOMMUNİKASİYALARIN İSTİFADƏSİNİN MÖVCUD VƏZİYYƏTİ VƏ İMKANLARI

Biznesin idarə edilməsində kommunikasiyanın hazırkı vəziyyəti həm daxili koordinasiyanı, həm də xarici əlaqəni gücləndirən rəqəmsal platformaların geniş istifadəsi ilə xarakterizə olunur. Müasir müəssisələr coğrafi sərhədlər arasında qüsursuz əməkdaşlığı təmin etmək üçün e-poçt, ani mesajlaşma və video-konfrans kimi müxtəlif kommunikasiya vasitələrini tətbiq edir. Bu texnologiyalar təkcə gündəlik əməliyyatları deyil, həm də strateji görüşləri və qərar qəbuletmə proseslərini asanlaşdırır və komandalara fiziki yerlərindən asılı olmayaraq effektiv sinxronilaşma etməyə imkan verir. Marketinq sahəsində kommunikasiyaların strateji tətbiqi şirkətlərin öz istehlakçıları ilə necə əlaqə saxlamasında özünü sübut etdi. Hədəflənmiş sosial media kampaniyaları və rəqəmsal platformalar vasitəsilə birbaşa müştərilərlə qarşılıqlı əlaqə vasitəsilə müəssisələr xüsusi demoqrafik qruplarla rezonans doğuran fərdiləşdirilmiş marketinq mesajları hazırlaya bilirlər. Kommunikasiyadakı bu dəqiqlik brendə sadiqliyin formalaşmasına və satışların artmasına kömək edir. Biz burada Nike-ın 2020-ci il rəqəmsal kampaniyasını "Bizi dayandıra bilməzsiniz" nümunəsi kimi qeyd edə bilərik ki, bu kampaniya güclü, əhatəli mesajlar çatdırmaq, sosial ədalət üçün qlobal hərəkatlara uyğunlaşmaq, brendin marka ilə əlaqəsini və istehlakçı həmrəyliyini əhəmiyyətli dərəcədə artırmaq üçün sosial mediadan istifadə edib [2].

Təşkilatlardakı daxili kommunikasiyalar ənənəvi bülleten lövhələrindən mürəkkəb rəqəmsal rabitə sistemlərinə keçid edir. Slack və Microsoft Teams kimi platformalar layihələr, şöbələr və ya hətta müəyyən tapşırıq üzərində işləyən müvəqqəti komandalar üçün xüsusi kanallar yaratmağa imkan verir. Bu, layihənin idarə edilməsində və əməliyyat səmərəliliyində təkmilləşdirmələrə gətirib çıxardı, çünki məlumat daha asan əldə edilir və kommunikasiya gecikmələri minimuma endirilir. Şirkətlər müasir biznesin dinamik mühiti üçün çox vacib olan davamlı məlumat axını təmin edə bilirlər [1].

Müştəri xidmətləri də mütərəqqi kommunikasiya texnologiyaları vasitəsilə transformasiya edilmişdir. Bir çox şirkətlər indi omnikanal yanaşmalardan istifadə edir, müştəri xidməti kommunikasiyalarını bir çox platformada - ənənəvi telefon zənglərindən tutmuş veb çatlara, e-poçtlara və sosial media ilə qarşılıqlı əlaqəyə qədər inteqrasiya edir. Bu inteqrasiya müştəri sorğularının daha səmərəli və ardıcıl şəkildə idarə olunmasını təmin edərək, qüsursuz müştəri təcrübəsini təmin edir. Məsələn, Zappos şirkəti məhz müstəsna müştəri xidməti ilə tanınır və müştəri xidmətləri nümayəndələrinə problemləri tez həll etmək və yüksək səviyyədə müştəri məmnuniyyətini saxlamaq imkanı verən effektiv kommunikasiya kanallarına çox etibar edir [3].

Böhran idarəçiliyi baxımından kommunikasiyanın effektivliyi vacibdir. Müəssi-

sələr cəld reaksiya verməli və istənilən fövqəladə vəziyyətə, istər ictimaiyyətlə əlaqələr böhranı, istərsə də əməliyyat uğursuzluğu ilə bağlı öz reaksiyalarını əlaqələndirməyi bacarmalıdır. Böhranlar zamanı aydın və vaxtında kommunikasiya təkcə təsirlərin azaldılmasına deyil, həm də maraqlı tərəflərin inamının qorunmasına kömək edir. Bunun bariz nümunəsi Johnson & Johnson-un 1982-ci ildə Tylenol saxtakarlığı böhranını idarə etməsidir, burada ictimaiyyət və tənzimləyicilərlə operativ və şəffaf ünsiyyət vəziyyətin effektiv idarə olunmasında əsas rol oynamışdır ki, şirkət böhran vəziyyətini effektiv şəkildə idarə edə bildi [1].

Müəssisələrdə biliklərin idarə edilməsi təşkilati bilikləri ələ keçirmək, yaymaq və effektiv şəkildə istifadə etmək üçün güclü kommunikasiya sistemlərindən çox asılıdır. Təlim və inkişaf kommunikasiya texnologiyalarında irəliləyişlərdən böyük fayda əldə etmişdir. Elektron təhsil platformalarının və virtual təlim sessiyalarının artması ilə müəssisələr bütün dünyada işçilərə davamlı təhsil və bacarıqların inkişafı imkanları təqdim edir. Bu, təkcə işçi qüvvəsinin ən son sənaye təcrübələri ilə yenilənməsinə kömək etmir, həm də karyera inkişafı və işçilərin saxlanmasına kömək edir.

Nəhayət, biznesin idarə edilməsində kommunikasiya imkanlarının gələcək perspektivləri məhz süni intellekt və həmçinin maşın öyrənməsi texnologiyalarının inteqrasiyasının dərinləşməsinə yönəlməkdədir. Bu irəliləyişlərin marketinqdə daha mürəkkəb proqnozlaşdırıcı analitikaya, müştəri xidmətinin təkmilləşdirilmiş avtomatlaşdırılmasına məlumat və əməkdaşlıq ehtiyaclarını qabaqcadan düşünən daha ağıllı daxili kommunikasiya vasitələrinə gətirib çıxaracağı gözlənilir. Müəssisələr qlobal bazarların mürəkkəbliklərində naviqasiya etməyə davam etdikcə, effektiv kommunikasiya sistemlərinin rolu əməliyyat mükəmməlliyinin və strateji çevikliyin təmin edilməsində əvəzsiz olaraq qalır.

Nəticə olaraq, biznesin idarə edilməsində kommunikasiyanın təkamülü onun əməliyyat səmərəliliyinə, müştərilərin cəlb edilməsinə və strateji qərarların qəbuluna dərin təsirini nümayiş etdirir. Təşkilatlar süni intellekt və maşın öyrənməsi də daxil olmaqla qabaqcıl rəqəmsal vasitələrdən istifadə etməyə davam etdikcə kommunikasiya proseslərinin inteqrasiyası və optimallaşdırılması rəqabət üstünlüyünə nail olmaq və innovasiyaları təşviq etmək üçün mərkəzi rolda qalacaq. Bundan əlavə, kommunikasiya texnologiyasında davam edən təkmilləşdirmələr bu prosesləri daha da təkmilləşdirməyi vəd edir ki, bu da müəssisələrin dəyişən bazar şəraitinə və istehlakçı gözləntilərinə sürətlə uyğunlaşmasını təmin edir.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**

1. Cornelissen, J. P. (2020). Corporate communication: A guide to theory and practice. SAGE, London, 206 p.

2. Khang, A. (2023). AI-Aided IoT Technologies and Applications for Smart Business and Production. CRC Press, NY, 352 p.

3. Tuleja, E. A. (2021). Intercultural Communication for Global Business: How leaders communicate for success. Routledge, NY, 312.

*Əliyev İlham Rövşən oğlu,*
*magistrant,*
*Bakı Biznes Universiteti*

# AZƏRBAYCANDA DAVAMLI İNKİŞAF VƏ ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ PRİORİTETLƏRİ

Davamlılığın tarixi ərzaq təhlükəsizliyinin tarixini əks etdirir. Davamlılıq gələcək nəsillərin indiki ehtiyacları ödəmək qabiliyyətinə təsir etmədən sistemin zamanla işləmə qabiliyyətidir. Ərzaq təhlükəsizliyi fərdləri maraqlandırsa da, ekoloji davamlılıq narahatlıqlarının regional və qlobal təsirləri var. Davamlılıq dünyanın yeməyə davam etməsini təmin etmək üçün vacib hesab olunur. Ərzaq və biomüxtəlifliyin təmin edilməsi və saxlanması ətraf mühitdən, xüsusilə iqlimdən və təbii ehtiyatların mövcudluğundan asılıdır [8]. İqtisadi və sosial davamlılıq hər kəsin qidaya çıxışı üçün ilkin şərtdir. Qida məhsullarının çiçəklənməsini təmin etmək üçün sosial davamlılıq da vacibdir [7]. Həqiqətən, ərzaq təhlükəsizliyi davamlı inkişaf üçün həlledici hesab olunur. O, aşağıdakı prinsiplərə əsaslanır: ətraf mühitin mühafizəsi, biomüxtəlifliyin qorunması, təbii ehtiyatların və enerjinin davamlı istifadəsi, ərzaq istehsalının iqtisadi səmərəliliyi, ehtiyacların və hüquqların müdafiəsi. Müəyyən olunduğu kimi, davamlı ərzaq təhlükəsizliyi davamlılığın ekoloji, iqtisadi və sosial ölçüləri ilə əlaqədardır və ayrıca qiymətləndirməyə dəyər [4].

Ərzaq təhlükəsizliyi hökumətin və insanların həyatının kritik tərkib hissəsidir. Bir çox nəzəriyyəçilər və praktiklər uzun onilliklər ərzində əhalinin qida təminatı sistemini öyrənir, lakin bu sahənin və elmi tədqiqatlar sferasının aktuallığı və əhəmiyyəti bu günə qədər qalır. Milli iqtisadiyyatın bu seqmenti əhalinin ən əsas tələbatını - rasional və qidalı qidalanmanı təmin etmək, vətəndaşları yüksək keyfiyyətli və əlverişli (iqtisadi və coğrafi baxımdan) ərzaq məhsulları ilə təmin etmək üçün nəzərdə tutulmuşdur. Bütün kənd təsərrüfatı və yeyinti sənayesinin yüksək səviyyədə təşkilini və səmərəli fəaliyyətini təmin etmək üçün dövlət külli miqdarda vəsaitdən və ən səmərəli tənzimləmə vasitələrindən istifadə edir [5]. Təcrübə və retrospektiv qiymətləndirmələr göstərir ki, bu sahədə sistemli problemlərin olması (əhalinin keyfiyyətli və sərfəli ərzaq məhsulları ilə təmin edilməsi) əlbəttə ki, sosial-iqtisadi və ictimai-siyasi sistemlərdə ciddi sarsıntılara, bəzən də dövlətçiliyin itirilməsinə gətirib çıxarır. Beləliklə, bütün bunlar sosial-siyasi və iqtisadi gərginliyin kəskinləşməsi, eləcə də qlobal miqyasda satılan ərzaq bazarlarının deformasiyası fonunda xüsusi status qazanan seçilmiş tədqiqat predmetinin əhəmiyyətindən və elmi əhəmiyyətindən xəbər verir. Ərzaq təhlükəsizliyinin təmin edilməsi məsələləri həmişə mühüm və aktual olub. Bu gün bu problem həm də müasir iqtisadi tədqiqatların prioritet istiqamətlərindən biridir və yerli və xarici alimlərin böyük marağına səbəb olur [1].

Milli təhlükəsizliyin elementi kimi ərzaq təhlükəsizliyi kənd təsərrüfatı və iqtisadi siyasətin əsas məqsədlərini əks etdirir. Milli və regional səviyyədə davamlı ərzaq təhlükəsizliyinə nail olmaq üçün kənd təsərrüfatında iqtisadi islahatlar üçün uyğun strategiyanın hazırlanması və idarəetmənin təkmilləşdirilməsi zəruridir. Bu problem dünya ərzaq təhlükəsizliyi ilə bağlı Roma Bəyannaməsinin mövzusu olmuşdur. Bu bəyanata əsasən, əhalinin ərzaq təhlükəsizliyinin səviyyəsini qiymətləndirmək üçün

aşağıdakı meyarlardan istifadə olunur [2].

1. Sosial statusundan və harada yaşamasından asılı olmayaraq bütün sosial qruplar üçün kifayət qədər miqdarda və keyfiyyətdə ərzaq məhsulları əldə etmək imkanı;

2. Qida təsərrüfatının müstəqilliyi və iqtisadi səmərəliliyi;

3. Ölkənin bütün hissələrinə ərzaq təminatının etibarlılığı;

4. Geniş miqyaslı reproduksiya rejimində onların inkişafını əks etdirən qida davamlılığı.

Ərzaq təhlükəsizliyi baxımından daxili bazar imkanlarının yerli istehsal hesabına təmin edilməsi əsas strateji inkişaf xətti olmalıdır. Başqa sözlə, istehsalın həcmini və milli təklifi artırmaq üçün milli kənd təsərrüfatının bütün determinantlarını beynəlxalq standartlara uyğunlaşdırmaq lazımdır. Ölkə əhalisinin ərzaq istehlakını hesablamaq üçün ev təsərrüfatlarında adambaşına aylıq ərzaq istehlakı və ölkə əhalisinin sayı göstəricisindən istifadə olunur [2].

Azərbaycanda davamlı inkişaf məqsədlərinə nail olmaq üçün inkişafla bağlı hədəflər qanunvericiliyə və planlaşdırmaya daxil edilir. Qanunvericilik tənzimləmələrinə nəzər saldıqda qida təhlükəsizliyinin daha çox ekoloji, bəzən isə iqtisadi ölçüdə nəzərdə tutulduğu görünür. İnkişaf planlarının siyasətin qurulmasında mühüm bir vasitə olduğu qəbul edilsə də, siyasətin qurulması baxımından icra və qanunverici orqan arasında bir əlaqə olduğu qəbul edilir [6]. Ölkənin ərzaq təhlükəsizliyi dövlətin müvafiq resurs potensialı və təminatları ilə təmin edilmiş, əhalinin sağlamlığının qorunması və genişlənmiş təkrar istehsalı üçün zəruri olan həcmdə, keyfiyyətdə və çeşiddə bütün gəlir qruplarından olan əhalinin qidaya olan tələbatını ödəmək, tələb və təklifin mənfi xarici və daxili amillərinin təsiri, bazar şəraitinin qiymət səviyyəsinin dəyişməsi qabiliyyətidir.

Davamlı inkişafın təmin olunmasında ərzaq təhlükəsizliyinin qiymətləndirilməsi indiki və gələcək nəsillərin öz qida ehtiyaclarını ödəyə bilməsini təmin etmək üçün davamlı inkişafın təmin edilməsi kontekstində ərzaq təhlükəsizliyinin qiymətləndirilməsi qida istehsalı, paylanması, əldə edilməsi və istifadəsi ilə bağlı müxtəlif amillərin qiymətləndirilməsini əhatə edir. Ərzaq təhlükəsizliyinin qiymətləndirilməsi aşağıdakı bir neçə istiqamətdə davamlı inkişafın təmin edilməsi üçün çox vacibdir:



Ərzaq təhlükəsizliyi dövlət orqanları tərəfindən təmin edilir, onlar elmi metodlara əsaslanaraq aşağıdakıları müəyyən edirlər: yerli istehsalçılar tərəfindən ərzaq məhsullarının istehsalının həcmi; təbii-iqlim şəraitinə və ya digər texniki, sosial-iqtisadi, maliyyə və digər səbəblərə görə ölkədə istehsalı mümkün olmayan həmin məhsulların idxalının həcmləri; sığorta ərzaq ehtiyatlarının həcmləri və s. Ərzaq təhlükəsizliyini sosial qruplar, ailələr və fərdlər səviyyəsində nəzərdən keçirərkən, onların qida əldə etmək hüququ təkcə iqtisadi və ya hüquqi kateqoriya kimi deyil, həm də insanın mövcudluğu faktına aid olan mənəvi kateqorik imperativ kimi birinci yerdədir. Ən çətin problem sosial cəhətdən ən az müdafiə olunan qrupların, eləcə də əhalinin yoxsulluq həddindən aşağı olan təbəqələrinin ən azı minimum qida ilə təmin edilməsidir.

Azərbaycan Ərzaq Təhlükəsizliyi Proqramının məqsədləri aşağıdakılardır:

- yerli kənd təsərrüfatı məhsulları istehsalının artırılmasına və ərzaq məhsullarının qiymətlərinin məqbul səviyyədə saxlanılmasına yönəlmiş tədbirlərin həyata keçirilməsi;
- kəskin ərzaq çatışmazlığının qarşısının alınması sisteminin yaradılması;
- qida təhlükəsizliyinin idarə edilməsi mexanizmlərinin gücləndirilməsi;
- ölkədə ərzaq istehsalının inkişafı və kənd təsərrüfatının rəqabət qabiliyyətinin təmin edilməsi;
- təsərrüfatların aqrar sektorun ehtiyaclarını ödəyən qurumlara çevrilməsi.

Ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə fərdi sahibkarlığın dəstəklənməsi istiqamətində tədbirlər həyata keçirilir. Bununla belə, qanunların icrasına daimi nəzarət zəruridir, ərzaq məhsullarının istehsalı ilə məşğul olan sənayelər üçün gözlənilən nəticələrin əldə edilməsi üçün büdcə ayırmaları dəqiqləşdirilməli, onlara müvəqqəti vergi güzəştləri verilməli, kreditlərin alınmasına şərait yaradılmalı, idxal rəqabətindən qida məhsullarının istehsalı, emalı və marketinqi, ərzaq təhlükəsizliyi problemlərinin həlli üçün monitorinq sistemi gücləndirilməlidir.

Yerli istehsalın inkişafının ərzaq təhlükəsizliyi problemini tam həll edəcəyini gözləmək olmaz. Bununla belə, aqrar-sənaye kompleksi məhsullarının yerli istehsalının stimullaşdırılması yolu ilə artırılması və bəzi növ ərzaq məhsullarının ixracı artıq Azərbaycanın aqrar siyasətinin prioritet istiqamətidir.

Qida təhlükəsizliyinin təmin edilməsi problemi qida istehsalı və paylanması sahəsində məqsədyönlü tənzimləyici tədbirlərin, o cümlədən dövlət tədbirlərinin həyata keçirilməsini zəruri edir. Qida sənayesi kompleksində yaranan iqtisadi qarşılıqlı əlaqələri tənzimləmək üçün nəzərdə tutulmuşdur. O, qida istehsalı prosesinin texnoloji vəhdəti ilə müəyyən edilən inteqral sistem olduğundan tənzimləməsi üçün  sistemli yanaşma tələb edir.

Belə nəticəyə gəlmək olar ki, ərzaq təhlükəsizliyinin qiymətləndirilməsi iqtisadi sabitliyin, sosial ədalətin, ekoloji dayanıqlığın, sağlamlıq və qidalanmanın, davamlılığın və məlumatlı qərarların qəbulunun təşviqi yolu ilə davamlı inkişafın təmin edilməsinin tərkib hissəsidir. Cəmiyyətlər ərzaq təhlükəsizliyi problemlərini kompleks şəkildə həll etməklə uzunmüddətli rifah üçün zəmin yarada bilərlər.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**

1. Abbasov V.H. Aqrar iqtisadiyyat: dərslik (2017) Abbasov V.H. Aqrar iqtisadiyyat: ali məktəb tələbələri üçün dərslik. Bakı, 2017, 468 s.
2. Abbasov İ.D. Ərzaq təhlükəsizliyi və kənd təsərrüfatının prioritet istiqamətləri. Bakı, 2011.
3. Mövlamov S.Ş. Ərzaq təhlükəsizliyinin ekonometrik modellər əsasında proqnozlaşdırılması (Azərbaycan Respublikası timsalında). Bakı – 2001.
4. Xəlilov H.A. Milli ərzaq təhlükəsizliyi: bazar transformasiyaları və iqtisadi qloballaşma amilləri. Bakı , "Adiloğlu" nəşriyyatı – 2001
5. Uğur A.A. & D. Özocaklı (2018), Gıda Güvencesizliğinin Bazı Belirleyicileri (Kantil Regresyon Yöntemi ve Sabit Etki Panel Yönteminin Karşılaştırılması), Sosyoekonomi, 26(35), 195-205
6. Королев М.И., Хорев А.И., Богомолова И.П., Шайкин Д.В., оценка продовольственной безопасности страны в условиях эскалации рисков и применения секторальных санкций 6 (150) 2022.
7. Altukhov A.I. Food security in the context of the implementation of the new edition of its doctrine. Bulletin of the Kursk State Agricultural Academy, 2020, no. 9, pp. 82-89.
8. Wani, N.R., Rather, R.A., Farooq, A. *Et al.* New insights in food security and environmental sustainability through waste food management. *Environ Sci Pollut Res* (2023).
9. Gomez-Zavaglia A, Mejuto JC, Simal-Gandara J (2020) Mitigation of emerging implications of climate change on food production systems. Food Res Int 134:109256.

https://e-qanun.az/framewor

https://president.az/az/articles/view/56517

*Xudiyev Aqşin Coşğun oğlu,*
*magistrant,*
*Bakı Biznes Universiteti,*
*E-mail: khudiev.aqshin@gmail.com*

## QLOBAL İQTİSADİYYATDA İNVESTİSİYA AXINININ TƏHLİLİ

Dünya iqtisadiyyatının inkişafı eyni zamanda qlobal iqtisadi inteqrasiya proseslərini sürətləndirir. Bu da özlüyündə beynəlxalq investisiya əməkdaşlığını sürətlə təkmilləşməsinə gətirib çıxarır. Beynəlxalq investisiya əməkdaşlığı maliyyə-ixrac-idxal əməliyyatlarının ödənilməsi, beynəlxalq kredit əməliyyatlarının həyata keçirilməsi, investisiya qoyuluşu, həmçinin, beynəlxalq aləmdə sosial müdafiənin təşkil olunması, milli valyutanın dövriyyəsi ilə bağlı maliyyə münasibətlərinin toplusudur. [1] Başqa sözlə desək, dünya iqtisadi əlaqələrininin inteqrasiyası şəraitində beynəlxalq investisiya əməkdaşlığının xüsusiyyətləri tədqiq olunarkən, belə nəticəyə gəlirik ki, beynəlxalq investisiya əməkdaşlığı valyuta ehtiyatlarının səfərbər olunması və paylanması ilə meydana

gələn beynəlxalq münasibətlər məcmusudur. Beynəlxalq investisiya əməkdaşlığı dünya dövlətləri və beynəlxalq maliyyə təşkilatları arasında formalaşır və inkişaf edir.

İcra olunan çoxsaylı investisiya əməkdaşlığının məqsədi, subyekti və obyektləri çox vaxt fərqli-fərqli dövlətlərin tərkibindən ayrılır. Maliyyə resurslarının təmərküzləşməsi və mərkəzləşməsi istehsal sferasına nisbətən investisiya sahəsində yüksələn xətt üzrə inkişaf etmiş və qloballaşmışdır. Hal-hazırda beynəlxalq investisiya təşkilatları və banklar investisiya sahəsində mövcud rəqabətin həlledici qüvvələri hesab edilirlər.

Dünya iqtisadi əlaqələrininin inteqrasiyası şəraitində beynəlxalq investisiya əməkdaşlığı, maliyyə əməliyyatlarındakı mütərəqqi dəyişikliklər, yeni kommunikasiya sistemləri vasitəsilə həyata keçirilən "elektron valyuta" nın dövriyyəsini nəzərdə tutan "virtual iqtisadiyyat" anlayışının yaranmasına səbəb olmuşdur. Beynəlxalq valyuta əməkdaşlığının əsas atributlarından biri də qlobal maliyyə mühitidir. Qlobal maliyyə mühiti dünya investisiya bazarının inkişafına, bankların maliyyə korporasiyalarının eləcə də investorların qərarlarına təsir mexanizmi olan qlobal və regional mühit nəzərdə tutulur.

Bir çox dövlətlər arasında qurulan iqtisadi əlaqələrin vacib tərəfi olan beynəlxalq investisiyalar İngiltərədə başlayan və qısa zamanda Qərbi Avropa dövlətlərininə sıçrayan sənaye inqilabının təsirindən daha da genişlənərək iqtisadiyyatın əsas elementinə çevrilmişdir. XVIII-XIX əsrlərdə, hətta XX əsrin birinci yarısına qədər, yəni I Dünya Müharibəsinə qədər xarici sərmayənin əsas fəaliyyəti daha varlı regiondan daha kasıb regiona kapital axını ilə assosasiya olunurdu. Xarici investisiyanın mənbəyi 1800 - 1850-ci illərdə İngiltərənin zəruri xammal tələbatını ödəmək üçün müstəmləkəsi altında olan ölkələrdə həyata keçirdiyi sərmayələşdirmə fəaliyyətindən götürür. [2] Digər tərəfdən sənaye inqilabi səbəbindən 1850-ci illərdən sonra Qərbin sənayeləşmiş ölkələrinin sürətlə artan kapital kütləsi iri korporasiyaları bu kapitalı daha səmərəli sahələrə investisiya qoymağa məcbur edirdi.

Beləliklə, sərbəst kapital Avropa sənayesinin tələb etdiyi zəruri xammal təminatı üçün təbii sərvətlərlə zəngin, lakin ucuz iş sisteminə sahib olan az inkişaf prosesi keçmiş müstəqil və ya müstəmləkə ölkələrə istiqamətləndirilmişdir [3]. Nümunə olaraq, Seylon çay plantasiyalarının, Şərqi Afrika banan plantasiyalarının və mədən sənayesinin inkişafına qoyulmuş sərmayələri qeyd etmək olar. Bu istiqamətdə atılan ilk addım kimi çağdaş beynəlxalq istehsalı göstərmək olar. Bu prosesin öncüllərindən olan Amerikaya aid Singer şirkəti bir Fransız şirkətinə lisenziya verərək tikiş maşınlarının istehsalını həvalə edir.

XIX əsrin son illərində milli bazarlar artıq iri sənaye şirkətlərinin tələbatlarını ödəyə bilməyəcək hala gəlmişdilər və bu zəruriyyətdən onlar öz fəaliyyətlərini daha da böyük coğrafiyada, sərhədlər xaricində davam etdirməyə qərar verdilər. Nəticədə Qlazqoda 1867-ci ildə, ölkə sərhədlərindən kənarda fabrik quraraq bir ilkə imza atılmışdır. Digər nümunə, Alman kimya sənayesi maqnatı Alfred Bayer New York şəhərində, "Westinghouse" korporasiyası isə Paris şəhərində 1865-ci ildə əyləc istehsal edən ilk sərhəddən kənar fabrikini açmışdır.

Müasir dünyanın ən vacib istiqamətlərindən olan qloballaşma spesifik xüsusiyyətlərinə görə XIX əsr proseslərindən fərqlənsə də formal olaraq yeni deyil. Qloballaşmadan danışarkən qeyd olunmalıdır ki, bu anlayış öz mənbəyini TMK-ların yaranması

zamanından götürür. Bir çox mənbələrdə qloballaşma prosesinin Amerikanın kəşfinə qədər gedib çıxdığını görürük [4]. Bu ərəfədə qloballaşma zamanın xarakterinə uyğun olaraq ticari qloballaşma olaraq da adlandırılır. Qloballaşma əsasən sənaye inqlabından qaynaqlanan istehsalın ekspansiyasından təzahür etmişdir. Başqa sözlə, istehsal bolluğu sayəsində artan ticari dövriyyə mərhələli olaraq TMK-ları inkişaf etdirərək müasir səviyyəsinə qədər formalaşdırmışdır. Sənaye inqlabı pik nöqtəsinə qədər irəliləmiş, müstəmləkə ölkələrinin yeraltı və yerüstü sərvətlərinin Qərbə daşınması ilə nəticələnmişdir. Sənayenin qloballaşması prosesi ərəfəsində Şimali Avropanın o dövr üçün zəif inkişaf etmiş ölkələri olan Norveç, İrlandiya və digər ölkələrdən ABŞ-a kütləvi olaraq insan köçü müşahidə olunmuşdur [5]. XX əsrin sonlarına doğru ölkələrarası maneələrin sadələşdirilməsi nəticəsində inteqrasiyanın sürətlənməsi maliyyə qloballaşmasının vacibliyini diktə etmişdir. Qloballaşma beynəlxalq ticari proseslərdə, beynəlxalq maliyyə axınında, beynəlxalq istehsal prosesinin sərbət təzahüründə daha çox özünü göstərir [6]. Sərbəstləşmiş istehsal, yəni qlobal istehsal əsasən üç istiqamətdə diqqəti cəlb edir:

- birbaşa xarici sərmayələr;
- əməyin (işçi qüvvəsinin) sərbəst hərəkəti;
- qlobal informasiya.

Dünya iqtisadi əlaqələrinin inteqrasiyası mühitində beynəlxalq valyuta idxal-ixrac əməliyyatlarının həyata keçirilməsindən asılı olsa da, beynəlxalq investisiyaların əsas subyekti dövlət və maliyyə institutlarıdır. Beynəlxalq investisiya əməkdaşlığının yaranması və inkişafı fonunda müxtəlif subyektlər böyük həcmdə əmtəə və valyuta ehtiyatlarının toplanması, həmçinin maliyyə resusrlarına ölkə sərhədlərindən kənarda yaranan tələbat təsir edir. Beynəlxalq investisiyanın mövcudluq forması kimi çıxış edən beynəlxalq kredit, milli iqtisadiyyatın hüdudlarını aşır. Belə ki, beynəlxalq investisiya mənbələri müxtəlifdir və bura bir sıra vəsaitləri aid etmək olar.

### İstifadə olunmuş ədəbiyyat siyahısı:


1. Tong, D., Sun, Y., Tang, J., Luo, Z., Lu, J., & Liu, X. (2023). Modeling the interaction of internal and external systems of rural settlements: the case of Guangdong, China. *Land Use Policy*, *132*, 106830.

2. Long, H., Qu, Y., Tu, S., Zhang, Y., & Jiang, Y. (2020). Development of land use transitions research in China. *Journal of geographical sciences*, *30*, 1195-1214.

3. Pan, W., Wang, J., Lu, Z., Liu, Y., & Li, Y. (2021). High-quality development in China: Measurement system, spatial pattern, and improvement paths. *Habitat international*, *118*, 102458.

4. Tian, J., Wang, B., Zhang, C., Li, W., & Wang, S. (2020). Mechanism of regional land use transition in underdeveloped areas of China: A case study of northeast China. *Land Use Policy*, *94*, 104538.

5. Paul, J., & Feliciano-Cestero, M. M. (2021). Five decades of research on foreign direct investment by MNEs: An overview and research agenda. *Journal of business research*, *124*, 800-812.

6. Brada, J. C., Drabek, Z., & Iwasaki, I. (2021). Does investor protection increase foreign direct investment? A meta-analysis. *Journal of Economic Surveys*, *35*(1), 34-70.

*Əmirxanova Səidə Azər qızı,*
*magistrant,*
*Bakı Biznes Universiteti,*
*Email:amirxanova.saida@mail.ru*

# DAYANIQLI İQTİSADİ İNKİŞAFIN MAHİYYƏTİ VƏ ƏSAS XÜSUSİYYƏTLƏRİ

Müstəqilliyinin bərpasindan 30 il sonra Azərbaycan öz iqtisadiyyatını dəfələrlə artırmış, regionda iqtisadi, siyasi və hərbi üstünlüyə malik olmuş, islahatçı ölkə olmaqla xalqın rifahını yaxşılaşdırmış, ərazi bütövlüyünü tam bərpa etmiş, eyni zamanda Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin kəsişməsində dünya iqtisadiyyatının inkişafı üçün mühüm məkana çevrilmişdir. Növbəti 10 il ərzində isə qarşıdakı hədəf ölkə iqtisadiyyatını daha iki dəfə artırmaq, dövlət və cəmiyyət olaraq əldə edilən uğurları daha da möhkəmləndirmək, yeni-yeni müvəffəqiyyətlər əldə etmək, tərəqqidə olmaqdır. Təbii ki, bunun təməlində güclü iqtisadiyyat dayanır. Ulu Öndər Heydər Əliyevin təbirincə desək "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir".

Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev cənablarının rəhbərliyi altında institusional islahatlar elektron hökümətin daha da inkişafını, reaktiv xidmətlərdən proaktiv xidmətlərə transferi, məqsədyönlü, operativ və mobil idarəetməni stimullaşdırır. Fərəhləndici haldır ki, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair milli Prioritetlər"ə əsasən ölkə əhalisinin inkişaf səviyyəsinin davamlı yüksəlməsi naminə dayanıqlı iqtisadi inkişafın sürətli xarakter alması, işğaldan azad edilmiş ərazilərə əhalinin mərhələ-mərhələ qayıdışının təmin edilməsi Azərbaycanın yeni inkişaf xəttinin əsasını təşkil edir. Beləliklə, Azərbaycanın uzunmüddətli, davamlı və sürətli inkişafından ötrü cəmiyyət, biznes və dövlət üçlüyünün uğurlu qarşılıqlı əlaqəsi getdikcə daha da möhkəmləndirilməkdədir (1, s.15).

Qeyd etmək yerinə düşərdi ki, "2021-2025-ci illərə dair sosial- iqtisadi inkişaf Strategiyası" Qarabağın inkişafı strategiyası və Rəqəmsal tranformasiya konsepsiyası kimi ölkəmizin inkişaf xəttini təyin edən vacib əhəmiyyətli normativ hüquqi aktların yerinə yetirilməsi artan dinamika ilə davam etməkdədir ki, bütün bu proseslərdə davamlı inkişaf konsepsiyasının mühüm əhəmiyyəti danılmazdır. Bu konsepsiya sivilizasiyanın inkişaf modeli olmaqla, "sosial-iqtisadi problemlər ilə ətraf mühitin qorunması arasında dünya balansının təmin edilməsi zərurətindən irəli gəlir" (2, s. 470).

"Dayanıqlı inkişaf " anlayışı ilk dəfə Qru Harlem Bruntlanlın rəhbərliyi ilə Birləşmiş Millətlər Təşkilatının Ətraf mühit və inkişaf üzrə ümumdünya komissiyası tərəfindən 1987-ci ildə təqdim olunan "Bizim ümumi gələcəyimiz" mövzusundakı məruzəsində göstərilmişdir (2, s.470). Bu anlayışda müasir dövr nəslinin həyati tələbatının ödənilməsinə gələcək nəslin bu cür imkandan məhrum qalması sayəsində əldə olunmasını nəzərdə tutan inkişaf modeli ifadə olunurdu. Yer kürəsində, xüsusən də sürətli inkişaf yolunda olan ölkələrdə əhalinin partlayışlara oxşar bir şəkildə artımı yoxsul ölkələrdəki əhali artımı ilə fərqlilik təşkil edir və həyat səviyyələrindəki belə fərqlilik getdikcə dərinləşir, ekolojı, sosial və iqtisadi planda disbalansa (balansın pozulmasına) səbəb olur. 1992-ci ildə Rio-de-Janeyroda BMT-nin "Ətraf mühit və inkişaf üzrə konfransı"nda qeyd edilirdi ki, yaranan disbalans ekoloji fəlakəti sürətlə yaxınlaşdırır. Məhz belə ekolojı fəlakətin qarşısının alınması üçün dünya birliyi ölkələrinin dayanıqlı

inkişaf xətti ilə getməsi vacibdir. Bu konfransda qəbul edilən "Ətraf mühit və inkişaf üzrə Rio-de-Janeyro Bəyannaməsi" bu baxımdan çox mühüm əhəmiyyətə malikdir. Konfransda həmçinin dünya sivilizasiyasının dayanıqlı inkişafa nail olması istiqamətində vacib prinsiplər üzrə dövlətlərin qarşısında duran öhdəliklər elan edildi (2, s. 470).

Dayanıqlı inkişaf konsepsiyasında sosial, iqtisadi və ekolojı mühitlər arasındakı qarşılıqlı əlaqəliliyin müsbət nəticələnməsi milli dövlət mənafeləri, dünya birliyinin mənafeləri, dayanıqlı inkişafın prinsipləri, başlıca tələbləri və transmilli korporasiyaların mənafeləri və s; arasında yaranan köklü ziddiyyətlərin həllindən, heç olmasa yumşaldılmasından bilavasitə asılıdır. Belə qarşılıqlı əlaqəliliyin nizamlılığında məqsədyönlü dayanıqlı inkişaf nəticəsində qaneedici, ədalətli və yol verilə biləcək durumların sosial-iqtisadi xüsusiyyətçiliyin daha da özünü göstərməsi də bu nizamlılığa təkan verməlidir.

Qeyd edək ki, inkişafın dayanıqlığının təmini üçün bu prosesə bir sira istiqamətlərdən baxılmalıdır. Burada iqtisadi inkişafın rolu böyükdür. İqtisadiyyatın dayanıqlığı sosial iqtisadi və ətraf mühitlə əlaqəli istiqamətlərə bərabər formada yanaşmaq və balanslı inkişafa önəm verilməlidir. Təbiidir ki, bu 3 aspektdən hansının vacib əhəmiyyətliliyi mübahisəlidir. Məsələn, əgər bu gün vacib ekolojı xərclərə önəm verilməsə, yəni ekolojı gərginlik baş verərsə, gələcək üçün iqtisadi inkişafa əngəl yaradan səbəb kimi ekolojı natarazlıq ön plana keçəcək.

Dayanıqlı iqtisadi inkişafda bütövlükdə iqtisadi inkişaf sisteminin dayanıqlığı, dayanıqlı istehsalın mövcudluğu, xarici borclardakı idarəetmədə dayanıqliğın təmini, sənayenin və kənd təsərrüfatının davamlı inkişafında balansın sabit saxlanılmasına nail olunması, insanların rifahının yüksək səviyyəyə qaldırılması vacib amillər sırasındadır. Digər tərəfdən, dayanıqlı iqtisadi inkişaf üçün dövlətin mövcud potensialından səmərəli istifadə, eyni zamanda elmi-texniki tərəqqinin, innovasiya siyasətinin davamlılığının təmin edilməsinə ciddi diqqət yetirilməlidir. Bu prosesdə iqtisadi inkişaf baxımından, sosial baxımdan innovasiyaların davamlılığı, dayanıqlığı təmin edilməli, bu və digər vacib əhəmiyyət kəsb edən istiqamətlərə investisiya qoyuluşları kompleks xarakter daşımalıdır.

Tərəqqi prosesi üçün dayanıqlı iqtisadi inkişafın daim təkmilləşdirilməsi, bu prosesin davamlı və uzun müddətliliyinə nail olunmalıdır. Bütün bu proseslərdə kortəbiiliyə qəti yol verilməməlidir.

Davamlı inkişaf prosesinin idarə edilməsinin əhəmiyyəti çox vacibdir. İnkişaf göstəriciləri haqqında maarifləndirmə və məlumatlandırmanı xüsusilə qeyd etmək lazımdır. Eyni zamanda davamlı inkişafda insan inkişafının sağlamlıq göstəriciləri də xüsusilə göstərilməlidir. Davamlı inkişafda əsas xüsusiyyətlər, inkişaf məqsədləri, texnogen gərginləşmənin getdikcə artmasının geniş tədqiqinə zərurət vardır (10, səh. 108).

Ölkəmizdə inklüziv inkişafda investisiya qoyuluşu vacib amildir. Bu istiqamətdə inklüziv inkişafın xüsusiyyətləri, əsas göstəriciləri və idarəetmədə müasir metodologiyaların əhəmiyyəti araşdırmamız baxımından dəyərlidir.

Azərbaycan iqtisadiyyatının davamlı inkişafının təmin olunması bilavasitə regionların istehsal potensialının artırılması ilə əlaqədardır.

Dayanıqlı inkişafda həmçinin dayanıqlılığın təmin edilməsi üçün ayrı-ayrılıqda fərdlərin zehni qabiliyyəti, düşüncəsi, bacarıqlarına cəmiyyətdə geniş yer verilməsi, onların innovativ fəaliyyətlərinin stimullaşdırılması da vacib amillərdəndir. İqtisadi artımın daim yeniləşdirilməsi, canlandırılması, qida, su, enerji və sosial xidmətlərdə

əhalinin tələbatının davamlı ödənilməsi, dayanıqlı demoqrafik artıma nail olunması, qərar vermə proseslərində ətraf mühit, texnologiya və iqtisadi potensial imkanlarının birlikdə dəyərləndirilməsi də mühümdür. Əlbəttə bütün, bu fəaliyyətlərdə dövlətin siyasi-iqtisadi siyasətinin düzgün qurulması önəmlidir. Bu baxımdan Azərbaycan dövləti cəmiyyətimiz üçün siyasi sistemini yaratmış və təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan həm siyasi, həm də iqtisadi, ekoloji və digər sahələr üzrə sistemli strategiyalar üzrə möhtərəm Prezidentimiz İlham Əliyev cənabları tərəfindən dayanıqlı, davamlı, məqsədyönlü, daim təkmilləşən, yeniləşən, dinamik inkişaf prosesi böyük müvəffəqiyyətlə yerinə yetirilir, bütün istiqamətlər üzrə uğurlar qazanılmaqdadır.

Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çox böyük uğuru, dəmir yumruğunun güclülüyü, polad iradəsi, əsgərlərimizin qəhrəmanlığı, xalqımızın birliyi nəticəsində torpaqlarımızın hamısı azad edilmişdir, hazırda həmin bölgələrdə, şəhərlərdə quruculuq və bərpa işləri, əhalinin doğma yurd-yuvalarına qayıdışı uğurla davam edir.

Hazırda Azərbaycan dövlətinin iqtisadi siyasəti istiqamətlər üzrə uğurla reallaşdırılmaqdadır. Azərbaycan dövlətinin xarici ticarət siyasəti, gömrük siyasəti və istiqamətlər üzrə təkmilləşdirilməsi, vergi siyasəti və həmçinin vergi mexanizmi, onun təkmilləşdirilməsi, dövlət büdcəsinin formalaşdırılmasında vergi və rüsumların rolunun düzgün qiymətləndirilməsi, pul-kredit siyasəti, onun istiqamətlər üzrə fasiləsiz təkmilləşdirilməsi ölkənin maliyyə sabitliyinin daim təmin edilməsi, iqtisadi təhlükəsizliyin istiqamətlər üzrə tam təmini, nəqliyyat-siyasəti, ətraf mühitin mühafizəsi və ekoloji təhlükəsizliyin təmin edilməsi uğurla yerinə yetirilməkdədir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qeyd edir ki, "Biz gələcəyə çox böyük nikbinliklə baxırıq. Siyasi və ictimai-siyasi vəziyyət baxımından Azərbaycan çox sabit ölkədir və Azərbaycana birbaşa xarici investisiyaların qoyulması bunu əks etdirir. İqtisadi potensialın möhkəmləndirilməsində uğurlar göz qabağındadır. Eyni zamanda, bütün bu nailiyyətlərə baxmayaraq, Azərbaycanda islahatlar davam etdirilir və etdirilməlidir. Həm siyasi sahədə, həm də iqtisadi sahədə. Çox sevindirici haldır ki, ən böyük maliyyə qurumu olan Dünya Bankı bu il Azərbaycanı dünya miqyasında bir nömrəli islahatçı ölkə kimi tanıyıbdır. Bu, onu göstərir ki, bizim islahatlarımız həqiqətən çox cəsarətlidir, uğurludur və əhəmiyyətlidir" (4, s.6).

Qeyd etmək vacibdir ki, Azərbaycan iqtisadiyyatının 100 il ərzində inkişaf tarixi, xüsusilə də son 30 illik təcrübəsi onu göstərir ki, yalniz müstəqil dövlət, onun güclü lideri, yaratdığı təkmil iqtisadi-siyasi sistemi ölkənin dinamik inkişafının, sabitliyinin əsaslarını möhkəmləndirir.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**


1. Qasımlı V.Ə. İqtisadi artım. Bakı,2021,"Az Print MMC" Nəşriyyatı,234 səh
2. Böyük iqtisadı ensiklopediya. 4 cilddə, 1 cild, Bakı, "Şərq-Qərb" Nəşriyyat evi, 2012, 612 səh.
3. Ələkbərov U. Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları. Ali məktəblər üçün dərslik Bakı, "Təhsil", 2013, 224 səh.
4. Şəkərəliyev A.Ş. Dövlətin iqtisadi siyasəti: reallıqlar və perspektivlər (Monoqrafiya). Bakı, "İqtisad Universiteti", 2021, 415 səh.

*İsmiyev Zaur Cümşüd oğlu,*
*magistrant,*
*Bakı Biznes Universiteti,*
*E-mail: z.ismiyev85@gmail.com*

# "BİR KƏMƏR, BİR YOL" LAYİHƏSİNİN AZƏRBAYCAN İQTİSADİYYATINA TƏSİRİ

Dinamik inkişaf səviyyəsinə görə dünyanın diqqətini cəlb edən "Bir kəmər, bir yol" layihəsi Avrasiya məkanında mövqeyini getdikcə genişləndirməkdədir. Müasir dövrdə ən iddialı iqtisadi inkişaf strategiyası hesab olunan "Bir kəmər, bir yol" layihəsi Azərbaycanı da özündə birləşdirən Çin, Mərkəzi Asiya və Qərbi Asiya iqtisadi dəhlizidir. Bu təşəbbüs "Quru İpək Yolu" və "Yeni Dəniz İpək Yolu" adlanan iki layihədən ibarətdir. Quru marşrutu Çindən Orta və Cənubi Asiyaya, oradan Avropaya, dəniz yolu isə Cənub Şərqi Asiyaya, Körfəz ölkələrinə, Şimali və Şərqi Afrikaya və Avropaya qədər uzanır. Azərbaycan bu layihədə təbii olaraq Çin-Orta Asiya- Qərbi Asiya (Şərq-Qərb) dəhlizi üzərində yerləşən iştirakçı ölkədir.

Qeyd etmək lazımdır ki, layihənin maliyyə dəyəri ümumi olaraq 8 trilyon ABŞ dollarına qədər olması proqnozlaşdırılır. "Bir kəmər, bir yol" layihəsinin beynəlxalq nəqliyyat dəhlizlərinin qovşağında yerləşən Azərbaycana da müsbət şəkildə təsir göstərəcəyi şübhəsizdir. Çin və Azərbaycan xalqları arasında qədim tarixə malik dostluq münasibətləri mövcud olduğundan, Azərbaycan Çinin irəli sürdüyü "Bir kəmər, bir yol" layihəsinə Qafqaz regionunda dəstək verən ilk ölkə olmuşdur.

Həmçinin, "Bir kəmər, bir yol" strategiyasının həyata keçirilməsində Azərbaycan Respublikası logistik mərkəz və körpü-dəhliz rolunu oynayır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci ilin dekabr ayında Çinə rəsmi səfəri çərçivəsində imzaladığı Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında İpək Yolu İqtisadi Kəmərinin yaradılması, birgə təşviqinə dair Anlaşma Memorandumu Azərbaycan və Çin dövlətləri arasında mühüm və beynəlxalq əhəmiyyətli sənəd hesab olunur. Bununla bağlı "Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviqi haqqında Anlaşma Memorandumunun təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 14 yanvar tarixli 731 nömrəli Fərmanı imzalanmışdır.

Son illər Azərbaycan hökuməti layihənin aktiv tərəflərindən biri olmaq baxımından bir çox investisiyalar, ölkələrarası münasibətlər və meqa layihələrdə təmsil olunmağa başlamışdır. Dünya Bankının açıqlamasına görə 2019-cu ildə Azərbaycana ayrılan beynəlxalq investisiyanın miqdarı 1.5 milyard ABŞ dolları həcmində olmuşdur. Bankın araşdırmalarına görə, Azərbaycanın da yerləşdiyi Şərq-Qərb dəhlizi layihə çərçivəsində aktiv istifadə olunarsa, bu kontekstdə ölkəyə yönələn beynəlxalq sərmayənin həcminin artması, dəhliz xətti üzərində yerləşən dövlətlərlə ticari və nəqliyyat münasibətlərinin inkişafı, logistika sahəsinin keyfiyyətinin artırılması və iqtisadiyyatın digər istiqamətlər üzrə inkişafına nail olmaq mümkündür. Lakin bu nəticəni əldə etmək üçün logistika infrastrukturları da yüksək keyfiyyət standartlarına malik olmalıdır.

Dünya Bankının təhlillərinə əsasən, İpək Yolu üzərində yerləşən dövlətlərin ticari sahədə aralarında zaman olaraq 1 günə qənaət etmələri orta hesabla ixracatın

5.2% artmasına səbəb olması deməkdir. Belə ki, dövlətlərarası ticari anlaşmaların mövcudluğu, sərhəd-gömrük məntəqələrində vaxt itkisinin minimuma endirilməsi, təkmilləşdirilmiş logistika infrastrukturunun formalaşdırılması nəticəsində ticarət zamanı tələb olunan zamanın daha da qısaldılması və yeni bazarlara inteqrasiya imkanlarının yaranması deməkdir. Ümumiyyətlə, bu dəhliz üzərində yerləşən ölkələrin infrastrukturlarında yenidənqurma, təkmilləşdirmə və ölkələrarası ticari anlaşmaların bağlanması, sərhəddə itirilən zamanın və qiymətlərin azaldılması istiqamətində qanunların qəbulu nəticəsində ticarətin genişlənməsi və inkişafı daha çox Qərbi Asiya regionunda hiss olunacaqdır. Bu, ticarət sahəsində 7.3% artımla, sərhəd-buraxılış məntəqələrində isə itirilən zamanda 16.6% azalma ilə müşahidə olunacaqdır. Araşdırmalardan gəlinən nəticəyə görə Azərbaycan üzrə bu rəqəmlərin müvafiq olaraq 6.8% artacağı, 16-18% azalacağı proqnozlaşdırılır. Ümumiyyətlə, bu tədbirlərin nəticəsi olaraq Azərbaycanın yeni bazarlara çıxış imkanlarının 5-6% artması proqnozlaşdırılır. Bu göstəricilər Qazaxıstan üzrə 9-10%, Türkmənistan üzrə 8-9%, Gürcüstan üzrə 3-4%, Türkiyə üzrə isə 20-25% gözlənilir.

Azərbaycanın bu layihənin potensial iştirakçısı kimi faydalarını doğru qiymətləndirmək üçün transxəzər nəqliyyat dəhlizi üzərində yerləşmiş ölkələrlə (Türkiyə, Rusiya, Gürcüstan, Azərbaycan, İran, Qazaxıstan) Hindistan və Çin kimi iri iqtisadi gücə malik ölkələrlə əmtəə dövriyəsinin həcmini nəzərə almaq lazımdır.

Azərbaycan "İpək Yolu" layihəsinin bərpası istiqamətində logistik imkanların yaxşılaşdırılması baxımından daha geniş və sistemli hərəkət yolu izləyərək "Gələcəyə baxış: 2020 Kosepsiyası"nı (2012), "Logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi"ni (2016) qəbul etmişdir. Bu proqramlarda logistik infrastruktrun yaxşılaşdırılması yönündə bir sıra tədbirlər planının tətbiq olunması planlaşdırılır. respublikada qeyri-resurs sektorunun inkişafı, 2025-ci ilə qədər və sonrakı illəri nəzərdə tutan logistika və ticarət sahəsində infrastrukturun yaxşılaşdırılması, Azərbaycan respublikasının regional tranzit mərkəz rolunda çıxış etməsi, Ələt limanının işə salınması, azad iqtisadi zonanın təşkili, Bakı-Tbilisi-Qars və Şimal-Cənub nəqliyyat koridoru istiqamətində dəmir yolunun tamamlanması, logistik xidmətlərin keyfiyyətinin artırılması, Bakı və bölgələrdə logistik mərkəzlərin təsisi Strateji Yol Xəritəsinin əsas istiqamətləri olaraq müəyyən edilmişdir.

Tranzit yükdaşıma sahəsində ölkənin potensial imkanlarından daha səmərəli və sistemli yararlanmaq məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 25 oktyabr 2015-ci il tarixli 654 nömrəli Fərmanı ilə Tranzit Yüklərinin Koordinasiyası Şurası yaradıldı. Şuranın başlıca vəzifəsi yükdaşımalarında vahid prinsiplərin tətbiqi, tariflərin yumşaldılması və optimallaşdırılması, logistik təşkilatlarla dövlət qurumlarının fəaliyyətlərinin əlaqələndirilməsi, tranzit prosedur qaydalarının sadələşdirilməsi və təkmilləşdirilməsi, şəffaf sistemin təmini, yükləri qəbul edən ölkələrlə müvafiq qurumlar arasında münasibətlərin formalaşdırılması, ölkə daxilindən keçən nəqliyyat koridorlarının qurulması və s. ibarətdir.

2017-ci ilin 21 noyabrında AB ölkələri və Şərq Tərəfdaşlıq proqramı kontekstində Azərbaycan, Belarusiya, Ermənistan, Gürcüstan, Ukrayna və Moldova Trans Avropa Nəqliyyat Şəbəkəsinin (TEN-T) inkişafı və genişləndirilməsi istiqamətində sərmayələşdirmə hərəkət planına qoşulurlar. Dünya Bankının birbaşa yardımı ilə baş tutan bu planın əsas vəzifəsi nəqliyyat infrastrukturu sahəsində strateji sərmayə prioritet-

lərinin araşdırılmasında və qəbulunda qərarverici orqanlara dəstək olmaqdır. 2030-cu ilədək bitirilməsi planlaşdırılan və büdcəsi 12.8 mlrd. təşkil edən bu sərmayələşdirmə planında Şərq Tərəfdaşlıq ölkələrinin logistika, liman, avtomobil və dəmir yolu, aviasiya və smart nəqliyyat sistemlərinin optimallaşdırılması istiqamətində layihələrin tamamlanmasını hədəfləyir. Bu layihə kontekstində Azərbaycan üzrə beş logistik mərkəzin (Astara, Xaçmaz, Tovuz, Gəncə, Naxçıvan) yaradılması üçün 360 mln. avro, Ələt Azad İqtisadi rayonunun yaradılması üçün 410 mln. avro, Şərq-Qərb dəmiryolu xəttinin siqnallaşdırılması, elektrik və telekommunikasiya sisteminin qurulması üçün 328 mln. avro dəyərində layihələr təklif olunmuş və hazırlanmışdır. 613 mln. dəyərində iki avtomobil yolu layihəsi (613 km), 663 mln. dəyərində iki dəmir yolu layihəsi, 802 mln. avro dəyərində logistik mərkəzlər olmaqla Azərbaycana ayrılmış sərmayənin həcmi 2.078 mlrd. avro təşkil etmişdir. Daha sonrakı mərhələdə proseslər intensiv və genişmiqyaslı xarakter almağa başladı. Əlbəttə ki, "Bakı-Tbilisi-Qars" dəmir yolunun inşasının bu istiqamətdə özünəməxsus çəkisi vardır.

Logistika inftastrukturunun formalaşdırılması ilə əlaqəli 2016-cı ildə qəbul olunmuş Strateji Yol Xəritəsi 2025-ci ilədək bu seqmentin ölkənin ÜDM-ni 605 mln. manat birbaşa və dolaylı olaraq artıracağını, 18.9 min iş yeri açacağını məqsəd olaraq qarşıya qoymuşdur. Buna baxmayaraq nəqliyyat sahəsində 2015-2019-cu illər ərzində muzdla çalışan işçi sayı 3500 nəfər artmışdır. Digər tərəfdən bu Yol Xəritəsi Azərbaycanın regional tranzit daşımalarının həcmini artıraraq aşağıda qeyd etdiyimiz göstəricilərə uyğun fayda götürməyi hədəfləyirdi.

Beləliklə, "Bir kəmər, bir yol" təşəbbüsü iki min ildən çox tarixi olan mədəni mübadilələr tarixinə yeni həyat verərək müxtəlif qitələrdən olan 150-dən çox ölkənin çoxtərəfli inkişafa doğru irəliləməsinə dəstək olmuş, əməkdaşlıq çərçivəsində dünya ölkələrini birləşdirərək bəşəriyyət tarixində mühüm mərhələnin başlamasına səbəb olmuşdur. "Bir kəmər, bir yol" təşəbbüsü XXI əsrin uzunmüddətli, transmilli və sistematik qlobal iqtisadi layihəsi olmaqla yanaşı, daha böyük yaradıcılıq və canlanma nümayiş etdirərək, həm Çin dövləti, həm də dünyanın qalan hissəsi üçün yeni imkan və fürsətlər yaradacaqdır. Gələcək dövrlərdə də "Bir kəmər, bir yol" layihəsinin müəyyən çətinliklərlə qarşılaşacağı qaçılmazdır. Lakin, üzv dövlətlər səylərini birləşdirərək, daha sıx əməkdaşlıq etsələr, qarşıya çıxacaq problemlərin öhdəsindən gələ biləcəkləri şübhə doğurmur.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**


1. Boriçi, G. (2018). China's One Belt and One Road Initiative: The Response to Western Globalization?. ILIRIA International Review, 8(1), 103-115.
2. Ekman, A., NICOLAS, F., PAJON, C., SEAMAN, J., SAINT-MEZARD, I., du ROCHER, S. B., & KASTOUEVA-JEAN, T. (2019). China's Belt & Road and the world: Competing forms of globalization.
3. Mikhalev, MS (2018). Çin'in yeni dış politika stratejisi olarak "Tek Kuşak Tek Yol" Projesi. Çin içindeki tartışmanın kısa analizi. Küresel dönüşümlerin ana hatları: politika, ekonomi, hukuk, 9 (6), 88-103.
4. O'g, U. J. T. Y. (2022). THE POLITICAL SIGNIFICANCE OF THE" ONE PLACE ONE ROAD" INITIATIVE. World Economics and Finance Bulletin, 15, 82-83.
5. Sekacheva, A. N. (2022). Internal and External Reasons for China's One Belt,

One Road Initiative. Post-Soviet Issues, 9(2), 204-212.
6. Yajun, W., & Lingwei, W. (2017). Theoretical Innovation and Exemplary Value of the Belt and Road Initiative. World Economics and Politics, 3, 4-14.
7. https://greenfdc.org/china-belt-and-road-initiative-bri-investment-report-2023-h1/
8. Çin qlobal dünya iqtisadiyyatında [Mətn] /Z. Ə. Səmədzadə, Bakı: Elm və təhsil, 2009. 607.
9. Azərbaycan və Çin iqtisadiyyatları: müqayisəli araşdırmalar: ("Azərbaycan-Çin iqtisadi əməkdaşlığı" beynəlxalq elmi-praktik konfransının materialları əsasında, Bakı, 21 sentyabr 2017-ci il) /AMEA İqtisadiyyat İnstitutu, Çin Sosial Elmlər Akademiyası İqtisadiyyat İnstitutu; red. N. Müzəffərli (İmanov), P. Çanhun; nəşrə məsul R. Abdullayeva. Bakı 2018.
10. Dünya iqtisadiyyatı: Çin "iqtisadi möcüzə"si /Z.Ə.Səmədzadə; Red.: R.Balayev, Y.Məmmədova, Bakı: Gənclik, 2001

*Atamov Hüsü Rasim oğlu,*
*magistrant,*
*Bakı Biznes Universiteti*

## AZƏRBAYCANDA DAXİLİ BAZARIN QORUNMASI ÜZRƏ DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN SƏMƏRƏLİLİYİNİN ARTIRILMASI İSTİQAMƏTLƏRİ

Daxili bazarın qorunması daxili sahələrin, istehsalçıların və işçilərin maraqlarını ölkənin sərhədləri daxilində qorumağa yönəlmiş siyasət və tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Bu qorunma müxtəlif formalarda ola bilər və beynəlxalq rəqabət şəraitində yerli müəssisələrin rəqabət qabiliyyətini və canlılığını təmin etməyi hədəfləyir. Həmçinin, daxili bazarın qorunması yerli müəssisələri haqsız təcrübələrdən və rəqabətdən qorumaq üçün qaydalar və mexanizmlərin qurulmasını zəruri edir. Bu, Müxtəlif ölkələrin hökumətləri tərəfindən yerli müəssisə və sənaye sahələrinin böyüməsini və inkişafını təşviq etmək üçün istifadə olunan bir strategiyadır. Belə bir qorunma, hələ xarici rəqiblərlə səmərəli rəqabət edə bilməyən yeni yaranan sahələr üçün sərfəli hesab olunur. Yerli müəssisələri və firmaları qoruyarkən, ölkələr öz sərhədləri daxilində iş yerlərini qorumağa və yaratmağa da çalışırlar.

Daxili bazarın qorunması tez-tez xarici rəqabəti məhdudlaşdırmaq baxımından idxal üçün tariflər, kvotalar və ya digər ticarət maneələrinin tətbiq edilməsini əhatə edir. Bundan əlavə, hökumətlər rəqabət qabiliyyətlərini artırmaq üçün yerli istehsalçılara subsidiyalar və ya digər dəstək formaları da verirlər.

Əqli mülkiyyət hüquqlarının qorunması xarici təşkilatlar tərəfindən yerli yeniliklərin və inkişafların icazəsiz istifadəsinin və ya təkrarlanmasının qarşısını alan daxili bazarın qorunmasının başqa bir tərəfidir. Belə bir bazarın qorunması tədbirləri yerli istehsalçılara öz ölkələrində böyümə və firavanlıq üçün bərabər şans təmin etmək üçün hazırlanmışdır. Onlar yerli istehsalçılar və xarici rəqiblər üçün bərabər şərait yaratmaq məqsədi ilə həyata keçirilir. Bununla birlikdə, həddindən artıq proteksionizm səmərəsizliyə, istehlak qiymətlərinin artmasına və ümumi iqtisadi rifahın azalmasına da səbəb ola bilər.

Yerli biznesin qorunması ilə beynəlxalq ticarətin təşviqi arasında tarazlığın təmin edilməsi davamlı iqtisadi inkişaf üçün çox vacibdir. Proteksionist tədbirlər ticarət tərəfdaşları tərəfindən də assimetrik qarşılana bilər ki, bu da ticarət münaqişələrinə və dünya ticarətindəki uğursuzluqlara gətirib çıxarda bilər.

Məlumdur ki, qloballaşma və sərbəst ticarət müqavilələri ölkələrin daxili bazarlarını nə dərəcədə qoruya biləcəyinə təsir etdi. Bu çətinliklərə baxmayaraq, bir çox ölkələr milli iqtisadiyyatlarını dəstəkləmək üçün müxtəlif bazar qorunması formalarını tətbiq etməyə davam edir. Bəzi hallarda isə daxili bazarın qorunması, beynəlxalq səviyyədə rəqabət edə bilənə qədər sənayenin inkişafına töhfə verən müvəqqəti bir tədbir olaraq da görülür.

Bazarın qorunması, böhran dövründə əsas sənaye sahələrinin canlı və davamlı qalmasını təmin edən milli təhlükəsizlik mülahizələri ilə də əsaslandırıla bilər. Həmçinin, daxili bazarın qorunmasının səmərəliliyi siyasətin hazırlanması və həyata keçirilməsindən, eləcə də bütövlükdə iqtisadi vəziyyətdən asılıdır. Bu baxımdan hökumətlər dəyişən iqtisadi şərtlərə və dünya ticarətinin dinamikasına uyğun olaraq bazarın qorunması strategiyalarını daim qiymətləndirməli və tənzimləməlidirlər.

Nəticədə daxili bazarın qorunmasında məqsəd ölkə vətəndaşlarının davamlı iqtisadi böyüməsini, iş yerlərinin açılmasını və çiçəklənməsini təşviq etməkdir. Azərbaycanda daxili bazarın qorunması sahəsində dövlət tənzimlənməsinin səmərəliliyinin artırılması müxtəlif strategiya və tədbirləri əhatə edən kompleks yanaşma tələb edir. Bu baxımdan səmərəliliyin artırılması üçün bir neçə istiqamət var:

1. Hüquqi bazanın gücləndirilməsi: daxili bazarın qorunmasını tənzimləyən hüquqi bazanın hərtərəfli, müasir və beynəlxalq standartlara uyğun olmasını təmin etmək. Bu, ticarət, rəqabət, istehlakçı hüquqlarının qorunması və əqli mülkiyyət hüquqları ilə bağlı qanun və qaydaların yenidən nəzərdən keçirilməsini və yenilənməsini əhatə edir.

2. Ticarət siyasətinin koordinasiyası: İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi və Kənd Təsərrüfatı Nazirliyi də daxil olmaqla ticarət siyasətindən məsul olan dövlət qurumları arasında koordinasiyanı gücləndirmək. Yerli sənayenin qorunmasına yönəlmiş effektiv ticarət siyasətinin hazırlanması və həyata keçirilməsi üçün müntəzəm məsləhətləşmə və əməkdaşlıq üçün mexanizmlər yaradılmalıdır.

3. Monitorinq və icra: dempinq, subsidiyalar və əqli mülkiyyət hüquqlarının pozulması da daxil olmaqla ədalətsiz ticarət təcrübələrini müəyyənləşdirmək üçün monitorinq mexanizmləri gücləndirilməlidir. Gömrük orqanları kimi hüquq-mühafizə orqanlarına müvafiq resursları ayırmaqla onlara qanun pozucularına qarşı vaxtında və effektiv tədbirlər görmək imkanı vermək olar.

4. Bazarlara giriş məhdudiyyətləri: tariflər, kvotalar və tarif olmayan maneələr kimi yerli biznesi təhdid edən idxalın məhdudlaşdırılması üçün tədbirlər görmək lazımdır. İdxal rəqabətinə həssas olan sektorları müəyyənləşdirmək üçün müntəzəm qiymətləndirmələr aparmaq və onları dəstəkləmək üçün məqsədyönlü tədbirlər hazırlamaq məqsədəuyğundur.

5. Yerli biznesin inkişafına kömək: maliyyə yardımı, vergi güzəştləri və infrastrukturun inkişafı da daxil olmaqla məqsədyönlü siyasət və təşviqlər vasitəsilə yerli sənayeyə dəstəyin verilməsi. Rəqabət qabiliyyətini artırmaq və idxaldan asılılığı azaltmaq üçün əsas sahələrə investisiyaları təşviq etmək məsləhətdir.

6. Potensialın artırılması: dövlət tənzimləyicilərinin səmərəliliyini artırmaq üçün insan kapitalının və institusional potensialın inkişafına investisiya qoyulmalıdır. Ticarət siyasəti, bazar tənzimlənməsi və icra fəaliyyəti ilə məşğul olan dövlət işçiləri üçün təlim proqramları təşkil olunmalıdır.

7. Maraqlı tərəflərin cəlb edilməsi: sənaye birlikləri, həmkarlar ittifaqları və istehlakçı qrupları da daxil olmaqla müvafiq maraqlı tərəflərlə dialoq və əməkdaşlığı təşviq etmək lazımdır. Bu qruplarla məsləhətləşmələr ortaya çıxan problemləri müəyyənləşdirməyə və müxtəlif maraqlı tərəflərin maraqlarını tarazlaşdıran fərdi həllər hazırlamağa kömək edə bilər.

8. Təkmil rəqabəti təşviq etmək: inhisarlar, kartellər və qiymət təyinetmə kimi rəqabət əleyhinə təcrübələrə qarşı mübarizə apararaq yerli istehsalçılara bərabər şərait yaratmaq lazımdır. Bazar təhriflərinin qarşısını almaq və ədalətli rəqabəti təşviq etmək üçün rəqabət qanunvericiliyinin və tənzimləmə mexanizmlərinin gücləndirilməsi məqsədəuyğundur.

9. Beynəlxalq əməkdaşlıq: bazarın qorunması ilə bağlı ümumi problemləri həll etmək üçün beynəlxalq təşkilatlar və ticarət tərəfdaşları ilə əməkdaşlığı genişləndirilməlidir. Ticarətin liberallaşdırılmasını təşviq etmək və eyni zamanda yerli istehsalçıları qorumaq üçün regional və çoxtərəfli ticarət müqavilələrində fəal iştirak etməlidir.

10. İnnovasiya və texnologiyaya investisiya: məhsuldarlığı, keyfiyyəti və rəqabət qabiliyyətini artırmaq üçün yerli sənayedə yenilik və texnologiyanın tətbiqi təşviq edilməlidir. Tədqiqat işlərinə, texnologiya ötürülməsinə və innovasiya qruplarına dəstəyin verilməsi məqsədəuyğundur

Azərbaycan bu istiqamətlərə diqqət yetirməklə daxili bazarın qorunması sahəsində dövlət tənzimlənməsini gücləndirə və davamlı iqtisadi artım və inkişaf üçün əlverişli şərait yarada bilər.

*Şükürlü Məhəmməd Rasim oğlu,*
*magistrant,*
*Bakı Biznes Universiteti,*
*E-mail- mshukurov77@gmail.com*

## AZƏRBAYCANIN TÜRKDİLLİ DÖVLƏTLƏRLƏ TİCARƏT ƏLAQƏLƏRİNİN STİMULLAŞDIRILMASI MEXANİZMLƏRİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDIRİLMƏSİ

Azərbaycanın türkdilli dövlətlərlə ticarət əlaqələrinin stimullaşdırılması mexanizmlərinin təhlili ilə müəyyənləşdirilir ki, Xəzər dənizi vasitəsilə mövcud olan logistika - nəqliyyat infrastrukturu və kommunikasiyaları türkdilli dövlətlərdə daha az məsrəflərlə ticarət əlaqələrini genişləndirə bilirlər. Zaman keçdikcə iqtisadiyyatın müxtəlif sahələri üzrə əməkdaşlıq daha da genişlənir. Ümumiyyətlə, qeyd olunan və müəyyənləşdirilən amillərə əsasən deyə bilərik ki, türkdilli dövlətlər arasında ticari-iqtisadi münasibətlərin genişlənməsini zəruri edən inkişaf qanunauyğunluqları mövcuddur [1]. Bu qanunauyğunluqlara əlavə olaraq türkdilli dövlətlərin ortaq mədəniyyətə sahib olması həmçinin, dini və vahid dil qrupuna malik olmaları bu müna-

sibətlərə daha dərin təsir edir. Azərbaycan və Türkiyə arasında 30 ildən artıq dövrdə mövcud olan ticarət münasibətləri təbii olaraq kəmiyyət və keyfiyyət baxımından artma və azalmalarla müşayiət olunmuşdur. Qeyd etməliyik ki, ötən bu dövr türkdilli dövlətlər arasındakı ticari-iqtisadi əlaqələrin dinamikasını təhlil etmək üçün kifayət qədər böyük müddətdir.

Azərbaycan dünyanın mərkəzində, Orta Asiya və Ön Asiyanın qovşağında yerləşir. Bölgənin ən əhəmiyyətli xüsusiyyəti məhz mühüm ticarət yollarının və tarixi quru və dəniz keçidlərinin üzərində yerləşməsidir. Azərbaycan Respublikası özünün strateji mövqeyi ilə bir sıra üstünlüklərə - sosial-siyasi, ticari-iqtisadi üstünlüklərə sahibdir. [2]

Qeyd etmək lazımdır ki, hələ SSRİ dövründə də mövcud olan zəif əlaqələr, Sovet İmperiyasının dağılmasından sonra türkdilli dövlətlər arasında ticarət əlaqələri yeni eraya qədəm qoyaraq, yüksələn xətt üzrə inkişaf etməyə başladı. Müstəqil iqtisadi siyasət yürütməyə başlayan Azərbaycan, dünya ölkələri ilə münasibətlərini və bütün beynəlxalq əlaqələrini nizamlayaraq öz iqtisadiyyatının inkişafına zəmin yaratdı. Müstəqillik əldə etdikdən sonra Azərbaycan başda Türkiyə olmaqla bir çox türkdilli dövlətlərlə azad şəkildə ticari-iqtisadi əlaqələr qurmağa başlamışdır [3].

Türkdilli dövlətlər içərisində Azərbaycana ən yaxın müttəfiqi Türkiyədir. İqtisadi əlaqələrinin ciddi əsasları olan Azərbaycanla Türkiyənin qonşuluq mövqeyində yerləşməsi bütün əlaqələrin, o cümlədən, ticari əlaqələrin daha əlverişli şəkildə həyata keçirilməsini təmin edir. Azərbaycanın Türkiyə ilə quru sərhədinin yalnız Naxçıvanla olmasına baxmayaraq, Baki-Naxçıvan-Türkiyə birbaşa iqtisadi əlaqələrinin inkişafı üçün münbit logistika imkanlarına malikdir. Eyni zamanda, Azərbaycan-Gürcüstan-Türkiyə, eləcə də Azərbaycan-İran-Türkiyə dövlətlərarası əlverişli nəqliyyat-logistika kommunikasiyalarının olması bu iki türkdilli dövlət arasında ticarət əlaqələrinin qurulmasında önəmli faktordur [5].

***Cədvəl.***

**Azərbaycanın türkdilli dövlətlərlə xarici ticarət dövriyyəsi (milyon ABŞ dolları)**

| Türkdilli ölkələr | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Türkiyə | 589.0 | 942.3 | 2648.6 | 2367.2 | 2667.6 | 3042.8 | 4509.6 | 4160.8 | 4661.8 |
| Qazaxıstan | 122.5 | 338.1 | 116.9 | 124.4 | 142.1 | 220.7 | 229.6 | 142.0 | 135.8 |
| Özbəkistan | 102.6 | 32.6 | 17.0 | 15.3 | 30.0 | 43.9 | 82.0 | 82.3 | 111.9 |
| Qırğızıstan | 3.4 | 41.5 | 8.2 | 6.7 | 1.8 | 6.1 | 5. | 5.4 | 9.0 |
| Türkmənistan | 516.5 | 214.6 | 52.4 | 152.3 | 164.1 | 133.0 | 225.7 | 108.8 | 105.0 |

***Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az/ (2023)***

Türkiyənin xarici iqtisadi siyasətinin əsas istiqamətlərindən biri də keçmiş SSRİ-yə daxil olan, Sovet İttifaqı dağıldıqdan sonra isə müstəqillik qazanan ölkələrlə, ən əsası isə türkdilli respublikalarla qarşılıqlı ticari-iqtisadi əlaqələrinin qurulması və inkişaf etdirilməsidir. Bütün bu istiqamətlərdə Azərbaycan Respublikasının payı və əhəmiyyətli rolu inkaredilməzdir. Qeyd etmək lazımdır ki, Türkiyə üçün Orta Asiya türkdilli dövlətləri və Orta Şərqin digər dövlətləri ilə iqtisadi əlaqələrin İran üzərindən həyata keçirilməsi logistik baxımdan daha əlverişlidir.

Azərbaycan və Türkiyə arasında ticari-iqtisadi əlaqələrin inkişafına təsir edən başqa bir amil Türkiyənin zəif təmin olunduğu təbii xammal ehtiyatlarına, eləcə də əsas

yanacaq kimi olan neft və qaz resurslarına yüksək tələbatın olunması ilə bağlıdır. Bu səbəbdən enerji resursları ilə Azərbaycan və regionun digər dövlətləri, eləcə də türkdilli ölkələr tərəfindən təmin olunur. Belə ki, Türkiyə elektrik enerjisinə olan tələbatını daxili çayların üzərində inşa etdiyi SES-lər vasitəsi ilə ödəyir [6]. Beləliklə, Azərbaycan və digər türkdilli respublikalarla əməkdaşlığı şərtləndirən əsas faktorlardan biri həm daxili enerji tələbatını ödəmək, həm də bu enerji resurslarının dünya bazarına çıxışını təmin edən tranzit rolunu oynamasıdır. Digər türkdilli dövlətlərlə Türkiyə Respublikasını əlaqələndirən nəqliyyat logistika dəhlizləri, boru kəmərləri nəqliyyatının müəyyən edilməsində Azərbaycanın coğrafi mövqeyi çox böyük əhəmiyyət kəsb edir.

Türkiyə təkcə bölgədə deyil, həmçinin Avropada böyük sənaye ölkəsi hesab edilir. Demək olar ki, sənaye məhsulları daxili tələbatını tamamilə ödəyir və artan istehsal Türkiyənin Azərbaycanda, ümumiyyətlə bölgədə türk məhsulları üçün yeni satış bazarlarının müəyyənləşdirilməsini labüd edir [7].

Azərbaycan və Türkiyə arasında mövcud olan ticari-iqtisadi əlaqələrə təsir edən mühüm faktorlardan biri də Türkiyənin bir müsəlman və türk dövləti olması ilə səciyyələnir. Türkiyə Azərbaycanın da üzv olduğu bir sıra mühüm regional və beynəlxalq təşkilatlara üzvdür. Ayrıca qeyd etmək lazımdır ki, Türkiyə daim bu təşkilatlar çərçivəsində Azərbaycanın mövqeyini dəstəkləyir.

Türkdilli ölkələr arasında ticari-iqtisadi münasibətlərin inkişafını şərtləndirən əsas amillərdən biri də, müəyyənləşdirdiyimiz kimi təbii resurslar və digər enerji daşıyıcıları, başlıca olaraq neft amilidir. Bununla da, Türkiyə Respublikası yanacaq mübadiləsi ilə təkcə öz tələbatını ödəmir, həmçinin ixracatçı ölkələr üçün, o cümlədən türkdilli dövlətlər üçün həm bazar həm də tranzit ölkə kimi çıxış edir. Türkiyə marşrutu təkcə yanacaq resurslarını Qara dəniz limanına deyil, eləcə də Aralıq dənizinə çıxmasına zəmin yaradır [8].

Azərbaycanda həyata keçirilən meqa layihələr, o cümlədən, Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Qars dəmir yolu xətti, Cənub Qaz dəhlizi türkdilli dövlətlər arasında ticari əlaqələrin inkişafına müsbət təsir göstərən böyük quruculuq və infrastruktur layihələridir. Beləliklə, Azərbaycan Respublikasının etibarlı və səmərəli tranzit ölkə kimi öz mövqeyini təsdiq edib və Azərbaycanın türkdilli ölkələrlə ticarət dövriyyəsi 2023-cü ilin yanvar-dekabr aylarının statistikasına əsasən ötən illə müqayisədə 45% artım müşahidə olunmuşdur.

Son dövrlərdə türkdilli dövlətlər arasında hər tərəfli – mədəni, ticari-iqtisadi, təhsil sahəsində əməkdaşlığın inkişafına təsir edən qurum - TDT beynəlxalq hökümətlərarası təşkilatdır. Belə ki, bu təşkilatın təməli Naxçıvan şəhərində 2009-cu ilin 3 oktyabr tarixində imzalanmış sazişlə qoyulmuşdur. 2012-vi ilin 1 noyabr tarixində "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (TDƏŞ)" adı ilə təsis olunan bu təşkilatın adı 2021-ci ildə dəyişdirilərək Türk Dövlətləri Təşkilatı adı altında fəaliyyətini davam etdirməyə başladı. Azərbaycan Respublikası Türk Dövlətləri Təşkilatının 4 təsisçi ölkəsindən biridir. Hal-hazırda TDT-nın üzvləri siyahısına 5 dövlət – Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan və Qırğızıstan daxildir. Türkmənistan, Macarıstan və Şimali Kipr Respublikası təşkilatda müşahidəçi qısmində təmsil olunurlar. Mənzil qərargahı Türkiyənin İstanbul şəhərində yerləşən bu təşkilatın baş katibi əslən Qazaxıstandan olan Kubanıçbek Omuralıyevdir. Tərəfdaş dövlətlər arasında qarşılıqlı etimadın möhkəmləndirilməsi regional və qlobal sülhün təmin olunması, ortaq xarici siyasətin qurulmasında ortaq münasibətlərin təşviqi TDT-nın əsas fəaliyyət hədəflərindəndir. Ümumiy-

yətlə, məqsəd və vəzifələri Naxçıvan sazişi ilə müəyyən edilmiş bu təşkilat ortaq maraqlardan çıxış edərək bütün sahələr üzrə regional və beynəlxalq əməkdaşlığın gücləndirilməsinə xidmət edir [9].

**Azərbaycan Respublikasının ticarət dövriyyəsində əsas ölkələr (2023- cü il üçün hesabat)**

| Ölkələrin adı | Min ABŞ dolları | Ümumi dövriyyəyə nisbətən %-lə |
|---|---|---|
| **Cəmi** | **17 882 674.29** | **100.00** |
| İtaliya | 5 910 150.66 | 33.05 |
| Türkiyə | 2 585 762.35 | 14.46 |
| Rusiya | 1 387 220.47 | 7.76 |
| Çin | 814 491.06 | 4.55 |
| Hindistan | 612 806.30 | 3.43 |
| Yunanıstan | 585 206.84 | 3.27 |
| Almaniya | 578 933.40 | 3.24 |
| İspaniya | 561 836.86 | 3.14 |
| İsrail | 511 538.64 | 2.86 |
| Gürcüstan | 355 660.97 | 1.99 |
| Çexiya | 353 167.46 | 1.97 |
| Rumıniya | 325 783.03 | 1.82 |
| Fransa | 315 324.89 | 1.76 |
| Türkmənistan | 296 527.32 | 1.66 |
| Avstriya | 175 647.07 | 0.98 |
| **Digər ölkələr** | **2 512 616.97** | **14.06** |

**https://economy.gov.az/storage/files/files/5681/djskFlACu4ghocBceUR5vKh4IiltK8C9i9l1y3CP.pdf**

Qeyd etməliyik ki, təşkilatın ən əsas fəaliyyət istiqamətlərindən biri də ticarət əlaqələri və investisiyaların inkişafı üçün münbit şəraitin yaradılmasını təmin etmək, bununla da hərtərəfli və balanslaşdırılmış iqtisadi yüksəlişə nail olmaqdır. Beləliklə, TDT bu hədəflərlə xalqların sosial və mədəni inkişafına xıdmət göstərən bir təşkilat kimi mövcuddur.

TDT ölkələri arasında logistik nəqliyyat prosedurlarının asanlaşdırılması orta dəhliz boyunca ticari-iqtisadi əməkdaşlığın inkişafına gömrük sərhəd nəqliyyat proseslərinin rəqəmsallaşdırılmasına şərait yaradacaqdır. Bu proses öz növbəsində türkdilli ölkələr arasında həmçinin, dəhliz boyunca yerləşən digər ölkələrin tranzit potensialının inkişafına kömək edəcəkdir. Transxəzər beynəlxalq nəqliyyat marşrutu olan orta dəhlizin mövcudluğu prosesdə iştirak edən dövlətlərin regional və beynəlxalq nəqliyyat sistemlərinə inteqrasiya etməsinə müsbət təsir göstərən əsas faktordur [10].

Əhəmiyyətli məqamlardan biri də, TDT-nın 2021-ci il 12 noyabr tarixində keçirilmiş zirvə görüşündə "Türk dünyası baxışı - 2040" sənədi təsdiq olunmuşdur. Bu sənəddə bir çox əhəmiyyətli məqamlar, o cümlədən, Azərbaycanın işğaldan azad olunmuş tarixi ərazilərinin "Yaşıl enerji" zonasına çevrilməsi istiqamətində türkdilli dövlətlərin yaxından iştirakı xüsusi vurğulanmışdır.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**

1. Çetinkaya, A. F., & Demirel, N. (2024). Analyzing the impact of the organization of Turkic states on the foreign trade of member countries. *Cogent Social Sciences*, *10*(1), 2288370.
2. Baxşəliyev, S. F. (2021). AZƏRBAYCAN RESPUBLİKASININ TÜRKİYƏ CÜMHURİYYƏTİ VƏ TÜRKDİLLİ RESPUBLİKALARLA ƏMƏKDAŞLIĞI HAQQINDA.28-30
3. Hümbatov, M., Hasanov, V., & Haciyev, K. (2022). AZƏRBAYCANIN TÜRKDİLLİ DÖVLƏTLƏRLƏ TİCARƏT, NƏQLİYYAT VƏ TURİZM ƏLAQƏLƏRİNİN İNKİŞAFI. TURAN: Stratejik Arastirmalar Merkezi, 14, 111-118.
4. Maharramov, S. (2021). Econometric Assessment of Azerbaijan's Logistics Capabilities in Terms of Relations with Turkic-Speaking States. *Економічний вісник Донбасу*.
5. Mustofaev, M. (2022). The organization of Turkic States: a new approach to global and regional challenges. *PERCEPTIONS: Journal of International Affairs*, *27*(1), 105-120.
6. Shaukenova, Z. (2019). Turkic Council: Achievements and Prospects. *TURKIC COUNCIL*, 82.
7. https://www.insightturkey.com/commentaries/azerbaijan-and-the-rise-of-turkic-unity-the-journey-of-the-organization-of-turkic-states
8. https://www.turkicstates.org/assets/pdf/yayinlar/turk-konseyi-uye-devletleri-arasindaki-ticaret-ve-yatirim-iliskileri-raporu-ekonomik-iliskilerin-derinlestirilmesine-yonelik-son-egilimler-ve-beklenti-14-tr.pdf

[9]https://economy.gov.az/storage/files/files/5681/djskFlACu4ghocBceUR5vKh4IiltK8C9i9l1y3CP.pdf

*Nəbizadə Fərqanə Firdovsi qızı,*
*magistrant,*
*Bakı Biznes Universiteti,*
*E-mail: fargana.nebizade@gmail.com*

## DÖVLƏT PROQRAMI İMKANLARININ BİZNES MÜHİTİNƏ TƏSİRİ VƏ İNKİŞAF İSTİQAMƏTLƏRİ

Dövlət proqramlarının biznes mühitinə təsiri və inkişaf istiqamətləri həm iqtisadi, həm də sosial cəhətdən ölkənin ümumi inkişaf strategiyasının mühüm bir hissəsidir. Bu tezislərdə, dövlət proqramlarının biznes mühitindəki rolu və onların inkişaf istiqamətlərinə necə təsir etdiyi araşdırılacaq.

Dövlət proqramları müxtəlif sektorlarda biznesin inkişafını dəstəkləmək üçün maliyyə yardımı, vergi güzəştləri, təhsil və texniki dəstək kimi imkanlar təqdim edir. Bu cür proqramlar, xüsusilə kiçik və orta müəssisələrin (KOB) qurulmasına və genişlənməsinə kömək edir. Məsələn, "2022-2026 Dövlət Proqramı" çərçivəsində təhsil və karyera sərgiləri keçirilməsi, yeni məzunların iş bazarına inteqrasiyasını asanlaşdırır.

Dövlət proqramları, həmçinin iqtisadi inkişafın müxtəlif istiqamətlərini müəyyənləşdirir və həyata keçirir. Bu istiqamətlər arasında rəqabətqabiliyyətin artırılması, sənaye diversifikasiyası, ixracın genişləndirilməsi və innovasiya eko-sisteminin gücləndirilməsi var. İqtisadiyyatın hüquqi tənzimlənməsi, borc bazarının inkişafı və bank sığorta bazarının genişləndirilməsi kimi məsələlər də dövlət proqramlarının diqqət mərkəzindədir.

Dövlət proqramı imkanlarının biznes mühitinə təsiri və inkişaf istiqamətlərinin tezisləri, dövlət proqramlarının biznes mühitinə və iqtisadi inkişafın müxtəlif sahələrinə necə təsir etdiyini və bu təsirlərin uzunmüddətli nəticələrini əhatə edir. Dövlət proqramlarının uğurlu icrası, ölkənin iqtisadi dayanıqlılığını və sosial rifahını artırmaqda mühüm rol oynayır.

Azərbaycanın dövlət proqramlarının konkret nümunələri aşağıdakılardır:

1. Regionların İnkişafına Dair Dövlət Proqramları: Bu proqramlar, ölkənin müxtəlif bölgələrində inkişafın yeni əsaslarını yaratmaq və tərəqqi prosesini növbəti uğurlu mərhələyə keçirmək məqsədi daşıyır.

2. Ümumi Təhsil Pilləsinin Dövlət Standartları və Proqramları: Təhsil sahəsində keyfiyyətin artırılması, təhsilalanların bilik və bacarıqlarının inkişaf etdirilməsi üçün dövlət standartları və kurikulumlarını müəyyənləşdirir.

3. Ekologiya və Təbii Sərvətlər üzrə Dövlət Proqramları: Məsələn, "Azərbaycan Respublikasında meşələrin mühafizəsi və davamlı inkişafına dair 2022-2030-cu illər üçün Dövlət Proqramı" və "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya" kimi proqramlar ekoloji rifah və təbii sərvətlərin qorunmasına yönəlib.

Azərbaycanın dövlət proqramları ölkənin iqtisadi və sosial inkişafına töhfə verən strateji tədbirlər silsiləsidir və müxtəlif sektorlarda davamlı tərəqqinin təmin edilməsində mühüm rol oynayır.

Azərbaycanın iqtisadi inkişafı və biznes mühitinin yaxşılaşdırılması üçün həyata keçirilən Dövlət Proqramları, ölkənin müxtəlif bölgələrində inkişafın yeni əsaslarını yaratmaqda və tərəqqi prosesini növbəti uğurlu mərhələyə keçirməkdə mühüm rol oynayır. Bu proqramlar çərçivəsində, qeyri-neft sektorunun davamlı inkişafı, yeni müəssisələrin və iş yerlərinin yaradılması, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılması kimi bir sıra əhəmiyyətli nailiyyətlər əldə olunmuşdur.

Proqramın imkanlarının və tədbirlərinin yaxşılaşdırılması yollarına gəldikdə, bunlar arasında infrastruktur və kommunal xidmətlərin səviyyəsinin yüksəldilməsi, əhalinin həyat səviyyəsinin davamlı olaraq artırılması və regionların sosial-iqtisadi inkişafı sahəsində həyata keçirilən siyasətin əsas nəticələri sayıla bilər. Həmçinin, Avropa İttifaqı və BMT-nin İnkişaf Proqramı kimi beynəlxalq təşkilatların dəstəyi ilə yerli hakimiyyət orqanlarının özəl sektor, dövlət təşkilatları və vətəndaş cəmiyyəti ilə əməkdaşlıq etməklə yerli biznes mühitinin yaxşılaşdırılmasına kömək edə biləcəyi təşəbbüslər də mövcuddur.

İşğaldan azad olunmuş ərazilərdə biznes mühitinin müasir formada inkişaf etdirilməsi, Azərbaycanın iqtisadiyyatının qeyri-neft sektorunu gücləndirmək və bu ərazilərin sosial-iqtisadi bərpasını sürətləndirmək üçün mühüm bir addımdır. Bu istiqamətdə atılan addımlar arasında:

- Sosial sığorta haqlarının subsidiyalaşdırılması: Sahibkarlara verilən dəstək tədbirləri arasında, işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarların

ödədikləri məcburi dövlət sosial sığorta haqlarının dövlət büdcəsi hesabına subsidiya vasitəsilə geri alınması imkanı yaradılıb.

- Böyük Qayıdış Dövlət Proqramı: İşğaldan azad olunmuş ərazilərə dönüşü və bərpa işlərini əhatə edən bu proqram, həmçinin əhalinin doğma torpaqlarına qayıdışını və sosial-iqtisadi inkişafını dəstəkləyir.
- İqtisadi Fəaliyyət Növlərinin Təşkili: Yaradılan əlverişli biznes mühiti sayəsində, mikro, kiçik və orta sahibkarlığın forma qazanması və qeyri-neft sektorunun inkişafı üçün yeni imkanlar açılır.

Həyata keçirilən tədbirlər, işğaldan azad edilmiş ərazilərdə iqtisadi fəaliyyətin canlandırılması və dayanıqlı inkişafın təmin edilməsi üçün əsas yaradır.

*Qəyyumlu Natiq Əlisəfa oğlu,*
*magistrant,*
*Bakı Biznes Universiteti,*
*E-mail: natiq1310@gmail.com*

## AZƏRBAYCANIN İXRAC POTENSİALININ REALLAŞMASINDA BEYNƏLXALQ VƏ REGİONAL BİRLİKLƏRİN ROLU

Azərbaycanda beynəlxalq neft müqavilələri çərçivəsində müvafiq nəqliyyat infrastrukturu tikilmiş, müasirləşdirilmiş və genişləndirilmiş, şaxələndirilərək alternativ neft ixrac marşrutu artıq tam təmin olunuşdur. Bütün bunlar Prezident İlham Əliyevin dediyi kimi, "enerji və nəqliyyat daşımaları dünyanın siyasi gündəminin əsas məsələlərindən birinə çevrilmişdir". Bu gün dominant ixrac marşurutu kimi Bakı-Novorossiysk, QIBK və BTC neft kəmərləri Azerilayt markalı neftini dünya bazarlarına çıxarırlar. Ölkənin ixrac potensialını neft amili baxımından qiymətləndirməyi də unutmaq olmaz ki, burada müxtəlif neft məhsullarının da rolu böyükdür. Bu məhsullara, o cümlədən avtomobil benzini, dizel və aviasiya yanacağı, neft koksu, mazut, neftə, sürtkü yağları, mayeləşdirilmiş qaz və s. aid edilir [1, s.32]. Şübhəsiz ki, bu məhsullar xam neftlə müqayisədə konkret istehlakçı tələbatları baxımından daha strateji hesab olunur və baha qiymətə satılır.

Hər bir ölkədə bu məhsullara böyük ehtiyac var və bu istiqamət nəzərə alınaraq hazırda respublikada həmin məhsulların ixrac potensialını da genişləndirilir. Bu məhsullar yaxın dövlətlərlə yanaşı, bölgədən uzaqda yerləşən ölkələrə də ixrac edilir. Bundan əlavə, Azərbaycanın ixrac potensialında təbii qazın həcmi ildən-ilə artır. Belə ki, hazırda CQBK və illik gücü 30 milyard kubmetr olan digər boru kəmərləri həyata keçirilir. Növbəti mərhələdə Şahdəniz qaz-kondensat yatağının tam miqyaslı işlənməsi inkişafı ilə bu ixrac potensialı daha da artacaqdır.

İxrac potensialının reallaşmasında beynəlxalq və regional birliklər də mühüm rol oynayır. Bu baxımdan Azərbaycan regional əməkdaşlıq çərçivəsində fəaliyyətini genişləndirir. Əməkdaşlıq fəaliyyətləri beynəlxalq və regional təşkilatlarla müna-sibətlərdə ölkəmizin üzərinə götürdüyü öhdəliklərdən irəli gəlir və bu təşkilatlara daxil ol-

maqla ölkələrlə birbaşa əlaqələr şəklində baş verir. Azərbaycan Respublikasının ölkə qrupları üzrə ixrac strukturuna nəzər saldıqda görürük ki, burada MDB çərçivəsində iqtisadi əməkdaşlıq üstünlük təşkil edir. Vurğulandığı kimi, SSRİ-nin tərkibində olmuş və mövcud iqtisadi əlaqələri yaratmış ölkələrlə əməkdaşlığın davam etdirilməsi və genişləndirilməsi üçün tarixi əsas vardır. Əsasən bu regionda respublikanın ixrac potensialının reallaşdırılması həm də məntiqli görünür. Aİ və MDB ölkələri ilə yanaşı, Azərbaycanın mühüm iqtisadi tərəfdaşlıq da etdiyi ölkələrin regional qrupu Ukrayna, Gürcüstan və Moldovanın təmsil olunduğu GUAM-dır. Respublika bu qurumda təmsil olunan ölkələrlə iqtisadi əlaqələrə böyük önəm verir. Ekspertlər yaxın gələcəkdə qrupa daxil olan ölkələrin sayının artacağını, qurumların daha da dərinləşəcəyini bildirir. Azərbaycan GUAM təşkilatının yarandığı gündən onun strateji müttəfiqi olan ölkələrlə xarici ticarət əlaqələrini 10 dəfədən çox genişləndirmişdir. Hazırda bu ölkələrlə xarici ticarət əlaqələrinin respublikanın xarici ticarət balansında xüsusi çəkisi 5%-dən artıqdır və onun ildən-ilə artacağı proqnozlaşdırılır.

Azərbaycan ATƏT və İƏT çərçivəsində iqtisadi əməkdaşlığını artırır və ticarət əlaqələrini genişləndirir. Bəli, son 20 ildə bu təşkilatlara üzv olan ölkələrlə xarici ticarət əlaqələri ümumilikdə 5-7 dəfədən çox artıb. Xarici ticarət sahəsində dinamika bir qədər uzaqda yerləşən MAAT, APEC və ASEAN ölkələri hesabına da genişlənir. Burada son 20 ildəki artım tempi də qeyd olunur. Bu, bir daha onu göstərir ki, Azərbaycanın ixrac potensialını reallaşdırmaq üçün ən ucqar yerlərdə belə bazarlar mövcuddur. Bu bazarlara girmək və orada rəqabəti davam etdirmək olduqca çətindir. Ona görə də ilk növbədə respublikada ixrac potensialına malik olan təşkilatlar yaxın və uzaq bazarları öyrənmək, orada rəqabətin səviyyəsini öyrənmək üçün marketinq xidmətlərini gücləndirməli, bu istiqamətdə marketinq tədqiqatlarını genişləndirməlidirlər [2, s.34]. Dünyada iqtisadi potensialı daha yüksək olan ölkələri birləşdirən OECD ilə əlaqələr iqtisadi baxımdan getdikcə daha çox əhəmiyyət kəsb edir. Bu ölkələr qrupu ÜTT-nin prinsipləri əsasında fəaliyyət göstərir və müvafiq sahədə kifayət qədər keyfiyyət üstünlükləri əldə edir. Hazırda Azərbaycanın bu təşkilatı təmsil edən əsas ölkələrlə ticarət dövriyyəsi ən böyük çəkiyə malikdir. Araşdırmalar göstərir ki, Azərbaycan İƏT ilə əməkdaşlıq fəaliyyəti istiqamətində tədbirlərini genişləndirməli və ilk növbədə dünya ticarətinin 96%-ni həyata keçirən ÜTT-nin tamhüquqlu üzvü olmalıdır.

Son illərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev elmin, təhsilin və yüksək texnologiyaların inkişafını prioritet məsələ elan edib. Ona görə də neft kapitalının insan kapitalına, Azərbaycanın isə regionun güclü informasiya-kommunikasiya mərkəzinə çevrilməsi istiqamətində mühüm dövlət tədbirləri həyata keçirilir. Ölkədə yüksək texnologiyalara əsaslanan qida sənayesi yaranır və inkişaf edir. Həm müdafiə, həm də mülki sənaye kontekstində İKT-nin inkişafı və onun ölkə üçün mühüm özəl resurs olması üçün səylər göstərilir. Xarici iqtisadi əməkdaşlığı dərinləşdirməklə bu tədbirlərin səmərəliliyini artırmaq olar. Respublikanın hazırda artan iqtisadi qüdrəti elmi-texniki əməkdaşlıq istiqamətində ixrac potensialının reallaşdırılmasına imkan yaratmışdır. Türkiyə, Rusiya, ABŞ və Qərbi Avropa ölkələri ilə əlaqələr nəqliyyat, rabitə və aerokosmik istiqamətdə inkişaf etdirilərək əməkdaşlıq proqramları sayəsində Azərbaycan bu ölkələrlə yanacaq energetika kompleksinə malik olmuşdur.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**

1. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli sərəncamı, Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər, Bakı-2021, 5 s.
2. “Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı”. Bakı, 26. 12. 2014.
3. “Azərbaycan 2020: Gələcəyə baxış” inkişaf konsepsiyası. 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.Bakı.2016.
4. Azərbaycan statistik göstəriciləri 2021. Bakı. 2019. 788 s.

*Мамедли Гюлай Ариф кызы,*
*магистрант,*
*Бакинский Университет Бизнеса,*
*E-mail:gulay.memmedli.01@mail.ru*

## ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ МОБИЛЬНОГО БАНКИНГА В БАНКАХ

Современные технологии позволяют экономить ресурсы и время при общении с объектом исследования. Это гарантирует, что электронный банкинг имеет перспективу развития и количество его клиентов увеличится до максимума.

В целом развитие ИКТ в банковском секторе выявило следующие особенности:

- рынок банковских услуг охвачен, становится массовым, а с расширением масштабов услуг создается дополнительная возможность получения дохода;
- формируются новые сферы применения банковского капитала и создаются дополнительные каналы получения доходов за счет диверсификации;
- предоставление персональных банковских услуг высокообразованным и прибыльным клиентам приводит к росту наукоемких банковских услуг;
- С применением CRM-систем открываются дополнительные возможности за счет индивидуального подхода к клиентам.

В настоящее время существует несколько моделей развития Лео банка в сфере электронного банковского бизнеса [4, с.52]:

- Интернет-раздел основного онлайн-банка;
- Интернетбанк, созданный онлайн-банком как самостоятельное юридическое лицо со своим брендом;
- виртуальный банк, созданный небанковскими предприятиями (страховыми, технологическими и т.п.), аналогичный интернет-банку;
- агрегатор электронных финансовых супермаркетов (банк, организующий через Интернет продажи собственных продуктов и услуг других финансовых организаций).

Первые две из этих моделей более развиты. Первая модель действует больше на внутреннем рынке, а вторая – на международных финансовых рынках.

Помимо этого следует отметить, что по сравнению с другими видами дис-

танционного банковского обслуживания, предоставляемыми в режиме онлайн, перспективность услуг, предоставляемых через системы «Интернет-банк» и «банк-клиент», выше. Это объясняется следующими причинами [10, с.49]:

1. Число пользователей Интернета во всем мире постоянно увеличивается. Если в 2005 году число пользователей Интернета в мире приближалось к 1 миллиарду, то сейчас это число превысило 3 миллиарда.

2. Увеличение количества потребителей банковских продуктов и услуг, реализуемых через глобальную сеть Интернет.

3. Стремительный рост числа активных клиентов Интернета дает банкам возможность быстро увеличивать количество потребителей банковских продуктов и услуг, предоставляемых через эту глобальную сеть.

4. Минимизация затрат через интернет-сеть на обслуживание клиентов банковскими продуктами.

5. В связи с развитием электронной коммерции возникла необходимость предоставления банковских услуг физическим лицам через сеть Интернет.

Помимо электронных банковских услуг, упомянутых банками, работающими в странах Балтии, клиентам также предоставляются такие банковские услуги, как процедуры с ценными бумагами (инвестиционный вид) [2, с.71-74]. Банки, работающие в Австралии, предлагают своим клиентам все банковские услуги посредством электронного банкинга. С этой точки зрения считаю целесообразным расширение спектра банковских услуг, предоставляемых банками нашей страны посредством электронного банкинга.

Действующие на территории страны ОАО «Юнибанк» и «Леобанк» не взимают с пользователей ежегодную плату за обслуживание за пользование интернет-банкингом. Другие банки взимают с клиентов комиссию за годовое обслуживание в размере максимум 4 манатов (ОАО «Банк Баку») и минимум 1,5 манатов (ОАО «Капитал Банк») [7, с.9].

В нашей стране практически нет разницы между взимаемой банками комиссией за банковские услуги, предоставляемые клиентам в банке и через интернет-банкинг [3, с.18].

***Таблица 1.***

**Сравнительные тарифы на банковские услуги, предоставляемые банками нашей страны через банк и интернет-банкинг (для физических лиц)**

| Название банковской услуги | Beynəlxalq Bank | | Kapital Bank | | Bank Respublika | | Leobank | |
|---|---|---|---|---|---|---|---|---|
| | В банке | Через Интернет-банкинг | В банке | Через Интернет-банкинг | В банке | Через Интернет-банкинг | В банке | Через Интернет-банкинг |
| Из средств, переведенных со счета на счет (внутренний) (в %) | 0.15 | 0.15 | 0.1 | - | 0.2 | 0.2 | 0.12 | 0.12 |
| Платежи (налог, пошлина и т.п.) (в %) | 0.05 | 0.05 | 0.15 | 0.15 | 0.3 | 0.3 | - | - |
| Конверсия (в %) | 0.6 | 0.5 | 0.5 | 0.5 | 0.5 | 0.5 | 0.8 | 0.8 |
| Прямой дебет (в %) | 0-0.15 | 0-0.15 | - | - | 0.3 | 0.3 | - | - |

***Источник: [3, с.18].***

Существуют разные формы электронных денег, одна из которых — смарт-карты. На данный момент Леобанк предлагает различные типы смарт-карт:

Смарт-карты можно использовать для следующих целей:

- загрузка определенных финансовых данных;
- использовать для звонков;
- платежи электронными деньгами;
- использование транспортных средств;
- совершение покупок в интернет-магазинах (через картридеры);
- проведение любой операции через POS-терминалы;
- в качестве удостоверения личности;
- и для других целей.

Преимущества карты:

- быть быстрым и умным
- легкая портативность
- функциональность (возможность не носить с собой дополнительные дебетовые, кредитные карты, карты пользования транспортным средством и другие карты)
- высокая безопасность
- возможность работать в оффлайн и онлайн режиме.

**Список использованной литературы:**


Bundan əlavə, sığorta şirkətlərinin daha sabit fəaliyyəti üçün gəlirlilik səviyyəsini formalaşdırmağa imkan verən əməliyyat mühitinin yaradılması vacib hesab olunur. Sığorta şirkətlərinin fəaliyyətində gəlirlərinin formalaşması mənbələri vacib amillərdir və onlarla tədbirlər görmək də vacibdir, əgər praktik fəaliyyət nöqteyi-nəzərindən yanaşılsa, sığortaçıların əsas gəlir mənbələrinə aid edilə bilər:

1) sığorta haqlarından alınan məbləğlər;

2) ümumi sığorta əməliyyatlarından müxtəlif gəlir növləri;

3) təkrar sığorta əməliyyatları nəticəsində əldə olunan gəlirlər;

4) sığorta ehtiyatlarında yaranan daxilolmalar;
5) müxtəlif komissiya ödənişləri və bonuslar;
6) sığorta ödənişləri nəticəsində yaranan vəsaitlər;
7) investisiya fəaliyyəti nəticəsində yaranan gəlirlər;
8) debitor və kreditor borclarında meydana çıxan gəlirlər;
9) icarə əməliyyatlarından daxilolmalar;
10) sığorta şirkətinin müxtəlif aktivlərinin satışından yaranan gəlirlər və s.

Təəssüf ki, belə gəlir mənbələrinə baxmayaraq, Azərbaycanda sığorta şirkətlərinin əsas gəliri sığorta haqları hesabına formalaşır və buna görə də ölkəmizdə analoji şirkətlərin gəlirlərinin şaxələndirilməsinə ciddi ehtiyac olduğunu qeyd edirik. Xüsusilə təəssüf doğuran faktlardan biri də odur ki, ölkəmizdə sığorta şirkətlərinin investisiya fəaliyyəti ilə bağlı cəlbedici layihələrin olub-olmadığını söyləmək çətindir. Bu baxımdan sığorta təşkilatlarının investisiya gəliri amilinə diqqət yetirməsi vacibdir və investisiya gəlirlərini sığorta şirkətlərinin əsas gəlir mənbəyinə çevirmək üçün bir strategiya hazırlanmalıdır.

Sığorta şirkətlərinin xərclərinə gəldikdə, burada əsas xərc şirkətin əsas fəaliyyəti üçün tələb olunan xərclərdir və bu, əslində, tələb olunan xərclərdir. Sığorta bazarında möhkəmlənmək, yeni bir müştəri kontingentini öyrənmək və qazanmaq, sığorta bazarının inkişaf istiqamətlərini diqqətlə öyrənmək, eyni zamanda, rəqiblərin davranışlarını öyrənmək və rəqabət üstünlüklərini artırmaq üçün tədbirlər görmək baxımından reklam xərcləri azalır, bir sıra əsas xərclər, habelə sığorta ödənişləri ilə əlaqəli xərclər daha çox diqqət mərkəzində olur. Bütün bu maliyyə cəhətdən ağır əməliyyatlar ədalətli mühasibat fəaliyyətini, qanunvericiliyin ciddi qorunmasını və şəffaflığın təmin edilməsini gündəmə gətirir. Bundan əlavə, sığorta şirkətlərinin fəaliyyətində mövcud normativ aktların qorunması, sığorta xidmətlərinin formalaşdırılması proseslərində bu xidmətlərin dəyərinin optimallaşdırılması və sığorta xidmətlərinin göstərilməsi üçün müqavilələrin hüquqi, iqtisadi və maliyyə baxımından mümkün qədər razılaşdırılması, müqavilə şərtlərinin qorunması və öhdəliklərin yerinə yetirilməsi böyük əhəmiyyət kəsb edir. Bir amil sığorta subyektinin fəaliyyətinin səmərəliliyinin göstəricisi kimi ciddi rola malikdir və məlumdur ki, hər hansı bir sahibkarlıq fəaliyyətinin əsas məqsədi gəlir əldə etmək və kapitalı artırmaqdır.

Əsas yanaşmalar arasında risklərə məruz qalma nəticəsində yarana biləcək itkiləri nəzərə alaraq sığorta şirkətinin maliyyə nəticələrinin maksimum obyektiv proqnozlaşdırılması, sığorta şirkətinin fəaliyyət strategiyası əsasında görülən işlər nəticəsində yaranan maliyyə nəticələrinin məntiqi nəticələrinin çəkilən xərclərə və bütövlükdə sığorta şirkətlərinin maliyyə nəticələrini əks etdirən nəticələr qrupuna uyğunluğunun təmin edilməsi daxildir.:

1) sığorta fəaliyyətinin həyata keçirilməsi üçün tələb olunan xərclərin miqdarı;
2) şirkətin gəlirlilik səviyyəsi və bu vəziyyətdə xalis mənfəətin sığorta fəaliyyətinə sərf olunan xərclərə nisbəti;
3) müəyyən bir sığorta növü ilə əlaqəli ödənişlər: burada normaya uyğun olaraq müəyyən edilmiş tariflə alınan sığorta haqlarının faktiki ödənişlərə nisbəti əsas götürülür;
4) qeyri-sığorta fəaliyyətindən yaranan gəlirlər və bunlar arasında cari öhdəliklərin oxşar aktivlərə nisbəti, habelə cari öhdəliklərin pul aktivlərinə nisbəti nəzərə alınır.

Bazar iqtisadiyyatı şəraitində mühüm şərtlər sığorta şirkətlərinin fəaliyyətinin gücləndirilməsi və sığorta bazarının daha sabit işləməsi üçün dövlət tərəfindən tənzimlənməsi, bu proseslərdə risklərin, iqtisadi və sosial aspektlərin nəzərə alınması, sığorta fəaliyyətinin iqtisadi və sosial nəticələrinin obyektiv qiymətləndirilməsidir. Belə bir şəraitdə sığorta fəaliyyəti müxtəlif sahələrin dinamik inkişafının təmin edilməsində və daha məhsuldar əlavə dəyər mənbələrinin formalaşmasında mühüm rol oynayır. Sığorta şirkətlərinin bir neçə sığorta paketi ilə maliyyə və sığorta xidmətləri bazarındakı güclü fəaliyyəti nəticəsində büdcənin xərc hissəsindəki yükü müəyyən dərəcədə azaltmaqla iqtisadi fəallığı səmərəli şəkildə təmin edir və əvvəllər qeyd edildiyi kimi, paylanmada mühüm rol oynayır. Müxtəlif sığorta fəaliyyətləri nəticəsində yaranan zərərlərin ödənilməsi, həmçinin dövlətin maliyyə sisteminin möhkəmlənməsinə, cəmiyyətdə sosial-iqtisadi sabitliyin təmin edilməsinə müsbət təsir göstərir. Sığorta şirkətləri öz fəaliyyətlərində sığorta xidmətlərinin effektivliyi hesabına sosial risklərin minimuma endirilməsində kifayət qədər mobillik nümayiş etdirməklə yanaşı, sosial institut kimi sığorta bazarının genişlənməsinə də səbəb olurlar. Sığorta şirkətlərinin fəaliyyət sahəsi ilə formalaşan sığorta bazarı, tələb və təklif elementləri ilə formalaşan bir mühitdə, yalnız sığorta xidmətlərinin göstərilməsini təmin etməyən, həm də kifayət qədər strateji əhəmiyyətə malik olan sosial-iqtisadi mühit hesab olunur. Müasir şəraitdə sığorta şirkətlərini daha sabit etmək və sığorta bazarında rəqabət qabiliyyətlərini nümayiş etdirmək üçün bir fəaliyyət strategiyası hazırlamaq, onu ağlabatan və real perspektivə əsaslanan fəaliyyət proqramı kimi qəbul etmək təsirli olardı. Eyni zamanda, sığorta şirkətlərinin maliyyə sabitliyi və müxtəlif risklərə qarşı adekvat davranışı çox vacibdir. Bu vəziyyətdə, prinsipcə, maliyyə mənbələrinin genişləndirilməsi, alternativ maliyyələşdirmə mənbələrinin formalaşdırılması və maliyyə mənbələrindən istifadənin səmərəliliyinin artırılması üçün əsaslı tədbirlər görülməli və istehsal mexanizmləri tətbiq edilməlidir. Bunun üçün sığorta şirkətlərinin kadrlarının və rəhbərliyinin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, risklərin idarə edilməsi sahəsində onların yeni biliklərə yiyələnməsi, həmçinin yüksək texnologiyalarla, ilk növbədə, rəqəmsal texnologiyalarla işləmək qabiliyyətinin inkişaf etdirilməsi üçün tədbirlər görülməlidir.

Azərbaycanda sığorta şirkətlərinin fəallığının artırılmasında sığorta xidmətləri və sığorta növləri ilə bağlı vergi güzəştləri və vergi tənzimlənməsinin rolunu da qeyd etmək lazımdır. Bu istiqamətdə görülən tədbirlər və tətbiq olunan güzəştlər sığorta şirkətlərinin maliyyə sabitliyinin möhkəmləndirilməsi və rəqabət qabiliyyətinin artırılması üçün əlavə potensial yaradır. Məsələn, gəlir vergisi üzrə alınan sığorta ödənişləri vergisiz gəlirlərə aid edilmişdir və burada istisna olaraq bu sığorta hadisəsi üzrə zərərə aid edilən məbləğ nəzərə alınmır. Bundan əlavə, sığorta fəaliyyətinin subyektləri, mövcud qanunvericiliyə uyğun olaraq qüvvədə olan normalara uyğun olaraq maliyyə mənbələrini gəlirdən çıxılmaqla ehtiyat sığorta fondlarına yönəl-dəcəklər və şübhəsiz ki, belə bir güzəştin olması sığorta təşkilatının daha etibarlı və səmərəli fəaliyyəti üçün vacib şərtlərdən biridir. Digər bir fayda sığorta hadisəsi baş verdikdə sığortalı və faydalanan şəxsin həyatına və əmlakına dəymiş ziyanı ödəmək üçün fiziki şəxslərin gəlir vergisi və pul vəsaitləri, habelə məcburi və könüllü sığorta haqları, həyat sığortası ilə əlaqəli sığorta haqları və işəgötürən hüquqi şəxslərin pensiya təminatı ilə əlaqədardır.

Dünya bankının hazırladığı “Doing Business” hesabatında Azərbaycanın sığorta

sahəsində gördüyü tədbirlər müsbət işıqlandırılıb. Məsələn, sosial sığorta ayırmaları üzrə hesabatların və ödənişlərin elektron formada təşkili ilə bağlı görülən işlər müsbət qiymətləndirilib. Təsadüfi deyildir ki, son illərdə dövlət sosial-sığorta haqlarının ödənişi və hesabat sistemi tam olaraq avtomatlaşdırılmışdır və nəticədə il ərzində sosial sığorta ayırmalarına dair hesabatların başa çatdırılaraq ödənilməsinə ayrılan vaxt 78 saat qiymətləndirilməklə, 19 saat aşağı salınmış və ödənişlərin sayı isə 11 vahid ixtisar olunaraq 1 vahid qəbul olunmuşdur. Beləliklə, sosial-sığorta sahəsində elektron texnologiyaların tətbiqi və real istifadəsi kifayət qədər dərinləşmişdir, bunlar isə öz növbəsində, vətəndaşların məmnunluğuna, məmur vətəndaş təmaslarının minimuma endirilməsinə gətirib çıxarmışdır. Belə qoyuluş olduqca vacibdir, çünki sığorta sisteminin rəqəmsallaşması proseslərinin sürətləndirilməsi xidmət keyfiyyətinin artmasına və operativliyinin təmin olunmasına böyük imkanlar formalaşdırır. Bundan əlavə, bu sığorta xidmətlərinin əlçatanlıq səviyyəsi əhəmiyyətli dərəcədə artır.

Eyni zamanda, sığorta bazarı iştirakçılarının, o cümlədən sığorta şirkətlərinin sığortalılarla qarşılıqlı maraqlarının qorunması və onlarla əlaqədar sığorta şirkətləri üçün zəruri olan maliyyə resurslarının və resurs bazasının yaradılması, investisiya fəaliyyətinin təmin edilməsi idarəetmə sisteminin təkmilləşdirilməsini və dövrün çağırışlarına uyğun yenilənməsini tələb edir. Digər vacib məsələ sığorta fəaliyyətinin həyata keçirilməsində tarif və qiymət siyasətinin tarazlaşdırılması, çevik sığorta növlərinin və sığorta modellərinin tətbiqinin genişləndirilməsi, nəticədə sığorta xidmətlərinin əlçatanlığının artırılması və sığorta xidmətlərinin strukturunun şaxələndirilməsidir.

*İbrahimov Vüqar Natiq oğlu,*
*magistrant,*
*Bakı Biznes Universiteti,*
*E-mail: ibrahimovvuqar042@mail.ru*

## BANK FƏALİYYƏTİNİN SƏMƏRƏLİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Hal-hazırda bankların maliyyə vəziyyətinin qiymətləndirilməsi ölkəmizin Mərkəzi Bankı (MB) tərəfindən hazırlanmış və təsdiq edilmiş bankın maliyyə vəziyyətinin bu və ya digər aspektini xarakterizə edən xüsusi hesabat formalarının köməyi ilə həyata keçirilə bilər. Həmçinin qeyd etmək lazımdır ki, iqtisadi vəziyyəti qiymətləndirmək üçün Azərbaycan MB tərəfindən iqtisadi vəziyyətin qiymətləndirilməsi əsasında bankların təsnifatı təsdiq olunmuş və istifadə olunur. Bankın fəaliyyəti nəticəsində mənfəət əldə edilməsi bankın yalnız əsas məqsədlərindən biridir. Reytinqlərin köməyi ilə bankın səmərəliliyinin qiymətləndirilməsi problemlərinə aşağıdakıları aid etmək olar:

- bank fəaliyyətinin ən müxtəlif aspektlərinin nəzərə almalı olduğu inteqral göstəricinin alınması mürəkkəbliyi;
- bal qiymətləndirmələri kəmiyyətlərinin subyektivizmi;
- hər bir metodikada kriterial kəmiyyət verilən ixtiyari göstəricilər dəsti. Bu, müxtəlif metodoloji yanaşmaların tətbiqi ilə qiymətləndirilən bankları müqayisə etməyə imkan vermir;
- Azərbaycan reytinq şirkətlərində geniş analitik alətlərin olmaması, bunun isti-

fadəsi bankın fəaliyyətini obyektiv və dəqiq qiymətləndirməyə imkan verir.

Reytinqlərin hazırlanmasında istifadə edilən təhlil metodları bir-birindən fərqlənə bilər. Maliyyə hesabatı bankın fəaliyyəti haqqında əsas informasiya mənbəyi kimi istifadə olunmasına baxmayaraq, reytinq agentlikləri tez-tez bir-birinə ziddiyyətli qiymətləndirmə nəticələr verir. Eyni zamanda, reytinq sistemləri bank sektorunda işlərin cari vəziyyətini qiymətləndirməyə, problemli bankları müəyyən etməyə imkan verir. Bununla yanaşı, reytinqin verilməsi sistemi statikdir, çünki müəyyən müddət dövrünə alınmış məlumatlara əsaslanır. Uzaq monitorinqdən istifadə qiymətləndirmələrin statikliyini azaldır, lakin yerlərdə yoxlamalar olmadıqda məlumatların düzgünlüyü azalır.

Əsas kimi istifadə olunan qiymətləndirmə metodikasının originalı Azərbaycan Mərkəzi Bankının metodologiyasına uyğun olaraq qurulmuş bank və onun fəaliyyət mühiti haqqında analitik və sistemdənkənar informasiyanın böyük həcmi əsasında ekspert sistemi şəklində səmərəli işləyir, bankın vəziyyətinin xüsusiyyətlərinin qiymətləndirilməsinin formal hissəsi isə kiçikdir və əhəmiyyətli rol oynamır.

Hələ də indiyə qədər Azərbaycanın bank sistemi həm mütləq, həm də nisbi göstəricilərə görə inkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrin səviyyəsindən xeyli geri qalır. Hələ də sürətlə artan Azərbaycan iqtisadiyyatının tələbatı kifayət dərəcədə ödənilmir. Belə ki, Azərbaycanda bankların kapitalının ÜDM-ə nisbəti 4,6% təşkil edir ki, bu da inkişaf etmiş ölkələrlə müqayisədə 3-7 dəfə azdır. Müəssisələrin kreditlərinin ÜDM-ə nisbəti 18% olmuşdur. Müqayisə üçün qeyd edək ki, ABŞ-da bu göstərici 40%, Yaponiyada 64%-ə bərabərdir. Bank aktivlərinin ÜDM-də payı göstəricisinə görə, Azərbaycan həmin ölkələrdən 7-10 dəfə geri qalır.

Rəsmi məlumatlara görə, hazırda Azərbaycanda bank kreditlərinin orta faiz dərəcəsi milli valyutada 16%, xarici valyutada isə 17% təşkil edir. Biznes kreditləri 20-25%, istehlak kreditləri isə 20-30% civarındadır. Bəzi hallarda istehlak kreditlərinin faiz dərəcələri 36%-ə çatır. Xarici ölkələrin kredit bazarının təhlili ölkədəki faiz dərəcələrinin yüksək olduğunu sübut edir. Məsələn, Avropa Birliyi ölkələrində istehlak krediti orta hesabla 7-8%-ə verilir. Almaniya, Lüksemburq, Finlandiya, Belçika və Fransada faiz dərəcələri müddətindən asılı olaraq 2-7% təşkil edir. ABŞ-da bu göstərici 5%-dən çox deyil.

Bank təşkilatının maliyyə təminatı dövlətin və bank sektorunun təhlükəsizliyinin, həmçinin bütövlükdə dövlətin maliyyə təminatının tərkib hissəsidir. Bankın yüksək maliyyə təminatına yiyələnməsi zərurəti mürəkkəb maliyyə böhranı zamanı müflisləşən bankların sayının sürətlə artması, onun təmin edilməsinin tədqiqat və metodoloji əsaslarının yaradılması və dərinləşdirilməsilə sıx tərzdə bağlıdır.

Bank sektorunun inkişafının hazırkı mərhələsində arzuolunmaz neqativ tendensiya potensial əmanətçilərin bank institutlarına inamının azaldığını, eləcə də borcalanlar üçün kredit resurslarını müşayiət edən makroiqtisadi problemləri ortaya qoyur. Böyük siyasi risklər, xarici iqtisadi siyasətdə qeyri-sabitlik, məbləğin artması fonunda ölkəmizin iqtisadi və maliyyə təhlükəsizliyinin, onun bank sisteminin, eləcə də müxtəlif bank qurumlarının dövlət borcunun və dünya kreditlərindən asılılığın əlçatan olması məsələləri getdikcə aktuallaşır.

Sinkey digər aspektdən isə bank fəaliyyətinin təmin edilməsi məsələlərinə diqqət yetirmişdir. Müəllif bank təhlükəsizlik sistemlərinin komponentlərini vurğulayır və onları geniş şəkildə təhlil edir. O, fərqli bank qurumunun qarşılaşa biləcəyi problem-

lərə xüsusi önəm verir. [5].

O.Kovalenko ölkənin maliyyə təhlükəsizliyi sisteminə təsir etmək gücünə malik olan institusional komponentləri və amilləri dəqiq vurğulamışdır. O tövsiyə edir ki, bu sahədə problemlərin həllində şəffaflıq prinsiplərinə, dövlətin və biznesin maraqlarının tarazlığına ciddi əməl edilməlidir. Hesablama antiböhran tədbirlərindən biri hesab edilən maliyyə-stress indeksi ideyasını nəzərə alır, çünki bu üsul maliyyə sistemində böhran hadisələrinin baş verməsini birbaşa izləməyə kömək edir [6].

Bankın fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi göstəricilərinə müxtəlif yanaşmaları təhlil edərək belə qənaətə gəlmək olar ki, səmərəliliyin müəyyən edilməsində daha çox kapitalın rentabelliyi, aktivlərin rentabelliyi, bankın faiz və qeyri-faiz marjası göstəricilərindən istifadə olunur.

Müasir durumda mənfəətə yiyələnməyə can atan istənilən kommersiya bankı müştəriyə yönəlməlidir. Fikrimizi daha aydın ifadə etsək, müştərinin tam tərzdə məhsul və xidmətlərə duyduğu ehtiyac fərdi yanaşmadan faydalanaraq və bankda aydınlaşdırılmış bəlli müştəri, onun cəlbi prosesi, saxlanması və onların sayının artırılmasının keyfiyyətli həll olunduğu xüsusi qarşılıqlı təsir alqoritmilə ödənilir. Hal-hazırkı durumda da respublikanın kommersiya banklarında bankın məhsulyönümlü inkişaf strategiyası daha əhatəli müstəvidə yayılmışdır. O özündə bank menec-mentinin elə bir modelini ehtiva edir ki, burada təşkilati vahidlər təşkilati strukturda, bir növ, bank məhsullarının satışlarında iştirak prinsipi boyunca birləşdirilir. Bu vaxt istənilən biznes vahidinin məhsul qrupları unikal formada özün nümayiş etdirməklə, heç də üst-üstə düşmür.

Azərbaycan banklarında baş verən prosesləri keyfiyyət və kəmiyyət baxımından kifayət qədər dəqiq təsvir etməyə, sınaqdan çıxmış və yüksək effektivli göstəricilər sisteminin bankın aktual problemlərinin həllində istifadə etməyə imkan verən nəzəri baza və müvafiq analitik alətlər hələ ki, bu vaxta qədər Azərbaycanda formalaşmamışdır. Eyni zamanda, hazırda milli metodikalarda tətbiq olunan göstərici-lərin sistemlərinin yaradılmasına üç yanaşma daha geniş yayılmışdır:

- xarici göstəricilər sistemlərinə uyğunlaşma;
- bank fəaliyyətinin sadə iqtisadi modelləri əsasında bankın fəaliyyətinin əsas göstəricilərinin ekspres-təhlili sistemlərinin işlənib hazırlanması;
- iqtisadi proseslərin statistik metodlarla qiymətləndirilməsi.

Bankın ayrı-ayrı istiqamətlərinin işinin səmərəliliyi xeyli dərəcədə bu bölmələr tərəfindən bank məhsullarının reallaşdırılmasından və bankın müştərilərinə xidmət göstərilməsindən əldə edilən maliyyə nəticələrini əks etdirir. Bununla əlaqədar olaraq bankın müştərilərlə qarşılıqlı təsir səmərəliliyinin qiymətləndirilməsi metodikasının işlənib hazırlanmasına zərurət yaranır. Bankın və müştərilərin qarşılıqlı təsir səmərəliliyinin qiymətləndirilməsi metodikası bank strateji menecmentinin zəif tərəflərini aşkar etməyə və bununla da əsas məqsədin – riskin və maliyyə sabitliyinin məqbul səviyyədə saxlanılması şərti ilə maksimum mənfəətin əldə edilməsi üçün onun menecment sisteminin təkmilləşdirilməsinə imkan verəcəkdir .

Kommersiya banklarının kredit portfelinin idarə edilməsinin təkmilləşdirilməsi üzrə təklif olunan tədbirlər ümumən aşağıdakıları nəzərdə tutur: kredit portfelinin optimallaşdırılması (diversifikasiyanın köməyi ilə, kredit portfelinin optimallaşdırılması modellərinin vasitəsilə), eləcə də kredit portfeli risklərinin və konkret borcalanın

risklərinin azaldılması metodları kimi kredit portfeli risklərinin azaldılması ehtiyatları. Hesab edirik ki, dünya və Azərbaycan iqtisadiyyatının hazırkı qeyri-sabitliyi şəraitində ideal şəkildə hazırlanmış optimal kredit portfelini yaratmaq mümkün deyil, lakin kredit portfelinin idarə olunmasının təkmilləşdirilməsi üçün nəzərdə tutulan tədbirlər kommersiya banklarına bankın kredit siyasətinin hədəflərinə çatmaq məqsədilə qəbul edilmiş riskləri azaltmağa imkan verəcəkdir.

Hələ də indiyə qədər Azərbaycanın bank sistemi həm mütləq, həm də nisbi göstəricilərə görə inkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrin səviyyəsindən xeyli geri qalır. Belə ki, sürətlə inkişaf edən ölkə iqtisadiyyatının tələbatı kifayət dərəcədə ödənilmir, Azərbaycanda bankların kapitalının ÜDM-ə nisbəti 4,6% təşkil edir ki, bu da inkişaf etmiş ölkələrlə müqayisədə 3-7 dəfə azdır. Müəssisələrin kreditlərinin ÜDM-ə nisbəti 18% olmuşdur. Müqayisə üçün qeyd edək ki, ABŞ-da bu göstərici 40%, Yaponiyada 64%-ə bərabərdir. Bank aktivlərinin ÜDM-də payı göstəricisinə görə, Azərbaycan həmin ölkələrdən 7-10 dəfə geri qalır.

Tərəfimizdən Azərbaycan Banklar Assosiasiyası tərəfindən hazırlamış “2016-2020-ci illər üzrə Strateji Plan” əsasında müştəriyönümlülüyün bank menecmentinin səmərəliliyinin yüksəldilməsinə təsirinin tədqiqi çərçivəsində Azərbaycanın bank sisteminin menecmentinin inkişaf strategiyasının GZİT (SWOT) təhlili aparılmışdır. Bütün bu aparılmış GZİT (SWOT) təhlilinin nəticələri əsasında aşağıdakı strateji hədəflər müəyyən edilmişdir:

1. Müştərilərlə əlaqələrin daha da genişləndirilməsi.

2. İnstitusional bazanın və infrastukturun müasir beynəlxalq standartlara uyğunlaşdırılması.

3. Qanunverici, icraedici və məhkəmə orqanları ilə əməkdaşlığın genişləndirilməsi.

4. Yerli biznes qurumları və ictimai birliklərlə əməkdaşlığın genişləndirilməsi.

5. Beynəlxalq əlaqələrin genişləndirilməsi və təcrübə mübadiləsi.

6. Bank sektoru üçün peşəkar kadr hazırlığının genişləndirilməsi. Əsas məqsəd Azərbaycanın bank sektorunu post-neft dövründə dayanıqlı iqtisadi inkişafın başlıca maliyyə təminatçısına çevirməkdir.

Şübhəsiz ki, bu müasir mərhələdə bankların öz işini bütövlükdə və ayrı-ayrılıqda özünəməxsus şəkildə qurması ümumi hədəflərə çatmaqda əsas amil olacaqdır. Bank fəaliyyətinin səmərəliliyinin mövcud qiymətləndirmə metodlarını tədqiq edərək belə bir nəticəyə gəldik ki, bankın və bank menecmentinin fəaliyyətinin effektivliyini müəyyən etməkdən ötrü əmsalın təhlili və kompleks göstəricilər sisteminin təhlili metodlarından istifadə etmək məqsədəuyğundur.

Bankçılıq baxımından ən mühüm inkişaflardan biri rəqabət strukturunun dəyişməsidir. Bankın fəaliyyətinin səmərəliliyini qiymətləndirmək üçün də həm tətbiqi məqsədləri və həm də onların hesablama metodikası ilə fərqlənən müxtəlif gəlirlilik göstəriciləri tətbiq edilir. Bəzi hallarda bankın fəaliyyətinin səmərəliliyini nümumiləşdirilməsi meyarı kimi yararlana bilən göstəricilərin qarşılıqlı əlaqələndirilməsi və əsaslandırılması problemi meydana çıxır.

Bizim fikrimizcə, bank fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsinin ümumiləşdirilmiş meyarlarının mövcudluğu maliyyə durumunun bütöv təsvirini yaratmağa və strateji inkişaf istiqamətlərini xarakterizə etməyə zəmin formalaşdırır. Səmərəliliyi

qiymətləndirərkən bank fəaliyyətinin və qəbul olunan idarəetmə qərarlarının nəticəliliyini xarakterizə edən mütləq və nisbi göstəricilərin məcmusunu nəzərdən keçirmək hədəfəyöndür.

Rəqəmsallaşma və texnologiyanın inkişafı maliyyə xidmətlərinə çıxışı asanlaşdırır. Rəqəmsallaşma və texnologiya həm də maliyyə xidmətlərinin keyfiyyətini artırır və bu xidmətlərin qiymətlərini ucuzlaşdırır. Yeni nəsil, rəqəmsal xidmətlər təklif edən firmalar bankların rəqiblərinə çevrilərək bank sektorunun oliqopolist bazarını çevirməyə başladılar. Banklarda rəqəmsallaşmanın digər üstünlüyü həm qurumlar, həm də müştərilər üçün yeni ödəniş vasitələri və nağdsız əməliyyatlar vasitəsilə xərclərə qənaət etməkdir.

Rəqəmsal bankçılığın başlıca üstünlükləri ənənəvi bankçılıqdan daha münasib qiymətə xidmətlər təqdim etməsi, banklara yeni məhsul və xidmətlər təklifi hədəfi ilə daha artıq imkanlar təqdim etməsi və onlara müştəri məlumatlarını asanlıqla toplamasına və beləliklə də, müştərilərin bu məlumatlardan istifadə etməsinə şərait yaratmasıdır. Bundan əlavə, banklar bu məlumatlarla əməliyyat risklərini azaldır. Rəqəmsal bankçılıq xidmətlərinə daxil olmaq asandır və hətta yerləri dəyişsəniz belə, 24/7 xidmətini əldə edə bilərsiniz. Son nöqtə olaraq rəqəmsal bankçılıq müştəri məmnuniyyətini, loyallığı və gəlirliliyi artırmaq potensialına malikdir. Pandemiyanın ortasında rəqəmsal yeniliklər artıq öz dəyərini göstərdi.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**


1.Bağırov M.M. (2003), Banklar və bank əməliyyatları. Ali məktəblərdən ötrü dərslik. Bakı, Nurlan, 2003, 512 s.

2. Abbasov S.A. Maliyyə menecmenti: təşkili və təkmilləşdirilməsi problemləri (Monoqrafiya). Bakı, Elm və Təhsil, 2009. – 288 s.

3. Ефимова О.В., Мельник М.В. Анализ финансовой отчетности: Учебное пособие. – 2-е изд., испр. и доп. – М.: Изд-во ОМЕГА-Л, 2006. – 408 с.

4. Щербакова Г.Н. Анализ и оценка банковской деятельности (на основе отчетности, составляемой по российским и международным стандартам). – М.: Вершина, 2007. – 464 с.



*Hüseynzadə Aqil Hüseyn oğlu,*
*magistrant,*
*Bakı Biznes Universiteti*


## RƏQƏMSALLIQ ŞƏRAİTİNDƏ SIĞORTA ŞİRKƏTLƏRININ ELEKTRON XİDMƏTLƏRİNİN GENİŞLƏNDİRİLMƏSİ

Qlobal risklərin çoxaldığı, təhdidlərin artdığı bir dövrdə sığorta sisteminin fəaliyyətinin adekvatlığının təmin olunması, müasir dövrün tələblərinə uyğun şəkildə təkmilləşdirilməsi, tələb olunan mexanizmlərin və fəaliyyət alətlərinin işlənərək sığorta sisteminə daxil edilməsi, sığorta fəaliyyətinin spesifik cəhətlərindən yanaşmaqla zəruri tədbirlərin görülməsi diqqəti cəlb edir. Bunlar kifayət qədər mürəkkəb məsələlərdir,

son qlobal dünya maliyyə böhranının neqativ nəticələri və dünya maliyyə bazarının əhəmiyyətli şəkildə silkələnməsi amili nəzərə alınmalıdır. Digər tərəfdən, dünya maliyyə bazarının əksər seqmentlərinin, o cümlədən sığorta bazarının fəaliyyətində ciddi çətinliklər yaranmışdır. Bu məsələlər 2020-ci ilin əvvəlindən başlayaraq dünyanı bürüyən COVİD-19 pandemiyasının yaratdığı yeni mürəkkəb şəraitlə əlaqədar olaraq daha kəskin xarakter almışdır.

Qeyd olunan iki qlobal problemin əsas nəticələrindən biri kimi də sığorta yığımlarının azalması müqabilində sığorta ödənişlərinin çoxalması tendensiyasıdır və bu tendensiya, fikrimizcə, sığorta ödənişi tələb edən hadisələrin həddindən çox olması ilə bağlı olmuşdur. Məlumdur ki, dünya təcrübəsində sığorta şirkətləri heç də yığdıqları sığorta haqlarının əhəmiyyətli hissəsini sığorta ödənişlərinə yönəltmirlər və hesab edirik ki, onlar buna həm də maraqlı deyillər. Məsələ burasındadır ki, sığorta şirkətləri qlobal riskləri və gözlənilməz fors-major halları nəzərə alaraq, toplanılan sığorta haqlarının müəyyən hissəsini yığıma göndərir və eyni zamanda, cəlbedici investisiya layihələrində iştirak edir. Amma, bunların açıqlıq və şəffaflıq səviyyəsinin müəyyənləşdirilməsi, toplanılan sığorta haqları ilə ödənilən sığortanın məbləği arasındaki optimal nisbətin qorunması məsələsi həll olunmamış qalır. Bu baxımdan müasir rəqəmsallıq mühitində sığorta şirkətlərinin elektron xidmətlərinin genişlən-dirilməsi mühüm aktuallıq kəsb edir. Müasir qlobal çağırışlar da bunu tələb edir. Bu problem, demək olar ki, bütün ölkələrdə diskussiya mövzusudur, amma etiraf edək ki, ölkəmizdə sığorta xidmətlərinə tələbatı və marağı olan fiziki və hüquqi şəxslər, eləcə də sadə insanlar arasında bu məsələ daha çox müzakirə olunandır. Sığorta şirkətləri əl-də etdikləri sığorta haqlarının, eyni zamanda ödəniş hadisələrinin sənədləşdirilməsində qeyri-müəyyənlik halları çox olaraq qalır və bu sahədə elektron xidmətlərin tətbiqi məsələsi hələ ki, açıq qalmaqdadır.

Qeyd olunanlar konteksində neçə edilməlidir ki, müasir dövrdə ölkənin maliyyə sisteminin mühüm tərkib hissəsi olan sığorta sisteminin rəqəmsallaşdırılması, sığorta bazarının sağlam mexanizmlər əsasında inkişaf etdirilməsi, bununla əlaqədar sığorta şirkətləri və sığorta olunanlar arasında etimadın formalaşması mexanizmində insan amilindən az istifadə edilsin və elektron xidmətlərin formalaşması prosesi gücləndirilsin. Hesab edirik ki, bunun üçün sığorta sisteminin ölkənin sosial-iqtisadi inkişaf prioritetlərinə və hədəflərinə adekvat olan rəqəmsallaşma bazasının yaradılması, elektron xidmətlərinin genişləndirilməsi üzrə institusional tədbirlərin görülməsi və maksimum səmərəli, həm də təkmilləşdirilmiş proqramlaşma mexanizminin formalaşdılması və üslubların müəyyənləşdirilməsi təmin olunmalıdır.

Biz belə bir fikirdəyik ki, sığortanın elektron xidmətləri vasitəsilə reallaşdırdığı ən mühüm iqtisadi elementlər və funksiyalar məhz bu istiqamətlərdədir və eyni zamanda, bunlara əlavə olaraq robotlaşmanı da əlavə etmək mümkündür. Sığorta fəaliyyəti sahələrində fiziki və hüquqi şəxslərin üzləşdikləri risklərdən onların qorunması üçün tədbirlərin reallaşdırılması, sığorta müqavilələrinin bağlanması və s. bu müstəvidə də elektron xidmətlərin genişləndirilməsi diqqət çəkir. Eyni zamanda, bütün fəaliyyət istiqamətləri üzrə riskli halların ön plana çıxarılması son nəticədə həmin fəaliyyət istiqamətləri üzrə risklərin idarə olunmasında və sığorta fəaliyyətinin səmərə-

liliyinin artırılmasında da bu xidmətlərin rolu xüsusi vurğulanmalıdır. Bundan əlavə, hesab edirik ki, sığorta fəaliyyətinin mexanizmlərinin hazırki, dövrün risklərinə və çağırışlarına uyğun şəkildə yenilənməsi, ən azından maksimum rəqəmsallaşması və bununla bağlı adekvat tədbirlərin görülməsi həll olunmalıdır. Sığorta şirkətləri maliyyə resurslarının səmərəli idarə olunması və onların investisiyalara yönəldilməsi məsələlərinə, yönəldilən investisiyaların strukturunun diversifikasiyalaşdırılması problemlərinə daha çox diqqət ayırmalıdır. Bu amillər bilavasitə sığorta fəaliyyəti subyektlərinin maliyyə sabitliyi, onların sığorta portfelinin optimallığı ilə bağlıdır və bu tipli məsələlərin həlli prosesini də elektronlaşdırmaq mümkündür.

Bütün bu funksiyaların səmərəliliyi və məhsuldarlığı sayəsində sığorta fəaliyyəti ölkə iqtisadiyyatının yeni artım mənbələrinin formalaşdırılmasında və ÜDM-in həcminin artırılmasında müəyyən töhfələr verir. Bu sırada əsas göstəricilər kimi sığortanın ölkə ÜDM-ində payı, adambaşına düşən sığorta ödənişlərinin həcmi vacib hesab olunur və əslində, həmin göstəricilər əsasında ölkənin sığorta sisteminin dayanıqlılığını və səmərəliliyini, eyni zamanda, sığorta şirkətlərinin fəallığını elektronlaşdırma vasitələri ilə müəyyən etmək mümkündür.

Sığorta sisteminin təkmilləşdirilməsi ilə bağlı metodoloji yanaşmaların müəyyənləşdirilməsi və xüsusiyyətlərin dərindən öyrənilməsi hesabına ölkədə ümumilikdə sığorta sisteminin strateji əhəmiyyətinin daha dərindən dərk olunmasına və konseptual yanaşmaların formalaşdırılmasına, dövlət sığorta siyasətinin optimallığının yüksəldilməsinə və tətbiq olunan sığorta fəaliyyəti alətlərinin işləkliyinə əlavə imkanlar yaradar. Dövlət tərəfindən sığorta fəaliyyətinin tənzimlənməsi metodları və zəruri tədbirlərin görülməsi, makromaliyyə effektinə malik fəaliyyət mexanizmlərinin işlənməsi, sığorta bazarı iştirakçılarının maraqlarının diqqətdə saxlanılması prosesində də elektron xidmətlərin tətbiqi mümkündür.

Metodoloji baxımdan sığorta şirkətlərinin elektron xidmətlərinin genişləndirilməsinə əsasən iki formada yanaşma daha çox diqqət çəkir:

1) birbaşa müdaxilə vasitəsilə elektron xidmətlərinin genişləndirilməsi;

2) sığorta sisteminin səmərəliliyinə təsir göstərilməsi məqsədi ilə rəqəmsal mühitin yaradılması.

Məlumdur ki, sığorta biznesinin genişlənməsi nəticəsində bir tərəfdən iqtisadi fəallıq artır, digər tərəfdən isə əlavə dəyər mənbələri yaradılır, bundan əlavə sığortanın multiplikativ elementləri aidiyyətli sosial-iqtisadi sahələrin fəaliyyətinə, müxtəlif problemlərin həllinə müsbət təsir göstərməklə daha səmərəli fəaliyyət məkanı formalaşdırır. Hesab edirik ki, dövlət bu amilləri nəzərə alaraq, sığorta şirkətlərinin fəaliyyətinin stimullaşdırılması, onların maliyyə sabitliyinin gücləndirilməsi üçün tədbirlərin görülməsi, dövlət dəstəyi mexanizmlərinin işlənilməsi faydalı ola bilərdi. Bu qəbildən olan tədbirlərin elektronlaşdırılması məqsədi ilə bir sıra işlər görülməlidir:

1) sığorta sistemində elektron xidmətlərinin genişləndirilməsi sahəsində qanunvericilik bazasının optimallaşdırılması;

2) sığorta şirkətlərinin və təşkilatlarınının prioritet rəqəmsallaşma layihələrində iştirakının dəstəklənməsi;

3) mühüm dövlət əhəmiyyəti kəsb edən sahələrin sığortalanması üzrə məqsədli

sığorta paketlərinin hazırlanması prosesində elektron xidmətlərin yaradılması.

Sığortanın müxtəlif səpkili və faydalı funksiyalarından məhsuldar istifadə olunmasında dövlət-özəl sektor əməkdaşlığının, o cümlədən dövlət strukturları ilə sığorta şirkətləri arasında əlaqələrin və əməkdaşlığın müasir dövrün tələblərinə uyğun şəkildə tənzimlənməsi prinsipial əhəmiyyət daşıyır. Bu halda sığorta fəaliyyətindən daha yaxşı nəticələr əldə etmək və xüsusilə onun investisiyalaşdırma funksiyasının reallaşdırılmasında rəqəmsallaşma ilə əlaqədar real addımlar atmaq mümkündür.

Sığorta maliyyə sisteminin mühüm seqmentlərindən biri kimi elektron xidmətlərin tətbiqində maksimum optimal və işlək metodoloji yanaşmaları tələb edir. Fikrimizcə, sığortanın mümkün fəaliyyət funksiyalarının iqtisadi proseslərdə, xüsusilə maliyyə sistemində rolunun obyektiv olaraq qiymətləndirilməsi və nəzərə alınması təmin edilməli, bunun üçün zəruri mexanizmlər və metodikalar işlənməlidir. Biz də bu fikrə üstünlük veririk ki, sığorta bazarı, əslində, maliyyə bazarının mühüm seqmentlərindən biridir və maliyyə axınlarının, həmçinin investisiya axınlarının təhlükəsiz şəkildə hərəkətinin sığortalanması hesabına əhəmiyyətli funksiyaları yerinə yetirir. Digər tərəfdən, sahibkarlıq və biznes subyektləri yeni məhsulların, brendlərin yaradılması, innovasiyaların işlənməsi, mənimsənilməsi və tətbiqi istiqamətində layihələrə daha cəsarətli və qətiyyətli olaraq maraq göstərir, yeni innovasiya-investisiya layihələri hazırlayır və reallaşdırırlar, yəni bu qəbildən olan iqtisadi fəaliyyət subyektləri, müəyyən mənada, mümkün risklərdən sığortalanmış olur, müdafiə mexanizmi əldə edir. Bu proseslərdə sığorta müqavilələrinin bağlanması, sığorta xidmətləri üçün ödənişlərin edilməsi, başqa sözlə, sığorta məqsədi ilə vəsaitin ayrılması özünü doğruldan və gələcək uğurlara hesablanmış addımlar kimi qiymətləndirilə bilər və bu istiqamətdə rəqəmsallaşdırma və elektronlaşdırma olduqca vacibdir.

Sığorta sisteminin metodoloji yanaşmalarında konkretlilik və tətbiq olunan mexanizmlərin istifadə qaydalarının aydınlığı, sadəliyi, bürokratiyadan uzaq olması vacib şərtlərdəndir. Belə olduğu təqdirdə elektron xidmətlərdən fəal şəkildə istifadə edilməsi, mühitinin formalaşdırılması mümkündür və sığorta xidmətləri əlçatanlığını təmin etmək olar. Digər tərəfdən sığorta sisteminin institusional inkişaf etdirilməsi sığorta fəaliyyəti ilə bağlı məsələlərə nəzarət sisteminin funksiyalarının optimal olaraq müəyyənləşdirilməsi, iqtisadi-hüquqi mexanizmlərin işlənməsi, son nəticədə sığorta fəaliyyəti subyektlərinin fəallığının təmin olunması tədbirlərinin sistemli və ardıcıl olaraq rəqəmsallaşdırılması məqsədəmüvafiqdir.

Əksər ölkələrdə, o cümlədən Azərbaycanda da sığorta sisteminin inkişafına mane olan əsas amillərdən biri kimi sığorta xidmətləri bazarında inhisarçılaq tendensiyasının dərindən araşdırılması və bunun qarşısının alınması vacib şərtlərdəndir. Əks təqdirdə sığorta xidmətləri bazarının fəallığından və müxtəlif sığorta şirkətlərinin rəqabətqabiliyyətinin yüksəldilməsindən söhbət gedə bilməz və bunlarla bağlı dövlət sığorta nəzarəti mexanizmləri maksimum şəffaflıq və obyektivlik nümayiş etdirməlidir. Bunlarla bərabər, ölkənin sığorta sisteminin inkişafında müvafiq infrastruktur potensialının yaradılması və maddi-texniki bazanın gücləndirilməsi, müasir yüksək informasiya texnologiyalarından istifadənin genişləndirilməsi, əsas etibarı ilə rəqəmsal texnologiyalardan istifadəyə üstünlük verilməsi mühüm məsələlərdir və bunların ardıcıl şəkildə

həyata keçirilməsi tələb olunur. Məlumdur ki, iqtisadi subyektlərin fəaliyyətində səmərəlilik prinsipi strateji əhəmiyyət kəsb edir və hər bir firma, şirkət, müəssisə öz fəaliyyətində daha çox gəlir əldə etmək və uğurlu nəticələr qazanmaq strategiyalarına malikdir. Amma bütün bunlar kifayət qədər riskli əməliyyatların həyata keçirilməsini şərtləndirir və bu proseslərdə sığorta mexanizmindən adekvat olaraq istifadə olunması və düzgün sığorta fəaliyyəti konsepsiyasının işlənməsi, ardıcıl olaraq reallaşdırılması tələb olunur. Bu proseslərdə həm də təkcə iqtisadi subyektlərin marağı yox, eyni zamanda, dövlətin iqtisadi gücünün artırılması, yeni iqtisadi artım mənbələrinin yaradılması, insanların iş yerləri ilə təminatı problemlərinin həll olunması və gəlir mənbələrinin formalaşdırılması ilə bağlı prioritet vəzifələr diqqət mərkəzində saxlanılır, yəni həmin məsələlərin həllində sığorta bu və ya digər formada iştirak edir, səmərə verir. Odur ki, sığorta şirkətlərinin daha məhsuldar və səmərəli fəaliyyət göstərmələri məqsədi ilə maliyyə bazarının digər fəaliyyət istiqamətləri ilə yanaşı, sığorta seqmentinin bazar konyunkturasının ciddi şəkildə nəzərə alınması, bazara çıxarılan sığorta xidmətlərinin adekvatlığı və keyfiyyət göstəriciləri xüsusi olaraq nəzarətdə saxlanılmalıdır. Bu proseslərdə idarəetmə mexanizmləri və alətləri imkan verməlidir ki, sığorta haqlarının toplanması üzrə dinamikliyi qorumaq mümkün olsun və bunun üçün müştəri kontingenti ilə geniş iş aparılmalı, potensial sığorta olunanların dairəsi müəyyənləşdirilməli, maarifləndirmə tədbirləri görülməli və sığorta fəaliyyəti subyektinə inamın artırılması təmin olunmaldır. Sığorta fəaliyyəti subyektləri ilə sığorta olunanlar arasında öhdəliklərin optimal olaraq bölüşdürlməsi və həmin öhdəliklərə müqavilədə nəzərdə tutulmuş səviyyədə əməl edilməsi kimi amillər maksimum dəyərləndirilməlidir.

Hazırda müasir texnologiyalar əsasında təkmilləşdirilən elektron xidmətlər və rəqəmsal mexanizmlər inqilabi dəyişikliklərə gətirib çıxarmışdır və göstərilən xidmətlərin şəffaflığının təmin olunması baxımından, eyni zamanda, rahat şəkildə bu xidmətlərdən yararlanmaq nöqteyi-nəzərindən imkanlar xeyli yüksək qiymətləndirilir. Buna görə də sığorta xidmətlərinin rəqəmsallaşdırılması və sığorta fəaliyyəti subyekt-lərinin müştəriyönümlü fəaliyyət strategiyası modelinin işlənməsi, həm də tətbiq olunması vaxtının çatdığı qənaətindəyik. Düzdür, COVİD – 19 pandemiyası dövründə distant formasında və ya internet üzərindən müəyyən xidmətlərin göstərilməsi obyektiv reallığa çevrilmişdir və bu cür mexanizmlərnin tətbiqi sığorta sistemində də istisna təşkil etməmişdir. Müştəri ilə təmasların minimuma endirilməsi şərti ilə sığorta xidmətlərinin göstərilməsi, onlayn formasında müqavilələrin imzalanması, ölkəmizdəki praktiki tətbiq olunan mexanizmlər nöqteyi-nəzərdən çıxış etsək, ASAN imza modelindən istifadə etməklə müqavilələrin bağlanılması, elektron bank əməliyyatları ilə ödənişlərin həyata keçirilməsi, POS terminalların, digər ödənişsiz elektron aparatların əlçatanlığının olması, şübhəsiz müxtəlif xidmətlərdən, o cümlədən sığorta xidmətlərindən daha rahat istifadə etməyə əlavə şərait yaratmışdır. Amma, burada müəyyən məsələlər vardır ki, onların üzərində davamlı işlər aparılmalı və tədbirlər görülməlidir. Bir tərəfdən həyata keçirilən tədbirlərin dinamikliyindən və nəticələrindən yanaşsaq, sığorta sistemində müştəri kontingentinin xeyli hissəsi məlumatsızlıq sindromundan çıxa bilməmişlər, yəni əksər sığorta xidmətlərindən ya məlumatsızdırlar, yaxud sığorta şirkətlərinə əvvəldə bildirdiyimiz kimi inanmaq fikirləri yoxdur. Başqa bir amil isə bu müştərilərin heç də az olmayan hissəsinin rəqəmsal texnologiyalarla davranış qabiliy-

yətinin və təcrübəsinin olmamasıdır, yaxud bunun üçün biliklərinin kifayət etməməsidir. Odur ki, sığorta subyektləri sığorta bazarının əsas tərəfdaşlarından biri olan sığorta edilənlərlə davamlı və sistemli iş aparmalı, sığorta xidmətlərinin bazar tsiklinin maarifləndirilməsi tədbirlərini görməli, məqsədli reklam və marketinq strategiyası işlənməli və həyata keçirilməlidir.

Sığorta xidmətlərinə tələblərlə bağlı bu qeyd olunanlara əlavə olaraq bildirmək istərdik ki, sığorta edənlərlə sığorta olunanlar arasında işgüzar mühitin və münasibətlərin formalaşdırılması da olduqca vacibdir. Belə münasibətlər uzaq perspektiv üçün də əlverişli ola bilər və tərəflərin məmnunluğuna səbəb olar. Digər tərəfdən sığorta xidmətlərinin daha çevik şəkildə müştərilərə təqdim olunması və bu xidmətin əlçatanlığının gücləndirilməsində rəqəmsal texnologiyalar əsaslı üstünlüklər təmin edir. Rəqəmsal yanaşmalar və praktiki alətlər sığorta xidmətlərinin keyfiyyətini dəyişməklə bərabər, həm də ənənəvi sığorta fəaliyyəti mexanizmlərinin əhəmiyyətli səviyyədə təkmilləşdirilməsinə təkan verir. Burada əsas diqqət mümkün risklərin daha optimal öyrənilməsi və proqnozlaşdırılmasına yönəldilir, onlayn sığorta polislərinin verilməsini və eyni zamanda, sığorta hadisələri zamanı disdant tənzimlənməni reallaşdırır. Rəqəmsal texnologiyalar sığorta xidmətlərinin tariflərinin tənzimlənməsində və xərclərin optimallaşdırılmasında da kifayət qədər səmərəlidir.

Sığorta fəaliyyətinin təşkilində yüksək texnologiyaların tətbiqinin genişlən-dirilməsi və rəqəmsal texnologiyalar əsasında sığorta xidmətləri paketinin formalaşdırılaraq maliyyə qiymətləri bazarına çıxarılması ümumi məsrəflərin azaldılmasının yeni mənbəyi, eyni zamanda, müasir metodoloji yanaşmalar kimi ortaya çıxır. Elektron sığorta xidmətlərinin müştərilərə təqdim edilməsi, müqavilə şərtlərinin razılaşdırılması və bağlanılması, əlavə məlumatlandırma və xəbərdarlıq tədbirlərinin həyata keçirilməsi maksimum ucuz başa gəlir və bununla da sığorta tariflərinin optimallaşdırılması mənbələri yaranır. Dünyanın texnoloji cəhətdən inkişaf etmiş ölkələrində sığorta agenti ilə sığorta olunanlar arasında təmasların, demək olar ki, minimuma endirilməsi və ya tamamilə aradan qaldırılması artıq təəccüb doğurmur və biz bu barədə əvvəldə də göstərmişdik ki, COVİD-19 pandemiyasının yaratdığı yeni şəraitdə bu kimi yanaşmalar və fəaliyyət mexanizmləri günümüzün və dövrümüzün obyektiv reallıqlarına çevrilmişdir. Sığorta sistemi və sığorta fəaliyyəti də bu sırada istisna təşkil etmir və yeni texnologiyalar sığorta edənlərlə sığorta olanlar arasında davranışları, münasibətləri yeni müstəviyə çıxarır. Məsələn Zoom, Teams kimi internet platformalarda, Whatsapp, Facebook, Instagram kimi geniş yayılmış sosial şəbəkələrdə sığorta xidmətləri haqqında onlayn rejimdə məlumatlar yerləşdirilir, tariflər göstərilir, məsləhətlər verilir, bir sözlə, sığorta biznesinin və sığorta xidmətlərinin əksər elementlərinin bu rəqəmsal texnologiyalar vasitəsilə həyata keçirilməsi təmin olunur. Ümumilikdə isə, mərkəzi sığorta strukturlarının və orqanlarının, sığorta şirkətlərinin fəaliyyətində yüksək texnologiyalardan, ilk növbədə, rəqəmsal texnologiyalardan fəal istifadə olunmasını artıq müasir metodoloji üslüb kimi qiymətləndirməsi vacibdir. McKinsey şirkətinin mütəxəssislərinin gəldiyi qənaətə görə, rəqəmsal texnologiyalar bir tərəfdən sığorta şirkətlərinin gəlirlərini azaltsa da, digər tərəfdən onların sığorta xidmətlərinə çəkdiyi xərcləri azaldır və ümumi rentabelliyinin artmasına səbəb olur. Rəqəmsal texnologiyalar, eyni zamanda, yeni innovasiyaların fəal şəkildə tətbiqində həlledici amillərdən birinə çevrilmişdir.

*Hüseynzadə Adil Hüseyn oğlu,*
*magistrant,*
*Bakı Biznes Universiteti*

# İSTEHSAL MÜƏSSİSƏLƏRİNDƏ İNVESTİSİYA QOYULUŞLARININ SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİ

Milli iqtisadiyyat çərçivəsində idarəetmə sisteminin müxtəlif səviyyələrində investisiya siyasətinin səmərəliliyi müxtəlif amillərin təsiri ilə müəyyən edilir. Dövlət investisiya siyasətinin səmərəliliyi ölkənin sosial - iqtisadi inkişafının əldə edilmiş səviyyəsi, əvvəllər qoyulmuş milli əhəmiyyətli vəzifələrin yerinə yetirilməsi və ya həlli dərəcəsi, cəlb olunmuş xarici kapitalın həcmi, əldə edilmiş sosial səmərə və s. ilə müəyyən edilə bilər.

Ayrı - ayrı bölgələrdə investisiya siyasətinin səmərəliliyi, yerli hökumətlərin bölgələrin yüksək sosial-iqtisadi inkişafına nail olmaq və əlverişli investisiya mühiti yaratmaq üçün daxili və xarici pul axınlarını necə rasional idarə etməsi ilə də müəyyən edilə bilər.

Mikro səviyyədə, başqa sözlə, ayrıca götürülmüş şirkətlər səviyyəsində investisiya siyasətinin səmərəliliyi mövcud daxili və xarici maliyyə və qeyri-maliyyə mənbələrinin nə qədər səmərəli istifadəsi və nə qədər gəlir gətirməsini əks etdirir. Bununla yanaşı, ilk növbədə, istehsal müəssisələrinin fəaliyyətini maliyyələşdirmək üçün mövcud mənbələri və investisiya istiqamətlərini təhlil etmək lazımdır.

Bu tip təhlil üçün məlumat bazası şirkətin maliyyə hesabatları, xüsusən balans hesabatıdır. Onlar müəyyən bir tarix üçün əmlak, öhdəliklər və kapital haqqında məlumat ehtiva edir. Eyni zamanda, balans aktivində təşkilatın cari və uzunmüddətli vəsaitlərinin ümumi həcmi, öhdəliklərdə isə onların maliyyələşdirmə mənbələri əks olunur.

Şirkətin öz və borc vəsaitləri ilə təminatını qiymətləndirmək və investisiya istiqamətlərini təhlil etmək ehtiyacı təşkilat daxilində investisiya siyasətinin tərifinin nəzəri formalaşdırılması nəticəsində yaranır. İnvestisiya siyasəti istənilən mənfəət və gəlir əldə etmək üçün mövcud mənbələrin səmərəli yatırılmasının əsas istiqamətlərini müəyyənləşdirir. Şirkətin cari istehsal fəaliyyətini həyata keçirmək üçün mövcud investisiya mənbələrinin mövcudluğunun təhlili onun aktivlərinin, eyni zamanda, balans öhdəliklərinin maliyyələşdirmə mənbələrinin təhlilinə gətirilir. Qeyd edək ki, ümumilikdə bütün kapital iki növə bölünür: özünün xüsusi kapitalı və borc.

Kapitalın tərkibinə nizamnamə və əlavə kapital, təsis sənədlərinə və qanunvericiliyə uyğun olaraq yaradılan ehtiyatlar, habelə bölüşdürülməmiş mənfəət daxildir. Borc maliyyələşdirmə mənbələri istehsal müəssisələrinin uzunmüddətli və qısamüddətli öhdəlikləridir.

Mövcud investisiya mənbələrinin qaytarılmasının səmərəliliyinin qiymətləndirilməsi istehsal müəssisələrinin investisiya istiqamətlərini əks etdirən aktivlərin quruluşu haqqında məlumatlar əsasında aparıla bilər. Aktivlərin strukturunun təhlili dövriyyə kapitalının nə qədər olduğunu, cari aktivlər deyilənləri və istehsal dövrünü təmin edən, habelə uzunmüddətli dövrdə gəlir əldə etməyi qiymətləndirməyə imkan verir.

İnvestisiya siyasətinin səmərəliliyinin artırılması istiqamətlərindən biri balansın

yenidən qurulması ola bilər, yəni aktiv və öhdəliklərin ayrı-ayrı maddələri arasındakı nisbətin dəyişdirilməsidir.

Bu cür tədbirlərin görülməsinə ehtiyac, əsasən, təşkilatlarda mövcud kapitalın, demək olar ki, yarısının uzunmüddətli aktivlərə yatırılması ilə əlaqədardır. Öz növbəsində, uzunmüddətli aktivlərdə ən böyük pay binalar, tikililər, nəqliyyat vasitələri və s. olan əsas fondlardır.

Xüsusi kapitalın və ehtiyatların çatışmaması borc kapitalının (uzunmüddətli və qısamüddətli öhdəliklər) artmasına səbəb olur. Bank kreditlərindən və borclardan istifadə əksər hallarda istehsal müəssisələri tərəfindən tətbiq edilmir. Bu, ilk növbədə, borc kapitalının yüksək faiz dərəcələri ilə əlaqədardır. Bundan əlavə, kommersiya bankları çox vaxt qeyri-qənaətbəxş maliyyə vəziyyəti olan istehsal müəssisələrinə kredit vermək istəmirlər ki, bu da bir çox müəssisə üçün xarakterikdir. Buna görə cari maliyyə fəaliyyətlərini qorumaq üçün əsas mənbələrdən biri qısamüddətli öhdəliklərdir. Üstəlik, onların tərkibinə daxil olan maddələrin ümumi sayından ən çox istifadə edilənlər kreditor borclarıdır. Buraya istehsal müəssisələrinin tədarük olunan xammal, yanacaq və s. üçün tədarükçülərə və podratçılara, işçilərinə əmək haqqı borcu, dövlət büdcədənkənar fondlarına, vergi və rüsumların ödənilməsi üçün vergi orqanlarına borcu və müxtəlif növ ayırmalar daxildir. Sadalanan kreditorların vəsaitləri istehsal məqsədləri üçün qarşılıqlı xərcləri ödəmək üçün istifadə olunur, lakin borclar üzrə öhdəliklər çox vaxt vaxtında yerinə yetirilmir. Bu cür əməliyyatların aparılması pul vəsaitlərinin hərəkətinin effektiv idarə edilməsinin olmamasını göstərir və ayrıca bir sahədə istehsal müəssisəsinin investisiya siyasətinin səmərəliliyini artırmaq üçün tədbirlərin hazırlanmasını tələb edir.

İstehsal müəssisələrinin investisiya siyasətinin səmərəliliyini qiymətləndirmək və ümumi inteqral göstəricini hesablamaq üçün göstəricilər arasında son nəticəyə əhəmiyyətli dərəcədə təsir göstərənləri ayırmaq olar.

Beləliklə, arzuolunanlığın nisbətən aşağı dəyərləri bunlardır:

- dövriyyə (cari) aktivlərinin payı;
- xüsusi kapitalın rentabelliyi;
- aktivlərin rentabelliyi;
- qısamüddətli öhdəliklərin dövr etməsi.

Qeyd olunan göstəricilər yaxşılaşdırılmalıdır ki, bu da, öz növbəsində, investisiya siyasətinin səmərəliliyinin ümumi inteqral göstəricisinin artmasına kömək edəcəkdir.

Yuxarıda göstərilən göstəricilərin artmasının şərtlərindən biri də istehsal olunan və reallaşdırılan elektrik enerjisi çeşidini genişləndirməklə təmin edilə bilən məhsul satışından əldə olunan gəlirin artmasıdır. Bu vəziyyətdə mövcud istehsal güclərindən daha səmərəli istifadə etmək, onların daha dolğun yüklənməsini təmin etmək lazımdır.

İnvestisiya siyasətinin təklif olunan istiqaməti fərdi göstəricilərin - ümumi inteqral göstəricinin hesablanmasına daxil olan amillərin dəyişməsinə və müvafiq olaraq onun artmasına kömək edəcəkdir. Bu da, öz növbəsində, istehsal müəssisələrinin investisiya siyasətinin səmərəliliyinin artmasına səbəb olacaqdır.

Təcrübədə əldə edilmiş nəticələrin bu cür təhlilindən əvvəl istehsal müəssisələrinin maliyyə-təsərrüfat fəaliyyətinin hərtərəfli öyrənilməsi, habelə işinin səmərəliliyini xarakterizə edən bir sıra nisbi göstəricilərin müəyyənləşdirilməsi aparılmalıdır. Üstəlik, göstəricilərin hesablanması və öyrənilməsi dinamikada, yəni bir neçə hesabat

Pul vəsaitlərinin vəziyyəti haqqında hesabat geniş informasiya əhəmiyyətinə malikdir. Belə ki, bu məlumatlardan investorlar və maliyyə menecerləri lazımınca faydalanırlar, bıznesmenlər isə əlavə aktivlərin yaradılması, borcların vaxtında ödənilməsi və yeni gəlirli kapital qoyuluşu ilə bağlı olan məsələlərin həllində faydalı olur. Müəssisələrdə pul vəsaitləri əsas fondlara yiyələnməkdə, əmtəə ehtiyatlarının formalaşması, debitor borclarının yaradılması və başqa təyinatlar üzrə istifadə edilə bilər. Pul vəsaitlərinin dövriyyəsi nəticəsində istehsal-kommersiya tsikli cərəyan edir və sonda onunla da yekunlaşır. Şirkətin bütün maliyyə fəaliyyətinin tsikli nəticəsində pul ehtiyatları müxtəlif aktivlərə, məhsulun satışı dövründə debitor borclarına çevrilir.

Təşkilati-iqtisadi mexanizmin müxtəlif aspektləri həm milli və həm də xarici iqtisadçıların əsərlərində tədqiq edilmişdir. İ.T.Balabanov müəssisənin təşkilati-iqtisadi mexanizmi dedikdə maliyyə mexanizmi – maliyyə resurslarının təşkili, planlaşdırılması, stimullaşdırılması və istifadə edilməsini ifadə edən maliyyə alətlərinin fəaliyyət sistemi başa düşür [5, s.208].

M.V. Romanovski pul axınını müəyyən vaxt kəsiyində firmanın pul vəsaitlərinin hərəkətinin nəticəsi, yəni dövr ərzində ümumi şəkildə bu pul vəsaitlərinin daxil olması və onların ödənişi arasındakı fərq kimi səciyyələndirir [3, s.528].

Dövlət sektorunda aparılan qlobal iqtisadi islahatlar maliyyə sektorunda da ciddi islahatların həyata keçirilməsini tələb edirdi. Bu isə, öz növbəsində, bazar münasibətlərinin formalaşması zamanı dövlətin iqtisadiyyata əsas təsir mexanizmi və əsas maliyyə bazası kimi istifadə etdiyi büdcə sisteminin təkmilləşdirilməsini, səmərəli və tarazlaşdırılmış büdcə siyasətinin hazırlanmasını sürətləndirdi. Maliyyə sektorunda aparılan islahatlar zamanı alternativi olmayan icra mexanizminin – büdcənin kassa icrasının xəzinədarlıq vasitəsilə həyata keçirilməsinin zəruriliyini təsdiq etmişdir.

Hal-hazırda valyuta bazarında proqnozlaşdırılan iri həcmli valyuta təzyiqi şəraitində manatın məzənnəsinə və ölkənin strateji xarici ticarət şəraitində neqativ təsirini neytrallaşdırmaq üçün valyuta bazarında aktiv sterilizasiya siyasəti həyata keçirilməlidir. Məhz buna görə qiymətli kağızlar bazarının effektliyi ondan ibarətdir ki, əhalinin əlində olan sərbəst pul kütləsi qiymətli kağızlara investisiya edilməklə inflyasiyanın qarşısı xeyli dərəcədə alına bilər. Digər tərəfdən, əsas amillərdən biri də odur

ki, ölkəyə daxil olan pul vəsaitlərinin qonşu ölkələrin qiymətli kağızlar bazarına yerləşdirilməsi həyata keçirilsin.

Təcrübə göstərir ki, hər hansı bir ölkədə yüksək işsizlik şəraitində məcmu xərclərin dəyişməsi qiymətlərin ümumi səviyyəsinə çox cüzi təsir göstərdiyi bir şəraitdə məhsul istehsalına isə əhəmiyyətli dərəcədə təsir göstərə bilər. Məşğulluğun səviyyəsi yüksək olan şəraitdə isə məcmu məsrəflərin artması qiymətlərin ümumi artımına səbəb olur. Belə halda inflyasiyanı nəzarətdə saxlamaq üçün məcmu xərcləri daimi nəzarətdə saxlamaq lazımdır. Pul axınlarının idarə edilməsi şirkətin strateji məqsədinə nail olmaq üçün pul axınlarına fasiləsiz təsir edən metodlar, alətlər və spesifik priyomların məcmusundan istifadə vasitəsilə həyata keçirilən mürəkkəb prosesdir.

Bu gün maliyyə nəzarətinin səmərəliliyini artırmaqdan ötrü araşdırma apardığımız sahədə təkcə müasir texniki avadanlıqlara yox, habelə bu sferada fəaliyyətini gerçəkləşdirən mütəxəssis kadrların xüsusi hazırlıq səviyyəsinə böyük ehtiyac hiss olunur. Bir məqamı vurğulamağa ehtiyac var ki, mövcud mülki qanunvericiliyi təkmilləşdirmədən strateji sahələr içərisində önəmli yerlərdə qərarlaşan maliyyə nəzarəti sisteminin inkişafına yiyələnmək real görünür. Beləliklə, maliyyə-vergi nəzarəti bizim fikirləşdiyimizdən də artıq səciyyə daşıyır, belə ki, biznes subyektlərinin işinin gedişatında nəzarət tədbirlərinə dürüst əməl edilməsi şirkətin effektiv, rentabelli fəaliyyətinin təminatçısı formasında özünü biruzə verir.

İstənilən vergi islahatı proqramının son məqsədi sadəcə gəlirlərdə qısamüddətli artımlara nail olmaq deyil. Bu, həmçinin də davamlı gəlir əldə etməkdir. Ədalətli şəkildə toplanan artımlar vətəndaşlar üçün faydalara çevrilir. Bu geniş şəkildə başa düşülür. Bununla belə, praktikada bu daha geniş məqsədlər islahat proqramlarının tərtibində daha az ardıcıl şəkildə əks olunur, burada həm daha yaxşı verginin niyə bu qədər önəmliliyi, həmçinin də islahatların hansı qaydada aparıla biləcəyi vurğulanır. İslahatların davamlılığı onların davamlı siyasətə əsaslanmasını tələb edir.

Mövcud durumda dövlət maliyyə nəzarətinin effektivliyinin yüksəldilməsindən ötrü yalnız bu növ fəaliyyət istiqamətinin müasir yönlü texniki təchizat yox, habelə bu məkanda çalışan mütəxəssislərin ixtisas səviyyəsinin önəmli dərəcədə yüksəldilməsi tələbi ortaya çıxır. Bir fakt əsasında mövqe nümayiş etdirmək gərəkdir. Çünki maliyyə nəzarəti funksiyalarının reallaşmasının metodoloji ana sütununun təşkilatçısı timsalında çıxış edən maliyyə, vergi və mülki qanunvericiliyi təkmilləşdirmədən dövlət maliyyə nəzarət sistemində uğurlara imza atmaq real olmayacaq.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**

1. Ван Хорн, Джеймс К., Вахович М.Л., Джон М. Основы финансового менеджмента – М.: ООО «ИД Вильямс», 2006 – 1232 с.

2. “Abbasov S.A. Maliyyə menecmentinin nəzəri və praktiki məsələləri”. «elim və təhsil » Bakı 2022,s.271

3. Финансы предприятий: Учебник/Под ред. М.В.Романовского. – Спб: «Издательский дом Бизнес – пресс», 2000. – 528 с.

5.Балабанов И.Т. Финансовый анализ и планирование хозяйствующего субьекта. Москва, финансы и статистика, 2000. – 208 с.

*Hüseynov Toğrul Arif oğlu,*
*magistrant,*
*Bakı Biznes Universiteti,*
*E-mail:togrul.huseynov @gmail.com*

# MÜƏSSİSƏLƏRDƏ VERGİTUTMA VƏ AUDİT FƏALİYYƏTİNİN TƏŞKİLİ XÜSUSİYYƏTLƏRİ

Sahibkarlıq fəaliyyətinin bir növü olan audit dövlətin və biznesmenlərin mənafeyi ilə bağlı məsələlərin effektiv həllinə imkan yaradan obyektiv, qərəzsiz və müstəqil analitik-nəzarət infrastrukturudur [2]. Ümumiyyətlə, bazar infrastrukturları içərisində auditin özünəməxsus layiqli yeri, mövqeyinin desək, yanılmarıq. Auditor yoxlamaları müəssisənin maliyyə-təsərrüfat fəaliyyətinin hüquqi normativ aktlara uyğunluğunu, mühasibat hesabatlarının və əmlakın qiymətləndirilməsinin düzgünlüyünü müəyyən etmək, çatışmamazlıqları aşkara çıxarmaq, mühasibat uçotu qurmaq, vergilərin hesablanması və bəyannamələrin hazırlanması, həmçinin sahibkarların fəaliyyətlərinin təkmilləşdirilməsinin perspektiv inkişaf istiqamətlərinə dair təklif və tövsiyələr irəli sürmək məqsədi güdür. Əlverişli makroiqtisadi tarazlığın qorunub saxlanması fonunda Azərbaycanın iqtisadiyyatı ölkənin mövcud maliyyə sisteminin stabil inkişafı hədəfilə dayanıqlı əsası təmin etməklə, qənaətbəxş qaydada dinamik inkişaf yolunan gedir. Son dövrlər kəsiyində müəssisələrin stabilliyi və inkişafı onun başlıca göstəriciləri hesab edilən kapital, cəlbi reallaşmış resurs mənbələrinin həcminin dinamikasında özünü nümayiş etdirir.

Vergi auditi DVX səlahiyyətli işçiləri  istiqamətdən vergitutma obyekti və vergi ödəyicilərinin uçotunun aparılması, onlarla bağlı tam informasiyalara yiyələnmək, uçot və hesabatlara dair sənədlərin analizi, vergitutma obyektlərinin məqamında müəyyənləşdirilərək qeydə alınması və ərazilərin yoxlanılması kanalı ilə tam şəklidə reallaşır. İdarəetmə sisteminin qurulması və qiymətləndirilməsi, vergi işçilərinin işinin yoxlanılması və nəzarət vergi auditi tərəfindən öz həllini tapır. Təşkilati-hüquqi formalarına baxmayaraq, idarə və kompaniyalarda  xüsusən, fiziki və hüquqi şəxs timsalında təsis olunmuş təsərrüfat subyekti və cəmiyyətlərdə vergilərin hesablanması və buna aid sənədlərin təftişinə icazə verilir. Yoxlama gedişatında vergi xidmətinin işçisi rezidentlərdən vergilərin dürüst hesablanması, təsərrüfat fəaliyyətinə dair sənəd, izahat, arayış və başqa informasiyaların əldə edilməsi tələbi ilə çıxış edə bilər.

Dövlət xidmətinin idarəetmə funksiyası yollarından biri olmaqla, vergi auditi vergi qanunvericiliyinə qanun çərçivəsində riayət edilməsinə ödəyicilərinin təsərrüfat – maliyyə işinin optimal duruma gətirilməsi hədəfilə bir müşahidə sistemidir. Vergi auditinin başlıca baza prinsipləri qanunçuluq, təşkilati, ödəyiciyə zərər yetirməmək prinsipi, pozuntuların qarşısını almaq və gündəlik vergi xidmətinin işlərinə nəzarət etməkdir. Uzunmüddətli gələcəkdə təsərrüfat subyeklərinin səmərəli iş gedişatı, strateji inkişaf tempinin təmini və rəqabət bacarığının  gücləndirilməsi  əhəmiyyətli tərzdə şirkətlərdə audit sistemilə müəyyənləşir.

Auditin önəmli  elementi hesab edilən  maliyyə analizi kompaniyanın  fəaliyyəti gedişatında  xüsusi məna sərgiləyir. Maliyyə analizi mühasibat hesabatları bazasında təşkilatın maliyyə durumunun qiymətləndirilməsi və proqnozlaşdırılmasının başlıca

metodu kimi qiymətləndirilir. Müəssisənin maliyyə durumunun analizi ilə yalnız sahibkarlar və müvafiq xidmət strukturları yox,  o cümlədən  də investorlar məşğul olurlar. Məsələn, bank kreditləşmə şərtini qiymətləndirmək və riskin dərəcəsini müəyyənləşdirməkdən ötrü malgöndərənlər ödənişi tələb olunan vaxtda aparmaq hədəfilə vergi müfəttişi büdcəyə vəsaitin məqamında daxil olması planı effektiv gerçəkləşdirmək  məqsədilə maliyyə təhlilindən istifadə edirlər. İqtisadi böhranın başvermə səbəb və nəticələrinin tədqiqinin müasir metodlarından biri diaqnostik təhlildir. Diaqnostik analiz - iqtisadi proseslərin ritmli gedişinin pozulmasının ilkin səbəblərinin aşkara çıxarılmasının kompleks metodudur və həmçinin təsərrüfat subyektlərinin sağlamlaşdırılması barədə dürüst  idarəetmə qərarlarının əsaslandırılması alətidir.

Vergi auditi dövlət qulluğunun idarəetmə funksiyasının üsullarından biri olmaqla ödəyicilərin təsərrüfat-maliyyə işini optimal vəziyyətə gətirmək, vergi qanunvericiliyinə qanun çərçivəsində əməl etmək məqsədi daşıyan müşahidə sistemidir. Vergi yoxlamasının əsas əsas prinsipləri qanunçuluq, mütəşəkkillik, ödəyiciyə zərər vurmamaq prinsipi, qanun pozuntularının qarşısının alınması və vergi xidmətinin gündəlik işinə nəzarətdir. Uzunmüddətli perspektivdə təsərrüfat subyektlərinin səmərəli iş tərəqqisini, strateji inkişaf tempinin təmin edilməsini və rəqabət qabiliyyətinin gücləndirilməsini şirkətlərdə audit sistemi əhəmiyyətli dərəcədə müəyyən edir.

Vergitutmadan əldə edilir gəlirin məbləği bilavasitə vergi potensialı ilə bağlıdır. Vergi yığımında əsas ümummilli məqsədlərin həlli, antiböhran layihələrin artımı və sabit məhsuldar iqtisadi inkişafa yiyələnməkdən ötrü vergi potensialının obyektiv qiymətləndirilməsi potensialı ortaya çıxır ki, bu zaman verginin vəziyyəti haqqında ekstrospektiv məlumatlara ciddi ehtiyac duyulur [1].

Vergilər təkcə fiskal deyil, həmçinin ölkə sənayesini stimullaşdırıcısı rolunu oynamalıdır. Vergiqoyma sistemi ölkənin kapital qoyuluşu mühitini müəyyən edən əsas amillərdən biridir. Azərbaycan bazarında fəaliyyət göstərən investorlar, investorlara vergi güzəştlərinin olmamasından çox vergi qanunvericiliyinin mənfi təsirindən, azalan rəqabətqabiliyyətlilikdən və beləliklə də, sənaye müəssisələrinin kapital qoyuluşu obyekti kimi investisiya cəlbediciliyinin azalmasından narahatdırlar. Xüsusilə, büdcə gəlirlərinin aparıcı mənbəyi kimi ölkənin neftdən asılılığının minimuma endirilməsi vergi nəzarəti sahəsində əsaslı dəyişikliklər tələb edir. Belə bir şəraitdə, xüsusilə pandemiya dövründə neft gəlirlərinin azaldığı bir vaxtda, dövlət büdcəsinin gəlirlərinin azalması ilə paralel olaraq, dövlət büdcəsinin digər mühüm sahələrində də vergi pozuntularının başvermə ehtimalı yüksəkdir. Sadəcə olaraq büdcə qanunvericiliyini sərtləşdirmək və ya yumşaltmaqla uçurumu aradan qaldırmaq real görünmür.

İqtisadi sferada respublikamızda uğurla gerçəkləşdirilən məqsədyönlü islahatlar dövlətin idarəetmə funksiyalarının, xüsusən də vergitutma və audit fəaliyyətinin yenidən qurulmasını zəruririyyətə çevirir. Bu baxımdan, beynəlxalq sferada vergi nəzarətinin təşkili praktikasının kompleks araşdırılması və onun ölkəmizdə tətbiqi imkanlarına aydınlıq gətirilməsi özlüyündə  böyük önəm kəsb edir.

Hal-hazırki durumda çoxistiqamətli və müasir məzmunlu iqtisadi münasibətlərin bərqərar olması prosesi adi bir hala çevrilmişdir. Artıq qətiyyətlə vurğulamaq mümkündür ki, dünya təsərrüfatı sistemi vahid tam bir orqanizmə çevrilmiş və qlobal arenanın inkişafı yekununda hər hansı ölkənin dünyadan təcrid olunmuş şəkildə özünün tərəqqisini və dayanıqlı təhlükəsizliyinə yiyələnmək iqtidarına sahibliyi şübhə doğu-

rur. Bu bəhs etdiyimiz ümdə vacib məsələlər Tand-M Global MMC-də vergitutma və audit fəaliyyətinin labüdlüyünü gündəmə gətirir.

Aydındır ki, tez-tez dəyişən, qloballaşan və daha da mürəkkəbləşən biznes mühitində kommersiya bankları audit fəaliyyətini də çevik qaydada dəyişən reallıqlara, çağırışlara, risklərə yönəltməli və uyğunlaşdırmalıdır. Hesab etmək mümkündür ki, audit ənənəvi olaraq sadəcə əməliyyatların uçotuna və hesablaşmalara yönəlməməli, onun idarəetmə funksiyaları-istiqamətləri daha da təkmilləşdirilməlidir. Belə ki, bunlardan önəmlisi audit analitikasıdır. Bank sistemində auditdə analitik fəaliyyət risklərə yönəlmiş daxili auditin reallaşmasına, bununla da biznesdə hansı tərəfin, hansı əməliyyatların daha riskli olduğunu aydınlaşdırmağa, daha keyfiyyətli təhlil aparıb səmərəli həll yolları ortaya qoymağa, nəhayət bank sisteminin inkişafını stimullaşdırmağa töhfə verəcəyini hesab edirik.

Hər bir sahədə audit nəzarətinin aparılması kompaniyanın fəaliyyətinin şaxələndirilməsi ilə əlaqədar məqamda operativ qərarlar ortaya qoymaq və böhran dövründə sabitliyi artırmaq hədəfilə resursları onlardan istifadənin müxtəlif sahələri arasında yenidən bölüşdürməyə imkan verəcək. Bu fəaliyyət növündə istifadəsi gerçəkləşən resurs mənbələrinin optimal dəyərini təyin edərkən, kompaniya planlaşdırılan məhsuldarlığı azaldan məhsulların istehsalına və satışına mənfi kənar və müəssiədaxili amillərin təsir riskinin mövcud səviyyələrinə əsaslanmalıdır.

Audit qərarların qəbulu ilə əlaqədar menecerləri dəstəkləməklə özünü korporativ idarəetmənin sütunlarından biri kimi möhkəmləndirir. Son dövrlər bazarın dinamizmi, transformasiya prosesi çox inkişaf etmişdir və xüsusən də müstəqil auditorların və mütəmadı daxili auditorların imicini korlayan qarışıqlıqdan sonra, bu aydın görünür.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**

1.Musayev A.F., Kəlbiyev Y.A., AR vergi xidməti: islahatlar və nəticələr. Bakı, «Təfəkkür», 2002. – 324 s.

2.Abbasov A.B., Abbasov S.A. Biznesin əsasları. Dərslik-Monoqrafiya, 2017, 385 s.

3. Novruzov V. Audit (2008). Dərs vəsaiti. Bakı, 604 s.

4. Булыга Р.П. (2015), Аудит бизнеса. Практика и проблемы развития: моно- М. : ЮНИТИ-ДАНА, 263 с

5.Алистратова Л.Ю. Понятие государственного администрирования в сфере налогообложения / Современное право. 2009. № 5 (1).

*Məmmədli Arif Rövşən oğlu,*
*magistrant,*
*Bakı Biznes Universiteti,*
*Email: arif.mammadli@outlook.com*

## MÜASİR ŞƏRAİTDƏ BİZNESİN MALİYYƏLƏŞDİRİLMƏSİ MƏSƏLƏLƏRİ

Respublikamızda sürətli addımlarla bazar münasibətlərinə qədəm qoyduğu yeni məqamda dövlətin, o cümlədən ölkənin iqtisadi məkanında nəzərə çarpan inkişaf

tempi vergitutma ilə ayrılmaz tərzdə sıx bağlıdır. Dayanıqlı, şaxələnmiş iqtisadiyyatı arzuolunmaz mənfi təsirlərdən qorumaqdan ötrü bir tərəfdən dövlət xərclərini ödəməyə, digər istiqamətdən isə iqtisadi fəaliyyətin alt sahələrinin işgüzar fəaliyyətini stimullaşdırmağa yönəlmiş səmərəli vergi sisteminə yiyələnmək önəmli məsələdir. Bu vəzifələr dövlət vergi idarəçiliyinin bölünmə sferasına aiddir ki, onun ümdə vəzifəsi vergi xidmətinin müasir tələblər əsasında qurulması və səmərəli işinin təmin edilməsidir. Şübhə doğurmaz faktdır ki, istənilən bir regionun iqtisadi yüksəliş yolunda əvəzolunmaz amil sayılan xidmət müəssisələrində rəqabətbacarıqlı iqtisadi durumunu formalaşmasının başlıca şərti yalnız çevik vergi xidməti, işlək təkmil vergi qanunvericiliyi, münasib olan vergi şəraitini və səmərəli vergi nəzarət mexanizminin bərqərar olması yekununda əlçatandır.

Bazar iqtisadiyyatının inkişafı təsərrüfat subyektlərindən bir tərəfdən, dəyişkən iqtisadi mühit şəraitində stabil və dayanaqlı inkişafın təmin olunmasını, digər tərəfdən isə onların istehsal etdikləri məhsulların rəqabətqabiliyyətinin artırılmasını tələb edir. Bütövlükdə cəmiyyətin və onun ayrı-ayrı təsərrüfat subyektlərinin inkişaf etdirilməsi üçün ağırlıq mərkəzi milli gəlir artımını təmin edən geniş təkrar istehsalın üzərinə düşür. Bu artımı təmin edən əsas vasitələrdən biri investisiya qoyuluşu prosesi, həmçinin investisiyaların gerçəkləşməsi üzrə praktiki fəaliyyətin məcmusu olan investisiya fəaliyyətidir. İnvestisiya fəaliyyətinin dinamik və səmərəli inkişafı ölkə iqtisadiyyatının stabil inkişafının əsas şərti hesab olunur.

Respublikanın investisiya mühiti həmin ölkədə sahibkarlıq infrastrukturunun keyfiyyəti, investisiyaların səmərəliliyi və əsaslı vəsait qoyuluşu ilə bağlı mümkün risklərin dərəcəsini müəyyənləşdirən siyasi, sosial-mədəni, maliyyə-iqtisadi və hüquqi şəraitin məcmusu ilə səciyyələnir. Əlverişli investisiya mühitini şərtləndirən və investisiya axınına səbəb olan əsas amillərə daxili bazarın yüksək potensialı, stabil vergi sistemi, yüksək mənfəət norması, istehsal resurslarının ucuzluğu, səmərəli dövlət köməyi sistemi aiddir.

Maliyyələşmə - firman kapitalının onun bütün formalarında əmələ gəlməsi, yaranması prosesidir, geniş təkrar istehsalın tələbatının pul vəsaitlərilə təmin edilməsidir (pul təminatı). Qeyd etmək lazımdır ki, “maliyyələşmə” anlayışı “investisiyalaşma” anlayışı ilə sıx əlaqədardır, ancaq eyni deyil. Əgər maliyyələşmə - pul vəsaitlərinin formalaşmasıdırsa, onda investisiyalaşma pul vəsaitlərindən istifadə deməkdir. Hər iki iqtisadi məfhum qarşılıqlı əlaqədardır, lakin birinci ikincidən öndə gedəndir.

Sahibkarlığın inkişafı üçün cəlb edilən maliyyə resurslarının növləri və həcmi, eləcə də investisiyanın seçilməsi haqqında qərarların qəbulu son dərəcə əhəmiyyətlidir. Biznesin maliyyəsi müstəqil elim-praktik istiqamət kimi maliyyə və investisiya qərarların qəbul edilməsini və bu prosesin praktikada necə getdiyini öyrənir. Kreditləşdirmə sahibkarlıq fəaliyyətinin maliyyə təminatı formalarından birini ifadə edir. Kiçik və orta sahibkarlıq subyektlərinə dəstək infrastrukturu yaradan kiçik və orta sahibkarlıq müəssisələrinə Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun olaraq dövlət və yerli büdcələrdən subsidiyalar, büdcə investisiyaları və öhdəliklərinə görə zəmanət təqdim edilməsi yolu ilə maliyyə dəstəyi göstərilə bilər.[1]

Vençur kapitalı – yüksək risklidir, yeni yaradılan və sürətlə inkişaf edən kiçik və orta sahibkarlıq subyektlərinin, eləcə də müflisləşmə ərəfəsində olan müəssisənin maliyyələşdirilməsi üçün xarici investorlar tərəfindən təqdim edilən pul vəsaitidir.

Vençur kapitalı peşəkar investorlar şirkətin menecerləri ilə birlikdə yeni və sürətlə inkişaf edən müəssisəyə investisiya kimi təqdim edirlər, həm də o, yeni yaradılan şirkətin səhmdar kapitalının mühüm mənbəyinə çevrilir.

Mikromaliyyələşdirmə kreditlərin verilməsi və depozitlərin qəbulu ilə əlaqədar kiçik maliyyə xidmətini ifadə edir, hansı ki, kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan adamlara; kənd təsərrüfatı xammalı emal edən və ticarət fəaliyyəti həyata keçirən kiçik, yaxud mikromüəəsisəyə; xidmət göstərən muzdlu işçilərə; torpaq sahəsini, nəqliyyat vasitələrini, maşın və alətlərini icarəyə verən şəxslərə və yerli əhaliyə göstərilir. [2]

Sahibkarlıq fəaliyyəti ilə məşğul olan kiçik müəssisələrə həm cari fəaliyyətini davam etdirmək, həm də istehsalı genişləndirmək və modernləşdirmək üçün maliyyə resursları tələb olunur. Kiçik müəssisələrin bank kreditləri almaq, yaxud səhmdarların vəsaitlərini cəlb etmək, fond bazarlarında səhmlərini və istiqrazlarını yerləşdirmək imkanı yoxdur. Bu onunla əlaqədardır ki, kiçik müəssisələr bank-kreditora kifayət qədər girov, yaxud zəmanət təqdim edə bilmirlər, bank kreditlərinin faiz dərəcəsi yüksəkdir, eləcə də fond bazarına çıxış və emissiya aparılması xərcləri böyükdür.

Ölkə iqtisadiyyatının inkişafına investisiyaların artırılmasını, onların düzgün strukturunu müəyyənləşdirilməsi və ya müəyyən bir iqtisadi sahəyə qoyulmasını həyata keçirmək məqsədilə dövlət müxtəlif istiqamətlərdə öz iqtisadi siyasətini gerçəkləşdirir. Bu səbəbdən istehsal ediləcək əməyə tələb ilə əlaqədar müəssisənin istehsal gücünə, dövlətin tətbiq etdiyi maliyyə, pul, qiymət və xarici ticarət siyasəti olduqca böyük təsir edir.

AR qeyri-neft sektorunda ÜDM və bu sektorda iqtisadi artım vergi yükündən asılı deyil. Əslində qeyri-neft sektorunun başlıca hissəsi özəl sahibkarlıqla bağlı olduğundan bu sektorda yaranan əlavə dəyərin həcmi vergi yükündən ciddi surətdə asılı olmalı idi. Lakin belə əlaqənin olmamasının əsas səbəbi vergi yükünün yüksək olması və illər üzrə bu yükün dəyişməsinin nəzərəçarpacaq dərəcədə olmamasıdır. Beləliklə, biznes mühitinin əlverişliliyini özündə əks nümayiş edən daha bir göstəricinin - gəlir vergisi dərəcəsinin iqtisadi artıma və adambaşına ÜDM həcminə təsirlərinin müxtəlif ölkələr, o cümlədən Azərbaycan üzrə qiymətləndirilməsi deməyə əsas verir ki, bu təsirlər ölkədən-ölkəyə dəyişir və dövlətin iqtisadi konyukturasından asılıdır. Hər bir ölkədə gəlir vergisi dərəcəsinin iqtisadi artıma pozitiv təsirlərini artırmaq üçün onun optimal həddinin tapılması zəruridir.

Hal-hazırda vergilər vətəndaşların və təşkilatların dövlətin saxlanmasına yönəldilmiş könüllü töhfələri kimi xarakterizə olunur. Vergi münasibətlərində hər bir ödəyicinin bu münasibətlərdə iştirakının müstəqilliyinin elementi qoyulur. Buna görə də verginin mahiyyətini müəyyən edən vergi münasibətləri məcburi-dağıdıcı münasibətlər kimi deyil, könüllü-müstəqil, paylanmasından irəli gələn vergi ödəyiciləri ilə hökumət arasında pul vəsaitləridir. Nəticədə dövlət büdcəsinin mədaxil hissəsinin formalaşması zamanı yaranan münasibətlər baxımından verginin mahiyyəti özünü sırf fiskal münasibətlərdə deyil, bölgü münasibətlərində göstərir.

Rəqəmsallaşma irəlilədikcə qiymət artımlarında müşahidə edilən artımın bir neçə mümkün izahı vermək olar. Bu səpkidə izahat ondan ibarətdir ki, rəqəmsallaşmış sektorlarda ən rentabelli firmaların üzləşdiyi rəqabət yerli və ya qlobal miqyasda azalmış ola bilər və girişdən ötrü əngəllər yüksələ bilər. Mənfəət, investisiya gəlirləri, kon-

sentrasiya əmsalları və kompaniyanın giriş və çıxış konturları da daxil olmaqla daha əhatəli spektrli göstəriciləri nəzərə almaq bu mümkün izahatları ayırmağa və rəqəmsal iqtisadiyyatda artan qiymət artımlarının rəqabətli narahatlıqları nə dərəcədə artırdığını qiymətləndirməyə köməklik sərgiləyə bilər. Bu tip tədbirlər ümumilikdə bazar gücünün artdığını göstərir.

Fikrimizcə, kiçik və orta biznesin dəstəklənməsi hədəfilə dövlət vergi siyasətinin təkmilləşdirilməsi üçün bir neçə istiqamət göstərmək olar:

- KOS üçün vergi dərəcələrinin azaldılması onların böyüməsini və inkişafını stimullaşdıra bilər. Bu, həm korporativ vergi, həm də müəyyən fəaliyyətlər üçün əlavə dəyər vergisi (ƏDV) dərəcələrinin azaldılmasını əhatə edə bilər;
- sadə vergi prosedurlarının tətbiqi və sahibkarlar üçün inzibati maneələrin azaldılması biznes mühitini yaxşılaşdıra və biznes fəaliyyətini daha əlçatan və cəlbedici edə bilər;
- KOS subyektləri üçün müəyyən vergilərdən azad edilmə və ya vergi ödənişlərinin təxirə salınması kimi vergi güzəştlərinin təmin edilməsi müəssisələrə inkişafın ilkin dövründə və ya investisiya layihələri reallaşdırarkən kömək edə bilər;
- Kiçik və orta biznesdə innovasiyaların təşviqinə yönəlmiş vergi tədbirlərinin tətbiqi, məsələn, tədqiqat və təkmilləşdirmə (R&D) vergi kreditləri yeni texnologiyaların inkişafına dəstək verə və müəssisələrin rəqabət qabiliyyətini artıra bilər;
- KOS-a pulsuz və ya əlçatan vergi məsləhətləri, eləcə də vergi savadlılığı üzrə təhsil proqramları onlara vergi orqanları qarşısında öhdəliklərini daha yaxşı başa düşməyə və vergi güzəştlərindən daha yaxşı istifadə etməyə kömək edəcək;
- vergi tədbirləri vasitəsilə KOM-ları dəstəkləmək üçün regional proqramlar daha kiçik və daha uzaq regionlarda iqtisadi inkişafı stimullaşdırmaq üçün mühüm ola bilər;
- KOM-larda investorlar üçün vergi güzəştləri, məsələn, vergi kreditləri və ya kapital qoyuluşları üzrə vergi dərəcələrinin azaldılması sektora daha çox investisiya cəlb etməyə kömək edə bilər;
- sosial əhəmiyyətli layihələrə aktiv investisiya yatıran və ya ekoloji və sosial aspektləri nəzərə alaraq biznes aparan bizneslər üçün vergi güzəştlərinin tətbiqi məsuliyyətli sahibkarlığın inkişafına təkan verə bilər.

Bu və digər tədbirlər kiçik və orta sahibkarlıq üçün əlverişli vergi mühitinin yaradılmasına, onların böyüməsinə, innovasiyalara və iş yerlərinin yaradılmasına kömək edə bilər.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**


1. Abbasov A.B., Abbasov S. “Kiçik və orta sahibkarlığın idarə edilməsi”. Dərslik-monoqrafiya. Bakı, 2021, s. 384

2. Ataşov B., İbrahimov E., Novruzov N. Maliyyə nəzəriyyəsi. Dərslik. Bakı-2014 il. 648 s.

3.Гитман Л.Дж., Джонк М.Д. Основы инвестирования. Перевод. с англ. ИНФРА. Моск, Дело. 1999. – 1008 с.

4.Финансы. Учебник под ред. Г.В. Поляка Моск., 2014с

*Hüseynova Kamalə Fariz qızı,*
*magistrant,*
*Bakı Biznes Universiteti,*
*E-mail:kmsyn47@gmail.com*

## BANKLARDA PASSİV ƏMƏLİYYATLARIN HƏYATA KEÇİRİLMƏSİ XÜSUSİYYƏTLƏRİ

Kommersiya banklarının əsas məqsədi banka vəsait cəlb etməkdir. Banklar passiv əməliyyatlar yolu ilə vəsait cəlb edir. Passiv əməliyyat bankların fəaliyyəti üçün ən vacib əməliyyatlardan biridir, çünki banklar borc və öz vəsaitlərindən passiv əməliyyatlar yolu ilə istifadə edərək müəssisələrə, təşkilatlara, fiziki və hüquqi şəxslərə kredit verir və gəlir gətirir. Kommersiya bankları passiv əməliyyatlar aparmaq üçün 2 mənbədən məlumat toplayır. Passiv əməliyyatlar daxildir:

- hüquqi və fiziki şəxslərin hesablarına vəsaitlərin cəlb edilməsi;
- şirkətlər, firmalar, vətəndaşlar üçün hesabların açılması;
- qiymətli kağızların dövriyyəyə buraxılması;
- istiqrazların alınması.

Kommersiya banklarının özəl (şəxsi) fondları: kommersiya banklarının xüsusi fondlarına bankın səhmdar kapitalı, ehtiyatda olan vəsaitlər və ya bəzi digər fondlar, bölüşdürülməmiş mənfəət və digər bank mənbələri daxildir. Banklar fəaliyyətə başladıqda əvvəlcə öz xüsusi fondlarından istifadə edir və bu ehtiyat fondları bank üçün vəsaitə ehtiyac olduqda onun əsas köməkçiləri olur.

Kommersiya bankına cəlb olunan vəsaitlər: kommersiya banklarına cəlb olunan vəsaitlərə fiziki və hüquqi şəxslərdən müddətli depozitlərin qəbulu, bankların hər hansı digər banklardan və ya Mərkəzi Bankdan kredit alması və qiymətli kağızların dövriyyəyə buraxılması daxildir.

Əsasən kommersiya banklarına cəlb olunan 2 növ vəsait var:

- depozitlər;
- depozitlərlə əlaqəli olmayan vəsaitlər.

Depozitlər kommersiya bankları tərəfindən müəssisələrdən, təşkilatlardan fiziki və hüquqi şəxslərdən pul vəsaitlərinin köçürülməsi və s. cazibə əmanət adlanır. Bu depozitlərlə əlaqəli əməliyyatlar depozit əməliyyatları adlanır. Müəssisələr, təşkilatlar fiziki, hüquqi şəxslərdir və s. əlavə gəlir və mənfəət əldə etmək üçün vəsaitlərini kommersiya banklarına verirlər. Bankların əmanətləri qəbul etməsi üçün mərkəzi bank lisenziyasını almalıdır. Banklar müştərilərinin vəsaitlərini qeydiyyata alındıqdan yalnız 2 il sonra depozit hesablarına qəbul edə bilər. Kommersiya banklarına verilən depozitlər banklar tərəfindən istifadə olunur, bu halda istifadə müddətindən asılı olaraq depozitlər 2 hissəyə bölünür:

A) Tələb depozitləri: tələb depozitləri qoyan müştərilər vəsaitlərini bank hesablarına qoyur və ehtiyac olduqda banklardan çıxarırlar. Tələb depozitləri müddətli depozitlərə nisbətən daha aşağı faiz dərəcələrinə malikdir, çünki müştərilər daim öz vəsaitlərini ala bilirlər, buna görə banklar kredit vermək kimi uzunmüddətli əməliyyatlarda istifadə edə bilməzlər.

B) Müddətli depozitlər: müştərilər öz vəsaitlərini bank hesablarına qoyur və

müəyyən edilmiş müddətə qədər bank hesablarında saxlayırlar. Müddətdən asılı olaraq, vəsaitlərə 1 ilə qədər depozitlər (qısamüddətli depozitlər), 1 ildən 3 ilə qədər depozitlər (orta müddətli depozitlər), 3 ildən çox müddətə depozitlər (uzunmüddətli depozitlər) deyilir. Depozitlər üzrə faizlər bank hesabındakı vəsaitlərin saxlama müddətindən asılı olaraq dəyişir. Müştərilər daha çox gəlir əldə etmək istəyirlərsə, uzunmüddətli depozitlərdən bank hesablarına köçürə bilərlər. Müddətli depozitlər tələb olunan depozitlərdən daha çox faiz gəliri gətirir, çünki banklar müddətli depozitlər üçün vəsaitin nə vaxt qaytarılacağını bilir və müştərilərinə investisiya qoya və kredit verə bilər.

Depozitlərdən kənar vəsaitlər: kommersiya banklarının depozitlərindən kənarda vəsait cəlb edərkən səhmlərin buraxılması (kommersiya bankının səhmlərinin satışı), veksellərlə əməliyyatlar, istənilən bankdan kredit almaq və s. kimi əməliyyatlardan istifadə edirlər:

Kommersiya bankları passiv əməliyyatlar apararkən bir sıra funksiyaları yerinə yetirdi. Bu xüsusiyyətlərə aşağıdakılar daxildir:

- Qoruma funksiyası.
- Nəzarət funksiyası.
- Tənzimləmə funksiyası.

Qoruyucu funksiya: kommersiya banklarının aktivlərinin əsas hissəsi borc vəsaitləri hesabına ödənilir və bu aktivlərin təxminən 88%-ni təşkil edir. Kommersiya banklarının şəxsi kapitalı bütün kapitalın 10%-ni təşkil edir. Bankların özəl kapitalının əsas məqsədi müştərilərin maraqlarını qorumaqdır. Yəni özəl kapital banklar tərəfindən bank ləğv edildikdə və müştərilərə kompensasiya ödənilməli olduqda istifadə olunur. Bankın özəl kapitalı xərclər yaratsa da, bankın işləməsi üçün ehtiyat yaratmağa imkan verir. Eyni zamanda, özəl kapital da bankın ödəmə qabiliyyətinin qorunmasına və risklərin azalmasına səbəb olur. Bankın özəl kapitalı çox vacib olsa da, dəymiş zərərin böyük hissəsi onun dövriyyə kapitalı hesabına ödənilir. Kommersiya bankının bütün ödəmə qabiliyyəti onun xüsusi kapitalı ilə təmin olunmur, ödəmə qabiliyyətinin yalnız bir hissəsi onun xüsusi kapitalı ilə təmin olunur. Bankın aktivlərinin və borclarının (öhdəliklərinin) miqdarı üst-üstə düşdükdə ödəmə qabiliyyətli bank onu aldada bilər.

Müştəri töhfələrinin qorunması bu gün ən aktual mövzulardan biri olaraq qalır. Ölkəmizdə 4 mart 2016-cı il tarixindən etibarən banklardakı depozitlər 3 il müddətinə tam sığortalanır. Yəni bu müddət ərzində əmanətlərini banklara yerləşdirmiş müştərilərin bütün əmanətləri tam sığortalanır və hər hansı bir proses baş verərsə, müştərilər əmanətlərin sığortalanması fondundan tam geri alacaqlar. 3 ildən sonra 30 000 manata qədər sığortalanacaq. Azərbaycan Respublikası Qanununun 26.1-ci maddəsinə əsasən banklarda 30 000 manatadək məbləğdə depozitlər sığortalanır və hər hansı problem yarandıqda müştərilərə kompensasiya ödənilir. Bu kompensasiyaların ödənişi əmanətlərin sığortalanması fondu tərəfindən həyata keçirilir. Hal-hazırda respublikamızda müştərilər əmanətlərini banklarda asanlıqla və təhlükəsiz şəkildə yerləşdirə bilərlər, çünki banklardakı əmanətlər effektiv şəkildə sığortalanır.

Effektivlik funksiyası: kommersiya bankları gözlənilmədən yarana biləcək halları nəzərə alaraq daim maliyyə ehtiyatı yaradır. Bu maliyyə mənbələri ilkin kapital hesabına yaradılır. Zərərləri və bir sıra digər halları kompensasiya etmək üçün banklar bundan özəl kapitalında istifadə edirlər.

Tənzimləmə funksiyası: kommersiya bankları xüsusi fondlarından istifadə edərək müştərilərin maraqlarını qoruyur və tənzimləmə funksiyasını da yerinə yetirir. Banklar daim banka cəlb olunan vəsaitləri tənzimləyir və onlardan uğurla istifadə etməyə çalışır. Yəni banklara daxil olan qısamüddətli depozitlər hesabına qısamüddətli aktiv əməliyyatlar və ya qısamüddətli investisiyalar həyata keçirir. Banklar uzunmüddətli depozitlər alırsa, bank bu vəsaitləri uzunmüddətli aktiv əməliyyatlar (uzunmüddətli kreditlər) və dövlət qiymətli kağızlarını almaq üçün istifadə edir. Beləliklə, banklar onlara daxil olan və çıxan pul axınlarını tənzimləyir və depozitləri vaxtında müştərilərinə qaytarır. Kommersiya bankları bundan banka vəsait cəlb etmək üçün səhmlər buraxarkən istifadə edir. Səhmlər 2 formada mövcuddur: adi səhmlər və imtiyazlı səhmlər şəklində. Üstünlük verilən səhmlər sadələrə nisbətən daha az risklidir və üstünlük verilən səhmlərin sayı adilərə nisbətən azdır. İmtiyazlı səhmlər daha az riskli olmasına baxmayaraq, sadə səhmlərə nisbətən daha az dividend ödəyir. İnvestorlar bankların idarə edilməsində iştirak etmək üçün imtiyazlı səhmlərdən istifadə etməkdən çəkinirlər. Digər tərəfdən banklar investorların bankların idarə edilməsində iştirak edə biləcəyi üstünlüklü səhmlərə tələb yaratmaq üçün konvertasiya edilə bilən imtiyazlı səhmlər buraxır.

**Vasitəçilik əməliyyatları:** kommersiya bankları gəlir əldə etmək üçün hüquqi və fiziki şəxslərə kredit və investisiya əməliyyatları verməklə yanaşı, vasitəçilik əməliyyatları da həyata keçirir. Bu əməliyyatlar sayəsində banklar daha çox gəlir əldə edir ki, bu da bankların pul axınlarının artmasına səbəb olur. Bank müştəriləri vasitəçilik əməliyyatlarına müraciət etməyi üstün tuturlar, çünki vasitəçilik əməliyyatları müştərilərin ehtiyaclarını digər əməliyyatlardan daha sürətli ödəməyə imkan verir.

2016-cı ildə milli valyuta depozitlərində də azalma müşahidə edildi və bunun əsas səbəblərindən biri 21 dekabr 2015-ci il tarixində baş vermiş devalvasiyadır. Bu dövrdə əhalinin əksəriyyəti vəsaitlərini depozit hesablarına yerləşdirmək əvəzinə, xarici valyutaya dəyişdirməyi üstün tutdu. 2016-cı ildə valyuta depozitlərinin həcmində 25% - ə qədər azalma müşahidə edildi.

2017 və 2018-ci illərə nəzər salsaq görərik ki, bu müddət ərzində milli valyutada depozitlərin həcminin artmasına baxmayaraq, xarici valyutada depozitlərin azalması müşahidə olunur. 2017 və 2018-ci illərə nəzər salsaq, görərik ki, bu müddət ərzində banklarda müddətli depozitlərin həcmi 2 dəfə artmışdır. Bunun əsas səbəblərindən biri də odur ki, 2017-ci ildən sonra milli valyutamız xarici valyutalara nisbətən möhkəmlənib, buna görə də milli valyutada depozitlərin həcmində artım müşahidə olunur. Milli valyutada depozitlərin artmasında əsas rol oynayan amillərdən biri də milli valyutadakı depozitlər üzrə faiz dərəcələrinin xarici valyutadakı depozitlərdən daha yüksək olmasıdır. Milli valyutada yerləşdirilən depozitlərin artmasına baxmayaraq, 2017 və 2018-ci illərdə xarici valyutada yerləşdirilən depozitlərin həcmində azalma müşahidə edildi və bunun əsas səbəbi yuxarıda qeyd edildiyi kimi, milli valyutada yerləşdirilən depozitlərin müştərilərinə daha çox faiz gəliri gətirməsidir.

Son zamanlarda müəssisələr, təşkilatlar, hüquqi və fiziki şəxslər öz vəsaitlərini kommersiya banklarına yerləşdirərkən bir çox amilləri nəzərə alırlar və bu amillər aşağıdakılardır:

- kommersiya bankının etibarlılığı və möhkəm mövcudluğu
- kommersiya bankına cəlb edilmiş vəsaitlər üzrə faiz dərəcələri;

- bankın təklif etdiyi əməliyyatlar mürəkkəb deyil;
- bankda əmanətlərin sığortalanması.

Azərbaycan Respublikasında kommersiya banklarının və bankların əməliyyatlarının inkişafına baxmayaraq, onlar istənilən səviyyəyə çatmayıb. Kommersiya bankları tərəfindən təklif olunan xidmətlər kəmiyyət və keyfiyyət baxımından beynəlxalq standartlara tam uyğun gəlmir. İnkişaf etmiş ölkələrdə kommersiya bankları 300-dən çox xidmət təklif etsə də, ölkəmizdə kommersiya bankları hazırda müştərilərinə depozitlər, nağd pul, su təchizatı və hesablaşma əməliyyatları kimi məhdud sayda xidmətlər təqdim edir.

Regionların cəlb etdiyi depozitlərə baxsaq, Bakı banklarında depozitlərin həm xarici, həm də milli valyutada yerləşdirilməsində digər regionlarla müqayisədə böyük fərq görərik. Göstəricilər milli valyutada 37,1%, xarici valyutada isə 62,9% təşkil edir. Bakıda qeydə alınan göstərici ondan ibarətdir ki, banklarda xarici valyutada depozitlər digər iqtisadi regionlara nisbətən dəfələrlə yüksəkdir və yeganə göstərici xarici valyutada depozitlərin milli valyutada olan depozitlərdən çox olmasıdır. Kommersiya bankında valyuta depozitlərinin ən yüksək vaksinasiya səviyyəsi 5,1% səviyyəsində - Qarabağ iqtisadi regionunda müşahidə olunub. Digər iqtisadi bölgələrdə kommersiya banklarındakı depozitlərdə milli valyutadakı əmanətlər xarici valyutadakı əmanətlərdən dəfələrlə çoxdur. 2015-ci ildən sonra kommersiya banklarında xarici valyuta depozitlərində artım, 2015-2017-ci illər arasında kommersiya banklarında milli valyuta depozitlərində azalma və xarici valyuta depozitlərində artım müşahidə edildi. 2017-ci ildə ölkədə milli valyutada depozitlərdə artım müşahidə edildi.

Ölkəmizdə fəaliyyət göstərən bankların əksəriyyəti müştəriyönümlü siyasət yürüdür və müştərilərin tələblərinə uyğun olaraq fəaliyyətlərini genişləndirməyə çalışır. Bu siyasətin uğurlu olması üçün kommersiya bankları müştəriləri ilə münasibətlərini yaxşılaşdırmağa çalışmalıdır. Kommersiya bankları daim müştəriləri ilə əlaqələr qurur və bu münasibətlər zamanı müştəriləri sms, e-poçt, İnternet Bankçılıq və s. kimi metodlardan istifadə edir. Bu vəziyyətdə bank müştərisi hesablarını daim izləyə və hesablarına vəsaitlərin daxil olmaları və axını barədə məlumat ala bilər. Bir neçə il əvvəl insanlar yalnız bir banka müraciət edərək bank hesablarına pul köçürə bilirdilər və bu, əslində insanlar üçün vaxt itkisi idi, amma indi insanlar poçt terminallarından, bankomatlardan və internet bankçılığından istifadə edərək istədikləri vəsaiti bir hesabdan digərinə asanlıqla köçürə bilərlər.

Kommersiya bankları öz fəaliyyətlərini təkmilləşdirərək, ilk növbədə, bankın ödəniş sisteminin etibarlı olmasını və müştərilərinə daim xidmət göstərməsini təmin etməyə çalışır. Hər il ölkə daxilində elektron ödənişlərin sayı artır və müştərilər daim etibarlı ödənişlər etməyə çalışırlar. Hal-hazırda dövlət insanların elektron ödəmələr etməyində maraqlıdır, çünki insanlar elektron ödəmələr etdikdə, dövlət də bu ödənişləri asanlıqla idarə edə və insanların vergidən yayınma hallarının qarşısını ala bilər.

Kommersiya banklarının banka xarici valyutada yerləşdirilən əmanətlər üzrə daha aşağı faiz dərəcələri verməsi son illərdə banklarda xarici valyutada yerləşdirilən əmanətlərin azalması fonunda müşahidə olunur. Bu da öz növbəsində bankların depozit ehtiyatlarının azalmasına səbəb olur. Kommersiya bankları bankda xarici valyutada yerləşdirilən əmanətlər üzrə faiz dərəcələrini artırsalar və aldıqları valyutalarla daha çox investisiya və gəlir əldə edə bilsələr, daha çox valyuta ehtiyatı əldə edə bilərlər.

*Hacıyeva Fərəh Elton qızı,*
*magistrant,*
*Bakı Biznes Universiteti,*
*Email: haciyeva.farahh@gmail.com*

# BEYNƏLXALQ VƏ YERLİ KONTEKSTDƏ AHILLARLA SOSİAL İŞİN TƏŞKİLİNİN TƏHLİLİ VƏ BU SAHƏDƏ SƏMƏRƏLİLİYİN ARTIRILMASI

Hər bir şəxs həyat yolunda yaşlılıqla rastlaşır, çünki bu insan ömrünün ayrılmaz bir parçasıdır. Ahılların çox hissəsinin üzləşdiyi tənhalıq qapanmayan bir yara olaraq günümüzə qədər gəlmişdir. "Sosial xidmət haqqında" Qanuna əsasən, ölkədə 70 yaşına çatmış vətəndaşlar ahıl hesab olunurlar.[4] Ümumi olaraq ahıllara nəzər salsaq o, şəxsi ehtiyaclarını qarşılamaqda artıq çətinlik çəkən, sosial, iqtisadi, fiziki problemləri artan şəxslərdir. Dövlət statistika Komitəsinin 2023-cü il hesabatına əsasən ahılların sayı artmış (10127.1 nəfər), [7] bu səbəblə onlara baxıma tələbatı artırmışdır. Bu da bərabərində iqtisadi yükün artımını gətirir. Yaş artdıqca orqanizmdə baş verən yavaşlamalar özü ilə birlikdə insanda həm daxili, həm də gözlə görülə biləcək şəkildə xarici geriləmələrə səbəb olmaqdadır. Yaşlılarda boyun balacalaşması, halsızlıq, tez-tez taqətdən düşmə halları müşahidə olunur. Sadalanan bioloji geriliklər isə ahıllarımızda qaçınılmaz olaraq psixoloji problemlər yaradır. Təəssüflər olsun ki, dövlətlərin apardığı sosial siyasətlər və tövsiyyə xarakterli addımlar hələ də böyük maneələrlə üzləşməkdədir. Ahılların sadəcə öz yaxınları tərəfindən axtardıqları qayğı ehtiyacı heç bir sosial işçi və sosial xidmətçi tərəfindən tam qarşılanmır. Maddi və fiziki ehtiyaclarının ödənilməsi dövlətin resursları ilə mümkün olsa da mənəvi ehtiyac olan sevgi və qayğı sadəcə ahılların sevdikləri tərəfindən ödənilə bilir. Zaman keçdikcə yaşlı insanlar gündəlik həyat və şəxsi qayğıların öhdəsindən gəlməkdə çətinliklər çəkirlər. Fəaliyyətin azalması, ictimai aktivlikdə geriləmə və yaşa bağlı ciddi xəstəliklər yaşlı insanı aktiv həyat tərzi keçirmək imkanından tamamilə məhrum edir. Bu çətin anda yaşlı insanların xüsusi qayğıya, diqqətə və dəstəyə ehtiyacı yaranır. Təbidir ki, əksər ailələrdə yaşlı qohumuna davamlı olaraq qulluq etmək imkanı yoxdur. Eləcə də, yaşlı bir insanın psixikasında yaşa bağlı dəyişikliklər varsa və ya artıq müstəqil hərəkət edə bilmirsə, bu məsələ xüsusilə kəskinləşir və bu vəziyyətdə, ailə üzvləri üçün ahıllar evində yaşlı qohumu necə yerləşdirmək məsələsi aktuallaşır.

Son illərdə Azərbaycan Respublikasının dövlət sosial siyasətinin prioritet məsələlərindən birinə çevrilən yaşlılıq məsələyə müasir elmi yanaşma tərzi tələb etməklə bərabər, bu mövzunun vaxtaşırı olaraq tədqiq edilməsi zəruriliyini yaradır. Tədqiqat edilməli olan mövzular - müasir dövrdə ahılların problemlərinin tədqiq edilməsi, sahədəki araşdırmaların müqayisəli təhlili, yaşadıqları sosial, iqtisadi, bioloji, psixoloji problemlərin nəticələri və aradan qaldırılması üsulları, bu sahədəki qanunvericilik bazasının təkmilləşdirilməsi, ahıllara sosial xidmət müəssisələrinin müqayisəli təhlili, beynəlxalq təcrübədə ahıllara sosial xidmət sistemi barədə məlumat bazasının araşdırılmasıdır. Cəmiyyətin bu problemin həllində sosial işin dəyərini və vacibliyini tanıması və sosial işçilərin öz işlərini yerinə yetirmələri üçün lazımlı resursları və dəstəyi təmin etməsi çox əhəmiyyətlidir. Sosial işçilər, sosial xidmətçilər, ailə üzvləri və icmalar arasında birgə səylə yaşlıların geridə qalmamasını təmin edən daha əhatəli və

şəfqətli bir cəmiyyət yaratmağa cəhd etməliyik.

Ahıllara sosial xidmət müalicə, reabilitasiya və qayğı formasında özünü göstərir. Müalicə dedikdə hər hansı xəstəlikdən sağalma üçün, qayğı dedikdə xəstəlik olmadan göstərilən mənəvi xidmət, reabilitasiya limitlənmiş olan funksional fəaliyyətinin araşdırılaraq müalicə edilməsi üçün olan xidmətdir.

Sosial xidmətə götürülmə üçün əsas dezadaptasiya (şəxsin (ailənin) sosial mühitə uyğunlaşma qabiliyyətinin itirilməsi), uğursuz sosial mühit və deprivasiyadır (şəxsin (ailənin) əsas həyati tələbatlarını müstəqil şəkildə ödəmək imkanlarının məhdudlaşması və (və ya) ondan məhrum olması). Sosial xidmət stastionar, yarımstasionar, evdə səyyar sosial xidmət və sosial-məsləhət yardımı formasında göstərilə bilər. Stasionar sosial xidmət dedikdə müəssisəyə yerləşdirilmə, evdə səyyar sosial xidmət dedikdə evdə baxım, yarımstasionar sosial xidmət dedikdə günün müəyyən hissəsi göstərilən sosial xidmət, sosial məsləhət yardımı dedikdə isə sosial xidmət üzrə çətin həyat şəraitində olan şəxsə məlumat verilməsi nəzərdə tutulur.

Stasionar sosial xidmətdə müəssisəyə yerləşdirilməsinə əsas olaraq onlara baxmağa borclu olan əmək qabiliyyətli qohumlarının və ya qanuni nümayəndələrinin həmin şəxslərə qulluq edə bilməyəcəkləri barədə ərizələri və ya məhkəmə tərəfindən sosial xidmətə götürülmə ilə bağlı qərarı göstərə bilərik. Sosial xidmət müəssisəsinə yerləşdirmə 30 dekabr 2011-ci ildə qəbul olunan "Sosial Xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu və 5 noyabr 2013-cü ildə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı ilə təsdiq edilmiş "Çətin həyat şəraitində olan şəxslərin (ailələrin) dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi Qaydası" ilə tənzimlənir. [3] Bu tip müəssisələrə yerləşdirildikdə ahıllara sosial işçi və sosial xidmətçi təyin olunur. Sosial işçi ahıl vətəndaşın sosial problemləri ilə maraqlana, sosial xidmətçi isə sosial məişət işlərini görə bilər. Yarımstasionar sosial xidmət dedikdə günərzi mərkəzləri nəzərdə tutulur və bu müəssisələr günün müəyyən hissəsində ahıllara sosial xidmətin göstərilməsini öz üzərinə götürür. Eyni zamanda tənha ahıllara evdə səyyar sosial xidmətin göstərilməsi də qanunvericiliklə tənzimlənir. [6] Bu zaman ona baxacaq yaxın qohumun olmaması və onun sosial xidmət müəssisəsinə yerləşdirilmək istəməməsi əsas götürülür. Tənha ahıla sosial xidmətçi təyin olunur və onun evində ahıla sosial məişət xidməti göstərir. Bu prosesi həyata keçirən şəxslər isə Dövlət Sosial Müdafiə Fondunun rayon (şəhər) şöbələrinin sosial xidmətçiləri olur. Sosial xidmətçilər həftədə ən azı iki dəfə olmaqla tənha ahıl vətəndaşların evlərini ziyarət edir, zəruri sənaye, məişət və ya ərzaq məhsullarının təmin edilməsi, dərman preparatlarının təmin olunması, yemək hazırlanması və s. işlərində köməklik göstərirlər. Sosial məsləhət yardımı sosial xidmət üzrə məsləhətlərin verilməsini nəzərdə tutur və çətin həyat şəraitində olan vətəndaş zəruri məlumatlar əldə edib, yardım və s. üçün müraciətə əlçatanlılığa nail olur.

| | **2020** | **2021** | **2022** | **2023** |
|---|---|---|---|---|
| Ahıllar, əlilliyi olan şəxslər və baxımsız uşaqlar üçün sosial xidmət müəssisələrinin sayı | 9 | 8 | 8 | 8 |
| onlardan: | | | | |
| yerlərin sayı | 1220 | 1240 | 1241 | 1230 |
| yaşayanların sayı, nəfər | 849 | 754 | 1017 | 925 |

***Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi [7]***

